1989-cu ilin mayında uşaq xəstəxanası yeni binaya köçürüldü.

1991-ci ildə rayonda 1100 nəfər tibb işçisi çalışırdı. Həmin il Qalacıq və Quxuroba KHA-ları yaradıldı. Samur qəsəbə xəstəxanasında çarpayı fondu 10 ədəd ixtisar edilərək, boşalmış çarpayılar burun-boğaz-qulaq xəstəlikləri şöbəsinə verildi.

1995-ci ildə stomatoloji xidmət ayrıca poliklinika kimi müstəqil fəaliyyətə başladı.

1997-ci ildən rayon səhiyyəsində islahatlara başlandı. Baş həkimin 6 müavini biri ilə əvəz edildi. Tibb işçilərinə büdcə-təsərrüfat hesabı ilə işləməyə şərait yaradıldı. Yasab KSX ləğv edildi, Əniğ, Düztahir və Şirvanovka KSX-ları ambulatoriyalara çevrildi.

## Райондин медицинадиз регьбервал гайи ксар

Д.Султанов, А.Исаханов, А.Къадимов, Д.Агьмедов, И.Мирзекъулиев, В.Гиляско, С.Пашаев, А.Къулиев, Р.Ордуханова, А.Алиев, А.Мирзоев, Ш.Регьимов, Э.Керимов, О.Власова, Н.Гьажимурадов, А.Азизов, П.Ибрагьимов, М.Бабаханов, А.Шихалиев, С.Багьиров, М.Керимов, В.Мегьдиханов, Н.Ширинов, И.Искендеров. Табабатдин рекьяй къазанмишай агалкьунрай Низам Гьажимурадов ва Мария Зекиева "Зегьметдин Яру Пайдах", Надир Пирсаидов "Гьуьрметдин лишан" орденриз, Паша Ибрагьимов "Зегьметда тафаватлувиляй" медалдиз, Жаваншир Алибабаев "Терекъкъи" мелдалдиз лайихлу хьана. Мария Зекиевадиз "Республикадин лайихлу педиатр", Надир Исламоваз ва Нариман Османоваз "Республикадин лайихлу духтур" гьуьрметдин тIварар гана.

## ВАКЪИАЯР

◆ 1962-йисуз КцIара кардик кутур концервийрин заводди 7 гектардин чка кьазвай. Ина пуд нубатда 210 касди кIвалахзавай. 1983-йисуз заводди 13260 тон магьсул, гьакIни 700 тон пюре ва 100 тон чехир гьасилнай.

◆ 1983-1987-йисара эцигай КцIарин цIийи концервийрин заводди 40 агъзур тондилай виниз майва кьабулзавай. Ина гьар йисуз 30 миллион банка концерв гьасилзавай, 16 агъзур тондилай гзаф майвайрин ва 8 агъзур тон помидоррин магьсулар гьасилзавай. Заводда 400 касди кIвалахзавай.

◆ 1983-йисуз КцIарин некIедин заводдин 14 кIвалахдарди 185 тон ниси, 1500 тон нек гьасил авунай.

◆ 1983-йисуз "Сумаг" тIвар ганвай халичайрин карханадин коллективди 478 $м^2$ халича, 6327 $м^2$ сумаг хранай. Ина 266 сеняткарди кIвалахзавай.

◆ 1970-1985-йисара КцIара виш гектарралди багълар, уьзуьмлухар кутунай. Къалажух, ГадацIийихуьр, ЧIакIар Хъишлах хуьрера майвайрин гьамбарханаяр, КцIар шегьерда ва Ени Гьаят хуьре концервийрин заводар, райондин вири чIехи майишатра гьайвандарвилин комплексар кардик кутунай.

◆ 1992-йисан 14-апрелдиз КцIар райондин кьил Низами Сулеймանован серенжемдалди райондин муаллимриз абур яшамиш жезвай гьукуматдин, идарайрин ва коммуналный кIвалер хсуси кIвалер хьиз пишкешнай.

## Rayon səhiyyəsinə rəhbərlik etmiş şəxslər

D.Sultanov, A.İsaxanov, A.Qədimov, D.Əhmədov, İ.Mirzəquliyev, V.Gilyasko, S.Paşayev, A.Quliyev, R.Orduxanova, A.Əliyev, A.Mirzəyev, Ş.Rəhimov, Ə.Kərimov, O.Vlasova, N.Hacımuradov, Ə.Əzizov, P.İbrahimov, M.Babaxanov, A.Şixəliyev, S.Bağırov, M.Kərimov, V.Mehdixanov, N.Şirinov, İ.İsgəndərov.

Tibb sahəsində qazandıqları nailiyyətlərə görə Nizam Hacımuradov və Mariya Zəkiyeva "Qırmızı Əmək Bayrağı" ordeni, Nadir Pirsaidov "Şərəf nişanı" ordeni, Paşa İbrahimov "Əməkdə fərqlənməyə görə" medalı, Cavanşir Əlibabayev "Tərəqqi" medalı ilə təltif olunmuşlar. Mariya Zəkiyeva "Respublikanın əməkdar pediatrı", Nadir İslamov və Nəriman Osmanov "Respublikanın əməkdar həkimi" fəxri adlarına layiq görülmüşlər.

## VAQİƏLƏR

◆ 1962-ci ildə tikilmiş Qusar konserv zavodu 7 hektar sahəni tuturdu. Burada üç növbədə 210 nəfər işləyirdi. 1983-cü ildə burada 13260 ton məhsul, o cümlədən 700 ton püre, 100 ton çaxır istehsal edilmişdir.

◆ 1983-1987-ci illərdə Qusarda istifadəyə verilmiş yeni konserv zavodu bir mövsümdə 40 min tondan artıq meyvə emal edirdi. Zavodda 30 milyon şərti banka məhsul buraxılır, 16 min tondan çox meyvə, 8 min ton pomidor emal olunurdu. Müəssisədə 400 nəfər çalışırdı.

◆ 1983-cü ildə Qusar süd zavodu 14 nəfərlik kollektivlə 185 ton qoyun pendiri, 1500 ton süd istehsal etmişdir.

◆ 1983-cü ildə "Sumag" xalça emalatxanası 478 $m^2$ xalça, 6327 $m^2$ sumag istehsal etmişdir. Müəssisədə 266 xalçaçı fəaliyyət göstərirdi.

◆ 1970-1985-ci illərdə Qusarda yüz hektarlarla palmet bağları, üzümlüklər salınmış, Qalacıq, Gədəzeyxür, Cağar Qışlaq kəndlərində iri meyvə soyuducuları, Qusar şəhərində və Yeni Həyat kəndində konserv zavodları, rayonun demək olar ki, bütün sovxozlarında iri heyvandarlıq kompleksləri tikilmişdir.

◆ 1992-ci ilin aprelin 14-də Qusar Rayon İcra Hakimiyyətinin başçısı Nizami Süleymanovun sərəncamı ilə rayonun müəllimlərinə yaşadıqları dövlət, idarə və kommunal evləri əvəzsiz olaraq şəxsi mülkiyyət kimi verilmişdir.

◆ 1992-ci ilin iyulun 1-də Qusarda Azərbaycan Milli Aerokosmik Agentliyinin "Xəzri" təcrübə zavodu fəaliyyətə başlamışdır.


*КцIар райондин регьбер кIвалахдарар. 1965.*
*Qusar rayonunun rəhbər işçiləri. 1965.*

◆ 1992-йисан 1-июлдиз КцIара Азербайжандин Милли Аерокосмический Агентстводин “Хезри” тежрибадин завод кардик кутуна.

◆ 1994-йисан 12-августдиз КцIара “Мурад-2” тIвар ганвай чкадин телевидение кардик кутуна.

◆ 1995-йисан 20-февралдиз Азербайжан Республикадин Президент Гьейдар Алиев республикадин лезги агьалийрин векилрихъ галаз гуьруьшмиш хьана.

◆ 1996-йисан 17-октябрдиз Къарабагъдин женгера гьелек хьайи кцIарвийриз КцIар шегьерда эцигнавай гуьмбет ачухарна.

◆ 1997-йисан 15-октябрдиз КцIар шегьерда хсуси медицинадин рекьяй Азербайжандин сад лагьай чубарукрикай тир “ОКИ” клиника кардик кутуна. Европадин стандартрив кьадай и хсуси клиникадихъ махсус база ва 3 корпус ава, ина 80-дав агакьна пешекарри кIвалахзава. УЗИ, лаборатория, гемодиализ, компьютердин томография, лапараскопиядин хирургия, эхокардиография, эндоскопия ва маса кабинетар тешкил авунва. Республикадин кеферпатан регионда медицинадин карханайрин арада лидер тир “ОКИ”ди Германиядин духтуррихъ галаз санал кIвалахзава. Клиника арадиз гъана адаз регьбервал гузвайди Малик Къайинбеган хва Керимов я.

◆ 2000-йисан 26-апрелдиз КцIара Мустафа Каздалан мискIин кардик кутуна. МискIиндин проект Азербайжандин сейли архитектор Угъур Миралаеванди я. Чlехи гуьмбет, кьакьан минара авай, гьа са вахтунда 750 касдивай капI ийиз жедай и дарамат Туьркиядин ватандаш Мустафа Каздалан весидалди ва адан харжидалди арадиз гъана.

◆ 2001-йисуз КцIар райондин зегьметчийри рекорддин кьадарда - 31000 тон техил гьасил авуна.

◆ 2001-йисан эхирда КцIара 3072 нумрадин автоматдин телефондин станция кардик кутуна.

◆ 2002-йисан 30-мартдиз Нежефхуьре чил авахьна, 54 кIвал чкIана.

◆ 2004-йисан 13-февралдиз КцIара Къарабагъдин дяведа чпел хирер хьанвайбур ва шегьидрин хизанар патал эцигнавай кьве гьавадин, 8 кIвалин дарамат кардик кутуна.

◆ 1994-cü ilin avqustun 12-də Qusarda “Murad-2” yerli televiziya verilişləri studiyası fəaliyyətə başlamışdır.

◆ 1995-ci ilin fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev respublikanın ləzgi ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.

◆ 1996-cı ilin oktyabrın 17-də Qarabağ döyüşlərində həlak olmuş şəhidlərin xatirəsinə Qusar şəhərində ucaldılmış abidənin açılışı olmuşdur.

◆ 1997-ci ilin oktyabrın 15-də Qusar şəhərində Azərbaycanda özəl tibb müəssisələrinin ilk qaranquşlarından sayılan “OKİ” klinikası yaradılıb. Bu gün Azərbaycanın tanınmış səhiyyə ocaqlarından sayılan “OKİ” Avropa standartlarına cavab verən nümunəvi müəssisə kimi tanınır. Onun müasir tələblərə cavab verən bazası, 3 korpusu, 80 peşəkar mütəxəssisi var. Burada ultrasəs müayinəsi, laboratoriya, homodializ, kompüter tomoqrafiyası, laparaskopik cərrahiyyə, exokardioqrafiya, endoskopiya müayinələri aparılır. Tibbi yardımın keyfiyyətinə görə regionda lider sayılan “OKİ” Almaniya həkimləri ilə sıx əməkdaşlıq edir. Klinikanı yaradıb ona rəhbərlik edən Malik Qayınbəy oğlu Kərimovdur.

◆ 2000-ci ilin aprelin 26-da Qusarda Mustafa Kazdal məscidi istifadəyə verilmişdir. Məscid Azərbaycan memarı Uğur Miralayevin layihəsi əsasında osmanlı memarlığı üslubunda inşa olunmuşdur. Böyük gümbəzi, uca minarəsi olan 750 nəfərlik məscid binasının tikintisi Türkiyə vətəndaşı Mustafa Kazdalın vəsiyyəti və şəxsi vəsaiti ilə maliyyələşdirilmişdir.

◆ 2001-ci ildə Qusar rayonunun tarixində rekord miqdarda - 31000 ton taxıl istehsal olunmuşdur.

◆ 2001-ci ilin sonunda Qusarda 3072 nömrəlik avtomat telefon stansiyası istifadəyə verilmişdir.

◆ 2002-ci ilin martın 30-da Nəcəfkənddə torpaq sürüşməsi baş vermiş, 54 yaşayış evi dağılmışdır.

◆ 2004-cü ilin fevralın 13-də Qusar şəhərində Qarabağ əlilləri və şəhid ailələri üçün tikilmiş ikimərtəbəli, 8 mənzilli yaşayış evi istifadəyə verilmişdir.

## ПРЕЗИДЕНТ ГЬЕЙДАР АЛИЕВ КЦIАРА

1998-йисан 3-октябрдиз Азербайжан Республикадин Президентвилиз кандидат Гьейдар Алирзадин хва Алиев КцIар районда хьанай. Ина райондин агьалийри ам хушдаказ кьабулнай. КцIар шегьердин кьилин майдандал Гь.Алиеван райондин агьалийрихъ галаз гуьруьш кьиле фенай, ада вичин сечкидилай виликан платформадикай малумат ганай.

Регьберди КцIариз ва адан зегьметдал рикI алай кьегьал инсанриз лайихлудаказ къимет гана лагьанай: “Азербайжандин кефер патан сергьятар КцIари тешкилзава. Куьне аслу тушир Азербайжандин кеферпатан чилерал Азербайжандин аслу туширвал хуьзва, гьакIни чи кеферпатан къуншидихъ галаз алакъаяр вилик тухуз куьмек гузва ва гьавиляй чна квез разивал къалурзава. Им КцIарин Азербайжандин уьмуьрда, Азербайжандин политический картада махсус эгьмият авай роль я. КцIарвияр кьетIен ихтибар авуниз лайихлу я. Куь тарих къагьриманвилин тарих я. Куь тарих туькIуьрунин-яратмишунрин тарих я. Ватандиз, чилиз, гьукуматдиз вафалувал къалурунин тарих я.

...КцIарвийри Азербайжандин аслу туширвал, чилерин битаввал хуьн патал лайихлудаказ къуллугъ авуна, ивияр авадарна, шегьидар гана, Азербайжандин милли къагьриманвилин кукIушриз хкаж хьана... Къанлу дереда 1918-йисуз кцIарвийри Азербайжан халкьдиз басрух гайи эрмени миллетчийрин вилик пад кьуна, абур кукIварна. Гилани кцIарвийри Азербайжандин армияда къуллугъзава, къагьриманвилин чешнеяр къалурзава ва зун чIалахъ я хьи, кцIарвийри аслу тушир Азербайжан гьамиша хуьда”.



## PREZİDENT HEYDƏR ƏLİYEV QUSARDA

1998-ci ilin oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Heydər Əlirza oğlu Əliyev Qusar rayonuna səfər etmişdir. Burada mehribanlıqla qarşılanan H.Əliyev şəhərin baş meydanında rayon əhalisinin nümayəndələri ilə görüşmüş, seçkiqabağı platforması haqqında onlara məlumat vermişdir.

Rəhbər Qusara və onun zəhmətkeş adamlarına yüksək qiymət verərək demişdir: “Azərbaycanın şimal sərhədlərini Qusar təşkil edir. Sizə minnətdarıq ki, müstəqil Azərbaycanın şimalındakı torpaqlarda Azərbaycanın müstəqilliyi keşiyində dayanmısınız və eyni zamanda bizim şimal qonşumuzla əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsində öz xidmətlərinizi göstərirsiniz. Bu, Qusarın Azərbaycan həyatında, Azərbaycan siyasi xəritəsində xüsusi əhəmiyyət kəsb edən roludur. Qusarlılar xüsusi etimada layiqdir. Sizin tarixiniz qəhrəmanlıq tarixidir. Sizin tarixiniz qurub-yaratmaq tarixidir. Vətənə, torpağa, dövlətə sədaqət göstərmək tarixidir.

...Qusarlılar Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasında xidmətlər göstərmişlər, qan tökmüşlər, şəhidlər vermişlər, Azərbaycanın milli qəhrəmanlıq zirvəsinə ucalmışlar... Qanlı dərədə 1918-ci ildə qusarlılar Azərbaycan xalqına təcavüz edən erməni millətçilərinin qarşısını alıb onları darmadağın etmişlər. İndi də qusarlılar Azərbaycan ordusunda xidmət edir, qəhrəmanlıq nümunələri göstərirlər və əminəm ki, qusarlılar müstəqil Azərbaycanın müdafiəsində həmişə dayanacaqlar”.

## ПРЕЗИДЕНТ ИЛГЬАМ АЛИЕВ КЦIАРА



2004-йисан 21-июлдиз Азербайжан Республикадин Президент Илгьам Алиев КцIариз атана чкадин агьалийрихъ галаз гуьруьшмиш хьана.

2005-йисан 28-июндиз Азербайжан Республикадин Президент Илгьам Алиева КцIара Олимпиядин Комплексдин бинеда сифте къван эцигнай.

Санлай Азербайжандин Президент Илгьам Алиев КцIар районда вадра хьана. Эхиримжи гьилера 2010-йисан 12-августдиз КцIариз атай Президентди Самур-Гьезре рехъ, Вини ЦIийихуьре Гьейдар Алиеван Фондунин куьмекдалди эцигнавай пуд мертебадин цIийи мектеб, "Самурдин" таможнядин цIийи пункт кардик кутунин мярекатра иштиракна, КцIара эцигзавай "КцIар-1" цIийи электрикдин станциядин, гьакIни "Шагь дагь" хъуьтIуьн ва гатун туризмдин комплексдин эцигунрин гьаларихъ галаз таниш хьана ва герек тир тапшуругъарни меслятар гана.

## PREZİDENT İLHAM ƏLİYEV QUSARDA

2004-cü ilin iyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qusara səfər edərək rayon zəhmətkeşləri ilə görüşmüşdür.

2005-ci ilin iyunun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qusar Olimpiya İdman Kompleksinin təməl daşını qoymuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Qusar rayonunda beş dəfə olmuşdur. Son dəfə 2010-cu ilin avqustun 12-də Qusara gələn Prezident Samur-Həzrə yolunun, Yuxarı Zeyxur kəndində Heydər Əliyev Fondunun köməyi ilə inşa olunmuş üçmərtəbəli yeni məktəb binasının, "Samur" gömrük məntəqəsinin yeni binasının istifadəyə verilməsi mərasimlərində iştirak etmiş, Qusarda tikilən "Qusar-1" yeni elektrik stansiyasının, "Şahdağ" qış və yay turizm kompleksinin inşasının vəziyyəti ilə maraqlanmış, lazımi tapşırıqlar və məsləhətlər vermişdir.





| ГАФАЛАГ | LÜGƏT |
|---|---|
| *акунар авай* | *yaraşıqlı* |
| *аскIан* | *alçaq* |
| *алай аям* | *indiki dövr* |
| *алух* | *geyim* |
| *амукьаяр* | *qalıqlar* |
| *арадиз атун* | *yaranma* |
| *бине* | *bünövrə* |
| *вегьин* | *hücum* |
| *викIегьвал* | *qoçaqlıq* |
| *гелер* | *izlər* |
| *генг* | *geniş* |
| *гишир* | *naxış* |
| *гунгар* | *su borusu* |
| *гуьгъ* | *ardı* |
| *гуьмбет* | *abidə* |
| *гъуцар* | *allahlar* |
| *дарамат* | *bina* |
| *дегь чIав* | *qədim dövr* |
| *дяве* | *dava* |
| *дуьшуьш* | *təsadüf* |
| *жагъурун* | *axtarış* |
| *женг* | *döyüş* |
| *кавал* | *kürk* |
| *капI* | *ibadət* |
| *кефер* | *şimal* |
| *кукIварун* | *darmadağın etmək* |
| *кхьинар* | *yazılar* |
| *къалабулух* | *həyəcan* |
| *къвалал* | *yanında* |
| *къенепад* | *daxili* |
| *къецепад* | *xarici* |
| *къулай* | *əlverişli* |
| *кьадар* | *say* |
| *кьакьан* | *hündür* |
| *кьасухдай* | *qəsdən* |
| *кьвати* | *qutu* |

| | |
|---|---|
| *кьветI* | *mağara* |
| *кьегьал* | *igid* |
| *кьериз-цIаруз* | *nadir hallarda* |
| *кьетIен* | *mühüm* |
| *кьибле* | *cənub* |
| *кьилиз акъудун* | *başa çatdırmaq* |
| *кьулухъ пад* | *arxa tərəf* |
| *кьурагьвал* | *quraqlıq* |
| *кьушун* | *qoşun* |
| *кIалуб* | *qəlib* |
| *кIараб* | *sümük* |
| *кIватIал* | *birlik* |
| *кIватIун* | *toplamaq* |
| *кIвенкIве* | *əvvəl* |
| *кIеве гьатун* | *bərkə düşmək* |
| *кIеле* | *qala* |
| *кIеретI* | *dəstə* |
| *кIумп* | *möhür* |
| *кIунтI* | *kurqan* |
| *тIалабун* | *diləmək* |
| *тIебиатдин басрух* | *təbii fəlakət* |
| *пацук акатун* | *əsarət altına düşmək* |
| *пел* | *təpə* |
| *уфтан* | *qalib* |
| *фур* | *quyu* |
| *ракьун девир* | *dəmir dövrü* |
| *рагъэкъечIдай* | *şərq* |
| *рагъакIидай* | *qərb* |
| *ругун* | *vəl* |
| *регъвер* | *dəyirman* |
| *руьхъ* | *kül* |
| *сал* | *dar* |
| *санал* | *birlikdə* |
| *са береда* | *bir zamanlar* |
| *сердер* | *sərkərdə* |
| *сихил* | *nəsil* |
| *сурар* | *qəbiristanlıq* |
| *тIвар* | *ad* |

| | |
|---|---|
| *лабар* | *lövbər* |
| *легьзе* | *an* |
| *лукI* | *əsir* |
| *мискIин* | *məscid* |
| *миях* | *atlı* |
| *мублагь* | *münbit* |
| *муъмин* | *mömün* |
| *муьтIуьгъ* | *tabe* |
| *харапIаяр* | *xarabalıqlar* |
| *хуьр* | *kənd* |
| *хьел* | *ox* |
| *хъенчIин къаб* | *saxsı qab* |
| *хъпехъан* | *çoban* |
| *цам* | *qolbaq* |
| *цурцун девир* | *bürünc dövrü* |
| *цIарцIе тван* | *mühasirəyə almaq* |
| *цIивин* | *kömür* |
| *цIиргъ* | *silsilə* |
| *чапла* | *sol* |
| *чапхунчи* | *işğalçı* |
| *чархачи* | *carçı* |
| *чка* | *yer* |
| *чукурун* | *qovmaq* |
| *чукIурун* | *dağıtmaq* |
| *чил* | *torpaq* |
| *чиливди сад авун* | *yerlə yeksan etmək* |
| *чи эрадал къведалди* | *eramızdan əvvəl* |
| *чешме* | *mənbə* |
| *чхра* | *cəhrə* |
| *чIав* | *vaxt* |
| *шегьре рехъ* | *şosse yol* |
| *эрчIи* | *sağ* |
| *эцигунар* | *tikililər* |
| *юкьван виш йисар* | *orta əsrlər* |
| *ракь* | *silah* |
| *ях* | *piyada* |

# II

# ТӀЕБИАТ



# TƏBİƏT

***Гьи касди халкьнатӀа яраб тӀебиат,***
***Вуж я ам, бахшайди ихьтин мужидат?***

*Низами Генжеви*

***Görən kim yaratmış bu təbiəti,***
***O kimdir, işinin nədir hikməti?***

*Nizami Gəncəvi*

Азербайжан Республикадин кефер-рагъэкъечӀдай пата экӀя хьанвай КцӀар райондин чилерин майдан 1542 км² я. Им санлай республикадин вири чилерин 1,8% лагьай чӀал я. Райондин сергьятрин яргъивал 300 км-див агакьзава. 240 км кьуру сергьятар, 60 км цин сергьятар (Самур вацӀ) я.

Район кефер пата ЧӀехи Къафкъаз дагъларихъ галаз, Самур вацӀун къерехар тирвал Дагъустан Республикадин Ахцегь ва Мегьарамдхуьр районрихъ галаз, кьибле-рагъакӀидай пата Къебеле, кьибле пата Къуба ва рагъэкъечӀдай пата Хачмаз районрихъ галаз къунши я. Райондин эхиримжи нукьтӀаяр кефер пата СтӀуруба, кьибле пата ТӀурфан дагъ, рагъэкъечӀдай пата Кузун хъишлах, рагъакӀидай пата Базардуьзуьдин кукӀуш я.

Райондин чилер гьуьлуьвай 45 метрдилай 4466 метр кьван кьакьанда ава. Чилерин вадакай кьуд пай дагълар я. КцӀарин дагъларин кьакьанвал агъадихъ галайвал къалуриз жеда:

| | |
|---|---|
| Базардуьзуь | 4466 м |
| Шагь дагъ | 4243 м |
| ТӀурфан дагъ | 4191 м |
| Базарюрт | 4126 м |
| Яру дагъ | 4116 м |
| Гирве | 3963 м |
| Нисен дагъ | 3660 м |

Azərbaycanın şimal qapısı sayılan, 1542 km² sahəsi olan Qusar rayonu respublikamızın şimal-şərqində yerləşir. 240 km quru və 60 km su sərhədinə malik rayon Samur çayı boyunca Dağıstan Respublikasının Axtı və Məhərrəmkənd rayonları ilə, cənub-qərbdən Qəbələ, cənubdan Quba, şərqdən Xaçmaz rayonları ilə həmsərhəddir.

Onun cənub-qərbində Baş Qafqaz silsiləsinin şimal-şərq yamacı və Yan silsilə, mərkəzi hissəsində Qusar maili düzənliyi, şimal-şərqində Samur-Dəvəçi ovalığı uzanır. Rayonun cənub-qərb sərhədi Baş Qafqaz silsiləsinin suayrıcından keçir. Rayonun ən ucqar nöqtələri şimalda Suduroba, cənubda Tufan dağı, şərqdə Kuzun qışlaq, qərbdə Bazardüzü zirvəsi sayılır.

Qusar rayonu dəniz səviyyəsindən 45 metrdən 4466 metrə qədər yüksəkdə yerləşir. Ərazisinin beşdə dörd hissəsini dağlar təşkil edir. Rayonun dağ zirvələrinin hündürlüyü aşağıdakı kimidir:

| | |
|---|---|
| Bazardüzü | 4466 m |
| Şahdağ | 4243 m |
| Tufandağ | 4191 m |
| Bazaryurd | 4126 m |
| Yarudağ | 4116 m |
| Girve | 3963 m |
| Nisendağ | 3660 m |



Нисен дагъ Nisendağ



Шагь дагьдин массив Şahdağ massivi

Азербайжандихъ дегь чIаварилай муркIади кьунвай 7 чка ава. Абурукай 4 КцIар райондин Базардуьзуь, Шагь дагъ, ТIурфан ва Базарюрт хьтин кукIушра экIя хьанва. Санлай абуру 2,7 км$^2$ кьван чка кьазва. "МуркIар" тIвар ганвай чкадин майдан 1,2 км$^2$ я. "ЧIехисар" лугьудай чкадин гьяркьуьвал 200, яргъивал 1100 метр я.

Са бязи алимри малумат гузвайвал, тахминан 100-110 миллион йиис инлай вилик ЧIехи Къафкъаздин дагълар алай чка Каспи гьуьлуьн дерин кIан тир. Тектоникадин дегишвилерин нетижада гьуьлуьн кIан хкаж хьанай ва гилан Къафкъаз дагъларин цIиргъ арадиз атанай. А чIавуз чилерин са пай цин кIаник кумукьнай.

Шагь дагъда, ТIигьиржал вацIун ва КцIар вацIун ятахра кижин къванерин ва доломитдин лап къадим девирриз талукь амукьаяр ава. Шагь дагъдин патарив, Самур вацIун дереда ва Ширвановкада кижин амукьаяр генани гегьенщдиз экIя хьанва. Райондин чилерал гьакIни къумадин, чепедин, гъепIгъепIрин амукьаяр дуьшуьш жезва.

## ГЕОГРАФИЯДИН ЧКАЯР

Район географиядин жигьетдай 3 чкадал пай жезва: аран, дуьзенлух ва дагълух чкаяр.

***Арандик*** райондин кефер-рагъэкъечIдай патан чилер акатзава. И чилерин гзаф чкайриз кцIарвийри "паласа", "тала", "хъишлах" хьтин тIварар ганва. Аран кьиляй-кьилди цан цазвай чилерикай ибарат я.

***Дуьзенлухди*** райондин юкьни-юкь кьунва. Ина багълар кутуна, никIер, салар цазва.

***Дагълух чка*** райондин кьибле-рагъакIидай

Respublikamızda mövcud olan müasir buzlaq sahələrindən Bazardüzü, Tufandağ, Şahdağ və Bazaryurd Qusar rayonu ərazisindədir.

Bazardüzünün konusvari zirvəsi "Çexisar", "Murkar" buzlaqları ilə və başqa buzlaqlarla örtülmüşdür. Buradakı dağlar nisbətən cavandır. Onlar Alp, Karpat, Pamir və başqa dağlarla eyni vaxtda - təxminən 100-110 milyon il bundan əvvəl yaranmağa başlamışdır. Baş Qafqazın və Yan silsilə dağlarının yerləşdiyi ərazi qədim Kaspi dənizinin dərin yeri olmuşdur. Tektonik dəyişikliklər nəticəsində dənizin dibi qalxaraq, quru sahəsini - indiki Baş Qafqaz silsiləsini yaratmışdır. Rayonun ərazisində qədim dövr çöküntüləri geniş yayılmışdır. Burada gil yatağı vardır. Ən qədim dövr çöküntüləri Tahircal çayının yuxarı axarında, Şahdağ massivində üzə çıxıb. Əhəngdaşından, dolomitdən və s. ibarət süxurların yaşı 145 milyon ilə çatır. Şahdağ zonasında, Samur çayı dərəsində və Şirvanovka kəndi ərazisində təbaşir çöküntüləri geniş yayılmışdır. Rayonun müxtəlif yerlərində qum, gil və başqa süxurlara rast gəlinir.

## COĞRAFİ ƏRAZİLƏR

Rayon ərazisi 3 təbii coğrafi əraziyə bölünür: ovalıq, maili düzənlik və dağlıq sahə.

***Ovalıq sahə*** ərazinin şimal-şərq hissəsini əhatə edir. Bu sahəni yerli əhali qışlaq, palasa və ya tala adlandırır. Çəmən-meşə torpağı, qismən qəhvəyi torpaq bura üçün səciyyəvidir. Sahə başdan-başa şumlanır.

***Maili düzənlik*** rayon ərazisinin mərkəzi hissəsini təşkil edir. Torpaq örtüyü qonur dağ-meşə, qəhvəyi

патан чилер я. И чилерик ЧӀехи Къафкъаздин цӀиргъ акатзава. Дагълух тундрадин гьава хас тир ина хъуьтӀуьн къаяр ва гарар жеда.

КцӀарин чилерин залзалайрихъ майилвал ава. Ина 7 ва 8 баллдин зонаярни дуьшуьш жезва. РагъэкъечӀдай пата гьар йисуз чил 2,5-3,5 мм кьван ацукьзава. Е.И.Брюса 1953-йисуз гайи малуматда КцӀара эхиримжи 100 йисуз чпин гуж 5 баллдилай артух тушир 8 залзала хьайиди къейд авунва. 1966-йисан залзала 6 балдинди тир ва ам дагъдин зонада са кьадар чилер авахьуниз ва ацукьуниз себеб хьанай.

Райондин чилерал кьиле физвай тектоникадин процессри ина сад садав кьазвачир гьалар арадиз гъанва: дагълух чкаяр хкаж хьанва (1700-1800 м), гьуьлуьз мукьва чилер ацукьнава. КцӀара чил авахьун ва ацукьун адетдин гьал я. Ихьтин гьалар Шагь дагъдин, Къизилкъаядин ва ТӀигьиржал вацӀун патарив гвай чилерал фад-фад дуьшуьш жеда.

## ГЬАВА

Райондин дагълари кефер патай къвезвай къайи гарарин вилик пад кьазва, абуруз республикадин атмосферадиз гьахьиз манийвал гузва. КцӀара гатфар, гад, зул ва кьуьд ашкарадиз чир жезва. Имни район Каспи гьуьлуьз мукьва хьунин ва дагълари ам элкъуьрна цӀарцӀе тунин нетижа я.

Чи республикада дуьшуьш жезвай гьавадин гьаларин 9 жуьредикай 4 КцӀариз хас я. Инин кьуьд къайиди, гатфар чӀимелди, гад чимиди (сифте йикъар марфар аваз), зул марфар галайди ятӀани санлай гьаваяр милайимди я. Гьавадин минимум температур -45$^0$С (4000 метрдилай кьакьан чкайра), максимум температур +37$^0$С я. Ина рагъ алай чими йикъарин кьадар 79-91-дав агакьзава. Къайи гьавади ноябрдин эхиррилай февралдин эхирралди давамзава.

Дагълух чкайра къаяр гагь-гагь сентябрдин эхиррилай башламишда ва 250 югъуз давам жеда. Живер февралдиз цӀраз башламишда. Дагъдин патарив гвай хуьрера кьуьд гзаф чӀавуз жив кьун тавуна, чимиз алатда. И вахтунда дуьзенлухда гьаваяр къайи ва жив галачирди жеда.

Гатфариз ва зулуз дагълух чкайра цифер ва чӀимелвилер гзаф жеда. Марфар виридалайни гзаф дагълух чкайра (июндиз 80-100 мм) ва дуьзенлухда (октябрдиз 34-40 мм) жеда. Дуьзенлухда жив сифте яз ноябрдин вацра ва эхиримжи гьилера мартдин сад лагьай паюна къвада.

dağ-meşə tiplərindən ibarətdir. Burada əsas yeri bağçılıq, taxılçılıq və tərəvəzçilik tutur.

***Dağlıq sahə*** cənub-qərbdə yerləşən Yan və Baş Qafqaz silsilələrini əhatə edir. Buranın yüksək dağlıq ərazisi üçün dağ tundra iqlimi xasdır. Qışı sərt və küləkli keçir. Torpaq örtüyü çox zəif inkişaf edib.

Qusar ərazisi yüksək seysmikliyi ilə seçilir. Burada 7 və 8 ballıq seysmik zonalar vardır. E.İ.Bryusun 1953-cü ildə verdiyi məlumata görə, son 100 ildə Qusarda gücü 5 baldan artıq olmayan 8 yeraltı təkan qeydə alınmışdır. 1966-cı ilin aprelin 20-də baş vermiş zəlzələnin gücü isə 6 bal olmuşdur. Həmin zəlzələ dağlıq zonada sürüşmə və uçqunlar yaratmışdır.

İntensiv tektonik hadisələr rayonun ərazisində təzadlı proseslər yaratmış, dağlıq sahə qalxmaya (1700-1800 m), dənizə yaxın sahə isə çökməyə məruz qalmışdır. Şahdağ və Qızılqaya yastanlarının şimal yamaclarında sürüşmə-uçqunlar geniş yayılmışdır.

## İQLİM

Rayon şimal yarımkürəsinin mülayim isti qurşağında yerləşir. Dağlar şimaldan gələn soyuq hava kütlələrinin qarşısını kəsərək, onların respublikanın ərazisinə maneəsiz daxil olmasına imkan vermir. Buranın qışı nisbətən soyuq, yazı yağışlı, yayı isti (rübün əvvəli yağışlı), payızı yağışlı, lakin nisbətən ılıq keçir. Bu cür iqlim müxtəlifliyi ərazinin Xəzər dənizinə yaxınlığı və dağlarla əhatə olunması ilə izah edilir.

Respublikamızda mövcud olan 9 iqlim tipindən 4-ü - yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqlimi, yağıntıları təxminən bərabər paylayan mülayim-isti iqlim, dağlıq tundra iqlimi bura üçün xarakterikdir. Qusar rayonunda havanın mütləq minimum temperaturu -45$^0$C (4000 metrdən yüksək sahələrdə), mütləq maksimum temperaturu isə +37$^0$C təşkil edir. Ərazidə günəşli günlərin sayı 79-91-dir. Mənfi temperatur noyabrın sonlarından fevralın sonlarına kimi davam edir.

Dağlıq yerlərdə şaxtalar bəzən sentyabrın sonlarında düşür və 250 gündən artıq davam edir. Qar örtüyü fevralda əriməyə başlayır. Bəzi dağətəyi kəndlərdə qış çox vaxt günəşli və qarsız keçir. Yazda və payızda dağlıq yerlərdə buludlu hava və çiskin müşahidə olunur.

Maksimum yağıntı dağlıq sahələrdə iyunda (80-100 mm), düzənliklərdə isə oktyabrda (34-40 mm) qeydə alınır. Birinci qar adətən düzənlik sahələrdə noyabrda, sonuncu qar isə martın birinci yarısında yağır.



*Дагълар цифери кьурла* *Dağları duman alanda*



*Zulun tam* *Payız meşəsi*

## ГЕОМОРФОЛОГИЯ

КцIара геоморфологиядин са шумуд район ава:

***Кьакьан дагълух район***

Инихъ ЧIехи Къафкъаздин вичин кьакьанвал 2800-4460 метр тир пад акатзава. Адаз кьвалар, къванер авахьнавай чкаяр ва дереяр хас я. Базардуьзуь, Базарюрт ва ТIурфан дагълара гилан девиррин муркIар дуьшуьш жезва.

***Шагь дагъдин район***

Гьуьлуьвай 4243 метр кьван кьакьан тир и районда 2,7 км чилерал 7 муркIадин чкаяр экIя хьанва. 3600 метрдин кьакьанвиле Уст Сармат девирдиз талукь гьуьлуьн амукьаяр гьалтзава. Инаг карст дагьарралдинни сейли я.

***Къизилкъаядин район***

Гьуьлуьвай 3438 метр кьван хкаж хьанвай и районда чил ацукьун ва авахьун адетдин кар я. Бязи чкайра чиргъерин кIунтIар дуьшуьш жезва.

***СтIуррин район***

Кьакьанвал 2990-3100 метр я, КIур ва СтIур вацIарин арада экIя хьанва. Адахъ гуьтIуь, уьцIуьзвай дереяр, киж галай накьвар, кижин каньонар гзаф ава. Ихьтин каньонар ТIигьиржалрин дереда генани пара дуьшуьш жезва.

***Лацарин район***

Иник акатзавай ЧIехи Сувал дагъдин кьакьанвал 1900 метрдилай виниз я. Самур ва КцIар вацIарин арада гегьенш чилер кьазвай и район вични 2 чкадиз пай жезва. ЧIехи Сувалдиз къубуяр ва дагълар уьцIена хьайи кьвалар, ГъвечIи Сувалдиз вацIун кIамар ва дереяр хас я.

***Самур район***

Инин гьуьлуьвай кьакьанвал 45-300 метр кьван я. Адан гзаф чилер алунитдин амукьайрикай арадиз атанва. Дерейрикай, дагълара уьцIена хьайи кьваларикай, къубуйрикай ва вацIун ятахрикай ибарат я.

## GEOMORFOLOGİYA

Qusarda aşağıdakı geomorfoloji rayonlar var:

***Yüksək dağlıq rayonu***

Buraya Baş Qafqazın hündürlüyü 2800-4466 m arasında olan suayrıcı zolağı daxildir. Qayalıqlar, səpintilər və dərələr geniş yayılmışdır. Bazardüzü, Bazaryurd və Tufan dağlarında müasir buzlaqlar vardır.

***Şahdağ rayonu***

Şahdağ yastanını əhatə edən bu sahənin yüksəkliyi 4243 metrə çatır. Burada 2,7 km$^2$ sahəni tutan 7 buzlaq var. Buradakı karlar, sirklər və teknəvari dərələr qədim buzlaqların izləridir. 3600 metr hündürlükdə Ust Sarmat dövrünün dəniz çöküntülərinə rast gəlinir. Məşhur karst mağaraları burada yerləşir.

***Qızılqaya rayonu***

Mütləq yüksəkliyi 3438 metrə çatan bu sahə Qızılqaya yastanını əhatə edir. Yamaclarda uçqunlar, sürüşmə, bəzi sahələrdə isə çınqıllıqlar müşahidə olunur.

***Sudur rayonu***

Hündürlüyü 2990-3100 metr olub, Ukur və Sudur çayları arasında yerləşir. Əhəngdaşları ilə örtülmüş qarışıq tirələrlə səciyyələnir. Əhəngdaşından yaranmış Tahircal dərəsi də bu rayona daxildir. Burada dar və uçurum dərələr çoxdur.

***Ləzə rayonu***

Buraya daxil olan Suval rayonu Böyük Suval dağı sahəsində yerləşib, maksimal yüksəkliyi 1900 m-dən artıqdır. Samur və Qusarçay arasında geniş ərazini əhatə edir. Ərazi iki rayona bölünür. Böyük Suvala qobu və yarğanlar, Kiçik Suvala çay dərələri və yamaclar xasdır.

***Samur rayonu***

Burada relyefin hündürlüyü 45-300 metr arasındadır. Onun əsas hissəsi alunit çöküntülərindən əmələ gəlmişdir. Dərə, yarğan, qobu və çay yatağından ibarətdir.

## НАКЬВАР

Дуьзенлухриз шуьтруь ва мичIи-шуьтруь рангарин накьвар хас я. Ина явшан ва техилар хъсандиз арадиз къведа.

Тамарин патарив гвай чилер цIару шабалтдин накьварикай ибарат я. И чилерикай яд гузвай набататар цун патал менфят къачуда.

Дагъларин кефер-рагъэкъечIдай патан кьурагь чилериз шуьтруь накьвар хас я.

Алп ва субалп зонайрилай агъа пад, дагъларин ценер дагъдин-тамун шуьтруь накьвари кьунва.

1800-3000 м кьван кьакьанра дагъдин-векьин чкайрин накьвар арадиз атанва. Ихьтин накьвадик торф ва чиргъни гала.

Дагъдин тундрадин чилер гьуьлуьвай 3000 метр кьван хкаж хьанвай чкайра ва гьадалайни кьакьанра экIя хьанва. Ина накьв гъвечIи лекеяр хьиз кьецIил къванеринни кьваларин винел жеда.

## ФЛОРА

Райондин чилерин 70% тамари ва кIапIалри кьунва. Тамара мегъуьн, пипин ва гийин тарар генани гзаф гьалтзава. Дагъдин тамар рагъэкъечIдай патан мегъуьн тараралди ва гьакIни верхьин, чIуру чуьхвердин, цIирицIдин тараралди тафаватлу я. Дагъларин синер сихдиз акъатнавай векьералди чешнелу жезва. Иникай гьам векьер ядай чкаяр, гьамни уьруьшар хьиз менфят къачузва. Са акьван кьакьан тушир векьин чкаяр чIехи ва генг яйлахар я. Республикада и яйлахрин тай авач.

ВацIун къерехра авай тамара къавахдин, къарагъаждин, гийин тарар генани пара ава. Ина шумудни са жуьредин майваяр ава: мертер, чумалар, вацIун кIирияр, тамун ципицIар, чIуру ичер, чуьхверар, кицикар, чухлумпIар, хутар, жикIияр, инияр, мереяр. Дагълара, иллаки Шагь дагъда агъзур жуьредин цуьквер акъатзава.

## TORPAQ ÖRTÜYÜ

Ərazi əsasən çimli dağ-çəmən, qonur dağ-meşə, tipik və karbonatlı dağ-meşə və qəhvəyi torpaqlardan ibarətdir. Dağlıq sahədə əsasən alp və subalp çəmənləridir. Bunlardan yay otlaqları kimi istifadə olunur. Düzənliklərdə qonur və boz-qonur torpaqlar yayılmışdır. Burada yovşan və sünbüllü bitkilər yaxşı inkişaf edir.

Meşə ətəklərində torpaqlar boz şabalıdıdır. Suvarılan mədəni bitkilərin əkini üçün istifadə olunur. Dağ-meşə qurşağından yuxarıda, 1800-3000 m hündürlükdə dağ-çəmən torpaqları yayılıb. Onların tərkibi çimli və torfludur.

Dağ-çəmən sahəsi alp və subalp yarımqurşaqlarına bölünür. Dağ tundra sahəsi dəniz səviyyəsindən 3000 m və daha yüksəkdə yerləşir. Burada torpaq çılpaq süxurların yarıqlarında və onların səthində kiçik ləkələr şəklindədir.

## BİTKİ ALƏMİ

Rayon ərazisinin 70%-ni meşələr və kolluqlar təşkil edir. Qusar maili düzənliyində enliyarpaqlı meşələr (palıd, fısdıq və vələs), çəmənlər və kolluqlar geniş sahələr tutur. Kuzun və Ləzə ərazisində nadir kol şamı (qarmaqvari şam) bitir. 35-70 milyon il əvvəl dünyada geniş yayılmış, buzlaşma dövründə məhv olmuş bu relikt ağac məhz Qusar rayonundadır.

Dağ meşələrində şərq palıdına, tozağacına, ağcaqayına, quşarmuduna, ayı fındığına, ardıca rast gəlinir. Subalp çəmənlikləri hündür boylu sıx bitkilərlə zəngindir. Onlardan biçənək kimi istifadə olunur. Alp çəmənlikləri respublikamızın ən geniş yaylaqlarıdır. Çay sahilləri boyu uzanan tuqay meşələrində qovaq, qarağac, zirinc, zoğal, çaytikanı, yemişan, meşə üzümü, şərq alması, meşə armudu, əzgil, alça, itburnu, böyürtkən və s. bitir. Dağlar, ələlxüsus Şahdağ çiçəklərlə zəngindir.



*Шагь дагъдин цуьквер*

*Şahdağın çiçəkləri*

## ФАУНА

Райондихъ гзаф девлетлу фауна авайди ина дегь чIаварилай гъуьрчехъанвал вилик фини субутзава. Адан чилерал гзаф дуьшуьш жезвай гьайванрик дагъдин цIегь, жанавур, сикI, чуьлдин вак, къуьр, тамун кац, цуцIул акатзава. Инра гъуьлягъ, кашу, кьиф, чуьлдин гуьрзе дуьшуьш жезва.

Кьакьан дагъдин векьин чкайра ва кьуталра къушарикай лекь, свал, улар, Къафкъаздин тетра, дагъдин тамара лекь, тамун билбил, кIекIе, нуькI, чIулав нуькI гьалтзава.

Дагъдин ценера авай кIапIалра гьайванрикай къуьрери, вакIари, машахри, гьакIни кIекIе, лиф, кIвалин нуькI, керекул, хъипи нуькI хьтин къушари бине кутунва.

Дуьзенлухра чIулав нуькI, къвед, лиф, кьвал алай къиб, кашу, гъуьлягъ, чуьлдин кьиф гьалтда.

## HEYVANAT ALƏMİ

Rayon ərazisində ən çox rast gəlinən heyvanlar Dağıstan turu, köpgər, ayı, canavar, vaşaq, meşə pişiyi, daşlıq və meşə dələsi, quşlardan ular, tetra quşu, göyərçindir. Yüksək dağ çəmənlərində və qayalıqlarda keçəl kərkəz, Qafqaz uları, Qafqaz tetrası, qaya kərtənkələsi və qonur ilan məskunlaşır.

Dağ meşələrində heyvanlardan qonur ayı, meşə pişiyi, canavar, meşə dələsi, meşə siçanı, quşlardan qartal, meşə bülbülü, ağacdələn, uzunquyruq arıquşu, qaratoyuq, tetra quşu, sərçə yaşayır. Dağətəyi kolluqlarda tur, qaban, dovşan, vaşaq, vəhşi pişik, kərtənkələ, çöl gürzəsi, sağsağan, sarıköynək, ağacdələn, göyərçin, sərçə geniş yayılmışdır.

Düzənliklərdə quşlardan sığırçın, boz kəklik, göyərçin, sürünənlərdən tısbağa, kərtənkələ, ilan, çöl siçanı məskən salmışdır.



*КцIар вацI* *Qusarçay*



*СтIур вацI* *Sudur çayı*

## ВАЦIАР

КцIара чи республикадин чIехи шегьерар хъвадай целди таъминарзавай булахар гзаф ава. Дагълух чкайра хъвадай, вацIарин патарив грунтдин ятар бул я. КцIар дуьзенлух артезиандин цин булвилелди тафаватлу я. Районда жуьреба-жуьре начагъвилериз чара ийидай чими ятар ва минералриз элкъвенвай ргар ятар ава. Чилин кIан нафтIадик какахьзавай уьцIуь цин игьтиятралди бул я. 3000 метрдилай кьакьанра давди кьунвай грунтдин ятар ва муркIар, дагъдин тундрадин зонада лагьайтIа, уьленар арадиз гъизвай грунтдин ятар ава. Райондин чилерай Самур, КцIар вацI, СтIур вацI, Гъенер вацI, ТIигьиржал вацI, КIур вацI авахьзава.

### *Самур вацI*

Ада Дагъустандин Китин дагъдай (3600 м) кьил къачунва ва Каспи гъуьлуьз авахьзава. ВацIун яргъивал 216 км, бассейн 5000 км$^2$ я. КцIарин чилерал адак ТIигьиржал вацIни (34 км) КIур вацI (28 км)

## ÇAYLAR

Qusar rayonunun ərazisində respublikamızın iri şəhərlərini şirin su ilə təmin edən çoxlu bulaqlar qaynayır. Dağlıq zonada mineral sular, çay vadilərində isə içməli yeraltı sular çoxdur. Qusar maili düzənliyi artezian sularının bolluğu ilə səciyyələnir. Rayonda müxtəlif xəstəliklərin müalicəsində istifadə olunan isti sular və qaynar mineral bulaqlar çağlayır. Relyefin dərin qatları neftlə zəngindir. 300 metrdən yüksəkdə buz bağlamış qrunt suları və buzlar, dağ tundrası zonasında isə bataqlıqlar əmələ gətirmiş qrunt suları mövcuddur. Rayonun ərazisindən Samur, Qusarçay, Sudurçay, Qənərçay, Tahircalçay, Ukurçay axır.

### *Samur çayı*

Başlanğıcını Dağıstan ərazisindəki Kitin dağından (3600 m) götürür, Xəzər dənizinə tökülür. Uzunluğu 216 km, hövzəsi 5000 km$^2$-dir. Qusar ərazisində Tahircal çayı (34 km) və Ukur çayı (28 km) ilə qovuşur. İlin isti aylarında yağış, qar və buzlaq sularından sə-

какахьзава. Чими варцара марф, жив, цIрай муркIар себеб яз алахьзава, селлер арадиз гъизва. КIеле Сувар дагъдин патавай Абшерондиз вичин яргъивал 271 км тир Самур-Абшерон къанал акъуднава.

***КцIар вацI***

Базардуьзуь дагъдай кьил къачунвай и вацI Базардуьзуьдин, Базарюртдин ва Шагь дагъдин живедини муркIари кьунвай кукIушрай авахьзавай гьвечIи хилерикай арадиз атанва, Каспи гьуьлуьз авахьзава. Яргъивал 113 км, бассейн 694 км² я. КцIар вацIун эрчIи хел Ятух кIам (13 км), чапла хел Аразан кIам я (8 км). И кьве хел галкIана Шагьнабат вацI арадиз гъанва. Цин са пай ЧIакIар-Чпир ва Самур-Абшерон къаналриз авахьзава.

***КIур вацI***

Самурдин эрчIи хел тир адан яргъивал 28 км, бассейн 121 км² я. ВацIу 2020 м кьван кьакьандай кьил къачузва. Марфарикай, живерикай, гьакIни чиликай хкатзавай ятарикай арадиз атанва.

## ВИРЕР

***ТIурфан*** райондин виридалайни чIехи вир я. Кьве чIехи чухурда арадиз атанвай и вир ТIурфан вацIун кефер пата, адавай 4 км-дин мензилда ава. Кьуд патахъай дагълари элкъуьрна кьунвай и вир булахрин ятари арадиз гъанва. Ятар гзаф хьайи вахтунда ада 4 гектардин чка кьада. Деринвал 6 метр я.

***Шихмизе*** ЭчIехуьре чил авахьунин нетижада булахрин ятарикай арадиз атанвай вир я. 1км² кьван чка кьунвай адан деринвал 3 метр я. Набататри элкъуьрна юкьва тунвай и вир хъуьтIуьз муркIади кьада.

Районда инсанри чпин гъилералди арадиз гъанвай вирерни ава. Мисал яз ЦIуру Худат, Манкъулидхуьр, Къалажух хуьрерин вирер ва “Беневша” вир къалуриз жеда. “Беневша” вир райондин меркезда 6 гектар чкада эгъуьннава, адан деринвал 12 метр я.

viyyəsi qalxır və daşqınlar əmələ gətirir. Qelesuvar dağı yaxınlığından Abşeron yarımadasına kimi uzunluğu 271 km olan Samur-Abşeron kanalı çəkilmişdir.

***Qusarçay***

Respublikamızın ən yüksək dağ çayıdır. Mənbəyi okean səviyyəsindən 3780 m hündürlükdə, mənsəbi 28 m aşağıdadır. Başlanğıcını Bazardüzü, Şahdağ, Bazaryurd və Tufan buzlaqlarından axan sulardan alır və Xəzərə tökülür. Uzunluğu 113 km, hövzəsinin sahəsi 694 km²-dir. Sağ qolu Yatuq kam (13 km), sol qolu Arazan kam (8 km) çaylarıdır. Bu iki çayın birləşməsindən Şahnabat çayı əmələ gəlmişdir. Suyunun müəyyən hissəsi Cağar-Cibir və Samur-Abşeron kanallarına axıdılır. Suvarmada geniş istifadə olunur.

***Ukurçay***

Samurun sağ qoludur, uzunluğu 28 km, hövzəsinin sahəsi 121 km²-dir. Mənbəyini 2020 m yüksəklikdən alır. Yağış, qar, qismən də yeraltı sulardan yaranıb. Suvarmada istifadə olunur.

## GÖLLƏR

***Tufan gölü*** rayon ərazisindəki ən yüksək və ən böyük göldür. İki çökəkdə yaranmış bu göl Baş Qafqazın suayrıcında, Tufançayın mənbəyindən 4 km şimalda yerləşir. Dörd tərəfdən dağlarla əhatə olunmuş göl buzlaq mənşəli olub qar sularından əmələ gəlib. Bol sulu dövrdə onun ərazisi genişlənərək 4 hektara çatır. Dərinliyi 6 metrdir.

***Şixmizə gölü*** Əcəxür kəndi ərazisində bulaq sularından əmələ gəlmiş göldür. Onun sahəsi 1 km², dərinliyi 3 metrdir. Dörd tərəfdən bitkilərlə əhatə olunmuş gölün səthi qışda buz qatı ilə örtülür.

Süni göllərə Qalacıq, Bənövşə, Köhnə Xudat, İmamqulukənd gölləri aiddir. Rayon mərkəzində yaradılmış Bənövşə gölünün sahəsi 6 hektar, dərinliyi 12 metrdir. Suyundan təsərrüfatda və məişətdə istifadə olunur.



*Шагь дагъда цуькверин вир* *Şahdağda çiçəkli göl*



*КцIарин “Беневша” вир* *Qusarın “Bənövşə” gölü*



*Гьейдар Алиеван кукIуш* *Heydər Əliyev zirvəsi*



*Силибирдин яйлах* *Silibir yaylağı*

## ШАГЬ ДАГЪДИН АЛАМАТАР

### *Гъуцар сув*

Азербайжанда Шагь дагъдин иервилерив гекъигиз жедай кьвед лагъай чка авач. Бязи алимри Шагь дагъ, Шагь яйлах, Шагь юрт, Шагь тIул, Шагьдин булах, Шагьнабат вацI хьтин оронимар ва гидронимар Шагь Аббасан тIварцIихъ галаз алакъалу тирди къейд ийизва. Абуру лугьузвайвал, 1620-йисуз Кьибле Дагъустандал вегьей Ирандин шагь Аббаса чи патан виридалайни кьакьан дагъдиз Шагь дагъ, вичин яракьлуйри пуна ягъай яйлахдиз Шагьдин яйлах тIварар ганай. Ингье им гьакъикъатдив кьадай фикир туш. Агъзур йисара ина яшамиш хьайи инсанри икьван иер макандиз тIвар тагун мумкин тушир. Гьавиляй адал "дагъларин шагь" мана гузвай Шагь дагъ тIвар илитIнай жеди.

Дегь чIавара лезгийри 30-далай гзаф гъуцариз икрам ийизвай. Гъуцар фад-фад дагълариз илифдай кьван. Абур илифай дагълариз “Гъуцар сув” лугьудай лезгийри. Дагълариз икрам авун лезгийрин сур чIаварин адет я. Агъадихъ галайбур лезгийри генани мукьувай икрамдай дагълар тир: Шагь дагъ, Шалбуз дагъ, ТIурфан дагъ, Базардуьзуь дагъ, Китин дагъ, Питан дагъ, Сарфун дагъ, Кьелегь дагъ, Жалгъан дагъ, Яру дагъ, Нисен дагъ, Вахчаг дагъ, КичIен дагъ.

Кьве дагъдал гьакIни Гъуцар сув тIвар ала: Шагь дагъдални Шалбуз дагъдал. Гъуцар сув пIир я лугьуда чи бубайри. И рекьин четинвални тIебиатдин басрухар фикирда кьуна иридра а дагъларал акьахун Меккедиз финиф барабар я лугьуда. Дегь чIавара и дагъларин кукIушрал акьахна, гъуцаривай чпин тIалабунар ийидай лезгийри.

## ŞAHDAĞ MÖCÜZƏLƏRİ

### *Allahlar dağı*

Azərbaycanın fiziki xəritəsində Şahdağın gözəllikləri ilə müqayisə oluna bilən ikinci dağ yoxdur. Bəzi tədqiqatçılar Qusar rayonu ərazisindəki Şahdağ, Şah yaylağı, Şahyurdu, Şahdüzü, Şahbulaq, Şahnabat kimi yer adlarını Şah Abbasın adı ilə bağlayırlar. Guya Şah Abbas 1620-ci ildə özünün Cənubi Dağıstana hərbi yürüşü zamanı Yan silsilənin uca dağını Şah dağı, çadır qurduğu yaylağı Şah yaylağı və sair adlandırmışdır. Lakin bu fikir həqiqətə uyğun deyildir. Əsrlər boyu bu ərazidə yaşayan insanlar bu möhtəşəm təbiət abidəsinə ad qoymaya bilməzdilər.

Çox güman ki, ucalığına, əlçatmazlığına, mənzərələrinin gözəlliyinə görə bir zamanlar ona “dağların şahı” mənasını verən “Şahdağ” adı verilmişdir.

Uzaq keçmişdə ləzgilər Şahdağı “Allahlar dağı” adlandırmışlar. Bunun tarixi çoxallahlılıq dövrünə gedib çıxır. Ləzgilər qədim dövrlərdə 30-dan çox Allaha sitayiş edirdilər. Onların təsəvvürlərinə görə allahlar Şahdağın başında yığışır, taleyüklü məsələləri orada həll edirdilər.

Bir çox qədim xalqlar kimi ləzgilər də dağların müqəddəsliyinə inanırdılar və əmin idilər ki, onlar ilahi varlıq tərəfindən yaradılıblar. Samur çayının bir tərəfində yaşayan ləzgilər üçün Şahdağ, o biri tərəfində sakin olan ləzgilər üçün isə Şalbuzdağ Ğutsarin suv - Allahlar dağı hesab olunurdu. Xalq arasında belə bir inanc var ki, 7 dəfə Şahdağın və ya Şalbuzdağın zirvəsinə qalxmaq bir dəfə Məkkəyə getməyə bərabərdir. Ləzgilər Tufan, Bazardüzü, Kitin, Pitan, Sarfun, Keleh, Calğan, Yaru, Nisen, Vaxçaq, Kiçen dağlarına da sitayiş ediblər.

### Шагь дагъдин чарчарар

Чи республикадин виридалайни иер, кьакьан ва гурлу чарчарар Шагь дагъда дуьшуьш жезва. Ина 12 чарчар ава. Абур агъадихъ галайбур я: Гургур, Кабаш, Танурган, Тангу, Лавур, Лацар, ЦӀар, Чар, Кьве чарчар, Къванкьил, Цырыгъ, Цириг. ЦӀразвай живерикай арадиз атана, кьакьанра сад садак акахьна авахьзавай и чарчаррин виридалайни чӀехидан тӀвар Гургур я. Ам Кабашда ава, 400-500 метр кьван кьакьандай авахьзава. Шагь дагъдин чарчарар хъуьтӀуьз муркӀади кьурлани, абурулай вил алудиз жедач. Гъилив чӀугунвай эсер хьиз иер тир и чарчарар сусан кьилел алай лацу дуьгуьрдиз ухшар я.

### Кьве чарчар

Лацарин дереда цӀудалай гзаф чарчарар ава. Кьве чарчардикай лацувийри ихьтин кьиса рахада. Са жегьилдиз са руш кӀанз хьана. Рушан рикӀни гададал ацукьнавай. Ингье адан диде-бубадиз чубандихъ галаз ваъ, паб кьена, кӀвале са кӀапӀал аялар амай кьуьзуь, девлетлу са касдихъ галаз къавум жез кӀанзавай. КӀанибурун шел-хвал кваз такьуна, хайибуру мехьерин тадаракар ийизвай. Свас тухудай йифиз гадади руш гваз катна.

Идакай хабар кьур кьуьзуь чамран мукьвакьилибур балкӀанрал алаз абурун геле гьатда. Дагъдин синел абуруз рушни гада аквада. Ксари элкъуьрна юкьва турла жегьилри чеб кьвалалай вегьида. Абур аватай дередиз килигай чамран итимар пагь атӀана амукьда: рушакайни гададикай кьве чарчар хьанвай. Гьа чӀавалай и кьве чарчар къвал-къвалаз авахьзава.

Абурун каф алай къайи ятари кьве жегьилдин бахтсуз муьгьуьббатдикай ара датӀана манияр лугьузва.



### Şahdağ şəlalələri

Respublikamızın ən gözəl və gur sulu şəlalələri Şahdağ massivində çağlayır. Onların sayı 12-dir. Bu şəlalələr aşağıdakılardır: Gurgur, Kabaş, Tanurqan, Tanqu, Lavur, Latsar, Tsar, Çar, Qoşa şəlalə, Kvankil, Tsırıq, Tsiriq. Qar sularından əmələ gələrək, sıldırımlı yamaclarda birləşən, gurultu ilə dərələrə tökülən bu şəlalələrdən ən böyüyünün adı Gurgurdur. O, Kabaş dağındadır, 400-500 metr hündürlükdən axır.

Şahdağ şəlalələri qışda donub buz bağlayanda da onların gözəlliyindən doymaq olmur. Rəssamın yaratdığı əsər kimi gözəl və təkrarsız olan bu şəlalələr gəlinin başındakı ağ duvağa bənzəyir.

### Qoşa şəlalə

Ləzə dərəsində çoxlu şəlalələr çağlayır. Qoşa şəlalə ilə bağlı ləzəlilər belə bir rəvayət danışırlar. Bir çoban bir qıza vurulur. Qız da ürəyini ona verir. Lakin onun dövlətli valideynləri kasıb çobanla qohum olmaq istəmirlər. Qızı dövləti başından aşan bir dul kişiyə nişanlayırlar. Cavanların yalvarışlarına əhəmiyyət verməyib, toy hazırlığına başlayırlar. Çarələri kəsilən sevgililər toya bir gün qalmış at belində kənddən qaçırlar. Lakin bu xəbər Ləzəyə tez yayılır.

Sevgililər dağın başına çatanda arxalarınca çapan atlılar onları dövrəyə alırlar. Əlacsız qalan sevgililər özlərini dərəyə atırlar. Onları təqib edən atlılar heyrətdən donurlar: qızla oğlanın özlərini atdığı yerdə, çılpaq qayaların başında iki şəlalə yaranmışdı. Şəlalələr gurultu qopararaq dərəyə axırdı.

O vaxtdan həmin şəlalələr yanaşı axır. Onların köpüklü suları gurultu qopararaq, iki gəncin nakam sevgisindən söhbət açır.



*Шагь дагъдин ценер* *Şahdağın ətəkləri*



*"КIанибурун муьгъ"* *"Sevgililər körpüsü"*

## *"Шагь яйлах"*

"Шагь яйлах" Къафкъаздин виридалайни иер пипIерикай яз гьисабзава. Шагь дагъдин кьибле пата, 2800-3000 м кьакьанвиле экIя хьанвай и яйлахра гуьлуьшан йикъар гзаф, чIимел йикъар тIимил жеда. Гьавиляй кIамара цифер, марфар хьайила, кукIушра рагъ хъуьреда. Инин "Сувун халичаяр" лугьудай яйлахра векьеринни цуьквери кьакьанвал 2 метрдив агакьда. И яйлахар тай авачир векьин чкаяр я.

## *"КIанибурун муьгъ"*

Шагьнабат вацIун кьил кьве зурба дагъдин арада ава. Шагьюртдиз мукьва, вацIун гурлу чкада тIебиатдин аламатди инсан гьейранарда. Шагьнабатдин кьве пата хкаж хьанвай зурба кьвалар вацIун винел сад садак галкIана, муькъвез элкъвенва. Гургур къачуна авахьзавай гьайбатлу вацIун дили ятари инсандин чандик кичI кутада. Идахъ авсиятда халкьди ихьтин кьиса туькIуьрнава.

Касан хуьре ашукь хьанвай са рушни са гада авай кьван. Гада кесиб лежбер, руш девлетлудан руш тирвиляй абурун диде-бубайри кIанибур садсадавай къакъуднай. Чара атIай жегьилар хуьряй катна Шагь дагъ галайнихъ фенай. Шагьнабат вацIун вини кьилив агакьайла, абур къах хьанай. Инал рехъ куьтягь хьанвай: вацIун кьве кьерни зурба кьвалар тир. Кьулухъ элкъвез жезмачир: атлуяр абурув агакьзавай.

Чара атIай кIанибуруз чеб вацIуз вегьиз кIан хьайила, са легьзеда кьве кьвал галкIана, муькъвез элкъвенай. КIанибур балкIанрал алаз муькъвелай элячIнай. И аламат вилералди акур атлуяр лагьайтIа, пашман хьана кьулухъ элкъвенай. Гьа чIавалай муькъвел "КIанибурун муьгъ" тIвар илитIнай. Къедалди адалай балкIандал алаз алатун гьунардай кьада.

## *"Şah yaylağı"*

Qafqazın ən gözəl guşələrindən biri hesab olunan "Şah yaylağı" Şah dağının cənubunda, 2800-3000 m hündürlükdədir. Bu alp və subalp çəmənliklərinə günəş işığı çox, yağıntı isə az düşdüyündən, aşağıda sıx duman olduğu, yağış yağdığı halda, yuxarıda aydın və günəşli hava olur. Buranın "Alp xalıları"nda otların və çiçəklərin hündürlüyü iki metrə çatır. Bu yaylaqlar əvəzsiz otlaq sahələridir.

## *"Sevgililər körpüsü"*

Şahnabat çayının yuxarı axını iki nəhəng dağ silsiləsinin arasındadır. Şahyurda yaxın yerdə, Şahnabat çayının gur axan yerində təbiət möcüzə yaradıb. Şahnabatın iki sahilindəki nəhəng, sıldırım qayalar birləşərək, qol-boyun olmuş, təbii körpü yaratmışdır. Körpünün altından axan dəli çayın gurultusu insanın canına qorxu salır. Həmin körpü haqqında belə bir əfsanə danışırlar.

Kasan kəndində bir-birini sevən iki gənc yaşayırmış. Oğlan kasıb, qız isə dövlətli olduğu üçün valideynləri onların izdivacına razılıq vermir. Bir-birinə qoşulub Şahdağa tərəf qaçan sevgililər Şahnabat çayının yuxarı axınına çatanda dəhşətə gəlirlər. Burada yol bitirdi: çayın hər iki sahilində nəhəng qayalar ucalırdı. Geriyə dönmək də təhlükəli idi. Arxadan onları təqib edən atlılar gəlirdi.

Sevgililər çarəsiz qalıb özlərini çaya atmaq istəyəndə möcüzə baş verir: iki sıldırım qaya bir anın içində əyilib təbii körpü yaradır. Bəxtəvər sevgililər at üstündə onu keçib gedirlər. Yaxınlaşan atlılar bu möcüzədən heyrətə gəlib sevgililəri təqib etməkdən əl çəkirlər. O vaxtdan körpünün adı "Sevgililər körpüsü" qalır. İndiyə kimi həmin körpüdən at üstündə keçmək hünər sayılır.

### *Лацарин кIам*

700-800 метрдин деринвиле экIя хьанвай и кIам дагълари элкъуьрна юкьва тунва. Машгьур Лацарин чарчарар гьа кIамуз авахьзава. КIам гатфариз кьиляй-кьилди цуькверив дигида.

Дуьз цIар чIугуртIа, инай Шагь дагъдин гирведал кьван 9 километр я. Ингье дагъдин гирведив агакьун патал элкъвез-элкъвез 30 километрдилай гзаф рехъ фин герек я. И рехъ Лацарин кIамай тIуз физва.

### *Силибирдин яйлахар*

СтIур хуьруьн чилерал экIя хьанвай и яйлахар тикрарсуз ийизвайди силибирдин цуьквер я. Силибирдин яйлахри цуьк акъудайла, тIебиат лугьуз тежедай хьтин иервилив дигида. АтIайдалай гуьгъуьниз 15-20 юкъуз иервални атир хуьзвай силибирдин цуьк лезги фольклорда иервилинни паквилин лишан хьиз теснифнава.

### *Касарин тIвар ала*

КцIар вацIун чапла кьеряй тIуз фидай рекье кьакьан кьваларин арадай ван алаз авахьзавай вацIун фири алай ятари рамда вун. КцIарин юкьвай секиндаказ авахьзавай и вацIу Шагь дагъдилай кьил кутунва. КIватI жез, ахъа жез, къванерал гьалч жез авахьзавай и дили вацIуз лезгийри Ксар вацI лугьуда. И патара “Ксар пел”, “Ксар дагъ”, “Ксар тIул” “Ксар сув”, “Ксар кьвал” лугьудай чкаярни ава. Ибур дегь чIавара яшамиш хьайи кас тайифадин гелер я жеди. Уьнуьгъ deредин са бязи хуьрерин жемятри, иллаки кузунвийри КцIар вацIуз гилани Касар вацI, КцIариз Касар лугьуда. “КцIар” тIварни гьа гафунихъ галаз алакъалу я. И фикир туьркверин сиягьатчи Эвлия Челебидини (1612-йис) тестикь авунва.

### *Ləzə kanyonu*

700-800 metr dərinlikdə yerləşən bu kanyon dörd tərəfdən dağlarla əhatə olunmuşdur. Məşhur Ləzə şəlalələri buraya tökülür. Bahar gələndə bu dərə başdan-başa heyrətamiz çiçəklərə bürünür.

Ləzədən Şahdağın zirvəsinə düz xətlə 9 km-dir. Lakin dağın daim buzlarla örtülü olan zirvəsinə yaxınlaşmaq üçün dolanbac yolla 30 km-dən artıq yol getmək lazımdır. Bu yol Ləzə kanyonundan keçir.

### *Silibir yaylaqları*

Sudur kəndi ərazisində yerləşən həmin yaylaqları rayonun digər yaylaqlarından heyrətamiz çiçəklər-silibirlər fərqləndirir. Silibir yaylaqları gül açanda düz-dünya bu ağ-çəhrayı çiçəklərə qərq olur. Dərildikdən sonra da 15-20 gün təravətini və ətrini itirməyən silibir çiçəyi ləzgi folklorunda gözəllik və bakirəlik rəmzi kimi vəsf olunur.

### *Kasların adı yaşayır*

| *чIугъвал* | *kiçik dərə* |
| *чIурух, чIурухъан* | *əkilməmiş yer* |
| *чIеми (циф)* | *çiskin* |
| *чIух* | *sel* |
| *чирх, хирхем* | *çınqıl* |
| *халид сал* | *bağça* |
| *хандакI* | *xəndək* |
| *хин* | *iki qaya arasında düzənlik* |
| *хур* | *döş* |
| *хуш* | *dağ döşü* |
| *хумул* | *narın yağış* |
| *хъалхъам* | *oyuq* |
| *хъархъар* | *suyun qıjıltıyla axması* |
| *хъархъан (таран хъач)* | *ağac gövdəsində bitən ot* |
| *хъиткьер* | *çat* |
| *хьирхьам* | *yosun* |
| *югъ (къуза)* | *quzey* |
| *ягъв (дагъдин хев)* | *çıxıntı, dağın yaxası* |
| *яйлах* | *yaylaq* |
| *яргъируш, хважамжам* | *göy qurşağı, qövsi-quzeh* |
| *циф* | *duman* |
| *цуьл* | *dərz* |
| *цIар (дагьар)* | *mağara* |
| *цIидгъай (какур рекьер)* | *əyri yollar* |
| *шигавар (зулун векьер)* | *payız otları* |
| *шилекан (банд)* | *bənd* |







***Кьакьан дагълар***



***Uca dağlar***



***ТIигьиржал вацI*** ***Tahircal çayı***



***Самур вацI*** ***Samur çayı***













*Лекь* *Qartal*



*КьапIиш* *Səhləb*



*Тетра* *Tetra*



*Гатун тама* *Yay meşəsində*



*Кьуьзуь мегъуьн тар* *Qocaman palıd*



*Суван цуьквер*



*Dağ çiçəkləri*



*Гатфарин сифтебур*
*Bahar müjdəçiləri*



*“Сувар” вир* *“Suvar” gölü*



*Гургур* *Gurgur*



*Пичхалдин пIир* *Piçxal piri*



*ЦIар чарчар* *Tsar şəlaləsi*



*Гъвергъверар* *Novruzgülü*



*Гатфарин тама* *Yaz meşəsində*





*ХъуьтIуьз кукIушарни рагалар живерини муркIари кьада. Дагъларин кьилин эсер тир чарчарар муркIади кьурла и иервилерилай вил алудиз жедач. Майдин рагъ авай йикъари хъуьтуьларда муркIар. Чарчаррин ван гьатда дагълара.*

*Qış gələndə zirvələri, aşırımları qar və buzlar örtür. Dağların şah əsəri olan şəlalələr buz bağlayanda bu mənzərədən doymaq olmur. Mayın sonlarından başlayaraq baharın nəfəsi onları isitməyə başlayır. Şəlalələrin gurultusu yenidən təbiəti cana gətirir.*







*Лацарин чарчарар* *Ləzə şəlalələri*









*ТӀанурган чарчар* *Tanurqan şəlaləsi*



*КӀанивал* *Məhəbbət*



*Тамун иербур* *Meşə*



*МуркӀадин чарчар* *Buz şəlaləsi*



*Лар яйлахдин цуьквер* *Lar yaylağının çiçəkləri*

# III

# ХУЬРЕР



# KƏNDLƏR

*Дагъларин синерал, хуш квай чкайра, дуьзенлухра кутунвай лезги хуьрер тупӀалдин къашар хьиз аквада. Рагъ экъечӀдайла адан нурар сифтени-сифте дагъларин кукӀушри кужумда. Ахпа рагъ дагъвийрин кӀвалериз илифда. Экуьнин мили авазрик инсанрин ванер какахьайла, вири тӀебиат чандал хкведа.*

*Гатфар хьайила тамари, тарари цуьк акъудда, яйлахар гьар жуьредин цуькверив дигида. Хперин суьруьяр, балкӀанрин рамагар, калерин ва гамишрин нехирар чуьлдиз чкӀайла, жегьил лезгиди зарулдиз ягъизвай кфилдин ван вири хуьруьз чкӀида.*

*Абурун багълар бегьерлу, никӀер берекатлу я. Лезгийрихъ хуьруьн майишат вилик тухудай чӀехи алакьунар ава. Абуру чилериз серф ийизвай зегьмет урус лежбердин гьич хиялдизни къведач. Лезгийрин лежберри къванерилайни бегьер кӀватӀда.*

*ЧӀехи женгчивилин руьгь ва къадим медениятавай лезгийрин хуьрери инсан гьасятда чпихъ ялда. Лезгияр рикӀ ахъа, мерд, гафунал кӀеви, авай гаф чинал лугьудай ксар я.*

*В.Л.Величко*

*Dağların qoynunda, yamaclarda, düzənlərdə salınmış ləzgi kəndləri üzüyün qaşlarına bənzəyir. Günəş doğanda öz şəfəqlərini əvvəl dağların zirvələrinə bəxş edir. Sonra onun nuru dağlıların evlərinə süzülür. Səhərin xoş nəfəsinə insanların səsləri qarışanda, bütün təbiət cana gəlir.*

*Bahar gələndə meşələr, ağaclar, yaylaqlar çiçəklərlə bəzənir. Qoyun sürüləri, at ilxıları, inək və camış naxırları çöllərə səpələnəndə gənc ləzginin yanıqlı-yanıqlı çaldığı tütəyin səsi bütün kəndə yayılır.*

*Onların bağları bəhərli, zəmiləri bərəkətlidir. Ləzgilərin kənd təsərrüfatı işlərində böyük səriştəsi var. Onların torpağa sərf etdiyi zəhmət rus kəndlisinin heç xəyalına da gəlməz. Təcrübəli ləzgi rəncbərləri daşlarda da bəhər bitirirlər.*

*Döyüşkən ruha və qədim mədəniyyətə malik ləzgilərin kəndləri o saat insanı cəlb edir. Ləzgilər ürəyi açıq, mərd, sözü üzə deyən insanlardır.*

*V.L.Veliçko*

КцIар райондин чилерал чпихъ агъзур йисарин тарихар авай шумудни са хуьрер хьанай. Сур чIаварин хуьрерикай гаф кватайла бязи авторри КцIарин гзаф хуьрер IX-XII виш йисара арадал атанвайди я лугьузва. Им эсиллагь дуьз фикир туш. Вучиз лагьайтIа гьеле чи эрадал къведалди КцIарин чилерал шумудни са шегьерар ва хуьрер алай. И кар энеолитдин, буьруьнждин ва ракьун девирриз талукь археологиядин амукьайрини субутзава.

Гьеле 1929-йисуз Бакуда вичин “Находки бронзового века около Хачмаса” эсер чап хьайи Александрович-Насифа къейд авурвал, Хачмазин ва КцIарин чилерал бязи хуьрер буьруьнждин девирда, яни чи эрадал къведалди III агъзур йисуз кутунай. Дагъустандин КцIарихъ галаз сергьят тир лезги чилерал буьруьнждин девирдиз талукь 40-далай гзаф хуьрерин амукьаяр жагъанва.

Археологри ихьтин хуьрерин амукьаяр КцIарин чилерални ашкара авунва. Месела, Р.Б.Аразовади 1980-йисуз урус чIалал “Азербайжан ССР-дин Илимрин Академиядин докладар” бюллетенда чапдай акъудай вичин “КцIар райондин буьруьнждин девирдин сифте чIавариз талукь яшайишдин мескенрин гьакъиндай” макъалада кхьенвайвал, I ЧIехи Пел ва II ЧIехи Пел лугьудай чкайрай буьруьнждин девирда кутунвай хуьрерин амукьаяр жагъанва. Ж.А.Халилова, Къ.О.Къошкъарлыды ва Р.Б.Аразовади 1991-йисуз Бакуда урус чIалал чапдай акъудай “КеферрагъэкъечIдай Азербайжандин археологиядин амукьаяр” ктабда къейд авунвайвал, III Гавдишанпел лугьудай чкада буьруьнж девирдин эвел кьилера кутур хуьр хьанай. I Гавдишанпел ва II Гавдишанпел тIварар алай чилерал чи эрадал къведалди II ва I агъзур йисара чIехи хуьрер кутунай.

1974-йисуз Москвада чапдай акъатай “Кавказ и Восточная Европа в древности” ктабда Азербайжандин машгьур археологар тир Ж.А.Халилован ва Г.П.Кесеменлидин “Гяфлетепелери - поселение эпохи ранней бронзы в Азербайджане” макъалани ганва. Гьа макъалада къалурнавайвал, II Къефледпелей жагъанвай хуьруьн амукьаяр чи эрадал къведалди III агъзур йисаз, I Къефледпелей жагъанвай хуьруьн амукьаяр лагьайтIа, чи эрадал къведалди III агъзур йисан эхирриз ва II агъзур йисан эвелриз талукьбур я. И археологри, гьакIни машгьур кцIарви алим, тарихдин илимрин доктор, профессор Абидулла Оружова кхьенвайвал, гилан КцIар райондин чилерал ракьун девирда, чи эрадал къведалди II агъ-

Qusar rayonunun ərazisində min illərlə tarixi olan qədim kəndlərin qalıqlarına rast gəlmək olar. Həmin kəndlərdən söhbət düşəndə bəzi müəlliflər Qusarın bir çox yaşayış məskənlərinin IX-XII əsrlərdə salındığını iddia edirlər. Bu, düzgün fikir deyil. Çünki hələ eramızdan əvvəl indiki Qusar rayonu ərazisində bir çox iri şəhər və kəndlər mövcud idi. Bunu eneolit, bürünc və dəmir dövrlərinə aid arxeoloji abidələr də sübut edir.

1929-cu ildə Bakıda rusca “Xaçmaz ətrafında bürünc əsrinə dair tapıntılar” əsərini çap etdirmiş Aleksandroviç - Nasifin qeyd etdiyi kimi, Xaçmaz və Qusar ərazilərində bürünc dövründə, eramızdan əvvəl III minillikdə bir sıra kəndlər salınmışdı. Dağıstanın Qusarla həmsərhəd olan ləzgi rayonlarının ərazisində bürünc dövrünə aid 40-dan çox kəndin qalıqlarının tapılması da bu fikri təsdiqləyir. Arxeoloqlar belə qalıqları Qusar rayonu ərazisində də aşkar etmişlər. Məsələn, R.B.Arazovanın 1980-ci ildə “Azərbaycan SSR Elmlər Akademiyasının məruzələri” məcmuəsində rusca dərc olunmuş “Qusar rayonunun erkən bürünc dövrünə aid yaşayış məskənləri haqqında” məqaləsində yazdığı kimi, I Çexi Pel və II Çexi Pel ərazilərində bürünc dövründə salınmış kəndlərin qalıqları mövcuddur. C.A.Xəlilovun, Q.O.Qoşqarlının və R.B.Arazovanın 1991-ci ildə rus dilində işıq üzü görmüş “Şimal-şərqi Azərbaycanın arxeoloji abidələri” kitabında göstərildiyi kimi, III Gavdişanpel ərazisində bürünc dövrünün əvvəllərində kənd salınmışdı. I Gavdişanpel və II Gavdişanpel ərazilərində eramızdan əvvəl II və I minilliklərdə salınmış kəndlərin qalıqları tapılıb.

1974-cü ildə Moskvada çapdan çıxmış “Qafqaz və Şərqi Avropa qədim dövrlərdə” kitabında Azərbaycanın məşhur arxeoloqları C.A.Xəlilovun və Q.P.Kəsəmənlinin “Qəflə təpələri - Azərbaycanda erkən bürünc dövrünə aid yaşayış məskəni“ sərlövhəli məqaləsi də dərc edilib. Həmin məqalədə göstərildiyi kimi, II Qəflədpel ərazisində tapılmış qədim kənd qalıqları onun eramızdan əvvəl III minillikdə salındığını sübut edir. I Qəflədpel ərazisindən tapılmış qalıqlardan göründüyü kimi, burada yaşayış məskəni eramızdan əvvəl III minilliyin axırlarında və II minilliyin əvvəllərində salınıb. Həm bu arxeoloqların, həm də məşhur qusarlı alim, tarix elmləri doktoru, professor Abidulla Orucovun elmi əsərlərində qeyd olunduğu kimi, indiki Qusar rayonu ərazisində dəmir dövründə, eramızdan əvvəl II minillikdə də bir sıra yaşayış məskənləri salınmışdı. A.Orucov Qusar rayonunda 20-dək qədim şəhər və kənd qalıqlarını aşkar edib. Onun rəhbərliyi

зур йисан эхиррани гзаф хуьрер кутунай. А.Оружова КцIар райондин чилерал 20-дав агакьна хуьреринни шегьеррин амукьаяр винел акъуднай. Археологиядин кIвалахар тухудайла ада чи хуьрерин къадимвал субутзавай шумудни са къванцин сурар, цурцун ва ракьун алатар, хъенчIин къапар ва маса затIарни винел акъуднай. Азербайжанви алим Т.Ахундовани КцIарин юкьван виш йисарин хуьрерикай кхьенай. И девирар ахтармишай тарихчийри ва археологри КцIар райондин са кьадар хуьрер III-IV виш йисара ва VI-VIII виш йисара кутунвайди къейд авунва. А.Оружова тарихдин ва археологиядин делилралди лезгийри IV-VI виш йисара Шамиланпеле ва IV-VIII виш йисара Шуранпеле хуьрер кутурди субутнава. Гьа икI, делилри КцIарин "гзаф хуьрер IX-XII виш йисара арадал атайбур я" лугьузвай бязи авторар гьахълу туширди субутзава.

Са гафни авачиз, КцIарин чилерал IX-XII виш йисара ва гуьгъуьнин асирра кутунвай хуьрерни ала. Амма абурун кьадар пара туш. Гьакъикъатда КцIарин къадим хуьрерихъ 5-6 агъзур йисарин тарихар ава. Гъезеррин, арабрин, монголрин, иранвийрин ва урусрин кьушунри, гьакIни маса чапхунчийри чи цIудралди хуьрер чукIурна, цIай яна кана. Гьавиляй чи вишералди хуьрер юхдиз акъатна. Тек са "пел" компонентдикай арадал атай хуьрерин тIварар рикIел хкун бес я: Пел, I ЧIехи Пел, II ЧIехи Пел, III ЧIехи Пел, Агъаханпел, Вердиханпел, Къазиханпел, Кьурупел, Магьмуданпел, Шуранпел, Юсуфханапел, ГацIапел, Кьвепел ва мсб.

Араб тарихчийри кхьизвайвал, гилан Агъаханпел лугьудай чкадал лезгийрин Пел шегьер хьанай. Адан агьалийри са шумуд йисуз арабрин кьушунрихъ галаз женг чIугунай. Эхирни шегьер чпин гьиле гьатайла арабри Пел кьиляй-кьилиз цIай яна канай. Монголри ЧIехи Силибир ва ГъвечIи Силибир хуьрерин къван къванцел туначир. Ирандин шагь Надира къадим КIуф, Тагъар ва Уьзден хьтин хуьрер юхдиз акъуднай. Амма абурун тIварар алай убаяр къедалди ама: КIуфуба, Тагъаруба, Уьзденуба. Кьвед-пуд виш йис инлай вилик КцIарин чилерал чпин тIварарихъ "уба" компонент квай 20-далай гзаф хуьрер алай. Гила абурукай гзафбур амач: Шихуба, ЧIехиуба, КIуруба, Куьрелуба, ЧIуруба, Гаргаруба ва мсб. Ихьтин мисалар мадни гьиз жеда. Аквазвайвал, КцIарин хуьрерихъ къадим тарихар ава.

И ктабдин "КцIарин хуьрер" тIвар ганвай паюна райондин са кьадар хуьрерикай кьилди макъалаяр гьатнава.

ilə aparılmış arxeoloji qazıntılar zamanı kəndlərimizin qədimliyini sübüt edən onlarca daş və torpaq qəbirlər, mis və dəmir alətlər, saxsı qablar, küplər və digər məişət əşyaları tapılmışdır.

Azərbaycan alimi T.Axundovun Qusarın orta əsrlərə aid kəndləri haqqında yazdıqları da diqqəti cəlb edir. Onun 1983-cü ildə "Azərbaycan SSR Elmlər Akademiyasının məruzələri" məcmuəsində dərc olunmuş "Qusar rayonunun erkən orta əsrlər yaşayış məskənlərinin topoqrafiyasına dair" məqaləsində Qusar rayonunda bir sıra kəndlərin III-IV əsrlərdə və VI-VII əsrlərdə salındığı göstərilib. A.Orucov tarixi və arxeoloji dəlillər əsasında IV-VI əsrlərdə Şamilanpel və IV-VIII əsrlərdə Şoranpel ərazilərində kəndlərin salındığını sübuta yetirmişdir. Beləliklə, faktlardan göründüyü kimi, bəzi müəlliflərin Qusarın bir çox yaşayış məskənlərinin IX-XII əsrlərdə salındığı barədə fikri yanlışdır.

Şübhəsiz, Qusar ərazisində IX-XII əsrlərdə və sonrakı dövrlərdə salınmış kəndlər də var. Amma belə yaşayış məskənlərinin sayı çox deyil. Həqiqətdə Qusarın qədim kəndlərinin 5-6 min illik tarixi var. Müxtəlif tarixi hadisələr nəticəsində Qusar ərazisindəki bəzi qədim kəndlər yoxa çıxmışdır. Xəzərlər, ərəblər, monqollar, İran, Rusiya hökmdarları və başqa işğalçılar burada neçə-neçə kəndləri dağıtmış, od vurub yandırmışlar. Bu səbəbdən bir sıra qədim kəndlər yox olmuşdur. Təkcə "pel" sözündən əmələ gəlmiş kənd adlarını xatırlamaq kifayətdir: Pel, I Çexi Pel, II Çexi Pel, III Çexi Pel, Ağaxanpel, Verdixanpel, Qazıxanpel, Qurupel, Mahmudapel, Şoranpel, Yusufxanpel, Qatsapel, Qvepel və b.

Ərəb tarixçilərinin yazdıqları kimi, indiki Ağaxanpel deyilən yerdə ləzgilərin Pel şəhəri mövcud idi. Onun əhalisi bir neçə il ərəb işğalçılarına müqavimət göstərmişdi. Nəhayət, Peli ələ keçirəndə ərəblər onu od vurub yandırmışlar. Monqollar Böyük Silibir və Kiçik Silibir kəndlərinin daşını daş üstə qoymamışlar. İran hökmdarı Nadir şah qədim Kuf, Tağar və Üzdən kəndlərini yer üzündən silmişdir. Amma həmin kəndlərin adını yaşadan obalar hələ də durur: Kufoba, Tağaroba, Üzdənoba. İki-üç yüz il əvvəl indiki Qusar rayonunun ərazisində adları "oba" sözündən yaranmış 20-dən çox kənd var idi. İndi həmin kəndlərin çoxu yoxdur. Məsələn, Şixoba, Çexioba, Kufoba, Ukuroba, Küreloba, Qarqaroba və b. Göründüyü kimi, Qusar kəndlərinin tarixi qədim dövrlərə gedib çıxır.

Kitabın "Qusarın kəndləri" adlı bölməsinə rayonun bir sıra kəndləri haqqında ayrıca məqalələr daxil edilmişdir.



# ТIИГЪИРЖАЛ

***ТIигьиржал чи дегь хуьрерикай я. Са бязи археологри гьахълу яз адахъ 4-5 агъзур йисан тарихар авайди къейд ийизва.***

ЦIехуьл вацIун яхадал, гъуьлуьвай 1500 метр кьван кьакьанда бине кутунвай ТIигьиржал КцIарин виридалайни къадим ва иер хуьрерикай я. ТIигьиржалрин тарихдикай алимри са шумуд жуьредин баянар гузва. Лезгийрин сейли алим, тарихдин илимрин доктор Сария Агъашириновади вичин "Кьиблепатан Дагъустандин халкьарин этнография" ктабда "ТIигьиржал" ойконим Дагъустандин Миграгъ хуьряй иниз куьч хьайи Тагьиран тIварцIихъ галаз алакъалу тирди къалурзава. Са бязи маса авторри и хуьруьн жемятди ислам дин гуьгъуьллудаказ кьабулна лугьуз хуьруьз "ТIигьиржал" тIвар ганвайди къейдзава. Маса жуьредин баянарни ава. Амма и баянрихъ галаз авайвал рази хьунухь мумкин туш, вучиз лагьайтIа ТIигьиржал чи лап къадим хуьрерикай я ва са бязи археологри гьахълу яз адахъ 4-5 агъзур йисан тарихар авайди къейд ийизва.

XX асирдин эхирра ина чил авахьун себеб яз хуьруьн сурарин са пад чкIанай ва чилин кIаникай 3 гьавадин дегь сурар винел акъатнай. И сурари, анай жагъай затIари, гьакIни археологиядин амукьайри хуьр Къафкъаздин къадим яшайишдин маканрикай тирди субутзава. Инай 10 метрдин дерин-

# TAHİRCAL

***Tahircal çox qədim kənddir və arxeoloqlar haqlı olaraq onun 4-5 min illik tarixə malik olduğunu göstərirlər.***

Zuxul çayının yaxasında, dəniz səviyyəsindən 1500 metr yüksəkdə yerləşən Tahircal (ləzgicə Tihircal) Qusar rayonunun qədim kəndlərindəndir. Onun tarixi ilə bağlı bir neçə mülahizə vardır. Məşhur ləzgi alimi, tarix elmləri doktoru Sariya Ağaşirinova özünün "Cənubi Dağıstan xalqlarının etnoqrafiyası" kitabında "Tihircal" oykonimini Dağıstanın Migrağ kəndindən buraya köçmüş Tahirin adı ilə əlaqələndirir. Bəzi müəlliflər isə bu kəndin əhalisi islam dinini könüllü qəbul etdiyinə görə ona bu adın verildiyini qeyd edirlər. Başqa mülahizələr də var. Lakin bu fikirlərlə razılaşmaq olmaz, çünki Tahircal çox qədim kənddir və arxeoloqlar haqlı olaraq onun 4-5 min illik tarixə malik olduğunu göstərirlər.

XX əsrin sonlarında Tahircal kəndində baş vermiş torpaq sürüşməsi nəticəsində buradakı qədim qəbiristanlığın bir hissəsi çaya tərəf aşınmış və üç mərtəbəli yeraltı qəbiristanlıq üzə çıxmışdır. Uzun əsrlər boyu gizli qalmış sirləri təbii fəlakət aşkar etmiş, 10 metrdən çox dərinlikdən, içində basdırılmış insanlar olan saxsı küplər tapılmışdır. Bu cür torpaq layının orta qatında daş qəbirlər, bir qat üstdə isə müasir qəbirlərə oxşayan, üstündə yazısı olmayan qəbirlər tapılmışdır. Bu sətirlərin müəllifi 1995-ci ildə Tahircal çayının

виляй хъенчIин куьшуьйра кучукнавай инсанрин амукьаяр жагъанва. И цIарарин автордиз 1995-йисуз ТIигьиржал вацIун кьере чиликай хкатнавай 2 метрдин хъенчIин куьшуь вилералди акунай. Адан къене инсандин кIарабар авай. Хуьре цIудралди ихьтин куьшуьяр ашкара хьанва.

Хуьр кьиляй-кьилди сурари элкъуьрна кьунва. Ина винел албан ва араб гьарфаралди кхьинар алай сурар ава. Сурун къван бармак хьиз раснавай, сердерар кучукнавай чкаяр гьасятда чир жезва. Гьайиф къведай кар ам я хьи, ТIигьиржалдин сурар икьван гагьди илимдин рекьелди чирнавач.

Мурад Аджиева вичин "Лезги из Тагирджала" макъалада ("Вокруг света", N 5, 1991) ТIигьиржал Къафкъаздин лап къадим лезги хуьрерикай тирди къейд авунва. И хуьряй жагъанвай пуд гьавадин сурарай археологривай бегьемдиз кьил акъудиз хьанвач. Абуру фагьумзавайвал, ТIигьиржал яшайишдин макан хьиз чи эрадал къведалди 2-3 агъзур йисара арадал атана. Ихьтин сурар Гьиндистанда ва Ирандани дуьшуьш жезва. И делилди гьеле чи эрадал къведалди лезгийрин и уьлквейрихъ галаз алакъаяр хьайиди субутзава.

ТIигьиржалдал тарихдин гзаф вакъиаяр кьиле фена. 1741-йисан июлдиз и хуьре Надир шагьдин кьушунринни лезгийрин арада кьиле фейи женгера 4 агъзурдалай виниз фарсарин аскерар, са агъзур лезгияр гьелек хьанай. ЯтIани шагьдивай хуьр вичин пацук кутаз хьаначир. Гуьгъуьнлай Иранда "шагьдиз акьул авачтIа, лезгийрихъ галаз дяведиз фирай" хьтин машгьур мисални арадиз атанай.

1839-йисан майдин вацра генерал Фезеди Шейх Шамилаз куьмек гайи лезги хуьрерин агьалийриз басрух ганай. ТIигьиржалдал кьиле фейи ягъ-ягъунра урусри агъзур аскер квадарнай. Машгьур шаир, Шейх Шамилан женгинин юлдаш Эмирали ТIигьиржалвидин кIеретIди Щехуьл хуьруьн патав урусрин 700 аскер яна кьенай. Эмирали пудра суьргуьндиз ракъурнай ва пудрани ам анай катнай.

Хуьруьн са бязи микротопонимрини адан тарихдикай хабар гузва. "Мугъул ацукьай чка" са береда лезгийриз басрух гайи монголри чпин суьруьяр ва рамагар хвейи уьруьшриз ишара я.

И чилерал вегьей кьецIи Теймуран, Къаракъоюнлу ва Агъкъоюнлу пачагьлугърин, Надир шагьдин кьушунри чкадин агьалийриз гзаф зулум авунай. Чапхунчийрин хура акъвазун патал хуьруьнвийри дегь чIавара кIвалер сад-садав агудна эцигдай. КIвалерин къава къецел акъатун патал чинесахилиндә insan boyu bərabərində küp qəbri öz gözləri ilə görmüşdür. O vaxt kənddə onlarca belə qəbirlər aşkar olunmuşdur. İndinin özündə də içində ayaq üstə basdırılmış insan qəbirləri olan küplər, o cümlədən daş qəbirlər aşkar olunur.

Murad Aciyev özünün "Tahircallı ləzgi" məqaləsində ("Вокруг света", №5, 1991) Tahircalın Qafqazın ən qədim kəndlərindən biri olduğunu göstərmişdir. Arxeoloqların fikrincə, bu yaşayış yeri eramızdan əvvəl 2-3-cü minilliklərdə yaranmışdır. Bu cür qəbiristanlıqlara Hindistanda və İranda da təsadüf olunur. Bu fakt kəndin eramızdan əvvəl başqa ölkələrlə əlaqələrinin olduğundan xəbər verir.

Kənd başdan-başa qədim qəbiristanlıqlarla əhatə olunmuşdur. Burada üstündə alban və ərəb yazıları olan qəbirlər vardır. Qəbir daşının başında daş dəbilqə olan, böyük sərkərdələrdən birinə məxsus olan qəbir tədqiqatçılar üçün maraqlı mövzudur. Təəssüf ki, bu günə kimi Tahircal qəbiristanlığı elmi cəhətdən öyrənilməmişdir.

Kəndin bir sıra mikrotoponimləri onun tarixindən xəbər verir. "Monqolların yeri" bir vaxtlar buraları zəbt etmiş monqolların sürü və ilxı saxladıqları yerin adıdır. Buralara hücum çəkmiş Teymurləngin, qaraqoyunluların, ağqoyunluların, Nadir şahın qoşunları yerli əhaliyə böyük zülmlər etmişdir. İşğalçılardan müdafiə olunmaq üçün adamlar qədim zamanlardan evlərini bir-birinin yanında tikirdilər. Evlərin damında bayıra çıxmaq üçün gizli yol olurdu.

Quba xanlığının mərkəzi olan Xudatda Sultan Əhməd xan həlak olanda onun kiçik oğlu Hüseynəlini tahircallılar öz kəndlərinə aparır və orada böyüdürlər. Sonralar o, İran hökmdarı Nadir şahın köməyi ilə xan təyin olunur. Bu faktlar Tahircalın o dövrün tarixində oynadığı roldan danışır.

Tarixi faktlardan göründüyü kimi, Tahircal azad icma idi və onun sakinləri heç bir vergi vermirdilər. 1796-cı ildə Cənubi Dağıstanın çaylarından yazmış F.F.Simonoviç Samur çayına bulanıq sulu "Qandjar" çayının axdığını göstərmişdir. O, kənd adlarını sadalayarkən Sudurdan aşağıda "Qandjar" adlı kəndin olduğunu göstərmişdir.

Göründüyü kimi, müəllif Tihircal oykonimini ruslaşdırmışdır. Sonralar bu kənd haqqında məlumat verən digər rus müəllifləri onun adını bir qədər həqiqətə uyğun yazmışlar. Misal üçün, 1832-ci ildə dağlarımıza səyahət etmiş F.L.Şitnikov öz məqaləsində bu kəndin adını "Tarcal" kimi göstərmiş və burada çoxlu bulaqların qaynadığını qeyd etmişdir.

бан рехъ жедай.

Къуба ханлухдин меркез тир Худат шегъерда Султан Агъмед хан кьейила адан гъвечIи хва Гъуьсейнали тIигьиржалвийри чпин хуьруьз хутахнай ва хвена чIехи авунай. Гуьгъуьнлай Ирандин шагь Надир шагьдин куьмекдалди ам ханвиле тайин хьанай. И делилрай тIигьиржалвийри а девирдин тарихда чIехи роль къугъвайди малум жезва.

Тарихдин чешмейрай малум жезвайвал, ТIигьиржал кьилди азад жемият тир. Адан уьзденри азаддаказ кIвалахдай ва садазни харж гудачир.

1796-йисуз Кьиблепатан Дагъустандин вацIарикай кхьей Ф.Ф.Симоновича Самурдик гзаф рагъул ятарин "Ганджар" вацI акахьзавайди ва хуьрерин тIварар кьадайла СтIурилай агъуз "Ганджар" хуьр алайди малумарнай. Аквазвайвал, авторди "ТIигьиржал" гидроним ва ойконим урусламишна "Ганджар" хьиз кхьенай. Адалай гуьгъуьниз и хуьрукай малумат гайи маса урус авторри хуьруьн тIвар генани лезги тIварцIив кьадайвал кхьенай. Месела, 1832-йисуз чи дагълара къекъвей Ф.Л.Шитникова вичин макъалада хуьруьн тIвар "Таржал" хьиз къалурнай.

ТIигьиржалвийри къедалди менфят къачузвай, "Рази" тIвар ганвай рехъ вад йисуз чIугунвайди я. И кардиз Къарчугъа регьбервал ганай. Хуьруьн мискIиндин цлал и рехъ чIугуна куьтягьай тарих къалурнава: 1813-йис. Рехъ кардик кутурла Куьредин ханди ина гьайванар тукIуна садакьа яз жемятдиз як пайнай.

ТIигьиржалвияр чирвилерихъ ялдайбур хьиз сейли я. Юкьван виш йисара мискIинрин патав гвай мектебра тарсар лезги ва араб чIаларалди гузвай. 1911-йисуз Урус гьукуматди ина диндин тушир мектеб эцигун къетIнай. И кардиз Шалбуз Келентеран хци ва яргунви Гьажи Къамбая регьбервал ганай. Кирпичар жемятди мел авуна атIанай, кьевер арабайрив Яламадай гъанай. 1913-йисуз мектеб кардик акатнай, адаз ахцегьви Абубекер Шагьмарданова регьбервал ганай. 1938-йисуз хуьруьн мектеб юкьван мектебдиз элкъуьрайла адан директорвиле Аскер Сулейманов тайинарнай.

Хуьре 3 мискIин авай. Абурукай сад муьжуьд пипIенди тир. Кьил акъуддай ксари ихьтин мискIинар Азербайжанда тIимил ава лугьузва. ТIигьиржалдин муьмин ксарикай Керим эфендидин ва Мегьамедзериф эфендидин тIварар ктабра гьатнава. Мегьамедзериф эфенди VIII виш йисуз Шам шегьердай атай "Фекьияр" тухумдикай тир. Лечет хуьруьз, гуьгъуьнлай Къубадиз куьч хьайи ам Къу-

Tahircalda bir çox tarixi hadisələr baş vermişdir. Nadir şahın qoşunları ilə ləzgilər arasında baş verən qanlı döyüşlərdə 4 mindən çox fars əsgəri və yerli sakin həlak olmuşdur. Şah ləzgilərin qətiyyətindən qorxub geri çəkilmiş, bundan sonra məşhur "şahın ağlı yoxdursa, ləzgilərlə döyüşə getsin" misalı yaranmışdır.

1839-cu ilin may ayında general Feze Şeyx Şamilə kömək etmiş ləzgi kəndlərinin əhalisinə divan tutmuşdur. Tahircalda baş vermiş döyüşlərdə min nəfər rus əsgəri həlak olmuşdur. Məşhur şair, Şeyx Şamilin silahdaşı və məsləkdaşı Əmirəlinin dəstəsi o vaxt Zuxul kəndinin yaxınlığında 700 nəfər rus əsgərini məhv etmişdir. Əmirəli 3 dəfə sürgünə göndərilmiş və hər dəfə də oradan qaçmağa müvəffəq olmuşdur.

Tahircallıların indiyə kimi istifadə etdikləri "Razi" adlı yol XIX əsrin əvvəllərində, beş il ərzində çəkilmişdir. Qarçuğ adlı şəxs bu işə rəhbərlik etmişdir. Kənd məscidinin divarında həmin tarixin 1813-cü il olduğu qeyd edilmişdir. Yol çəkilib qurtardıqda Küre xanı burada çoxlu heyvan kəsdirib camaata ehsan paylamışdır.

Tahircallılar qədim zamanlardan oxumağa meylli olmuşlar. Əvvəllər burada məscidlərin nəzdində məktəblər olmuşdur. Orta əsrlərdə həmin məktəblərdə dərslər ləzgi və ərəb dillərində keçilirdi. Kənddə 3 məscid olub. Onlardan biri səkkizguşəli idi. Bu, Azərbaycanda nadir təsadüf olunan məscidlərdən biri idi.

Tahircallı din xadimlərindən Məhəmmədzərif əfəndinin və Kərim əfəndinin adları kitablara düşüb. Məhəmmədzərif əfəndi buraya VIII əsrdə Şam şəhərindən köçmüş Mollalar nəslindən idi. Ləcət kəndinə, sonradan isə Qubaya köçmüş bu adamı Quba qazısı təyin etmişdilər. Onun yazdığı "Ərəb dilinin stilistikası" kitabı məşhur idi.

1911-ci ildə rus hökuməti burada dünyəvi məktəb tikdirməyi qərara alır. Bu işə iki şəxs - Şalbuz Kələntər oğlu və Hacı Qambay rəhbərlik edir. Bina üçün kərpicləri camaat iməcilik edib kəsir, taxtaları Yalamadan arabalarla gətirirlər. 1913-cü ilin sentyabrın 1-də məktəbin təntənəli açılışı olur. Ona müdir axtılı Abubəkər Şahmərdanov təyin olunur. 1938-ci ildə burada orta məktəb təşkil olunur və Əskər Süleymanov direktor təyin edilir.

XX əsrin əvvəllərində Quba qəzasında rəhbər vəzifələrdə çalışanlar arasında tahircallılar çox idi. Məsələn, Qusar Pedaqoji Texnikumunun dörd müdavimi eyni vaxtda aşağıdakı vəzifələri icra etmişlər: Ələkbər Qurbanov - qəza məhkəməsinin sədri, Qəhrəman Əş-

бадин къазивиле тайинарнай. Ада кхьенвай “Араб чIалан стилистика” ва маса ктабар вириниз машгьур тир. ТIигьиржалви Эмирали, Эмираслан Гьанидин хьтин шаирри, Ашукь Уруж хьтин сеняткарри, Ярали Яралиев, Нуру Къурбанов, Бегьрам Исламов, Сиражеддин Серкеров хьтин алимри ТIигьиржалдин тIвар сейли авунва.

ТIигьиржалвияр кьилин хуьре ва 7 убада яшамиш жезва. Ибур Къаратуба, Уьзденуба, Накьвад муьгъ, Салегь уба, Курумуба, Келентеруба, КIуфуба я. Самур поселкада ва Ширвановка хуьре тIигьиржалвийрин кьадар генани пара я. Ширвандин полкуни вичин кIвалах акъвазарайла Ширвановкадай гзаф урусар Урусатдиз куьч хьанай ва гзаф тIигьиржалвийри и хуьре бине кутунай.

Лезги чIалал рикI алайбур патал ТIигьиржал чIалан музей я. Ина чи гафарганра гьатнавачир, гзафбуруз чизмачир гафарал чан алама. Гзафни-гзаф халкьдин мисалар туькIуьрнава хуьруьнбуру. Абурукай са кьадарбур муаллим Зарбаил Бабаева кIватIна ктаб гьазурнава. ТIигьиржалвияр хъуьруьнрал рикI алай инсанар хьиз вириниз сейли я. Кхьираг Юнус Багьирова тIигьиржалвийри туькIуьрнавай вишералди хкетар кIватIна чапдиз гьазурнава. Хуьре ихьтин са хкетни ава. Садра Теймурленгаз са тIигьиржалви жегьилдин кьил атIуз кIан хьанай. Ада тур хкажайла гада хъуьренай. Шагьди вун вучиз хъуьрезва лагьана жузурла жегьилди икI жаваб ганай: “Зи дустунин кьил чубанди атIанай, вуч хъсан я хьи, зи кьил шагьди атIузва”. И гафарикай Теймурленгаз хуш атанай ва ада вичин фикирдилай гьил къачунай.

Са береда ТIигьиржал КцIарин виридалайни чIехи хуьрерикай тир, гьавиляй ина 1933-йисуз сад лагьай, 1938-йисуз кьвед лагьай колхоз кардик кутунай, 1939-йисуз колхозар галкIурнай. ТIигьиржалдин гуьлгери къуьл цанвай никIерин са кьил СтIурив агакьзавай. 1957-йисуз ина 150 гектардин чилерал уьзуьмлухар кутунай. 1960-йисуз 56 гектардин ичин ва 47 гектардин уьзуьмдин цIийи багълар кутунай. 5242 хеб, 1091 мал хуьзвай хуьруьнбуру.

Са береда 1000 кIвал авай хуьре гила 100 хизан яшамиш жезва. 1977-йисуз ина 412 аялди кIелзавайтIа, гила абурун кьадар 100 я. 35 муаллимди кIвалахай мектебда гила 9 касди кIвалахзава. Къулай шартIар авачирвиляй Магьачкъаладиз 180, Сумгаитдиз 150, Бакудиз 130 хизан куьч хьанва.

rəfov - qəza prokuroru, Qafar Əlimov - qəza təhsil şöbəsinin müdiri, Əziz Ataxanov - qəza komsomol komitəsinin katibi.

Tahircallı Əmirəli, Əmiraslan Ğanidin kimi şairlər, Aşıq Oruc kimi el sənətkarları, Yarəli Yarəliyev, Nuru Qurbanov, Bəhram İslamov, Siracəddin Sərkərov kimi alimlər bu kəndin adını hər yerdə məşhurlaşdırıb. Tahircalı ləzgi dilinin muzeyi adlandırırlar. Tahircallıların danışığında lüğətlərə düşməmiş yüzlərlə sözə rast gəlmək mümkündür. Bu kənd öz məsəlləri ilə də məşhurdur. Zərbail Babayev həmin məsəllərdən bəzilərini toplayıb nəşrə hazırlayıb. Burada hər ürəyəyatan hadisəyə duz qatıb lətifəyə çevirənlər də var. Yazıçı Yunus Bağırov “Tahircal lətifələri” adlı kitab tərtib etmişdir. Kənddə belə bir lətifə məşhurdur. Guya Teymurləng bir gəncin boynunu vurmaq istəyəndə gənc ucadan gülür. Şah bunun səbəbini xəbər alanda gənc cavab verir: “Dostumun boynunu çoban vurmuşdu, xoşbəxtəm ki, mənim boynumu şah vurur”. Bu sözlərdən dodağı qaçan şah onu əfv edir.

Tahircallıların yaşadıqları ərazi əsas kənddən və 7 obadan ibarətdir. Bunlar Qaratoba, Üzdənoba, Torpaq körpü, Salehoba, Kələntəroba, Kurumoba və Kufobadır. 1940-cı ildən başlayaraq kəndin ən gənc obası sayılan Kufobaya buradan çoxlu ailə köçmüşdür.

Tahircallıların xeyli hissəsi Samur qəsəbəsində və Şirvanovka kəndində yaşayır. Keçmiş Şirvan polkunun əsgərlərinin sakin olduğu Şirvanovkadan rus ailələrinin Rusiyaya köçməsi ilə əlaqədar olaraq, buraya Tahircaldan çoxlu ailə köçmüşdür.

Bir vaxtlar Qusarın ən gur kəndlərindən sayılan Tahircalda 1000 təsərrüfat var idi. Burada 1933-cü ildə birinci, 1938-ci ildə isə ikinci kolxoz yaradılmış, 1939-cu ildə kolxozlar birləşdirilmişdi. Buranın gülgəri buğda sortu yetişdirilən taxıl zəmilərinin bir ucu Sudur kəndinə gedib çatırdı. 1957-ci ildə Tahircalın fermalarında 1091 baş qaramal, 5242 baş davar bəslənirdi. Burada atçılıq və quşçuluq inkişaf etmişdi. 150 hektar üzüm bağında bol məhsul yetişdirilirdi. 1960-cı ildə daha 56 hektar meyvə, 45 hektar üzüm bağı salınmışdı.

İndi isə kənddə vur-tut 100 ailə yaşayır. Yolsuz, şəraitsiz qalan kənddən 180 ailə Mahaçqalaya, 150 ailə Sumqayıta, 130 ailə Bakıya, qalanları isə Qusar şəhərinə köçmüşdür. 1977-ci ildə 412 şagirdin təhsil aldığı məktəbdə hazırda cəmi 100 uşaq oxuyur. Vaxtilə 35 müəllimin çalışdığı təhsil ocağında indi 9 müəllim işləyir.



# ЯРГУН

***Чи эрадин II асирда Клавдий Птолемея туькIуьрай картада Алупандин чилерал, гилан Самур ва КцIар вацIарин арада Яргу шегьер авайди къалурнава. Яргудин тIвар византияви Стефанан (III-IV в.й.) "Тайифайрин гьакъиндай" ктабдани гьатнава. Ал-Куфиди гилан хуьр алай чкадал VI-VII асирра Яргу шегьер хьайиди къалурнава.***

Самур вацIун кьере, Руьсел дагъдин ценерив гвай тамаринни багъларин къужахда экIя хьанвай Яргундай КцIар райондин Самур дередин хуьрериз ва Дагъустандин са шумуд райондиз рехъ физва. И хуьруьн дегь тарихрикай цIуд чкадал аламай сурари шагьидвалзава. Абурук "Регьиман сурар", "Дербентвияр", "МискIиндин сурар", "Бегдин сурар", "Амчер", "КIеледхуьруьн сурар", "Штулда авай сурар" акатзава. Виликан хуьр са шумуд чкадал хьанва: Штулдал, Куьгьне хуьре, КIелед кIама, Кьакьан чIерел. Хуьруьн тарих Албаниядин девирриз физва. КIелед хуьр, Къуллад пел, Руьсел хуьр, Штулд пел, Калал пад, Гунгун кIам, Тагъан къванер, Сувал, Купул яд, Карвансарадин магьле, ШатIидин багъ, Гьасанбеган хандакI, Гьажирегьиман багъ, Чумал бахча, Руьц, Маллад ник, Килиг кIам хьтин топонимри къадим тарихрихъ ялзава.

"Яргун" гафунин этимологиядикай рахадайла бязи алимри и топоним лезгийрин хуьруьн майишатдин крариз къуват гузвай Яр гьуцдихъ галаз

# HƏZRƏ

***Eramızın II əsrində Klavdi Ptolemeyin çəkdiyi xəritədə Albaniyanın ərazisində, indiki Samur və Qusar çaylarının arasında Yargu şəhərinin olduğu göstərilir. Yargunun adı Vizantiyalı Stefanın (III-IV əsrlər) "Tayfalar haqqında" kitabında da çəkilir. Al-Kufi indiki kəndin yerində VI-VII əsrlərdə Yargu şəhərinin olduğunu qeyd etmişdir.***

Ləzgilərin qədim kəndlərindən olan Yargun Samur çayının sahilində, Rüsel dağının ətəyində, meşələrin qoynunda yerləşir. Dağıstanın bir neçə rayonuna, Samur çayı vadisinin kəndlərinə yol buradan keçir. Kəndin qədim tarixə malik olduğunu onun 10 yerində bu günə kimi qalmış qədim qəbiristanlıqlar sübut edir. Qədim Yargun bir neçə yerdə olmuşdur: Şul, Köhnə kənd, Keled kam, Kakan çerel adlı yerlərdə xarabalıqlar qalmaqdadır. "Kakan çerel" adlı məskənin tarixi Albaniya dövrünə gedib çıxır. Burada olduqca böyük qəbiristanlıq vardır. Keled xür, Qullad pel, Rüsel xür, Şuld pel, Kalal pad, Qunqun kam, Tağan qvaner, Suval, Kupul yad, Karvansaradin mahle, Şatidin bağ, Çumal bağça, Rüts, Mullad nik, Kilig kam kimi toponimlərdə qədim tarixlər yaşayır.

"Yargun" sözünün etimologiyasından danışanda alimlər bir neçə fikrə əsaslanırlar. Bəziləri bu toponimi ləzgi mifologiyasındakı təbiəti və kənd təsərrüfatını idarə edən Yar allahı ilə əlaqələndirirlər. Bəziləri Yargun sözünün sonundakı "n" hərfini inkar edir

алакъалу тирди къалурзава. Муькуьбуру “Яргу” гафунин “н” алава хьанвай форма кьабулзавач ва халкьдин меце и гаф “Яргу” хьиз амайди къейд ийизва. “Яргу балкІан“, “Яргу пел” хьтин ибараяр халкьди исятдани ишлемишзава. “Яргун” гафунихъ “яр (кІаниди) гун“, “яр акун” хьтин манаяр ава лугьузвайбурни ава. И фикиррихъ умумиламишдай са жигьет ава: “Яргун” топоним гьакъикъатдани “яр” гафунихъ галаз алакъалу я. Ингье “яр” гафуни “ракъинин нур” хьтин манани гузва. Халкьдин меце “яр гун” (экв гун, рекІв гун) хьтин ибара ава. ТІебиатдал чан атай гатфарин бередиз лезгийри “яран бере” лугьуда. Рагъ акьадай чка халкьдин меце “яр акьадай” чка хьизни гьатнава. Гьа икІ, “Яргун” гафуни “яру хьун“, “яру ранг акьалтун” манаярни гузва.

Чи чилерал алай гуьзчивилин чІехи кІунтІарикай тир КІеледхуьруьн кукІушдал дегь чІавара хуьрерин ва кьушунрин арада алакъа туькІуьрун патал цІайлахан куькІуьрдай. Йифиз ялавдин, юкъуз гумадин куьмекдалди душман атуникай хабар гудай. Къубадиз лезгийри дегь чІаварилай КІеле лугьуда. КІеледин рекьел алай и чІехи кІунтІунал алай хуьруьзни инсанри “КІеледхуьр” тІвар гана.

V асирда гьезерри Яргу шегьер чукІурайдалай инихъ хуьруьз Гьезер, алай вахтунда Гьезре лугьузва. Хуьруьн кьвед лагьай тІвар бязи авторри кхьизвайвал, “гьезрет” гафуникай ваъ, “гьезер” гафуникай туькІуьр хьанва. И гафунин сад лагьай слогдик квай ачух сес (е), адал ударение алачирвиляй, зайиф хьана, винидихъ къалурнавай формадин эвезда “Гьезре” тІвар пайда хьана. И фикир тестикьардай мад са делил: Кьиблепатан Дагъустанда “Гьезер” тІвар авайвал хвенвай Гьезерхуьр ава. Гуьгъуьнлай арабрин чапхунчийри лезгийриз басрух ганай. Арабрин гьаким Марвана чпин аксина женг чІугур лезгийрин цІудралди хуьрер чукІурнай. Абурукай садни Яргун тир.

Лезги чилерал, гьакІни Яргундал Ирандин чапхунчийрини са шумудра вегьенай. 1460-йисуз сефевийрин гьаким, Эрдебилдин шейх Жуьнейд вичин кьушун гваз Дагъустандиз гьахьна. Гьа йисан 3-мартдиз Самур вацІун къерехда адан кьушундивай Ширвандин шагь Халилуллагьан ва Къаракъоюнлудин шагь Жаванан галкІанвай къуватрин вилик акъвазиз хьанач. Лезгийрихъ галаз женгера вичел залан хирер хьайи Шейх Жуьнейд са шумуд йикъалай Яргундал яна кьенай. Кьулухъ катай кьушунди адан мейит Яргундал кучукнай. Бубадин кьисас къахчуз алахьай Шейх Гьейдерни (Шагь Исмаил Хетаидин буба) лезгийрихъ галаз дяведа гьелек хьанай. И ва-

və həmin sözün xalqın dilində “Yargu” kimi qaldığını qeyd edirlər. Misal üçün, “Yargu təpəsi”, “Yargu atı” və s. Bu fikirlərdə ümumi bir cəhət var: “Yargun” toponimi həqiqətən də “yar” sözü ilə əlaqədardır. Ləzgi xalq təqvimində Yar baharın ilk ayının (21 mart - 4 aprel) adıdır. “Yar” sözünün “günəş nuru” kimi mənası da var. Gün dəyən yer ləzgi dilində “Яр акьадай чка” kimi səslənir. Beləliklə, ”Yargun” sözü “яру хьун” (qızarmaq), “яру ранг акьалтун” (qırmızıya çalmaq) mənalarını da verir. Kəndin ərazisindəki məşhur müşahidə məntəqəsi olan Keledxürdə qədim zamanlardan kəndlər və qoşunlar arasında əlaqə yaratmaq üçün od qalayardılar. Gecə alovun, gündüz isə tüstünün köməyi ilə düşmənin gəldiyini xəbər verərdilər.

Yargun V əsrdə xəzərlər tərəfindən ələ keçirilmişdir. O vaxtdan kəndə Həzər, indi isə Həzrə də deyirlər. Kəndin ikinci adı bəzi müəlliflərin yazdığı kimi “həzrət” sözündən deyil, “həzər” sözündən yaranmışdır. Ləzgilər kəndi tutmuş xəzərlərə ləzgicə “həzər” deyirdilər. Bu fikri Cənubi Dağıstanda rast gələnən bəzi oykonimlər də sübut edir. Burada “Hezerxür” (Həzərkənd) adlı yaşayış məntəqəsi vardır. Qəbələ rayonundakı Həzrə kəndinin adını da belə izah etmək olar.

Sonralar ərəb işğalçıları ləzgilərə hücum çəkirlər. Ərəblərin hakimi Mərvan onlara təslim olmayan onlarca ləzgi kəndini dağıdır. Həmin kəndlərdən biri də Yargun idi.

Yarguna İran qoşunları bir neçə dəfə hücum edir. 1460-cı ildə Samur sahillərində baş vermiş döyüşlərdə ləzgilər səfəvi hakimi Şeyx Cüneydi öldürürlər. Geri çəkilən qoşun meyidi Yargunda basdırır. Sonralar atasının qisasını almaq üçün gələn Şeyx Heydər də (Şah İsmayıl Xətainin atası) ləzgilərlə savaşda həlak olur. 84 il keçəndən sonra, 1544-cü ildə səfəvi şahı I Təhmasib Şeyx Cüneydin məzarını Ərdəbilə köçürtdürür və üzərində türbə tikdirir. Onun əmri ilə iranlılar Yargunda da eynilə bu cür türbə inşa edirlər. 2007-ci ildə həmin türbəni Azərbaycan hökuməti təmir etdirir. Şeyx Cüneyd türbəsindəki sandıq XVI əsr sənətkarlığının gözəl nümunəsidir. Sandığın uzunluğu 2,1 metr, eni 1,2 metr, hündürlüyü 1,25 metrdir. Məsciddən bir qədər aralıda 35-40 metr uzunluqda, 3-4 metr dərinlikdə tunel var. Mavi rəngli kərpiclə bəzək vurulmuş həmin tunel Keledxürə qədər uzanır.

Yargunlular bir çox tarixi hadisələrin fəal iştirakçısı olmuşlar. 1601-ci ildə Dərbəndi istilaçılardan azad etmək üçün ayağa qalxan əhaliyə qusarlılar da kömək

къиадилай 84 йис алатайла, 1544-йисуз адан хтулди, сефевийрин гьаким I Тагьмасиба Шейх Жуьнейдан сур Эрдебилдиз хутахна гьана кучукна. Ада Эрдебилда ва Яргундал вичин бубадиз сад хьтин мавзолеяр хкажиз туна. Яргундал мавзолей хкажун патал иниз Эрдебилдай устIарар ракъурна. Хуьруьн “Арабрин кIам” лугьудай чкада агъзурралди аскерди кIвалахайди я лугьуда. ЧIехи фурар атIана, накьвадин кирпичар тадарак авурдалай кьулухъ жанлу зунжур туькIуьрна мискIин алай чкадал кьван абур ялнай.

1544-йисуз Яргундал эцигнавай и мавзолейдин гьар цла са тIакI ава. Гуьмбетдин къене, Шейх Жуьнейдан сурал алай сандух XVI виш йисан сеняткарвилин иер чешне я. Гуьмбетдивай 35-40 метр кьван яргъаз, 3-4 метр деринвиле тунел ава. Цлар экуь вили рангунин кирпичрив мягькемарнавай и тунел КIеледхуьруьз физва.

Яргунвийри тарихдин гзаф вакъиайра мукьувай иштиракнай. 1601-йисуз Дербент чапхунчийрикай азад авун патал кIвачел къарагъай лезгийриз кцIарвийрини куьмек ганай. И дяведа яргунвийрин кьве виш касдикай ибарат кIеретI иллаки тафаватлу хьанай. 1735-йисуз Дербентдал вегьей Надир шагьди лезгийрин са шумуд хуьр, гьакIни Яргун чукIурнай. Хуьруьнвийри маса чкада хуьр кутунатIани, гуьгъуьнлай абур эвелан чилерал хтанай.

Дегь чIавара къецепатан уьлквейрин савдагарри Дербентдихъ ва Ширвандихъ хьиз Яргундихъ галазни гур алишвериш ийидай. Инай абуру зардин бафтаяр, сун пекер, халичаяр, сумагар ва балкIанар тухудай. Яргудин ва Куьредин балкIанар дегь чIаварилай вири Къафкъаздиз сейли тир. Арабри и чилериз басрух гайила, абуру халкьдал вегьей харжарихъ балкIанарни акатзавай. 737-йисуз Марван ибн Мегьамеда анжах Яргу хуьряй 500 балкIан тухванай. IX-X виш йисара арабри лезгийривай гьар йисуз 10 агъзур балкIан тухванай. ГьакIни тарихдай 1740-йисуз Надир шагьди Самурдин къерехдавай хуьрерай 2 агъзур, 1914-йисан дуьньядин дяве къарагъайла урус пачагьди Куьредай 4 агъзур балкIан тухвайди малум я.

Тагъан ва Харис хьтин машгьур пагьливанри, Ханбутай бег ва адан паб Тават хьтин женгчийри, Селей ва Исгьакь эфенди хьтин шаирри, Малла Жаруллагь хьтин маарифчийри, Нуреддин Гьабибов, Герасим Руьстемов, Вагьид Къадимов хьтин алимри хуьруьн тIвар кьакьанриз хкажна.

edir. Bu savaşda yargunluların 200 nəfərlik dəstəsi xüsusilə fərqlənir.

1735-ci ildə Dərbəndə hücum çəkən Nadir şah ləzgilərin bir neçə kəndini, o cümlədən Yargunu dağıdır. Kənd camaatı başqa yerə köçməyə məcbur olsa da, sonralar yenidən özlərinin qədim yaşayış yerinə - gün dəyən, bərəkətli torpağa qayıdır. Qədim dövrlərdə xarici ölkələrdən gələn tacirlər Dərbənd və Şirvanla yanaşı Yargunla da alver edirdilər. Buradan onlar zərli baftalar, yun paltarlar, xalça və sumaqlar, eləcə də bütün Qafqazda məşhur olan Yargu atlarını aparırdılar.

Tarixdən məlum olduğu kimi, ərəblər bu torpaqlara hücum edəndə onların xalqdan tələb etdikləri xəraca atlar da daxil idi. 737-ci ildə Mərvan ibn Məhəmməd ancaq Yargu kəndindən 500 at aparmışdı. IX-X əsrlərdə ərəblər ləzgilərdən hər il 10 min at aparmışlar. Tarixdən bəlli olduğu kimi, 1740-cı ildə Nadir şah Samurun sahilindəki kəndlərdən 2000, 1914-cü ilin Birinci dünya müharibəsi başlananda isə, rus çarı Küredən 4000 at aparmışdı.

Yargun qədim zamanlardan öz igid oğulları və qızları ilə məşhur olub. Bu kənddən Tağan və Xaris kimi məşhur pəhləvanlar çıxıb. XIX əsrdə rus qoşunlarına qarşı döyüşmüş Xanbutay bəy və onun həyat yoldaşı Tavat əsl xalq qəhrəmanları idi.



XVIII əsrin şairi Seley burada anadan olmuşdur. XIX əsrdə şair İshaq əfəndi kəndin adını bütün Qafqazda məşhurlaşdırır. 1890-1914-cü illərdə Quba qəzasının beş və Küre mahalının üç kəndində məktəblər açmış yargunlu Molla Carullah böyük maarifçi idi. Onun təşəbbüsü ilə Qubada “Səfa maarif cəmiyyəti” yaradılmışdı. Sonralar o, doğma kəndində “Maarif cəmiyyəti” təşkil edir.



# УЬНУЬГЪ

***Тарихдин чешмейри ва археологиядин материалри субутзавайвал, Уьнуьгъ хуьруьн бине IV виш йисан юкьвара кутунай.***

Базардуьзуьдин, Базарюртдин, Шагь дагъдин живерини муркӀари кьунвай кукӀушрилай авахьзавай гьамга хьтин къайи ятари КцӀар вацӀун кьиле арадал гъанвай чӀехи дугунда - вацӀун террасра 500-600 метрдин гьяркьуьвиле вил алудиз тежедай хьтин дуьзенлухар арадиз гъанва. Дегь чӀавара инсанар яшамиш хьун патал ина вири къулайвилер авай. Гьавиляй КцӀар вацӀун къерехра шумудни са яшайишдин чкаяр хьанай. Гуьгъунлай дагъдин ценерив гвай и чкаяр муркӀари кьунай. Исятда КцӀар дуьзенлухда дуьшуьш жезвай археологиядин амукьайри са береда и чкайра яшайишдин маканар хьайиди мад гьилера субутзава. Гьа икӀ, Уьнуьгъ дередин хуьрерани къадим девирра яшайиш хьайиди винел акъатнава. Уьнуьгъ дередик 9 хуьр акатзава: Уьнуьгъ, Зинданмуругъ, Кузун, Вини Лакар, Суважал, Хурай, ЧӀакӀар, Четкуьн, Лаца.

“Азербайжандин энциклопедияди” и хуьр IX асирдилай авайди къейд авунва. Ингье тарихдин чешмейри ва археологиядин материалри субутзавайвал, сифте яз Уьнуьгъ хуьруьн бине IV виш йисан юкьвара кутунай. И хуьр VII виш йисан эхирдалди яшамиш хьанай. Гилан хуьруьвай са кьадар яргъал тир къадим Уьнуьгъ чапхунчийри чукӀурайла, лезгийри гилан чкадал цӀийи хуьруьн бине куту-

# ƏNİĞ

***Tarixi mənbələrdən və arxeoloji materiallardan göründüyü kimi, Əniğin bünövrəsi IV əsrdə qoyulmuşdur.***

Bazardüzünün, Bazaryurdun, Şahdağın qar və buzlarla örtülmüş zirvələrindən axan göz yaşı kimi duru bulaqlar Qusar çayının mənbəyində, eni 500-600 metr olan düzənliklərdə heyrətamiz mənzərələr yaradıb. Qədim dövrlərdən buralar həyat üçün əlverişli yerlər sayılıb. Bunu Qusar çayının sahillərində tapılmış bir sıra qədim yaşayış məskənlərinin qalıqları da sübut edir. Buzlaşmaya məruz qalana qədər həmin ərazidə həyat qaynayıb.

Qusar maili düzənliyində tez-tez təsadüf olunan arxeoloji tapıntılar Əniğ dərəsindəki 9 kəndin: Əniğ, Zindanmuruq, Kuzun, Yuxarı Ləgər, Suvacal, Xuray, Cağar, Çətkün və Ləzənin qədim zamanlardan mövcudluğunu təsdiq edir.

Tarixi mənbələrdən və arxeoloji materiallardan göründüyü kimi, Əniğin bünövrəsi IV əsrdə qoyulmuş və həmin kənd VII əsrin sonuna kimi mövcud olmuşdur. Bu yaşayış məskəni yadellilər tərəfindən dağıdılanda yerli əhali indiki yerdə yenidən kənd salmış və onu düşmənlərdən qorumaq məqsədilə ətrafına daşdan hasar çəkmişdir.

Kənd haqqında bəzi məlumatlara “Abumüslümün tarixi” kitabında rast gəlmək olar. Həmin kitabda X əsrin ləzgi kəndlərindən, o cümlədən Əniğdən və Əcəxürdən danışılır: “Abumüslümün nəslindən olan

най ва ина мягькем кIелени эцигнай.

Уьнуьгърикай са кьадар малуматар араб чIалал къелемдиз къачунвай “Абумуьслуьман тарих” ктабда гьатнава. И чешмеда Х виш йисарин лезги хуьрерин, гьабурукай яз Уьнуьгърин ва ЭчIехуьруьн тIварар кьунва. “Абумуьслуьман сихилдикай тир Халида ЭчIехуьре, Рамалдана лагьайтIа Уьнуьгъа бине кутунай.” *(“Кьиблепатан Дагъустандин тарихдикай очеркар“(урус чIалал). Магьачкъала, 1964-йис, 38 чин).*

Уьнуьгърикай тарихдин илимрин доктор Жаббар Халилова “Эныхская крепость” (1962-й)” ва “О средневековом могильнике у села Эных Кусарского района” (1965-й) тIварар ганвай илимдин кIвалахра са кьадар къиметлу малуматар ганва.

Хуьре археологиядин кIвалахар кьиле тухвай Ж.Халилова адан тIвар “Эных” хьиз къейд авунва. КцIарви авторар Н.Няметова ва Н.Закиева чпин “Уьнуьгъ хуьруьн гьакъиндай рикIел хкунар” ктабда Уьнуьгъ кIеледин тIвар Еных гьукумдардин тIварцIихъ галаз алакъалу тирди къалурнава. Абуру кхьизва: “Еных кIеледин тIварцIин ери-бинедикай кьетIидиз фикир лугьун мумкин туш. Анжах гиман ийиз жеда хьи, Х асирдин са бязи тарихчийри ва географри вичикай малумат ганвай Абхаз шегьер ина хьанай. Абу-л-Кьасум ибн Гьуьвгелан Абхаз шегьердиз мукьва тир шегьеррин гьакъиндай фикирарни къиметлубур я. Ада кхьизвайвал, Шираздай Абхазиз 2 йикъан, Абхазай Жесамурдиз 12 фарсагьдин, Жесамурдай Бабул-Абвабдиз 20 фарсагьдин рехъ ава. Са бязи алимри Абхаз шегьер гилан Къуба алай чкадал хьанай лугьузва. Анжах Гьуьвгела къейд авунвай рекьи Къубадай Еных кIеледиз кьван авай мензилдив кьазва. Карауловани (араб чIалай эсерар урус чIалаз элкъуьрай кас) Абхаз Къубадин патав ва я Къубадин чилерал алай шегьер тир лугьузва“.

Садбуру “Уьнуьгъ” ойконим лезгийрин “къаних” тайифадихъ галаз алакъалу тирди къейд ийизва. Бязи чешмейра и тайифадин тIвар “ганех” хьиз гьатнава. Гуьгъуьнлай “ганех” “аныхдиз“ элкъвена кьван.

Лезгийрин тIвар-ван авай алим Ражидин Гьайдарова хуьруьн тIвар “Аных” ва “Аныгъ” хьиз кхьизва. Адан фикирдалди, гуя хуьруьн тIвар даргийрин “инихъ” ва бежитинрин “онох” гафарикай арадиз атанвайди я ва а гафари “дагьар“ (магъара) хьтин мана гузва.

Я винидихъ лагьанвай ва яни профессор Р. Гьайдарова ганвай баянар гьакъикъатдив кьадайбур туш. Сад лагьайди, Еных тIвар алай гьукумдар иниз ату-

Xalid Əcəxürdə, Ramaldan isə Əniğdə məskən salır".

“Azərbaycan ensiklopediyası”nda bu kəndin IX əsrdən mövcud olduğu göstərilir. Lakin tarixi mənbələr və arxeoloji materiallar qədim kəndin bünövrəsinini IV əsrdə qoyulduğunu və onun VII əsrə kimi mövcud olduğunu göstərir. Həmin ərazidə IX əsrdə yeni kənd salınmışdır.

Əniğ barədə əslən Qubanın Xucbala kəndindən olan tarix elmləri doktoru Cabbar Xəlilovun rusca işıq üzü görmüş “Əniğ qalası” (1962) və “Qusar rayonunun Əniğ kəndi yaxınlığındakı qədim qəbiristan haqqında” (1965) məqalələrində bir sıra qiymətli məlumatlar vardır.

Qusar çayının (Şahnabat çayının) sağ sahilində yerləşən Əniğin adı yerli əhalinin - ləzgilərin dilində “Ünüğ”dür. Bu adın yaranması haqqında dəqiq məlumat yoxdur. Rəvayətlərə görə kəndin adı Ünüğ qalasını tikən alban sərkərdələrindən birinin adından götürülmüşdür.

Kənddə arxeoloji qazıntılar aparmış C.Xəlilov onun adını “Enıx” kimi göstərmişdir. Qusarlı müəlliflər N.Nemətov və N.Zəkiyev “Əniğ kəndi haqqında xatirə” kitabında Əniğ qalasının adının Enıx hökmdarının adından götürüldüyünü göstərirlər. Onlar yazırlar: “Enıx qalasının dürüst adı haqqında hələ qəti fikir yürütmək mümkün deyildir. Amma güman etmək olar ki, X əsr ərəb tarixçilərinin və coğrafiyaşünaslarının əsərlərində adı çəkilən Abxaz şəhəri burada olmuşdur. Bu cəhətdən Abu-l-Qasım ibn Hövgəlin Abxaz şəhəri ilə yaxın şəhərlərin arasında olan məsafələr haqqındakı fikirləri də çox əhəmiyyətlidir. O yazır ki, Şirazdan Abxaza 2 günlük, Abxazdan Cesamura 12 fərsəh və Cesamurdan Babul - Abvaba 20 fərsəhlik yoldur. Bəzi tədqiqatçılar Abxaz şəhərini Quba ilə eyniləşdirir. Lakin Hövgəlin göstərdiyi məsafələr Qubadan çox Əniğ qalasına uyğun gəlir.

Karaulov (ərəbcədən əsərlərin tərcüməçisi) da Abxazı Quba ilə eyniləşdirməyə çalışır. O, göstərir ki, Abxaz Qubanın yaxınlığında və yaxud Qubanın ərazisində yerləşirmiş".

Bəzi müəlliflər “Əniğ” oykoniminin ləzgilərin “qanix” tayfası ilə əlaqəli olduğunu iddia edirlər. Bir neçə mənbədə bu ad “qanex” kimi də göstərilib. Guya sonradan “qanex” “anıx"a çevrilib.

Ləzgi alimi Raciddin Heydərov bu kəndin adını gah “Anıx”, gah da “Anığ” kimi yazır. Onun fikrinə görə, guya kəndin adı dargilərin “inix” və bejitinlərin “onox” sözlərindən yaranıb və “mağara” mənasını verir. Bütün bu mülahizələr həqiqətə uyğun deyildir.

никай хабар гузвай ва субутзавай тарихдин чешмеяр авач. Кьвед лагьайди, Абхаз ойконимдин Къуба шегьердихъ ва Уьнуьгърин хуьруьхъ галаз алакъа авайди икьван гагьди субутиз хьанвач. Пуд лагьайди, лезгийрихъ "къаних" тIвар алай тайифа хьайиди туш.

Хуьруьн тIвар дарги, бежитин ва маса чIалара ваъ, лезги чIала жагъурун лазим я. Хуьр алай чка дагьардиз (магъарадиз) ухшар туш. Уьнуьгъ КцIар вацIун эрчIи пата, а вацIук какахьзавай Рек вацIун ва ГъвечIи вацIун юкьва авай кьакьан кIунтIунал экIя хьанва. Вичин гьакъиндай "Абумуьслуьман тарихда" малумат ганвай и хуьруьн тIвар чара-чара тарихчийри чпин чIаларив кьадайвал "Эных", "Ганех", "Аниг", "Энигъ", "Аных", "Аныгъ" хьиз къалурнаватIани адан лезги чIалалди тIвар "Уьнуьгъ" я. 1955-йисуз чи тIвар-ван авай алим Мегьамед Гьажиевани хуьруьн тIвар "Уьнуьгъ" тирди къейд авунай. Амма и гафуниз гьа камалэгьлидини дуьз баян ганвач.

И тIвар лезгийрин "уьнуьг" (гьалкъа) гафунилай къачунвайди я. Хуьр вири патарихъай вацIари, дагълари, тик кьвалари уьнуьгда (гьалкъада) тунва. Гьавиляй чкадин агьалийри хуьруз "Уьнуьгъ" тIвар ягъанай. Гуьгъуьнлай "**г**" сес "**гъ**" сесиниз элкъвена ва гафунин мана-метлебда са дегишвални кьиле фенач.

Гьам винидихъ тIварар кьур тарихдин чешмейра, гьам илимдин кIвалахра ва гьамни эхиримжи йисара чап хьайи макъалайра къейд авунвайвал, Уьнуьгъ чи къадим хуьрерикай я. Хуьруьвай са километр кьван яргъал тир куьгьне яшайишдин чкадай жагъанвай къадим затIарини и кар субутзава. Инай хъенчIин къапар, ракьун яракьар, гимишдин тупIалар, япагьанар жагъанва. Ракьун тур, жида, хьел-чIемерук ва маса яракьар лезги устIарри раснавайбур я. Археологри къейд ийизвайвал, и яракьрин ери-бине Кьибле Дагъустандин хуьрерай жагъанвай яракьрихъ галаз сад я. Гимишдин тупIалрал Алупандин хачар ала. Ибур лезгийри христиан дин кьабулайдалай кьулухъ раснавайбур я. Хачдин шикилар са бязи хъенчIин къапарални ала.

Тарихдин чешмейра Уьнуьгъ кIеледикай са кьадар малуматар ава. IX виш йисан сифте кьилера эцигай и кIеле гзаф кьакьан ва мягькемди тир, ада чIехи чка кьазвай. Хуьр кIеледин къенепата авай. КIеледин цларин яргъивал 3 километр, гьяркьуьвал 2 метр тир. Тарихчийри кхьизвайвал, Шабрандинни Дербентдин арада икьван чIехи ва мягькем кьвед лагьай кIеле авачир. Исятда кьве чкадал кIеледин

И хуьруьн агьалийри гьам Надир шагьдин, гьамни урус пачагьдин кьушунрин аксина кьиле фейи женгера мукьувай иштиракнай. ГадацIийихуьруьнвияр 1837 ва 1877-йисарин бунтара, 1918-йисуз эрмени дашнакрихъ галаз ягъ-ягъунра чешнелу хьанай. Урусрин машгьур кхьираг Владимир Дала гьахъ патал женг чIугур гадацIийихуьруьнви къачагъ Гьасанакай “Лезги Гьасан” тIвар алай повесть кхьенай. Маарифчи Малла Гьажи эфенди гьам Къуба, гьамни Куьре магьалриз машгьур тир. Ада сифте яз хайи хуьре кьилди мектеб ачухарнай ва кесибрин аялриз тарсар ганай. XIX виш йисан сейли шаир Саяд Пери Рагьимхановадин ширар исятдани халкьдин меце ама.

həsi 1100 kvadratmetr, hündürlüyü 3-6 metr olan təpəlikdə salınıb. Buradan saxsı qablarla yanaşı, yastı çay daşları da tapılıb. Həmin kənd də XVIII əsrdə dağıdılmışdır.

Gədəzeyxürün ərazisində daha iki kənd olub. Onlardan biri Mahmudanpel təpəsində yerləşmişdi. İndiki kənddən bir kilometr aralıda salınmış həmin kəndin tarixi IV-VIII əsrləri əhatə edir. Burada arxeoloqlar qədim qablarla yanaşı divar qalıqları da üzə çıxarıblar. 7-9 metr hündürlükdə yerləşən Mahmudapelin (Mahmud təpəsinin) sahəsi 1600 kvadratmetr olub, burada orta əsrlərə aid qala yüksəlmişdir.

Dördüncü kəndin qalıqları Şamilanpel (Şamil təpəsi) adlı yerdə aşkar edilmişdir. Yerdən 8-15 metr hündürlükdə olan bu yerin sahəsi 2000 kvadratmetrdir. Buradan tapılmış əl dəyirmanı və məişət əşyaları Şamil təpəsində IV-VI əsrlərdə yaşayışın olduğunu sübut edir.

Yuxarıda adlarını çəkdiyimiz kəndlərin əhalisinin Gədəzeyxürün ərazisində yeni kənd saldıqları barədə tarixi mənbələrdə məlumat yoxdur. Gadarxürün ("xür” kənd deməkdir) əhalisi isə iki dəfə yeni yerdə məskən salmış, lakin həmin yerlərdə yaşayış üçün vacib şərtlər olmadığına görə oranı tərk etmişdir. Nəhayət, XII əsrin əvvəllərində onlar indiki Gədəzeyxür olan yerdə - təpədə kənd salmış, buraya əvvəlki kəndin - Gadarın adını vermişlər. Yeni kəndin adı sonradan “ГадарцIийихуьр” (Gadaryenikənd) olmuş və sonradan (-r) səsi düşüb “ГадацIийихуьр” formasını almışdır.

Bəzi rəvayətlərə görə kənd guya bir qada (oğlan) tərəfindən salınmış və ona görə də kəndin adı ГадацIийихуьр (yəni oğlanın yeni saldığı kənd) olub. Bəzən isə kəndin adını qada adlı tayfa ilə əlaqələndirirlər. Lakin tarixi mənbələr bu ərazidə belə bir tayfanın yaşadığını təsdiqləmir.

Əhalisinin sayına görə rayonun ən böyük kəndlərindən sayılan Gədəzeyxürün tarixi qəhrəmanlıq səhifələri ilə zəngindir. Kəndin əhalisi Nadir şahın və rus çarının qoşunlarına qarşı qəhrəmanlıqla döyüşmüşdür. Onlar 1837 və 1877-ci illər üsyanlarında və 1918-ci il erməni daşnaklarına qarşı mübarizədə də fərqlənmişlər. Rus yazıçısı Vladimir Dal ədalət uğrunda mübarizə aparmış gədəzeyxürlü qaçaq Həsən haqqında “Ləzgi Həsən” adlı povest yazmışdır.

Gədəzeyxürdən tanınmış adamlar çox çıxıb. Maarifçi Molla Hacı əfəndi həm Quba, həm də Küre mahalında məşhur idi. O, kənddə məktəb açıb yoxsul uşaqlarına dərs demişdir. XIX əsrin məşhur şairi Sayad Pəri bu kəndin adını hər yanda tanıtmışdır.



# ХУРАЙ

***Дегь чIавара “Чирагъар”, “Маралюрт” лугьудай чкайра бине кутур хурайвийри 500 йис вилик гилан хуьр алай, вичихъ берекатлу чилер ва серин булахар авай и чка хкянай.***

Уьнуьгъ дереда экIя хьанвай, къацу дагълари синел кьил эцигнавай Хурайди вичин акунралди иниз атайбур гьейранарда. Хуьруьн къадимвал ина авай сур девиррин сурари, майишатдин крар кьиле тухудайла чиликай хкатзавай хъенчIин къапари, цин гунгаррин кIарари ва маса затIарини субутзава.

ТIвар-ван авай тарихчи, вич Къубадай тир М.М.Ихилова вичин “Лезги халкьарин десте” ктабда КцIарин Хурай, Суважал, Агъа Лакар ва маса хуьрерикай марагълу малуматар ганва.

Хуьруьн тIварцIиз жемятди са шумуд жуьреда баянар гузва. Ам монголрин, фарсарин басрухрихъ, хуьрремийрин гьерекатдихъ галаз алакъалу ийизвайбурни ава. Гзафбуру и тIвар лезгийрин “хьурай” гафуникай (“хуьр инал хьурай“) туькIуьр хьанвайди я лугьуда. Садбуру хуьруьн тIвар лезги чIалан “хур” гафуникай арадиз атанвайди я лугьузва. Дагъдин хурал алай хуьруьн тIвар дегь чIавара Хур хьун мумкин я. Вучиз лагьайтIа гилан тIварцIин дибда авайди “хур” гаф я. Фонетикадин дегишвал кьиле фена “Хур”дикай “Хурай” (гьинай?) хьун лезги чIала дуьшуьшдин кар туш. Чун ихьтин хиялдал гъайибурукай садни Хурайдин тIвар-ван авай инсанрикай тир рагьметлу Эледдин Мерданов тир.

Са кар шаксуз я хьи, Хурай - хурал ахъа хьанвай цуьк хьиз иер ва тикрарсуз я. Адахъ зегьмет-

# XURAY

***Qədim dövrlərdə “Çıraqlar”, “Maralyurd” kimi yurd yerlərində məskən salmış yerli əhali təxminən 500 il əvvəl indiki yerə - bərəkətli torpaqları və bol sulu bulaqları olan yamaca köçmüşdür.***

Qusarçayın sol sahilində, Əniğ dərəsində yerləşən, meşəli dağların sinəsinə sığınan Xuray kəndi bənzərsiz təbiəti ilə bura gələnləri heyran edir. Kəndin qədimliyini buranı dörd tərəfdən əhatə edən köhnə qəbiristanlıqlar da sübut edir. Təsərrüfat işləri görülərkən yerin altından çıxan məişət qablarının, bəzək əşyalarının qalıqları, saxsıdan hazırlanmış su borularının hissələri və sairə bir zamanlar burada gur həyat qaynayan böyük yaşayış yeri olduğundan xəbər verir. Təbii fəlakətlərdən, yadellilərin hücumlarından qurtulmaq üçün xuraylılar qədim məskənlərini yeni yurd yeri ilə əvəz etməli olmuşlar.

Tanınmış tarixçi, əslən Qubadan olan M.M.İxilov özünün “Ləzgi qrupu xalqları” adlı kitabında Qusarın Xuray, Suvacal, Aşağı ləgər və başqa kəndləri haqqında maraqlı məlumatlar vermişdir.

“Xuray” sözünün etimologiyasını yerli əhali müxtəlif cür izah edir. Onu monqol istilaları, fars hücumları, xürrəmilər hərəkatı və sair ilə əlaqələndirənlər də var. Çoxları onu “хьурай” (“olsun”) ləzgi sözü ilə izah edir. Bəziləri kəndin adının ləzgicə “хур” (“yamac”) sözündən yarandığını israr edir. Ehtimal etmək olar ki, dağ döşündəki bu kəndin ilkin adı Xur olub və fonetik dəyişikliklər nəticəsində indiki şəklini alıb. Bizə bu fikri çatdıranlardan biri Xurayın adlı-sanlı ziyalısı Ələddin Mərdanov idi. Bir şey şəksizdir ki, Xu-

дални мугъманрал рикI алай къени инсанар ава. Вичихъ Хурай, Суважал ва Вини Лакар хуьрер акатзавай Хурайрин администрациядихъ санлай 541 майишат ава, ина 1735 кас яшамиш жезва. Хуьререкай генани чIехиди тир Хурайдал 214 майишат ва 609 кас ала.

"Булахрин дере" лугьудай чкада са шумуд булах ргазва. Инай хуьруьн магьлейриз яд гьанва. "Тагьира михьай чил", "ЦIивинрин кIам", "Къариди цан цайи чка", "Веледди ахъаяй чил", "Сувал", "ЧIурал", "Хелил бахча" хьтин топонимри и хуьруьн тарихдин гелер хуьзва.

КцIар район пIирерин макан хьиз сейли я. Ина анжах "Мурад пIир" тIвар алай 20-далай гзаф пIирер ава. ПIирерикай виридалайни машгьурди Хурайдал ала. Адаз "ПIир бубаярни" лугьуда. Вичихъ 200-далай гзаф яшар авай и пIир хуьруьн акунар авай чкадал, чIехи тарарин хъендик гала. Ина бубани хва - Шихабдулкеримни Мурад кучукнавайди я. Къубадин Герей хуьряй тир Шихабдулкеримахъ Мурад тIвар алай авай-авачир са хва авай кьван. Акьул балугъ хьайила гада рагьметдиз фенай. Ам хуьруьвай яргъа тир сурариз тухун патал бубадиз герейвийривай са араба кIан хьанай. Ингье кесибдиз садани куьмек ганач. Чара атIай дертлу кас шехьда. И чIавуз цавари гугрумна, чил зурзуна, касдин кьилив яцран араба пайда жеда. Вилералди и аламат акур хуьруьнбуруз гада кучукиз куьмек гуз кIан хьайила рикI ханвай касди лугьуда: "Зун и хуьряй акъатда. Хва лагьайтIа, яцар гьинал акъвазайтIа, за гьанал кучукда".

Шумудни са хуьряй экъечIна фейи абур Хурайдив агакьайла яцар инал акъвазда. Тамарин яхада, кьакьан тарари элкъуьрна юкьва тунвай цуьквери таладал гьейран хьайи касди "зи хцин эхиратдин кIвал инаг хьурай" лугьуда.

Хурайвийриз гъариб мугьмандин дердиникай хабар хьайила абуру жегьил элдин адетдалди кучукна. Тазият кьилиз акъатайла бубади вичин хцин сурал чан гана. Хурайвийри гьамни вичин веледдин патав кучукна. Гьа чIавалай и кьве сур "Мурад пIир" ва "ПIир бубаяр" тIвараралди сейли я. И пIирел Азербайжандин чара-чара чкайрай инсанар къведа. Иллаки гатун варцара иниз къвезвайбурун сан-гьисаб жедач.

КцIар райондин къадим мискIинрикай сад Хурайдал ала. XIX виш йисан диндин дараматрикай тир и мискIин эхиримжи йисара цIийи кьилелай туькIуьр хъувуна динэгьлийрин ихтиярда вуганва.

ray dağ döşündə açılmış çiçək (хурал алай цуьк) kimi gözəl və təkrarsız kənddir. Burada zəhmətkeş, mehriban, qonaqpərvər insanlar yaşayır.

Xuray inzibati nümayəndəliyinə Xuray, Suvacal və Yuxarı Ləgər kəndləri aiddir. Bu ərazidə 541 təsərrüfatı olan 1735 nəfər əhali yaşayır. Onun ən böyük kəndlərindən olan Xuray 214 təsərrüfata və 609 nəfər əhaliyə malikdir.

"Tahir kərtləyən", "Basmalar dərəsi", "Qarının əkini", "Böyük dərə", "Kiçik dərə", "Vələd açan", "Hacı İdris bağı", "Suval", "Çural", "Qəcər", "Seyid əkini", "Xəlil bağça", "Daş əkini" kimi toponimlərdə kəndin tarixi yaşayır.

Qusar rayonu pirlər məskəni kimi məşhurdur. Təkcə "Murad piri" adı ilə burada 20-dən çox ocaq var. Belə ocaqlardan ən məşhuru Xuray kəndindədir. Onun başqa bir adı "Pir babalar"dır. Yaşı iki əsrə yaxın olan bu pir kəndin mənzərəli yerində, qocaman ağacların çətiri altında yerləşir. Deyilənlərə görə burada ata və oğul - Şıxabdulkərim və Murad dəfn olunublar. Əslən Qubanın Gərəy kəndindən olan Şıxabdulkərimin aman-zaman oğlu Murad həddi-büluğa çatanda vəfat edir. Oğlunun cənazəsini kənddən xeyli aralıda yerləşən qəbiristanlığa aparmaq üçün Şıxabdulkərim həmkəndlilərindən ona araba verməlrini xahiş edir. Lakin kişinin sözlərinə məhəl qoymurlar. Çarəsi kəsilən dərdli ata ağlayır. Birdən göy guruldayır, yer titrəyir. Qocanın qarşısında bir öküz arabası peyda olur. Kənd camaatı bundan təşvişə düşür. Onlar qocaya kömək etmək istədiklərini bildirirlər. Lakin incimiş qoca deyir:

- Mən daha bu kənddə qalmaram. Oğlumu isə öküzlər harada dayansalar, orada basdıracağam.

Neçə kəndi, obanı arxada qoyub gedən öküzlər Xurayda ayaq saxlayır. Meşənin ətəyində, qədd-qamətli ağacların əhatə etdiyi çiçəkli talanın gözəlliyinə heyran olan qoca "oğlumun son mənzili bura olsun", - deyə qərara alır. Xuraylılar qərib adamın dərdinə şərik olur, onun oğlunu el adəti ilə burada basdırırlar. Mərasim sona çatanda qoca qəbrin yanında can verir. Onu da oğlunun yanında dəfn edirlər.

O vaxtdan bu qoşa qəbir "Murad piri" və ya "Pir babalar" adları ilə tanınır. Onların ziyarətinə Azərbaycanın müxtəlif guşələrindən zəvvarlar gəlir. Əlal-xüsus yay aylarında buraya gələnlərin sayı-hesabı olmur.

Qusar rayonunun qədim məscidlərindən biri Xuray kəndindədir. XIX əsrin abidəsi olan bu məscid binası yenidən bərpa edilərək, dindarların ixtiyarına verilib.



## ЧПИР

***400 йис инлай вилик гилан чкадал куьч жедалди чпирвийри пуд чкадал хуьр кутунай. А цIуру хуьрерин амукьаяр къедалди ама.***

Са береда инин виридалайни кьакьан кIунтIунал эцигай, гила вичин чкIанвай цлар амай мискIиндин патавай Чпир, гьакIни къунши хуьрер капун юкьвал алайди хьиз аквада. Инал хуьруьн иер акунар карагда вилерикай. Ихьтин иервилерин ашукь яз хуьруьнбуру адал "Чи пIир" тIвар эцигнаватIа?

Сагъзамаз хийирлу крарихъ гелкъвейбур кьейидалай гуьгъуьниз пIирериз элкъуьрдайбурун хуьр я инаг. Кьуьзуь пIир, Чилед пIир, Шейх Макьсудан пIир, Бибиназ хьтин пIирерал патан хуьрерайни инсанар къведа. Кьуьзуь пIирен яхада 7 рекьин пел ава. И рекьер Манкъулидхуьруьхъ, ГуьндуьзкIеледихъ, Ясабдихъ, Лечетдихъ, ЦIийихуьруьхъ, гьакIни Чпирин вини ва агъа магьлейрихъ физвайбур я.

Кьуьзуьбурун ихтилатри, гьакIни тарихдин чешмейри виликан хуьр пуд чкадал хьайидан шагьидвалзава. Сифте яз хуьруьн бине Эвежугъ хуьруьн къаншарда авай "СикIрен кIунтIарал" кутунай. Гуьгъуьнлай хуьруьнбур "Валкъадал" куьч хьанай. Хуьруьн кIама авай и гуьлуьшан, дуьзенлух чкада куьгьне хуьруьн амукьаяр гилани гьалтзава. Пуд лагьай гьилера чпирвийри "КьантIар"дал бине кутунай. Чапхунчийри ва тIебиатдин басрухри чпирвияр инайни куьч жез мажбурна. Эхирни абуру гилан чкадал цIийи хуьр кутуна.

## CİBİR

***400 il əvvəl indiki əraziyə köçənə kimi cibirlilər üç yerdə məskən salmışlar. Köhnə kəndlərin xarabalıqları indiyə kimi qalmaqdadır.***

Qusarın qədim kəndlərindən olan Cibir təbiətin füsunkar qoynunda yerləşir. Bir vaxtlar kəndin ən hündür yerində tikilmiş, indi ancaq dağılmış divarları qalan məscidin yanından kənd ovuc içi kimi görünür. Buradan heyrətamiz mənzərələr açılır. Yəqin elə buna görə də yerli əhali kəndə böyük məhəbbətlə "Чи пIир" (mənası "bizim pirimiz" deməkdir) adını verib.

Kəndin sakinləri xeyirxahlıqda ad çıxaran adamlara sağlığında hörmət edir, dünyasını dəyişəndə onların qəbirlərini pirə çevirirlər. Burada çoxlu pirlərin olması yəqin bununla əlaqədardır. "Кьуьзуь пIир" (Qoca pir), "Чилед пIир" (Çilə piri), "Şeyx Maqsud piri", "Bibinaz piri" kimi ocaqlara yerli əhali indi də sitayiş edir. "Qoca pir"in yanındakı yeddi yolun birləşdiyi təpədən İmamqulukənd, Gündüzqala, Yasab, Ləcət, Zeyxur kəndlərinə, o cümlədən Cibirin yuxarı və aşağı məhəllələrinə yollar ayrılır.

Qusarın əksər kəndləri kimi Cibir də qədim qəbiristanlıqların əhatəsində yerləşir. Tarixi məlumatlara və qocaların söhbətlərinə əsaslansaq, kənd dörd dəfə yerini dəyişmişdir. Əvvəllər o, qonşu Əvəcuğ kəndinin yaxınlığındakı "СикIрен кIунтIар" adlı yerdə olmuşdur. Sonradan kənd "Валкъадал"a köçmüşdür. İndiki Cibirin yaxınlığında, kəndin aşağı hissəsində həmin kəndin xarabalıqları qalmışdır. Üçüncü dəfə ci-

Гагь-гагь ина кIвал эцигдайбурал, цан цадайбурал чиликай хкатзавай аламатдин затIар гьалтда. Исятда хуьруьн пуд кIвале чиликай хкатнавай, кьакьанвал са юкIни зур тир куьшуьяр хуьзва. Чиликай хкатай къадим гетIеяр, куьшуьяр, бекьеяр, ципIер, сатулар, сахнахар авачир кIвал бажагьат жеди ина. Санани амачир кIирер, асул лезги дергесарни ала гъенерал.

XVIII асирда Чпир Къуба аялатдин чIехи хуьрерикай яз гьисабзавай ва ина майишат вилик тухудай къулай шартIар авай. Дербентдиз карвандин рехъ инай тIуз физвай. Хуьруьн агъа кьиле "Лавардин рехъ" лугьудай шегьре авай. 1926-йисуз Чпир вичин жемятрин кьадардал гьалтайла райондин 5 лагьай хуьр тир, ана 1210 кас яшамиш жезвай. Са береда хуьруьнбурун хъуьтIуьн раж никIерайни багъларай тир. Гьавиляй абурал "къуьл маса гудай чпирвияр" хьтин лакIабни алай. Совет гьукуматдин сифте йисара 2000 гектардив агакьна никIер авай ина (гила 1200 гектар я). "Чпир ич хьтин руш" гафарни дуьшуьшдай арадал атанвайди туш. И хуьр "Чпир ич" лугьудай пад яру, ширин ичерин ватан я.

Салманан, Меликан, Эбедан, Алисманан, Азаян, Банлудин, Гьедетан багълара куг ичер, къизилагьмедар, телеб ичер (жиргьажи), цуру ичер, агьмедар хьтин сортар генани пара цазвай. Сулейманан, Абдулгьалиман, Разиядин багълара шумудни са жуьредин ичин тарар авай. "Къадиран къелемар", "Бикед бахчаяр", "Гуьлалид вир" лугьудай багълара анжах чуьхверрин 50-далай виниз сортар авай. Абурукай гьабгьанар, нарармуд, шекер кьал, къаратлугъ, дакIур, тутус, нуцIра кьалар, къарпузд кьалар, яру кьалар къалуриз жеда. Гьар багъда чуьхверар кьурурдай тIанурар авай. Ина кIерецдин тарар кьван чIехи жезвай Шабран пIинийрин тарарни авай. Чпирвийри хайи хуьр авадан авун патал вири девирра алахъунар авурди я.

XIX асирдин эхирра хъвадай цикай кьитвал чIугур чпирвийри Мучугъай хуьруьз къвезвай яд тIимил хьунихъди Къубадин комендантдиз чар кхьенай. Хуьруьнвийрин тIалабуналди Чпиррин булахрин кIамуз атай комендант ина къалабулух квай дишегьлийрал гьалтнай. Ада абурун дердийрихъ яб гайидилай гуьгъуьниз кьве хуьр икьрар хьанай ва Мучугъай иниз яд гьанай. 1973-йисуз ЧIакIар-Чпир кьанал акъуддалди гьа цикай менфят къачунай.

Хуьре Абдуллагьар, Гьесенар, Бардияр, Кулларар, КIамарар, Теверар, Эхтерар ва маса сихилар яшамиш жезва.

birlilər "КьантIар" adlı yerdə məskən saldılar. Lakin yadellilərin hücumları və təbii fəlakətlər onları buradan da köçməyə məcbur etdi.

Təxminən dörd yüz il əvvəl kəndin indiki ərazisində onun yeni bünövrəsi qoyuldu. Buranın qədimlərdə yaşayış yeri olduğunu tikinti və əkin işləri zamanı üzə çıxan saxsı küplər, bardaqlar, camlar və s. sübut edir. Hazırda kənddəki 3 evdə insan boyu bərabərində küplər saxlanılır.

XVIII əsrdə Cibir Quba əyalətinin böyük kəndlərindən idi və burada kənd təsərrüfatını inkişaf etdirməkdən ötrü əlverişli şərait var idi. Dərbəndə gedən dəvə karvanları buradan keçirdi. Həmin yol indi də "Lavardin rex" ("Dəvə yolu") adlanır.

1926-cı ildə Cibir əhalinin sayına görə rayonun beşinci kəndi idi və burada 1210 nəfər yaşayırdı. Cibirlilərin "buğda satan cibirlilər" ləqəbi ilə tanınması təsadüfi deyil. Kənd özünün bağları və zəmiləri ilə məşhur olmuşdur. Sovet hakimiyyətinin ilk illərində burada 2000 hektara yaxın taxıl zəmisi var idi (indi 1200 hektardır). Kəndə şöhrət gətirən "Cibir" alma sortu təkcə Azərbaycanda deyil, onun hüdudlarından uzaqlarda da məşhur idi. Cibir bağlarında təkcə armudun 50-dən artıq sortu becərilirdi. "Qadirin qələmləri", "Bikənin bağçaları", "Güləlinin gölü" adlı bağlarda yetişdirilən ğabğan, nararmud, şəkərarmud, qaratlıq, dakur, tutus, quşarmudu, qarpız armud, qırmızı armud dadına, ətrinə və yaraşığına görə xüsusilə seçilirdi. Hər bağda armud qurutmaq üçün xüsusi təndirlər var idi.

Salmanın, Məlikin, Əbədin, Əlismanın, Azayın, Banlunun, Hədətin bağlarında kuq alma, qızıləhməd, cırhacı, turş alma, əhməd alma kimi qiymətli sort almalar yetişdirilirdi. Süleymanın, Abdulhəlimin, Raziyənin bağları xüsusilə məşhur idi. Qoz ağacları boyda olan məşhur Şabran qilası ağacları da Cibir bağlarının şöhrətini artırırdı.

XIX əsrin sonlarında Mucuğdan buraya gələn su xəttində su azalanda cibirlilər Quba qəzasının komendantına ərizə ilə müraciət edirlər. Kənd əhalisinin tələbi ilə Cibirdəki bulaqlar dərəsinə gələn komendant burada qadınlarn şikayətinə qulaq asır. Vəziyyətlə tanış olduqdan sonra iki kənd arasında razılıq əldə olunur, Mucuqdan Cibirə yeni su kəməri çəkilir. Həmin kəmərdən yerli əhali 1973-cü ildə Cağar-Cibir kanalı işə salınana kimi istifadə etmişdir.

Kəndin məşhur nəsilləri Abdullahar, Hesenar, Bardiyar, Kullarar, Kamarar, Teverar, Exterar sayılır.



# ЦIЕХУЬЛ

***Кьулан вацIун чапла кьере, Шагь дагъдин ценера экIя хьанвай къадим ЦIехуьл хуьруьн сифте бине “Пазу” лугьудай чкадал кутунай. Гуьгъуьнлай хуьр “Яран кIунтIунал” куьч хьанай.***

Хуьруьн пуд гьавадин дегь сурари адан гелер Къафкъаздин Албаниядин девиррихъ ялзава. “Яран кIунтI” гьам и хуьр, гьамни адан къвалав гвай маса хуьрер чапхунчийрикай хуьн патал гзаф дигай чка тирди инин чиликай хкатзавай археологиядин амукьайрини субутзава. Инай кьуд пад капун юкьвал алай хьиз аквада. 1957-йисуз Совет гьукуматди и дагъдин хуьр Самурдин къерехдиз куьчарна.

“ЦIехуьл” гафунихъ гьихьтин мана ава? Са береда и дередин виридалайни чIехи базар гилан хуьр алай чкадал хьайиди фольклордин материалрайни малум жезва. Са баядда икI лугьузва:

*Я бахтавар ЦIехуьлрин муьгъ,*
*Анаг даим гур базар я.*
*Вун эллерин чIалахъ жемир,*
*Абур гьакIан авазар я.*

Дербентдай, Рутулай, Шабрандай, Муьшкуьрдай иниз девейрив недай-хъвадай затIар, гьакIни кьел

# ZUXUL

***Samur çayının sol sahilində, Şah dağının ətəklərində yerləşən qədim Zuxul kəndinin ilk məskəni qədim dövrlərdə “Pazu” adlanan yer olmuşdur. Sonralar kənd oradan “Yaran kunt” adlı sahəyə köçmüşdür.***

Zuxuldakı üçmərtəbəli qəbiristanlığın izləri Qafqaz Albaniyası dövrünə gedib çıxır. Kənddəki “Yaran kunt” adlı təpə qədim zamanlarda həm bu, həm də ətraf kəndlərin əhalisi üçün müşahidə məntəqəsi rolunu oynamışdır. Həmin ərazidən yerli əhali tez-tez qədim məişət əşyalarının qalıqlarını tapır. 1957-ci ildə Sovet hökuməti bu dağ kəndini Samur çayının sahilinə köçürdü.

Zuxul (ləzgicə “ЦIехуьл”) sözünün mənası nədir? Kəndin qocalarının söhbətlərindən və folklor materiallarından məlum olduğu kimi, burada bir zamanlar gur bazar olub. Bununla bağlı bir ləzgi bayatısında belə deyilir:

*Bəxtəvər Zuxul körpüsü,*
*Bura daim gur bazardır.*
*Hər deyilənə inanma,*
*Yalandan hamı bezardır.*

Tarixdən də məlum olduğu kimi bir zamanlar Samur dərəsinin ən gur bazarı burada yerləşirdi. Dər-

гьидай ва маса гудай. Генг яйлахра лапагрин суьруьярни маларин нехирар хуьзвай чкадин агьалияр кьелев и базарди таъминардай. И дередин хуьрерин жемятрини кьел инай къачудай. Гьавиляй адаз ЦIуьхуьр тIвар ганай. Вахтар алатунивай и гафуни гилан форма къачуна.

Са береда хуьр вичин мискIиндалди сейли тир. Ингье Совет гьукуматдин девирда иниз фин инсанриз къадагъа авуна, мискIин техилдин анбардиз элкъуьрна. Са кар ава хьи, мискIиндин дараматдик хкIурайбурун кьилел мусибатар атана. Са касдин гьил кьуьнтуьнилай атIана, садан кьве кIвачни хана, сада инай сутунар чуьнуьхай юкъуз самавардай хкадар хьайи цIуквари адан вил буьркьуь авуна.

Гзаф лезги хуьрерал хьиз и хуьрелни ягъийри, гьабурукай яз фарсари са шумудра вегьенай. Яргундай ТIигьиржалдиз акъатай абуру инра кьиле фейи ягъ-ягъунра гзаф аскерар квадарнай. И кар абурун сан-гьисаб авачир сурарин къванерини субутзава. А женгерикай хуьруьнвийри гзаф риваятар туькIуьрнай.

ЦIехуьлвийрин, иллаки инин жегьилрин виридалайни рикI алай чка "Жегьил пIир" я. Хуьруьн иер, гуьлуьшан чкадал алай и пIир булахдин кьилик ква. Аниз мехъерардай жегьилар къведа. ПIирен тарих гьезерри и чилерал вегьей чIаварихъ галаз алакъалу я.

Гьезерри фад-фад ЦIехуьлай рушар, сусар чуьнуьхдай кьван. Садра итимар векье авайла ягъийри хуьрел вегьида. Дуьшуьшдай кIвале амай са жегьил яракь кьуна душмандихъ галаз женгиниз экъечIда. ЧIехи кIеретIдин хура ялгъуздиз акъвазна, кьегьалвилелди женг чIугур гададин гьунар акур ягъияр катнай лугьуда. Жегьилдиз куьмек гуз атай хуьруьнбуруз адан хирерай сел хьиз иви авахьиз акуна. Абур агакьайла гадади вичин хуьруьнбуруз ихьтин веси авунай:

- Зун и булахдин патав кучука. Мехъерар ийизвай жегилар зи сурал атуй. Зи руьгьди гьуцаривай абур хуьн тIалабда. Захъ тахьай бахтар гьабурухъ хьурай!

Ам гьа вичи лагьай чкадал кучукна. Гьа чIавалай шумуд виш йисар алатнава, анжах элди кьегьалдин веси рикIелай ракъурнавач. Мехъерилай вилик свасни чам булахдал атана, муьгьуьббатдин сифте икьрар инал кутIунда. Им элдин адетдиз элкъвенва.

bənd, Rutul, Şabran və Müşkür bölgələrindən buraya dəvələrlə ərzaq, o cümlədən duz gətirilərdi. Geniş yaylaqlarında böyük ilxıları, sürüləri və naxırları olan yerli əhali duz ehtiyatını bu bazarın köməyi ilə yaradardı. Ətraf kəndlərin əhalisi də buraya duz almağa gələrdi. Elə buna görə də ona "Duzlu kənd" mənasını verən "ЦIуьхуьр" adı verilir. Kəndin adı zaman keçdikcə indiki formasını alır.

Kənd bir zamanlar öz məscidi ilə ətrafda tanınırdı. Lakin Sovet hökuməti dövründə əhalini burada ibadət etməyə qoymamış və binanı taxıl anbarına çevirmişlər. Maraqlıdır ki, kim bu məscidin binasına göz dikirsə, həmin adamın başına bədbəxt hadisə gəlir. Məsələn, kəndin bir sakini qolunu itirib. Digər birinin hər iki ayağı sınıb. Başqa bir nəfər məscidin dirəklərini oğurlayıb evinə apardığı gün samovardan çıxan köz onun sol gözünü kor edib.

Zuxul dəfələrlə yadellilərin, ələlxüsus farsların hücumlarına məruz qalmışdır. Həzrədən Tahircala qədər gedib çıxan fars qoşunları yerli əhali ilə döyüşlərdə çoxlu əsgərini itirmişdir. Bu faktı qədim qəbiristanlıqdakı saysız-hesabsız baş daşları da sübut edir. Həmin döyüşlər haqqında kənd camaatı çoxlu rəvayətlər danışır.

Zuxul kəndinin ən əlamətdar yeri "Cavanlar piri"dir. Bu pir kəndin mənzərəli yerində, bulaq başında yerləşir. Cavanlar ailə quranda toydan əvvəl həmin piri ziyarət edirlər. Onun tarixi xəzərlərin torpaqlarımıza hücumları dövrünə gedib çıxır.

Xəzərlər tez-tez Zuxula hücum edib, buradan gözəl qızları və gəlinləri qaçırarmış. Bir dəfə kişilər ot çalınına gedəndə düşmənlər kəndə hücum edirlər. Təsadüfən evdə ləngimiş bir gənc böyük bir dəstəyə qarşı vuruşmalı olur. Oğlanın cəsurluğunu görən düşmən geri çəkilir. Cavana köməyə gələn həmkəndliləri onun yaralarından sel kimi qan axdığını görürlər. Cavan onlara vəsiyyət edir: "Məni bu bulağın yanında basdırın. Toy edən cavanlar qəbrimi ziyarət etsinlər. Mənim ruhum ğutslardan (Allahlardan) onları qorumağı diləyəcək".

Gənci onun göstərdiyi yerdə dəfn edirlər. O vaxtdan əsrlər keçib, lakin el igidin vəsiyyətini unutmayıb. Toydan əvvəl bəylə gəlin mütləq bulaq başına gedir, burada əhd-peyman bağlayır. Bu, el adətinə çevrilmişdir.



# МУЧУГЪ

***И хуьруькай сифте яз Страбона малумат ганва. Юкьван виш йисарин бязи авторри Мучугьин тIвар “Мучугъ-Абад” хьиз къалурнава.***

Шагъ дагъдин ценерив гвай чи дегъ хуьрерикай тир Мучугъ тамари элкъуьрна юкьва тунвай кIама экIя хьанва. И хуьруькай тарихдин чешмейра са кьадар малуматар ава. Юкьван виш йисарин бязи авторрин ктабра ва В.Ф.Минорскийдин “Ширвандин ва Дербентдин X-XI виш йисарин тарих” (Москва, 1963) ктабда хуьруьн тIвар “Мучугъ-Абад” хьиз гьатнава. Мучугъ ва Гъенер вацIар какахьзавай чкадал, кьве кIунтIунин арадал алай къадим сурари дегь чIавара инал хуьр хьайидан шагьидвалзава. И чкадал къведалди лагьайтIа, хуьр масанал алай. ТIебиатдин басрухар ва къецепатан чапхунчияр себеб яз хуьруьнбуру са шумудра чка дегишарнай.

Монголри хуьрел вегьейла ина чIехи женгер кьиле фенай. Ягъийри Мучугъ чукIурнай. Хайи чилер гъиляй акъатай хуьруьнвийри гуьгъуьнлай гилан чкадал цIийи бине кутунай. Мучугъвийрин кьегьалвилер къалурзавай делилар гьам тарихдин чешмейра, гьамни халкьдин яратмишунра ава. Хуьруькай теснифнавай цIудралди баядра сур тарихар рахазва.

Хуьруьн кьибле пата авай, лезгийри монгол-татаррин кьушунар кукIварай “Татаран къванер” лу-

# MUCUQ

***Kənd haqqında ilk dəfə Strabon məlumat vermişdir. Orta əsrlərin bəzi müəlliflərinin əsərlərində kəndin adı “Mucuq-Abad” kimi göstərilmişdir.***

Qədim Mucuq kəndi Şahdağın ətəklərində, meşələrin qoynunda, təbiətin dilbər guşəsində yerləşib. Bu kənd haqqında tarixi mənbələrdə bir qədər məlumatlar vardır. V.F.Minorskinin “Şirvanın və Dərbəndin X-XI əsrlər tarixi” (Moskva, 1963) kitabında bu kəndin adı “Mucuq-Abad” kimi göstərilmişdir. Mucuq çayının və Qənərçayın qovşağında, iki təpənin arasındakı qədim qəbiristanlıq keçmiş dövrlərdə kəndin burada yerləşdiyinə sübutdur. Lakin ondan əvvəl kənd başqa ərazidə yerləşmişdir. Təbii fəlakətlər və yadellilərin hücumları kənd sakinlərini yaşayış yerlərini dəyişməyə məcbur etmişdir.

Monqol hücumları zamanı Mucuq kəndinin ərazisində qanlı döyüşlər olmuşdur. Düşmənlər Mucuğu tamamilə dağıtmışlar. Doğma torpaqları əllərindən çıxan əhali müvəqqəti olaraq buranı tərk etsə də, sonradan yenidən dədə-baba torpaqlarına qayıtmışdır.

Mucuqluların qəhrəmanlıqları barədə misallara həm tarixi mənbələrdə, həm də xalq yaradıcılığı nümunələrində təsadüf olunur. Kəndə həsr olunmuş onlarca bayatıda qədim tarixlər dil açıb danışır.

Kəndin qərb hissəsində yerləşən, ləzgilərin monqol-tatar qoşunlarını darmadağın etdikləri “Tatar daşları” adlı yerlə bağlı xalq arasında maraqlı rəvayət var.

гьудай чка гьа чIаварин шагьид я. Гьа вакъиайрихъ авсиятда халкьдин меце ихьтин са кьиса ава. Монголар атайла мучугъвияр абур синтIинивди муьтIуьгъардай фикирдал атана. Яргъай къвезвай кьушундин вилик пад кьун патал ксар къванер хьиз тIулаз экIя хьана. Ял ягъин патал къванерал ацукьиз кIан хьайи аскерривай хци гапуррин хура акъвазиз хьанач. Гьа и чкадал гуьгъуьнин виш йисара маса чапхунчийрин аксина женгер кьиле фенай.

Гилан Мучугъ алай чкадиз хуьруьнбуру "ПIирен кIам" лугьуда. Хуьре 15 тухумдин векилар яшамиш жезва. Абурук Ваданар, Каситар, ЯпатIар (абуруз Шихиярни лугьуда), Шалдияр, Къазбинар, Хачмазар, Беделар ва масабур акатзава. Вичихъ къадим тарих авай Мучугъ булахралдини сейли я. Мучугъ вацI "ЧIехи сув" лугьудай чкадай кьил къачуна авахьзава. "Кьат пел" ва "Уругъ пел" тIварар алай кьве пелен тамарай тIуз авахьзавай ятари туькIуьрнавай "ЧIехи вир" Мучугъин дамах я. "ПIирен кIамун" булахрин, иллаки "Кьветхвер" ва "Земзем" булахрин тай авач.

Дегь чIаварин гзаф адетар къедалди вилин нинияр хьиз хвенва мучугъвийри. Иллаки мелер гурлуз тухуналди сейли я хуьруьн агьалияр.

Мучугъай тIвар-ван авай алимар акъатнава. Азербайжандин археологиядин илимдик чIехи пай кутур тарихдин илимрин доктор Абидулла Оружов, санлай кьве илимдай - геологиядинни минералогиядин ва ихтиярриз талукь тир илимрай чIехи агалкьунар къазанмишай Агьмедхан Алимов хуьруьнбурун дамах я. Военныйрин хуьр хьизни сейли я Мучугъ. Инай Азербайжанда ва къецепатан уьлквейра къуллугъзавай гзаф полковникар, подполковникар акъатнава.

Guya monqollar buraya gələndə mucuqlular hiylə ilə onları ram etmək qərarına gəlirlər. Uzaqdan gələn qoşunun qarşısını kəsmək üçün onlar düzənliyə daş kimi səpələnirlər. Uzaq yol gəlib yorulmuş əsgərlər dincəlmək üçün daşların üstündə oturmaq istəyəndə mucuqluların iti xəncərlərinə tuş gəlirlər. Həmin yerdə sonrakı yüzilliklərdə başqa istilaçılarla da qanlı döyüşlər olmuşdur.

İndiki Mucuğun yerləşdiyi yer "Pir dərəsi" adlanır. Kənddə 15 sülaləninin nümayəndələri yaşayır. Həmin sülalələrə Vadanlar, Kasitlər, Yapatlar (onlara Şeyxlər də deyirlər), Şaldilər, Qazbinlər, Xaçmazlar, Bədəllər və başqaları aiddir. Mucuq özünün bulaqları ilə də məşhurdur. Mucuq çayı başlanğıcını "Böyük suv" (mənası "böyük dağ" deməkdir) adlı yerdən alır. "Qat pel" və "Uruğ pel" adlı iki təpənin arasındakı meşələrdən axan sulardan yaranmış "Böyük göl" Mucuğun yaraşığıdır. "ПIирен кIам" ("Pir dərəsi") adlı yerin bulaqlarının, ələlxüsus "Кьветхвер" ("Əkizlər") və "Zəmzəm" bulaqlarının tayı-bərabəri yoxdur.

Ləzgi xalqının bir sıra qədim adət-ənənələrini mucuqlular göz bəbəyi kimi qoruyurlar. Ələlxüsus mel (iməcilik) adətini onlar özlərinə məxsus təntənə ilə qeyd edirlər.

Bu kənddən adlı-sanlı alimlər çıxıb. Azərbaycan arxeologiya elminə töhfələr vermiş tarix elmləri doktoru Abidulla Orucovla, eyni vaxtda elmin iki sahəsində - geologiya-mineralogiya və hüquq sahələrində nailiyyətlər qazanmış Əhmədxan Əlimovla və başqa tanınmış alimlərlə həmyerliləri fəxr edirlər. Mucuq Qusar rayonunda hərbçilər kəndi kimi də məşhurdur. Buradan Azərbaycanda və xarici ölkələrdə qulluq edən çoxlu polkovniklər və polkovnik-leytenantlar çıxıb.







# АВАРАН

***“Аваран” гафунихъ “кутугай”, “мублагь”, “хъсан еридин” хьтин манаяр ава. Кьиляй-кьилди мублагь чилер тир и иер макандал хуьруьнбуру манадив кьадай тIвар илитIнавайди ашкара я.***

Вичихъ Аваран ва Хуьрел хуьрер акатзавай Аваранрин администрациядихъ санлай 547 майишат ава. Инин агъалийрин кьадар 2500-дав агакьзава. КцIар райондин дегь хуьрерик акатзавай Аваранда икьван гагьди я археологиядин кIвалахар кьиле тухванвач, яни и хуьруьн тIварцIин этимологиядикай илимдал асаслу баянар ганвач.

Ингье 2004-йисуз Бакуда басма хьайи 7-синифдин “Юкьван асиррин тарих” ктабдин 75-чина Аваран хуьруьн тIвар VI виш йисуз Кеферпатан Къафкъаздай Кьибле Къафкъаздиз атай, 558-йисуз ина Авар Гьукумат туькIуьрай туьрк тайифайрихъ галаз алакъалу тирди къалурнава. Анжах рикIелай ракъурна кIандач хьи, “Аваран” гафунин диб “авар” ваъ, “аваран” я ва топонимия илимдини гьар са хуьруьн тIварцIин мана кIвенкIве гьана яшамиш жезвай чкадин халкьдин чIала жагъурун тIалабзава.

Хуьруьн дегь сурари адан тарихрикай ихтилатзава. Са шумуд йис вилик хуьруьн тракторист Межида чил эгъуьндайла винел акъатай суру ам мягьтеларнай: кучукнавайдан кьибле адетдинди тушир, адан кьиликни цIиб квай. Чиликай ихьтин са шу-

# AVARAN

***“Avaran” sözünün mənası ləzgicə “yaxşı”, “bərəkətli”, “münbit” kimi mənaları var. Bərəkətli torpaqları, əlverişli təbii şəraiti olan bu yeri kənd adamlarının sözün mənasına uyğun olaraq “Avaran” adlandırması təbii haldır.***

Avaran və Xürel kəndlərinin daxil olduğu Avaran inzibati ərazi vahidliyi 547 evdən ibarətdir. Burada 2500 nəfərə yaxın əhali yaşayır. Yaşıl meşələr, geniş çöllər, çiçəkli yaylaqlar məskəni olan Avaranda indiyə kimi arxeoloji axtarışlar aparılmayıb. Bir neçə il əvvəl traktorçu Məcidin yer şumlayarkən aşkar etdiyi qədim qəbirlər maraqlı faktlar üzə çıxardı. Basdırılanların qibləsinin əks istiqamətdə olması, qəbirlərin hamısının baş hissəsində kuzə qoyulması qədim ləzgilərin çoxallahlığa sitayiş dövrünün adətlərini yada saldı. İnsanlar basdırılarkən onların baş tərəfində su qoymaq adəti ğuts dini dövründə geniş yayılmışdı.

Ümumiyyətlə, bu kənddə ləzgilərin ğuts dini ilə bağlı adətlərinə indi də təsadüf olunur. Ğutsların xeyir-duaları burada tez-tez eşidilir. Ağsaqqalların söhbətlərində ğutsların nəsihətlərinə istinad olunur. Pirlərə sitayiş də həmin dövrlərin yadigarıdır. Avaran çoxlu pirləri ilə tanınır. Onlardan ən şöhrətlisi “Salmaxan” piridir.

“Avaran” toponimi ilə bağlı bəzən yanlış mülahizələrə yol verilir. 2004-cü ildə yeddinci sinif şagirdləri üçün Bakıda nəşr olunmuş “Orta əsrlər tarixi” dərs-

муд сур хкатнай. Хуьруьн вилик-кьилик квай ксари КцIарин гзаф чкайра дуьшуьш жезвай ихьтин сурарихъ ухшарвилер авайди малумарнай. Дегь чIавара инсанар кучукдайла абурун кьилик къене яд авай цIиб тадай адет авайди рикIел гъанай.

И хуьре лезгийрин гъуц диндихъ галаз авсиятда арадиз атай адетар къедалди ама. Гъуцарин алхишар фад-фад ван къведа ваз ина. Кьуьзуьбурун ихтилатар гъуцарин акьул гунар галачиз жедач. ПIирерал финни гьа девиррилай амай адетрикай я. Инин "Салмаханан пIирел" къунши районрайни инсанар къведа.

И хуьре дегь чIаварин лезги чIалан миже ама. Чи чIалан вишералди къадим гафар къажгъида ваз инай. Вичин эсерра са шумуд девирдин гелер дуьшуьш жезвай кхьираг Ядуллагь Шейдаеван, лезги шииратдиз цIийи гьава гъайи шаир Эгьмедбег Шихкъайибован, М.Горькийдин тIварунихъ галай Москвадин Литературадин Институт акьалтIарай шаир Акиф Алиханован эсерри лезги чIалан къенивални михьивал хъсандиз хвенва.

Хуьруьн тIвар-ван авай чIехи сихилрик Башар, Къалпар, ЦIарапар, Хушумар, Тумакьар, Хужаяр, Эхнегар ва масабур акатзава. Виридалайни чIехи сихил Башар я. ЦIарапар туьнтбур, фад чпелай алатдайбур ятIа, Хушумар секинбур, гаф чрурна лугьудайбур я.

Лезгийрин вири хуьрерал хьиз, Аварандални лакIаб ала: "ТIач аваранар". Лезгийрин цIун кIвалин и тIям чурунай чпин кIвенкIвечивал виш йисар я гъиляй гузвач аваранвийри. Мад са лакIаб ала абурал: "Итим ядай аваранар". Ам эрмени-мусурман дяведилай амай аманат я. А чIавуз хуьруьн ксар Къубадиз эрменийрин аксина женг чIугваз фенай. 30 кас кьулухъ элкъвеначир.

КцIарин къадим мискIинрикай сад и хуьре хьайиди Ш.Фатуллаева 1998-йисуз Ленинградда басма авур "Градостроительство и архитектура Азербайджана XIX-начала XX века" ктабдани къалурнава. Авторди кхьенвайвал, 1829-йисуз Аваран хуьре эцигай мискIин инин куьгьне мискIиндин чкадал хкажнай. Гьа чIавуз куьгьне мискIиндин яшар са шумуд виш йис тир.

XXI асирдин эвелра - 2006-йисуз гьа са чкадал пуд лагьай гъилера мискIин эцигна. Кьведра Меккедиз фена хтай вад аялдин диде Гуьлзада Османовади и суваб кар вичин веледрихъ галаз санал кьилиз акъудна.

liyinin 75-ci səhifəsində Avaran adının VI əsrdə Şimali Qafqazdan Cənubi Qafqaza gəlmiş, 558-ci ildə burada Avar dövləti yaratmış türk tayfaları ilə əlaqəli olduğu göstərilmişdir. Lakin qeyd etmək lazımdır ki, sözün kökü "avar" deyil, "avaran"dır, mənası isə "münbit", "bərəkətli" deməkdir. Toponimiya elmi yer adlarının mənasını uzaqlarda deyil, həmin ərazilərdə tarixən yaşayan yerli xalqların dillərində axtarmağı vacib sayır.

Avaranlılar ləzgi dilinin təmizliyini və zənginliyini bu günə kimi qoruyub saxlayıblar. Lüğətlərə düşməmiş yüzlərlə sözü indi də kənd camaatından eşitmək mümkündür. Söz qədrini bilən avaranlılar arasından adlı-sanlı qələm sahibləri çıxıb. Müxtəlif dövrlərin abhavasını əsərlərində realistcəsinə göstərmiş yazıçı Yadulla Şeydayev, ləzgi poeziyasına parlaq rənglər, əlvan çalarlar gətirmiş şair Əhmədbəy Şıxqayıbov, M.Qorki adına Moskva Ədəbiyyat İnstitutunu bitirmiş, ləzgi şeriyyətinə yeni nəfəs gətirmiş Akif Əlixanov ləzgi dilinin gözəlliyini öz əsərlərində yaşatmışlar.

Kəndin məşhur nəsilləri arasında Başar, Qalpar, Saraplar, Xuşumlar, Tumaqlar, Xucalar, Exneqlər və başqaları vardır. Saraplara tündməcazlıq, tez özündən çıxmaq xasdırsa, Xuşumlar sakit təbiətli, sözü bişirib deyənlərdir. Ləzgi kəndlərinə xas ləqəb Avarana da xasdır: "Taç avaranlılar". "Taç" qədim ləzgi içkilərindəndir. 100 illərdir ki, avaranlılar taç bişirməkdə qabaqcıllığı əldən vermirlər. Onların bir ləqəbi də var: "Adam öldürən avaranlılar". Bu ləqəb 1918-ci ilin erməni-müsəlman davası ilə bağlıdır. O zaman kəndin kişiləri silahlanaraq Qubaya yola düşmüşdü. 100 kişidən ibarət dəstəyə kəndin starşinası Hacı Şeyda Nəzərəli oğlu rəhbərlik edirdi. "Qanlı dərə"də erməni daşnakları ilə döyüşlərdə Şevlet Səmədov, Vəzirxan Səmədov kimi 30 igid həlak olmuşdur.

Avaran bir zamanlar Quba bölgəsinin dindar kəndlərindən sayılırdı. Bunu kənd məscidinin tarixi də sübut edir. Ş.Fətullayevin 1998-ci ildə Leninqradda çap etdirdiyi "Градостроительство и архитектура Азербайджана XIX - начало XX века" kitabında göstərildiyi kimi, Avaran kəndindəki köhnə məscidin yerində 1829-cu ildə yenisi ucaldılmışdır. Rayonun qocaman sakinlərinin qeyd etdikləri kimi, həmin məscidin bir neçə yüz il tarixi var idi.

XXI əsrin əvvəllərində - 2006-cı ildə eyni yerdə üçüncü dəfə məscid binası inşa olunmuşdur. Bu xeyirxah işi iki dəfə Məkkədə olmuş beş övlad anası Gülzada Osmanova övladları ilə bir yerdə görmüşdür.



# ЛАЦА (ЛАЦАР)

***Гилан хуьруьвай 5-6 километр яргъа тир цIуру хуьр Яру дагъдин ценера кутунай. Дагълари элкъуьрна цIарцIе тунвай, кIеледиз ухшар тир и хуьруьн амукьаяр къедалди ама. Хуьруьнвийри адаз "ЧIуру кIеле" лугьуда.***

Къафкъаздин гзафни-гзаф иер пипIерикай тир КцIар райондин дегь хуьрерик акатзавай Лацарикай тарихдин чешмейра малуматар авачиз туш, амма илимдин рекьелди абур икьван гагьди чирнавач ва и хуьре археологиядин кIвалахарни тухванвач.

И тIвар алай хуьрер Азербайжандин Кьвепеле районда ва Кьибле Дагъустандани ава. Чпиз "Шейхер" лугьузвай КцIарин Лацар хуьруьн агьалияр и тIвар алай муькуь кьве хуьруьн агьалиярни чпин сихилдикай тирди субутиз алахъда, абур чпин мукьвакьилибур я лугьуда.

Лацадай Шагь дагъдин кукIушдал кьван 9 километрдин рехъ ава. Ингье дагъдин муркIари кьунвай гирведив агакьун патал элкъвез-элкъвез 30 километрдин рехъ фена кIанзава.

Лацувийрин кьилин дамах Гъажи Зенги бубадин пIир я. Вичикай гьар юкъуз Меккеда капIна хуьруьз хкведай муъмин кас тир лагьай риваятар авай ада кесибризни фагъирриз куьмекар гудай, гьахьни иман вине кьадай. Адан сурал тек са кцIарвияр ваъ, гьакIни къунши районрай инсанар къведа, пIирел чпин къастар, мурад-метлебар ачухарда.

Лацар шаиррини художникри вич гзаф тесниф-

# LƏZƏ

***Qədim Ləzə indiki kənddən 5-6 kilometrlik məsafədə yerləşən "ЧIуру кIеле" ("Dağılmış qala") adlı qədim yaşayış məskənində yerləşib. Yarudağın ətəyində salınmış qalaya oxşar həmin kəndin xarabalıqları indi də qalmaqdadır.***

Qafqazın heyrətamiz guşələrindən biri olan Ləzə (ləzgicə "Latsar") Qusarın ən ucqar kəndlərindən sayılır. Təəssüf ki, kənd arxeoloji cəhətdən tədqiq olunmayıb. "Ləzə" (Latsar) adlı daha iki kənd mövcuddur. Onlardan biri Azərbaycanın Qəbələ rayonunda, digəri isə Cənubi Dağıstandadır. Özlərini "şeyxlər" adlandıran kənd sakinləri digər iki kəndin sonradan yarandığını iddia edirlər.

Ləzənin Hacı Zəngi piri haqqında çoxlu rəvayətlər mövcuddur. Deyilənə görə Hacı Zəngi kasıblara kömək edən, haqqı uca tutan, hər gün Məkkədə ibadət edib evinə qayıdan mömün insan imiş. Bu piri nəinki Qusarın, eyni zamanda ətraf rayonların əhalisi də ziyarət edir.

Ləzə şair və rəssamların çox vəsf etdikləri kəndlərdəndir. Azərbaycanın xalq rəssamı Səttar Bəhlulzadə özünün onlarca əsərini burada yaradıb.

Ləzənin Gavdan dərəsində respublikamızın ən gözəl yaylaqları yerləşir. Hər il müxtəlif rayonlardan buraya çoxlu qoyun sürüləri gəlir. Qədim zamanlardan qoyunçuluqla məşğul olan yerli əhalinin istehsal etdiyi pendir və qaymaq hər yerdə məşhurdur. Burada vaxtilə atçılıq da inkişaf etmişdi. Sovet hökumətinin ilk illərində rayonun ən böyük atçılıq təsərrüfatlarından

навай хуьрерикай я. Азербайжандин сейли сенят-кар Сеттар Бегьлулзадеди вичин цӀудралди эсерар и хуьре яратмишнай.

Чи республикадин виридалайни иер, мублагь яйлахар Лацарин Гавдан дереда экӀя хьанва. Гьар йисуз Азербайжандин гзаф районрай яйлахриз хперин суьруьяр къведа. Дегь чӀаварилай хпехъан-вал чпин кьилин машгъулат тир лацувийрин ниси-ни къаймах вириниз машгьур я. Ина рамагбанвал-ни вилик фенва. Са береда районрин виридалайни чӀехи рамагарни и хуьре хуьдай. Лацувияр гьакӀни хъсан чӀижерхъанар я. Абурун виртӀедин тай авач.

Шагь дагъдиз рехъ инай тӀуз фида. Кьве зурба кьвал - "Пайгъамбардин къванер" хуьруьн варар я. Инай агъуз вил вегьейла, аламатдин пейзажар ак-вада. 700-800 юкӀ кьван дерин тир "Дегьне" кӀам дагълари элкъуьрна юкьва тунва. Гьар дагъдин ху-ралай са чарчар кӀвахьзава. Къацу махпурди рикӀ хъуьтуьларзава. Са чӀавуз ина "ЯхцӀур булах" ргаз-вай. Гила булахрин кьадар акьван туштӀани, халкь-ди гайи тӀвар гилалди амазма. Шагь дагъ галайнихъ фидайла тарихар рахада вав. Яру дагъди (адаз и тӀвар вичин накьвар яру рангунинди я лугьуз ган-вайди я), Нисин дагъди (ам лацувийрин сят я, ни-синихъ рагъ и дагъдин кукӀвал жеда), пуд вацӀу - ЧӀулав вацӀу, Лацу вацӀу ва ТӀвар алачир вацӀу ара-диз гъанвай Шагьнабат, Къарабулах хьтин тӀебиат-дин гуьмбетар ина гзаф ава. Шагь дагъдинни Къи-зил къаядин арада экӀя хьанвай Шагьнабат дереда Лацарин къванцилух ава. Им дегь чӀавара дагъларай авахьай муркӀари гъанвай къванерин кӀапӀалар я.

Са береда ЧӀехи Къафкъаз кьур муркӀари Шагь-набат дереда галкӀана генани зурба муркӀар арадиз гъанай. И муркӀари Шагьюрт яйлахдин патавай Ла-царин хуьре кьван экӀя хьанвай лап зурба муркӀа-дин чарчар арадиз гъанай. Вахтар алатунивай мур-кӀар цӀранатӀани, бязи чкайра абуру къванцилухар арадиз гъана. Цуькверин гьуьлелай алатайла дуь-шуьш жезвай "Цуругърин тӀул" куьтягь хьайила, "Мугъулар кьейи тӀул" къвезва. Гзаф кьакьанра, дегь сурар авай и чка акурла пагь атӀана амукьда вун. Чи бубаяр гьихьтин викӀегьбур тиртӀа иниз акьахайла чир жеда ваз.

Инин палеолит, мезолит ва неолит девирриз талукь дагьарри хуьруьн тарихдин къадимвиликай хабар гузва. Дегь чӀавара хуьруьн бине са шумуд чкадал кутунай ва икӀ тирди сурари хьиз, фольк-лордин материалрини субутзава. Сур хуьрерикай сад Гавдан дереда хьайиди я. КцӀар райондин бязи

biri bu kənddə idi. Ləzəlilər yaxşı arıçılar kimi də tanınırlar. Bu gün də Ləzə balının tayı-bərabəri yoxdur.

Şahdağa yol Ləzədən keçir. "Peyğəmbər daşları" adlanan iki nəhəng qaya buranın rəmzi qapısıdır. Oradan heyrətamiz mənzərə açılır. 700-800 metr dərinlikdəki dərəni dağlar əhatə edib. Hər dağın başından bir şəlalə axır. Məşhur Ləzə şəlalələri bu dərədədir. Həmin ərazidə bir zamanlar 40 bulaq qaynayırmış. İndi bulaqların sayı bir o qədər olmasa da, onların adı yaşayır.

Ləzədən Şahdağa qədər uzanan yolda neçə dağ sıralanır. "Yaru dağ"ın mənası "Qırmızı dağ" deməkdir. Bu ad ona süxurlarının rənginə görə verilib. Səhər gün çıxanda dağ al qırmızı rəngə boyanır. "Nisin dağ"ın mənası "Günorta dağı" deməkdir. Ləzəlilər bu dağa görə vaxtı təyin edirlər. Günəş dağın zirvəsinə qalxanda günorta olur. Qusarçayı üç çay - ЧӀулав (Qara), Лацу (Ağ) və Adsız çaylar əmələ gətirir. Şah dağ və Qızıl qaya massivləri arasındakı Şahnabat dərəsində Ləzə moreni var. Bir zamanlar bütün Qafqazı bürümüş buzlaqlar Şahnabat dərəsində birləşərək, nəhəng buzlaq yaratmışdı. Həmin buzlaq Şahnabat yaylağından Ləzə kəndinə kimi uzanan nəhəng buz şəlaləsi əmələ gətirmişdi. Zaman keçdikcə buzlar ərisə də, bəzi yerlərdə onun çöküntüləri qalmışdır.

Yaylaqlardan - bu əlvan çiçək dənizindən keçib "Monqolların öldürüldüyü təpə"yə çatırsan. İnsanın çətinliklə qalxdığı bu yüksəklikdəki qədim qəbiristanlıq keçmişdə bura hücum çəkmiş monqollarla yerli əhali arasında baş vermiş qanlı döyüşün izləridir. Ləzgilərin igidliyini görən yadellilər çoxlu itki verdikdən sonra buraları tərk ediblər.

Buradakı paleolit, mezolit və neolit dövrlərinə aid mağaralar kəndin qədimliyindən söhbət açır. Folklor nümunələrindən və qocaların söhbətlərindən göründüyü kimi, kənd bir neçə dəfə yerini dəyişib. Burada ən qədim yurd Gavdan dərəsində salınıb.

Hazırda 20 evi olan Ləzə bir zamanlar böyük və abad kənd olub. Bunu böyük bir ərazini əhatə edən qədim qəbiristanlıq da sübut edir. 1993-cü ildə burada püskürmüş palçıq vulkanı həmin qəbiristanlığın bir hissəsini məhv etmişdir. Bir həftə ərzində kənddəki şəlalədən su əvəzinə qaynar palçığın axması o vaxt buradakı gur həyatı iflic vəziyyətinə salmışdı. Vulkanın izləri kənddə bu gün də qalır.

"Latsar" sözü ləzgi dilində "ağ rəng" mənasını verir. Ləzə yaylaqlarının ən gözəl çağı yazda ağappaq çiçəklərin açdığı vaxt sayılır. Kəndin adının buraların qış mənzərəsi ilə əlaqəli olduğunu iddia edənlər də

хуьрера хьиз, Лацани “ЧIуру хуьр” лугьудай къадим яшайишдин чка ава. ТIебиатдин басрухар себеб яз лацувияр дагълухрай дуьзенлухриз куьч жез мажбур хьанай.

Гила вичихъ 20 кIвал амай Лаца са береда чIехи, авадан хуьрерикай тирди къадим сурарини субутзава. 1993-йисуз винел акъатай палчухдин вулканди и сурарин са пай юхдиз акъудна. Са гьафтедин къене чарчардай ргар легье авахьнай. Ада гзаф четинвилерни дарвилер арадал гъанай. Вулкандин гелер хуьре гилалди ама.

“Лацар” гафунин этимологиядикай рахадайла сифте и гафунин манадикай фагьумна кIанзава. Гатфар алукьна яйлахри цуьк акъудайла и чилер кьиляй-кьилди лацу жеда: яйлахриз лаз яда. Рагъ акьадай патаз лаз ягъуниз лезгийри “лацар” лугьуда. Садбуру лугьузвайвал, лацуда авай яйлахри “Лацар” хьтин гаф арадиз гъана. И гаф хъуьтIуьхъ галаз алакъалу я лугьузвайбурни ава. Ноябрдин эвелрилай мартдин эхирдалди кьуьд жезвай и чкайра живедин лацувили вил тухуда. Гьавиляй “Лацар” лугьуда иниз. И фикир-фагьумдихъ галаз санал чи мифологияни рикIел хкана кIанзава. Лезгийри гъуц диндиз икрамзавай дегь чIавара чи гъуцар вири Шагьдагъдин кукIушра кIватI жедай кьван. Иниз абур цаварай лув гудай гимийра - лацанра аваз эвичIдай ва гьавиляй халкьди абур эвичIай чкадиз Лацар тIвар ганай.

Академик Р.Гьайдарова вичин “Лезги ономастикадиз гьахьун” ктабда кхьенвайвал, Грар, КIрар, Кркар, КцIар, Мацар, Усар ва мсб. эвелдай ойконимар ваъ, кайнонимар тир. Им акI лагьай чIал я хьи, абуру чара-чара тайифайрин тIварар къалурзава: Кркар-кирк-и-ви; Хьилер-хьил-и-ви; ЦицIер-цIицI-и-ви ва икI мад. И фикир-фагьум асасдиз къачуртIа, Лацар ойконимди лац тайифадин тIвар къалурун (Лацар-лац-у-ви) ва алай вахтунда хуьруьн тIвар гьам “Лаца”, гьамни “Лацар” хьиз лугьун ва кхьин тIебии кар я. Лацар - хуьруьн тIварцIин гзафвилин кьадардин форма я.

Гафарин устIарар я лугьуда лацувияр. Мисалар галачиз рахадач абур. Лацара гьава гьикI я лагьана жузурла, адетдин куьруь жавабар гудач ваз. ХъуьтIуьз “Жив живедал къванва”, зулуз “Маргьи-маргьар къвазва”, гатуз “Ракъини тIанурди хьиз кузва” лагьай жавабар гуда. Гатфариз “Лацудавай свас хьиз я Гавдан дере” лугьуда абуру. Эхь, тIебиатди шаир авунва лацувийрикай, тешпигь галачиз рахадач абур.

var. Noyabrın əvvəllərindən martın sonlarına kimi qışın hökm sürdüyü bu yerlərdə qarın bəyazlığı göz qamaşdırır.

“Ləzə (Latsar) sözünün mənasının ləzgi mifologiyası ilə də əlaqəsi var. Qədimlərdə, ləzgilərin Ğutsar dininə sitayiş etdikləri vaxtlarda guya allahlar tez-tez Şahdağın ətəyindəki bu dilbər guşəyə göydən uçan gəmi (latsan) ilə enərmiş. Ona görə də xalq onların endikləri yerə Latsar adını veribmiş. Bu rəvayətlərlə bağlı ləzgi folklorunun çoxlu nümunələri var.

Ləzədən Şahdağın zirvəsinə düz xətlə 9 kilometrdir. Lakin dağın daim buzlarla örtülü olan zirvəsinə çatmaq üçün dövrələmə 30 kilometrdən çox yol qət etmək lazım gəlir.

Filologiya elmləri doktoru, akademir R.Heydərovun 1996-cı ildə Mahaçqalada rus dilində çap etdirdiyi “Ləzgi onomastikasına giriş” kitabında yazdığı kimi, Qrar, Krar, Krkar, Ktsar, Matsar, Usar bə s. əvvəldən oykonim yox, kaynonim idi. Bu, o deməkdir ki, həmin kənd adları ayrı-ayrı tayfaların adlarını göstərir. Məsələn, Кркар-кирк-и-ви; Хьилер-хьил-и-ви; ЦицIер-цIицI-и-ви. Əgər bu fikri əsəs götürsək, onda Латсар oykoniminin lats tayfasının adını göstərməsi və onun adının həm Латса, həm də Латсар kimi işlənməsi təbii haldır. Латсар kəndin cəm formasında adıdır.

Ləzəlilərə həm də söz ustaları deyirlər. Onlar məsəl çəkmədən, atalar sözündən istifadə etmədən danışmazlar. “Ləzədə havalar necədir?” deyə soruşanda qısaca cavab verməzlər. Qışda “Qar üstünə qar yağıb”, payızda “Elə yağış yağır ki, ucundan tut, göyə çıx”, yayda “Günəş təndir kimi yandırır” deyə cavab verərlər. Yazda “Bəyaz gəlinə bənzəyir Gavdan dərəsi” deyərlər. Beləcə, şair təbiətlidir ləzəlilər, bənzətməsiz, təşbehsiz danışmazlar.



# КЬВЕ МУРУГЪ

***КцІарин къадим хуьрерин арада "Муругъ" компонентдикай арадиз атанвай кьве хуьр ава: ЧІехи Муругъ ва Зинданмуругъ. Тарихдин чешмейрай малум жезвайвал, абур кьведни юкьван виш йисара кутунвай хуьрер я.***



***ЧІехи Муругъ***

"Муругъ" ойконим сифте яз X виш йисаз талукь "Абу Муслиман тарих" ктабда дуьшуьш жезва. Ана кхьенва: "Абу Муслиман хва Санжабахъ Сейфедин, Юсуф, Насираддин, Жамал, Абдуллагь, Гьемзе, Али Бархут тІварар алай ирид хва авай. Абурукай Юсуф кьуд хцин буба тир. Адан рухвайрикай Агъажан тІвар алайди Штул, амайбур Къуруш хуьре, абурун сихилрикай Шабан Хушнах, Халибан Хинов, Сейфедин Ф.ва, Рамазан Дигагь, Юсуф Учук, Али Б.ч. кал, Халид ЭчІехуьр, Жамал Муругъ, Умар ва Мегьамед Ахцегь, Харизм ал-М.л.к., Абдуллагь Халтун, Режеб Т.п.г. (Тибиг), Халиф Штул, Рамадан Уьнуьгъ, Мегьамед Ал.к. хуьрера бине кутуна амукьна" *(А.Р.Шихсаидов. Очерки истории, источниковедения, археографии средневекового Дагестана. Махачкала, 2008, с.274).*

1710-1712-йисарин хронографда къалурнавайвал, Ширваншагь II Ибрагьима (Шейх Шагьди) Кьурагьни Куьре къаз кІанз лезги чилерал вегьейла ЧІехи Муругъинни Зинданмуругъин агьалийри куьревийриз куьмек ганай. Михалан кьушунда и хуьрерин агьалийрикай тир 200-далай гзаф ксари женг чІугвазвай. 1823-йисуз А.Максимовича чІугур ва Москвада чапдай акъудай Къафкъаздин чилерин картада хуьруьн тІвар Мурух хьиз гьатнава.

Кьве Муругъдихъни къагьриманвилин тарихар хьиз тикрарсуз тІебиатни ава.

# İKİ MURUĞ

***Qusarın qədim kəndləri arasında "Muruq" sözündən əmələ gəlmiş iki kənd var: Böyük Muruq və Zindanmuruq. Tarixi mənbələrdən məlum olduğu kimi, hər iki yaşayış məntəqəsi orta əsrlərdə salınıb.***



***Зинданмуругъ*** ***Zindanmuruq***

***Böyük Muruq***

"Muruq" oykoniminə ilk dəfə X əsrə aid "Abu Müslümün tarixi" kitabında təsadüf edilmişdir. Orada yazılmışdır: "Abu Müslümün oğlu Səncabın Seyfəddin, Yusuf, Nəsirəddin, Camal, Abdullah, Həmzə, Əli Barxut adlı yeddi oğlu var idi. Onlardan Yusuf dörd oğul atası idi. Onun oğlanlarından Ağacan Ştul, qalanları Quruş kəndində, bunların nəslindən olan Şaban Xuşnax, Xaliban Xinov, Seyfəddin F.va, Ramazan Digah, Yusuf Uçuk, Əli B.ç. kal, Xalid Əcəxür, Camal Muruğ, Umar va Məhəmməd Axtı, Xarizm al-M.l.k., Abdullah Xaltun, Rəcəb T.p.q. (Tibiq), Xalif Ştul, Ramadan Əniğ, Məhəmməd Al.k. kəndlərində məskunlaşmışlar" *(А.Р.Шихсаидов. Очерки истории, источниковедения, археографии средневекового Дагестана. Махачкала, 2008, с.274).*

1710-1712-ci illərin xronoqrafında göstərildiyi kimi, Şirvanşah II İbrahim (Şeyx Şah) Qurah və Küre vilayətlərini tutmaq üçün ləzgi torpaqlarına hücum çəkəndə Böyük Muruq və Zindanmuruq kəndlərinin əhalisi kürelilərə kömək göstərmişdir. Sərkərdə Mixalın qoşununda bu kəndlərin 200-dən çox igidi döyüşmüşdür.

1823-cü ildə A.Maksimoviçin çəkdiyi və Moskvada çap etdirdiyi Qafqaz torpaqlarının xəritəsinə kəndin adı Murux kimi düşmüşdür.

Hər iki Muruq qəhrəmanlıq tarixi ilə yanaşı gözəl təbiətə də malikdir.



# КАЛУНХУЬР

***ТIебиатди захавилелди иервилер бахшнавай хуьрерикай я Калунхуьр. Самур вацIун къерехда экIя хьанвай ам дагъларин, яйлахринни тамарин макан я.***

Чкадин агъсакъалри ва интеллигентри хуьруьн тIвар "дуьзенлух чка" хьтин мана гузвай "кал" гафуникай арадиз атанвайди я лугьуда. Им гьакъикъатдив кьадай баян тирди хуьре гьалтзавай "Калун пел", "Калун рехъ", "Калун вир" хьтин топонимрини субутзава. Лезги чилерал "кал" гафуникай арадиз атанвай топонимар тIимил авач. Абурукай сад Ахцегьа гьамамрин патав гвай "Къуру калар" лугьудай чка я. Къубадин Хъимилрин хуьруьн патав лагьайтIа, къадим Калунхуьр хьанва. Са береда и хуьруьн бине КцIарин Калунхуьряй иниз атайбуру кутунай. Гила а хуьруьн чилерал харапIаярни дегь сурар алама.

Калунхуьруьн яшар гьикьван я? Гилан Калунхуьруьн бине алатай виш йисан 60-йисара кутурди я. Им алай аямдив кьазвай, пландивди кутунвай цIийи хуьр я. Иниз агьалияр чиливай гзаф кьакьандал, "Пазу" лугьудай чкадал алай цIуру хуьряй куьчарнай. Гила анал куьгьне мискIиндин амукьаяр алама. Дегь Калунхуьр лагьайтIа, Агъа Калунхуьруьвай винида авай "ЧIуру хуьр" лугьудай чкадал хьанай. ИкI тирди ина авай дегь чIаварин сурарини субутзава.

# KALUNXÜR

***Təbiətin səxavətlə gözəlliklər bəxş etdiyi kəndlərdən biridir Kalunxür. Samur çayının sahilində salınmış bu kənd dağlar, yaylaqlar və meşələr məkanıdır.***

Kənd ağsaqqallarının və ziyalılarının izah etdikləri kimi, "Kalunxür" adı ləzgi dilində "düzənlik yer" mənasını verən "kal" sözündən əmələ gəlmişdir. Bu fikrin həqiqətə uyğun olduğunu kənddə təsadüf edilən "Kalun pel" ("Kalun təpəsi"), "Kalun rex" ("Kalun yolu"), "Kalun vir" ("Kalun gölü") toponimləri də sübut edir. Ləzgilərin yaşadıqları ərazilərdə "kal" sözündən əmələ gəlmiş toponimlərə az təsadüf olunmur. Misal olaraq, Axtı rayonundakı hamamların yaxınlığında yerləşən "Quru kalar" ("Quru düzənlik") adlı ərazini göstərmək olar. Qubanın Qımıl kəndi yaxınlığında isə qədim Kalunxür kəndi olmuşdur. Onu Qusardakı Kalunxürdən bura köçmüş adamlar salmışdılar. Hazırda həmin ərazidə qədim kəndin xarabalıqları və qəbiristanlığı qalmışdır.

Kalunxürün yaşı nə qədərdir? Hazırki kəndin bünövrəsi ötən əsrin 60-cı illərində qoyulmuşdur. Bu, dövrün tələblərinə cavab verən müasir kənddir. Buraya əhali yüksəklikdə yerləşən "Pazu" adlı ərazidən köçürülmüşdür. İndi orada qədim məscidin xarabalıqlarından başqa heç nə qalmamışdır. Qədim Kalunxür isə Aşağı Kalunxürdən yuxarıda yerləşən "Çuru xür" ("Dağılmış kənd") adlı yerdə olmuşdur. Bunu oradakı qədim qəbiristanlıq da sübut edir.



# КЬУЬХУЬР

***Ина рекьери элкъвез-элкъвез кьакьанрихъ ялзава. Дагъдин синерай, хкатай кьваларай, къацу яйлахрай тIуз физва рекьер.***

Кьве дагъдин кьула гугрум акьалтна авахьзавай вацIу, чархарин яхадай кIвахьзавай, лацу кифериз ухшар чарчарри хуьруьз рекье твазва чун. Гуьнейрайни къузайрай тIуз, сал жигьиррай физва чун. Эхирни агакьзава. Имни Кьуьхуьр... Эха рикI, эхиз жедатIа. Шехьмир вилер, алакьдатIа. ЧкIанвай кIвалерин, уьцIвенвай цларин, ацахьнавай паруйрин акунри рикIин гьал атIузва. Кьуд пад иеси амачир салар, цан цазмачир генг чилер я.

Кьуьхуьр КцIарин дегь хуьрерикай сад я. Вичихъ гзаф агьалияр авайвиляй са хуьр бес тахьана, инсанри кьвед лагьай хуьруьн бине кутур, гьавиляй "Кьве хуьр - Кьуьхуьр" хьиз сейли хьайи лезги макан тир ам. Ингье гуьгъуьнлай хайибуру негьна ам, гьавиляй къе акваз-акваз хуьрерин жергедай акъатзава и диге.

Са береда адахъ авадан чилер, мублагь никIер, генг яйлахар авай. Хуьруьн суьруьйринни нехиррин и кьил-а кьил аквадачир. Зегьметдал рикI алай къени инсанри уьмуьр гьалдай ина. Гила лагьайтIа чкIизва хуьр. Алай вахтунда ина къадаз мукьва хизан ама. Са юкъуз гьабурни ялгъузвиликай катда. Дагъдин кукIвал ялгъуздиз чан гуз гьазур хьанвай кьуьзуь лекьрез ухшар тир Кьуьхуьр. Балаяр яргъариз акъатна, дерт лугьудай касни амачир лекьрез.

# QUXUR

***Burada yollar dolana-dolana yüksəklərə qalxır. Sıldırım qayalardan, yaşıl yaylaqlardan keçib gedir onlar. Gözəlliklər göz oxşayır.***

İki dağın arasından gurultu qopararaq axan çay, zirvələrdən sıyrılaraq dərələrə axan, ağ hörüklər kimi açılan şəlalələr bizi kəndə yola salır. Güneylərdən, quzeylərdən, dar cığırlardan keçib gedirik. Nəhayət ki, gəlib çatırıq. Bu da Quxur... Döz görüm necə dözürsənsə. Ağlama görüm, göz yaşlarını saxlaya bilirsənsə. Dağılmış evlərin, uçulmuş divarların görkəmi adamı elə sarsıdır ki, yerindəcə donub qalırsan. Dörd tərəf sahibsiz bağlar, çoxdan əkilməyən geniş sahələrdir.

Quxur Qusarın qədim kəndlərindəndir. Əhalisinin sayı artdığına görə ikinci kəndin - Quxurun bünövrəsini qoymuş və bundan sonra kəndi "Кьве хуьр" ("İki kənd") mənasını verən Quxur kimi adlandırmış insanlar bir vaxtlar burada cənnət yaradıblar. İndi doğmaları tərəfindən atılıb, adı kəndlərin siyahısından çıxır Quxurun.

Bir vaxtlar onun bərəkətli torpaqları, məhsuldar zəmiləri, geniş yaylaqları var idi. İlxı, sürü və naxırların sayı-hesabı yox idi. Zəhmətkeş insanlar ömür sürürdü burada. İndi isə kənd əldən gedir. Hazırda burada igirmiyə yaxın ailə yaşayır. Bir gün onlar da tənhalıqdan bezəcək. Dağ başında tək-tənha can verən qoca qartala bənzəyir Quxur. Balaları uzaqlara uçmuş, dərdini deməyə kimsəsi qalmamış qartala.

## ВИНИ ЛАКАР YUXARI LƏGƏR



Къадим хуьр кьваларин винел экIя хьанвай. А чилерал алай Шейх буба тIвар ганвай сурар яргъал девиррин лишан я. Гуьгъуьнлай хуьр вацIун къерехдиз куьч хьана. 1958-йисуз археологри Вини Лакардинни Суважалдин арада, КцIар вацIун эрчIи пата ЧIарахар лугъудай къадим хуьруьн амукьаяр винел акъудна. И хуьруь 10 гектардин чилер кьунвай. Инай хъенчIин ва металлдин къапар жагъанва. Къванцин цларин амукьайри им чIехи кIеле тирдакай хабар гузва. XVI-XVII виш йисара ЧIарахар гзаф чIехи хуьр тир.

Yerli sakinlərin dediklərinə görə, qədim kənd qayaların başında yerləşib. Həmin ərazidəki Şeyx baba qəbiristanlığı uzaq dövrlərin nişanəsidir. Sonralar kənd çayın sahilinə köçüb. 1958-ci ildə arxeoloqlar Yuxarı Ləgərlə Suvacal kəndləri arasında, Qusar çayının sağ sahilində Çaraxar adlı qədim kəndin qalıqlarını aşkar ediblər. Həmin kənd 10 hektar sahəni əhatə edir. Buradan saxsı və metal qablar aşkar olunmuşdur. Daş divarların qalıqları burada böyük qalanın olmasından xəbər verir. XVI-XVII əsrlərdə Çaraxar iri yaşayış məntəqəsi olmuşdur.

## ТIИГЬИР DÜZTAHİR



# КЪАЗАНБУЛАХ

# QAZANBULAQ



Столыпинан урусар Къафкъаздиз куьчарунин сиясатдихъ авсиятда Азербайжандиз ва КцІариз урус хизанар гзаф куьч хьана. 1910-йисалай кьил кутуна урусар КцІарин бязи хуьрера жемиятар хьиз яшамишиз эгечІна. Малаканрин хуьрер икІ арадиз атана. КцІарин виридалайни чІехи малаканрин хуьрер Къалажух ва Къазанбулах тир. Урус-мусурман дяве башламишайла са кьадар малаканар инай куьч хьана. Ингье гзаф урусар КцІара къедалди яшамиш жезва.

Stolıpinin rusların Qafqaza köçürülməsi siyasəti ilə əlaqədar Azərbaycana və eləcə də Qusara çoxlu rus ailələri köçürülür. 1910-cu ildən başlayaraq ruslar Qusarın bəzi kəndlərində icmalar şəklində yaşamağa başlayırlar. Rus icmaları və yaxud başqa sözlə desək, malakan kəndləri belə meydana gəlir. Qusarın ən böyük malakan kəndləri Qalacıq və Qazanbulaq idi. Rus-müsəlman davası başlananda malakanların çoxu köçdü. Lakin bir çox rus ailələri bu gunə kimi Qusarda yaşayır.

# ЗИНДАНМУРУГЪ

# ZİNDANMURUQ



## ХУЬРЕЛ — XÜREL



Са бязибуру Хуьрел “хуьр” ва “эл” гафарикай туькIуьр хьанвайди я лугьуда. “Чун хуьр кIани, эл кIани ксар я”, лугьуда хуьрелвийри чпин гьакъиндай. Хуьруьн сифте бине Шуьмехуьр лугьудай чкадал кутунай. Гьгъуьнлай адан агьалияр хурал алай и гуьлуьшан чкадиз куьч хьанай.

Mülahizələrə görə Xürel “xür” (“kənd”) və “el” sözlərindən yaranmışdır. Xürellilər özləri haqqında “Biz el sevən, kənd sevən adamlarıq” deyirlər. Kənd bir zamanlar Şümexür adlı ərazidə yerləşmişdir. Sonralar əhali təbiətin bu dilbər guşəsinə köçmüşdür.

## УЬНУЬГЪ — ƏNİĞ



## ВУРВАР URVA



**В**урвар КцIарин чIехи ва мублагь хуьрерикай я. Гафунин дибда авай "берекатлу" мана гузвай "вурв" гаф инин генг ва мублагь чилериз ишара я. Хуьре Шейх Мегьамед, Куьрегьар, ЧIарахар, Неьар, Мискуьлегар, Къакъуяр, Къурушар хьтин къадим сихилрин векилар яшамиш жезва.

**U**rva (Vurvar) Qusarın böyük və bərəkətli kəndlərindəndir. Sözün kökü olan "vurv" ləzgicə geniş və bərəkətli torpaq mənasını verir. Kənddə Şeyx Məhəmməd, Kürehar, Çaraxar, Near, Misküleqar, Qaquyar, Quruşar kimi qədim nəsillərin sələfləri yaşayır.

## ЯСАБ YASAB



# ПИРАЛ



# PİRAL





Пирал КцIарин къадим хуьрерикай я. Ада вичин чка са шумудра дегишарна. Гила алай чкадал куьч жедалди хуьр Пичхалдал алай. Ина хуьруьн майишатдин крар кьиле тухудайла чилин кIаникай къадим цин гунгар винел акъатнай. ХъенчIин гунгарри ва чиликай хкатай гзаф хъенчIин къапари ина Албаниядин меденият гзаф вилик фенвай лугьудай мумкинвал гузва. Пичхалдин дегь сурара Албаниядин девирдиз талукь сурун къванер ава.

Piral Qusarın qədim kəndlərindəndir. O, bir neçə dəfə yerini dəyişmişdir. İndiki əraziyə köçənə kimi kənd Piçxalda yerləşmişdir. Burada kənd təsərrüfatı işləri aparılarkən qədim su xəttinin qalıqları aşkar olunmuşdur. Saxsı borularla yerin altından çəkilmiş həmin xətt, eləcə də gildən düzəldilmiş müxtəlif məişət əşyalarının qalıqları bu ərazidə Albaniya mədəniyyətinin inkişaf etdiyini deməyə əsas verir. Piçxalın qədim qəbiristanlığında Albaniya dövrünə məxsus qəbir daşları vardır.



## КАЛУНХУЬР KALUNXÜR







## КИЧАН KİÇAN




ЯРГУН
YARGUN


СТІУРИН ШТАТАР
SUDUR ŞTATLARI


АРЧАН
ARÇAN


ЦІЕХУЬЛ
ZUXUL

# ВИНИ ТІИГЪИРЖАЛ



# YUXARI TAHİRCAL













**КЪУТУРГЪАН** **QUTURĞAN**



**ЭВЕЖУГЪ** **ƏVƏCUQ**



**КIУР** **UKUR**

# IV

# МААРИФ



# MAARİF

***Чирвилерив къведай шив авач.***

*Лезги халкьдин мисал*

***Biliyə çatan kəhər yoxdur.***

*Ləzqi atalar sözü*

## ЧИРВИЛЕРИН ТАРИХДАЙ

***Маарифдиз мектебринни агьалийрин кьадарди сад садав кьадайвал къимет гайитІа, и рекьяй лезгияр Европадин гзаф миллетрилай вилик ква.***

***П.К.Услар***

Гьеле XIX виш йисан сифте кьилера чпихъ тарихдиз, астрономиядиз, араб ва фарс чІаларин грамматикадиз ва гьакІни ислам диндин къанунриз талукь илимдин эсерар кхьей Гьажи Жами бин Зекерия эфенди ал-Ажахури, Мугьамед Саид Дагьустани ал-Эвежугьи, Мирзе Али ЦІалагурви хьтин машгьур алимар хьайи кцІарвийри кІелкхьинар вилик тухун патал гзаф алахъунар авунай.

XIX виш йисан юкьвара КцІара хьайи урус офицеррикай полковник И.С.Костемеровскийди ва подполковник Лебединскийди чкадин агьалияр кІелкхьинал, чирвилерал рикІ алайбур тирди кьилди къейд авунай ва чпин рапортра Къафкъаздин сердердивай ина мектебар кардик кутун тІалабнай.

А девирда КцІара ва адан гзаф хуьрерин мискІинра мусурмандин мектебарни медресеяр кардик

## TƏHSİL TARİXİNDƏN

***Təhsilə məktəblərin və əhalinin sayının uyğun gəlməsi baxımından qiymət verilsə, bu sahədə ləzgilər Avropanın bir çox millətlərindən irəlidədir.***

***P.K.Uslar***

Hələ XIX əsrin əvvəllərində tarixə, astronomiyaya, riyaziyyata, ərəb və fars dillərinin qrammatikasına, həmçinin islam dininə dair elmi əsərlər yazmış Hacı Cami bin Zəkəriyyə əfəndi əl-Əcəxuri, Məhəmməd Səid Dağıstani əl-Əvəcuği, Mirzə Əli Çiləgirvi kimi məşhur alimlər yetirmiş qusarlılar ötən əsrin əvvəllərində təhsil sahəsində böyük uğurlar qazanmışlar.

XIX əsrin ortalarında Qusarda olmuş rus zabitlərindən polkovnik İ.S.Kostemerovski və podpolkovnik Lebedinski yerli əhalinin oxumağa, elmə meylli olduğunu görərək, Qafqaz canişininə göndərdikləri raportlarda burada məktəblərin açılmasını xahiş etmişdilər.

O dövrdə Qusarın və onun kəndlərinin məscidlərində müsəlman məktəblərinin və mədrəsələrin fəaliyyət göstərməsinə baxmayaraq, burada hökumət tə-

квай, амма гьукуматдин патай диндин тушир мектебар авачир. 1836-йисуз КцIарин полкунин офицеррин аялар патал кардик кутур мектебда лагьайтIа, 40 лезги аялди кIелзавай.

1859-йисуз Ахцегьа чкадин аялар патал сифте мектеб арадал гъайи Лебединскийди КцIарани ихьтин са мектеб ахъаюн къарардиз къачуна. Ада Дагъустан вилаятдин военный губернатордивай и карда вичиз куьмек гун тIалабна. Губернаторди Къафкъаздин сердердиз чар ракъурна, кцIарвийрин тIалабун адав агакьарна. Сердерди КцIара мектеб кардик кутун, агьалияр пачагьдихъ ялун, абурун урусриз майилвал артухарун патал кьилди план туькIуьрна ва чирвилерихъ машгъул тир идарадиз буйругъ гана. ЯтIани КцIара урус мектеб ачухарун гежел вегьена ва анжах 6 йис алатайла, 1866-йисуз и метлеб кьилиз акъудна.

КцIарин сад лагьай урус мектебда 55 аялди кIелзавай. Абурукай 15 рушар тир. Гуьгъуьнлай гьам ихьтин мектебрин, гьамни кIелзавайбурун кьадар артух хьана. 1885-1903-йисара гилан КцIар райондин чилерал 11 урус мектеб алай.

МискIинрин мектебрални медресайрал гьалтайла, гьеле XIII виш йисарин араб тарихчи Зекерия ал-Къазвиниди малумат гайивал, чIехи везир Низам ал-Мулк ал-Гьасан ибн Али ибн Исгьакьа лезги чилерал кардик кутур медресайрикай са шумуд КцIарин хуьрера авай. А медресайра тарсар лезги ва араб чIаларалди гузвай.

Гуьгъуьнлай чи тIвар-ван авай алимри ва шаирри лезги хуьрера ихьтин медресаяр ачухарнай. Месела, XV асирда машгъур алим ТIайиб Кьурагьвиди СтIура медреса кардик кутуна, са шумуд хуьруьн аялриз тарсар ганай. Адалай гуьгъуьниз, XVI виш йисарин эхирра Туьркияда кIелай, III Султан Мурадахъ галаз таниш хьайи, математикадин рекьяй зурба алим хьана ватандиз хтай стIурви Шихим эфендиди хайи хуьре мектеб ахъайнай. Ада неинки Къуба пата, гьакI вири Дагъустанда тIебии илимар вилик тухун патал гзаф зегьметар чIугунай.

Гуьгъуьнин девирра - XVI-XIX виш йисара Муьшкуьр Мегьамеда, ахцегьви алим Шафи эфендиди, машгъур яргунви къагьриман Ханбутай бегдин чIехи буба Бутай эфендиди, Имам Шамилан муьрид, цIехуьлви къагьриман Гьажи Али Аскеран чIехи буба Али эфендиди, Кьуьчхуьр Мегьарам эфендиди, Ахцегь Гьашима, мегьарамдхуьруьнви Мегьарам эфендиди гилан КцIар райондин хуьрера кардик кутур мектебрикай малуматар ава. Абурукай бязибур диндин тушир мектебар тир.

rəfindən açılmış məktəblər yox idi. Yalnız 1836-cı ildə Qusar polku zabitlərinin uşaqlarından ötrü açılmış məktəbdə 40 ləzgi uşağı oxuyurdu.

1859-cu ildə Axtıda ibtidai məktəb açmış Lebedinski Qusarda da belə bir məktəb yaratmaq arzusunda idi. Bundan ötrü o, Dağıstan vilayətinin qubernatoruna müraciət edərək, ondan kömək istəmişdi. Qubernator da öz növbəsində qusarlıların xahişini Qafqaz canişininə çatdırmışdı. Bundan sonra canişin Qusarda məktəb açmaq və bununla da yerli əhalinin çara və ruslara rəğbətini artırmaq istəyi ilə xüsusi plan tərtib etmiş, təhsil idarəsinə lazımi göstəriş vermişdi. Buna baxmayaraq, Qusarda rus məktəbinin açılması gecikdirilmiş və yalnız 6 il ötdükdən sonra - 1866-cı ildə belə məktəb təşkil olunmuşdu.

Qusarın ilk rus məktəbində 55 uşaq oxuyurdu. Onlardan 15-i qız idi. Sonradan həm belə məktəblərin, həm də oxuyanların sayı artdı. 1885-1903-cü illərdə indiki Qusar rayonu ərazisində 11 rus məktəbi fəaliyyət göstərirdi.

Məscidlərin nəzdində fəaliyyət göstərən məktəblərə və mədrəsələrə gəldikdə, hələ XIII əsrdə ərəb tarixçisi Zəkəriyyə-əl Qəzvininin verdiyi məlumatı xatırlamaq kifayətdir. Onun yazdığına görə, böyük vəzir Nizam əl-Mülk əl-Həsən ibn Əli ibn İshaqın ləzgi şəhər və kəndlərində açdığı mədrəsələrin bir neçəsi indiki Qusar rayonu ərazisində idi. Bu mədrəsələrdə dərslər ləzgi və ərəb dillərində keçilirdi.

Sonrakı dövrlərdə məşhur ləzgi alimləri və şairləri də ayrı-ayrı kəndlərdə mədrəsələr açmışlar. Məsələn, XV əsrin məşhur alimlərindən Tayib Qurahvi Sudurda mədrəsə açaraq, ətraf kəndlərin uşaqlarına da burada dərs demişdir. XVI əsrin sonlarında Türkiyədə təhsil almış, III Sultan Muradla tanış olmuş, riyaziyyatçı alim kimi vətəninə qayıtmış sudurlu Şixim əfəndi də doğma kəndində məktəb açmışdı. O, nəinki Şimali Azərbaycanda, həmçinin Dağıstanda dəqiq elmlərin öyrənilməsi və inkişafından ötrü böyük əmək sərf etmişdi.

XVI-XIX əsrlərdə Müşkür Məhəmməd, axtılı alim Şafi əfəndi, məşhur həzrəli qəhrəman Xanbutay bəyin babası Butay əfəndi, imam Şamilin müridi, zuxullu qəhrəman Hacı Əli Əsgərin babası Əli əfəndi, Küçxür Məhərrəm əfəndi, axtılı Haşım, məhərrəmxürlü Məhərrəm əfəndi indiki Qusar rayonunun kəndlərində bir neçə məktəb açmışdılar. Onlardan bəziləri dünyəvi məktəblər idi.

XIX əsrin ortalarından başlayaraq, Qusarda hökumət məktəbləri də açılır. 1842-ci ildə Kaspi vilayətinin Quba qəzasında çar hökuməti tərəfindən açılmış

XIX виш йисан юкьварилай гатIунна КцIарин чилерал гьукуматдин патай ачухарай мектебарни пайда хьана. 1842-йисуз Каспи вилаятдин Къуба уездда гьукуматдин 28 мектеб авай. Абурукай 8 Къуба шегьерда, 2 КцIара, 7 КцIарин хуьрера кардик квай. Гьакъикъатда ихьтин мектебрин кьадар генани пара хьунухь герек тир.

1829-йисуз урус гьукуматди тестикьарай Закафказьедин мектебрин уставдив гекъигайтIа, Къуба уездда 40-далай гзаф мектебар кардик кутуна кIанзавай. Амма урусри 1837-йисан Къубадин бунтунилай гуьгъуьниз лезгийрикай вил ягъизвай ва абуруз и халкь савадлу хьана кIанзавачир. ЯтIани уезддин лезги хуьрерин агьалийри ара датIана гьукуматдивай мектебар ачухарун тIалабзавай.

1851-йисуз Къафкъаздин сердерди къубавийри ракъурай чар кваз такьурла, бязи хуьрерин агьалияр кIвачел къарагъна. Къалабулух акатай гьукуматди 1854-йисан 10-ноябрдиз Къуба шегьерда сифтегьан урус мектеб кардик кутуна. Гуьгъуьнлай ам сенятдин мектебдиз элкъуьрна.

1876-йисуз, гьеле 40 йис вилик кьабулай Къафкъаздин армиядин военный мектебрин гьакъиндай уставдив кьадайвал, офицерринни чиновникрин аялар патал Темирхан Шурада, Дешлагарда ва КцIара цIийи мектебар кардик кутуна.

Сифтегьан мектебар КцIара, Яргундал ва Манкъулидхуьрени ахъайна кIанзавай. Амма агьалийри и мектебра урус чIалахъ галаз санал лезги чIални чирун важиблу тирди малумарайла, кIвалах акъвазарна. ЯтIани лезгияр чпин гафунилай элячIнач ва гьукумат 1885-йисуз КцIара, 1886-йисуз Яргундал, 1887-йисуз Манкъулидхуьре сифтегьан мектебар кардик кутаз мажбур хьана. 1890-йисуз уезддин лезги хуьрера ихьтин мектебрин кьадар 20-дав агакьна.

XIX виш йисарин эхирра лезги маарифчийри, халкьдин вилик-кьилик квай ксарини КцIарин хуьрера цIийи мектебар арадал гъана. 1884-йисуз СтIура кьилди мектебдин дарамат эцигна. 1890-йисуз Муьгъуьбали эфендиди Кузунрин хуьре чIехи мектеб эцигна, халкьдин ихтиярда вугана. А мектебдикай 1903-йисуз Бакуда чапдай акъатай "Ежегодник" кIватIалди марагълу малуматар ганва. 1897-1900-йисара хуьруьн мектебрин сиягьдиз мадни 6 мектеб алава хъхьана. Абурукай эхиримжиди 1900-йисуз Агъа Лакардал ачухарна. И урус-татар мектеб кардик кутун патал хуьруьн юзбаши Ханбуба Сеферова иллаки чIехи алахъунар авунай.

Идалай гьейри 1898-йисуз КцIара император III Александран тIварунихъ галай Бакудин ксарин гим-

28 məktəb mövcud idi. Bunlardan 8-i Quba şəhərində, 2-si Qusarda, 7-si Qusarın kəndlərində, qalanları isə qəzanın başqa kəndlərində fəaliyyət göstərirdi. Əslində belə məktəblərin sayı daha da çox olmalı idi.

1829-cu ildə hökumətin təsdiq etdiyi Zaqafqaziya məktəblərinin nizamnaməsinə əsasən o dövrdə Quba qəzasında 40 məktəbin açılması nəzərdə tutulmuşdu. Amma çar məmurları 1837-ci ilin Quba üsyanından sonra qorxuya düşərək, yerli əhalinin savadlanmasını istəmirdilər. Lakin qəzanın ləzgi kəndlərinin əhalisi müntəzəm surətdə hökumətdən məktəblərin açılmasını tələb edirdi.

1851-ci ildə Qafqaz canişini Qubada məktəb açılması ilə əlaqədar yerli əhalinin müraciətinə məhəl qoymadıqda bəzi kəndlərin əhalisi ayağa qalxır. Qorxuya düşən çar məmurları 1854-cü ilin noyabrın 10-da Quba şəhərində ilk ibtidai rus məktəbini açmağa məcbur olur. Sonradan həmin məktəb sənət məktəbinə çevrilir.

1876-cı ildə hələ 40 il əvvəl qəbul olunmuş Qafqaz ordusunun hərbi məktəblərinə dair əsasnaməyə müvafiq olaraq Temirxan Şurada, Deşlagarda və Qusarda zabitlərin və məmurların uşaqları üçün yeni məktəblər açıldı.

Belə ibtidai rus məktəbləri Qusar, İmamqulukənd və Yargun (Həzrə) kəndlərində də açılmalı idi. Yerli əhali həmin məktəblərdə rus dili ilə yanaşı ləzgi dilinin də öyrədilməsini tələb etdiyinə görə bu məsələ saxlanılır. Məmurların iradına baxmayaraq, ləzgilər öz tələblərini geri götürmürlər. Odur ki, hökumət 1885-ci ildə Qusarda, 1886-cı ildə Həzrədə, 1887-ci ildə isə İmamqulukənddə ibtidai rus məktəblərini açmağa məcbur olur. 1890-cı ildə qəzanın ləzgi kəndlərində belə məktəblərin sayı 20-yə çatırdı.

XIX əsrin sonlarında tanınmış ləzgi maarifçiləri də kəndlərdə məktəblərin açılmasına xüsusi diqqət yetirir. 1884-cü ildə Sudurda məktəb binası inşa olunur. 1890-cı ildə xalqın qəhrəman və alim oğlu Möhübəli əfəndi Kuzun kəndində böyük məktəb binası tikdirərək, xalqın istifadəsinə verir. Həmin məktəb haqqında Bakıda nəşr olunan "Yejeqodnik" məcmuəsi özünün 1903-cü il sayında ətraflı məlumat verib.

1897-1900-cü illərdə kənd məktəblərinin siyahısına daha 6 məktəb əlavə olunur. Onlardan sonuncusu 1900-cü ildə Aşağı Ləgər kəndində açılmışdır. Burada rus-tatar məktəbini işə salmaq üçün kəndin yüzbaşısı Xanbaba Səfərov böyük zəhmət sərf etmişdir.

Bunlardan əlavə 1898-ci ildə Qusarda imperator III Aleksandrın adını daşıyan Bakı kişi gimnaziyasının kənd təsərrüfatı koloniyası açılmışdı. Adı çəkilən

назиядин хуьруьн майишатдин колонияни кардик кутуна. Сифте йисара и гимназияда 120 аялди кIелзавайтIа, 1900-1901-йисара абурун къадар 1152-дав агакьнай. Ина Нариман Наримановани тарсар ганай. КцIарин колониядикай Шамахидин "Пак тир Нина" мектебдин аялрини менфят къачунай.

XX виш йисан сифте кьилера лезгийрин тIварван авай маарифчийри арадиз гъайи жемиятри Кьиблепатан Дагъустандин ва Къуба уезддин хуьрера цIудралди мектебар кардик кутуна. Къуба уезддин лезги хуьрера, гьакIни КцIарин хуьрера мектебар ачухарунин кардал халкьдин сейли рухвайрикай Режеб Амирханов, Жабраил эфенди, Гьажи Зекерия эфенди, Жанмирзе эфенди, Гьажи Исгьакь агъа, Жаруллагь Асланов, Гьажи Абди Жамиев, Гьажи Расул, Гьажи Умуд эфенди, Малла Гьуьсейн, Мегьди эфенди, Гьажи Жавад, Малла Мегьамед, Магьмуд эфенди иллаки чешнелу хьанай. Абурун куьмекдалди 1900-1917-йисара КцIара, гьакI ЦIуру Худат, Манкъулидхуьр, ТIигьиржал, Хуьлуьхъ, Нежефхуьр, Агъа Лакар, Яргун, ЦIалагур, Лечет, ТIигьир хуьрера цIийи мектебар эцигнай. Вич Дагъустандин Ялцугърин хуьряй тир Али Муьжруьм Тагъызадеди 1918-йисуз Хьилерин хуьре кардик кутур мектеб вири уезддиз чешнелу хьанай.

Мектебар кардик кутазвай чи сейли ксар, гьакIни и мектебра чирвилерин ери хъсанариз алахъзавай. Мисал яз Бакуда акъатзавай "Икъбал" газетди 1913-йисан 1-октябрдиз Агъа Лакаррин мектебдикай кхьей гафар рикIел хкун бес я: "Шумуд йисар идалай вилик Лакар хуьруьн интеллигентри ина мектеб ахъайнай. И хуьруьн халкь паталди виридалайни гзаф зегьметар чIугвазвай миллетдин векил Гьажи Жамиди жемятдивай кIватIзавай хуьмс ва закатдин гьисабдай мектеб хуьзвай. Амма адаз манийвилер гзаф авуна... Эхирни мектебда кIел-кхьинрин ери агъуз аватна. Абди Жамиева Гуьйчайдай Абдул Къафур эфенди иниз гъана. Абуру мектеб гуьнгуьна хтуна ва ина чирвилерин ери мадни вини дережадиз хкаж хьана".

А девирда газетрин чинриз акъатай макъалайрай аквазвайвал, лезги хуьрера мектебрин къадар артух хьун, халкьди кьиляй-кьилди кIелуниз, илимдиз майилвал къалурун девлетлуйрин ва чиновникрин рикIяй тушир ва абур мектебар кIевириз алахъзавай. И ниятдалди муаллимриз басрух гузвай. Месела, 1919-йисуз Къуба шегьердин пристав Мурсал Назарова Лечетуба мектебдин кьил Сулейман эфенди ва Кичанрин мектебдин кьил Нежмеддин эфенди са себебни авачиз гатаз тунай ва гьатта са шумуд

gimnaziyada oxuyan uşaqların sayı 1900-1901-ci illərdə 120-dən 1152-yə çatmışdı. Burada Nəriman Nərimanov da dərs demişdi. Qusar koloniyasından Şamaxının "Müqəddəs Nina" məktəbinin uşaqları da faydalanmışdılar.

XX əsrin əvvəllərində ləzgi maarifçilərinin yaratdıqları cəmiyyətlər Cənubi Dağıstanın və Quba qəzasının kəndlərində onlarca məktəb açmışdı. Quba qəzasının ləzgi kəndlərində, xüsusən də Qusar nahiyəsinin kəndlərində məktəblərin açılmasında Rəcəb Əmirxanov, Cəbrayıl əfəndi, Hacı Zəkəriyyə əfəndi, Canmirzə əfəndi, Hacı İshaq ağa, Carulla Aslanov, Hacı Abdi Camiyev, Hacı Rəsul, Hacı Ümid əfəndi, Molla Hüseyn, Mehdi əfəndi, Hacı Cavad, Molla Məhəmməd, Mahmud əfəndi kimi tanınmış ləzgi maarifçilərinin böyük əməyi olmuşdur. Onların təşəbbüsü ilə 1900-1917-ci illərdə Qusar, Köhnə Xudat, İmamqulukənd, Tahircal, Xuluq, Nəcəfkənd, Aşağı Ləgər, Həzrə, Çiləgir, Ləcət və Düztahir kəndlərində təzə məktəblər açılmışdı. Əslən Cənubi Dağıstanın Yalsuğ kəndindən olan Əli Mücrüm Tağızadə 1918-ci ildə Hil kəndində nümunəvi məktəb yaratmışdı.

Kəndlərdə məktəb açan maarifçilər burada təhsilin keyfiyyətinin yüksəlməsinə də xüsusi fikir verirdilər. Bununla əlaqədar Bakıda nəşr olunan "İqbal" qəzetinin 1913-cü ilin 1 oktyabr sayında Aşağı Ləgər məktəbi haqqında yazdıqlarını xatırlamaq kifayətdir. Qəzet yazmışdı: "Neçə illərdən bəri Ləgər qəryəsinin ziyaliləri tərəfindən bir məktəb açılmışdı. Bu qəryənin ən çox çalışqan millət xadimlərindən Hacı Cami hökmüncə beytülmal bina edib qəryə cəmatindən xüms, zəkat yığıb həmin məktəbi dolandırırdı. Başqa yaxın qəryələrin əvam və ğərəzkar alimləri bu işə məmaniət edib xalqı məktəbə uşaq verməkdən mən"i edirdilər. Buna görə həmin məktəb bu vaxta kimi müvəffəqiyyətsiz bir halda qalmışdı. İmdi Əbdi Camiyevin vasitəsilə göyçaylı Əbdül-Ğəfur əfəndiyi burayə gətirmişlər. Məktəbi nizamə salaraq dərsə şuru edilmişdir. Və qaidəsilə irəliləməkdədir".

O dövrün mətbuat orqanlarında çap olunmuş materiallardan göründüyü kimi, ləzgi kəndlərində məktəblərin sayının artması və xalqın maariflənməyə daha çox meyl göstərməsi varlıların və çar məmurlarının ürəyindən deyildi. Ona görə də məktəblərin açılmasına maneçilik törədir, müəllimlərə qarşı qəsdlər təşkil edirdilər. Məsələn, 1919-cu ildə Quba şəhərinin pristavı Mürsəl Nəzərov Ləcətoba məktəbinin müdiri Süleyman əfəndini və Kiçan məktəbinin müdiri Nəcməddin əfəndini heç bir səbəb olmadan döydürmüş, hətta bir neçə gün dustaq etmişdi. Belə vəhşiliyə etiraz

юкъуз дустагъда хвенай. Ихьтин вагьшивилер себеб яз гьа хуьрерин агьалияр кӀвачел къарагънай ва приставдивай вичин ниятар кьилиз акъудиз хьаначир.

Басрухриз килиг тавуна, кцӀарвийри ара датӀана гьукуматдивай хуьрера цӀийи мектебар ахъаюн тӀалабзавай ва чка атайла кӀвачел къарагъзавай. Абурун и гьерекатрикай къалабулух акатай гьукуматди гьа йисуз, яни 1919-йисуз Хуьлуьхъ ва Ясаб хуьрера I дережадин мектебар кардик кутунай.

Халкьдин тӀалабуналди гьукуматди 1917-йисуз Хуьлуьхъа 3 вацран педагогвилин курсар тешкилнай. Дагъустандин Филерин хуьряй тир Шихали Шагьмурадан хци, тӀигьирви Жаруллагь Аливердиева ва масабуру и курсар акьалтӀарна, муаллимвал авунай.

1919-йисуз Мусават гьукуматди КцӀара 3 вацран курсар кардик кутунай. И курсара виликдай Хуьлуьхъа кӀвалахай Къафур Эфендиева (Къантемира) ва масабуру тарсар гузвай. КӀелайбурун арада гуьгъуьнлай чпикай пешекар муаллимар хьайи эчӀехуьруьнви Тажидин Эфендиев, лакарви Эбил Сеферов, ахцегьви Бабахан Нуриев, къара-куьревияр Муьгьиддин Велиханов, Шихали Шагьмурадан хва ва масабур авай. Курс акьалтӀарайла Шихали Яргунрин хуьруьн мектебдин директорвиле тайинарнай. Адахъ галаз санал Гьасанбала Бутаевани кӀвалахнай.

1919-йисуз Яргундал кьилди дишегьлийрин мектеб кардик акатнай ва адаз Айбике Мурсаловади регьбервал ганай. Адан буба ахцегьви, диде яргунви тир. Савадлу ва викӀегь дишегьли тир Айбикедин мектебда цӀудралди рушари чирвилер къачузвай.

КцӀарвийрин кӀелунал акьван рикӀ алай хьи, гьукумат гьатта I Дуьньядин дяведин вахтунда ва инкъилабди кьил кутазвай йисара ЦӀуру Худат, Нежефхуьр, Яргун, ТӀигьиржал ва Уьнуьгъ хуьрера цӀийи мектебар ва медресаяр кардик кутаз мажбур хьанай.

Совет гьукуматдин сифте йисара КцӀар районда кӀелайбуруз, маарифчи диндар ксариз инсафсуздаказ дуван кьазвай. Чеб мавгьуматдиз акси акъатзавайди я лугьуз, яцӀу гафаралди цӀийивилер теблигъзавай ксари виш йисара мискӀинрани медресайра хвенвай къиметлу ктабар юхдиз акъудзавай. Гьа девирда КцӀарин хуьрера гзаф ктабар цӀайлаханриз вегьена курнай. Халкьдин руьгьдин ивиррин ихьтин талан гзаф йисара давам хьанай. Халкьдихъ ялай савадлу инсанар репрессийрик кутунай, абур вилик физ туначир.

Ихьтин татугайвилериз килиг тавуна Совет гьукумат атайла кцӀарвийри чеб чирвилерал рикӀ алайбур тирди мад гьилерда субутна. 1920-йисан эвелра гилан интернатдин мектебдин чкадал тешкил хьа-

olaraq həmin kəndlərin əhalisi ayağa qalxmışdı.

Təzyiqlərə baxmayaraq, qusarlılar müntəzəm olaraq hökumətdən yeni məktəblərin açılmasını tələb edirdilər. Elə bunun nəticəsidir ki, nahiyədə yeni məktəblər meydana gəldi. Xuluq kəndi əhalisinin tələbi ilə hökumət 1919-cu ilin oktyabrın 1-də burada I dərəcəli məktəb açılması üçün sərəncam verdi. Yasab kəndinin əhalisi də belə bir tələb irəli sürdü və tezliklə burada da I dərəcəli məktəb fəaliyyətə başladı.

Xalqın tələbi ilə hökumət 1917-ci ildə Xuluqda 3 aylıq pedaqoji kurslar təşkil etdi. Dağıstanın Filer kəndindən olan Şixəli Şahmurad oğlu, düztahirli Carullah Əliverdiyev və başqaları bu kursları bitirib müəllimlik etməyə başladılar.

1919-cu ildə Müsavat hökuməti Qusarda 3 aylıq pedaqoji kurslar təşkil etdi. Bu kurslarda əvvəllər Xuluqda işləmiş Qafur Əfəndiyev (Qantəmir) və başqa tanınmış maarifçilər dərs deyirdi. Burada oxuyanların arasında sonradan peşəkar müəllim kimi tanınmış əcəxürlü Tacəddin Əfəndiyev, ləgərli Əbil Səfərov, axtılı Babaxan Nuriyev, qara-küreli Mühiddin Vəlixanov, Şixəli Şahmurad oğlu və başqaları var idi. Kursu bitirdikdən sonra Şixəli Şahmurad oğlu Həzrə kənd məktəbinə direktor təyin olunmuşdu. Onunla birgə Həsənbala Butayev də burada çalışırdı.

1919-cu ildə Həzrədə qızlar məktəbi açıldı. Bu məktəbə Aybikə Mürsəlova rəhbərlik edirdi. Onun atası axtılı, anası həzrəli idi. Savadlı və qoçaq qadın olan Aybikənin məktəbində onlarca qız təhsil alırdı.

Qusarlıların təhsilə meylliliyi və bu sahədə tələbkarlığı o dərəcədə artmışdı ki, hətta Birinci Dünya müharibəsi illərində və Oktyabr inqilabı ərəfəsində Aşağı Ləgər, İmamqulukənd, Köhnə Xudat, Nəcəfkənd, Həzrə, Tahircal, Əniğ kəndlərində məktəblər və mədrəsələr açılmışdı.

Sovet hakimiyyətinin ilk illərində Qusar rayonunda bir sıra ziyalılara və maarifçi ruhanilərə divan tutulmuşdur. Mövhumat əleyhinə mübarizə apardıqlarını deyən, dəbdəbəli şüarlar irəli sürən “yeni həyat”ın təbliğatçıları əsrlər boyu məscid və mədrəsələrdə qorunub saxlanmış qiymətli kitabları məhv etmişlər. Həmin dövrdə Qusarın kəndlərindən qiymətli kitablar tonqallara atılıb yandırılmışdır. Xalqın mənəvi sərvətinin bu cür talan edilməsi illərlə davam etmişdir. Mütərəqqi fikirli savadlı insanlar təqib olunmuş, onlara öz yaradıcılıqlarını inkişaf etdirməyə imkan verilməmişdir.

Bütün bunlara baxmayaraq, Sovet hakimiyyətinin qələbəsindən sonra qusarlılar maarif işi sahəsində xeyli uğurlar qazandılar. Təsadüfi deyil ki, Quba qə-

йи муаллимар гьазурдай курсар акьалтIарай цIудралди кцIарвийри райондин агьалияр савадлу авунихъ чпин зурба пай кутунай.

1920-йисуз КцIара ва Хуьлуьхъа агъа синифар патал муаллимар гьазурдай курсар ахъайна. Гьа йисан 11-августдиз КцIара Къуба уезддин сад лагьай саваддин курсар арадал гъана. Дишегьлияр патал ахъайнавай и курсара 20 руша кIелзавай. Гуьгъуьнлай Къубада итимар патал педкурсар тешкилна. КцIара аялрин колония, набутрин кIвал, фяле ва лежберрин клубар кардик акатна. 1920-йисан 8-февралдиз Къубада ахъа хьайи сад лагьай дишегьлийрин мектебда кIелзавайбурухъ кцIарвиярни галай.

Архивдин материалрай аквазвайвал, лезгийрин викIегьвал себеб яз алатай асирдин 20-йисара Къуба уездда мектебрин кьадар мадни пара хьанай. 1920-йисуз вичихъ 165650 кас кьван агьалияр авай Къуба уездда мектебрин кьадар 96-дав агакьнавай. Анжах 1921-йисуз ина алава яз 21 мектеб кардик акатнай. Гьа мектебра кIвалахзавай 200 муаллимдикай 20 дишегьлияр тир. КIелзавайбурун кьадар 3491-далай 7452-дав агакьнавай.

1922-1923-йисара Къуба уезддин 520 хуьре 279 муаллимди кIвалахзавай. Абурукай 141 кас лезги, 97 кас азербайжанви, 28 кас урус, 12 кас тат, 9 кас чувуд, 2 кас эрмени тир. Мектебра 2900 азербайжанви, 2500 лезги, 1627 тат, 302 урус, 239 чувуд, 22 эрмени аялри кIелзавай.

Совет гьукуматдин сифте йисара цIудралди кцIарвиди Бакудин ва маса шегьеррин вузра чирвилер къачунай. 1919-йисуз Азербайжандин Гьукуматдин Университет кардик кутурла пиралви жегьил Иляс Илясов гьаник экечIнай.

1923-йисуз кьве дуст - эчIехуьруьнви Тажиддин Эфендиев ва каракуьреви Муьгьиддин Велиханов Азербайжандин Вини Дережадин Педагогикадин Институтдик экечIнай. 1924-йисуз гьа институтдик Къуба уезддай тIигьиржалви Къафар Алимов ва Шагь Келентеров, лакарви Эбил Сеферов ва Дагъустандин Филер хуьряй тир Шихали Гьажизаде экечIнай.

1926-йисуз КцIарин Уьнуьгъ, Щуру Худат, Хьил, КIур, ТIигьир, СтIур, Нежефхуьр, Хуьлуьхъ, Вини ТIигьиржал, Вурвар, Агъа Лакар хьтин хуьрера сифтегьан мектебар патал дараматар эцигиз гатIунна ва 1932-йисал къведалди абур эцигна халкьдин ихтиярда вугана.

1927-йисуз институт акьалтIарай Шихали Гьажизаде Ленкорандин Педагогикадин техникумдин, Къафар Алимов лагьайтIа Ленкорандин уезддин маарифдин отделдин регьбервиле тайинарнай. 1929-йи-

zasında ilk savad kursu 1920-ci ilin avqustun 11-də Qusarda yaradıldı. Bu, qadın pedaqoji kursu adlanırdı və burada 20 nəfər təhsil alırdı. Bundan sonra Qubada 150 nəfərlik kişi pedaqoji kursu və 15 nəfərlik I dərəcəli partiya məktəbi (Azərbaycan və rus dillərində) və daha 15 savad kursu yaradıldı.

1920-ci ilin əvvəllərində indiki internat məktəbinin ərazisində təşkil olunmuş müəllim kadrları hazırlayan kursları bitirən onlarca qusarlı rayon əhalisinin maariflənməsində böyük rol oynadı.

1920-ci ildə Qusarda və Xuluqda sinif müəllimləri hazırlayan kurslar fəaliyyətə başladı. Qusarda uşaq koloniyası, əlillər evi, fəhlə-kəndli klubları, Qubada qadınlar klubu, bir neçə kitabxana və qiraətxana açıldı. Həmin dövrdə ilk dəfə olaraq Quba qəzasının bütün nahiyələrində uşaq bağçaları yaradıldı. 1920-ci ilin fevralın 8-də Qubada yaradılmış qızlar məktəbində oxuyanlar arasında qusarlılar da var idi.

Arxiv materiallarından göründüyü kimi, Qusar əhalisinin xüsusi fəallığı sayəsində 20-ci illərdə Quba qəzasında məktəblərin sayı daha da artmışdı. Əgər 1920-ci ildə 165650 nəfər əhalisi olan Quba qəzasında 96 məktəb var idisə, sonrakı 1 il ərzində 21 yeni məktəb açılmış və onların sayı 117-yə çatmışdı. Həmin məktəblərdə çalışan 200 müəllimdən 20-si qadınlar idi. Şagirdlərin sayı 3491-dən 7452-yə çatmışdı.

1922-1923-cü tədris ilində Quba qəzasının 520 kəndində 279 müəllim işləyirdi ki, milli tərkibcə onların 141 nəfəri ləzgi, 97 nəfəri azərbaycanlı, 28 nəfəri rus, 12 nəfəri tat, 9 nəfəri yəhudi, 2 nəfəri erməni idi. Təhsil alanların isə 2900-ü azərbaycanlı, 2500-ü ləzgi, 1627-si tat, 302-si rus, 239-u yəhudi, 22-si erməni idi.

Sovet hökumətinin ilk illərində onlarca qusarlı Bakının və başqa şəhərlərin ali məktəblərində təhsil alır. 1919-cu ildə Azərbaycan Dövlət Universiteti fəaliyyətə başlayanda onun ilk tələbələrindən biri pirallı gənc İlyas İlyasov oldu.

1923-cü ildə iki dost - əcəxürlü Taciddin Əfəndiyev və karaküreli Mühiddin Vəlixanov Azərbaycan Ali Pedaqoji İnstitutuna daxil olur.

1924-cü ildə həmin instituta Quba qəzasından tahircallı Qafar Əlimov və Şah Kələntərov, ləgərli Əbil Səfərov və Dağıstanın Filer kəndinin sakini Şixəli Hacızadə daxil olurlar.

1927-ci ildə institutu bitirən Şixəli Şahmurad oğlu Hacızadə Lənkəran pedaqoji texnikumuna, Qafar Əlimov isə Lənkəran qəza maarif şöbəsinə müdir təyin olunur. 1929-cu ildə Şixəli Hacızadə Lənkərandan Quba pedaqoji texnikumuna müdir vəzifəsinə göndərilir və bu vəzifədə o, yeddi il işləyir. Sonradan Azərbay-

суз Шихали Гъажизаде Ленкорандай Къубадин педтехникумдиз директорвиле ракъурнай ва ада и везифадал 7 йисуз кIвалахнай. Гуьгъуьнлай Азербайжандин Гьукуматдин Университетда муаллимвал авур Ш.Гъажизадеди тарихдин илимрин кандидатвилин диссертация хвенай.

Алатай асирдин 20-30-йисара вири регион патал мектебар ва техникумарни кардик кутуна. 1925-йисуз ина дишегьлийрин клуб тешкил хьана. И клубди савадсузвал терг авун патал халкьдин арада чIехи теблигъат тухузвай. Клубдик квай райондин сейли маарифчи дишегьлийрикай Гуьллуь Шагьмердановади, Марям Шерифовади, Фатма Рзабеговади, Саби Агьедовади, Мубарак Абдуллазадеди, Зарбике Меликовади, Севги Муьзефферовади, Ахцегь Сунади, Къадри Жавадан руша, Сурат Багъировади, Фатма Чубановади, Гуьлсенем Эмирбеговади халкь патал иллаки гзаф зегьметар чIугунай.

Гуьлсенем Эмирбеговади 1930-1931-йисара дишегьлийрин цIийи клубда, савадсузвал тергдай курсара тарсар ганай. Ада машгьур инкъилабчи ва шаир Нуреддин Шерифовахъ галаз санал “ЦIверекI” тIвар алай газет акъуднай. И дишегьлиди ва маса кIвенкIвечи инсанри 1934-йисуз КцIара сифте яз ктабхана тешкилнай. 1935-йисуз шегьердин сад лагьай аялрин бахчани Г.Эмирбеговадин ва масабурун куьмекдалди арадиз атанай.

1898-йисуз Хьилерин хуьре дидедиз хьайи, эвел Будугъ хуьре, гуьгъуьнлай вичин хуьре кIвалахай, “Азербайжандин лайихлу муаллим” гьуьрметдин тIвар къачур Магьмуд Байраман хва Шекинскиди районда маарифдин кIвалахар тешкилун ва вилик тухун патал чIехи алахъунар авунай.

1942-йисуз КцIар шегьерда 1 ва 2-нумрадин аялрин кIвалер тешкилнай. Гуьгъуьнлай абур галкIурнай ва Исмаил Пиримов аялрин кIвалерин директорвиле тайинарнай. Ватандин ЧIехи дяведин йисарани КцIар районда маарифдин месэлайрихъ галаз кIевелай машгъул хьанай, мектебра аялриз чирвилер гунин дережа агъуз аватначир.

Алай аямда КцIар районда 90 мектеб кардик ква. Абурукай 49 юкьван, 22 асас ва 19 сифтегьан мектебар я. И мектебра 15447 аялди кIелзава. Абуруз 2053 муаллимди тарсар гузва. Муаллимрикай 1301 кас вузар, 752 кас техникумар куьтягьнавайбур я.

Ктабдин и паюна халкьдик дамах кутазвай маарифчийрикай ихтилатзава. Са гафни авачиз, ихьтин ксар чахъ гзаф ава. Амма са ктабда абурукай виридакай малуматар гун мумкин туш. Гьавиляй ина лап сейли ксарикай куьруь малуматар гьатнава.

can Dövlət Universitetində müəllim işləmiş Ş.Hacızadə tarix elmləri namizədi alimlik dərəcəsi almışdır.

1926-cı ildə Qusarın Əniğ, Köhnə Xudat, Hil, Ukur, Düztahir, Sudur, Nəcəfkənd, Xuluq, Yuxarı Tahircal, Urva, Aşağı Ləgər kəndlərində ibtidai məktəblər üçün binaların tikintisinə başlandı və 1932-ci ilədək onların hamısı istifadəyə verildi.

1925-ci ildə Qusarda qadınlar klubu yaradıldı. Həmin klub qadınlar arasında savadsızlığın ləğvi sahəsində böyük təbliğat və təşviqat işi aparırdı. Bu klubda dövrün tanınmış qadın maarifçilərindən olan Güllü Şahmərdanova, Məryəm Şərifova, Fatma Rzabəyova, Sabi Əhədova, Mübarək Abdullazadə, Zarbikə Məlikova, Sevgi Müzəffərova, Axtılı Sona, Qədri Cavad qızı, Surat Bağırova, Fatma Çobanova, Gülsənəm Əmirbəyova və başqaları fəaliyyət göstərirdilər.

Gülsənəm Əmirbəyova 1930-1931-ci illərdə qadınlar klubunda, savadsızlığın ləğvi kurslarında (likbez) dərs demişdir. O, məşhur inqilabçı-şair Nurəddin Şərifovla birlikdə ləzgi dilində “Qığılcım” adlı qəzet çap edərək, yaymışdır. Qusarda 1934-cü ildə kitabxana yaradılmasında, 1935-ci ildə şəhər uşaqları üçün bağça açılmasında G.Əmirbəyova kimi fəal qadınların böyük rolu olmuşdu.

1898-ci ildə Hil kəndində anadan olmuş, əvvəlcə Buduqda, sonradan doğma kəndində müəllim işləmiş, “Azərbaycanın əməkdar müəllimi” adına layiq görülmüş Mahmud Bayram oğlu Şəkinskinin həmin dövrdə rayonda maarifin inkişaf etdirilməsində xüsusi xidmətləri olmuşdur.

Ötən əsrin 20-30-cu illərində Qusarda bölgə əhəmiyyətli məktəblər və texnikumlar açıldı.

1942-ci ildə Qusar şəhərində 1 və 2 saylı uşaq evləri təşkil edilmişdir. Az sonra məktəblər birləşdirilmiş, İsmayıl Pirimov direktor təyin olunmuşdur.

Böyük Vətən müharibəsi illərində də Qusar rayonunda maarif məsələlərinə ciddi fikir verilmiş, məktəblərdə təlim-tərbiyə işləri zəifləməmişdir.

Hazırda Qusarda 90 məktəb, o cümlədən 49 orta, 22 əsas və 19 ibtidai məktəb fəaliyyət göstərir. Həmin məktəblərdə 15447 şagird təhsil alır. Gənc nəslin təlim-tərbiyəsi ilə 2053 müəllim məşğul olur ki, onlardan 1301 nəfəri ali, 752 nəfəri orta ixtisas təhsillidir.

Bu bölmədə Qusarda xalq maarifinin inkişaf etdirilməsi sahəsində böyük xidmətləri olmuş bir sıra maarifçilər haqqında məlumatlar verilir. Şübhəsiz, belə adamlar çoxdur. Lakin bir kitabda onların hamısı haqqında söhbət açmaq mümkün deyildir. Ona görə də məşhur maarifçilərdən bəziləri haqqında məlumatlar veririk.

# МААРИФДИЗ ЭКВ ГАЙИБУР

## ШИХИМ ЭФЕНДИ

***Шихим эфендиди XVI виш йисуз вичин хайи хуьре СтIура ва Куьреда медресеяр ачухарнай, лезги жегьилриз тарсар ганай.***

Туьркиядин Истанбул шегьерда кIелна, ватандиз эфенди хьиз хтай XVI виш йисан машгьур лезги алим СтIур Шихимаз математикадин илимар деринддай чидай. Туьркверин пачагь III Султан Мурада адаз чIехи къуллугъ теклиф авурла, Шихим эфендиди "заз жуван халкь илимлу ийиз кIан я" лагьанай. Ада хайи хуьре ва Куьреда медресеяр ачухарнай ва лезги жегьилриз тарсар ганай.

Дагъустандин тарихчи Али Каяева кхьенвайвал, Шихим эфенди Къафкъазда математикадин илимар вилик тухвай алим тир. Ада гьакIни 1578 ва 1601-йисара Ирандин чапхунчийрин аксина женг чIугунай. Алимди 2 агьзур лезгидикай ибарат кIеретIдиз регьбервал ганай.

1578-йисуз Муьшкуьр Мегьамедaн кIеретIдихъ галаз санал Дербент къизилбашрикай азад авур Шихим эфенди туьркверин сердер Леле Мустафа пашади къагьриман хьиз III Султан Мурадан кьилив ракъурнай. Султандин куьмекдалди Туьркиядин тIвар-ван авай алимрихъ, къадим чешмейрихъ галаз таниш хьайи ва 12 йисуз ина амукьай касди математикадиз талукь са шумуд эсер кхьенай.

Шихим эфенди 1603-йисуз Кьулан вацIун къерехда I Шагь Аббасан кьушунрин аксина чIугур женгера гьелек хьанай.

## ИБРАГЬИМ ЭФЕНДИ

***Ибрагьим эфендидин тIалабуналди Меккеда са шумуд мектеб ва Европадин уьлквейрин тарихни медениframework чирдай меркез арадал гъанай.***

РагъэкъечIдай патан уьлквейриз сейли тир лезги алим Ибрагьим эфенди 1720-йисуз СтIура дидедиз хьана. Ада Ахцегьа машгьур алим Шафи эфендидин медресада кIелнай. 1741-1743-йисара Надир шагьдин кьушунрин аксина женг чIугур жегьил 1743-йисуз кIелун давамарун патал Туьркиядиз фенай, ина эфендивилин тIвар къачунай. Туьрк тарихчи Жевдет пашади кхьенвайвал, "Ибрагьим

# MAARİF FƏDAİLƏRİ

## ŞİXİM ƏFƏNDİ

***Şixim əfəndi XVI əsrdə doğma kəndi Sudurda və Küre mahalının bir neçə kəndində mədrəsələr açaraq, dərs demişdir.***

Türkiyənin İstanbul şəhərində təhsil alıb vətəninə əfəndi kimi qayıtmış XVI əsrin məşhur ləzgi alimi Şixim əfəndi riyaziyyat elmlərinin dərin bilicisi idi. Türkiyənin dövlət başçısı III Sultan Murad ona öz sarayında böyük vəzifə təklif etdikdə alim bundan imtina edərək vətənə qayıtmış, doğma kəndi Sudurda və Küre mahalının bir neçə kəndində mədrəsələr açaraq, dərs demişdir.

Dağıstan tarixçisi Əli Kayayevin yazdığına görə Şixim əfəndi Qafqazın məşhur riyaziyyatçı alimi idi. O, həmçinin 1578 və 1601-ci illərdə İran işğalçılarına qarşı döyüşlərdə iştirak etmişdir. Alim 2 min ləzgidən ibarət qoşuna rəhbərlik etmişdir.

1578-ci ildə Müşkür Məhəmmədin qoşunu ilə birgə Dərbəndi qızılbaşlardan azad edən Şixim əfəndini türklərin sərkərdəsi Lələ Mustafa paşa ləzgi qəhrəmanı kimi III Sultan Muradın yanına aparmışdır. Sultanın köməyi ilə Türkiyənin məşhur alimləri ilə tanış olan, qiymətli məxəzlərdən istifadə imkanını əldə edən Şixim əfəndi 12 il burada yaşayaraq, elmlə yaxından məşğul olmuşdur. O, riyaziyyata dair bir neçə qiymətli əsər yazmışdır.

Şixim əfəndi 1603-cü ildə Samur çayının sahilində I Şah Abbasın qoşunu ilə döyüşlərdə həlak olmuşdur.

## İBRAHİM ƏFƏNDİ

***İbrahim əfəndinin təşəbbüsü ilə Məkkədə bir neçə məktəb, həmçinin Avropa ölkələrinin tarixini və mədəniyyətini öyrənən mərkəz yaradılmışdı.***

Ötən əsrlərdə şöhrəti Şərq ölkələrinə yayılmış ləzgi alimlərindən biri olan İbrahim əfəndi 1720-ci ildə Sudur kəndində anadan olmuşdur. O, ilk təhsilini Axtıda, məşhur ləzgi alimi Şafi əfəndinin mədrəsəsində almışdır. 1741-1743-cü illərdə Nadir şahın qoşunlarına qarşı igidliklə döyüşən gənc 1743-cü ilin yayında təhsilini davam etdirmək üçün Türkiyəyə yola düşmüşdür. Burada təhsil alan İbrahimin

эфендиди Османлы пачагьлугъда къуллугъдик экечIна, 1748-йисуз имтигьан гана, Фатигь Жамидин мударрисвал къазанмишна".

Са шумуд йисуз Фатигь Жамидин медресада муаллимвал авур Ибрагьим эфенди султандин меслятдалди Сириядин Гьелеб шегьердин къазивиле тайинарнай. Гуьгъуьнлай Жевдет пашади кхьизвайвал, Ибрагьим эфенди Шам ва Мекке шегьеррин къазивал хьтин чIехи къуллугърал акъвазнай. И шегьерра кIвалахдай вахтунда ада са кьадар реформаяр кьиле тухванай ва диндин къуллугъчийрин арада авай ришветбазвал арадай акъуднай. Тарихчийри кхьизвайвал, Ибрагьим эфендиди Мекке мусурманрин чешнелу шегьердиз элкъуьр хъувун патал вири алахъунар авунай. Адан теклифдалди Меккеда са шумуд цIийи мектеб ва Европадин уьлквейрин тарихни медeният чирдай меркез арадал гъанай.

XVIII асирдин 90-йисара султанди Ибрагьим эфендидиз мадни чIехи къуллугъ - Анадолу къазиаскерлугъда кIвалахун теклиф авуна. Яшлу хьанвай алимди и теклиф кьабулнач. Ибрагьим эфенди 1795-йисуз рагьметдиз фена.

## МИРЗЕ АЛИ ЭФЕНДИ

***Философ, шаир, са шумуд чIал хъсандиз чидай Мирзе Али эфенди ЦIалагурви вичин девирдин кIвенкIвечи инсанрикай тир.***

Философ ва шаир Мирзе Али эфендиди XIX виш йисан камалэгьлийрин кьула махсус чка кьазва. Адан суракьар неинки Азербайжандиз, Дагъустандиз, санлай Къафкъаздизни чкIанай.

Али Агъакишидин хва 1796-йисуз Къуба уезддин ЦIалагур хуьре дидедиз хьана. Хайи хуьре ва Шемахидин медресада кIелайдалай кьулухъ Туьркиядиз фена ана диндин рекьяй дерин чирвилер къачуна. Лезги, туьрк, араб, фарс, урус чIалар хъсандиз чидай ам Кербела ва Мекке шегьерар зиярат авурдалай кьулухъ тIвар-ван авай эфенди хьиз ватандиз хтана.

Къуба уезддин къазивиле тайинарай Али эфенди дерин фагьумар ва дуьньякьатIунар авай инсан тир. ЦIалагурдал адан кIвале мукьвал-мукьвал поэзиядин нянияр, илимдин межлисар кьиле фидай. Машгьур кхьираг, тарихчи Гьасан Алкьвадариди вичин "Асари Дагъустан" ктабда кхьенай: "Къуба аялатдин къази Гьажи Али эфенди ЦIалагурви вири араб чIалариз белед тир ва вичин эсерар авай тIвар-ван авай алим я" (Баку, 1908, ч. 245).

sonrakı taleyi haqqında türk tarixçisi Cövdət paşa belə yazır: "İbrahim əfəndi Osmanlı imperiyasında dövlət qulluğuna girərək, 1748-ci ildə imtahan vermək yolu ilə Fateh Camidə müdərrislik qazanır".

Bir neçə il Fateh Cami mədrəsəsində müəllimlik edən İbrahim əfəndi sultanın məsləhəti ilə o dövrün məsul vəzifələrindən birinə - Suriyanın Hələb şəhərinin qazısı vəzifəsinə təyin olunur. Bundan sonra o, Şam və Məkkə şəhərlərinin qazısı olur. Həmin şəhərlərdə işləyərkən din məmurlarının rüşvətbazlığına qarşı mübarizə aparır və bir sıra islahatlar keçirir. Onun böyük səyi nəticəsində bu şəhərlərin şəriət məhkəmələrində ciddi qayda-qanun yaradılır.

Tarixçilərin yazdıqlarına görə İbrahim əfəndinin təşəbbüsü ilə Məkkədə bir neçə məktəb, həmçinin Avropa ölkələrinin tarixini və mədəniyyətini öyrənən mərkəz yaradılır.

XVIII əsrin 90-cı illərində Türkiyə sultanı İbrahim əfəndiyə daha yüksək vəzifə - Anadolu qazıaskerliyində iş təklif edir. Yaşa dolduğunu deyən İbrahim əfəndi həmin vəzifədə işləməyə razılıq vermir. Bir il sonra, 1795-ci ildə alim dünyasını dəyişir.

## MİRZƏ ƏLİ ƏFƏNDİ

***Filosof, yazıçı, bir neçə dilin bilicisi olan Mirzə Əli əfəndi Çiləgiri dövrünün tərəqqipərvər ziyalılarından idi.***

Qusarın adlı-sanlı insanları arasında XIX əsrin görkəmli filosofu və yazıçısı Mirzə Əli əfəndinin özünəməxsus yeri vardır. Şöhrəti Qusarın hüdudlarından uzaqlara yayılmış bu adamın sorağı Azərbaycana, Dağıstana, ümumən Qafqaza yayılmışdı.

Əli Ağakişi oğlu 1796-cı ildə Quba qəzasının Çiləgir kəndində anadan olmuşdur. Doğma kəndində, sonradan isə Şamaxıda dini təhsil aldıqdan sonra Türkiyədə ali dini təhsil alan, ləzgi, türk, ərəb, fars və rus dillərini mükəmməl bilən bu ziyalı bir neçə il İstanbulda yaşamış, Kərbəla və Məkkə şəhərlərində ziyarətdə olduqdan sonra vətəninə əfəndi kimi qayıtmışdır.

Quba qəzasının qazısı olmuş Əli əfəndi geniş dünyagörüşə malik ziyalı idi. Onun Çiləgirdəki evində keçirilən şeir gecələrinin, elmi məclislərin sorağı bütün qəzaya yayılmışdı. Bu ziyalının ətrafında həmişə şairlər, alimlər, yaradıcı insanlar toplaşırdılar. Məşhur ləzgi tarixçisi və alimi Həsən Alqadari özünün "Asari Dağıstan" kitabında yazmışdı: "Quba qazısı Hacı Əli əfəndi Çiləgiri bütün ərəb dillərinə vaqif olan və özünün yazılı əsərləri olan görkəmli alimdir" (Bakı,

1837-йисуз КцIара хьайи М.Ю.Лермонтова Мирзе Алидивай ван хьайи машгьур “Ашукь Къариб” дастандин таъсирдик кваз “Ашукь Къариб” эсер кхьин дуьшуьшдин кар тушир.

ЦIалагур хуьруьн мискIин ва адан медреса Али эфендидин нуфуздин нетижада вириниз сейли хьанвай. Али эфендидин алакьунар себеб яз 1866-йисуз хуьре сифте яз сад лагьай диндин тушир мектеб кардик кутунай. Ингье Къубадин къазивиле кIвалахай вахтунда кIелай Къуръандин аятрини адаз сейливал гьанай. Абурун манаяр гьавурда акьадайвал, регьятдиз чирзавай и алимдин суракьда аваз Къубадин кьилин мискIиндиз гзаф инсанар къведай. Яргъалди ва маналу уьмуьр гьалай Мирзе Али 1882-йисуз 86 йиса аваз рагьметдиз фенай ва хайи хуьре кучукнай.

1908, səh. 245).

Yafəz Şəmsəddin oğlu Əhmədov 1942-ci ildə Qusar rayonunun Əvəcuq kəndində anadan olmuşdur. Qusar şəhərində orta məktəbi bitirib, M.F.Axundov adına Xarici Dillər İnstitutuna daxil olmuşdur. 1960-cı ildə İnstitutu bitirib, dörd il doğma kənddə müəllimlik edən gənc 1968-ci ildən ömrünün sonuna kimi məzunu olduğu ali məktəbdə çalışmışdır.

Pedaqogika elmləri namizədi Y.Əhmədov doktorluq dissertasiyası üzərində işləyirdi. Ləzgi, Azərbaycan və rus dillərini mükəmməl bilən istedadlı alimin orta məktəblərdə ləzgi dilinin tədrisinin yaxşılaşdırılması ilə bağlı böyük arzuları var idi. O, III sinif şagirdləri üçün də belə dərslik hazırlamışdı. Digər müəlliflərlə birgə yenidən işləyib hazırladığı həmin dərsliyi çap etdirmək ona nəsib olmadı. Amansız ölüm 2001-ci ildə 59 yaşlı alimi aramızdan apardı.

гишарна.

## МУЬГЬЙЕДДИН ВЕЛИХАНОВ

***Диндин рекьяй дерин чирвилер къачур, вич Дагъустандин Кара Куьре хуьряй тир Муьгьйеддин Гьемзедин хва Велиханова Азербайжандин маарифдик зурба пай кутунай.***



Къуръан хуралай чидай, азербайжан, урус ва араб чIаларал сересдиз рахадай и жегьилдиз халкьдин арада чIехи гьуьрмет авай. ЭчIехуьруьнви Фаиза Жанмирзедин рушал эвленмиш хьайидалай кьулухъ ада даим КцIарихъ ялдай.

Совет гьукуматдин сифте йисара Муьгьйеддин Велиханов Азербайжандин Педагогикадин Институтдин химиядин факультетдик экечIнай. Инаг тафаватлувилелди акьалтIарна, 1926-1929-йисара Къубадин РОНО-диз регьбервал ганай. 1930-1934-йисара ам КцIарин педмектебдин директорвиле тайинарнай.

Ватандин ЧIехи дяведин йисара ада Азербайжандин Маарифдин Министерствода кьилин пешекарвиле кIвалахнай. Са кьадар вахтунда ам Азербайжандин КП ЦК-дин Хачмаз, Къуба ва КцIар районра векил хьанай. 1942-йисуз М.Велиханов КцIар райондин РОНО-дин регьбервиле тайинарнай. Гуьгъуьнлай Худатин етимханадиз, Яламадин сельсоветдиз, Макьсудхуьруьн мектебдиз регьбервал гайи ада вичин уьмуьрдин эхиримжи йисара Яламадин мектебда муаллимвал авуна. Савадлу ва вичин гафунилай элячI тийир Муьгьйеддин Велиханова вичин 7 веледни зегьметдал рикI алаз тербия авуна.

Адан чIехи хци Фикрет Велиханова яргъал йисара КцIарин РПК-дин III секретарвиле, Астара ва Жебраил районрин партиядин комитетрин I секретарвиле, техилдин магьсулрин министрдин заместителвиле кIвалахна. Ленинграддин Гимияр Расдай Институт акьалтIарай Закира и рекьяй Дагъустандин Каспийск шегьерда кIвалахзава. Магьачкъалада Педагогикадин Институт акьалтIарай Куьбрани Сима гьа и шегьерда яшамиш жезва. Азербайжандин НафтIадинни Химиядин Институт куьтягьай Фаик Бакудин тIвар-ван авай инженер-энергетик я. Одессадин Технологиядин Институтда кIелай Солмаз экономикадин илимрин кандидат я. Роза Бакудин Кардиологиядин Институтдин кардиолог я.

## MÜHYƏDDİN VƏLİXANOV

***Ruhani seminariyasında təhsil almış, əslən Dağıstanın Kara Küre kəndindən olan Mühyəddin Həmzə oğlu Vəlixanovun Azərbaycan maarifinin inkişafında böyük xidmətləri olmuşdur.***

Quranı əzbərdən bilən, Azərbaycan, rus və ərəb dillərini doğma ləzgi dili kimi mükəmməl öyrənmiş bu gəncin xalq arasında böyük nüfuzu var idi. Əcəxür kəndinin sakini Faizə Canmirzə qızı ilə ailə həyatı qurandan sonra o, Qusara daha da bağlanmışdı.

Sovet hökumətinin ilk illərində M.Vəlixanov Azərbaycan Pedaqoji İnstitutunun kimya fakültəsinə daxil olur. Buranı fərqlənmə diplomu ilə bitirdikdən sonra 1926-1929-cu illərdə o, Quba Rayon Maarif Şöbəsinin müdiri vəzifəsində çalışır. Bacarığı və savadı ilə seçilən M.Vəlixanov 1930-1934-cü illərdə Qusar pedməktəbinin direktoru vəzifəsində çalışır.

Böyük Vətən müharibəsi illərində o, Respublika Maarif Nazirliyində aparıcı mütəxəssis vəzifəsində çalışır. Bir müddət isə Azərbaycan KP MK-nın Xaçmaz, Quba və Qusar rayonlarında nümayəndəsi kimi fəaliyyət göstərir. 1942-ci ildə M.Vəlixanov Qusar Rayon Xalq Maarifi Şöbəsinin müdiri təyin olunur. Sonralar Xudat uşaq evinin direktoru, Yalama kənd sovetinin sədri, Maqsudkənd orta məktəbinin direktoru vəzifələrində çalışan M.Vəlixanov ömrünün son illərində Yalama kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərmişdir. Savadlı və prinsipial adam olan Mühyəddin Vəlixanov 7 övladını da bu ruhda tərbiyə etmişdir.

Onun ilk övladı Fikrət Vəlixanov Qusar RPK-nın III katibi, Astara və Cəbrayıl rayon partiya komitələrinin I katibi, respublika taxıl məhsulları nazirinin müavini olmuşdur. Leninqrad Gəmiqayırma İnstitutunu bitirmiş Zakir Dağıstanın Kaspiysk şəhərində öz ixtisası üzrə işləyir. Mahaçqala Dövlət Pedaqoji İnstitutunun məzunları olan kimyaçı Kübra və filoloq Sima Mahaçqalada yaşayırlar. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun məzunu olan Faiq tanınmış mühəndis-energetikdir. Odessa Texnologiya İnstitutunu fərqlənmə diplomu ilə başa vuran Solmaz iqtisad elmləri namizədidir. Roza Azərbaycan Respublikası Kardiologiya İnstitutunun adlı-sanlı həkimlərindəndir.

# МААРИФДИН ГЕЛЕРА

## КЦIАРИН КОЛОНИЯ

***Виш йис инлай вилик КцIар майвайрин сортарин музейдиз элкъвенай. Къуба патан багъларин ярашух тир ичерин ва чуьхверрин сортар сифте яз КцIарин багълара цанай ва инай Азербайжандизни Дагъустандиз чкIанай.***

КцIар шегьердин гилан интернат алай чкадал алатай асирда кцIарвийри лугъузвайвал, "калун" алай. Им 1898-1903-йисара император III Александран тIварунихъ галай Бакудин ксарин гимназиядин КцIара кардик кутур хуьруьн майишатдин колония тир. Колонияди хуьруьн майишатдин рекьяй зурба агалкьунар къазанмишнай. А девирдин гзаф газетри ва журналри адакай марагълу материалар чапнай. Колонияди КцIара майвайрин цIийи багълар кутуна, гьакIни къецепатан уьлквейрай гъанвай ичерин, чуьхверрин ва маса емишрин цIийи сортар синагъдай акъудна.

1901-йисуз ина ичерин зулун сортарикай Бордорф, Бисмарк, Графенштейн, Кузино, Баумандин ренет, Орлеандин ренет, Касселдин ренет, Лансберг, ананас ичер, Синоп, Коксан ренет, гьакIни антоновка, апорт, император Александр, Титовка, Абердин ренет цанай. Гатун сортарин арада лацу ичер, яру тавдинбур, Харламов, фад жедай Гервист авай.

Ибурулай гъейри ичерин мад 10, чуьхверрин 12, шурван пIинийрин 11, хутарин 17 сортар цанай. А йисара КцIарин багълара гьам чкадин, гьамни къецепатан ичерин 80, чуьхверрин 50, хутарин 30, пIинийрин 30, шурван пIинийрин 18, куьлуь емишрин 40 кьван сортар авай. Колониядин чимиханайра хъуьтIуьзни къацу набататар жезвай. Инин цуькверин бахчайра 300 жуьредин цуьквер авай. Са анжах марвард цуькверин жуьреяр 60-далай гзаф тир. Колонияда агъзур кьван уьрдекар, къазар ва верчер хуьзвай.

Колонияди къазанмишай агалкьунар себеб яз майваяр, къушран як ва маса недай-хъвадай затIар бул хьанвайвиляй КцIарин базар а береда Къафкъаздин виридалайни ужуз базар яз гьисабзавай.

# MAARİF YOLLARINDA

## QUSAR KOLONİYASI

***100 il əvvəl Qusar meyvə sortları muzeyinə dönmüşdü. Bu günə kimi Quba-Qusar bağlarının yaraşığı olan bir çox alma və armud sortları ilk dəfə Qusar bağlarında əkilmiş və buradan Azərbaycana və Dağıstana yayılmışdır.***

Qusar şəhərində indiki internat məktəbinin ərazisində bir zamanlar koloniya yerləşirdi. Bu, 1898-1903-cü illərdə imperator III Aleksandr adına Bakı kişi gimnaziyasının Qusarda fəaliyyət göstərmiş kənd təsərrüfatı koloniyası idi. O dövrün mətbuatında onun haqqında maraqlı məlumatlar çap olunmuşdur. Həmin məlumatlardan göründüyü kimi, burada kənd təsərrüfatı sahəsində böyük müvəffəqiyyətlər qazanılmış, koloniyanın sorağı Moskvaya qədər gedib çatmışdır. Koloniya Qusarda yeni bağların salınmasına böyük təsir göstərmiş, burada xarici ölkələrdən gətirilmiş alma, armud və başqa meyvələrin yeni sortları yetişdirilmişdir.

1901-ci ildə burada təkcə almanın 16 sortu yetişdirilmişdir. Payız sortlarından Bordorf, Bismark, Qrafenşteyn, Kuzino, Bauman reneti, Orlean reneti, Kassel reneti, Aberdin reneti, Lansberq, ananas alma, Sinop, antonovka, aport, imperator Aleksandr, Titovka yerli şəraitə yaxşı uyğunlaşdırılmışdı. Yay sortlarından ağ alma, qırmızı alma, Xarlamov, tezyetişən Qervist üstünlük təşkil edirdi.

Bundan başqa armudun 12, gilasın 11, gavalının 17 sortu əkilmişdi. Həmin illərdə, ümumiyyətlə, Qusar bağlarında həm yerli sortlardan, həm də kənardan gətirilmiş 80 alma, 50 armud, 30 gavalı, 30 gilas sortları yayılmışdı. Koloniyanın istixanalarında qışda da müxtəlif tərəvəz məhsulları becərilirdi. Onun bağçalarında əkilən 300 növ çiçək arasında 60 növ qızılgül var idi. Koloniyada mindən artıq ördək, qaz və toyuq saxlanırdı.

Kənd təsərrüfatı sahəsində koloniyanın qazandığı müvəffəqiyyətlər nəticəsində rayonda meyvə, quş əti və başqa ərzaq bolluğu yarandığına görə Qusar bazarı Qafqazın ən ucuz bazarı hesab olunurdu.



*Колониядин акунар. 1901.* *Koloniyanın ümumi görünüşü. 1901.*

## КЦІАРИН АГРОПЕДТЕХНИКУМ

***1929-йисуз КцІара Агропедтехникум кардик кутунай. Агропедтехникумди 16 йисан къене вишералди кадрияр гьазурнай.***

Победоносцеван кьилди прогимназиядин бинедаллаз XIX виш йисан эхирра, XX виш йисан эвелра кардик кутур III Александран тІварунихъ галай Бакудин ксарин гимназиядин гатун тежрибадин мектебдин базадал арадиз гъайи Агропедтехникумда студентриз педагогикадин чирвилерихъ галаз



*КцІарин педмектебдин профком. 1934.*

*Qusar pedməktəbinin həmkarlar təşkilatı. 1934.*

санал хуьруьн майишатдин хиляйни чирвилер гузвай.

Агропедтехникумди неинки Азербайжандин кеферпатан районар - КцІар, Къуба, Хачмаз, Къунахкент ва Девечи районар патал кадрияр гьазурзавай, ина гьакІни Кьиблепатан Дагъустандай атанвай жегьилри чирвилер къачузвай. КІелзавайбур пекералди, тІуьн-хъуналди ва амукьдай чкадалди таъминарзавай.

1932-йисуз мектебдиз КцІарин Гьукуматдин Педагогикадин Мектеб тІвар ганай. Адан сифте директор Гьажибаба Рзаев тир. Ина Иляс Илясов, Муьгьйеддин Велиханов, Зейнал Зейналов, Шагь Келентеров, Исам Жаббаров, Гьуьммет Ализаде хьтин тІвар-ван авай муаллимри тарс ганай. И.Багъиров, Ш.Кетао, А.Эфендиев, И.Ализаде хьтин машгьур педагогрини кІвалахнай.

Санлай а вахтунда КцІар районда маариф мадни вилик тухун, бажарагълу кадрияр гьазурун патал Адибег Балабегов, Фетуллагь Гьарунов, Гьуьсейн Гьасанов, Нежмеддин Шихкеримов, Пирверди Пирвердиев хьтин сейли педагогрини гьакъисагъвилелди зегьмет чІугунай.

1935-йисуз анжах КцІар районда 35 жегьилди педмектеб акьалтІарнай. Абурун арада гуьгъуьнлай

## QUSAR AQROPEDTEXNİKUMU

***1929-cu ildə Qusarda Aqropedtexnikum fəaliyyətə başladı. Aqropedtexnikum fəaliyyət göstərdiyi 16 il ərzində yüzlərlə kadr hazırladı.***

Pobedonostsevin xüsusi progimnaziyası əsasında XIX əsrin sonu, XX əsrin əvvəllərində fəaliyyət göstərmiş III Aleksandr adına Bakı oğlan klassik gimnaziyası şagirdlərinin yay təcrübə məktəbinin bazasında yaradılmış Aqropedtexnikumda oxuyan tələbələrə pedaqoji təhsillə yanaşı aqrar sahədə də savad öyrədilirdi.



*КцІарин педмектебдин гатун сессия. 1938.*

*Qusar pedməktəbinin yay sessiyası. 1938.*

Aqropedtexnikumda təhsil almaqdan ötrü nəinki Azərbaycanın şimal rayonları olan Qusar, Quba, Xaçmaz, Qonaqkənd və Dəvəçi rayonlarından, eləcə də Cənubi Dağıstanın müxtəlif rayonlarından da gənclər gəlirdilər. Burada oxuyanlara qayğı göstərilir, onlar yataqxana, zəruri pal-paltar və yeməklə təmin olunurdular.

1932-ci ildə Aqropedtexnikumun adı dəyişdiriləçrək, Qusar Dövlət Pedaqoji Məktəbi adlandırılmışdır. Məktəbin ilk direktoru Hacıbaba Rzayev olmuşdur. Burada İlyas İlyasov, Mühyəddin Vəlixanov, Zeynal Zeynalov, Şah Kələntərov, İsam Cabbarov, Hümmət Əlizadə, İ.Bağırov, Ş.Ketao, A.Əfəndiyev, İ.Əlizadə kimi adlı-sanlı müəllimlər dərs demişlər.

Ümumiyyətlə, o dövrdə savadlı kadrların hazırlanması, təhsil sahəsində nailiyyətlərin əldə olunması işinə Adıbəy Balabəyov, Fətulla Harunov, Hüseyn Həsənov, Nəcməddin Şixkərimov, Pirverdi Pirverdiyev kimi maarifçilər böyük töhfə vermişlər.

Təkcə 1935-ci ildə 35 qusarlı bu texnikumu bitirmişdir. Onların arasında sonralar alim, şair, pedaqoq kimi tanınmış insanlar var idi. Qusarda fəaliyyət gös-

машгъур алимар, шаирар, муаллимар хьайи ксар авай. Техникумди 16 йисан къене 800-дав агакьна кадрияр гьазурнай. 1946-йисуз техникум Къубадиз куьчарнай.

## ПЕДАГОГИКАДИН КОЛЛЕЖ

***М.А.Сабиран тІварунихъ галай Бакудин Педмектебдин КцІарин филиал лезги чІал ва меденият вилик тухун патал арадал гъанвайди я.***

Филиал 1990-йисуз КцІара кардик кутуна. Чи республикадин кеферпатан районар патал агъа синифрин муаллимар ва лезги чІалан пешекарар гьазурзавай и филиал 1997-йисуз цІийи дараматдиз куьчарна. 1992-йисуз инаг куьтягьай 96 жегьилди лезги чІалан ва агъа синифрин муаллимвилин дипломар къачуна. Коллеж акьалтІарай 1282 жегьилди КцІар, Къуба, Хачмаз, Девечи, Сиязан, Огъуз, Шамахи, Шеки районра, Баку, Сумгаит шегьерра, Урусатда, Белорусияда, Туьркияда кІвалахзава.

2000-йисуз филиал кІевирна, ам Азербайжандин Гьукуматдин Педагогикадин Коллеждин отделдиз элкъуьрна. Алай вахтунда ина 274 касди чирвилер къачузва, абуруз 44 муаллимди тарсар гузва.

## РАЙОНДИН ГАЗЕТ

***КцІар райондин газетдин бине 1932-йисуз кутурди я. Ам сифте яз "Социализмад темп" тІвар алаз АК(б)Ф-дин Хьил Райондин Комитетдин ва райондин исполкомдин орган хьиз акъатна.***

Азербайжандин "Коммунист" газетди вичин 1932-йисан 9-октябрдин нумрада кхьенай: "Кьадардал гьалтайла тІимил миллетрин арада вич "Лезгинка" кьуьлуьналди, чухвадалди ва хенжелдалди "машгъур" тир лезги халкь къенин юкъуз мектебрин, эдебиятдин, прессадин ва маса затІарин иеси хьанва. И мукьвара Хьил Райондин Комитетдин ва исполкомдин орган яз лезги ва туьрк чІаларал "Социализмад темп" тІвар алай газет акъатуни гьа и кар субутзава".

Адал къведалди районда "ЦІверекІ" тІвар алай газет акъудзавай. Адан кьилин редактор Хьил райондин исполкомдин кьил Нуреддин Шерифов, ответсекретарь кцІарви муаллим Гьулсенем Эмирбегова тир. Азербайжан ва лезги чІаларал акъудзавай и газетдиз материалар Н.Шерифова гьазурзавай, Гьулсенем муаллимди абур гьилив 7 чин кхьизвай.

tərdiyi 16 il ərzində həmin texnikum 800 nəfərdən çox ixtisaslı kadr hazırlamışdı. 1946-cı ildə bu tədris müəssisəsi Qubaya köçürüldü.

## PEDAQOJİ KOLLEC

***M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbinin Qusar filialı 1990-cı ildə ləzgi dilini və mədəniyyətini inkişaf etdirmək məqsədi ilə yaradılmışdır.***

Respublikamızın şimal bölgəsi üçün ibtidai sinif və ləzgi dili müəllimləri hazırlayan müəssisə 1997-ci ildə geniş binaya köçürülmüşdür. İlk buraxılışı 1992-ci ildə olmuş, 96 məzundan 50 nəfəri ibtidai siniflər üzrə ləzgi dili müəllimi, 24 nəfəri ibtidai sinif müəllimi, 22 nəfəri sinifdən kənar və məktəbdənxaric tərbiyə işi ixtisası almışdır. Onlar Qusar, Quba, Xaçmaz, Dəvəçi, Siyəzən, Şamaxı, Oğuz, Şəki və s. rayonlarda, Bakı və Sumqayıt şəhərlərində, Rusiyada, Belorusiyada və Türkiyədə işləyirlər.

2000-ci ildən filial ləğv edilərək Azərbaycan Dövlət Pedaqoji Kollecinin Qusar şöbəsinə çevrilmişdir. Bu günə kimi bu tədris müəssisəsində 1282 müxtəlif ixtisaslı müəllim hazırlanmışdır. Hazırda şöbədə 274 tələbə təhsil alır. Onların təhsili ilə 44 müəllim məşğul olur.

## RAYON QƏZETİ

***Qusar rayon qəzeti özünün başlanğıcını 1932-ci ildən götürmüşdür. Qəzet ilk dəfə "Sosializm tempi" adı ilə AK(b)F Hil Rayon Komitəsinin və rayon icraiyyə komitəsinin orqanı kimi fəaliyyətə başlamışdır.***

Azərbaycanın "Kommunist" qəzeti 9 oktyabr 1932-ci il tarixli sayında bu münasibətlə yazırdı: "...Ləzginka rəqsi, çərkəzi paltarı və xəncəri ilə məşhur olan ləzgi xalqı bu gün firqəmizin Lenin milli siyəsətinin düzgün həyata keçirilməsi sayəsində öz ana dilində məktəblərə, ədəbiyyata, mətbuata və sairəyə malikdir. Bunu bir az bundan əvvəl Hil rayon firqə və icraiyyə komitələrinin orqanı olan ləzgicə və türkcə "Sosializm tempi" qəzetinin buraxılması sübut edir".

Buna kimi rayonda "ЦІверекІ" ("Qığılcım") qəzeti çıxırdı. Qəzetin baş redaktoru rayon icraiyyə komitəsinin sədri Nurəddin Şərifov, məsul katibi isə müəllimə Gülsənəm Əmirbəyova idi. Azərbaycan və ləzgi dillərində materialları N.Şərifov hazırlayır, G.Əmirbəyova isə əl ilə onların yeddi nüsxə üzünü köçürürdü.

Qəzet Qusar, Həzrə, Düztahir, Tahircal, Əniğ, Hil



*Нуреддин Шерифов*
*Nurəddin Şərifov*

Газет КцIариз, Яргун, ТIигъир, ТIигъиржал, Уьнуьгъ, Хьил ва Калунхуьр хуьрериз рекье твазвай. Ам и къайдада са йисуз акъатна. 1931-йисалай газет "Социализмад темп" тIвар алаз Къубадин типографияда 350 экземпляр чапдай акъудиз эгечIна. 1932-йисуз КцIара типография кардик кутуна. Линотип машиндал кIвалахзавай Баба Беширов Нухадай тир.

1932-йисалай инихъ газетдиз регьбервал гайибур агъадихъ галай ксар я: Нуреддин Шерифов, Иляс Илясов, Ибрагьим Межидов, Къачабег Нагъиев, Энвер Шагьвеледов, Али Селимов, Гьамид Алиев, Селимхан Азизов, Нуьсрет Мустафаев, Багьадур Къачабегов. 1999-йисалай адаз Видади Севзиханова регьбервал гузва.



*Гуьлсенем Эмирбегова*
*Qülsənəm Əmirbəyova*

və Kalunxür kəndlərində yayılırdı. Bir il bu qayda ilə çap olunan qəzet bir ildən, yəni 1931-ci ildən "Sosializm tempi" adı ilə Quba mətbəəsində 350 nüsxə tirajla çıxmağa başladı. 1932-ci ildə Qusarda mətbəə yaradıldı. Linotip maşınında işləmək üçün dəvət olunan Baba Bəşirov Nuxa şəhərindən idi.

Yarandığı gündən qəzetə Nurəddin Şərifov, İlyas İlyasov, İbrahim Məcidov, Qaçabəy Nağıyev, Ənvər Şahvələdov, Əli Səlimov, Həmid Əliyev, Səlimxan Əzizov, Nüsrət Mustafayev, Bahadur Qaçabəyov rəhbərlik etmişlər. 1999-cu ildən etibarən redaksiya kollektivinə Vidadi Sevzixanov rəhbərlik edir.

## НУЬСРЕТ МУСТАФАЕВ

***"Къизил Къусар" кIелдайбурун рикI алай органдиз элкъуьрай Нуьсрет Мустафаева газетдиз журналистикадин жанраяр, редакциядиз хъсан къелемэгьлияр гъанай.***



***(1924-1977)***

Нуьсрет Девлетан хва Мустафаев 1924-йисуз КцIар райондин Четкуьн хуьре дидедиз хьана. 1941-йисуз Уьнуьгъа юкьван мектеб куьтягьна, гьана муаллимвал авуна. 1942-йисалай Ватандин ЧIехи дяведин женгерив эгечIай жегьилдал пудра залан хирер хьанай. 1946-йисуз ватандиз хтай Н.Мустафаева Уьнуьгърин мектебда муаллимвал давамарнай.

1951-йисуз М.Ф.Ахундован тIварунихъ галай АПИ-дин филологиядин факультет акьалтIарай Нуьсрет Мустафаева Кузунрин 7 йисан мектебдиз, гуьгъуьнлай КцIарин райкомдин отделдиз регьбервал ганай. Пуд йисан партиядин мектебда чирвилер къачурдалай кьулухъ ЦIийихуьруьн МТС-да парторгвиле, райисполкомдин председателдин заместителвиле кIвалахнай.

1963-йисуз "Къизил Къусар"дин редакторвиле тайин хьайи Нуьсрет Мустафаева вичин уьмуьрдин эхирдалди, 14 йисуз ара датIана и къуллугъ тамамарна.

## NÜSRƏT MUSTAFAYEV

***"Qızıl Qusar"ın oxucuların sevimli qəzetinə çevrilməsindən ötrü Nüsrət Mustafayev qəzetə jurnalistika janrlarını gətirmiş, redaksiyaya əsl qələm sahiblərini cəlb etmişdi.***

Nüsrət Dövlət oğlu Mustafayev 1924-cü ildə Qusar rayonunun Çətkün kəndində anadan olmuşdur. Əniğ kəndində 1941-ci ildə orta məktəbi bitirib, burada sinif müəllimi işləmişdir. 1942-ci ildən Böyük Vətən müharibəsi cəbhələrində iştirak etmiş, 3 dəfə ağır yaralanmışdır. 1946-cı ildə ordudan tərxis olunmuş, Əniğ kəndində müəllimlik fəaliyyətini davam etdirmişdir.

1951-ci ildə M.F.Axundov adına APİ-nin dil-ədəbiyyat fakültəsini bitirən Nüsrət Mustafayev Kuzun kənd yeddiillik məktəbinə, sonradan isə Qusar Rayon Partiya komitəsində şöbəyə rəhbərlik etmişdir. Üçillik partiya məktəbində təhsil aldıqdan sonra Zeyxür MTS-də partiya təşkilatının katibi, rayon XDS İK-nin sədr müavini vəzifələrində çalışmışdır.

1963-cü ildə "Qızıl Qusar" qəzetinin redaktoru vəzifəsinə təyin olunan Nüsrət Mustafayev ömrünün sonuna kimi, 14 il fasiləsiz bu vəzifədə çalışmışdır.

## АЗЕРБАЙЖАНДИН ЛЕЗГИ ГАЗЕТ “САМУР”

***КIелдайбуру вич халкьарин арада дуствилин муьгъ яз гьисабзавай “Самур” газет Азербайжан Республикадин “Самур” Лезги Милли Меркездин орган хьиз 1992-йисан январдилай акъатзава.***

Газетдин сад лагьай редактор кхьираг-журналист Фейруз Беделов хьана. 1992-йисан ноябрдилай газетдиз искусстводин илимрин доктор Нуреддин Гьабибова редакторвал авуна. Ада регьбервал гайи вахтунда газет кьериз-цIаруз акъатна.

1997-йисан октябрдиз кхьираг-журналист Седакъет Керимова газетдин кьилин редакторвиле тайинарна. Гьа вахтундилай ада шаир-журналист Муьзеффер Меликмамедовахъ ва маса журналистрихъ галаз санал “Самур” газет ара датIана акъудзава.

ЦIийи коллективди газетдиз цIийи нефес, цIийи мана ва форма, цIийи хатI гъана. Гьавиляй 1999-йисуз Азербайжандинни Дагъустандин 30-далай гзаф печатдин органри, радиоди ва телевидениди газетдин гьакъиндай рикI шадардай фикирар лагьанай ва ам цIийи хьанвай “Самур” тирди къейд авунай. Гьа йисалай кьил кутуна газет кхьизвайбурун кьадар къвердавай пара хьана, “Самурдин” суракьар Дагъустандай, Россиядин вилаятрай, Къиргъизистандай, Украинадай, Къазахстандай, Туьркиядай, Германиядай, АСШ-дай ва маса уьлквейрай атана.

Пуд чIалал - лезги, азербайжан ва урус чIаларал акъатзавай, вичин кьилин темаяр лезгийрин меденият, харусенят, адетар, ацукьун-къарагъун, тарих, кIел-кхьин, Азербайжандинни Дагъустандин халкьарин дуствилин алакъаяр, къецепатан уьлквейра яшамиш жезвай чи ватанэгьлийрин уьмуьр ва дуланажагъ, инсандин ахлакь ва марифат хьтин месэлаяр тир, журналистикадин вири жанрайрикай хъсандиз менфят къачузвай, вичин чинра 100-далай гзаф рубрикаяр кардик кутунвай “Самурди” эхиримжи йисара кIелдайбурун патай чIехи гьуьрмет къазанмишнава ва алай вахтунда ам республикадин марагълу газетрикай сад я.

Патахъай са куьмекни авачир, анжах коллективди чIугвазвай чIехи зегьмет ва алахъунар себеб яз акъатзавай “Самур” газетдин 2012-йисуз 20 йисан юбилей къейд ийида.

## AZƏRBAYCANIN LƏZGİ QƏZETİ “SAMUR”

***Oxucuların xalqlar arasında dostluq körpüsü adlandırdığı “Samur” qəzeti Azərbaycan Respublikası “Samur” Ləzgi Milli Mərkəzinin orqanı kimi 1992-ci ilin yanvarından fəaliyyətə başlamışdır.***

Qəzetin ilk redaktoru yazıçı-jurnalist Feyruz Bədəlov olmuşdur. 1992-ci ilin noyabrından qəzetə incəsənət elmləri doktoru Nurəddin Həbibov redaktorluq etmişdir. Onun fəaliyyəti dövründə qəzet böyük fasilələrlə çıxmışdır.

1997-ci ilin oktyabrında yazıçı-jurnalist Sədaqət Kərimova qəzetin baş redaktoru təyin olunmuşdur. Onun şair-jurnalist Müzəffər Məlikməmmədov və başqa yaradıcı işçilərlə birgə buraxdıqları “Samur” qəzeti müntəzəm çıxmağa başlamışdır.

Yeni kollektiv qəzetə yeni nəfəs, yeni məzmun və forma, yeni dəst-xətt gətirmişdir. Ona görə də 1999-cu ildə Azərbaycanın və Dağıstanın 30-dan çox mətbu orqanı, radio və televiziyası qəzet haqqında ürəkaçan fikirlər söyləmiş, onu yeniləşmiş “Samur” adlandırmışdır. Həmin ildən qəzetin abunəçilərinin sayı daha da artmış, coğrafiyası genişlənmiş, “Samur”un sorağı həm də Dağıstandan, Rusiyanın vilayətlərindən, Qırğızıstandan, Ukraynadan, Qazaxıstandan, Türkiyədən, Almaniyadan, ABŞ-dan və başqa ölkələrdən gəlməyə başlamışdır.

Üç dildə - ləzgi, Azərbaycan və rus dillərində çıxan, əsas mövzuları ləzgilərin mədəniyyəti, incəsənəti, adət-ənənələri, tarixi, təhsili, Azərbaycan və Dağıstan xalqlarının dostluq əlaqələri, xaricdə yaşayan həmvətənlərimizin həyatı, insan mənəviyyatı kimi məsələlərdən ibarət olan, jurnalistikanın bütün janrlarından uğurla istifadə edən, öz səhifələrində 100-dən çox rubrika açan “Samur” son illər böyük oxucu rəğbəti qazanmış, respublikanın maraqlı qəzetlərindən birinə çevrilmişdir.

Kənardan heç bir köməyi olmayan, yalnız kollektivin böyük zəhməti və səyi ilə buraxılan “Samur” qəzetinin 1912-ci ildə 20 illik yubileyi qeyd ediləcək.

## ДЕЛИЛРИ ВУЧ ЛУГЪУЗВА

Гьеле арабри VII виш йисуз Дагъустандал вегьейла лезгийрихъ махсус маарифдин система ва цIудралди алимар авай. X асирда лезгийри Мукьвал ва Юкьван РагъэкъечIдай патан уьлквейрихъ галаз илимдинни медениятдин алакъаяр хуьзвай. XI асирда чIехи лезги хуьрера медресаяр кардик квай. Машгьур востоковед, академик И.Й.Крачковскийди кхьейвал, лезгияр ватандай яргъара, кьисметди абур яшамишиз мажбур авур вири чкайра чIехи нуфуздин сагьибар хиз чизвай. Абуру илимда мусурман дуьньядин кIвенкIвечи векилриз чешне къалурзавай.

* * *

1836-йисуз КцIара урус офицеррин аялар патал ачухарай мектебда 40-далай гзаф чкадин аялрини кIелзавай.

* * *

1866-йисуз КцIара сад лагьай гьукуматдин мектеб кардик акатна. Са синифдикай ибарат тир и сифтегьан мектебда гадайрини рушари санал кIелзавай. Санлай девлетлу ксарин аялри кIелзавай и мектебда тарсар урус чIалал гузвай. 1880-йисуз ина 55 гадади ва 15 руша кIелзавай. Абуруз кьве муаллимди тарс гузвай.

* * *

Гьеле 1836-йисуз Къафкъаздин армиядин военный мектебрин гьакъиндай кьабулай къанундив кьадайвал 1876-йисуз Темир-Хан-Шурада, Дешлагарда ва КцIара офицеррин ва чиновникрин аялар патал са жерге мектебар кардик кутунай.

XIX асирдин юкьвара ихьтин мектеб Дагъустандин атлуйрин полкунин патав ачухарнай. Ина 30 аялди чирвилер къачузвай. Абуруз урус чIалан, гуьрчег кхьинрин, математикадин, манидин тарсар, гьакIни аялриз кагъаз, шуьше гьазурунин, ктаб чап авунин, ракьун рекьер чIугунин технологиядикай чирвилер гузвай.

* * *

1885-1903-йисара Агъа Лакар, Хуьлуьхъ, Яргун, Манкъулидхуьр, Нежефхуьр, КIур, Чпир, ТIигьиржал, ТIигьир хуьрера диндин тушир мектебар кардик квай.

* * *

1884-йисуз СтIура цIийи мектебдин дарамат эцигнай.

## FAKTLARIN DİLİ İLƏ

Hələ ərəblər VII əsrdə Dağıstana basqın edənədək ləzgilərin özünəməxsus təhsil sistemi və onlarca alimləri var idi. X əsrdə ləzgilər Yaxın və Orta Şərq ölkələri ilə elmi və mədəni əlaqələr saxlayırdılar. XI əsrdə iri ləzgi kəndlərində mədrəsələr fəaliyyət göstərmişdir. Məşhur şərqşünas alim, akademik İ.Y.Kraçkovskinin yazdığı kimi, ləzgilər öz vətənlərindən uzaqlarda da böyük nüfuz sahibləri kimi tanınır, elmdə və digər sahələrdə müsəlman dünyasının qabaqcıl nümayəndələrinə nümunə göstərirdilər.

* * *

1836-cı ildə Qusarda rus zabitlərinin uşaqları üçün açılmış məktəbdə 40-dan çox yerli uşaq da təhsil alırdı.

* * *

1866-cı ildə Qusarda ilk dövlət məktəbi açılmışdır. Şagirdlərinin sayı az olan bu bir sinifli ibtidai məktəbdə oğlanlarla qızlar bir yerdə oxuyurdular. Əsasən varlı adamların uşaqlarının oxuduğu həmin məktəbdə tədris rus dilində idi. 1880-cı ildə artıq burada 55 oğlan və 15 qız oxuyurdu. Onlara iki müəllim dərs deyirdi.

* * *

Hələ 1836-cı ildə qəbul olunmuş Qafqaz ordusunun hərbi məktəbləri haqqında Əsasnaməyə uyğun olaraq 1876-cı ildə Temir-Xan-Şurada, Deşlaqarda və Qusarda zabit və qulluqçuların uşaqları üçün bir sıra məktəblər açılmışdı.

XIX əsrin ortalarında belə bir məktəb Dağıstan süvari polku nəzdində yaradılmışdı. Burada 30 şagird təhsil alırdı, onlara rus dili, hüsnxət, hesab, nəğmə dərsləri keçilir, tarixə və coğrafiyaya aid ibtidai biliklər öyrədilir, uşaqlar kağızın və şüşənin hazırlanması, kitab çapı, dəmir yolunun çəkilməsi texnologiyası ilə tanış edilirdi.

* * *

1885-1903-cü illərdə Aşağı Ləgər, Xuluq, Həzrə, İmamqulukənd, Nəcəfkənd, Ukur, Cibir, Tahircal, Düztahir kəndlərində dünyəvi məktəblər fəaliyyət göstərirdi.

* * *

1884-cü ildə Sudurda yeni məktəb binası tikilmişdir.

* * *

1887-йисуз ЧIехи Муругъ хуьре дидедиз хьайи, вичин уьмуьрдин эхирдалди фекьивал авур Зуьлфикъаров Зуьлфикъар Алхасан хва Туьркиядин Истанбул шегьерда диндин рекьяй чирвилер къачур кас тир. Хуьруьнбуру хьиз, къунши хуьрерин агьалийрини вичиз икрам авур и кас кьейидалай кьулухъ адан сур пIирез элкъвена.

* * *

1890-йисуз Муьгъуьбали эфендиди Кузунрин хуьре эцигай мектебдин гьакъиндай 1903-йисуз Бакуда чапдай акъатай “Ежегодник” журналди марагълу малуматар ганва.

* * *

“Памятная книжка Кавказского учебного округа” ктабда кхьенвайвал, 1896-йисуз Бакуда кардик кутур II Александран тIварунихъ галай гимназияди тежрибаяр тухун патал КцIара колония тешкилнай. Сифте ина 120 аялди чирвилер къачузвайтIа, 1900-1901-йисара абурун кьадар 1152-дав агакьнай. Ина 21 муаллимди кIвалахзавай. Са кьадар вахтунда Нариман Наримановани ина тарсар ганай. КцIарин колониядикай Шамахидин “Пак Нина” мектебдин аялрини менфят къачунай.

* * *

XX виш йисан сифте кьилера лезгийрин сейли маарифчийри яратмишай жемиятри Кьиблепатан Дагъустандин ва Къуба уезддин хуьрера цIудралди мектебар кардик кутунай. И карда Жабраил эфенди, Гьажи Зеки эфенди, Жанмирзе эфенди, Гьажи Исакь агъа, Жарулла эфенди, Абди Жамиев, Гьажи Расул ва маса ксар иллаки тафаватлу хьанай.

* * *

Бакуда акъатзавай “Тазе гьеят” газетди 1912-йисан 5-июндиз Къуба уезддин ЦIийихуьруьн мектебдикай икI кхьенай: “Къубадин хуьрерикай ЦIийихуьре ахцегьви Малла Абдейнан регьбервилик кваз пуд йисан къене гьа са къайдада кIвалах давамарзавай мектебда 40-дав агакьна аялривай абурун алакьунар винел акъудун патал агъадихъ галай тарсарай имтигьанар вахчуна: исламдин тарихдай, шариатдай, дидед чIалай, Къуръандай, межвиддай. Гьатда 20 шакIурт министрдин премиядиз лайихлу хьана”.

* * *

2005-йисуз КцIар шегьердин 1-нумрадин мектебдин 120 йис тамам хьана. Гь.Агьмедован “XIX

* * *

1887-ci ildə Böyük Muruq kəndində anadan olmuş, ömrünün sonuna kimi mollalıq etmiş Zülfüqar Alxas oğlu Zülfüqarov Türkiyənin İstanbul şəhərində dini təhsil almış savadlı və mömün insan idi. Nəinki həmkəndliləri, o cümlədən qonşu kəndlərin əhalisi arasında da böyük nüfuz sahibi olmuş bu adamın ölümündən sonra onun qəbri pir kimi ziyarət olunur.

* * *

1890-cı ildə Möhübəli əfəndinin Kuzun kəndində inşa etdirdiyi məktəb haqqında 1903-cü ildə Bakıda çap olunan “Ejeqodnik” məcmuəsində maraqlı məlumatlar verilmişdir.

* * *

“Памятная книжка Кавказского учебного округа” kitabında yazıldığı kimi,1896-cı ildə Bakıda yaradılmış II Aleksandr adına klassik gimnaziya təcrübələrini aparmaq üçün Qusarda koloniya təşkil etmişdi. İlk vaxtlar burada 120 şagird təhsil alırdısa, 1900-1901-ci illərdə onların sayı 1152-yə çatmışdı. Burada 21 müəllim çalışırdı. Nəriman Nərimanov da bir müddət burada dərs demişdir. Qusar koloniyasından qədim qız məktəblərindən biri olan Şamaxının “Müqəddəs Nina” məktəbinin şagirdləri də istifadə edirdilər.

* * *

XX əsrin əvvəllərində məşhur ləzgi maarifçilərinin yaratdıqları cəmiyyətlər Cənubi Dağıstanın və Quba qəzasının kəndlərində onlarca məktəblər açmışdır. Bu işdə qabaqcıl ziyalılardan Cəbrayıl əfəndi, Hacı Zəki əfəndi, Canmirzə əfəndi, Hacı İshaq ağa, Carulla əfəndi, Abdi Camiyev, Hacı Rəsul və başqaları xüsusilə fərqlənmişlər.

* * *

Bakıda çıxan “Tazə həyat” qəzeti 5 iyun 1912-ci il tarixli sayında Quba qəzasının Zeyxür kənd məktəbi haqqında yazmışdı: “Quba kəndlərindən Zixur nam qəryədə üç ildən bəri davam etməkdə olan üsul cədid məktəbin imtahanları məşhur millətpərvər axtılı molla Abdeynin təht rəyasətində olaraq, 40-a yaxın şagirddən atidəki elmlərdən məzkur qəryənin əyani və əşrafi hüzurində kəmal müvəffəqiyyət və hətta bir bəşatətlə imtahan olunmuşlar: tarix islamdan, şəriətdən, ana dili sərfi, Quran kərimdən, məcviddən: hətta şagirdlərdən 20-yə qədəri hazironun mükafatına müzəhhər olmuşlardır”.

* * *

2005-ci ildə Qusar şəhər 1 saylı məktəbinin 120 yaşı tamam olmuşdur. H.Əhmədovun “XIX əsrin

виш йисан Азербайжандин мектеб” ктабдин 100-чина кхьенвайвал, 1881-1886-йисара Баку губернияда тек вад цIийи мектеб ачухарнавай ва абурукай сад Къуба уезддин КцIар хуьре авай. Яргундал ва Манкъулидхуьре мектебар 1886-йисуз кардик кутунай.

* * *

1920-йисуз КцIара аялрин колония, набутар патал кIвал, фяле ва лежберрин клубар, Къубада дишегьлийрин клуб, са шумуд ктабхана кардик акатна. Гьа девирда округдин чара-чара чкайра гзаф аялрин бахчаяр кардик кутуна.

* * *

ЭчIехуьруьнви фекьи Гьажи Жами эфенди ибн Зекерия эфенди ЭчIехуьридин (1865-1936) “Шариатул-ислам” (“Исламдин къанунар”) ктабдикай 1913-1919-йисара Баку губерниядин мектеб ва медресайра менфят къачузвай, ам гьакIни Закавказьеда сейли тир. Ктаб Бакуда Оружов стхайрин чапханада пудра тикрар басма хьанай. А ктаб Туьркиядани чапдай акъуднай.

* * *

1913-йисуз Гьажи Жавада хайи хуьре Хуьлуьхъа вичин харжидалди мектеб эцигнай ва ина тарс гун патал чара-чара чкайрай муаллимриз эвернай. Ихьтин муаллимрикай сад 1913-1914-йисара ина кIвалахай машгьур шаир Агьмед Жавад тир. Гуьгъуьнлай ада Къафур Эфендизадедиз (Къантемираз) иниз эвернай. Истанбул Университетдин тарихдинни филологиядин ва Азербайжандин Гьукуматдин Университетдин медицинадин факультетар акьалтIарай Къафур Себридин хва Эфендиева (Къантемира) 1916-1917-йисара Хуьлуьхърин мектебда муаллимвал авунай. И кьве кхьирагди а вахтунда цIудралди кцIарви муаллимриз чирвилер ганай.

* * *

I Дуьньядин дяведин йисара ва Октябрдин инкъилабдилай вилик Агъа Лакар, Манкъулидхуьр, ЦIуру Худат, Нежефхуьр, Яргун, ТIигьиржал ва Уьнуьгъ хуьрера мектебар ва медресаяр кардик кутунай.

* * *

1914-1919-йисара ЦIалагурдин тIвар-ван авай маарифчи Малла Мегьамеда ина медреса эцигиз тунай. Са шумуд гьуьжредин и медресада мукьув гвай хуьрерай атай ксарини чирвилер къачузвай.

* * *

1916-1917-йисара Уьнуьгъа медреса-мектеб кар-

Azərbaycan məktəbi” kitabının 100-cü səhifəsində qeyd olunduğu kimi, 1881-1886-cı illərdə Bakı quberniyasında beş yeni məktəb açılmışdır ki, onlardan biri Quba qəzasının Qusar kəndinin payına düşürdü. Həzrədə və İmamqulukənddə məktəblər 1886-cı ildə istifadəyə verilmişdir.

* * *

1920-ci ildə Qusarda uşaq koloniyası, əlillər evi, fəhlə-kəndli klubları, Qubada qadınlar klubu, bir neçə kitabxana və qiraətxana açılmışdır. Qəzanın, demək olar ki, bütün nahiyələrində uşaq bağçaları təşkil olunmuşdur.

* * *

Əcəxür ruhanisi Hacı Cami əfəndi ibn Zəkəriyyə əfəndi Əcəxürinin (1865-1936) “Şəriətül-islam” (“İslam qanunları”) kitabından 1913-1919-cu illərdə Bakı quberniyasının məktəb və mədrəsələrində geniş istifadə olunmuşdur. Həmin kitab Zaqafqaziyada da yayılmışdır. O, Bakıdakı Orucov qardaşları mətbəəsində 3 dəfə təkrar nəşr olunmuşdur. Həmin kitab Türkiyədə də çap olunmuşdur.

* * *

1913-cü ildə Hacı Cavad doğma kəndi Xuluqda öz vəsaiti ilə məktəb tikdirmiş, orada dərs demək üçün müxtəlif yerlərdən müəllimlər dəvət etmişdi. Belə müəllimlərdən biri 1913-1914-cü illərdə burada dərs demiş görkəmli şair Əhməd Cavad idi. Sonradan Hacı Cavad göyçaylı Qafur Əfəndizadəni (Qantəmir) də buraya dəvət edir. İstanbul Universitetinin tarix-filologiya, sonralar isə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini bitirmiş Qafur Səbri oğlu Əfəndiyev (Qantəmir) 1916-1917-ci illərdə Xuluqda dərs demişdir. Bu iki görkəmli ziyalı Qusar rayonunda o dövrdə yetişmiş onlarca müəllimin formalaşmasında mühüm rol oynamışdır.

* * *

I Dünya müharibəsi illərində və Oktyabr inqilabı ərəfəsində Aşağı Ləgər, İmamqulukənd, Köhnə Xudat, Nəcəfkənd, Həzrə, Tahircal, Əniğ kəndlərində məktəb və mədrəsələr açılmışdır.

* * *

1914-1919-cu illərdə Çiləgir kəndinin tanınmış ziyalısı Molla Məmməd burada mədrəsə tikdirmişdi. Bir neçə hücrədən ibarət olan bu mədrəsəyə ətraf kəndlərdən də oxumağa gəlirdilər.

* * *

1916-1917-ci illərdə Əniğ kəndində mədrəsə-

дик квай. Ина Малла Шихбалади ва Малла Муьштакъа тарсар гузвай.

* * *

Савадлу ва алакьунар авай кас тир Мучугъви Муьзеффер Эмирбегова Бакуда машгъур миллионер Гь.З.Тагъиеван бухгалтервиле ва куьмекчивиле кIвалахнай. Гуьгъуьнлай хуьруьз хтай Муьзеффера ина мектеб кардик кутуна, муаллимвал авунай. Октябрдин инкъилабдилай кьулухъ ада КцIар районда саваддсузвал терг авунин карда мукьувай иштирак авунай.

* * *

1917-йисан февралдин инкъилабдилай гуьгъуьниз Хуьлуьхъа муаллимар патал 3 вацран курсар ахъайнай. Ина кIелзавайбурун арада Дагъустандин Самур уезддин Филер хуьряй тир Шихали Шагьмурадан хва Гьажизадени авай. Ада инаг акьалтIарна Яламада, ЦIийихуьрубада ва Ханубада муаллимвал авунай.

* * *

ТIигьир хуьруьн сифте муаллимрикай тир Жаруллагь Аливердиева 1917-йисан 1-ноябрдилай ина тарсар гана. 1920-йисуз Къуба Уезддин Инкъилабдин Комитетди ва халкьдин маарифдин отделди адаз гайи 1204-нумрадин билетда кхьенвай: “И кас гьакъикъатдани чи кIвалахдар я, адак кямир".

* * *

1919-йисан сентябрдиз Яргундал рушарин кьилди мектеб кардик акатна. Мектебдиз Айбике Мурсаловади регьбервал гузвай. Ада ина тарсарни гузвай. Буба Ахцегьай, диде Яргундай тир Айбикедихъ галаз санал иниз адан дидени атанай.

* * *

КцIар райондин образованидин отделдин сад лагьай заведиш эвежугъви Сейфулла Абдуллазаде тир.

* * *

1919-йисуз КцIара Азербайжандин Мусаватдин гьукуматди пуд вацран курсар ачухарна. Ина тарсар гузвай муаллимрикай сад Хуьлуьхъин курсуна тарс гайи Къафур Эфендиев тир. Курсуна гьам муаллимри, гьамни муаллим тушир ксари иштиракзавай. Ина чирвилер къачузвайбурун арада ЭчIехуьряй Тажиддин Эфендиев, Лакардилай Эбил Сеферов, Ахцегьай Бубахан Нуриев, Кара Куьредай Муьгьйеддин Велиханов ва масабур авай.

* * *

Хуьлуьхърин эгьли Абдулжелил эфендиди (Абдулжелил Садикьан хва Рамазанов) Истанбулда диндин рекьяй вини дережадин чирвилер къачуна, хуьруьз

məktəb fəaliyyət göstərmişdir. Burada Molla Şıxbala və Molla Müştaq dərs deyirdilər.

* * *

Məşhur milyonçu H.Z.Tağıyevin mühasibi olmuş Mucuq kənd sakini Müzəffər Əmirbəyov həm də milyonçunun yaxın məsləhətçisi idi. Kəndə qayıtdıqdan sonra Müzəffər məktəb açaraq, müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Oktyabr inqilabından sonra bu ziyalı Qusar rayonunda savadsızlığın ləğv olunmasında fəallıq göstərmişdir.

* * *

1917-ci ilin fevral inqilabından sonra Xuluq kəndində müəllimlər üçün 3 aylıq pedaqoji kurs təşkil olundu. Burada təhsil alanlardan biri Dağıstanın Samur qəzasının Filer kənd sakini Şıxəli Şahmurad oğlu Hacızadə olmuşdur. O, kursu bitirib Yalamada, Zeyxurobada və Xanobada müəllim işləmişdir.

* * *

Düztahir kənd məktəbinin ilk müəllimlərindən biri olan Carullah Əliverdiyev 1917-ci ilin noyabrın 1-dən burada dərs deyib. 1920-ci ildə Quba Qəza İnqilab Komitəsi və xalq maarif şöbəsi tərəfindən ona verilmiş 1204 saylı şəxsi biletdə bu sözlər yazılmışdı: “Bu adam həqiqətən bizim adamdır və ona toxunmayın”.

* * *

1919-cu ilin sentyabrında Həzrədə qızlar üçün ayrıca məktəb fəaliyyətə başlayır. Məktəbin müdiri və müəllimi axtılı Aybikə Mürsəlova idi. Onun atası axtılı, anası isə həzrəli idi. Qızını tək qoymamaq üçün anası da Aybikə ilə Həzrəyə gəlmişdi.

* * *

Qusar rayonunun ilk maarif şöbə müdiri əvəcuğlu Seyfulla Abdullazadə olmuşdur.

* * *

1919-cu ildə Qusarda Azərbaycan Müsavat Hökuməti rəsmi olaraq üçaylıq müəllimlər kursu açır. Kursun müəllimlərindən biri Xuluq kursunda dərs demiş Qafur Əfəndiyev idi. Dərslərdə həm məktəb müəllimləri, həm də qeyri-peşə sahibləri iştirak edirdilər. Tələbələr arasında Əcəxür kəndindən Tacəddin Əfəndiyev, Ləgərdən Əbil Səfərov, Axtıdan Babaxan Nuriyev, Kara Küredən Mühyəddin Vəlixanov və başqaları var idi.

* * *

Xuluq kənd sakini Abdulcəlil əfəndi (Abdulcəlil Sadıq oğlu Ramazanov) İstanbulda ali ruhani təhsili alıb kəndə qayıtmış, buradakı məscidin mollası olmuş,

хтайдалай кьулухъ ина диндин тушир мектеб ачухарна, муаллимвал авунай. Ада ина муаллимар патал курсни ахъайнай. Гьа курс акьалтIарайбурук стIурви Къарабег Селимов, тIигьирвияр Нежмеддин Шихкеримов, Жаруллагь Аливердиев ва масабур галай.

* * *

Хуьлуьхъвийрин тIалабуналди 1919-йисан 1-октябрдиз гьукуматди ина I дережадин мектеб ахъаюн патал серенжем гана ва и кар кьилиз акъудна. Ясабвийри авур ихьтин тIалабунни гьукуматди кваз кьуна ва инани мектеб ачухарна.

* * *

1920-йисуз КцIара ва Хуьлуьхъа синифдин муаллимар гьазурдай курсар кардик квай.

* * *

1920-йисан 8-февралдиз Къубада дишегьлийрин мектеб кардик кутуна. И мектебда кIелзавайбурун арада кцIарвиярни авай.

* * *

1922-1923-йисара Къуба уезддин 520 хуьре 279 муаллимди кIвалахзавай. Абурук 141 лезги, 97 азербайжанви, 28 урус, 12 тат, 9 чувуд, 2 эрмени акатзавай. КIелзавайбурукай 2900 кас азербайжанви, 2500 кас лезги, 1627 кас тат, 302 кас урус, 239 кас чувуд, 22 кас эрмени тир.

* * *

1924-йисан зулуз Къуба уезддай тIигьиржалвияр Къафар Алимовни Шагь Келентеров, лакарви Эбил Сеферов, эчIехуьруьнви Тажиддин Эфендиев Азербайжандин Педагогикадин Институтдик экечIна. 1927-йисуз институт акьалтIарай Къафар Алимова Ленкоран Уезддин Халкьдин Образованидин Отделдиз регьбервал гана. Ватандин ЧIехи дяведилай вилик ада Къуба Уезддин Халкьдин Образованидин Отделдин заведишвиле кIвалахнай.

* * *

1924-йисуз КцIара ктабхана, 1925-йисуз аялрин бахча кардик кутунай.

* * *

1926-йисалай райондин Уьнуьгъ, ЦIуру Худат, Хьил, КIур, ТIигьир, СтIур, Нежефхуьр, Хуьлуьхъ, Вини ТIигьиржал, Вурвар, Агъа Лакар хуьрера гьукуматдин харжидалди мектебар эцигиз эгечIна. Абур са формадинбур яз, 3,5-4 метрдин кьакьанвиле авай 3-4 синифдикай, директордин кабинетдикай ва ам яшамиш жезвай утагъдикай ибарат тир. И мектебар вири 1932-йисуз кардик кутуна.

sonradan dünyəvi məktəb yaradaraq, müəllimlik etmişdir. O, həmçinin müəllimlər hazırlayan kurslar da açmışdır. Həmin kursları sudurlu Qarabəy Səlimov, düztahirli Nəcməddin Şixkərimov, Carullah Əliverdiyev və başqaları bitirmişlər.

* * *

Xuluq kənd camaatının tələbi ilə 1919-cu ilin oktyabrın 1-də hökumət burada I dərəcəli məktəb açılması üçün sərəncam verdi və tezliklə əhalinin tələbi yerinə yetirildi. Yasab kəndinin əhalisi də belə bir tələb irəli sürdü və tezliklə bu kənddə də məktəb fəaliyyətə başladı.

* * *

1920-ci ildə Qusarda və Xuluqda sinif müəllimləri hazırlayan kurslar fəaliyyət göstərirdi.

* * *

1920-ci ilin fevralın 8-də Qubada ilk qadın məktəbi açıldı və bu məktəbin ilk müdavimləri arasında qusarlılar da var idi.

* * *

1922-1923-cü dərs ilində Quba qəzasının 520 kəndində 279 müəllim işləyirdi ki, onların 141 nəfəri ləzgi, 97 nəfəri azərbaycanlı, 28 nəfəri rus, 12 nəfəri tat, 9 nəfəri yəhudi, 2 nəfəri erməni idi. Şagirdlərdən isə 2900-ü azərbaycanlı, 2500-ü ləzgi, 1627-si tat, 302-si rus, 239-u yəhudi, 22-si erməni idi.

* * *

1924-cü ilin payızında Azərbaycan Ali Pedaqoji İnstitutuna Quba qəzasından tahircallı Qafar Əlimov və Şah Kələntərov, ləgərli Əbil Səfərov, əcəxürlü Tacəddin Əfəndiyev daxil oldular. 1927-ci ildə institutu bitirmiş Qafar Əlimov Lənkəran Qəza Xalq Maarif Şöbəsinin müdiri təyin olundu. Qafar Əlimov Böyük Vətən müharibəsindən əvvəl Quba qəzasının və Axtı Rayon XMŞ-nin müdiri vəzifələrində işləmişdir.

* * *

1924-cü ildə Qusarda kitabxana, 1925-ci ildə isə uşaq bağçası yaradılıb.

* * *

1926-cı ildən başlayaraq rayonun Əniğ, Köhnə Xudat, Hil, Ukur, Düztahir, Sudur, Nəcəfkənd, Xuluq, Yuxarı Tahircal, Urva, Aşağı Ləgər kəndlərində dövlət hesabına ibtidai məktəblərin tikintisinə başlanmışdır. Binalar eyni formalı olub, 3,5-4 metr hündürlüyündə 3-4 sinif otağından, direktor otağından və direktorun yaşayış otağından ibarət olmuşdur. Həmin binaların hamısı 1932-ci ildə istifadəyə verilmişdir.

* * *

1929-йисуз КцIара кардик кутур Агропедтехникумди КцIар, Къуба, Хачмаз, Къунахкент ва Девечи районар патал муаллимар гьазурзавай. 1930-1942-йисара ина 500-далай гзаф касди чирвилер къачунай. КIелзавайбур пекерив, тIуьнив, гьакIни ксудай чкайрив таъминарзавай.

Педгогикадин илимрин кандидат Нямет Няметова 1939-йисуз инаг яру дипломдалди куьтягьнай.

* * *

Азербайжандин Совминдин 1956-йисан 15-августдин къарардалди КцIарин детдом кIевирна, адан чкадал интернат тешкилна.

* * *

Чкадин радио 1964-йисан февралдиз азербайжан ва лезги чIаларал кардик кутуна ва 2007-йисуз кIевирна.

* * *

Киевдин Хуьруьн Майишатдин Институтдин агрономия факультет акьалтIарай Эмрагьов Фетуллагь Бубаханан хва Къубадин Хуьруьн Майишатдин Техникумдин муаллим тир. Яргундал дидедиз хьана, ина юкьван мектеб куьтягьай Ф.Эмрагьова хайи хуьряй техникумдиз цIудралди жегьилар желбнай. Са анжах 1940-йисуз инин агрономия факультет акьалтIарай 40 жегьилдикай 30 яргунвияр тир.

* * *

1895-йисуз ЧIехи Муругъ хуьре дидедиз хьайи Мегьамед Османан хци Азербайжандин Санайидин Институт акьалтIарнай. Вичин Алмасов фамилия Османзадедив эвез авур ада яргъал йисара Кешледин машинар расдай заводдиз регьбервал ганай.

* * *

1992-йисуз КцIара Бакудин М.А.Сабиран тIварунихъ галай педтехникумдин филиал ачухарна ва къедалди ам кардик ква.

* * *

КцIар районда алай вахтунда 90 мектеб ава. Абурукай 50 там юкьван, 21 умуми юкьван ва 19 сифтегьан юкьван мектебар я. Эхиримжи вад йисан къене районда 17 цIийи мектеб кардик кутунва. Районда санлай 15447 аялди кIелзава. 2053 муаллимдикай 1301 касди институтар, 752 касди техникумар ва училищеяр куьтягьнава.

* * *

2010-йисуз КцIар районда 112 жегьил вузрик экечIна. Пуд жегьилди 600-далай, 19 жегьилди 500-далай виниз балл кIватIна.

* * *

1929-cu ildə Qusarda açılmış Aqropedtexnikum Qusar, Quba, Xaçmaz, Qonaqkənd, Dəvəçi rayonları üçün müəllim kadrarı hazırlayırdı. Həmin təhsil ocağı burada 1930-1942-ci illərdə 500-dən çox müəllim hazırlamışdır. Tələbələr geyim, yemək və yataqxana ilə təmin olunurdu.

Pedaqoji elmlər namizədi Nemət Nemətov 1939-cu ildə buranı fərqlənmə diplomu ilə bitirmişdir.

* * *

Azərbaycan SSR Nazirlər Sovetinin 15 avqust 1956-cı il tarixli qərarı ilə Qusar uşaq evi ləğv olunaraq, onun əvəzində internat məktəbi təşkil edilmişdir.

* * *

Yerli radionun verilişləri 1964-cü ilin fevralından Azərbaycan və ləzgi dillərində yayımlanmış, 2007-ci ildə bağlanmışdır.

* * *

Kiyev Kənd Təsərrüfatı İnstitutunun aqronomiya fakültəsinin məzunu Əmrahov Fətulla Babaxan oğlu Quba Kənd Təsərrüfatı Texnikumunun müəllimi idi. Qusar rayonunun Həzrə kəndində anadan olmuş, burada orta təhsil almış F.Əmrahov doğma kəndindən onlarca gənci işlədiyi texnikuma cəlb etmişdir. Təkcə 1940-cı tədris ilində buranın aqronomluq fakültəsini bitirmiş 40 gəncdən 30-u həzrəli idi.

* * *

Böyük Muruq kəndində 1895-ci ildə anadan olmuş Məhəmməd Osman oğlu Azərbaycan Sənaye İstitutunu bitirmiş, özünün Almasov familiyasını Osmanzadə ilə əvəz etmişdir. O, uzun illər Keşlə maşınqayırma zavoduna rəhbərlik etmişdir.

* * *

1992-ci ildə Qusarda açılmış Bakının M.Ə.Sabir adına pedaqoji texnikumunun filialı o vaxtdan fəaliyyət göstərir.

* * *

Qusar rayonunda hazırda 90 məktəb, o cümlədən 50 tam orta, 21 ümumi orta və 19 ibtidai orta məktəb fəaliyyət göstərir. Son beş ildə rayonda 17 yeni məktəb istifadəyə verilmişdir. Rayonda 15447 şagird təhsil alır. Gənc nəslin təlim-tərbiyəsi ilə 2053 nəfər müəllim məşğul olur ki, onlardan 1301 nəfəri ali, 752 nəfəri orta ixtisas təhsillidir.

* * *

2010-cu ildə Qusar rayonundan 112 məzun tələbə adını qazanmışdır. 3 nəfəri 600-dən, 19 nəfəri 500-dən yuxarı ball toplamışdır.



*1925-йис. Къуба уезддин райкомдин ва комсомолдин кIвалахдарар.*

*Вини жергеда кьилел бармак алайди райкомдин кьвед лагьай секретарь Нуреддин Шерифов я.*

*Сад лагьай жергеда эрчIи патай сад лагьайди Ашурлу Исмаил Гьабибан хва я. Ада Москвада Тимирязеван тIварунихъ галай Хуьруьн Майишатдин Академия акьалтIарнай. Вавилован шакIурт хьайи ада къуьлерин цIийи сортарин винел кIвалахзавай, кандидатвилин диссертация хуьз гьазур хьанвай. 1937-йисуз "халкьдин душман" хьиз Сибирдиз суьргуьн авур Исмаил ватандиз 19 йисалай ахъайнай.*

*1925-ci il. Quba qəzasının partiya və komsomol işçiləri. Yuxarı cərgədə papaqlı Quba Qəza Partiya Komitəsinin ikinci katibi Nurəddin Şərifovdur.*

*Birinci cərgədə sağdan birinci - Aşurlu İsmayıl Həbib oğludur. O, Quba qəza komsomol komitəsinin birinci katibi idi. Moskvada Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasını bitirmişdi. Vavilovun tələbəsi olmuş bu savadlı gənc yeni buğda sortlarının yaradılması üzərində çalışırdı. O, namizədlik dissertasiyasını müdafiə etməyə hazırlaşırdı. 1937-ci ildə "xalq düşməni" kimi Sibirə sürgün olunmuş, 19 il cəza çəkmişdir.*



*Зеки Расулан хва.*

*Zəki Rəsul oğlu.*

*Уьнуьгърин мектебдин тарих Шихбала муаллимдин тIварцIихъ галаз алакъалу я. Ада XX асирдин сифте кьилера вичин кIвале мектеб кардик кутуна, тарсар ганай. Са йисалай а мектебдиз регьбервал гун Уьнуьгърин юзбаши Расулан Бакуда гимназия акьалтIарай хцин - Зекидин хиве гьатнай. Ада хуьруьн устIаррив мектеб патал доска, партаяр ва стулар расиз тунай.*

*Маарифчи инсан тир Зекиди хуьруьнбурун тIалабуналди Бакудиз нарком Къазанфер Мусабегован кьилив фена, адавай хуьре мектеб эцигун патал куьмек тIалабнай. Наркомди мектебдиз куьмек патал 500 манат пул ганай ва са кьадар вахтундилай и куьмек артухарда лагьана гафни ганай. И гуьруьшдин таъсирдик кваз Зекиди вичин цIийиз дидедиз хьайи хциз Мусабег тIвар ганай.*

*Зеки Расулан хва гьсгъуьнлай округсоюздин кьил хьанай. 1930-йисуз Къахдиз, гьсгъуьнлай Бакудиз куьч хьайи ам чIехи къуллугърал хьанай.*

*Müasir Əniğ məktəbinin tarixi Şıxbala müəllimin adı ilə bağlıdır. O, XX əsrin əvvəllərində evində məktəb açıb dərs demişdir. Onun bu xeyirxah təşəbbüsünü Əniğin yüzbaşısı Rəsulun oğlu Zəki davam etdirmişdir. Bakıda gimnaziya bitirmiş Zəki həmin məktəbə müdir təyin olunduqdan sonra məktəblilər üçün yerli ustalara yazı lövhəsi, partalar və stullar düzəltdirərək, burada dərs demişdir.*

*Maarifpərvər insan olan Zəki yerli əhalinin xahişi ilə Bakıya, maarif naziri Qəzənfər Musabəyovun qəbuluna getmiş, ondan kənddə yeni məktəb binasının tikintisi üçün yardım istəmişdir. Q.Musabəyov bu xahişi yerinə yetirərək, ona məktəbin bünövrəsi üçün 500 manat vermiş, bir qədər sonra onlara yenidən yardım göstərəcəyini vəd etmişdir. Bu səmimi görüşdən mütəəssir olan Zəki Rəsul oğlu yenicə anadan olmuş oğluna Musabəy adını qoymuşdur.*

*Zəki Rəsul oğlu sonradan dairəittifaqın sədri olmuşdur. O, 1930-cu ildə Qaxa, sonradan isə Bakıya köçmüş, məsul vəzifələrdə çalışmışdır.*



*Кузуна 1935-йисуз кардик кутур мектеб.*

*Kuzun kəndində 1935-ci ildə tikilmiş məktəb.*



***Гьажи Жавад вичин веледрихъ галаз санал. XX виш йисан сифте кьилера ягъанвай и шикилдай килигзавай хизан КцIарин Хуьлуьхърин хуьре яшамиш жезвай. Девирдин девлетлу ва савадлу ксарикай яз Меккедиз фейи Жавад Къуба патан тIвар-ван авай камалэгьлийрикай тир.***

***Hacı Cavad övladları ilə. XX əsrin əvvəllərində çəkilmiş bu şəkildən boylanan ailə Qusarın Xuluq kəndində yaşamışdır. Dövrünün dövlətli və savadlı adamlarından olmuş, həcc ziyarətində olmuş Hacı Cavad Quba bölgəsinin adlı-sanlı ziyalılarından idi.***




***Франциядин Гьукуматдин Симфонический Оркестрдин пианистка, 1998-йисуз Франциядa Гран-При къачур Лале Вакъифан руш Мустафазаде Гьажи Жавадан штул я.***

***Fransa Dövlət Simfonik Orkestrinin pianoçusu, 1998-ci ildə Fransanın Qran-Pri mükafatına layiq görülmüş Lalə Vaqif qızı Mustafazadə Hacı Cavadın nəticəsidir.***



***Гьажи Жавадан рушар Муъминат ва Мислимат. Абур кьведни тIвар-ван авай духтурар тир.***

***Hacı Cavadın qızları Muminat və Mislimat. Onlar adlı-sanlı həkim idilər.***

***Гьажи Жами эфендиди мусурман мектебар ва медресаяр патал туькIуьрай ктабдин титулдин чар.***

***Hacı Cami əfəndinin müsəlman məktəb və mədrəsələri üçün tərtib etdiyi dərsliyin titul vərəqi.***



ШАРАIУЛЬ-ИСЛАМЪ

ДЛЯ УЧЕНИКОВЪ И УЧЕНИЦЪ

МЕКТЕБЕ И МЕДРЕССЕ

شرايع الاسلام



*Горидин муаллимрин семинария акьалтIарай Желил бегдикай (чапла патай) тIвар-ван авай муаллим хьанай. Ада и алакьуникай вичин рушаз - Гуьллуь Шагьмердановадизни пай ганай.*

*Qori müəllimlər seminariyasını bitirmiş Cəlil bəy (soldan) adlı-sanlı müəllim idi. O, bu həvəsini qızı Qüllü Şahmərdanovaya da miras vermişdi.*



1971-ci ildə A.Orucov Azərbaycan EA-nın elmi şurasında "İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq sənəti (V-VIII əsrlər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

тация хвенай.

1976-йисалай тарихдин илимрин доктор Жаббар Халилова регьбервал гузвай илимдин экспедицийра кIвалахай А.Оружова КцIарин, Къубадин, Девечидин ва Хачмазин са шумуд хуьряй гзаф къадим амукьаяр гьилик авуна ва Шамахидин Хынислы, Къубадин Дере Чичи, КцIарин Къефлед пелерин амукьайрикай, а районрин археологиядиз талукь делилрикай илимдин кIвалахар чапдай акъудна.

А.Оружован 30 йисан ахтармишунрин нетижа яз арадал атай "Кефер-РагъэкъечIдай Азербайжан юкьван асирра" тIвар ганвай докторвилин диссертациядиз оппонентри лайихлу къимет гана, ам асасдиз къачуна цIийи учебникар арадал гъун къетI авуна.

1997-йисалай вичин уьмуьрдин эхирдалди университетдин цIийи ва лап цIийи тарих кафедрада кIвалахай профессор Абидулла Оружов 60-далай гзаф илимдин кIвалахрин автор я. Практикадин материалрал асаслу хьуни и кIвалахрин къиметлувал мадни артухарзава. И материалар ада археологиядин кIвалахар кьиле тухудайла винел акъудай амукьайрикай, къванцин ва накьвадин сурарикай, къванцин, цурцун, ракьун затIарикай ибарат я.

## АЛИ МУСАЕВ



*(1941-2005)*

***ЦIуд йисуз "Самур" Лезги Милли Меркездиз регьбервал гайи француз чIалан алим Али Мусаеваз Франциядин гьукуматди медениятдин рекьяй къазанмишай агалкьунрай 2002-йисуз "Командор" орден ганай.***

Филологиядин илимрин доктор, профессор Али Межидан хва Мусаев 1941-йисуз КцIар районда дидедиз хьана. Шегьердин 2-нумрадин юкьван мектеб акьалтIарна, Азербайжандин Гьукуматдин Къецепатан ЧIаларин Институтдин француз чIалан факультетда кIелна. Институт тафаватлувилелди акьалтIарай жегьил ина муаллимвиле кIвалахал акъвазна. Гуьгъуьнлай 5 йисуз Алжирда таржумачивиле кIвалахай ада 1977-йисуз кандидатвилин ва 1990-йисуз докторвилин диссертацияр хвена. Чи республикада француз чIалан виридалайни хъсан пешекар тир ада 23 йисуз Азербайжандин Къецепатан ЧIаларин Университетдин француз чIалан лексика кафедрадиз регьбервал ганай.

А.Мусаев француз чIалан грамматикадикай кхьенвай 70-далай гзаф илимдин кIвалахрин автор я. Ада Азербайжанда сифте яз 5000 гафуникай иба-

1976-cı ildən tarix elmləri doktoru Cabbar Xəlilovun rəhbərlik etdiyi elmi ekspedisiyada çalışan gənc alim Qusar, Quba, Dəvəçi və Xaçmaz rayonlarının müxtəlif yerlərində qədim yaşayış yerlərini aşkara çıxarmışdır. Şamaxının Xınıslı, Qubanın Dərə Çiçi, Qusarın Qəflə təpələrini də ilk dəfə A.Orucov elmi cəhətdən öyrənmiş, bununla bağlı bir sıra elmi məqalələrlə çıxış etmişdir.

A.Orucovun rəhbərliyi ilə neçə-neçə insan alim adını qazanmışdır. Onun 30 illik axtarışlarının nəticəsi olan "Şimal-Şərqi Azərbaycan orta əsrlərdə" adlı doktorluq dissertasiyasının Azərbaycan elmində böyük hadisə olduğu qeyd edilmiş, onun əsasında yeni dərsliklərin yazılması tövsiyyə olunmuşdur.

1997-ci ildən ömrünün axırına kimi Bakı Dövlət Universitetinin yeni və ən yeni tarix kafedrasının professoru işləmiş A.Orucov 60-dan çox elmi əsərin müəllifidir. Praktik materiallara əsaslanması həmin əsərlərin sanbalını artırır. Bu materiallar onun arxeoloji qazıntılar apararkən aşkara çıxardığı qədim daş və torpaq qəbirlərdən, daş, tunc və dəmir dövrünə aid maddi mədəniyyət nümunələrindən ibarətdir.

## ƏLİ MUSAYEV

***On il "Samur" Ləzgi Milli Mərkəzinə rəhbərlik etmiş görkəmli alim Əli Musayevi mədəniyyət və incəsənət sahəsindəki xidmətlərinə görə Fransa dövləti 2002-ci ildə ölkənin "Komandor" ordeni ilə təltif etmişdir.***

Filologiya elmləri doktoru, professor Əli Məcid oğlu Musayev 1941-ci ildə Qusar şəhərində anadan olmuşdur. Qusar şəhər Azərbaycan orta məktəbini bitirib, M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunun fransız dili fakültəsinə daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1963-cü ildən həmin institutun fransız dili kafedrasında müəllim vəzifəsində çalışmışdır. 1966-1970-ci illərdə Əlcəzair Respublikasında tərcüməçi işləmişdir.

1970-ci ildən institutun fransız dili kafedrasında müəllim, baş müəllim vəzifələrində çalışmışdır. 1977-ci ildə Kiyev Dövlət Universitetində namizədlik, 1990-cı ildə Bakı Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə etmişdir. Fransız dili üzrə Azərbaycanda əvəzsiz mütəxəssis olan professor Ə.Musayev 23 il - 1978-2000-ci illərdə Azərbaycan Dövlət Dillər Universitetində fransız dilinin leksikası kafedrasının müdiri vəzifəsində çalışmışdır.

рат тир “Азербайжан чIаланни француз чIалан гафарган” туькIуьрна чапдай акъуднай. Алимдин къелемдикай “Алай аямдин француз чIала цIийи гафар туькIуьрзавай процессар”, “Алай аямдин француз чIалан лексика вилик тухун” ва “Маса чIаларай къачунвай гафар” хьтин къиметлу монографияр хкатнава. А.Мусаева Н.Генжевидин француз чIалаз элкъуьрнавай 50 гъезел Францияда чап хьана.

Ə.Musayev ölkəmizdə və xaricdə çap olunmuş 70-dən çox elmi əsərin müəllifidir. Onların arasında “Müasir fransız dilinin leksikasının inkişafı”, “Müasir fransız dilində sözəmələgətirici proseslər “, “Alınma sözlər”, “Fransızca-azərbaycanca lüğət” kitabları da vardır. Ə.Musayevin fransız dilinə tərcümə etdiyi N.Gəncəvinin qəzəlləri Fransada işıq üzü görmüşdür.

## АБДУЛЛА АГЪЕДОВ

***Азербайжандин сейли философ Абдулла Агьедов 17 йисуз ара датIана СССР-дин Совминдин патав гвай Диндин Крарин Советдин Азербайжандин векил хьанай.***


*(1928-2003)*

Философиядин илимрин доктор Абдулла Фетуллагьан хва Агьедов 1928-йисуз КцIар шегьерда дидедиз хьана. Юкьван мектеб къизилдин медалдалди, Азербайжандин Гьукуматдин Университетдин тарихдин факультет тафаватлувилелди акьалтIарна, 1952-йисуз Азербайжандин НафтIадинни Химиядин Институтда муаллимвиле кIвалахал акъвазна. Гуьгъуьнлай ада Азербайжандин Комсомолдин ЦК-да инструкторвиле, отделдин заведишвиле кIвалахна. АГУ-дин философиядин кафедрада кандидатвилин диссертация хвейидалай гуьгъуьниз ада Азербайжандин НафтIадинни Химиядин Институтдин кьилин муаллимвиле ва доцентвиле кIвалахна.

Кьуд йисуз Медениятдин Министерстводин илимдинни атеизмдин музейдиз регьбервал гайи алим цIийи кьилелай Азербайжандин НафтIадинни Химиядин Институтдиз хъфена ва ана философиядин кафедрадиз регьбервал гана. 1988-йисуз ада докторвилин диссертация хвена. 1993-2003-йисара профессор А.Агьедова Ижтимаи Сияси Коллежда деканвиле, кафедрадин заведишвиле кIвалахна.

А.Агьедов 100-далай гзаф илимдин кIвалахрин, цIудралди ктабрин, 20-далай гзаф монографийрин автор я. Адан “Химияди мужидатар къалурзава”, “Химияди негьзава” хьтин ктабар Азербайжанда цIуд агъзурралди кIелдайбурун рикI алай ктабриз элкъвенай. “Къадим дуьньядин философия”, “Юкьван виш йисарин РагъэкъечIдай патан уьлквейрин исламдин философия”, “Халкьарин ва дуьньядин динер” хьтин зурба илимдин кIвалахри алимдиз сейливал гъанай.

## ABDULLA ƏHƏDOV

***Azərbaycanın görkəmli filosofu Abdulla Əhədov 1968-ci ildə SSRİ Nazirlər Soveti yanında Dini İşlər Şurasının Azərbaycan üzrə sədri təyin olunmuş və bu vəzifədə 17 il fasiləsiz çalışmışdır.***

Fəlsəfə elmləri doktoru Abdulla Fətulla oğlu Əhədov 1928-ci ildə Qusar şəhərində anadan olmuşdur. Orta məktəbi qızıl medalla, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib, 1952-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun ictimai elmlər kafedrasında müəllim kimi fəaliyyətə başlamışdır. Sonralar Azərbaycan LKGİ MK-da təlimatçı, şöbə müdiri vəzifələrində çalışmışdır. 1961-ci ildə o, ADU-nun fəlsəfə kafedrasının aspiranturasına daxil olur. Namizədlik dissertasiyası müdafiə edib, Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda baş müəllim, dosent vəzifələrində çalışır.

Dörd il Mədəniyyət Nazirliyinin elmi ateizm muzeyinə rəhbərlik edən alim yenidən Neft və Kimya İnstitutuna qayıdır və burada fəlsəfə kafedrasının müdiri seçilir. 1988-ci ildə doktorluq dissertasiyası müdafiə edir və professor seçilir. 1993-2003-cü illərdə A.Əhədov Ali İctimai Siyasi Kollecdə professor, dekan, kafedra müdiri vəzifələrində çalışır.

A.Əhədov yüzdən çox elmi əsərin, onlarca kitabın, 20-dən çox monoqrafiyanın müəllifidir. Əsərləri dünyanın bir çox ölkələrində böyük tirajla çap olunmuş Abdulla Əhədovun “Kimya möcüzələr yaradır”, “Kimya ifşa edir” kimi elmi-kütləvi kitabları Azərbaycanda on minlərlə oxucunun stolüstü kitabına çevrilmişdi. “Qədim dünya fəlsəfəsi”, “Orta əsr islam Şərqində fəlsəfi fikir”, “Etnik və dünya dinləri” kimi fundamental əsərlərlə diqqəti cəlb edən Abdulla Əhədovun elmi məqalələri Azərbaycandan başqa Rusiyada, Gürcüstanda, Özbəkistanda və İranda da nəşr olunmuşdur.

## АГЪАВЕРДИ АГЪАВЕРДИЕВ

***Биологиядин илимдик зурба пай кутур Агъаверди Агъавердиеван илимдин кIвалахрикай шумудни са йисар я Россиядин хуьруьн майишатда менфят къачуз.***



*(1934-1996)*

Биологиядин илимрин доктор Агъавердиев Агъаверди Шагьвердидин хва 1934-йисуз КцIар райондин Пиралрин хуьре дидедиз хьана. Ина 8-синиф, гуьгъуьнлай Яргунрин юкьван мектеб къизил медалдалди акьалтIарна, Бакудин военный училищеда кIелна. 1957-йисуз Азербайжандин Гьукуматдин Университетдин биологиядин факультетдик экечIна.

Университет яру дипломдалди акьалтIарай жегьил кIелун давамарун патал Москвадиз, М.В.Ломоносован тIварунихъ галай МГУ-дин аспирантурадиз ракъурна. Ада 3 йисан аспирантура йисни зура акьалтIарна, биологиядай кандидатвилин диссертация хвена.

Перм университетдин физиологиядин ва микробиологиядин кафедради кьилин муаллимвилин везифа кьун патал тухвай конкурсда уфтан хьайи ам, Пермдиз куьч хьана. Ина кьилин муаллимвиле, кафедрадин заведишвиле кIвалахна, са шумуд йисалай докторвилин диссертация хвена.

1974-йисуз мадни конкурсда уфтан хьайи Агъаверди Подмосковьеда В.Р.Вильямсан тIварунихъ галай Алафар Ахтармишунин Институтда отделдин заведишвиле кIвалахиз эгечIна. 1985-йисалай А.Агъавердиев Центросоюзда кIвалахал акъвазна.

1993-йисуз ам Дербентдиз куьч хьана ва ина "Юждаг" Университетда кафедрадин заведишвиле, 1995-йисалай проректорвиле кIвалахна. Ам 1996-йисуз Россиядин Энергоинформациядин Илимрин Академиядин академиквиле хкяна. Алим 100-далай виниз илимдин кIвалахрин, са шумуд учебникдин, гзаф программайрин автор я.

Агъаверди Агъавердиева эхиримжи йисара вичин хайи хуьруькай "Пиралвияр" тIвар ганвай повесть кхьизвай. Ингъе гъафил кьиникьи адан мурад кьилиз акъудиз тунач.

## AĞAVERDİ AĞAVERDİYEV

***Biologiya elminə sanballı töhfələr vermiş Rusiyanın adlı-sanlı alimlərindən biri Ağaverdi Ağaverdiyevin əldə etdiyi elmi nəticələrdən uzun illərdir kənd təsərrüfatında geniş istifadə olunur.***

Biologiya elmləri doktoru Ağaverdiyev Ağaverdi Şahverdi oğlu 1934-cu ildə Qusar rayonunun Piral kəndində anadan olmuşdur. Burada səkkizillik məktəbi, Həzrə kəndində isə qızıl medalla orta məktəbi bitirmişdir. Bakıda hərbi məktəbdə oxumuş, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə daxil olmuşdur.

Universiteti fərqlənmə diplomu ilə bitirən gənc M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin 3 illik aspiranturasını il yarıma bitirib, namizədlik dissertasiyası müdafiə edir.

Perm Universitetinin fiziologiya va mikrobiologiya kafedrasında baş müəllim vəzifəsini tutmaq üçün elan etdiyi müsabiqədə qalib gələn Ağaverdi Permə köçür. Burada müəllim, baş müəllim, kafedra müdiri vəzifələrində çalışır. Bir neçə ildən sonra burada doktorluq dissertasiyası müdafiə edir.

1974-cü ildə Ağaverdi Ağaverdiyev yenidən müsabiqə yolu ilə Moskvanın V.R.Vilyams adına Elmi Tədqiqat Yemçilik İnstitutunda şöbə müdiri vəzifəsini tutur. 1985-ci ildə alim Sentrosoyuzda işə düzəlir və 1993-cü ilə kimi burada çalışır.

1993-cü ildə alim Dərbəndə köçür və buradakı "Yujdaq" Universitetində kafedra müdiri, 1995-ci ildən isə prorektor vəzifəsində çalışır. 1996-cı ildə Ağaverdi Ağaverdiyev Rusiya Enerji İnformasiya Akademiyasının akademiki seçilir.

Ağaverdi Ağaverdiyev 100-dən çox elmi əsərin, bir neçə dərsliyin, çoxlu metodik proqramların və göstərişlərin müəllifidir.

Tanınmış alim son illər öz doğma kəndi və onun sakinləri haqqında "Pirallılar" adlı avtobioqrafik povest üzərində çalışırdı. Lakin vaxtsız ölüm ona əsəri başa çatdırmağa imkan vermədi.

## НАЗИМ ЭМИРОВ

***Вичи арадиз гъайи нахутIрин, пахлайрин, мержимекрин сортариз алимри чIехи тир къимет гайи Назим Эмиров дуьньядиз сейли алим я.***



Хуьруьн майишатдин илимрин доктор, профессор Эмиров Назим Саидан хва 1935-йисуз КцIар районгдин Агъа Лакаррин хуьре дидедиз хьана. Хуьре юкьван мектеб акьалтIарна, Куьрдемир райондин ипекчивилин курсара кIелай гадади Къубадин ипекчивилин идарада инспекторвиле кIвалахна.

1943-йисуз Къубадин пединститутдик экечIай Н.Эмирова КцIар райондин Ени Гьаят ва ГьасанкIеле хуьрера муаллимвал авуна. Гуьгъуьнлай Азербайжандин Хуьруьн Майишатдин Институт куьтягьай ам, Азербайжандин ИА-дин Лежбервилин Институтдиз ракъурна ва гьа чIавалай къедалди ада ина кIвалахзава.

1955-йисуз аспирантурадик экечIай жегьилди 1958-йисуз кандидатвилин, 1980-йисуз докторвилин диссертацияр хвена. Адан илимдин ахтармишунриз сифте яз Чехословакиядин алимри чIехи тир къимет гана ва ина адан эсерар чапдай акъудна. Гьа чIавалай Азербайжандинни Чехословакиядин алимрин арада пайда хьайи дуствилин алакъаяр къедалди давам жезва. Болгариядин алимри лагьайтIа, Н.Эмирован "Азери" мержимекдин сортуниз лайихлу къимет гана ва ам дуьньяда тай авачир сорт тирди малумарна.

Азербайжанда цазвай нахутIрин 119, пахлайрин 134 ва мержимекрин 68 сорт илимдин рекьелди чирна, абурун генетикадин формайрин классификация гана, магьсулдар, кьакьан буйдин, белокралди девлетлу цIийи сортар арадиз гъайи Назим Эмиров неинки Азербайжандиз, гьакI Болгария, Румыния, Югославия, Германия, Чехословакия хьтин уьлквейризни сейли я. Адан сортарикай цIудралди уьлквейрин лежберри менфят къачузва

Н.Эмирова 1980-йисуз Санкт-Петербургда докторвилин диссертация хвена. Алимди цIуд йисалай гзаф вахтунда Азербайжандин Лежбервилин Институтдин лабораторийриз регьбервал гана.

Назим Эмиров 135 илимдин кIвалахрин, 4 ктабдин, 2 кIватIалдин, 2 монографиядин, гзаф меслятрин автор я. Адан эсерар шумудни са къецепатан уьлквейра чап хьанва.

## NAZİM ƏMİROV

***Yaratdığı noxud, lobya, mərcimək sortları dünya alimləri tərəfindən yüksək qiymətləndirilmiş Nazim Əmirov dünyanın məşhur alimlərindəndir.***

Kənd təsərrüfatı elmləri doktoru, professor Nazim Səid oğlu Əmirov 1935-ci ildə Qusar rayonunun Aşağı Ləgər kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirib, Kürdəmir rayonunda ipəkçilik kursunda oxumuş, Quba rayonlararası ipəkçilik idarəsində inspektor kimi əmək fəaliyyətinə başlamışdır.

1943-cü ildə Quba Müəllimlər İnstitutuna daxil olan gənc Qusar rayonunun Yeni həyat və Hənənqala kəndlərinin məktəblərində müəllim və direktor işləmişdir. Sonradan Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tarlaçılıq fakültəsini bitirən Nazim Əmirov Azərbaycan EA-nın ET Əkinçilik İnstitutuna işə göndərilmiş və o vaxtdan taleyini həmin elm mərkəzi ilə bağlamışdır.

1955-ci ildə N.Əmirov Azərbaycan EA-nın aspiranturasına daxil olmuş, 1958-ci ildə namizədlik, 1980-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Onun kövşəndə əkilən bitkilərlə bağlı elmi tədqiqatlarını Çexoslovakiya alimləri yüksək qiymətləndirmişlər. O vaxt iki ölkə alimləri arasında yaranmış elmi əlaqələr bu gün də davam edir.

N.Əmirov 1960-cı ildən başlayaraq, Azərbaycanda becərilən noxudun 119, lobyanın 134, mərciməyin 68 sortunu əldə edərək, ilk dəfə onların genetik formalarının mükəmməl təsnifatını vermiş, yüksək məhsuldar, hündür boylu, zülalla zəngin, xəstəlik və ziyanvericilərə davamlı yeni noxud, lobya, mərcimək sortlarını yaratmağa müvəffəq olmuşdur. Bu sortlar Azərbaycanda, Bolqarıstanda, Rumıniyada, Yuqoslaviyada, Çexoslovakiyada və ADR-də becərilmişdir. Bolqarıstan Buğda və Günəbaxan İnstitutunun alimləri Nazim Əmirovun yaratdığı mərciməyin "Azəri" sortunu böyük elmi nailiyyət adlandırmışlar. Professor N.Əmirov 1983-cü ildə Azərbaycan ET Əkinçilik İnstitutu toxumçuluq laboratoriyasının müdiri, 1989-cu ildə dənli paxlalı bitkilərin seleksiyası laboratoriyasının müdiri seçilmiş, 1994-cü ilə kimi həmin vəzifədə çalışmışdır.

Nazim Əmirov 135 elmi əsərin, o cümlədən 4 kitab, 2 monoqrafiya və çoxlu tövsiyyələrin müəllifidir. Onun bir sıra əsərləri respublikadan xaricdə nəşr olunmuşdur.

## ЗЕЙНЕДДИН ЭМИРОВ

***Картуфдин цIийи сортар арадиз гъайи Зейнеддин Эмирова 15 рационализаторвилин теклиф республикадин районра вичи кардик кутунай.***



*(1930-2002)*

Хуьруьн майишатдин илимрин доктор Зейнеддин Саидан хва Эмиров КцIар райондин Агъа Лакар хуьре дидедиз хьана. Къубадин Совхоз-Техникум ва Ленинграддин Хуьруьн Майишатдин Институт акьалтIарна, 1959-йисуз Ленинградда диссертация хвена, биологиядин илимрин кандидатвилин тIвар къачуна. 1962-йисуз Азербайжандин Гьукуматдин Университетдин генетикадин кафедрада муаллимвиле кIвалахал акъвазай З.Эмиров, гуьгъуьнлай доцентвилин ва профессорвилин тIварариз лайихлу хьана.

1967-йисуз ам Къубадин Совхоз-Техникумдин директорвиле тайинарна. 1972-йисалай Азербайжандин ИА-дин Бустанчивилин Институтдин лабораториядиз регьбервал гайи ада, 1983-йисуз Москвада Н.И.Вавилован тIварунихъ галай Набататрин Институтда докторвилин диссертация хвена.

Алим 5 монографиядин, 100-далай гзаф илимдин кIвалахрин, 5 ктабдин автор я.

## ZEYNƏDDİN ƏMİROV

***Ömrünü yeni, yüksək məhsuldar kartof sortlarının yaradılmasına həsr etmiş Zeynəddin Əmirov 15 səmərələşdirici təklifini Azərbaycanın rayonlarında özü tətbiq etmişdir.***

Kənd təsərrüfatı elmləri doktoru Zeynəddin Səid oğlu Əmirov Qusar rayonunun Aşağı Ləgər kəndində anadan olmuşdur. Quba Sovxoz-Texnikumunu və Leninqrad Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. 1959-cu ildə Leninqradda namizədlik dissertasiyası müdafiə etmiş, bir müddət Azərbaycan ET Torpaqşünaslıq İnstitutunun tərəvəz və kartofçuluq şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır. 1962-ci ildən ADU-nun genetika kafedrasında baş müəllim, dosent və professor kimi fəaliyyət göstərmişdir.

1967-ci ildə Quba Sovxoz-Texnikumuna direktor göndərilmişdir. 1972-ci ildən Azərbaycan ET Tərəvəzçilik İnstitutunun laboratoriya müdiri vəzifəsində çalışmışdır. 1983-cü ildə N.İ.Vavilov adına Ümumittifaq Bitkiçilik İnstitutunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Alim 5 monoqrafiyanın, 100-dən çox elmi əsərin, 5 kitabın müəllifidir.

## ИСАМЕДДИН ОСМАНОВ

***АГУ-дин географиядин факультетдин экономикадинни социальный географиядин кафедрадин бине кутур Исамеддин Османова 50 йисуз ара датIана ина кIвалахнай.***



*(1920-2008)*

Географиядин илимрин доктор, профессор Исамеддин Саидан хва Османов КцIар райондин Агъа Лакар хуьре дидедиз хьана. Ада 1937-йисуз КцIар Шегьердин Педтехникум, 1941-йисуз В.И.Ленинан тIварунихъ галай АПИ-дин географиядин факультет акьалтIарна.

Ватандин ЧIехи дяведа иштирак авур И.Османова дяведилай кьулухъ КцIарин ва Къубадин мектебра муаллимвиле, завучвиле ва директорвиле кIвалахна. Ада 1955-йисуз “Азербайжандин Къуба-Хачмаз массивда совхозар вилик тухун” темадай кан-

## İSAMƏDDİN OSMANOV

***Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsinin iqtisadi-sosial coğrafiya kafedrasının yaradıcılarından biri olmuş İsaməddin Osmanov 50 il fasiləsiz olaraq həmin kafedrada çalışmışdır.***

Coğrafiya elmləri doktoru, professor İsaməddin Səid oğlu Osmanov Qusar rayonunun Aşağı Ləgər kəndində anadan olmuşdur. 1937-ci ildə Qusar Şəhər Pedaqoji Texnikumunu, 1941-ci ildə V.İ.Lenin adına APİ-nin coğrafiya fakültəsini bitirmişdir.

Böyük Vətən müharibəsinin iştirakçısı olmuş İ.Osmanov Qusar rayonunun və Quba şəhərinin bir sıra məktəblərində müəllim, dərs hissə müdiri və direktor kimi çalışmışdır. 1955-ci ildə “Azərbaycanın Quba-Xaçmaz massivində sovxozların yerləşməsi və inkişafı”

дидатвилин, 2007-йисуз “СНГ-дин уьлквейра майишат вилик тухунин алай аямдин географиядин проблемаяр” темадай докторвилин диссертацияр хвена. И.Османов Азербайжандин география илимдик пай кутур алимрикай я.

Чи республика паталди гзаф илимдин кадрияр гьазурунихъ вичин зурба пай кутур, 100-далай гзаф чап хьайи илимдин кІвалахрин автор тир Исамеддин Османов “Къуба”, “СССР-дин экономический география”, “КцІар район” ва маса ктабрин автор я.

## НУРУ КЪУРБАНОВ

***Ватандин ЧІехи дяведин женгера хьайи Нуру Къурбанова дяведилай кьулухъ вичин уьмуьр илимда женг чІугуниз серф авуна.***



*(1924-2001)*

Тарихдин илимрин доктор Къурбанов Нуру Гьажимурадан хва 1924-йисуз КцІар райондин ТІигьиржал хуьре дидедиз хьана. КцІарин педтехникум 1940-йисуз акьалтІарай жегьил Киевдин артиллериядин мектебдиз ракъурна. Дяве къарагъай йикъалай женгерив эгечІна. Нурудин алакьунар ва викІегьвилер акур командирри ам гуьгъуьнлай Сухумидин военный мектебдиз ракъурна. Инаг куьтягьна ам офицер хьиз дяведиз хъфена. Дяведин йисара къалурай кьегьалвилерай Нуру Къурбанов Ватандин ЧІехи дяведин I ва II дережадин орденриз, “Яру Гъед” ордендиз ва медалриз лайихлу хьана.

1951-йисуз Н.Къурбанова Ленинграддин Гьукуматдин Университет тафаватлувилелди куьтягьна вичин уьмуьр илимдиз бахш авуна. 1955-йисуз диссертация хвена тарихдин илимрин кандидатвилин тІвар къачуна. 1956-йисалай Дагъустандин Гьукуматдин Университетда кІвалахна. 1970-йисуз докторвилин диссертация хвейи Нуру Къурбанова 1973-йисалай профессор хьиз кІвалахна. 1978-1992-йисара Дагъустандин Педагогикадин Институтдин политологиядин ва социологиядин кафедрадиз регьбервал гайи алим шумудни са илимдин кІвалахрин, ктаб ва монографийрин автор я.

1992-йисуз Магьачкъала шегьердин Ленин райондай Дагъустан Республикадин Халкьдин Собранидин депутатвиле хкягъай Н.Къурбанов 2001-йисан августдиз рагьметдиз фена ва ам Магьачкъалада кучукна.

mövzusunda namizədlik, 2007-ci ildə “MDB ölkələrində təsərrüfat inkişafının müasir coğrafi problemləri” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Respublikamız üçün çoxsaylı elmi kadrların hazırlanmasında müstəsna rolu olmuş, 100-dən çox nəşr edilmiş elmi əsərin müəllifi kimi tanınmış İ.Osmanov Azərbaycan coğrafiya elminin sanballı nümayəndələrindən sayılır. Professor İ.Osmanov “Quba”, “SSRİ iqtisadi coğrafiyası”, “Qusar rayonu”, “MDB dövlətlərinin iqtisadi-sosial coğrafiyası” kitablarının müəllifidir.

## NURU QURBANOV

***Böyük Vətən müharibəsində qəhrəmanlıqlar göstərmiş Nuru Qurbanov ömrünün qalan hissəsini tarix elminə həsr etmişdir.***

Tarix elmləri doktoru Qurbanov Nuru Hacımurad oğlu 1924-cü ildə Qusar rayonunun Tahircal kəndində anadan olmuşdur. Kənd yeddillik məktəbini və Qusar pedaqoji texnikumunu bitirmişdir. 1940-cı ildə hərbi xidmətə - Kiyev artilleriya məktəbinə göndərilmişdir. Müharibə başlanan ilk gündən ön cəbhədə döyüşən gənc iki dəfə yaralanır. Suxumi hərbi məktəbini bitirən zabit yenidən cəbhəyə yollanır. 1943-cü ildə üçüncü dəfə ağır yaralanan Nurunun həyatını həkimlər çətinliklə xilas edirlər. Qələbəyə kimi ön cəbhədə döyüşən Nuru Qurbanov göstərdiyi igidliklərə görə Böyük Vətən müharibəsinin I və II dərəcəli ordenlərinə, “Qırmızı Ulduz” ordeninə və çoxlu medallara layiq görülür.

1946-cı ildə ordudan tərxis olunan Nuru Leninqrad Dövlət Universitetinə daxil olur və fərqlənmə diplomu ilə oranı bitirir. O, həyatını elmə həsr etməyi qərara alır, təhsilini həmin universitetin aspiranturasında davam etdirir və 1955-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi elmi dərəcəsini alır. 1956-cı ildən Dağıstan Dövlət Universitetində çalışmağa başlayır. 1970-ci ildə doktorluq dissertasiyası müdafiə edir. Professor N.Qurbanov 1978-1992-ci illərdə Dağıstan Pedaqoji İnstitutunda politologiya və sosiologiya kafedrasına rəhbərlik edərək, bir sıra elmi məqalələr, kitab və monoqrafiyalar çap etdirir.

1992-ci ilin martında o, Mahaçqala şəhərinin Lenin rayonundan Dağıstan Respublikası Xalq Məclisinə deputat seçilir. Alim 2001-ci ilin avqustunda vəfat etmiş, Mahaçqala şəhərində dəfn edilmişdir.

## ВАГЬИД КЪАДИМОВ



***Москвадин Техникадин Университетдин профессор Вагьид Къадимов машинар расунин технологияда математикадикай менфят къачузвай тай авачир пешекар я.***

Вагьид Агьмедан хва Къадимов 1953-йисуз КцIар шегьерда муаллимрин хизанда дидедиз хьана. 2-нумрадин юкьван мектебда, гуьгъуьнлай Бакудин 54-нумрадин математикадин мектебда кIелна. 1970-йисуз Азербайжандин Гьукуматдин Университетдин механикадинни математикадин факультетдик экечIай жегьилдин алакьунрай ва агалкьунрай ректоратди ам, III курс акьалтIарайла кIелун давамарун патал Москвадин М.В.Ломоносован тIварунихъ галай университетдиз ракъурна.

МГУ тафаватлувилелди куьтягьай жегьил аспирантурада хвена. 1980-йисуз ам кIвалахун патал Азербайжандин ИА-дин Математикадинни Механикадин Институтдиз ракъурна. Ина ада Югославиядиз илимдин кадрияр гьазурунин карда мукьувай иштиракна.

1981-йисуз МГУ-да кандидатвилин, 2000-йисуз докторвилин диссертацияр хвейи алимди 1998-йисалай Москвадин Гьукуматдин Техникадин Университетда лекцияр кIелзава. В.Къадимов 100-далай гзаф илимдин кIвалахрин автор я.

## VAHİD QƏDİMOV

***Moskva Dövlət Texniki Universitetinin professoru Vahid Qədimov maşınqayırma texnologiyasında tətbiqi riyaziyyatdan istifadə sahəsinin böyük mütəxəssisi hesab olunur.***

Fizika-riyaziyyat elmləri doktoru Vahid Əhməd oğlu Qədimov 1953-cü ildə Qusar şəhərində müəllim ailəsində anadan olmuşdur. Burada 2 saylı məktəbdə, sonradan Bakının 54 saylı riyaziyyat təmayüllü məktəbində oxumuşdur. 1970-ci ildə ADU-nun mexanika-riyaziyyat fakültəsinə daxil olan gənc əla təhsilinə görə III kursu bitirdikdən sonra M.V.Lomonosov adına Moskva Dövlət Universitetinə göndərilmişdir.

Buranı fərqlənmə diplomu ilə başa vuran istedadlı gənc universitetin aspiranturasında saxlanmışdır. 1980-ci ildə V.Qədimov Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutuna göndərilmişdir. Burada o, Yuqoslaviya üçün elmi kadrlar hazırlanması işində fəal iştirak etmişdir. 1981-ci ildə Moskvada namizədlik, 2000-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir.

Vahid Qədimov 1998-ci ildən Moskva Dövlət Texniki Universitetində çalışır. O, 100-dən artıq elmi əsərin, bir neçə ixtiranın müəllifidir. Onların xalq təsərrüfatına səmərəli tətbiqi nəticəsində dövlət büdcəsinə küllü miqdarda vəsait daxil olmuşdur.

## БЕГЬРАМ ИСЛАМОВ



***Российдин алимрихъ галаз санал 1991-йисуз перфторан (цавун ранг алай иви) арадал гъайи ксарикай сад Бегьрам Исламов я.***

Медицинадин илимрин доктор Бегьрам Исламан хва Исламов 1950-йисуз КцIар райондин Вини ТIигьиржалрин хуьре дидедиз хьана. Хуьруьн мектеб акьалтIарай ада Азербайжандин Гьукуматдин Медицинадин Институтда кIелна. Азербайжандин Здравоохраненидин Министерстводин ИА-дин Институтда кIвалахна. 1979-йисуз СССР-дин ИА-дин А.Н.Бакулеван тIварунихъ галай институтда кандидатвилин диссертация хвена.

Б.Исламова 1991-йисалай РФ-дин ИА-дин Теоретикадин ва Экспериментрин Биофизикадин Ин-

## BƏHRAM İSLAMOV

***Rusiyanın Nəzəri və Eksperimental Fizika İnstitutunda 1991-ci ildə perftoran (mavi qan) kəşf etmiş alimlərdən biri Bəhram İslamovdur.***

Tibb elmləri doktoru Bəhram İslam oğlu İslamov 1950-ci ildə Qusar rayonunun Yuxarı Tahircal kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirib, Azərbaycan Dövlət Tibb İstitutunda təhsil almışdır. O, əmək fəaliyyətinə Azərbaycan Səhiyyə Nazirliyinin Elmi Tədqiqat İstitutunda başlamışdır. B.İslamov 1979-cu ildə SSRİ EA-nın A.N.Bakulev adına institutunda namizədlik dissertasiyası müdafiə etmişdir.

B.İslamov 1991-ci ildən RF Elmlər Akademiyasının Nəzəri və Eksperimental Biofizika İnstitutunda

ститутда сектордиз регьбервал гузва. Ам перфторан (цавун ранг алай иви) арадал гьайи алимрикай сад я. Ада и рекьяй ахтармишунар тухузвай лабораториядиз ва группадиз регьбервал гузва. Алимдин экспериментри Урусатдин гьукуматдиз медицинадин рекьяй талукь программа арадал гьана кьилиз акъуддай мумкинвал гана. Ада илимда кьур нетижайрикай медицинадин чара-чара хилера менфят къачузва ва абур теориядинни практикадин жигьетдай къиметлубур яз гьисабзава.

Алимди докторвилин диссертация вичин ахтармишунринин нетижайрикай менфят кьачуна хвена. Ам гьакIни РФ-дин Илимдинни Практикадин Меркездин кьилин илимдин кIвалахдар я. 1999-йисуз вичиз Урусатдин Гьукуматдин Премия гайи, 2002-йисуз "Российядин лап хъсан духтур" гьуьрметдин тIварцIиз лайихлу хьайи Б.Исламован пуд веледдини - Элхана, Севдади ва Жемилади Москвадин I Медицинадин Академия акьалтIарнава. Элхана кандидатвилин диссертация хвенва.

çalışır və bölmə rəhbəri kimi fəaliyyət göstərir.

B.İslamov ilk dəfə olaraq perftoran (mavi qan) kəşf etmiş alimlərdən biridir. O, həmin sahədə tədqiqat aparan laboratoriyaya və alimlər qrupuna rəhbərlik edir. Alimin tədqiqatları Rusiya Federasiyası hökumətinə səhiyyəyə dair dövlət proqramını yaratmaqda kömək etmişdir. Xalq təsərrüfatının ayrı-ayrı sahələrinə tətbiq olunmuş onun elmi nəticələri nəzəri və praktiki cəhətdən qiymətli olub, böyük səmərəliliyi ilə seçilir. Alim doktorluq dissertasiyasını da apardığı tədqiqatların nəticələri əsasında müdafiə etmişdir.

Eyni zamanda RF Elm və Təcrübə Mərkəzinin baş elmi işçisi olan Bəhram İslamov 1999-cu ildə Rusiya Federasiyasının Dövlət Mükafatı ilə təltif olunmuş, 2002-ci ildə isə "Rusiyanın ən yaxşı həkimi" fəxri adına layiq görülmüşdür. Alimin 3 övladı - Elxan, Sevda və Cəmilə Moskva 1 saylı Tibb Akademiyasının məzunlarıdır. Elxan tibb elmləri namizədidir.

## КАМИЛ ГЬАЖИМУРАДОВ

***КцIара духтуррин несил хьиз сейли тир Гьажимурадоврин несилдай докторвилин диссертация сифте яз Камил Гьажимурадова хвена.***



Медицинадин илимрин доктор, профессор Камил Низаман хва Гьажимурадов 1953-йисуз КцIара дидедиз хьана. Ина 2-нумрадин юкьван мектеб, 1976-йисуз Н.Наримanован тIварунихъ галай Азербайжандин Гьукуматдин Медицинадин Институт акьалтIарна. 1977-1999-йисара ада Республикадин Урологиядин Клиникада кIвалахна.

1985-йисуз К.Гьажимурадова Киевда тромбрихъ галаз алакъалу тир начагъвилер сагъардай цIийи профилактикадин методар жагъурунин проблемадай кандидатвилин диссертация хвена. 1995-йисуз ада хвейи докторвилин диссертация операцийрин вахтунда менфят къачузвай анестезиядин методар хъсанарунихъ галаз алакъалу я. 1997-йисалай А.Алиеван тIварунихъ галай Азербайжандин Гьукуматдин Духтуррин Чирвилер Артухарунин Институтдин анестезиологиядин ва реаниматологиядин кафедрадин профессорвиле кIвалахай ада, 2000-йисалай гьа кафедрадиз регьбервал гузва. Адан регьбервилик кваз 7 касди кандидатвилин ва 1 касди докторвилин диссертацияр хвена. К.Гьажимурадов 100-дав агакьна илимдин кIвалахрин, 2 монографиядин автор я.

## KAMİL HACIMURADOV

***Qusarda həkimlər nəsli kimi tanınan Hacımuradovlar nəslindən elmlər doktoru elmi dərəcəsini qazanmaq ilk dəfə Kamil Hacımuradova nəsib olmuşdur.***

Tibb elmləri doktoru, professor Kamil Nizam oğlu Hacımuradov 1953-cü ildə Qusarda anadan olmuşdur. 2 saylı Qusar şəhər rus orta məktəbini, 1976-cı ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. 1977-1996-cı illərdə Respublika Urologiya Klinikasında işləmişdir.

Cərrahi əməliyyatlara məruz qalan xəstələrdə tromboembolik ağırlaşmaların səmərəli profilaktik üsullarının işlənib hazırlanması problemi ilə bağlı 1985-ci ildə Kiyev şəhərində namizədlik dissertasiyası müdafiə etmişdir. K.Hacımuradovun 1995-ci ildə müdafiə etdiyi doktorluq dissertasiyası cərrahi əməliyyatlar zamanı tətbiq edilən anesteziya metodlarının təkmilləşdirilməsi problemi ilə bağlı idi. 1997-ci ildən Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun anesteziologiya və reanimatologiya kafedrasının professoru vəzifəsində işləyən alim 2000-ci ildən həmin kafedraya rəhbərlik edir. Onun elmi rəhbərliyi ilə 7 namizədlik, 1 doktorluq dissertasiyası müdafiə edilmişdir.

K.Hacımuradov 100-dən çox elmi əsərin, o cümlədən 2 monoqrafiyanın və 1 dərs vəsaitinin müəllifidir.

## ЭЙВАЗ ЭЙВАЗОВ



***ЦIийи дренаждин система арадиз гъайи Эйваз Эйвазован илимдин нетижайрикай халкьдин майишатда гегьеншдиз менфят къачузва.***

Техникадин илимрин доктор Эйвазов Эйваз Муьлкидин хва 1939-йисуз КцIар райондин Уьзденуба хуьре дидедиз хьана. Яламадин юкьван мектеб куьтягьна, 1961-йисуз Азербайжандин Политехнический Институтдин гидромелиорациядин факультет тафаватлувилелди акьалтIарай ам кIвалахун патал АзИА-дин Мелиорациядин Институтдиз ракьурнай. 1969-йисуз ада Москвада диссертация хвена, хуьруьн майишатдин илимрин кандидатвилин тIвар къачуна.

1995-йисуз Украинадин Аграрный ИА-дин Гидротехникадин ва Мелиорациядин Институтда докторвилин диссертация хвейи Э.Эйвазова техникадин илимрин докторвилин тIвар къачуна. 1971-йисалай Азербайжандин ИА-дин Мелиорациядин Институтда кIвалахал акъвазай алимди къедалди ина дренаждин кострукцийрин лабораториядиз регьбервал гузва. Э.Эйвазов 80-дав агакьна илимдин кIвалахрин ва кьве изобретенидин автор я.

## EYVAZ EYVAZOV

***Ağır gilli və gilliсəli torpaqların meliorasiyası üçün yeni drenaj sistemləri yaratmış Eyvaz Eyvazovun elmi nəticələri xalq təsərrüfatında geniş tətbiq olunur.***

Texnika elmləri doktoru Eyvazov Eyvaz Mülki oğlu 1939-cu ildə Qusar rayonunun Üzdənoba kəndində anadan olmuşdur. Üzdənoba kənd 7-illik və Yalama kənd orta məktəblərini, 1961-ci ildə Azərbaycan Politexnik İnstitutunun hidromeliorasiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Təyinatla Azərbaycan Elmi Tədqiqat Meliorasiya İnstitutunda kiçik elmi işçi, baş elmi işçi vəzifələrində çalışmışdır. 1969-cu ildə Moskvada dissertasiya müdafiə edərək, kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi almışdır.

1995-ci ildə Ukrayna Aqrar Elmləri Akademiyasında dissertasiya müdafiə edərək, texnika elmləri doktoru elmi dərəcəsini almışdır. 1971-ci ildən Az ET Meliorasiya İnstitutunda çalışan alim burada drenaj konstruksiyaları laboratoriyasının müdiridir. 1996-cı ildən Azərbaycan MEA Torpaqşünaslıq İnstitutunda ixtisaslaşdırılmış elmi şuranın üzvü olan E.Eyvazov 80-ə yaxın elmi əsərin və iki ixtiranın müəllifidir.

## ШАИКЪ ШИХКЕРИМОВ



*(1930-2005)*

***Генжедин Педагогикадин Институтдиз ва Азербайжандин Марксизм-Ленинизм Университетдиз регьбервал гайи Шаикъ Шихкеримов зурба алим хьиз сейли тир.***

Философиядин илимрин доктор, профессор Шаикъ Шихкеримов 1930-йисуз КцIар райондин ТIигьиррин хуьре дидедиз хьана. Хуьруьн юкьван мектеб акьатIарайдалай гуьгъуьниз ам Азербайжандин Гьукуматдин Университетдик экечIна ва 1955-йисуз анаг тафаватлувилелди куьтягьна. Ш.Шихкеримова М.Ф.Ахундован тIваруниххъ галай АПИ-да, Вини Дережадин Партиядин мектебда муаллимвиле, доцентвиле кIвалахна, кафедрадиз регьбервал гана .

## ŞAİQ ŞIXKƏRİMOV

***Uzun illər Gəncə Pedaqoji İnstitutuna, sonradan isə Azərbaycan Marksizm-Leninizm Universitetinə rəhbərlik etmiş Şaiq Şixkərimov yaxşı alim olmaqla yanaşı, həm də bacarıqlı təşkilatçı idi.***

Fəlsəfə elmləri doktoru, professor Şaiq Nəcməddin oğlu Şıxkərimov 1930-cu ildə anadan olmuşdur. O, əslən Qusar rayonunun Düztahir kəndindəndir. 1950-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olan Ş.Şıxkərimov 1955-ci ildə buranın fəlsəfə şöbəsini bitirmişdir. 1958-1977-ci illərdə Bakının müxtəlif ali məktəblərində, M.F.Axundov adına Pedaqoji İnstitutunda, Ali Partiya Məktəbində müəllim, baş müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışmışdır.

1977-1986-йисара Генжедин Педагогикадин Институтдин ректорвиле кӀвалахай Ш.Шихкеримова институтдин база мягькемарна, ина чирвилер къачузвайбур патал къулай шартӀар яратмишна. 1986-йисуз Шаикъ Шихкеримов Азербайжандин Марксизм-Ленинизм Университетдин директорвиле тайинарна. 1992-1994-йисара ада Бакудин Политологиядин Институтда, 1992-2004-йисара Дербент шегьердин "Южраг" Институтда проректорвиле кӀвалахнай. Азербайжандин илимдик ва медениятдик пай кутур Ш.Шихкеримов 1998-йисуз Урусатдин Маарифдинни Медениятдин Менежментвилин Академиядиз хкянай.

## БИЛАЛ КИЧИБЕГОВ



***Радиациядин гигиенадай Закавказьедин сад лагьай илимрин доктор, и рекьяй Азербайжандин авай-авачир алим Билал Кичибегов я.***

Медицинадин илимрин доктор Кичибегов Билал Селиман хва 1932-йисуз КцӀар райондин Ясабуба хуьре дидедиз хьана. Ада Азербайжандин Гьукуматдин Медицинадин Институт акьалтӀарна, 1955-1961-йисара Жебраил ва Худат районра санэпидстанцийриз регьбервал гана.

1965-йисуз Мингечевирдин ва Жейранбатандин цин гьавизра радиациядин ва гигиенадин гьалариз талукьарнавай диссертация хвейи алимди 30 йисуз ара датӀана Мединститутда гигиенадин кафедрадин ассистентвиле, доцентвиле, профессорвиле кӀвалахна ва коммунал гигиенадин кафедрадиз регьбервал гана. 1975-йисуз Б.Кичибегова докторвилин диссертация хвена.

1995-йисуз Дербентдин "Южраг" Институтдин медицинадин факультетда гигиенадиз талукь кафедра туькӀуьрна адаз регьбервал гайи алимди 1999-йисуз ина психологиядин ва педагогикадин кафедра яратмишна, адан кьиле акъвазна.

Нью-Йоркдин ИА-дин академик Билал Кичибегова 2001-2002-йисара Бакудин Одлар Юрду Университетдин медицинадин факультетдин профессорвиле кӀвалахна. 2003-йисалай алимди Азербайжандин Бейнелхалкъ Университетдин кафедрадиз регьбервал гузва. Ам 100-далай гзаф илимдин кӀвалахрин, медицинадин факультетдин студентар патал кхьенвай са шумуд учебникдин, пособиедин ва методикадин пособийрин автор я.

1977-1986-cı illərdə o, Gəncə Pedaqoji İnstitutunun rektoru vəzifəsində işləmiş və bu ali təhsil ocağının maddi-texniki bazasının daha da möhkəmləndirilməsi, tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılmasından ötrü əlindən gələni etmişdir. 1986-cı ildə Ş.Şixkərimov Marksizm-Leninizm Universitetinin direktoru vəzifəsinə təyin edilmişdir. 1992-1993-cü illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun prorektoru, 1994-2004-cü illərdə Dərbənd şəhərindəki "Yujdaq" Pedaqoji İnstitutunun tədris işləri üzrə prorektoru olmuş professor Şaiq Şıxkərimov 1998-ci ildə Rusiya Təhsil və Mədəniyyət Menecmenti Akademiyasının həqiqi üzvü seçilmişdir.

## BİLAL KİÇİBƏYOV

***Zaqafqaziyada radiasiya gigiyenası sahəsində ilk elmlər doktoru, Azərbaycanda həmin sahədə ilk və yeganə alim Bilal Kiçibəyovdur.***

Tibb elmləri doktoru Kiçibəyov Bilal Səlim oğlu 1932-ci ildə Qusar rayonunun Yasaboba kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib, 1955-1961-ci illərdə Cəbrayıl və Xudat rayonlarında sanitar epidemiologiya stansiyasının baş həkimi işləmişdir. 1965-ci ildə Mingəçevir və Ceyranbatan su hövzələrinin radiasiya-gigiyena vəziyyəti ilə bağlı namizədlik dissertasiyası müdafiə edərək, 30 illik fəaliyyətini Azərbaycan Dövlət Tibb İnstitutu ilə bağlamış, ümumi gigiyena kafedrasında assistent, dosent, professor və nəhayət, kommunal gigiyena kafedrasının müdiri olmuşdur. 1975-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1995-ci ildə Dərbənd şəhərindəki "Yujdaq" İnstitutunun tibb fakültəsində gigiyena, sosial təbabət, səhiyyənin təşkili və iqtisadiyyatı kafedrasını yaradaraq, ona rəhbərlik etmişdir. 1999-cu ildə həmin institutda psixologiya və pedaqoqika kafedrasını təşkil etmiş, onun müdiri vəzifəsində çalışmışdır.

Nyu-York Elmlər Akademiyasının akademiki Bilal Kiçibəyov 2001-2002-ci illərdə Bakının Odlar Yurdu Universitetinin tibb fakültəsinin professoru vəzifəsində çalışmışdır. 2003-cü ildən bu günə kimi Azərbaycan Beynəlxalq Universitetində profilaktik təbabət kafedrasının müdiridir. O, 100-dən çox elmi əsərin, "Tibb tarixi", "Hərbi gigiyena", "Sosial gigiyena və səhiyyənin təşkili", "Radiasiyanın gigiyenası" dərsliklərinin, 2 dərs vəsaitinin, bir neçə metodik vəsaitin müəllifidir.

## МЕЙВЕДДИН ГЬАЖИЕВ



***Вичи арадал гъайи рангаралди сейли хьайи Мейведдин Гьажиева 45 йис я Азербайжандин Гьукуматдин Университетда кIвалахиз.***

Химиядин илимрин доктор, Бакудин Гьукуматдин Университетдин профессор Гьажиев Мейведдин Магьмудан хва КцIар райондин Хьилерин хуьре дидедиз хьана. Хуьруьн юкьван мектеб ада 1956-йисуз акьалтIарна. 1965-йисуз университет агалкьунралди куьтягьай ада илимдин шегьредиз акъатун патал вири алахъунар авуна. Ада чIугур зегьметар гьакIанбур хьанач.

1973-йисуз кандидатвилин, 1992-йисуз докторвилин диссертацияр хвейи М.Гьажиеван илимдин ахтармишунрикай халкьдин майишатда гегьеншдиз менфят къачуна. Иллаки ада арадал гъайи рангари алимдиз машгьурвал гъана. Бакудин Гьукуматдин Университетдин профессор Мейведдин Гьажиева яргъал йисара ина деканвиле кIвалахна.

М.Гьажиев гзаф илимдин кIвалахрин, 2 монографиядин ва 7 учебникдин автор я.

## MEYVƏDDİN HACIYEV

***İcad etdiyi rənglərlə elm aləmində məşhurlaşmış Meyvəddin Hacıyev 45 ildir ki, fasiləsiz olaraq Azərbaycan Dövlət Universitetində çalışır.***

Kimya elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru Meyvəddin Mahmud oğlu Hacıyev Qusar rayonunun Hil kəndində anadan olmuşdur. Kənd məktəbini 1956-cı ildə əla qiymətlərlə başa vurub, ADU-ya daxil olmuşdur. 1965-ci ildə buranı başa vuraraq, pedaqoji fəaliyyətlə və elmi yaradıcılıqla məşğul olmuşdur.

1973-cü ildə namizədlik, 1992-ci ildə doktorluq dissertasiyası müdafiə edən alimin elmi axtarışları Azərbaycanın xalq təsərrüfatında geniş tətbiq olunmuşdur. Onun ixtira etdiyi rənglər alimə xüsusilə böyük şöhrət gətirmişdir.

Bakı Dövlət Universitetinin nüfuzlu müəllimlərindən olan Meyvəddin Hacıyev uzun illər burada dekan vəzifəsində çalışmışdır

M.Hacıyev bir sıra elmi əsərlərin, 2 monoqrafiyanın, 7 dərsliyin müəllifidir.

## РАФИК НУРМЕТОВ



***Вичин илимдин кIвалахар хуьруьн майишат патал цIийи технологийрихъ галаз алакъалу тир Рафик Нурметов Россиядин Экономикадин ИА-дин академик я.***

Техникадин илимрин доктор Рафик Жамован хва Нурметов КцIар райондин Пиралрин хуьре дидедиз хьана. Ина юкьван мектеб куьтягьна, Азербайжандин Хуьруьн Майишатдин Институтдин механизациядин факультетдик экечIна. Институт тафаватлувилелди акьалтIарай ада КцIарин Пирал ва Ясаб хуьрера кьилин инженервиле кIвалахнай, гуьгъуьнлай райондин хуьруьн майишатдин карханадиз регьбервал ганай.

Илимдал гзаф рикI алай Рафик Москвадиз куьч хьана, Россиядин ИА-дин Бустанчивилин Институтдин аспирантурадик экечIна. Кьве йисалай ада кандидатвилин диссертация хвена. Им Институтдин тарихда икьван гагьди тахьай хьтин зурба вакъиа тир.

## RAFİQ NURMƏTOV

***Elmi-tədqiqat işlərinin əsas istiqamətləri kənd təsərrüfatı bitkilərinin əkini üçün yeni texnologiyaların hazırlanması ilə bağlı olan Rafiq Nurmətov Rusiya İqtisad EA-nın akademikidir.***

Texnika elmləri doktoru Rafiq Camov oğlu Nurmətov Qusar rayonunun Piral kəndində anadan olmuşdur. Orta məktəbi bitirib, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun mexanizasiya fakültəsində təhsil almışdır. Buranı fərqlənmə diplomu ilə bitirən R.Nurmətov Qusarın Piral va Yasab kəndlərində baş mühəndis işləmiş, savadı və bacarığı ilə seçildiyinə görə irəli çəkilərək, rayon kənd təsərrüfatı idarəsinin rəisi təyin olunmuşdur.

Elmə olan böyük marağı Rafiqi Moskvaya aparıb çıxarmış, burada o, aspiranturaya daxil olmuş, iki il keçməmiş mexanizasiya sahəsindən dissertasiya müdafiə etmişdir. Bu, Ümumittifaq Elmi Tədqiqat Tərəvəzçilik İnstitutunun tarixində görünməmiş hadisə idi.

Ина илимдин чIехи къуллугъчивиле кIвалахал акъвазай адан алакьунар акурла, гуьгъуьнлай Р.Нурметов институтдин илимдин месэлайрай директордин заместителвиле тайинарна.

1971-йисалай и институтда кIвалахзавай Р.Нурметован илимдин ахтармишунар хуьруьн майишатдин набататар цун патал цIийи технологияр арадиз гъунухъ галаз алакъалу я. Адан иштиракдалди ва регьбервилик кваз СНГ-дин уьлквейрин хуьруьн майишат патал 100-далай гзаф цIийи техникадин аваданлухар яратмишна, кардик кутуна. Абуру механизация 80-85 процент кьван хкажна.

1998-йисуз Рафик Нурметова хвейи докторвилин диссертацияни бустанчивилин проблемайриз талукь я. Икьван гагьди вичин 100-далай гзаф илимдин кIвалахар чап хьанвай Рафик Нурметов гьакIни 30 патентдин автор я. Алимдин цIудралди ктабар чапдай акъатнава.

İstedadlı alim baş elmi işçi vəzifəsinə təyin olunmuş, elmi məsələlər üzrə direktorun müavini vəzifəsinə qədər yüksəlmişdir.

1971-ci ildən taleyini bu institutla bağlayan R.Nurmətovun elmi işlərinin əsas istiqamətləri kənd təsərrüfatı bitkilərinin əkini üçün yeni texnologiyaların hazırlanması ilə bağlıdır. İnstitutda işlədiyi illər ərzində alimin iştirakı və rəhbərliyi ilə MDB ölkələrinin kənd təsərrüfatı üçün 100-dən artıq texniki avadanlıq və qurğu hazırlanmışdır ki, bunun sayəsində mexanizasiyanın səviyyəsi 80-85 faiz yüksəlmiş, əmək məsrəfləri xeyli azalmışdır.

1998-ci ildə doktorluq dissertasiyası müdafiə edən Rafiq Nurmətov 100-dən çox elmi əsərin və 30-a yaxın ixtiranın müəllifidir. Onun fundamental əsəri “Tərəvəzçilikdə istehsalat proseslərinin layihələşdirilməsinin əsasları” adlanır.

## МАМЕДЯР АЗАЕВ

***Новосибирскдин Гьукуматдин Университетдин медицинадин кафедрадин кьилин муаллим Мамедяр Азаев сейли эпидемиолог я.***



Азаев Мамедяр Шакиран хва Новосибирск шегьердин “Вектор” тIвар алай вирусологиядинни биотехникадин гьукуматдин илимдин меркездин кьилин пешекаррикай я. Ина 2 агъзурдалай гзаф инсанри кIвалахзава. 20 илимрин докторри ва 120 илимрин кандидатри дуьньяда гзаф дуьшуьш жезвай гепатитдин, чахуткадин, хумадин ва маса хаталу начагъвилерин вирусар илимдин рекьелди ахтармишзава.

1954-йисуз КцIар райондин Уьнуьгъ хуьре дидедиз хьайи Мамедяра юкван мектеб хайи хуьре акьалтIарна. Новосибирскдин Хуьруьн Майишатдин Институтда кIелай жегьилди инаг тафаватлувилелди кьилиз акъудна ва илимдив эгечIна. Эпидемиологиядин илимдин рекьяй дерин чирвилер къачур ада кандидатвилин ва докторвилин диссертацияр хвена. М.Азаева “Вектор” меркездин кьилин отделрикай садаз регьбервал гузва. Ам гьакIни Новосибирск Университетдин медицинадин кафедрадин кьилин муаллим я.

## MƏMMƏDYAR AZAYEV

***Novosibirsk Dövlət Universiteti tibb kafedrasının baş müəllimi Məmmədyar Azayev epidemiologiya sahəsində dünyada tanınmış alimlərdəndir.***

Azayev Məmmədyar Şakir oğlu Novosibirsk şəhərindəki “Vektor” virusologiya və biotexnika dövlət elmi mərkəzinin aparıcı mütəxəssislərindəndir. Burada 2 min nəfər, o cümlədən 20 elmlər doktoru və 120 elmlər namizədi çalışır. Mərkəzin əməkdaşları dünyada təsadüf olunan hepatit, ağ ciyər vərəmi, qrip və başqa təhlükəli viruslu xəstəlikləri elmi cəhətdən öyrənir və onların müalicə üsulları üzərində çalışırlar.

1954-cü ildə Qusar rayonunun Əniğ kəndində anadan olmuş Allahyar burada orta məktəbi bitirdikdən sonra Novosibirsk Kənd Təsərrüfatı İnstitutunda təhsil almışdır. Ali məktəbi fərqlənmə diplomu ilə başa vuran gənc epidemiologiya elmi ilə əsaslı şəkildə məşğul olmağa başlamışdır. O, namizədlik və doktorluq dissertasiyalarını müdafiə etmişdir. Hazırda alim “Vektor” mərkəzinin aparıcı şöbələrindən birinə rəhbərlik edir. M.Azayev həmçinin Novosibirsk Universiteti tibb kafedrasının baş müəllimidir.

## ФЕХРЕДДИН АЙДАЕВ



***Вичин илимдин алахъунар энергетикадин проблемайрихъ галаз алакъалу тир Фехреддин Айдаев хъсан тешкилатчи хьизни сейли я.***

Физикадинни математикадин илимрин доктор Айдаев Фехреддин Шихбаладин хва 1956-йисуз КцIар районди Вурварин хуьре дидедиз хьана. Ина юкьван мектеб акьалтIарна Азербайжандин Гъукуматдин Университетдин физикадин факультетдик экечIна. 1978-1982-йисара ада Къуба райондин Чичи ва Агъа Хуж хуьрера муаллимвал авуна.

Азербайжандин ИА-дин Физикадин Институтдин аспирантурадиз гьахьна, 1986-йисуз кандидатвилин диссертация хвейи жегьил гьа институтда кIвалахал акъвазна. 1999-2003-йисара Азербайжандин ИА-дин Энергетикадинни Энергетикадин Проектдин Институтда илимдин чIехи кIвалахдарвилин къуллугъдал хьана.

2003-йисуз "Байва" компанидин регьбердин сад лагьай заместителвиле, гуьгъуьнлай кьилин менежервиле кIвалахна. 2005-йисуз Ф.Айдаев "Байва"дин директорвиле тайинарна. 2006-йисуз Президентдин указдалди и идара кIевирайдалай кьулухъ ам "Азерэнержи"дин кьилин инженердин заместителвиле тайинарна. 2005-йисуз докторвилин диссертация хвейи Ф.Айдаеван 100-далай гзаф илимдин макъалаяр чи уьлкведа ва къецепатан уьлквейра чап хьана.

## FƏXRƏDDİN AYDAYEV

***Elmi axtarışları energetikanın bir sıra problemləri ilə əlaqədar olan Fəxrəddin Aydayev eyni zamanda yaxşı təşkilatçı kimi də tanınır.***

Fizika-riyaziyyat elmləri doktoru Aydayev Fəxrəddin Şıxbala oğlu 1956-cı ildə Qusar rayonunun Urva kəndində anadan olmuşdur. Kənd orta məktəbini başa vurub, Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində təhsil almışdır. Quba rayonunun Çiçi və Aşağı Xuc kəndlərində müəllim kimi əmək fəaliyyətinə başlamışdır.

Azərbaycan EA Fizika İnstitutunun aspiranturasına daxil olmuş, 1986-cı ildə namizədlik dissertasiyası müdafiə etmişdir. Fizika İnstitutunda kiçik elmi işçi, 1999-2003-cü illərdə Azərbaycan Elmi-Tədqiqat Energetika və Enerji Layihə İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmışdır.

2003-cü ildə "Bayva Qərb Enerji" MMC-nin baş direktorunun birinci müavini olmuş, sonradan oraya baş menecer vəzifəsinə təyin olunmuşdur. 2005-ci ildə "Bayva Enerji" İdarəetmə Mərkəzinin baş direktoru vəzifəsində işləmiş, Azərbaycan Respublikası Prezidentinin həmin mərkəzin ləğvi ilə bağlı qərarından sonra, 2006-cı ildə "Azərenerji" ASC-nin baş mühəndisinin müavini vəzifəsinə təyin olunmuşdur. 2005-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş F.Aydayev 100-dən çox elmi məqalənin, 6 elmi ixtiranın müəllifidir.

## АЛИСУЛТАН КЪУЛИЕВ



(1901-1980)

***1939-1942-йисара Азербайжан ССР-дин Верховный Суддиз регьбервал гайи Алисултан Яралидин хва Къулиев алатай асирдин тIварван авай регьберрикай тир.***

Алисултан Яралидин хва Къулиеван буба КцIарай я. XIX виш йисан эхирра Ярали вичин хизанни галаз гилан КцIар райондин Хьилерин хуьряй Къубадин Дигагь хуьруьз куьч хьанай. 1901-йисуз гьа ина дидедиз хьайи А.Къулиева яргъал йисара КцIарин райкомдин секретарвиле, гьакIни Сальяндин ва Шемкирдин

## ƏLİSULTAN QULİYEV

***1939-1942-ci illərdə Azərbaycan SSR Ali Məhkəməsinə rəhbərlik etmiş Əlisultan Quliyev ötən əsrdə respublikamızın tanınmış partiya-sovet və dövlət xadimlərindən biri olmuşdur.***

Əlisultan Yarəli oğlu Quliyev əslən Qusar rayonundandır. Onun ailəsi XIX əsrin sonlarında indiki Qusar rayonunun Hil kəndindən Qubanın Digah kəndinə köçmüşdü. 1901-ci ildə burada anadan olmuş Ə.Quliyev Azərbaycan KP Qusar Rayon Komitəsinin katibi, Salyan və Şəmkir rayon

райкомрин сад лагьай секретарвиле кIвалахнай. А.Къулиев гьамни гзаф жуьрэтлу кас тир.

Вич Азербайжандин КП-дин ЦК-дин членвиле, гьакIни кьведра Республикадин Верховный Советдин депутатвиле хкягьай А.Къулиев ватан ва халкь патал гьакъисагъвилелди чIугур зегьметдай Ленинан ордендиз, "Зегьметдин Яру Пайдах" ордендиз, са кьадар медалриз лайихлу хьанай. Алисултан Къулиев яргъал йисара илимдихъ галазни машгъул хьанай. 1948-йисуз аспирантура акьалтIарайдалай гуьгъуьниз ада кандидатвилин, 1965-йисуз Тифлисда тарихдай докторвилин диссертация хвенай. Азербайжандин Гьукуматдин Университетдин профессор тир алимдиз къецепатан уьлквейрин 6 чIал чидай.

*Алпандин цIу ягъурай вун!*

Гаф тIалабда акьур хьиз, свас гъайи са гьафтедилай чам дагъда цIайлапанди ягъана. Гьа чIавалай сада нагьахъан кар аврла элди адан рикIел "Селеян агь" хкида.

Вичин 18 йис хьайила Селей гъуьлуьз фена. Касдихъ галаз яргъи уьмуьр гьална ада. Са гапIал аялар ни хьана Селеяз. ЯтIани сифте муьгъуьббат рикIелай алатнач адан. Мег рехи жедалди ам хуьруьн мелмехъерин кьиле хьанай. Адан манийри межлисрал абур гъидай. И манийрин чIехи пай Селеян бахтсуз ашкъидикай лагьанвай чIалар тир.

Яргун Селеякай сифте малумат ва адан баядар кIелдайбурув шаирдин штулди, зари-журналист Седакъет Керимовади агакьарна.

## САЯД ПЕРИ
### *(1800-1919)*

***Чи классик Кесиб Абдуллагьа Саяд Перидиз "бендер лугьуз кайи шаир" лагьанай.***

Гилан КцIар райондин ГадацIийихуьре 1800-йисуз дидедиз хьайи Саяд Пери Регьимханова халкьдин зурба сеняткаррикай тир. Уьмуьрдин залан шартIара яшамиш хьайи ам чина нур авай, хъуьтуьл къилихрин, мел-мярекатрал бендер лугъудай ялгъуз дишегьли тир.

Жегьил чIавуз иер ва камаллу руш хьиз вичин тариф виририз чкIанвай Саяд Перидал адан хуьруьнви Гуьлметан рикI ацукьнай. Амма пехил ксарин буьгьтенар себеб яз абур чпин мураддив агакьнач. Саяд Периди вичин ашкъидал шак гъайи гада багъишламишнач. Гадади адан дердинай цIраз вичин дуьнья дегишарна. Руша лагьайтIа, гъуьлуьз тефена уьмуьрдин эхирдалди муьгъуьббатдикай чIалар теснифна. Адан баядар дерин манадинбур я. Шаирдикай сифте малумат зари-журналист Муьзеффер Меликмамедова гана.

Seleyi bəyənmir. Oğlana başqa bir qız alırlar. Toy günü dərddən xəstələnib yatağa düşən Seleyin sinəsindən ah dolu bayatılar qopur. Onlardan biri kəndi dolaşıb qızın dərdini elə çatdırır:

*Sinəmə dağ çəkdin mənim,*
*Bu günahı Allah görsün.*
*Seleyi yandırıb-yaxdın,*
*Səni Alpan odu vursun!*

Toydan bir neçə gün sonra təzə bəyi dağda doğrudan da ildırım vurur və o, həlak olur. O vaxtdan kənddə "Seleyin ahı" məsəli yaranır. Nahaq iş tutanlar həmin qəmli əhvalatı yada salırlar.

18 yaşı tamam olanda Seley ərə gedir. O, əri ilə uzun illər mehribanlıqla ömür sürür. Onların bir yerdə bir çətən külfəti olur. Lakin buna baxmayaraq, ilk məhəbbəti ölənə kimi Seleyin yadından çıxmır. Uzun illər kənd toylarının yaraşığı olmuş bu qadının bayatılarının əksəriyyəti Seleyin acı məhəbbəti haqqında idi.

Yargun Seley haqqında məlumatı və onun bayatılarını ilk dəfə oxuculara şairin nəticəsi, yazıçı-jurnalist Sədaqət Kərimova çatdırmışdır.

## SAYAD PƏRİ
### *(1800-1919)*

***Ləzgi klassiki Kasıb Abdullah Sayad Pərini "bayatı qoşub yanan şair" adlandırmışdı.***

Quba qəzasının (indiki Qusar rayonunun) Gədəzeyxür kəndində 1800-cü ildə anadan olmuş Sayad Pəri Rəhimxanova xalqın sevimli şairlərindəndir. Çətin və əzablı ömür sürmüş Sayad Pəri üzü nurlu, həlim təbiətli qadın idi. Söz qoşub demək bacarığı ilə seçilən Sayad Pəri gənc yaşlarından məclislərin yaraşığı idi.

Gözəl və ağıllı qız olan Sayad Pəri həmkəndlisi Gülmətə könül verir. Lakin bədxahların böhtanı onlara qovuşmağa imkan vermir. Gülmət Sayad Pərinin dərdi ilə dünyadan köçür. Sayad Pəri isə ömrünün sonuna kimi ərə getmir və bu uğursuz eşqə yüzlərlə bayatı qoşur. Mənası və obrazlılığı baxımından Sayad Pərinin hər bir bayatısı böyük bir əsər təsiri bağışlayır. Onun bir çox bayatılarını xalq əzbərdən bilir. Şair haqqında ilk məlumatı yazıçı-jurnalist Müzəffər Məlikməmmədov vermişdir.

## ИСГЪАКЬ ЭФЕНДИ
*(1847-1927)*

***Яргундал "Мaариф" тIвар ганвай жемият арадиз гъайи Исгьакь эфендиди халкь савадлу хьун паталди гзаф зегьметар чIугунай, вичин кIвал хуьруьн мектебдин ва "Мaариф" жемиятдин ихтиярда вуганай.***

Алим, маарифчи ва шаирди хьиз халкьдиз къуллугъ авур Исгьакь эфенди тахминан 1847-йисуз Яргун хуьре дидедиз хьанай, ада 80 йис кьван яшамишнай. Исгьакь девлетлу несилдай тир ва гьавиляй Ярагърин медреса акьалтIарайдалай кьулухъ бубади ам кIелун давамарун патал Туьркиядиз ракъурнай. XX асирдин сифте кьилера Бакуда акъатай "Тазе гьаят", "Икъбал" хьтин газетри кхьейвал, Исгъакьан буба кIелнавай, вичихъ чIехи алакьунар авай, нуфузлу кас тир. Куьрединни Къубадин алимар фад-фад адан кIвализ илифна илимдикайни шииратдикай ихтилатар ийидай. Буба рагьметдиз фейилани алимри и кIваликай кIвач атIаначир.

Исгьакь эфенди вичихъ диндин рекьяй дерин чирвилер авай инсанперес кас тир. Вичин 40 яшар хьайила Меккедиз фейи Исгъакьаз гьаживилин тIварни ганай. И сейли касди вичин хуьруьнви, машгьур алим Жаруллагь эфендидихъ галаз санал 1904-йисуз Яргундал "Мaариф" жемият арадиз гьанай. Халкь савадлу хьун патал гзаф зегьметар чIугур ада вичин кьве гьавадин кIвалерин 15 утагъ хуьруьн мектебдин ва "Мaариф" жемиятдин ихтиярда вуганай.

Исгьакь эфендиди йикъа садра вичин гьисабдай мектебдин аялриз тIуьн-хъун гудай, гьар йисуз кесиб аялриз пекер къачудай. КцIарин 4 хуьре эцигзавай цIийи мектебар патал ада гьар гьилера 200 манат пул ганай. Жаруллагь эфендидин ва Исгьакь эфендидин къайгъударвилин нетижа яз, кIелун патал къунши хуьрерай Яргундал къвезвай аялрин кьадар пара хьанвай. И кьве алимдиз Яргундал Къуба уезддин виридалайни чIехи мектеб эцигиз кIанзавай. Абуру хийирлу крарихъ гелкъвезвай ксарин куьмекдалди цIийи мектеб арадал гьанай. И кардик къуьн кутур Исгьакь эфендидини вичин са кьадар мал-къара маса гана, мектеб эцигуниз 250 манат пул серфнай. Лезги ва араб чIаларилай гьейри урус ва туьрк чIаларни дериндай чидай Исгьакь эфендиди вичин чIехи ктабхана "Мaариф" жемиятдин ихтиярда вуганай. И ктабханадин гьакъиндай чи тIвар-ван авай маарифчи ва журналист Режеб Амирхановани кхьенай. Халкьдин савадлувал хка-

## İSHAQ ƏFƏNDİ
*(1847-1927)*

***Həzrədə "Maarif" cəmiyyətini yaratmış İshaq əfəndi xalqın maariflənməsindən ötrü var-yoxunu əsirgəməmiş, özünün ikimərtəbəli böyük evinin bir neçə otağını kənd məktəbinin və "Maarif" cəmiyyətinin ixtiyarına vermişdi.***

Alim, maarifçi və şair kimi xalqına qulluq etmiş İshaq əfəndi təxminən 1847-ci ildə indiki Qusar rayonunun Həzrə kəndində anadan olmuş və 80 ilədək ömür sürmüşdür.

İshaq varlı nəsildən idi və ona görə də Yarağ mədrəsəsini bitirdikdən sonra atası onu təhsilini davam etdirmək üçün Türkiyəyə göndərmişdi. Keçən əsrin əvvəllərində Bakıda nəşr olunan "Tazə həyat" və "İqbal" qəzetlərinin yazdığı kimi, İshaqın atası təhsil görmüş, çox istedadlı və nüfuzlu şəxs idi. Küre və Quba alimləri tez-tez onun evinə yığışar, elm və poeziya məclisləri qurardılar. İshaqın atası dünyasını dəyişdikdən sonra da tanınmış alimlər onların evinə gəlib-gedirdilər.

İshaq əfəndi dərin dini biliklərə malik, geniş dünyagörüşlü, insanpərvər adam idi. O, 40 yaşında Məkkəyə gedərək, hacı olmuşdu.

İshaq əfəndi 1904-cü ildə Həzrə kəndində həmyerlisi, məşhur alim Carullah əfəndi ilə birlikdə "Maarif" cəmiyyətini yaratmışdır. Xalqın maariflənməsindən ötrü var-yoxunu əsirgəməyən İshaq əfəndi özünün ikimərtəbəli böyük evinin 15 otağını kənd məktəbinin və "Maarif" cəmiyyətinin ixtiyarına vermişdi. O, dövlətli olduğu qədər də səxavətli idi. Gündə bir dəfə məktəb uşaqlarına öz hesabına yemək verir, hər il kasıb uşaqlara paltar alırdı. İshaq əfəndi eyni zamanda Qusarın 4 kəndində inşa olunan məktəblərin hərəsinin tikintisinə hər il 200 manat pul verirdi.

Carulla əfəndinin və İshaq əfəndinin qayğıkeşliyi sayəsində qonşu kəndlərdən də Həzrəyə oxumağa gəlirdilər. Bu iki alim kənddə Quba qəzasının ən iri məktəbinin özülünü qoymaq istəyirdi. Nəhayət, onlar dostlarının və başqa xeyriyyəçilərin köməyi ilə belə bir məktəbi tikdilər. Bundan ötrü Hacı İshaq əfəndi xeyli mal-qarasını satıb əldə etdiyi vəsaiti və əlavə olaraq 200 manatı tikintiyə sərf etmişdi.

Ləzgi və ərəb dillərindən başqa rus və türk dillərini də mükəmməl bilən İshaq əfəndinin nadir kitabxanası var idi. O, bu kitabxananı Həzrə "Maarif" cəmiyyətinin ixtiyarına vermişdi. Bu kitabxana haqqında ilk dəfə məşhur ləzgi maarifçisi və jurnalisti Rəcəb

жун патал Бакуда “Чирвал” жемият арадиз гъайи, са шумуд йисан къене Къубадинни Куьредин хуьрера 10 мектеб кардик кутур Режеб Амирханова Исгъакь эфендидиз вичин “ШакIуртдин чар” гьикая багъишнай. Абур кIеви дустар тир ва гагь-гагь Р.Амирханов са шумуд юкъуз Яргундал, Исгъакь эфендидин кIвале амукьдай.

Исгъакь эфендидин яратмишунар сифте яз винел акъудна халкьдив агакьарайди Муьзеффер Меликмамедов я. Исгъакь эфендидин шиирра бунтарин темади хьиз, кIел-кхьин чирунихъ, чIал вилик тухунихъ, диндихъ галаз алакъалу месэлайрини чIехи чка кьазва. Мисал яз адан “Илим”, “Инсан вуж я?”, “ЧIал квадармир”, “Марифат”, “Имансузриз” ва маса шиирар къалуриз жеда. Шаирдин “Весияр” тIвар ганвай эсер философиядинни логикадин деринвилелди тафаватлу жезва.

## ЭМИРАСЛАН ГЪАНИДИН
## *(1851-1896)*

***Эмираслан Гъанидин ялав квай шиирри хуьруьн фекьийрин, девлетлу ксарин чанда фул тунай. Гьавиляй абуру шаир элдин виляй вегьин патал адал “семе” тIвар илитIнай. ЯтIани ам халкьдиз гзаф кIандай.***

Лезги литературадик чIехи пай кутур Эмираслан Гъанидин Къуба патан лезги шаиррин арада вичиз хас хатI ва мектеб авай къелемэгьлийрикай я. Эмирасланан гьакъиндай сифте яз 1990-йисуз Магьачкъалада басмадай акъатай “Лезгийрин революциядин вилик квай девиррин литература” ктабда бязи малуматар гьатнава. Ктабдин чинриз шаирдин са шумуд шиирни акъатнава.

Эмираслан Гъанидин 1851-йисуз Вини ТIигьиржалрин хуьре кесиб лежбердин хизанда дидедиз хьана. Хуьруьн медресада араб чIалалди кIелай ам жегьилзамаз вичихъ чIехи алакьунар авай шаир хьиз машгьур хьана. Эмираслан Гъанидин девирдин гьахъсузвилерни хахаяр русвагьзавай шиирар хуьруьн фекьийризни девлетлуйриз такIан тир ва гьавиляй абуру шаирдиз “семеди” лугьудай. Эмирасланан къизгьин тIебиатди, адан гьахъ гафари шаирдив медресада яргьалди кIелиз тунач. Ам медресадай чукурна.

И вакъиадилай гуьгъуьниз Эмирасланан хизандин кьилел мусибатар атана. Талада никIериз яд гузвай вахтунда хуьруьн девлетлуйрикай сада адан бубани ими яна кьена. Эмирасланан хиве диде, гъве-

Əmirxanov məlumat verib. Xalqın savadlanmasından ötrü Bakıda “Bilik” cəmiyyəti təşkil etmiş, bir neçə il ərzində Quba və Küre mahallarının 10 kəndində məktəb açmış Rəcəb Əmirxanov İshaq əfəndiyə özünün “Şagirdin məktubu” hekayəsini ithaf etmişdir. Onlar dost idilər və R.Əmirxanov tez-tez Həzrəyə gəlib İshaq əfəndinin evində qalardı.

İshaq əfəndinin həyat və yaradıcılığı haqqında ilk məlumat verən Müzəffər Məlikməmmədov olmuşdur.

İshaq əfəndinin yaradıcılığında mübarizəyə çağırış, elmin və maarifin təbliği, ana dilinin inkişaf etdirilməsi mövzuları, həmçinin əxlaq və dinlə bağlı mövzular əsas yer tuturdu.

Şairin “Vəsiyyətlər” əsəri maraqlı fikirləri ilə diqqəti cəlb edir. Fəlsəfi mənası və dərin məntiqi ilə seçilən həmin əsər ləzgi ədəbiyyatının qiymətli incilərindəndir.

## ƏMİRASLAN ĞANİDİN
## *(1851-1896)*

***Əmiraslan Ğanidinin alovlu şeirləri kənd mollalarının, varlıların canına qorxu salır. Buna görə də onlar şairi elin gözündən salmaq məqsədilə ona “dəli” ləqəbini verirlər. Lakin buna baxmayaraq, xalq onu çox sevirdi.***

Ləzgi ədəbiyyatında özünəməxsus yer tutan Əmiraslan Ğanidin Quba bölgəsinin şairləri arasında dəst-xətti və üslubu ilə seçilən sənətkarlardandır. Əmiraslan Ğanidin haqqında ilk məlumat 1990-cı ildə Mahaçqalada çap olunmuş “Ləzgilərin inqilabdan əvvəlki ədəbiyyatı” kitabında dərc olunub. Həmin kitabda şairin bir neçə şeri də çap olunmuşdur.

Əmiraslan Ğanidin 1851-ci ildə indiki Qusar rayonunun Yuxarı Tahircal kəndində kasıb rəncbər ailəsində anadan olmuşdur. Kənd mədrəsəsində ərəb dilində təhsil alan gənc bir hadisədən sonra məşhurlaşdı. Mədrəsədə dərs deyən əfəndinin bəzi haqsız sözlərini eşidən Əmiraslan dözə bilmir və şeirlə onu tənqid edir.

Bu hadisə din xadimlərinin xoşuna gəlmir. Şairin mollaları, əfəndiləri və varlıları ifşa edən şeirləri xalqın dilinə düşəndə din xadimləri onu “dəli” kimi qələmə verirlər. Bundan sonra şair din pərdəsi altında xalqı soyanları daha kəskin ifşa edir. Buna görə də onu mədrəsədən qovurlar.

Bu hadisədən sonra varlılar onun ailəsinə sui-qəsd edir, atasını və əmisini zəmini suvardıqları yerdə vurub öldürürlər. Əmiraslan anasını, kiçik qardaşını və

чIи стха ва гъвечIи вах хуьн гьатна. Гуьгъуьнлай цIегьерин азардик адан вахни стха кьена. Эхирдай ам вични месе гьатна.

Хайи хуьряй экъечIиз мажбур хьайи Эмираслана муьжуьд йисуз Манкъулидхуьре ва Яламадин Велемир хуьре девлетлуйрин малар хвена. Хуьруьн фекьийринни девлетлуйрин гафарихъ яб акалай хайи дидедини Эмираслан кваз кьунач. Хва "семеди" я, лагьана ам Мири тIвар алай са касдиз гъуьлуьз фена. И карди рикI тIарай Эмираслан гьа чIавалай къуни-къуншийрин кIвалера, хьрарик ва мел-мехъерик йикъар-йифер акъудиз мажбур хьана. Эмираслан Гъанидин "Ваз кIаниди са зун ятIа", "Элкъвез-элкъвез", "Вун зи яр я", "Ашкъидин цIай", "Пуд суал", "Фана дуьнья" хьтин лирикадин шиирар поэзиядин халисан жавагьирар я. Вичиз кIан хьайи Селми тIвар алай руш кьисмет тахьай шаир эвленмиш хьанач. "Ваз кIаниди са зун ятIа" тIвар алай шиирда ада вичин жавабсуз муьгъуьббатдикай ихтилатзава. Уьмуьрдин эхирда инсанривай яргъаз хьайи ялгъуз ва дертлу шаир вичин 45 яш хьайила рагьметдиз фена.

Эмираслан Гъанидин ирс кIватIунихъ тIигьиржалви Вилибег Мегьралиева чIехи пай кутуна. Ада вичин хуьруьнбур тир, 140-йисуз уьмуьр гьалай Нуьзуьр бубадивай, фекьи Агъали Нуьдуьралидин хцивай, Къарабег Мустафаевавай, Мегьамед Яралиевавай, Балугъланавай ва масабурувай шаирдин цIудралди шиирар кIватIна. Шаирдин икьван гагьди чап тахьанвай шиирар кхьираг Седакъет Керимовади са шумудра "Самур" газетдин чинриз акъудна.

bacısını himayə etməli olur. Amma xəstəlik bacı və qardaşını onun əlindən alır. Nəhayət, özü də yatağa düşür.

Fiziki cəhətdən zəifləyən şair qazanc dalınca qonşu kəndlərə gedir, 8 il İmamqulukənddə və Vələmirdə varlıların mal-qarasını saxlayır. Din xadimlərini kəskin ifşa etdiyinə görə anası da Əmiraslandan üz döndərir. O, Miri adlı bir nəfərə ərə gedir. Bundan sonra Əmiraslan öz evində deyil, orda-burda gecələməyə məcbur olur.

Ağır məhrumiyyətlərə düçar olmasına baxmayaraq, Əmiraslan Ğanidin gözəl əsərlər yaratmışdır. Şairin "İstədiyin tək mənəmsə", "Dolana-dolana", "Üç sual", "Fani dünya", "Palasa" və başqa şeirləri əsl poeziya inciləridir. Sevdiyi Səlmi adlı qıza qovuşmadığına görə şair ömrünün axırına kimi evlənmir. "Sevdiyin tək mənəmsə" şerində şairin cavabsız məhəbbətindən söz açılır. Ömrünün son illərində insanlardan uzaqlaşmış tənha və dərdli şair 1896-cı ildə, 45 yaşında dünyasını dəyişir.

Əmiraslan Ğanidinin ədəbi irsinin toplanmasında tahircallı Vəlibəy Mehrəliyevin böyük əməyi olmuşdur. O, həmkəndliləri, 140 yaşında dünyasını dəyişmiş Nüzür babadan, molla Ağali Nüdürəli oğlundan, Qarabəy Mustafayevdən, Məhəmməd Yaraliyevdən, Baloğlandan və başqalarından şairin onlarca şeirlərini toplamışdır. Əmiraslan Ğanidinin bu vaxta kimi çap olunmamış şeirlərini yazıçı Sədaqət Kərimova bir neçə dəfə "Samur" qəzeti vasitəsilə oxuculara çatdırmışdır.

## АШУКЬ ЯГЬЯ

***Халкьдин ашукь хьиз Къубадинни Куьредин вири магьалриз сейли хьайи Ашукь Ягья гьеле сагъзамаз халкьди вичин яратмишунриз къимет гайи сеняткаррикай я.***



(1875-1918)

Ягья Кичибеган хва 1875-йисуз Къуба уезддин Агъа Лакаррин хуьре дидедиз хьана. Аялзамаз халкьдин манийрихъни макьамрихъ ялай гадади хуралай чIаларни манияр теснифиз, чуьнгуьр ягъиз мел-мехъерик элдин гъуьрмет къазанмишна. Ашукьрин поэзиядиз цIийи жанраяр гъайи, чи къадим мазанрин чIалар кIватIна, туькIуьр хъувур Ягья са вахтундилай Куьре патазни сейли хьана. Сенятдин кьакьан кукIушриз хкаж хьайи шаирди вичин шииррикай диван туькIуьрнай. Ан-

## AŞIQ YƏHYA

***Ləzgi aşıq poeziyasının görkəmli nümayəndələrindən olan Aşıq Yəhya hələ sağlığında şeirləri dillərə düşmüş, yaradıcılığına qiymət verilmiş sənətkarlardandır.***

Yəhya Kiçibəy oğlu 1875-ci ildə Quba qəzasının Aşağı Ləgər kəndində anadan olmuşdur. Uşaqlıqdan xalq mahnılarının təsiri altında olmuş Yəhya gənc yaşlarından məclislərdə saz çala-çala öz sözlərinə bəstələdiyi mahnıları oxuması ilə elin məhəbbətini qazanır. Onun aşıq poeziyasına gətirdiyi yeniliklər, qədim ləzgi aşıq mahnılarını yenidən işləyib özünəməxsus tərzdə oxuması el sənətkarını nəinki Quba qəzasında, eləcə də Küre mahalında məşhurlaşdırır. Müasirləri şairin divanının oldu-

жах гуьгъуьнлай а диван квахьна ва халкьдив агакь-нач. Адан чIалар дерин манадин, регьятдиз эзбериз жедай, рикIел аламукьдайбур я. Ашукь Ягья 1918-йисуз хайи хуьре рагьметдиз фена.

Шаирдин шиирар сифте яз алатай асирдин 40-йисара СССР-дин ИА-дин Азербайжандин филиалдин кIвалахдар Хуьземмед Къадимова кIватIна, Азербайжандин Гъилин ХатIарин Фондунив вуганай. Гуьгъуьнлай Х.Къадимова адан са шумуд шиир Азиз Мирзебеговал агакьарнай. А.Мирзебегова Ашукь Ягьядин шиирар "РикIин гаф", "Самур", "КцIар" газетра чапнай. Арбен Къардаша урус чIалаз элкъуьрай Ашукь Ягьядин са шумуд шиир "Наш Дагестан" ва "Лезгинские известия" газетрин чинриз акъатнай.

ğunu qeyd edirdilər. Lakin həmin divan şair 1918-ci ildə doğma kəndində vəfat etdikdən sonra yoxa çıxmışdır.

Aşıq Yəhyanın irsini ilk dəfə keçən əsrin 40-cı illərində SSRİ EA Azərbaycan filialının əməkdaşı Xüzəmməd Qədimov toplamış, onun barəsində məlumatı və bir sıra əsərlərini Azərbaycan Əlyazmaları Fonduna təhvil vermişdir. Sonralar o, şairin bir neçə şerini yazıçı-jurnalist Əziz Mirzəbəyova çatdırmış, sonuncu onları ləzgicə çıxan "Ürək sözü", "Samur" və "Qusar" qəzetlərində çap etdirmişdir. Dağıstanın tanınmış şairi Arben Qardaşın ləzgi dilindən rus dilinə çevirdiyi Aşıq Yəhyanın bir sıra şeirləri "Naş Daqestan" və "Lezginskiye izvestiya" qəzetlərində çap olunmuşdur.

## КЕСИБ АБДУЛЛАГЪ
### *(1875-1934)*

***Кесиб Абдуллагьа халкьдин четин гьаларикай, адан дердерикай туькIуьрнавай шиирар халкьдин рикIяй тир. Гьавиляй абур хуралай кIелдай инсанри.***

Вичин бахтсуз уьмуьрдив кьадайвал "Кесиб" лакIаб къачур, зурба чIалар арадал гъайи Абдуллагь Саруханов (Кесиб Абдуллагь) 1875-йисуз Манкъулидхуьре дидедиз хьана. Аялзамаз етим амукьай ада яргъал йисара дуьньяда къекъвена, девлетлуйрин кIвалера батраквал, лежбервал ва фялевал авуна. ГъвечIи чIавуз кIелиз-кхьиз чирай Абдуллагь къад яшда аваз Бакудин нафтIадин мяденра кIвалахал акъвазнай. А чIавуз Сабунчидин, Байилдин, Сураханидин мяденра кIвалахзавай фялейрин чIехи паяр лезгияр тир. Абурукай са паяри инкъилабдин крарик кьил кутунвай. Гьа и кар багьна кьуна урус пачагьдин гъилибанри кьведра агъзурралди лезги фялеяр Бакудай чукурнай.

Кьвед лагьай гъилера Бакудай акъудай фялейрин арада Абдуллагьни авай. Ам вичин хуьруьнви Ибрагьимахъ галаз санал Ростовдиз фенай. Ахпа абуру Петровскдиз фена, балугърин ветегада кIвалахна. Амма инин залан шартIариз дурум гуз тахьана абур хайи хуьруьз хтана. Девлетлуйри лежберрин гьакъи тагуз, абуруз зулумар ийизвай. Шегьерра кIвалахна хтанвай ксаривай и кар эхиз жезвачир ва абур девлетлуйриз акси экъечIзавай. Девлетлуйри лагьайтIа, фад-фад Къубадай приставдиз эвериз, хуьруьнбуруз кичIерарзавай. Мад гъилера пристав хуьруьз атайла, лежберри ам ва адахъ галаз санал атай са шумуд

## KASIB ABDULLAH
### *(1875-1934)*

***Kasıb Abdullahın xalqın acınacaqlı həyatından, onun dərdlərindən xəbər verən şeirləri xalqın məhəbbətini qazanmışdı. Ona görə də insanlar onları əzbərdən deyirdilər.***

Ömrü boyu taleyin ağır zərbələrinə məruz qalan, "Kasıb" təxəllüsü ilə yaratdığı gözəl şeirləri bu günə kimi xalqın yaddaşında yaşayan Abdullah Saruxanov (Kasıb Abdullah) 1875-ci ildə Qusar rayonunun İmamqulukənd kəndində anadan olmuşdur.

Uşaq ikən yetim qalan, dünyanı dolaşıb varlılara nökərlik edən, rəncbərlik və fəhləliklə dolanan Abdullah 20 yaşında Bakının neft mədənlərində işə düzəlir. O vaxtlar Bakının Sabunçu, Bayıl, Suraxanı və sair mədənlərində çoxlu ləzgi işləyirdi. Onların bir hissəsi inqilabi fəaliyyətlə məşğul idi. Bundan qəzəblənən rus çarının əlaltıları iki dəfə minlərlə ləzgini Bakıdan sürgün edir.

İkinci dəfə çıxarılan fəhlələr arasında Abdullah da var idi. O, həmkəndlisi İbrahimlə bir yerdə Rostova yola düşür. Sonra Petrovsk şəhərinə gedib balıq vətəgəsində işləyir. Buranın ağır iş şəraitinə dözə bilməyib, hər ikisi kəndə qayıdır. Kənd camaatı 4-5 dövlətlinin əlinin altında işləyirdi. Şəhərdə işləyib gəlmiş fəhlələr onların zülmünə tablaşmaq istəmirdilər. Dövlətlilərin tez-tez kəndə çağırdıqları Quba pristavı onlara hədə-qorxu gəlirdi.

Bundan qəzəblənən Abdullahgil növbəti dəfə kəndə gələn pristavı və onun əlaltılarını mühasirəyə alır, silahını əlindən alırlar. Müqavimət göstərən pristavın başını İbrahim yumruqla yarır. Abdullah ilə İbrahim

кас элкъуьрна юкьва туна ва абурув гвай яракьар вахчуна. Приставдиз вичин гьукум къалуриз кIан хьайила, Ибрагьима гьутунив яна адан кьил хана. Идалай кьулухъ Ибрагьимани Абдуллагьа хуьруьн девлетлуйри кIватIнавай вири гад жемятриз пайна. Идахъ авсиятда Абдуллагьа кхьей "Приставдин бармак" шиир элдин меце гьатнай.

Гуьгъуьнлай кулакриз элкъвей девлетлуяр Ибрагьимни Абдуллагь терг ийиз алахънай. Ибрагьим са вахтунилай кIвалахун патал Бакудиз фена. Абдуллагь лагьайтIа, хуьре амукьна. Ада лежбервал ийиз, шиирар кхьиз Совет гьукуматдин душманар русвагьзавай. Эхирни кулакри йифиз, чинеба ам гуьлледив яна. Вичел залан хер хьайи Абдуллагь са шумуд юкъуз месе гьатна, дуьньядилай фена. 1963-йисуз Забит Ризванова Магьачкъалада Кесиб Абдуллагьан шииррин кIватIал чапдай акъудна.

dövlətlilərin taxılını kasıblara paylayırlar. Bu münasibətlə Abdullahın yazdığı "Pristavın papağı" şeri kəndə yayılır və şairə şöhrət qazandırır.

Tezliklə inqilab qələbə çalır, pristavın əlaltılarının başı qarışır. Bütün Quba qəzasında qoçaqlığı ilə məşhur olan İbrahim Bakıya, neft mədənlərində işləməyə yola düşür, Abdullah isə kənddə rəncbərlik edir, Sovet hökumətinə qarşı çıxan düşmənləri rüsvay edən alovlu şeirləri ilə kənd camaatının məhəbbətini qazanır.

Lakin bu şeirlər dövlətlilərin xoşuna gəlmir, onlar şairi həmişəlik susdurmaq qərarına gəlirlər. Bir gecə ona tüfəngdən atəş açırlar. Şair aldığı yaradan vəfat edir. Yaradıcılığı hələ də tam öyrənilməmiş Kasıb Abdullahın bir sıra əsərlərini ilk dəfə Zabit Rizvanov toplamış və 1963-cü ildə Mahaçqalada kitab kimi nəşr etdirmişdir.

## ХУЬЛУЬХЪВИ АБДУЛЖЕЛИЛ

***Хуьлуьхъви Абдулжелил "халькьдин душман" хьиз дустагъда тунин себеб адаз араб ва фарс чIалар дериндай чир хьун тир.***



*(1880-1937)*

Вичи "Надим" лакIаб алаз лезги ва азербайжан чIаларалди гзаф метлеблу ва везинлу шиирар тесниф авур Рамазанов Абдулжелил Садикьан хва 1880-йисуз Хуьлуьхърин хуьре дидедиз хьана. Сифте хуьруьн мискIиндин мектебда кIелай ада, гуьгъуьнлай Куьре округда Алкьвадар Гьасан эфендидин мектебда ва Ярагърин медресада чирвилер къачунай. Ина ам РагъэкъечIдай патан уьлквейрин, гьакIни Азербайжандин ва Дагъустандин поэзия мукьувай чириз эгечIнай. Араб, фарс, туьрк ва азербайжан чIалар вичин хайи чIал хьиз дериндай чирай и камалэгьлидихъ зурба ктабхана авай. И ктабханадикай къунши хуьрерин кIелунал рикI алай инсанрини менфят къачудай. Абдулжелил эфенди а вахтунда хуьре муаллимвал авур Агьмед Жавад, Мир Жафер Багъиров хьтин инсанрихъ галаз дуст тир.

Ада халкьдин патай чIехи гьуьрмет къазанмишуни бязи фасикьрихъ къалабулух кутунай. Гьавиляй 1932-1934-йисара абуру Абдулжелилал "халкьдин душман" тIвар илитIна, ам кьведра дустагъ авунай, адан гзаф къиметлу ктабар цIайлахандиз вегьена канай. Абдулжелил эфендиди Бакудин дустагъдай

## XULUQVİ ABDULCƏLİL

***Xuluqvi Abdulcəlilin "xalq düşməni" damğası ilə həbsxanaya salınmasının əsas səbəbi onun ərəb və fars dillərini mükəmməl bilməsi idi.***

Ləzgi və Azərbaycan dillərində "Nadim" təxəllüsü ilə gözəl şeirlər yazmış Ramazanov Abdulcəlil Sadiq oğlu 1880-cı ildə Xuluq kəndində anadan olmuşdur. Kənd məscidinin nəzdindəki məktəbdə təhsil alan Abdulcəlil sonradan Küre mahalında Alqadar Həsən əfəndinin məktəbində və Yaraq mədrəsəsində təhsil almışdır. Burada o, Şərq poeziyasını, Azərbaycan və Dağıstan şairlərinin yaradıcılığını öyrənmişdir. Azərbaycan, türk, fars və ərəb dillərinə öz doğma dili kimi yiyələnmiş Abdulcəlil əfəndinin zəngin kitabxanası var idi. Ondan qonşu kəndlərin sakinləri də bəhrələnirdilər. Abdulcəlil əfəndi o vaxtlar kənddə işləmiş Əhməd Cavad, Mir Cəfər Bağırov kimi şəxsiyyətlərlə dostluq edirdi.

Bu mütərəqqi fikirli ziyalının xalq arasında böyük nüfuza malik olması bəzi qara qüvvələri hiddətləndirir və onların əli ilə Abdulcəlil əfəndi 1932-ci ildə və 1934-cü ildə "xalq düşməni" kimi iki dəfə həbs edilir. Bu maarif xadiminin zəngin kitabxanasını isə insafsızcasına məhv edirlər.

Bakıdakı həbsxanadan doğma kəndə göndərdiyi onlarca şeirdə o, dövrünün haqsızlıqlarını və özbaşınalıqlarını ifşa etmişdir.

кIвализ цIудралди шиирар рекье тунай.

1934-йисуз азадвилиз акъатай агъсакъал 1937-йисуз пуд лагъай гъилера дустагъда тунай ва ам гъанай юхдиз акъатнай. Рехи чIавуз кIваливай-къавай хьайи Абдулжелил эфендидин хизандин кьилелни гзаф мусибатар атанай. Адан ругуд кьил хизан гьалал кIваляй, кьве гъавадин чIехи дараматдай акъудна, инаг хуьруьн мектебдиз элкъуьрнай. Абдулжелилан уьмуьрдин юлдашди Сафията дарвилеризни четинвилериз килиг тавуна вичин вири веледрив кIелиз тунай.

Адан гъвечIи хва Зияпашади бубадин рехъ давамарнай. Азербайжандин Гъукуматдин Университетдин РагъэкъечIдай патан уьлквейрин чIаларин факультет акьалтIарна, уьмуьрдин эхирдалди Хачмаз райондин Къусарчай хуьруьн юкьван мектебда муаллимвал авунай. Гьа са вахтунда диссертацияни хвена, алимвилин тIвар къачунай.

Абдулжелилан санлай 101 шиир кхьенвай кьве дафтар шаирдин хци Зияпаша Рамазанова филологиядин илимрин доктор Мавлуд Ярагъмедовав вуганай. Алимди шаирдин поэзиядиз чIехи къимет ганай ва и поэзиядикай вичин къейдер, гьакIни Абдулжелил эфендидин са шумуд шиир 1992-йисан "Самур" газетдин чинриз акъуднай.

1934-cü ildə azadlığa buraxılan ziyalı, 1937-ci ildə üçüncü dəfə həbs olunur və bir daha geri qayıtmır.

Ağsaqqal vaxtında elindən, obasından didərgin salınan maarifçinin ailəsinin başına olmazın müsibətlər gətirilir. Arvadı Safiyat altı övladı ilə birlikdə halal evindən - ikimərtəbəli evin geniş otaqlarından çıxarılır, onların evində məktəb təşkil edilir. Lakin məhrumiyyətlərə baxmayaraq, Safiyat övladlarının hamısına ali təhsil verir.

Şərq ölkələri ədəbiyyatının vurğunu olan onun kiçik oğlu Ziyapaşa atasının yolunu davam etdirir. O, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirdikdən sonra namizədlik dissertasiyası müdafiə edir. Xaçmaz rayonunun Qusarçay qəsəbəsində ömrünün axırına kimi müəllimlik etmiş Ziyapaşa müəllim kitablara vurğun insan idi. Atası kimi onun da zəngin kitabxanası var idi.

Həbsxanadan itkin düşən şairdən yalnız 101 şeir yazılmış son iki dəftəri yadigar qalır. Həmin dəftərləri Ziyapaşa Ramazanov 1992-ci ildə filologiya elmləri doktoru Mövlud Yarəhmədova təqdim edir. Alim şairin poeziyasına yüksək qiymət verir, bu barədə qeydlərini və Nadimin şeirlərini həmin il "Samur" qəzetində dərc etdirir.

## МЕГЬАМЕД САИД ЭВЕЖУГЪИ

***1901-йисуз Меккедизни Мединадиз фейи Мегьамед Саид Эвежугъи ватандиз 8 йисалай сейли динэгьли ва алим хьиз хтанай.***



(1883-1938)

Гьажи Мегьамед Саид эфенди Дагъустани ал-Эвежугъи 1883-йисуз КцIар райондин Эвежугъ хуьре дидедиз хьанай. Жегьилзамаз бубани диде рагьметдиз фейи гададин кIелунал гзаф рикI алай. Сифте хуьруьн медресада чирвилер къачур ам гьаждиз фейила кьуд йисуз ислам диндин меркездай гьисабзавай Багъдатда амукьнай. Ина араб чIал хъсандиз чирай ада, кьве йисуз "ал-Имам ал-Азам" мискIиндин медресада диндин рекьяй чирвилер къачунай.

1905-йисуз Туьркиядин Истанбул шегьердиз атай Саида ина "Къуръандин" ва араб чIалан тарсар гуз, фекьивал ийиз, туьрк чIални хъсандиз чирзавай. И савадлу ва гегьенш дуьньякьатIунар авай касди Истанбулдин динэгьлийрин арада гьуьрмет къазанмишнай ва адаз эфендивилин титул ганай.

## MƏHƏMMƏD SƏİD ƏVƏCUĞİ

***1901-ci ildə zəvvarlarla Məkkə və Mədinəyə ziyarətə yola düşən Məhəmməd Səid Əvəcuği 8 ildən tanınmış din xadimi və alim kimi vətənə qayıtmışdır.***

Məhəmməd Səid əfəndi Dağıstani əl-Əvəcuği 1883-cü ildə Qusar rayonunun Əvəcuq kəndində anadan olmuşdur. İlk təhsilini ikisinifli Əvəcuq kənd mədrəsəsində almışdır. Gənc yaşlarından yetim qalmış Məhəmməd Səid 1901-ci ilin payızında Quba-Qusar zəvvarları ilə birlikdə Məkkəyə və Mədinəyə həcc ziyarətinə yola düşür. Ziyarətini başa çatdırıb, dörd il Bağdadda yaşayır, ərəb dilini mükəmməl öyrənir və şəhərin "əl-İmam əl-Əzəm" məscidində fəaliyyət göstərən ikiillik mədrəsədə dini təhsil alır. 1905-ci ilin əvvəllərində Türkiyənin İstanbul şəhərinə gəlir. O, həm İstanbul ilahiyyət məktəbində "Quran"dan və ərəb dilindən dərs deyir, həm camidə mollalıq edir, həm də türk ədəbi dilini öyrənir. İstedadlı gənc İstanbulun tanınmış dindarlarının rəğbətini qazanır, tezliklə

1908-йисуз Эвежугъиз хтай Саид эфенди мискIиндин медресада тарсар гуз эгечIна. И медресадиз Хьилер, ЦIуру Худат, ГадацIиййихуьр, Хуьрел, Агъа Лакар хуьрерайни кIелунал рикI алайбур къвезвай. И касдин нуфуз хкаж хьуникай кичIе хьайи Къафкъаздин сердердин Къубада авай гъилибанри Саид эфенди шовинист хьиз къелемдиз гана, ам кIевера туна.

И басрухриз таб гуз тахьай кас Бакудиз куьч хьана. Ина ада семинарияда муаллимвал авунилай гъейри эсерарни кхьизвай. 1915-йисуз чап хьайи "Пуд виш месэла" ада медресаяр патал чирвилер гудай ктаб хьиз къелемдиз къачунай. И ктабди Къафкъаздин динэгьлийрин дикъет вичел желбнай ва 1916-йисуз ам кьвед лагьай гъилера чап хъувунай.

1918-йисуз Азербайжандин Халкьдин Жумгъурият тешкил хьайила Саид эфендиди вичин хвешивал "Зейн ал Макатиб" тIвар ганвай шииррин кIватIалдалди малумарнай. И ктаб 1919-йисуз Бакудин "Уружоврин стхайрин чапханада" басма хьанай.

1920-йисуз атай Совет гъукуматди динэгьлияр кIевера твaз башламишна. 1926-йисуз семинария кIев хьайила Саид Эфенди хуьруьз хтана. Са йисуз ада Манкъулидхуьре муаллимвал авуна. Амма и четин кьисметдин инсандиз регьят уьмуьр несиб тушир кьван. Советрин аксина теблигъат тухузвай муаллим хьиз къелемдиз гана, ам кIвалахал тунач. Эхирни ам вичин хайи хуьре кхьинрив машгъул хьана. Анжах Саид эфендидиз санани секинвал гузвачир. 1935-йисуз хайибуру ам суьргуьндикай хуьн патал чинеба Уьнуьгъиз рекье туна. Ина ам Дервиш Буба хьиз са шумуд йисуз яшамиш хьана. Хуьруьн эвлиян хьиз машгъур хьайи Дервиш Буба 1938-йисуз 55-йиса аваз рагьметдиз фена.

Эвежугъдин кьуьзуьбуру ихтилатзавайвал, Саид эфендидихъ гъам кIвале, гъамни мискIинда чIехи ктабхана авай. 1935-йисуз хуьруьн кьиле авай ксари адан ктабар цIай яна кана. Са бязи ктабар чуьнуьхна вичин кIвале хвейи Шемседдин Агьмедов тахсирлу яз кьурла, адав гвай ктабарни тергнай.

Саид эфендидин гьелелиг чав агъадихъ галай ктабар агакьнава: Ислам диндиз талукь "Пуд виш месэла", "Зейн ал-Макатиб" ва "Пайгъамбардин нур". Анжах адахъ чап хьанвай мадни са шумуд ктаб авай. Гъабурукай яз "Уружоврин стхайрин чапханада басма хьайи "ЦIийи Асари Дагъустан" ва "Алankъа" ("Симургъдин къуш") ктабар къалуриз жеда.

"əfəndi" tituluna layiq görülür. 1908-ci ilin yayında o, doğma kəndi Əvəcuğa qayıdır. Məscidin nəzdindəki molla məktəbində "Qurani-Kərim"dən, ərəb dilindən və tarixindən kənd uşaqlarına dərs deməyə başlayır.

Əvəcuq kəndinə ətraf kəndlərdən - Köhnə Xudatdan, Hildən, Xüreldən, Aşağı Ləgərdən, Gədəzeyxurdan da imkanlı adamların övladları Səid əfəndidən dərs almağa gəlirlər. Lakin onun artan nüfuzundan qorxuya düşən Qafqaz canişininin Qubadakı əlaltıları Səid əfəndini təqib etməyə başlayırlar.

O, Bakıya köçməli olur. Burada ziyalılar, dini və ədəbi mühitin adamları tərəfindən tezliklə tanınır. O, müəllimlik etməklə yanaşı, bir sıra əsərlər də yazır. Onlardan biri 1915-ci ildə Bakı şəhərində çap olunmuş, mədrəsələr üçün dərslik kimi yazılmış "Üç yüz məsələ" kitabıdır. Bu kitab Qafqaz möminlərinin və ruhanilərinin diqqətini cəlb edir. Ona görə də birinci çapdan bir neçə ay sonra, 1916-cı ildə "Üç yüz məsələ" kitabı yenidən Bakıda böyük tirajla çap olunur.

1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xəbərini eşidən Səid əfəndi uşaq kimi sevinir. O, "Zeyn əl-Məkatib" adlı şeirlər kitabını müstəqil Azərbaycan hökumətinin quruculuq və maarifçilik fəaliyyətinə həsr edir. Azərbaycan dilində yazılmış bu kitab 1919-cu ilin may ayında, Bakıdakı "Orucov qardaşları" mətbəəsində nəşr olunur.

1926-cı ildə seminariya bağlanandan sonra təqiblərə məruz qalan Səid doğma kəndinə qayıdır və yeni dərs ilini İmamqulukənd məktəbində müəllimliklə başlayır. Dərs ili başa çatdıqdan sonra Səid əfəndi doğma kəndinə qayıdır, yaradıcılıqla məşğul olur. 1935-ci ildə təqiblərdən yaxa qurtarmaq üçün gizlincə Əniğ kəndinə köçən Səid əfəndi Dərviş Baba adı ilə ömrünün sonuna kimi burada yaşayır. Bu "canlı ocağa" pənah gətirənlər şəfa tapır, şər işlərdən əl çəkirdilər.

Səid Əvəcuği 1938-ci il noyabr ayının 19-da, 55 yaşında Əniğ kəndində sətəlcəmdən vəfat edir. Onu kənd qəbiristanlığında dəfn edir, baş daşında "Dərviş Baba, 1938-ci il" sözlərini yazırlar. Səyid əfəndi Dağıstani əl-Əvəcuği Məhəmməd peyğəmbərin həyat və yaradıcılığına həsr edilmiş "Peyğəmbərin nuru" kitabının da müəllifidir. O, həmçinin 1920-ci ildə Bakıdakı "Orucov qardaşları" mətbəəsində çap olunmuş "Yeni asari Dağıstan" tarixi əsərinin, "əl-Ənqa" ("Simurq quşu") kitabının və digər əsərlərin müəllifidir.

## НУРЕДДИН ШЕРИФОВ

***"Нуреддин буба" хьиз машгьур тир Нуреддин Шерифова ватанпересвилин гьиссералди тесниф авур шиирар гзафбуру хуралай кIелдай.***



*(1883-1952)*

Нуреддин Шерифов 1883-йисуз ГуьндуьзкIеле хуьре, вичин девирдин вилик-кьилик квай ксарикай тир Шериф эфендидин хизанда дидедиз хьана. 1887-йисуз Дагъустанда пачагьдин аксина къарагъай бунтара иштирак авур, гьавиляй вич Дербентдин къазаматда тур Шериф эфенди вичин хайи хуьряй - Миграгъай Къуба уезддин ГуьндуьзкIеле хуьруьз суьргуьн авунай.

Истанбулда медреса акьалтIарай, араб, фарс, туьрк ва азербайжан чIалар хъсандиз чидай, дерин фагьумар авай и касди сифте яз хуьре мектеб ахъайна, тарсар ганай. И мектебдиз къунши хуьрерайни кIелун патал аялар къведай. Бубадин мектебда Нуреддина азербайжан, араб, фарс ва туьрк чIаларилай гъейри урус чIални хъсандиз чирнай.

Са вахтуналди ам Бакудин нафтIадин мяденра, гуьгъуьнлай Яламада капиталист Горбачован балугърин ватагада кIвалахал акъвазна. Ина залан шартIара кIвалахзавай инсанрихъ галаз санал бунт къарагъарайла Нуреддинал залан хирер хьанай. 1906-1909-йисара Нуреддина Миграгъа старшинадин секретарвиле кIвалахна. ГуьндуьзкIеледиз хтайла гадади вичин бубадин мектебда муаллимвал авуна.

1912-йисуз Крымдин Бахчасарай шегьердиз акъатай ада, ина кьве йисан муаллимвилин курсар акьалтIарна. 1920-йисалди жегьилди вичин хуьре сифте муаллимвиле, ахпа директорвиле кIвалахна. 20-йисар Нуреддин Шерифован уьмуьрда чIехи агалкьунрин йисар хьиз тафаватлу хьана. Ада са шумуд автордихъ галаз санал сад лагьай лезги элифба ктаб туькIуьрна чапдай акъудна, Дагъустанда кьиле фейи сад лагьай орфографиядин конференциядин иштиракчини хьана, Азербайжандин сейли шаиррикай Вакъифан, Видадидин ва Сабиран эсерар лезги чIалаз элкъуьрна.

Бакуда большевикрин "Гъуьммет" тешкилатдихъ галаз санал лезги большевикрин "Фарух" тешкилатни арадиз атанай. Адан регьберрикай тир Н.Шерифов Къуба уезддин хуьрера партиядин кIватIалар

## NURƏDDİN ŞƏRİFOV

***Xalq arasında "Nurəddin baba" adı ilə məşhur olan Nurəddin Şərifovun vətəndaş yanğısı ilə qələmə aldığı şeirlərini bir çox qusarlılar əzbərdən deyirdilər.***

Nurəddin Şərifov 1883-cü ildə Gündüzqala kəndində anadan olmuşdur. Onun ilk müəllimi atası Şərif əfəndi olmuşdur. 1887-ci ildə Dağıstanda rus çarı əleyhinə üsyanda iştirak etmiş, buna görə Dərbənd həbsxanasına salınmış Şərif əfəndi doğma kəndi Migrağdan Quba qəzasının Gündüzqala kəndinə sürgün olunmuşdu.

İstanbulda dini təhsil almış Şərif əfəndi öz ana dili ilə yanaşı Azərbaycan, ərəb, fars və türk dillərini də dərindən bilirdi. İstanbuldan qayıtdıqdan sonra o, doğma kəndində məktəb açıb orada dərs deyirdi. Bu məktəbə oxumaq üçün qonşu kəndlərdən də uşaqlar gəlirdilər.

Atasının məktəbində oxuyan Nurəddin Azərbaycan, ərəb, fars, türk dillərindən başqa rus dilini də mükəmməl öyrənmişdi. Əvvəlcə Bakının neft mədənlərində işə düzələn gənc, sonralar Yalamada kapitalist Qorbaçovun balıq vətəgəsində çalışır. Buradakı ağır şəraiti və haqsızlıqları görən Nurəddin yoldaşları ilə birgə qiyam qaldırır və bu zaman baş verən atışmada ağır yaralanır.

Bu hadisədən sonra Nurəddin Dağıstanın Migrağ kəndinə gedir, burada yüzbaşının katibi vəzifəsinə işə düzəlir. Sonradan Gündüzqalaya qayıdan gənc atasının məktəbində müəllim işləyir. O, 1912-ci ildə Krımın Bağçasaray şəhərində ikiillik pedaqoji məktəbdə təhsil alır. 1920-ci ilə kimi doğma kəndində əvvəl müəllimlik edir, sonra isə direktor vəzifəsində çalışır.

1920-ci ildə o, ilk dəfə bir neçə müəlliflə birgə yeni ləzgi əlifbasını tərtib edərək, çap etdirir. O, Dağıstanda keçirilən birinci orfoqrafiya konfransının iştirakçısı olur. N.Şərifov məşhur Azərbaycan şairləri Vaqifin, Vidadinin və Sabirin əsərlərini ləzgi dilinə çevirir.

Ötən əsrin əvvəllərində Bakı bolşeviklərinin "Hümmət" təşkilatı ilə yanaşı, ləzgi bolşeviklərinin "Farux" təşkilatı da fəaliyyətə başlayır. Onun rəhbərlərindən biri olan N.Şərifov Quba qəzasının kəndlərində partiya özəkləri yaratmaqla məşğul olur. Bu, o dövrün çətin və məsuliyyətli vəzifəsi idi. Quba qəzası

туькIуьрунив эгечIнай. Къуба уездда важиблу крарин идарадин кьил, уезддин партколлегиядин кьил хьайи Н.Шерифова цIийиз тешкил хьайи Хьил райондин исполкомдин седривиле кIвалахна. 30-йисара адан эсерар мектебрин учебникра ва хрестоматийра гьатна. Н.Шерифова вичин “Сифте камар” тIвар ганвай сад лагьай ктаб 1929-йисуз чапдиз гьазурнай. Адан “Чигедин стIал” ктаб Бакуда 1966-йисуз басма хьана. 1932-йисуз КцIар районда акъатзавай “Социализмадин темп” газетдин редакторвиле тайинарай Н.Шерифова ина 10 йисуз кIвалахна.

1936-йисуз Азербайжанда лезги мектебар кIевайла, лезги чIалал кIел-кхьин къадагъа авурла Нуреддин Шерифова кузни-хкIуз кхьей “Гьайиф” тIвар алай шиир халкьдин мецера гьатнай.

Шаирди вичин уьмуьрдин эхирдалди КцIар райондин РОНО-да кIвалахна, 1952-йисуз 69 йиса аваз рагьметдиз фена. Гьайиф къведай кар ам я хьи, адан эсерар вири кIватI хъувунвач. Шаирдин сифте кIватIал туькIуьрна чапдай акъудайди Забит Ризванов я. Адан архивда чап тахьанвай 200-дав агакьна шиирар ва 4 поэма ама. КцIара Нуреддин Шерифован тIвар ганвай куьче ава.

## ЗАБИТ РИЗВАНОВ

***Чи чилерал дагъ хьиз хкаж хьайи, вичин эсерралди инсанрин рикIериз нур чукIурай, хайи чIал хуьн патал женг чIугур Забит Ризванов халкьдин рикI алай сеняткар я.***



*(1926-1992)*

Забит Ризванов 1926-йисан 26-ноябрдиз КцIар райондин Манкъулидхуьре дидедиз хьана. Аялзамаз диде-буба квадарай, Ватандин ЧIехи дяведин яцIарай акъатай, вичин 9 веледдикай кьуд гъвечIизамаз квадарай З.Ризванован уьмуьр четинвилерани дарвилера фена.

1986-йисуз кхьей “Руьгьдин азаб” повестда Забит Ризванова вичин прототип яратмишнава: “Закир кьелечI якIарин, кIулар са тIимил хкатай начагъ жуьредин итим я... Аскервиле авай вахтунда военный газетрин чинриз макъалаяр, шиирар акъудай Закир гуьгъуьнлай райондин газетдиз мукьва хьана... Коммунистрин партиядин жергей-

vacib işlər idarəsinin müdiri, qəza partiya kollegiyasının rəhbəri vəzifəsində çalışmış N.Şərifov yeni təşkil olunmuş Hil Rayon İcraiyyə Komitəsinin sədri vəzifəsində işləyir. 30-cu illərdə onun əsərləri məktəb dərsliklərinə salınır. 1932-ci ildə Qusar rayonunda çıxan “Sosializm tempi” qəzetinin redaktoru təyin olunan N.Şərifov 10 il bu vəzifədə çalışır.

1936-cı ildə Azərbaycanda ləzgi məktəbləri bağlananda, ləzgi dilində yazıb oxumaq qadağan ediləndə Nurəddin Şərifovun yana-yana yazdığı “Heyif” şeri dildən-dilə düşür.

Şair ömrünün sonuna kimi Qusar rayon təhsil şöbəsində işləyir. O, 1952-ci ildə 69 yaşında vəfat edir. N.Şərifovun “İlk addımlar” adlı birinci kitabı 1929-cu ildə çap olunmuşdur. Onun “Şeh damlası” adlı kitabı Zabit Rizvanovun redaktorluğu ilə 1966-cı ildə işıq üzü görmüşdür.

Təəssüf ki, şairin ədəbi irsi tam öyrənilməmiş, onun ölümündən sonra cəmi bir kitabı çap olunmuşdur. Şairin arxivində çap olunmamış 200-ə yaxın şeir və 4 poema vardır.

Qusarın geniş və yaraşıqlı küçələrindən biri Nurəddin Şərifovun adını daşıyır.

## ZABİT RİZVANOV

***Doğma torpağında dağ kimi ucalmış, vətənə təmənnasız xidmət rəmzi olan, insanların ürəyinə nur saçan, doğma dilini qorumaq üçün daim çalışmış Zabit Rizvanov xalqın sevimli sənətkarıdır.***

Zabit Rizvanov 1926-cı ilin noyabrın 26-da Qusar rayonunun İmamqulukənd kəndində anadan olmuşdur. Onun bütün həyatı zəhmət və fədakarlıq nümunəsidir. Valideynlərini erkən itirən Zabit Böyük Vətən müharibəsində iştirak etmiş, oradan qayıtdıqdan sonra həyatını ləzgi xalq folklorunu toplamağa və ədəbi yaradıcılığa həsr etmişdir. Son dərəcə xeyirxah, el-obasına ürəyi yanan insan olduğuna görə xalq onu çox sevirdi.

“Ruhun əzabı” povestində Zabit Rizvanov öz prototipi olan Zakir obrazını yaratmışdır. Əsərdən oxuyuruq: “Zakir arıq adamdır... Əsgərlikdə olanda hərbi qəzetlərdə məqalələr, şeirlər dərc etdirən Zakir, sonralar rayon qəzeti ilə yaxından əməkdaşlıq etdi. Par-

риз кьабулна Закир... Райкомда кIвалахна Закира, колхоздин седривилени. Ахпа райондин халкьдин яратмишунрин кIвал ахъа хьана. Закир ракъурна гьанин директорвилиз. Закиран меслятдалди районда литобъединение, тарихдин музей, халкьдин театр, кьуьлеринни манийрин ансамбль, райондин милли газет, дидед чIалал радио гунугрин редакция ахъа хьана, чкадин шаиррин ктабар республикадин меркезда басма хьунин кIвалахар гуьнгуьник акатна... Илимдикай дерин чирвилер авай и начагъ жуьредин яшлу итимдикай хьанва гила шегьердин паркунин директор.”

Ам шаир, кхьираг, драматург, журналист, филолог, тарихчи, чIалан алим тир. Са илимдин ахтармишунрин институтдивай са шумуд йисара кьилиз акъудиз тахьай зурба кIвалахар ада са уьмуьрда кьилиз акъудна. Забит муаллимди лезги убайрай ара датIана чи фольклор кIватIна чапзавай, халкьди фадлай рикIелай ракъурнавай маниярни кьуьлер винел акъудзавай. Хуьрерайни районрай чи тарихдиз талукь затIар кIватIзавай. Лезгияр гзаф яшамиш жезвай районрин мектебра лезги чIалал тарсар кардик кутун патал алахъзавай ам.

1959-йисуз КцIар районда “РикIин гаф” эдебиятдин кIватIал арадиз гъана, адаз регьбервал ганай Забит муаллимди. Гьиле цIийиз къелем кьазвай, хайи чIалалди кхьизвай ватанэгьлияр патал ам халисан мектеб тир. Ада Кесиб Абдуллагьан ва Нуреддин Шерифован ирс кIелдайбурув агакьарнай. Вичин муьжуьд пьеса Лезги Театрда тамашадиз эцигун патал гьазурнай...

З.Ризванова халкьдиз авур виридалайни чIехи къуллугъ Дагъустандин халкьдин шаир Байрам Салимовахъ галаз санал чи къадим “Шарвили” эпос арадиз хкун я. Идалай гъейри ада лезги халкьдин 20 агъзур мани, агъзур къаравили, цIудралди риваятар, пуд томдикай ибарат тир халкьдин махар кIватна. 10 романдин, 20 повестдин, вишералди шиirrин ва поэмайрин автор тир Забит Ризванован Бакудин, Магьачкъаладин ва Москвадин чапханайра цIуд ктаб чап хьанва.

Сифте яз “Дадашан дустар” (1959) ктабдин автор хьиз эдебиятдиз атай З.Ризванован гуьгъуьнин йисара “ГъвечIи кIел”, “МискIалар”, “Шагьнабатдин сел”, “Кьелни фу”, “Пайгъамбардин къацу пайдах”, “Самур вацIун кьибле пата”, “Гар чуьлда жеда” хьтин поэзиядинни прозадин ктабар чапдай акъатна.

Забит Ризванов 1992-йисан 23-ноябрдиз рагьметдиз фена.

tiya sıralarına qəbul olundu, Ali Partiya məktəbinə göndərildi. O, raykomda işlədi, kolxoz sədri oldu. Rayon xalq yaradıcılığı evi açılanda Zakir onun direktoru təyin edildi. Zakirin məsləhətləri, təşəbbüskarlığı və fədakarlığı sayəsində rayonda ədəbi birlik, tarix-diyarşünaslıq muzeyi, xalq teatrı, mahnı və rəqs ansamblı, rayonun milli qəzeti, ana dilində radio verilişləri redaksiyası açıldı, yerli şairlərin kitabları respublikanın paytaxtında çap olundu. Şair, dramaturq, folklorçu, toponimçi Zakir qonşu rayonlarda da məşhurlaşdı. Dərin elmi biliklərə malik bu xəstəhal yaşlı adam indi şəhər parkının direktoru olub”.

Z.Rizvanov şair, yazıçı, dramaturq, jurnalist, filoloq, tarixçi, toponimçi, dilçi alim idi. Bir elmi tədqiqat institutunun bir neçə ildə görə bildiyi işləri o, təkbaşına görmüşdü. Zabit müəllim ləzgi kəndlərindən folklor nümunələrini toplayıb çap edirdi. O, həmçinin xalqın çoxdan unutduğu qədim mahnı və rəqsləri üzə çıxarırdı. Kəndlərdən və rayonlardan gələcək muzey üçün qiymətli eksponatlar toplayırdı. Ləzgilərin yığcam yaşadıqları rayonların məktəblərində ana dilində dərslərin keçirilməsi üçün yorulmadan səy göstərirdi.

1959-cu ildə Zabit Rizvanov Qusar rayonunda “Ürək sözü” ədəbi birliyini yaradıb ona rəhbərlik edir. Birlik ana dilində yazıb-yaradan qusarlılar üçün əsl məktəb idi. Z.Rizvanov məşhur ləzgi şairləri Kasıb Abdullahın və Nurəddin Şərifovun ədəbi irsini oxuculara çatdırmışdır. O, səkkiz pyesini Ləzgi teatrında tamaşa üçün hazırlamışdır.

Z.Rizvanovun ən böyük xidməti Dağıstanın xalq şairi Bayram Səlimovla birgə ləzgilərin qədim “Şarvili” eposunu toplayaraq, çapa hazırlaması olmuşdur. Təəssüf ki, “Şarvili”nin çap olunmuş variantını görmək şairə qismət olmadı. Bundan əlavə o, ləzci şifahi xalq ədəbiyyatının gözəl nümunələri olan 20 min bayatı, min lətifə, onlarca rəvayət, üç cilddən ibarət xalq nağıllarını da toplamışdır. 10 roman, 20 povest, yüzlərlə şeir müəllifi olan Z.Rizvanovun Bakı, Mahaçqala və Moskva nəşriyyatlarında 10 kitabı çap olunmuşdur.

Ədəbiyyata 1959-cu ildə çap olunmuş “Dadaşın dostları” kitabı ilə gələn Z.Rizvanovun “Quzu”, “Tapmacalar”, “Şahnabatın seli”, “Duz-çörək”, “Külək genişlik sevir”, “Peyğəmbərin yaşıl bayrağı”, “Samur çayının cənub sahilində” kimi nəzm və nəsr əsərləri oxucuların dərin rəğbətini qazanmışdır.

Zabit Rizvanov 1922-ci ilin noyabrın 23-də vəfat etmişdir.

## БАЙРАМ САЛИМОВ

***Дагъустандин халкьдин шаир Байрам Салимов Азербайжандин лезгийрин арадай и тIварцIиз лайихлу хьайи сад лагьай кас я.***



Вичин эсерар дуьньядин шумудни са чIалариз элкъуьрнавай шаир Байрам Салимов 1929-йисуз КцIар райондин СтIур хуьре дидедиз хьана. Байрам хизандин цIипуд лагьай аял тир.

Хуьруьн мектеб куьтягьна Дербентдин педмектебда, военный училищеда кIелай ада гзаф йисара Советрин Армиядин жергейра офицер яз къуллугъна. Б.Салимов 1958-йисалай Дагъустанда журналистикадив эгечIна. Ада газет ва журналрин редакцийра, телевиденида отделдин регьбервиле, жавабдар секретарвиле, редакторвиле кIвалахна. Дагъустандин Гъукуматдин Университетдин филологиядин факультет акьалтIарай Б.Салимован шиирар 1946-йисалай чап жезва.

Б.Салимован Магьачкъалада, Бакуда, Москвада, Алма-Атада 40-дав агакьна ктабар чап хьанва. "Женгинин рекьера", "Лувар", "Къизилгуьлдин манияр", "Катран муг", "Рехи ктаб", "Багъишламиша, инсан", "Рагъ, илифа!", "Мани хуьруьз хтана", "ЧIижрен рехъ", "Вучиз Кавказда аслан авач?", "Экуьн бере", "Лекьрен гъуьндуьр", "Ахвар къвезвач чинардиз", "Маргъвар", "Амадагар" хьтин ктабри адаз машгъурвал гъана. Шаирдин 10-дав агъакьна ктабар урус чIалалди чап хьанва.

Москвадин "Литературная газета", "Литературная Россия" газетра, "Крокодил" журналда шаирдин шиирар фад-фад чап жезва. Ам "Литературная газета"дин "Къизил дана" премиядин лауреат я.

Низами Генжевидин, Коста Хетагурован, Жамбулан, Самед Вургъунан, Сулейман Руьстеман, Расул Гьамзатован шиирар лезги чIалаз элкъуьрай Байрам Салимован вичин эсерар урус чIалаз, Дагъустандин халкьарин чIалариз элкъуьрнава. 1970-йисуз Алма-Атада шаирдин "Лекьрен кьакьанвал" ктаб къазах чIалалди басма хьана.

Байрам Салимова сифте яз Забит Ризвановахъ галаз санал лезги халкьдин "Шарвили" эпос кIватIна, арадал хкана.

РФ-дин Писателрин Союздин уьзви тир Байрам Салимоваз 1999-йисуз "Дагъустандин халкьдин шаир" гьуьрметдин тIвар гана.

## BAYRAM SƏLİMOV

***Dağıstanın xalq şairi Bayram Səlimov Azərbaycan ləzgiləri arasından bu yüksək fəxri ada layiq görülmüş ilk qələm sahibidir.***

Əsərləri dünyanın bir neçə dilinə tərcümə olunmuş şair Bayram Səlimov 1929-cu ildə Qusar rayonunun ən ucqar dağ kəndində - Sudurda anadan olmuşdur. O, böyük ailənin on üçüncü övladı idi.

Sudur kənd orta məktəbini bitirdikdən sonra Bayram Dərbənd Pedaqoji Məktəbində və hərbi məktəbdə təhsil almış, Sovet ordusu sıralarında zabit kimi qulluq etmişdir.

1958-ci ildən Dağıstanda jurnalistika ilə məşğul olan B.Səlimov qəzet və jurnal redaksiyalarında, televiziyada şöbə müdiri, məsul katib, redaktor vəzifələrində çalışmışdır. Dağıstan Dövlət Universitetinin filologiya fakültəsini bitirən Bayram Səlimovun şeirləri 1946-cı ildən dövri mətbuatda çap olunur.

Bayram Səlimovun Mahaçqalada, Bakıda, Moskvada, Alma-Atada 40 kitabı çap olunmuşdur. "Mübarizə yollarında", "Qanadlar", "Qızılgülün mahnıları", "Şahin yuvası", "Qoca kitab", "Bağışla, insan", "Günəşi dəvət", "Mahnı kəndə qayıtdı", "Arı yolu", "Niyə Qafqazda aslan yoxdur?", "Səhər sübhdən", "Qartal zirvəsi", "Yuxusu yoxdur çinarın", "Biçilmiş cərgələr", "Tanışlar" kimi kitabları ona şöhrət gətirmişdir. Şairin 10-dək şeir kitabı rus dilində çap olunmuşdur.

Moskvanın "Literaturnaya qazeta", "Literaturnaya Rossiya" qəzetlərində, "Krokodil" jurnalında şeirləri müntəzəm çap olunan şair "Literaturnaya qazeta"nın "Qızıl buzov" mükafatının laureatıdır.

Nizami Gəncəvinin, Kosta Xetagurovun, Cambulun, Səməd Vurğunun, Süleyman Rüstəmin, Rəsul Həmzətovun şeirlərini ləzgi dilinə çevirən Bayram Səlimovun özünün əsərləri rus dilinə, Dağıstan xalqlarının dillərinə tərcümə olunmuşdur. 1970-ci ildə Alma-Atada şairin "Qartal ucalığı" kitabı qazax dilində çapdan çıxmışdır.

Bayram Səlimov Zabit Rizvanovla birlikdə ləzgi xalqının "Şarvili" eposunu toplayıb, kitab kimi çap etdirmişdir.

RF-nin Yazıçılar İttifaqının üzvü olan Bayram Səlimova 1999-cu ildə yüksək fəxri ad - "Dağıstanın xalq şairi" adı verilmişdir.

## ЛЕЗГИ НЯМЕТ

***Лезги поэзиядиз хци руьгь гъайи, хайи чIал вилик тухун патал ара датIана женг чIугур Лезги Нямет вичин цIарар цIай-ялав тир шаир хьиз халкьдин рикIе гьатна.***

Мамедалиев Нямет Нифталидин хва 1932-йисан 20-майдиз КцIар райондин ЭчIехуьре дидедиз хьана. Юкьван мектебдин 8-синиф куьтягьна Бакудиз фейи, ина училище акьалтIарай ам Азербайжандин Педагогикадин Институтдин филологиядин факультетдик экечIна.



*(1932-1986)*

1956-йисуз институт акьалтIарай жегьил КцIариз хтана. Вурварин хуьруьн ва Самур поселокдин юкьван мектебра муаллимвал авур ада, гуьгъуьнлай вичин уьмуьрдин эхирдалди КцIарин 3-нумрадин мектебда тарсар гана. Лезги Нямета гьеле юкьван мектебда кIелдайла шиирар кхьизвай. Адан сад лагьай шиир 1947-йисуз "Азербайжан генжлери" газетдин чинриз акъатнай. Гуьгъуьнлай адан шиирар Дагъустанда лезги чIалалди акъатзавай газет, журнал ва альманахра чап хьанай.

2006-йисуз Россиядин ИА-дин цивилизацияяр ва регионар илимдин меркездин секторди Ф.Беделован “Лезгийрин гьетерин дин” тӀвар ганвай I ктаб ва 2008-йисуз гьа тӀвар алаз II ктаб басма авуна. Фейруз Беделахтул РФ-дин писателрин ва журналистрин Союзрин уьзви я. Ам “Миф” романдин ва Лезгийрин СтӀал Сулейманан тӀваруних галай госмуздрамтеатрди сегьнеламишай “Филиал” ва “Часпар” комедийрин, “Аламаз” пьесадин, “Пачагьдин паб ва каталикос” тарихдин драмадин ва маса эсеррин автор я.

## FEYRUZ BƏDƏLOV

***“Samur” qəzetinin ilk redaktoru olmuş, sonralar müstəqil “Alpan” qəzetinə rəhbərlik etmiş Feyruz Bədəlova ləzgi dilində yazdığı “Mif” romanı böyük şöhrət gətirmişdir.***

Feyruz Abumüslüm oğlu Bədəlov 1949-cu ildə Qusar rayonunun Düztahir kəndində anadan olmuşdur. 1977-ci ildə o, Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirib, Azərbaycan KP MK-nın “Sovet kəndi” qəzetində müxbir və şöbə müdiri vəzifələrində işləmişdir.

Feyruz Bədəlov (Bədəlaxtul) 1992-ci ildən Bakıda ləzgi dilində nəşr olunan “Samur” qəzetinin baş redaktoru vəzifəsində çalışmış, sonradan müstəqil “Alpan” qəzetinin təsisçisi və redaktoru olmuşdur. O, 1994-cü ildən Cənubi Dağıstanın institutlarında müəllimlik fəaliyyəti ilə məşğuldur. Ləzgilərin qədim mədəniyyətinin bir qolu olan politeizm sahəsində elmi axtarışlar aparmış tarix elmləri namizədi F.Bədəlov “Ləzgi xalqının və dövlətinin tarixi: eramızdan əvvəl V - eramızın X yüzillikləri” (Dərbənd, 1998) və “Ləzgilərin çoxallahlıq dini” (Dərbənd, 2000) monoqrafiyalarının müəllifidir.

2006-cı ildə Rusiya Elmlər Akademiyasının sivilizasiyalar və regionlar elmi mərkəzinin Qafqaz bölməsi F.Bədəlovun “Ləzgilərin çoxallahlıq dini” adlı I və 2008-ci ildə eyniadlı II kitabını çap etmişdir. F.Bədəlov RF yazıçılar və jurnalistər ittifaqlarının üzvüdür.

O, 1993-cü ildə Bakıda çapdan çıxmış “Mif” romanının və Süleyman Stalski adına Ləzgi Dövlət Musiqili Dram Teatrının səhnələşdirdiyi “Filial”, “Sərhəd” komediyalarının, “Padşahın arvadı və katalikos” tarixi dramının və başqa əsərlərin müəllifidir.

## РИЗВАН РИЗВАНОВ



***ТIвар-ван авай кхьираг Ризван Ризвановаз бубадихъ - Забит Ризвановахъ галаз санал кхьей "Лезгийрин тарих" ктабди машгьурвал гъана.***

Ризван Забитан хва Ризванов 1954-йисуз КцIара дидедиз хьана. Ина юкьван мектеб куьтягьай ада, ДГУ-дин филологиядин факультет акьалтIарна, Дагъустанда ва Азербайжанда муаллимвал авуна. 1986-1996-йисара "Дагестанская правда" газетдин кьилин корреспондентвиле, жаваб-дар секретарвиле, гуьгъуьнлай Дагъустан Республикадин Госсоветдин пресс-секретарвиле, гуьгъуьнлай Дагъустан Республикадин Милли Сиясатдин, Информацийринни Къецепатан Алакъайрин Министерстводин отделдин начальниквиле кIвалахна. Алай вахтунда Р.Ризванов "Алай аям" ОАО-дин кьил я.

Р.Ризванова Забит Ризванован повестар ва "Шарвили" эпос урус чIалаз элкъуьрна, Москвада ва Магьачкъалада чапдай акъудна. Дагъустандин Гъукуматдин премиядин лауреат, РФ-дин медениятдин лайихлу кIвалахдар Ризван Ризванов лезгийрин тарихдикай, эдебиятдикай ва медениятдикай кхьенвай "Имам Шамилан кIвалах", "Фан дад", "Дагъустанда дяве" ктабрин, санлай 12 ктабдин автор я.

## RİZVAN RİZVANOV

***Adlı-sanlı jurnalist, şair-yazıçı Rizvan Rizvanova atası Zabit Rizvanovla birlikdə yazdığı "Ləzgilərin tarixi" kitabı şöhrət gətirmişdir.***

Rizvan Zabit oğlu Rizvanov 1954-cü ildə Qusar şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirmiş R.Rizvanov Dağıstan Dövlət Universitetinin filologiya fakültəsinin məzunudur. Uzun illər Dağıstanda və Azərbaycanda müəllimlik etmiş, 1986-1996-cı illərdə "Daqestanskaya pravda" qəzetinin baş müxbiri, məsul katibi, sonralar Dağıstan Respublikası Dövlət Şurasının mətbuat katibi işləmişdir. O, Dağıstan Respublikası Milli Siyasət, İnformasiya və Xarici Əlaqələr Nazirliyinin şöbə rəisi olmuşdur. Hazırda R.Rizvanov "İndiki dövr" ictimai təşkilatının rəhbəridir.

R.Rizvanov Zabit Rizvanovun povestlərini və "Şarvili" eposunu rus dilinə tərcümə edib Moskvada və Mahaçqalada çap etdirmişdir. Dağıstanın Dövlət mükafatı laureatı, Rusiya Federasiyasının əməkdar mədəniyyət işçisi R.Rizvanov ləzgilərin tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bağlı "İmam Şamilin işi", "Çörəyin dadı", "Dağıstanda müharibə" və sair kitabların, üst-üstə 12 kitabın müəllifidir.

## ГЬАЖИБАЛА ЯРГУНВИ



***Лезги чIалал рикI алай, вичин шиирра хайи чIалан тIям хуьз алахъзавай Гьажибала Яргунви са шумуд ктабдин автор я.***

Гьажибала Мирзедин хва Къафланов 1938-йисуз КцIар райондин Яргун хуьре дидедиз хьана. Бакуда Гъуьлерин мектеб акьалтIарай ада гъуьлерал матросвиле, моториствиле, кьилин электриквиле ва маса везифайрал кIвалахна. 1995-1998-йисара Гь.Яргунвиди "Азернешр"да лезги литературадин отделдин редакторвиле кIвалахна.

Жегьил чIавалай кхьинрив эгечIай Гьажибала Яргунвидин шиирар мукьвал-мукьвал Азербайжандинни Дагъустандин газетрин чинриз, кIватIалриз акъатна. Ам "Муштулух", "Бахтлу рехъ", "Генерал Абилов", "Асиррин эсер ва я хушбахтвилин ачарар" ктабрин, "Илимдин кукIушриз" монографиядин (Элман Халиловахъ галаз санал) автор я. Гь.Яргунви гьакIни 1997-йисуз "Азернешрди" басма авур "Шагьдагъдин гъетер" кIватIал туькIуьрайди ва редакторни я.

## HACIBALA YARGUNVİ

***Ləzgi dilinin vurğunu, şeirlərində doğma dilin gözəlliyini qoruyub saxlamağa çalışan Hacıbala Yargunvi bir neçə kitabın müəllifidir.***

Hacıbala Mirzə oğlu Qaflanov 1938-ci ildə Qusar rayonunun Həzrə kəndində anadan olmuşdur. Bakı Dənizçilik Məktəbini bitirib, Xəzər Gəmiçiliyi İdarəsinin gəmilərində matros, motorçu, elektrik, baş elektrik və başqa vəzifələrdə işləmişdir. 1995-1998-ci illərdə "Azərnəşr"də ləzgi ədəbiyyatı üzrə redaktor vəzifəsində çalışmışdır.

Hacıbala Yargunvinin şeirləri gənc yaşlarından Azərbaycanın və Dağıstanın qəzet və jurnallarında, ədəbi almanaxlarda çap olunur. H.Yargunvi "Muştuluq", "Səadət yolu", "General Əbilov", "Əsrlərin əsəri və ya səadət açarı" adlı bədii kitabların və "Elmin zirvələrinə doğru" adlı monoqrafiyanın (Elman Xəlilovla birgə) müəllifidir. O, həmçinin 1997-ci ildə "Azərnəşr" tərəfindən çap olunmuş "Şahdağın ulduzları" almanaxının tərtibçisi və redaktorudur.

## ЭТИБАР СТӀУРВИ



***Азербайжанда сифте яз газетрин кӀватӀал Этибар СтӀурвиди арадиз гъана.***

Ада 1994-йисуз "Маркетинг сентр Стур" фирма ва "Супер маркет" газет арадал гъана. Газетрин группадик "Гъафте", "Неделя" газетар, "Маркет", "Супер маркет ТВ", "СМ-Латин" программайрин газетар, "Комсомольская правдадин" Азербайжанда акъудзавай издание акатзава. Алай вахтунда Э. СтӀурвиди "Супер Маркет" газетрин группадин директоррин кӀватӀалдин седривиле, "Гъафте" ва "Неделя" газетрин кьилин редакторвиле кӀвалахзава.

Багъиров Этибар Надиран хва 1966-йисуз КцӀар райондин СтӀуррин хуьре дидедиз хьана. КцӀарин 1-нумрадин мектеб куьтягьна, Азербайжандин НафтӀадинни Химиядин Институтдик экечӀай ада, Москвадин Губкинан тӀварунихъ галай НафтӀадинни Газдин Институт акьалтӀарна. Азербайжандин ИА-да кӀвалахал акъвазай Э.СтӀурвиди 1992-йисуз "Лезгийрин тарих" темадай международный конференция кьиле тухвана, 1993-1994-йисара чи республикада "Комсомольская правда" газетдин мухбирвал авуна.

Э.СтӀурви азербайжан, урус ва лезги чӀаларал кхьенвай "Тагьиредин кьисас", "Гъетерин фалар", "СтӀурикай ктаб", "Буба", "Чи дагъларин бег", "Бунт къарагъарайди ва я ялгъузвиле фейи са йис" ктабрин автор я.

## ETİBAR STURVİ

***Etibar Sturvi Azərbaycanda ilk dəfə olaraq qəzetlər qrupunu yaratmış qələm sahibidir.***

Etibar Sturvi 1994-cü ildə "Marketinq sentr Stur" firmasını və "Super Market" qəzetini təsis edərək, onlara rəhbərlik etmişdir. Qəzetlər qrupuna "Həftə" və "Nedelya" ictimai-siyasi qəzetləri, "Market", "Super Market TV" və "SM-Latin" kimi proqram həftəlikləri, "Komsomolskaya pravda" qəzetinin Azərbaycan nəşri də aiddir. Hazırda E.Sturvi "Super Market" qəzetlər qrupu direktorlar şurasının sədri, "Həftə" və "Nedelya" qəzetlərinin baş redaktorudur.

Bağırov Etibar Nadir oğlu 1966-cı ildə Qusar rayonunun Sudur kəndində anadan olmuşdur. Qusar şəhər 1 saylı orta məktəbini bitirib, Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş, Qubkin adına Moskva Neft və Qaz İnstitutunda təhsilini tamamlamışdır. 1990-cı ildə təyinatla Azərbaycan EA-ya göndərilmişdir. E.Sturvinin təşəbbüsü ilə 1992-ci ildə Azərbaycan EA-da "Ləzgilərin tarixi" adlı beynəlxalq konfrans keçirilmişdir. 1993-1994-cü illərdə o, "Komsomolskaya pravda" qəzetinin Azərbaycan üzrə müxbiri işləmişdir.

E.Sturvi Azərbaycan, rus və ləzgi dillərində qələmə aldığı "Tahirənin intiqamı", "Ulduz falları", "Sudur haqqında kitab", "Buba", "Bizim dağların bəyi", "Qiyamçı və ya tənhalıqda keçən il" kitablarının müəllifidir.

## АКИФ АЛИХАНОВ



*(1956-1989)*

***33 яшинда дуьньядилай фейи Акиф Алихановаз вичин сифте ктаб акван кьисмет хьанач.***

Акиф Низамеддинан хва Алиханов КцӀар райондин Аваран хуьре дидедиз хьана. Ина юкьван мектеб, Москвада М.Горькийдин тӀварунихъ галай Литературадин Институт акьалтӀарай шаирди "Къизил Къусар" газетдин мухбирвиле кӀвалахнай. Адан шиирар Дагъустандин "Кард", "Дуствал", "Литературадин Дагъустан" журналра, гьакӀни Бакуда ва Алма-Атада басма хьайи "Бахтавар чил" ва "Булахрин гьуьлер" алманахра гьатнава. 1989-йисуз А.Алиханован "РикӀин гаф" ктаб чапдай акъатна.

## AKİF ƏLİXANOV

***33 yaşında dünyadan köçmüş Akif Əlixanova ilk kitabını görmək səadəti nəsib olmadı.***

Akif Nizaməddin oğlu Əlixanov Qusar rayonunun Avaran kəndində anadan olmuşdur. Kənd orta məktəbini və Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirmiş, "Qızıl Qusar" qəzetində müxbir vəzifəsində çalışmışdır. Onun şeirləri Dağıstanın "Kard", "Dostluq", "Ədəbi Dağıstan" jurnallarında, eləcə də Bakıda və Dağıstanda çıxan "Bəxtəvər torpaq" və "Bulaqların dənizləri" almanaxlarında dərc olunmuşdur. 1989-cu ildə A.Əlixanovun "Ürək sözü" kitabı çapdan çıxmışdır.

## ВИДАДИ СЕВЗИХАНОВ



***"Къизил Къусар" газетдин редакцияда кIвалахал акъвазай Видади Севзиханов ина кьилин редактордин дережадиз хкаж хьана.***

Видади Севзиханан хва Севзиханов 1954-йисуз КцIар райондин Яргун хуьре дидедиз хьана. Ина юкьван мектеб акьалтIарна, 1972-йисуз Азербайжандин Гьукуматдин Университетдин журналистикадин факультетдик экечIна. Инаг куьтягьна "Къизил Къусар" газетдин редакцияда кIвалахал акъвазай жегьил мухбирвиляй кьилин редакторвиле кьван хкаж хьана.

Вичихъ хци къелем, гегьенш дуьньякьатIунар авай В.Севзиханова газетдиз цIийи нефес гъана. Адан алахъунрин нетижа яз алай вахтунда "КцIар Къусар" газет чи республикадин районрин виликкьилик квай печатдин органрикай сад хьиз сейли я.

2000-йисуз В.Севзиханова Бакуда "Уьмуьрар, легьзеяр" тIвар ганвай очеркринни гьикаяйрин ктаб чапдай акъудна. Ам цIудалай гзаф чкадин авторрин ктабрин редакторни я.

Азербайжандин милли пресса вилик тухунин карда алахъунрай 2010-йисуз республикадин Президент Илгьам Алиеван серенжемдалди Видади Севзихановаз "Азербайжан Республикадин лайихлу журналист" гьуьрметдин тIвар гана.

## VİDADİ SEVZİXANOV

***Qusarda çıxan "Qızıl Qusar" qəzetində əmək fəaliyyətinə başlayan Vidadi Sevzixanov burada müxbirlikdən baş redaktor vəzifəsinə kimi yüksəlmişdir.***

Vidadi Sevzixan oğlu Sevzixanov 1954-cü ildə Qusar rayonunun Həzrə kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirib, 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuşdur. Universiteti başa vurub, Qusar rayonunun "Qızıl Qusar" qəzeti redaksiyasında əmək fəaliyyətinə başlayan gənc burada müxbirlikdən baş redaktor vəzifəsinə kimi yüksəlmişdir.

İti qələm sahibi olan, geniş dünyagörüşünə malik V.Sevzixanov qəzetə yeni nəfəs gətirmişdir. Qəzetin uğurları naşir, redaktor, aparıcı jurnalist kimi Vidadi Sevzixanovun zəhmətinin nəticəsidir. Hazırda "KцIар Qusar" qəzeti onun səyləri sayəsində respublikamızın rayon qəzetləri arasında səviyyəsi ilə seçilir.

2000-ci ildə V.Sevzixanovun Bakıda "Ömürlər, anlar" adlı oçerk və hekayələr kitabı çapdan çıxmışdır. O, həmçinin ondan çox yerli müəllifin kitablarının redaktorudur.

Azərbaycan milli mətbuatının inkişafındakı xidmətlərinə görə 2010-cu ildə dövlət başçısının sərəncamı ilə Vidadi Sevzixanova "Azərbaycan Respublikasının əməkdar jurnalisti" fəxri adı verilmişdir.

## НИЯЗ-АЛИ ПАШАЕВ



***(1937-2000)***

***Адан шиирар везинлувилелди, чIалан къенивилелдини фасагьатлувилелди тафаватлу я.***

Пашаев Нияз-Али 1937-йисуз КцIар райондин Кьуьхуьруба хуьре дидедиз хьана. Яргъал йисара бухгалтервиле кIвалахай адан шиирар Азербайжандин ва Дагъустандин газетринни журналрин чинриз, гьакIни "Самурдин лепеяр" кIватIалдиз акьатна.

1972-йисуз Бакуда лезги чIалал вичин "Жигъир" тIвар алай сад лагьай ктаб басма хьайи Н.Пашаев чIехи алакьунар авай шаир тир. Вичихъ кьвед лагьай ктаб акъуддай мумкинвилер тахьай шаирдин гзаф шиирриз гьелени экв акунвач.

Н.Пашеев 2000-йисуз рагьметдиз фена.

## NİYAZ-ƏLİ PAŞAYEV

***Onun şeirləri oxunaqlığı, dilinin xalq dilinə yaxın olması və obrazlılığı ilə diqqəti cəlb edir.***

Qusar rayonunun Quxuroba kəndində 1937-ci ildə anadan olmuş Niyaz-Əli Paşayev uzun illər mühasib işləmişdir. Onun şeirləri Azərbaycanın və Dağıstanın mətbuat orqanlarında və "Samurun ləpələri" almanaxında çap olunmuşdur.

1972-ci ildə Bakıda ləzgicə "Cığır" adlı ilk şeir kitabı çap olunmuş Niyaz-Əli Paşayev istedadlı şair idi. Maddi çətinliklər üzündən növbəti kitabını çap etdirə bilməyən Niyaz-Əli Paşayevin zəngin ədəbi irsi qalmışdır.

N.Paşayev 2000-ci ildə vəfat etmişdir.

## ЮНУС БАГЪИРОВ



***Хуьре уьмуьр гьална, муаллимвал авур Юнус Багъирова шумудни са ктаб кхьена чапдай акъудна.***

КцIар райондин ЭчIехуьре дидедиз хьайи Юнус Багъирова 1946-йисуз АПИ-дин географиядин факультет акьалтIарайдалай гуьгъуьниз ТIигьир, ТIигьиржал, Ширвановка хуьрера кIвалахна ва гуьгъуьнлай ам хайи хуьруьз хтана. Муаллимвиле, завучвиле, директорвиле кIвалахай, исятда пенсиядиз фенвай Юнус муаллим лезги ва азербайжан чIаларал кхьизвай зари я.

Хъуьруьнрал рикI алай тIигьиржалвийрин 2 агъзурдав агакьна хкетар кIватIай, хайи хуьре эчIехуьруьнвийрин кьисаяр къелемдиз къачур ада халкьдин мецин эсеррикай ибарат тир зурба ктаб арадиз гъанва. Идалай гъейри ада “Инсан гьикI акьуллу ва марифатлу жеда”, “Уьмуьр ва гьакъикъат” тIварар ганвай ктабарни кхьенва. Адан “Гьикметнаме” эсерда вичи туькIуьрнавай 1105 мисални гьатнава. Ю.Багъирован “Михьи яд” ва “Акьуллу инсандин шартIар” тIварар ганвай поэмаяр чапдай акьатнава.

## YUNUS BAĞIROV

***Kənddə ömür sürüb, müəllimlik etmiş Yunus Bağırov neçə-neçə əsər yazıb oxucularına çatdırmışdır.***

Qusar rayonunun Əcəxür kəndində anadan olmuş Yunus Bağırov 1946-cı ildə APİ-nin coğrafiya fakültəsini bitirmişdir. Düztahir, Tahircal və Şirvanovka kəndlərində işləyib, doğma kəndinə qayıtmışdır. Müəllim, direktor müavini və direktor vəzifələrində çalışmış Y.Bağırov ləzgi və Azərbaycan dillərində yazıb-yaradır.

Şirin lətifələri ilə tanınan Tahircal kəndində o, 2 min lətifə, Əcəxürdə isə yüzlərlə rəvayət toplamışdır. O, xalq hikmətini əks etdirən müdrik sözlərdən ibarət sanballı bir kitabı çapa hazırlamışdır.

Y.Bağırov çapdan çıxmış “İnsan necə ağıllı və mədəni ola bilər”, “Ömür və həqiqət” kitablarının müəllifidir. “Hikmətnamə” kitabına özünün yaratdığı 1105 məsəli də əlavə edən müəllifin son illər daha iki kitabı işıq üzü görmüşdür. Bunlar “Təmiz su” və “Ağıllı olmağın şərtləri” poemalarıdır.

## ГЬАСАН ХАСИЕВ



***“КцIара кхьей ктаб” эсердалди литературадиз атай къелемэгьли са шумуд ктабдин автор я.***

Хасиев Гьасан Азизбаладин хва 1952-йисуз КцIар райондин Зиндanмуругъ хуьре дидедиз хьана. КцIар шегьердин 1-нумрадин юкьван мектеб ва Азербайжандин Хуьруьн Майишатдин Институт акьалтIарна. Са кьадар вахтунда Энгельсан тIваруних галай совхозда кIвалахна. 1976-йисуз Журналиствилин Сеняткарвилин Институтда чирвилер къачуна КцIар райондин чкадин радиодин гунугрин редакцияда редакторвиле, гуьгъуьнлай кьилин редакторвиле кIвалахна.

Азербайжандин Кхьирагрин кIватIалдин уьзви тир Гь.Хасиев азербайжан ва лезги чIаларал чапдай акъуднавай “КцIара кхьенвай ктаб”, “Къулан цIай”, “Шагь дагъдин савкьват”, “КцIарин шегьидар”, “Уьмуьрди гьахъ-гьисаб тIалабзава”, “Лайихлу уьмуьрдин рехъ”, “РикIера амай ван” ктабрин автор я.

## HƏSƏN XASİYEV

***Ədəbiyyata “Qusarda yazdığım kitab” əsəri ilə gəlmiş müəllifin bir neçə kitabı işıq üzü görüb.***

Həsən Əzizbala oğlu Xasıyev 1952-ci ildə Qusar rayonunun Zindanmuruq kəndində anadan olmuşdur. Qusar şəhər 1 saylı orta məktəbini və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. H.Xasıyev bir müddət Engels adına sovxozda baş mütəxəssis kimi çalışmışdır. Jurnalistikaya olan marağı onu 1976-cı ildə Jurnalist Sənətkarlığı İnstitutuna gətirib çıxarmışdır. Burada bilgilər aldıqdan sonra o, Qusar rayon yerli radio verilişləri redaksiyasında redaktor, sonradan isə baş redaktor vəzifəsində çalışmışdır.

Azərbaycan Yazıçılar Birliyinin üzvü H.Xasıyev Azərbaycan və ləzgi dillərində çap olunmuş “Qusarda yazdığım kitab”, “Ocağın odu”, “Şahdağ sovqatı”, “Qusar şəhidləri”, “Ömür hesabat istər”, “Şərəfli həyat yolu”, “Yaddaşlarda yaşayan səs” kitablarının müəllifidir.

## ЗЕРИФА КЬАСУМОВА



***Зерифади бендер лугъуз эгечIайла, и карди садни мягьteларнач. СтIура бендер лугъуз тежер инсанар бажагьат жеди. Ингье Зерифадин чирвилер деринбур хьана.***

Зерифа Кьасуман руш Кьасумова 1956-йисуз КцIар райондин СтIур хуьре дидедиз хьана. Халкьдин мецин эсерри адаз вичин яратмишунрин рехъ тайинардай мумкинвал гана. Дагъустандин Гьукуматдин Университетдин филологиядин факультетда чирвилер къачур Зерифадин шиирар Дагъустандинни Азербайжандин газетрин ва журналрин чинриз акъатна. Абур кIелайбуру поэзиядиз вичин хатI, вичин рехъ авай шаир атанвайди кьатIана.

1990-йисуз университет акьалтIарай Зерифади Къубадин Къырмызы къесебедин юкьван мектебда урус чIалан тарсар гузва. 1988-йисуз шаирдин азербайжан чIалал “Шуша ферядлары” тIвар ганвай ктаб чапдай акъатна. Ватандин са чIук квадарнавай шушавийрин гьарай тир а ктаб лезги шаирдин таъсибвал къалурзавай зурба эсер я. Гила Зерифади дидед чIалал вичин шииррин ктаб чапдиз гьазурнава.

## ZƏRİFƏ QASIMOVA

***Zərifə bayatı deməyə başlayanda bu, heç kəsi təəccübləndirmədi, çünki Sudurda bayatı deməyi bacarmayan az tapılar. Lakin Zərifənin bilgiləri daha dərin oldu.***

Zərifə Qasım qızı Qasımova 1956-cı ildə Qusar rayonunun Sudur kəndində anadan olmuşdur. Folklora məhəbbət ona yaradıcılıq yolunu müəyyənləşdirməkdə kömək etmişdir. Mahaçqalada Dağıstan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almış qızın şeirləri Azərbaycan və Dağıstan mətbuatında görünən kimi, oxucular poeziya aləminə öz dəst-xətti olan şairin gəldiyini anladılar.

1990-cı ildə universiteti bitirən Zərifə o vaxtdan Quba rayonunun Qırmızı qəsəbə yaşayış sahəsindəki orta məktəbdə müəllim işləyir. 1988-ci ildə onun Azərbaycan dilində “Şuşa fəryadları” adlı kitabı çapdan çıxmışdır. Vətənin bir parçasını itirmiş şuşalıların harayı olan bu kitab ləzgi şairinin vətənpərvərlik hissləri ilə qələmə aldığı sanballı əsərdir. Hazırda Zərifə Qasımova ləzgi dilində şeirlər kitabını çapa hazırlamışdır.

## МАГЬСИМ МАГЬСИМОВ



***Вичин юмордин шиирралди сейли тир Магьсим Магьсимов халкьдин руьгьда кхьизвай къелемэгьлийрикай я.***

Магьсимов Магьсим Нуьгъбаладин хва 1947-йисуз КцIар райондин КIуфуба хуьре дидедиз хьана. КцIар шегьердин I-нумрадин юкьван мектеб акьалтIарна, Баку ва Алма-Ата шегьерра кIелун давамарна. КцIар райондин финотделда инспекторвиле, статистикадин идарада кьилин инженервиле, Дагъустан Республикадин Къизилюрт шегьерда инженервиле кIвалахна. 1979-йисалай хайи хуьруьз хтана экспедиторвиле, кьилин экономиствиле ва беледийедин седривиле кIвалахна.

Магьсим Магьсимова 1965-йисалай азербайжан ва лезги чIаларал шиирар кхьизва. Бакуда 2000-йисуз шаирдин сад лагьай ктаб (“Зи рикIин гьарай”) чапдай акъатна. Адан “Хиялар” тIвар ганвай кьвед лагьай ктаб 2007-йисуз “Араз” чапханади басма авуна.

## MƏHSİM MƏHSİMOV

***Yumoristik şeirləri ilə oxucuların rəğbətini qazanmış Məhsim Məhsimov xalq şeri üslubunda yazan qələm sahiblərindəndir.***

Məhsimov Məhsim Nuhbala oğlu 1947-ci ildə Qusar rayonunun Kufoba kəndində anadan olmuşdur. Qusar şəhər 1 saylı orta məktəbini bitirib, Bakı və Alma-Ata şəhərlərində ali təhsil almışdır. Qusar rayon maliyyə şöbəsində müfəttiş, rayon statistika idarəsində baş mühəndis, Dağıstan Respublikasının Qızılyurd şəhərində mühəndis işləmişdir.

Məhsim Məhsimov 1979-cu ildən doğma kəndinə qayıtmış, burada ekspeditor, baş iqtisadçı, bələdiyyə sədri vəzifələrində çalışmışdır. İstedadlı şair 1965-ci ildən ləzgicə şeirlər yazır. M.Məhsimovun “Qəlbimin harayı” adlı ilk kitabı 2000-ci ildə, “Xəyallar” adlı ikinci kitabı 2007-ci ildə Bakıda “Araz” nəşriyyatında çapdan çıxmışdır.

## ГЬЛБЕС АСЛАНХАНОВА



***Лезги чIалал "ЧиРагъ" тIвар ганвай литературадин журнал акъудзавай Гуьлбес Асланханова лирик шииралди поэзиядиз атана.***

Асланханова Гуьлбес Зафеддинан руш 1981-йисуз КцIар райондин Манкъулидхуьре дидедиз хьана. Хуьруьн юкван мектеб ва Дагъустандин Гьукуматдин Университетдин Бакудин филиал акьалтIарна, ДГУ-дин аспирантурадик экечIай ада 2007-йисуз Магьачкъалада "Лезги ва азербайжан чIалара союзар ва союзвилин гафар гекъигунивди ахтармишун" темадай диссертация хвена ва филологиядин илимрин кандидатвилин тIвар къачуна.

2009-йисалай "ЧиРагъ" журналдин кьилин редактор тир Гуьлбес Асланханова Бакуда лезги чIалал чапдай акъудай "Вун рикIеваз" тIвар ганвай шииррин кIватIалдин ва чи тIвар-ван авай журналист-кхьираг Муьзеффер Меликмамедован уьмуьрдин рекьикайни яратмишунрикай ихтилатзавай "ЧIехи лезги" ктабдин автор я.

## GÜLBƏS ASLANXANOVA

***Ləzgicə "ÇiRağ" adlı ədəbi-bədii jurnal nəşr edən və onun baş redaktoru olan Gülbəs Aslanxanova ədəbiyyata lirik şeirlərlə gəlmişdir.***

Aslanxanova Gülbəs Zafəddin qızı 1981-ci ildə Qusar rayonunun İmamqulukənd kəndində anadan olmuşdur. Kənd orta məktəbini və Dağıstan Dövlət Universitetinin Bakı filialını bitirmişdir. DDU-nun aspiranturasını bitirib, 2007-ci ildə Mahaçqalada "Ləzgi və Azərbaycan dillərində bağlayıcıların və bağlayıcı sözlərin müqayisəli tədqiqi" mövzusunda dissertasiya müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsini almışdır.

2009-cu ildən "ÇiRağ" adlı ədəbi-bədii jurnalın baş redaktoru olan Gülbəs Aslanxanova Bakıda ləzgi dilində çapdan çıxmış "Qəlbimdəsən" adlı şeir toplusunun və tanınmış yazıçı-jurnalist Müzəffər Məlikməmmədovun həyat və yaradıcılığından bəhs edən "Böyük ləzgi" kitabının müəllifidir.

## МЕДЕТ ЭРЗИМАНОВ



***Къедалди вичин са ктабни акъатнавачтIани, кIелдайбурун Медет Эрзиманован шиирралгзаф рикI ала. Адан поэзия деринвилелди, тешпигьрин иервилелди тафаватлу я.***

Эрзиманов Медет Судябеган хва 1951-йисуз КцIар райондин Манкъулидхуьре дидедиз хьана. Хайи хуьре юкьван мектеб акьалтIарна.

М.Эрзиманов вичихъ чIехи алакьунар авай шаир тирди адан шииррихъ галаз таниш хьайибуру гьасятда кьатIана. Вичин хатI, вичин махсус образар авай шаирди гзафбурун рикIера гел туна. Адан эсерар Азербайжандин ва Дагъустандин газетриз, журналриз, кIватIалриз акъатна. Лезги чIалан миже квай, рикIел аламукьдай шиирралди гьуьрмет къазанмишай Медет Эрзиманован гзаф чIалар поэзиядал рикI алайбуру хуралай кIелзава. Шаир Худат шегьерда яшамиш жезва.

## MƏDƏT ƏRZİMANOV

***Bu günə kimi bircə kitabı da çapdan çıxmasa da, oxucular Mədət Ərzimanovun şeirlərini çox sevirlər. Onun poeziyası dərinliyi, mənalılığı, təşbehlərinin gözəlliyi ilə seçilir.***

Ərzimanov Mədət Sudyabəy oğlu 1951-ci ildə Qusar rayonunun İmamqulukənd kəndində anadan olmuşdur. Doğma kəndində orta məktəbi bitirmişdir.

Onun istedadı ilk şeirlərindən üzə çıxmışdır. Öz dəst-xətti ilə seçilən şairin şeirləri oxucuların rəğbətini qazanmışdır. Gənclik illərindən yaradıcılıqla məşğul olan şairin əsərləri Azərbaycanın və Dağıstanın mətbu orqanlarında və ədəbi almanaxlarda çap olunmuşdur. Ləzgi dilinin rəngarəng və zəngin çalarlarından məharətlə istifadə edən Mədət Ərzimanovun bir çox şeirlərini poeziya həvəskarları əzbərdən deyirlər. Şair Xudat şəhərində yaşayır.

## ЭЙВАЗ ГЬУЛАЛИЕВ



***Гзаф лезги шаиррин шиирар хьиз, вичин чIаларни хуралай кIелда Эйваз Гьулалиева. И алакьунралди вири вичихъ ялда ада.***

Кцlар райондин Чпир хуьре 1969-йисуз дидедиз хьайи Эйваз Теймуран хва Гьулалиев юкьван мектеб акьалтIарайдалай гуьгъуьниз Азербайжандин Педагогикадин Университетдин математикадин факультетдик экечIна. Университет тафаватлувилелди куьтягьай Э.Гьулалиева Чпир ва Пирал хуьрерин мектебра муаллимвал ийизва. Аялриз дериндай чирвилер гузвай ам райондин тIвар-ван авай муаллимрикай я.

Аял чIавалай поэзиядал рикI алай Эйвазан шиирар Азербайжандин ва Дагъустандин газетрин, журналрин чинриз акъатзава. Хайи чилин, хайи халкьдин ва дидед чIалан таъсиб чIугвазвай шаирдин и кIанивал адан шииррай хъсандиз кьатIуниз жеда. Адахъ мад са алакьун ава. Чка атайла вичин ва маса лезги шаиррин чIалар хуралай кIелда.

Эйваз Гьулалиев "Цуьк аламаз хел хайи тар" ва "Алахъдач зун шеле кIватIиз епинал..." ктабрин автор я.

## EYVAZ GÜLƏLİYEV

***Bir çox şairlərin şeirləri kimi, öz şeirlərini də əzbərdən deyir Eyvaz Güləliyev. Bu istedadı ilə hamını özünə cəlb edir.***

Qusar rayonunun Cibir kəndində 1969-cu ildə anadan olmuş Eyvaz Teymur oğlu Güləliyev orta məktəbi bitirib, Azərbaycan Pedaqoji Universitetinin riyaziyyat fakültəsinə daxil olmuşdur. E.Güləliyev buranı fərqlənmə diplomu ilə bitirdikdən sonra Cibir və Piral kənd məktəblərində müəllim işləyir. O, peşəsinə vurğun olan adlı-sanlı müəllimlərdəndir.

Uşaqlıqdan poeziyaya böyük həvəsi olan Eyvazın şeirləri Azərbaycanın və Dağıstanın qəzet və jurnallarında çap olunur. Döğma yurdunun, ana dilinin təəssübkeşi olan şairin vətənpərvərlik hissləri onun şeirlərində aydın üzə çıxır. Eyvazın daha bir istedadı var. Özünün və sevdiyi şairlərin şeirlərini əzbərdən elə gözəl deyir ki!

Eyvaz Güləliyevin ləzgicə "Çiçək açıb sınan budaq" və "Yükümü ipə yığmaram…" kitabları çapdan çıxmışdıir.

## НАЗИР ГЬУЛМЕТОВ



***Самур-Абшерон къаналдин идарада кIвалахзавай Назир Гьулметов хъсан инженер хьунилай гъейри алакьунар авай шаир хьизни сейли я.***

Лезги чIалалди кIел-кхьинал рикI алай Н.Гьулметован шиирар аял чIавалай Азербайжандин ва Дагъустандин газетрин чинриз акъатна.

Гьулметов Назир Агъамегьамедан хва 1949-йисуз КцIар райондин Агъа ТIигьиржалрин хуьре дидедиз хьана. Ада Бакудин Луькбатан поселокда юкьван мектеб, Сумгаит шегьерда Политехнический техникум акьалтIарна.

Назир Гьулметован сад лагьай шииррин ктаб ("Шаламрин гелер") 1994-йисуз Бакуда чапдай акъатна. Шаирдин "Ашукь я зун" тIвар ганвай кьвед лагьай ктаб 2009-йисуз Дербентда басма хьана.

## NAZİR GÜLMƏTOV

***1973-cü ildən Samur-Abşeron Kanalı idarəsində işləyən Nazir Gülmətov yaxşı mühəndis olmaqla yanaşı, istedadlı şair kimi də tanınır.***

Ləzqi dilində yazıb-yaradan Nazir Gülmətovun şeirləri hələ uşaqlıqdan Azərbaycanın və Dağıstanın mətbuat orqanlarında çap olunur.

Nazir Ağaməhəmməd oğlu Gülmətov 1949-cu ildə Qusar rayonunun Aşağı Tahircal kəndində anadan olmuşdur. Bakının Lökbatan qəsəbəsində orta məktəbi, Sumqayıt şəhərində Politexnik texnikumunu bitirmişdir.

Nazir Gülmətovun "Çarıq izləri" adlı birinci kitabı 1994-cü ildə Bakıda işıq üzü görmüşdür. Şairin "Mən aşiqəm" adlı ikinci kitabı 2009-cu ildə Dərbənddə çapdan çıxmışdır.

## ВАКЪИФ МУЬШКУЬРВИ



***Хачмазин телерадиода лезги гунугрин редакциядин редакторвиле кӀвалахай Вакъиф Муьшкуьрвидин алакьунар ада гьазурай репортажралди винел акъатнай.***

Гьажагъаев Вакъиф Абейдуллагьан хва 1952-йисуз Бакуда дидедиз хьана. 1955-йисуз абурун хизан КцӀар райondин Хьилерин хуьруьз куьч хьана. Ина юкьван мектеб акьалтӀарна, М.Ф.Ахундован тӀварунихъ галай Азербайжандин Гьукуматдин Педагогикадин Институтдик экечӀна. Институт акьалтӀарна Желилабад районда муаллимвал авур ада 1995-йисалай Худат шегьердин 3-нумрадин юкьван мектебда урус чӀалан ва тарихдин тарсар гузва. В.Муьшкуьрвиди 1990-1996-йисара Муьшкуьр Лезги Медениятдин Меркездиз регьбервал гана. 1993-1995-йисара ада Хачмазин аслу тушир телерадиодин компанида лезги гунугрин редакциядин редакторвиле кӀвалахна.

Жегьил чӀавалай шиирар кхьизвай В.Муьшкуьрвидин шиирар ва гьикаяяр Дагъустандин ва Азербайжандин газетрин, журналрин ва альманахрин чинриз акъатзава. Адан “Зи рикӀин тӀалар” тӀвар ганвай сад лагьай ктаб 2008-йисуз чап хьана.

## VAQİF MÜŞKÜRVİ

***Xaçmaz müstəqil teleradio verilişləri şirkətində ləzgi verilişləri redaksiyasının redaktoru vəzifəsində çalışmış Vaqif Müşkürvinin istedadı onun hazırladığı verilişlərdə üzə çıxdı.***

Hacağayev Vaqif Abeydullah oğlu 1952-ci ildə Bakıda anadan olmuşdur. 1955-ci ildə valideynləri ilə Qusar rayonunun Hil kəndinə köçmüş, burada orta məktəbi bitirmişdir. M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunda təhsil almış, Cəlilabad rayonunda müəllimlik fəaliyyətinə başlamışdır. 1995-ci ildən Xudat şəhər 3 saylı orta məktəbində rus dili və tarix fənnlərindən dərs deyir. 1990-1996-cı illərdə Vaqif Müşkürvi Müşkür Ləzgi Mədəniyyət Mərkəzinə rəhbərlik etmişdir. 1993-1995-ci illərdə o, Xaçmaz müstəqil teleradio verilişləri şirkətində ləzgi verilişləri redaksiyasının redaktoru vəzifəsində çalışmışdır.

Gənc yaşlarından yaradıcılıqla məşğul olan V.Müşkürvinin şeir və hekayələri Azərbaycanın və Dağıstanın bir sıra mətbu orqanlarında çap olunmuşdur. Uzun illərdən bəri yaradıcılıqla məşğul olan müəllifin “Ürəyimin ağrıları” adlı ilk kitabı 2008-ci ildə Bakıda işıq üzü görmüşdür.

## ШАФИДДИН ГЕРЕЙХАНОВ



***2007-йисуз Бакуда Ш.Герейханован “Драмаяр” тӀвар ганвай сад лагьай ктаб чап хьана. Ктабда адан муьжуьд пьеса гьатнава.***

Шафиддин Агьмедан хва Герейханов 1937-йисуз КцӀар райондин ТӀигьиржалрин хуьре дидедиз хьана. Хуьре юкьван мектеб, Бакуда Азербайжандин Гьукуматдин Университет куьтягьна, яргъал йисара КцӀар шегьерда жуьреба-жуьре къуллугърал кӀвалахна.

Кхьинрив 1995-йисалай эгечӀай Ш.Герейханован шиирар “Самур”, “Лезги газет” ва “КцӀар” газетрин чинриз акъатна. Эхиримжи йисара авторди драмадин эсерар кхьизва. Абурукай “Нефс” пьеса Дагъустандин СтӀал Сулейманан тӀварунихъ галай лезгийрин госмуздрамтеатрди, “Ирид рушан диде” КцӀарин Гьукуматдин Лезги Театрди сегьнедал эцигна.

## ŞAFİDDİN GƏRƏYXANOV

***2007-ci ildə Şafiddin Gərəyxanovun “Dramlar” adlı ilk kitabı Bakıda çapdan çıxmışdır. Kitaba müəllifin səkkiz dram əsəri salınmışdır.***

Şafiddin Əhməd oğlu Gərəyxanov 1937-ci ildə Qusar rayonunun Tahircal kəndində anadan olmuşdur. Kənd orta məktəbini və Azərbaycan Dövlət Universitetini bitirib, uzun illər Qusar şəhərində müxtəlif vəzifələrdə çalışmışdır.

Yaradıcılıqla 1995-ci ildən məşğul olur. Şeirləri “Samur”, “Lezqi qazet” və “Qusar” qəzetlərində çap olunmuşdur. Son illər dram əsərləri yazmaqla məşğuldur. Onun “Nəfs” pyesi Dağıstan Respublikasının Stal Süleyman adına Ləzgi Musiqili Dram Teatrı, “Yeddi qız anası” pyesi isə Qusar Dövlət Ləzgi Dram Teatrı tərəfindən səhnələşdirilmişdir.

## ЭФРУЗ РЕГЬИМОВА

***Фолклордал рикI алай Эфруза вичини гьа стилда кхьизвай. Вахтсуз ажалди мурадар кьилиз акъуддай мумкинвал ганач шаирдиз.***



*(1951-2009)*

Эфруз Шихагьмедан руш Регьимова 1951-йисуз КцIар райондин Хуьрел хуьре дидедиз хьана. Ина юкьван мектеб акьалтIарна, Азербайжандин Гьукуматдин Университетдин ктабханачивилинни библиографиядин факультетда кIелна. 1978-йисалай ара датIана Ф.Куьчерлидин тIварунихъ галай Республикадин Гьукуматдин Аялрин Ктабханада ктабханачивиле, методиствиле кIвалахай Э.Регьимовади яргъал йисара и ктабханадин филиалдиз регьбервал ганай.

Жегьил чIавалай яратмишунрив машгъул тир Э.Регьимовадин шиирар, публицистикадин ва методикадин макъалаяр "Самур", "Медени-маариф", "КцIар" газетрин чинриз акъатнай. 2006-йисуз адан "Яран сувар" тIвар алай ктаб басма хьана.

## ƏFRUZ RƏHİMOVA

***Ləzgi folklorunun vurğuni idi Əfruz. Özü də həmin üslubda şeirlər yazırdı. Vaxtsız əcəl şairə arzularını həyata keçirməyə imkan vermədi.***

Əfruz Şixəhməd qızı Rəhimova 1951-ci ildə Qusar rayonunun Xürel kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirib, Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq-biblioqrafiya fakültəsində təhsil almışdır. 1978-ci ildən fasiləsiz olaraq F.Köçərli adına Respublika Uşaq Kitabxanasında kitabxanaçı və metodist işləmiş Ə.Rəhimova uzun illər həmin kitabxananın filial müdiri vəzifəsində çalışmışdır.

Gənc yaşlarından yaradıcılıqla məşğul olan Ə.Rəhimovanın Azərbaycan və ləzgi dillərində yazdığı şeirləri, publisist və metodiki məqalələri "Samur", "Mədəni-maarif", "Qusar" qəzetlərində, müxtəlif bədii toplularda çap olunmuşdur. 2006-cı ildə müəllifin ləzgi dilində "Bahar bayramı" adlı kitabı işıq üzü görmüşdür.

## ФЕХРЕДДИН ОРУЖОВ

***Фехреддин Оружов РФ-дин журналистрин кIватIалдин "Къизилдин лекь" премиядин лауреат я.***



Фехреддин Нежмеддинан хва Оружов 1958-йисуз КцIар райондин Ширвановка хуьре дидедиз хьана. Дагъустандин Гьукуматдин Университетдин химиядин факультет акьалтIарай ада яргъал йисара Азербайжандин ва Дагъустандин юкьван мектебра муаллимвал авуна. 1996-йисалай Дербентда яшамиш жезвай Ф.Оружов "Юждаг" университетдин муаллим я. Адаз "Дагъустандин 1998-йисан муаллим" лайихлу тIвар гана.

Ф.Оружов лезги ва урус чIаларал кхьизвай зари я. Адан урус чIалал "Цавал стIалар","Секиндиз хиве кьунар", "КкIалрал чиг", "РикIин зуларал" поэзиядинни прозадин кIватIалар чапдай акъатнава.

## FƏXRƏDDİN ORUCOV

***Fəxrəddin Orucov Rusiya Federasiyası Jurnalistlər İttifaqının "Qızıl qartal" mükafatının laureatıdır.***

Fəxrəddin Nəcməddin oğlu Orucov 1958-ci ildə Qusar rayonunun Şirvanovka kəndində anadan olmuşdur. Dağıstan Dövlət Universitetinin kimya fakültəsini bitirib uzun illər Azərbaycanın və Dağıstanın bir sıra orta məktəblərində müəllim işləmişdir. 1996-cı ildən Dərbənd şəhərində yaşayan F.Orucov "Yujdaq" universitetinin müəllimidir. O, "Dağıstanın 1998-ci ilin müəllimi" fəxri adına layiq görülmüşdür.

Fəxrəddin Orucov ləzgi və rus dillərində yazıb-yaradır. Onun rus dilində "Səma zərrələri", "Sakit etiraflar", "Qəlpələr üzərində şeh" və "Ürəyin parçaları" adlı şeir və nəsr kitabları çapdan çıxmışdır.

## ЛЕЗГИ БЕГЬЛУЛ



***Вичин шиирар цIийи образралди тафаватлу тир Лезги Бегьлула цIийи ктаб чапдиз гьазурнава.***

Лезги Бегьлул (Ибрагьимов Пагьливан Къарабеган хва) 1955-йисуз КцIар райондин Зинданмуругъ хуьре дидедиз хьана. Хайи хуьре 8 синифдин, Уьнуьгъа юкьван мектеб акьалтIарна. Азербайжандин Къецепатан ЧIаларин Институт куьтягьай Лезги Бегьлула Зинданмуругърин юкьван мектебда муаллимвал ийизва.

Аял чIавалай дидед чIалалди шиирар теснифзавай, лезгийрин фольклор кIватIун вичин рикI алай кардиз элкъвенвай Лезги Бегьлулан чIалар сифте яз “Самур” газетдин чинриз ва редакцияди 2000-йисуз чап авур “Акъата шегьредиз” кIватIалдиз акъатна. 2008-йисуз шаирдин лезги чIалал “Мулдин цуьк” тIвар алай шииррин ктаб басма хьана.

Лезги Бегьлул лукьман хьизни сейли я. Ада набататрин куьмекдалди шумудни са начагъвилер сагъарзава.

## LƏZGİ BƏHLUL

***Şeirləri özünəməxsusluğu, obrazlılığı ilə seçilən Ləzgi Bəhlul ikinci kitabını çapa hazırlamışdır.***

Ləzgi Bəhlul (İbrahimov Pəhləvan Qarabəy oğlu) 1955-ci ildə Qusar rayonunun Zindanmuruq kəndində anadan olmuşdur. Doğma kəndində səkkizillik, Əniğ kəndində orta məktəbi bitirmiş, Azərbaycan Xarici Dillər İnstitutunda təhsil almışdır. Uzun illərdir Zindanmuruq kənd orta məktəbində çalışır.

Uşaqlıq illərindən ana dilində şeirlər yazan, sevimli məşğuliyyətlərindən biri ləzgilərin folklorunu toplamaq olan Ləzgi Bəhlulun şeirləri ilk dəfə “Samur” qəzetində və redaksiyanın 2000-ci ildə nəşr etdirdiyi “Yaxşı yol” məcmuəsində çap olunmuşdur. Şairin “Novruzgülü” adlı ilk kitabı 2008-ci ildə ləzgi dilində işıq üzü görmüşdür.

Ləzgi Bəhlul loğman kimi də tanınır. O, xalq təbabətinin köməyi ilə bir sıra xəstəlikləri müalicə edir.

## АБДУЛГЬАЛИМ АГЬМЕДЗАДЕ



***Абдулгьалим Агьмедзаде чи республикадин голланд-азербайжан ва азербайжан-голланд чIаларин авайавачир таржумачи я.***

Абдулгьалим Шемседдинан хва Агьмедзаде 1940-йисуз КцIар райондин Эвежугъ хуьре дидедиз хьана. КцIар шегьердин 1-нумрадин юкьван мектеб акьалтIарна, М.Ф.Ахундован тIварунихъ галай Къецепатан ЧIаларин Институтда кIелай ада ревизорвиле, экономиствиле кIвалахна, муаллимвал авуна. 1978-йисуз ам Азербайжандин Эмигрантриз Куьмек Гудай Идарадин, 1991-йисуз Азербайжандин Яру Гъед Жемиятдин седривиле тайинарна. И везифадал ада 1995-йисалди кIвалахна.

“Нидерланд чIал” учебникдин автор тир А.Агьмедзадеди азербайжан-голланд ва голланд-азербайжан чIаларин 28 агьзур гафуникай ибарат тир гафарганар туькIуьрнава. Ада голланд чIалай азербайжан чIалаз са кьадар романарни гьикаяяр элкъуьрнава. Абдулгьалим Агьмедзаде гьакIни азербайжан чIалал кхьенвай романрин автор я.

## ABDULHƏLİM ƏHMƏDZADƏ

***Abdulhəlim Əhmədzadə respublikamızın yeganə azərbaycan-holland və həmçinin holland-azərbaycan dilləri tərcüməçisidir.***

Abdulhəlim Şəmsəddin oğlu Əhmədzadə 1940-cı ildə Qusar rayonunun Əvəcuq kəndində anadan olmuşdur. Qusar şəhər 1 saylı orta məktəbini bitirib, M.F.Axundov adına Xarici Dillər İnstitututunda təhsil almışdır. Uzun illər müfəttiş, iqtisadçı, müəllim kimi fəaliyyət göstərmişdir. 1978-ci ildə Azərbaycan Siyasi Mühacirlərə Yardım İdarəsinin rəisi, 1991-1995-ci illərdə Respublika Qızıl Aypara Cəmiyyəti İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışmışdır.

“Niderland dili” dərsliyinin müəllifi olan Abdulhəlim Əhmədzadə 28 min sözdən ibarət azərbaycanca-hollandca və hollandca-azərbaycanca lüğətlərin və həmin dillərdə danışıq kitabçasının tərtibçisidir. O, holland dilindən Azərbaycan dilinə bir sıra roman və hekayələr tərcümə etmişdir. A.Əhmədzadə həmçinin Azərbaycan dilində bir neçə romanın müəllifidir.

## БАЖИХАНУМ ИСАЕВА



***Поэзиядиз цIийи рангар гъайи Бажиханум Исаевадин шиирар лезги чIалан иер гишир-ралди рикIел аламукьзава.***

Алатай асирдин 60-йисарилай шиирар кхьизвай Исаева Бажиханум Гъажидин руш 1940-йисуз КцIар райондин ЭчIехуьре дидедиз хьана. Яргунрин юкьван мектеб акьалтIарайдалай гуьгъуьниз Къубадин медтехникумдик экечIна. Кьисметди вич Урусатдин Магадан вилаятдиз акъудай Бажиханум 1976-йисуз Ватандиз хтана. Ада "Кефердикай ихтилат" тIвар алай сад лагьай ктаб чапдай акъудна. Гуьгъуьнлай Бакуда Б.Исаевадин "Зи гъед" ва "Хва кIанзава ватандиз" ктабар басма хьана.

Вичин шиирра ва гъезелра ватанпересвилин гьиссерал илигзавай, кIелзавайбурун рикIер викIегьвилин, дуьзвилин ва дуствилин гьиссерив ацIурзавай Б.Исаевадин "Хва кIанзава ватандиз" поэма чи литературада лезги чIалал Къарабагъдин дяведикай кхьенвай хъсан эсеррикай сад я. 2010-йисуз адан "Муьгъуьббатдин рагъ" ктаб чапдай акъатна.

## BACIXANIM İSAYEVA

***Poeziyaya yeni çalarlar, yeni mövzular gətirmiş Bacıxanım İsayevanın şeirləri ləzgi dilinin gözəl naxışları ilə yadda qalır.***

Ötən əsrin 60-cı illərindən bədii yaradıcılıqla məşğul olan Bacıxanım Hacı qızı İsayeva 1940-cı ildə Qusar rayonunun Əcəxür kəndində anadan olub. Həzrə kənd orta məktəbini bitirib, Quba Tibb Texnikumunda təhsil alıb. Bir neçə il Rusiyanın Maqadan vilayətində yaşayıb. 1976-cı ildə vətənə qayıdıb, "Şimal haqqında söhbət" adlı ilk şeirlər kitabını çap etdirib. Bundan sonra onun "Mənim ulduzum" adlı şeirlər kitabı nəşr edilib.

Şeirləri və qəzəlləri ilə oxuculara dostluq, vətənpərvərlik, mərdlik hissləri aşılayan B.İsayevanın 2006-cı ildə "Vətən oğul istəyir" adlı kitabı işıq üzü görmüşdür. Onun eyniadlı poeması ləzgi dilində Qarabağ müharibəsinə həsr olunmuş sanballı əsərlərdən biridir. 2010-cu ildə B.İsayevanın "Məhəbbət günəşi" adlı yeni poetik toplusu çapdan çıxmışdır.

## МАМЕДАГЪА САРДАРОВ



***Политикадин илимрин кандидат тир Мамедагъа Сардаров гьакIни лирикадин шииррин автор я.***

Мамедагъа Агьмедкериман хва Сардаров 1941-йисуз КцIар райондин ГадацIийихуьр хуьре дидедиз хьана. КцIар шегьердин 1-нумрадин юкьван мектеб акьалтIарна, Азербайжандин Педагогикадин ЧIаларин Институтда чирвилер къачуна. Исмаиллы райондин Топчу хуьре муаллимвал авур ада гуьгъуьнлай Бакудин Къарадагъ райондин комсомолдин комитетдин завотделвиле, райондин партиядин комитетдин инструкторвиле, райондин комсомолдин комитетдин сад лагьай секретарвиле, республикадин комсомолдин меркези комитетда секциядин заведишвиле кIвалахна.

М.Сардарова гьакIни Республикадин Халкьдин Контролдин Комитетдин кьилин инспекторвиле, Социальный Защитадин Министерстводa кьилин меслятчивиле, Республикадин Министррин Кабинетдин чIехи референтвиле кIвалахна. Ам Азербайжандин Милли ЕА-дин Философиядин, Социологиядин ва

## MƏMMƏDAĞA SƏRDAROV

***Siyasi elmlər namizədi olan Məmmədağa Sərdarov lirik şeirlər müəllifi kimi də tanınmışdır.***

Məmmədağa Əhmədkərim oğlu Sərdarov 1941-ci ildə Qusar rayonunun Gədəzeyxür kəndində anadan olmuşdur. Qusar şəhər 1 saylı orta məktəbini bitirdikdən sonra M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda təhsil almışdır.

M.Sərdarov əmək fəaliyyətinə İsmayıllı rayonunun Topçu kəndində müəllim kimi başlamışdır. Sonralar Bakının Qaradağ Rayon Komsomol Komitəsində şöbə müdiri, rayon partiya komitəsində təlimatçı və rayon komsomol komitəsinin birinci katibi vəzifələrində çalışmışdır.

Azərbaycan LKGİ Mərkəzi Komitəsində bölmə müdiri, Azərbaycan Respublikası Xalq Nəzarəti Komitəsində baş inspektor, Sosial Müdafiə Nazirliyində baş məsləhətçi, Respublika Nazirlər Kabinetində böyük referent işləmişdir. Hazırda Azərbaycan Milli EA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda

Ихтиярар Хуьнин Институтда чӀехи илимдин кӀвалахдар я. М.Сардарован “Жуван рехъ, дуьз рехъ” очеркрин, “Муьгъуьббатдин лишан”, “Тамарзлу йисар” поэзиядин, “Глобализация ва миграциядин политика” публицистикадин ктабар чапдай акъатнава.

böyük elmi işçi vəzifəsində çalışır. Məmmədağa Sərdarov “Öz yolum, düz yolum” oçerklər, “Məhəbbət rəmzi”, “Həsrətli illər” poeziya, “Qloballaşma və miqrasiya siyasəti” publisistika kitablarının müəllifidir.

## РИММА ГЬАЖИМУРАДОВА



***Адан поэзиядин чӀал верцӀиди, образар садазни ухшар туширди, тешпигьар рикӀе гел тадайбур я.***

Римма 1961-йисуз Сиязан шегьерда, тӀвар-ван авай геолог Гьажимурад Гьажимурадован хизанда дидедиз хьана. Шумудни са цӀийи нафтӀадин къуй кардик кутунихъ чӀехи пай кутур и тӀвар-ван авай кас кӀвалахдай вахтунда гьелек хьанай ва гьавиляй адан хизан хайи Манкъулидхуьруьз (КцӀар район) куьч хьанай. Ина юкьван мектеб акьалтӀарай Риммади вичин гуьгъуьл лезги поэзиядив вугана.

Риммадин яратмишунар сифте яз кӀелдайбурув агакьарай “Самур” газетдин редакцияди гуьгъуьнлай адан шиирар 2000-йисуз басма авур “Акъата шегьредиз” альманахдиз акъудна. Шаирди вичин “Туьхуьмир, зи гъед” тӀвар ганвай сад лагьай ктаб чапдиз гьазурнава.

## RİMMA HACIMURADOVA

***Onun poeziyasının dili şirin, yaratdığı obrazlar bənzərsiz, təşbehləri ürəyəyatımlıdır.***

Rimma 1961-ci ildə Siyəzən şəhərində, adlı-sanlı geoloq Hacımurad Hacımuradovun ailəsində anadan olmuşdur. Yeni neft quyularının istifadəyə verilməsində böyük əməyi olmuş bu adam iş başında həlak olduqdan sonra onun ailəsi doğma İmamqulukənd kəndinə (Qusar rayonu) köçmüşdür. Burada orta məktəbi bitirən Rimma könlünü ləzgi poeziyasına vermişdir.

Rimmanın yaradıcılığı ilə oxucuları ilk dəfə tanış edən “Samur” qəzeti redaksiyası onun şeirlərini 2000-ci ildə Bakıda nəşr etdirdiyi “Geniş yola çıx” almanaxında da çap etdirmişdir. Şairin “Sönmə, ulduzum” adlı ilk kitabı çapa hazırlanmışdır.

## ЭГЬМЕДБЕГ ШИХКЪАЙИБОВ



***Эгьмедбег Шихкъайибов лезги ва азербайжан чӀаларалди тесникфнавай гзаф шииррин ва са шумуд поэмадин автор я.***

Эгьмедбег Абдулмежидан хва Шихкъайибов 1938-йисуз КцӀар райондин Аваран хуьре дидедиз хьана. Советрин девирда “Къизил Къусар” газетдин редакцияда хуьруьн майишатдин отделдиз регьбервал гайи Э.Шихкъайибован къелемдикай хкатай очеркар ва фельетонар а чӀаварин журналистикадин къиметлу инжияр я.

Шиирдалди фельетонар кхьидай жегьилдин рикӀикай цӀайни ялав квай цӀарар кӀвахьдай. Философдин саягъда килигдай ада и дуьньядиз. Дериндиз фикир-фагьум ийидай дуьньядин гьаларикай. Ватандал гзафни-гзаф рикӀ алай шаир гъурбатда рагьметдиз фена.

## ƏHMƏDBƏY ŞIXQAYIBOV

***Əhmədbəy Şıxqayıbov ləzgi və Azərbaycan dillərində yazılmış çoxlu şeirlərin, bir neçə poemanın müəllifi olan istedadlı şair idi.***

Odlu-alovlu poeziyası fəlsəfi fikirlərlə və yeni təşbehlərlə zəngin olan Əhmədbəy Abdulməcid oğlu Şıxqayıbov 1938-ci ildə Qusar rayonunun Avaran kəndində anadan olmuşdur. Sovet dövründə “Qızıl Qusar” qəzeti redaksiyasında kənd təsərrüfatı şöbəsinə rəhbərlik etmiş Əhmədbəy Şıxqayıbovun qələmindən çıxmış oçerk və felyetonlar jurnalistikanın qiymətli incilərindəndir.

Əhmədbəy Şıxqayıbovun mənzum felyetonları xüsusilə məşhur idi. O, Qusarı kəndbəkənd gəzmiş, rayonun gözəlliklərini vəsf etmişdi. Vətəninə qəlbən bağlı olan şair qürbətdə vəfat etmişdir.

## РОЗА ШЕРИФОВА



(1935-1990)

***Вичихъ чIехи алакьунар авай кхьираг Роза Шерифовадин къелемдикай гзаф гьикаяяр, новеллаяр ва юморескаяр хкатнай.***

Роза Абубекиран руш Шерифова 1935-йисуз КцIар шегьерда дидедиз хьана. 1959-йисуз Азербайжандин Гьукуматдин Университетдин филологиядин факультет акьалтIарай ада яргъал йисара "Къизил Къусар" газетда отделдиз регьбервал гана, ответсекретарвиле кIвалахна.

СССР-дин Журналистрин Союздин уьзви тир, марагълу макъалайрин, очеркрин ва зарисовкайрин автор хьиз сейли тир Роза Шерифова яратмишунрив мукьувай машгъул тир. Адан эсерар XX асирдин 50-йисарилай эгечIна Дагъустандин ва Азербайжандин газетрин, журналрин ва альманахрин чинриз акъатнай. Р.Шерифова 1990-йисуз рагьметдиз фена. Гьайиф къведай кар ам я хьи, кхьирагдин са ктабни чапдай акъатнавач.

## ROZA ŞƏRİFOVA

***İstedadlı yazıçı kimi tanınan Roza Şərifova maraqlı hekayə, novella və yumoreskalarla ədəbiyyat həvəskarlarının yaddaşında qalmışdır.***

Roza Abubəkir qızı Şərifova 1935-ci ildə Qusar şəhərində anadan olmuşdur. 1959-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirdikdən ömrünün sonuna kimi taleyini Qusar rayonunda çıxan "Qızıl Qusar" qəzeti ilə bağlamışdır. Burada o, ədəbi işçi, şöbə müdiri və məsul katib vəzifələrində çalışmışdır.

SSRİ Jurnalistlər İttifaqının üzvü olan, maraqlı oçerk, məqalə və zarisovkaların müəllifi kimi tanınan Roza Şərifova bədii yaradıcılıqla da müntəzəm məşğul olmuşdur. Onun əsərləri ötən əsrin 50-ci illərindən Dağıstanın və Azərbaycanın qəzet və jurnallarında, ədəbi toplularında dərc olunmuşdur. R.Şərifova 1990-cı ildə vəfat etmişdir. Təəssüf ki, yazıçının bircə kitabı da çap olunmamışdır.

## ФИКРЕТ ХИДИРОВ



***Адан "Зи багъа чил" тIвар ганвай ктаб 2003-йисуз Дербентда, "Авахь, Самур!" тIвар ганвай ктаб 2008-йисуз Магьачкъалада чап хьана.***

Хидиров Фикрет Алибубадин хва 1952-йисуз КцIар райондин Киригрин хуьре дидедиз хьана. КцIар шегьердин интернат мектеб акьалтIарайдалай кьулухъ ам Бакудин Политехнический Техникумдиз гьахьна. Инаг куьтягьна, Дербент шегьердиз куьч хьана, ина "Радиоэлемент" заводда кIвалахна. Алай вахтунда ам пенсияда ава.

Гьеле жегьилзамаз гьиле къелем кьур Ф.Хидиров КцIара кардик квай "РикIин гаф" кIватIалдик хьана. Адан лезги чIалал шиирар мукьвал-мукьвал Азербайжандин ва Дагъустандин кIватIалриз, газет ва журналрин чинриз акъатнай. Къедалди кьве ктаб басма хьайи шаирди вичин нубатдин ктаб чапдиз гьазурнава.

## FİKRƏT XIDIROV

***Онун "Mənim doğma torpağım" adlı ilk kitabı 2003-cü ildə Dərbənddə, "Ax, Samur!" adlı ikinci kitabı 2008-ci ildə Mahaçqalada çapdan çıxmışdır.***

Fikrət Əlibaba oğlu Xıdırov 1952-ci ildə Qusar rayonunun Kirig kəndində anadan olmuşdur. Qusar şəhər internat məktəbini bitirdikdən sonra o, Bakı Politexnik Texnikumunda təhsil almışdır. Buranı başa vurub, Dərbənd şəhərinə köçən F.Xıdırov "Radioelement" zavodunda çalışmışdır. Hazırda o, pensiyadadır.

Hələ gənclik illərindən əlinə qələm almış F.Xıdırov Qusarda fəaliyyət göstərən "Ürək sözü" ədəbi birliyinin üzvü olmuşdur. Onun ləzgicə yazdığı şeirləri Azərbaycanda və Dağıstanda nəşr edilən almanaxlarda, qəzet və jurnal səhifələrində işıq üzü görmüşdür. İndiyə kimi iki kitabı nəşr olunmuş şair növbəti kitabını çapa hazırlamışdır.

## АНЕЛЯ ОРДУХАН



***1991-йисалай “Cocktail” газетдин ва “CeyIa” журналдин редактор хьайи Анеля Ордухана 2006-йисалай “DEKOR Society” журнал чапна.***

КцIарин тIвар-ван авай Ордухановрин несилдин векил тир Анеля Абдулладин руш 1947-йисуз Бакуда дидедиз хьана. Ада А.Зейналлыдин тIварунихъ галай музыкадин училище ва Азербайжандин Гьукуматдин Университетдин журналистикадин факультет акьалтIарна.

1976-1991-йисара ада “Молодежь Азербайджана” газетда кIвалахна, корреспондентвиляй редактордин заместителвиле кьван хкаж хьана.

Анеля Ордухан “Лезгинский словарь” (2006 г.) ктабдин ва чара-чара йисара республикадин газетрин ва журналрин чинриз акъатай гзаф очеркрин, гьикая ва повестрин автор я. Ада лезги ва азербайжан чIаларай урус чIалаз гзаф ктабар элкъуьрна. А.Ордухана гьакIни “Miss Azerbaijan” тIвар алаз республикадин конкурсар кьиле тухвана.

## ANELYA ORDUXAN

***1991-ci ildən “Cocktail” qəzetinin və “Ceyla” jurnalının təsisçisi və baş redaktoru olmuş Anelya Orduxan 2006-cı ildə “DEKOR Society” jurnalını nəşr etmişdir.***

Qusarın tanınmış Orduxanovlar nəslinin nümayəndəsi Anelya Abdulla qızı 1947-ci ildə Bakıda anadan olmuşdur. A.Zeynallı adına musiqi məktəbini və Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir.

1976-1991-ci illərdə o, “Molodyoj Azerbaydjana” qəzetində çalışmış, müxbirlikdən redaktor müavini vəzifəsinə kimi ucalmışdır.

Anelya Orduxan “Лезгинский словарь” (2006 г.) kitabının və müxtəlif illərdə respublikanın müxtəlif qəzet və jurnallarında çap olunmuş silsilə hekayə və povestlərin müəllifidir. O, Azərbaycan və ləzgi dillərindən rus dilinə bir sıra ədəbi-bədii əsərlərin tərcüməçisidir. A.Orduxan həmçinin bir neçə dəfə “Miss Azerbaijan” respublika gözəllik müsabiqələrini keçirmişdir.

## СЕЙИДМЕТ САМУРИ



***Лезги чIалал фадлай шиирар кхьизвай Сейидмет Самуридин чIалариз гзаф манияр теснифнава.***

Зуьлфикъаров Сейидмет Низамеддинан хва 1954-йисуз КцIар райондин ГуьндуьзкIеле хуьре дидедиз хьана. Ина 8 синифдин, Манкъулидхуьре юкьван мектеб акьалтIарна, Азербайжандин Педагогикадин Институтдин филологиядин факультетда чирвилер къачуна. Ада 1974-йисалай къедалди хайи хуьруьн мектебда муаллимвал ийизва.

Лезги чIалал кхьенвай шииррин автор тир Сейидмет Самуридин чIалариз гзаф манияр туькIуьрнава. Лезгийрин сейли ансамблрикай тир “Шагь дагъдин” репертуарда адан гафариз кхьенвай манийри кьилди чка кьазва. Шаирди вичин “Шагь дагъдин авазар” тIвар ганвай ктаб чапдиз гьазурнава.

## SEYİDMƏT SAMURİ

***Ləzgi dilində çoxdan şeirlər yazan Seyidmət Samurinin bir sıra sözlərinə bəstəkarlar mahnılar bəstələmişlər.***

Zülfiqarov Seyidmət Nizaməddin oğlu 1954-cü ildə Qusar rayonunun Gündüzqala kəndində anadan olmuşdur. Doğma kəndində səkkizillik, İmamqulukənddə orta məktəbi bitirib, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində təhsil almışdır. O, 1974-cü ildən bu günə kimi doğma kəndində müəllim işləyir.

Ləzgi dilində yazılmış çoxlu şeirlərin müəllifi olan Seyidmət Samurinin sözlərinə xeyli mahnılar bəstələnmişdir. Ləzgilərin məşhur “Şahdağ” vokal-instrumental ansamblının repertuarında onun mahnıları xüsusi yer tutur. Mənalı şeirlərin müəllifi kimi tanınan Seyidmət Samuri “Şahdağın avazları” adlı ilk kitabını çapa hazırlamışdır.

## КАМРАН КЪУРБАНАЛИЕВ



***Камранан “Чаз чидай Асеф Мегьман” ктаб чи сейли шаир-композитордиз талукьарнава.***

Асул КцIар райондин ЭчIехуьряй тир Къурбаналиев Камран Абдултагьиран хва 1971-йисуз Яламада дидедиз хьана. Ада Азербайжандин НафтIадин Академия ва Ростовдин Гьукуматдин Университет акьалтIарна. 1992-1993-йисара “Самур” ва “Алпан” газетра кIвалахна. Вичи кхьей марагълу макъалайралди кIелдайбуруз сейли хьайи Камрана Бакудин лезги студентар патал шумудни са марагълу мярекатарни тешкилнай. Вичихъ ораторвилин алакьунар авай ада 2000-2001-йисара Дернегуьлдин студентрин шегьерда “КцIарин йикъар” кьиле тухванай.

Азербайжандин Илимрин Академияда лезги литературадин няни, Яламада лезги шаиррихъ галаз гуьруьш, Азербайжандин Гьукуматдин Университетдин “Квант” павильонда лезгийрин Яран сувар мярекатни гьада тешкилнай. 1994-йисуз профессор Тарикъули Амираслонован тIварунихъ галай Республикадин Лезги Жегьилрин КIватIал ва Алкьвадарвидин тIварунихъ галай ктабхана арадиз гьанай.

## KAMRAN QURBANƏLİYEV

***“Tanıdığımız Asəf Mehman” kitabını Kamran tanınmış şair-bəstəkarın həyat və yaradıcılığına həsr etmişdir.***

Əslən Qusar rayonunun Əcəxür kəndindən olan Kamran Abdultahir oğlu Qurbanəliyev 1971-ci ildə Yalamada anadan olmuşdur. O, Azərbaycan Dövlət Neft Akademiyasını və Rostov Dövlət Universitetini bitirmişdir. 1992-1993-cü illərdə Bakıda nəşr olunan “Samur” və “Alpan” qəzetlərində çalışmış, maraqlı yazıları ilə oxucuların rəğbətini qazanmışdır. O, Bakıda təhsil alan ləzgi tələbələri üçün keçirilən maraqlı gecələrin təşkilatçısı kimi də tanınmışdır.

Kamranın rəhbərliyi ilə 2000-2001-ci illərdə Bakının Dərnəgül qəsəbəsindəki tələbə şəhərciyində “Qusar günləri” keçirilmişdir. Azərbaycan Elmlər Akademiyasında ləzgi poeziyası gecəsinin, Yalamada ləzgi şairləri ilə görüşün, ADU-nun “Kvant” pavilyonunda “Yaran suvar” (Bahar bayramı) şənliyinin təşkilatçısı K.Qurbanəliyev 1994-cü ildə professor Tarıqulu Əmiraslanov adına Ləzgi Gənclər Təşkilatını, bu qurumun Alqadari adına kitabxanasını yaratmış və ona rəhbərlik etmişdir.

## КЪАГЬРИМАН ЯКЪУБОВ



***Девирдин татугайвилерикай туькIуьрай чIалари Къагьриман халкьдиз гзаф кIанарнай.***

Къагьриман Къайитмазан хва Якъубов хайи чIалал гзаф рикI алай кас тир. 1954-йисуз Къубада дидедиз хьайи Къагьриманан ирид варзни тахьанмаз адан буба рагьметдиз фенай. Диде аялни кьуна Кичанрин паласадиз куьч хьанай. КцIарин интернат мектебда кIелай, Худата юкьван мектеб акьалтIарай гадади Паласада фялевал ийиз кьил хвенай. Шаирвилин пай ганвай, вичихъ шиирар хуралай кIелдай алакьунар авай Къагьриман кIелдайбурун рикI алай шаир тир.

Къагьриман 1998-йисуз залан азардикай рагьметдиз фена. Шаирдин са ктабни акъатнавачтIани, адан цIудралди шиирар халкьди хуралай кIелзава.

## QƏHRƏMAN YAQUBOV

***Dövrünün çətinliklərindən, acı taleyindən bəhs edən şeirləri Qəhrəmanı xalqa sevdirmişdir.***

Qəhrəman Qayıtmaz oğlu Yaqubov öz dəst-xətti olan şairlərdən idi. 1954-cü ildə Qubada anadan olmuş Qəhrəman 7 aylıq uşaq ikən atası vəfat etmiş, anası Qusarın Kiçan palasa kəndinə köçmüşdür. Q.Yaqubov Qusar şəhər internat məktəbində oxumuş, 10-cu sinfi Xudatda başa vurub, ömrünün sonuna kimi doğma kəndində fəhləlik etmişdir. Şairlik istedadına və bədahətən söz demək bacarığına malik Qəhrəmanın qələmə aldığı şeirlər ona həm Azərbaycanda, həm də Dağıstanda şöhrət qazandırmışdı.

Şair 1998-ci ildə ağır xəstəlikdən vəfat etmişdir. Bircə kitabı belə çap olunmasa da, onun yazdığı neçə-neçə şeir xalqın dilində əzbərdir.

## СУЬНМЕЗ ХАНМИРЗЕЕВ



***Суьнмез Ханмирзеев КцӀарикай кхьенвай марагълу макъала ва очеркрин автор я.***

КцӀарал рикӀ алай, адан алатай девирар, сейли инсанар чирунихъ датӀана гелкъвезвай Суьнмез Ханмирзеев зегьметчи къелемэгьли я.

Суьнмез Мамедрагьиман хва Ханмирзеев 1946-йисуз КцӀар шегьерда дидедиз хьана. 1970-йисуз Азербайжандин Гьукуматдин Университетдин рагъэкъечӀдай патан чӀаларин факультет акьалтӀарна. Ада Шамахи ва КцӀар районрин юкьван мектебра азербайжан чӀалан ва литературадин тарсар гана. С.Ханмирзеева пуд йисуз Туьркиядин Сейдишегьир алюминиумдин заводда переводчиквиле кӀвалахна. Журналист пешедив 1974-йисуз “Къизил Къусар” газетда эгечӀай ада Туьркменистан Республикадин Красноводск вилаятда яшамишдайла анин “Знамя труда” газетда мухбирвал давамарна. С.Ханмирзеев алай вахтунда “Qusar КцӀар” газетдин крар кьилиз акъуддай редактор я.

С.Ханмирзееван райондин уьмуьрдин чара-чара хилериз талукьарнавай макъалаяр, очеркар ва репортажар кӀелзавайбуру хушвилелди кьабулда.

## SÖNMƏZ XANMİRZƏYEV

***Sönməz Xanmirzəyev Qusarın keçmişi və bu günü ilə bağlı maraqlı məqalə və oçerklərin müəllifidir.***

Qusara qəlbən bağlı, ona yaxından bələd olan, rayonun tarixi keçmişi, tanınmış insanları ilə bağlı daim axtarışlar aparan Sönməz Xanmirzəyev zəhmətkeş qələm sahibidir.

Sönməz Məmmədrəhim oğlu Xanmirzəyev 1946-cı ildə Qusar şəhərində anadan olmuşdur. 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. O, Şamaxı və Qusar rayonlarının orta məktəblərində Azərbaycan dilini və ədəbiyyatını tədris etmişdir. Üç il yarım Türkiyə Respublikasının Seydişehir alüminium zavodunda tərcüməçi işləmişdir. S.Xanmirzəyev jurnalist peşəsinə 1974-cü ildə “Qızıl Qusar” qəzetində başlamışdır. O, Türkmənistan Respublikasının Krasnovodsk vilayətində yaşayarkən burada nəşr olunan “Znamya truda” qəzetində fəaliyyətini davam etdirmişdir. Hazırda S.Xanmirzəyev “Qusar КцӀар” qəzetinin icraçı redaktorudur.

S.Xanmirzəyevin rayonun həyatından bəhs edən məqalə, oçerk və reportajları oxucular tərəfindən rəğbətlə qarşılanır.

## ТЕВРИЗ ПИРАЛИЕВА



***Буба репрессиядик акатай, дидедихъ галаз санал дуьньядин гьахъсузвилер вилералди акур Тевриза жегьил чӀавалай теснифар авур баядар мецера гьатнай.***

Тевриз Алидин руш Пиралиева 1927-йисуз КцӀар райондин ЧӀакӀар хуьре дидедиз хьана. ЧӀакӀардал сифтегьан ва Уьнуьгъа юкьван мектеб акьалтӀарай руша Бакуда Хуьруьн Майишатдин Техникумда кӀелнай. М.Ф.Ахундован тӀварунихъ галай колхозда, “III Интернационал” совхозда кӀвалахай, 1973-йисуз пенсиядиз фидалди ЧӀакӀаррин хуьруьн клубдиз регьбервал гайи Тевризан шиирар 1950-йисалай чап жезва.

## TEVRİZ PİRƏLİYEVA

***Atası repressiyaya məruz qalan, anasının himayəsində böyüyən Tevriz dövrün haqsızlıqlarını görüb erkən yaşlarından etirazını bayatılarla bildirməyə başlayır, onun şeirləri dillərə düşür.***

Tevriz Əli qızı Pirəliyeva 1927-ci ildə Qusar rayonunun Cağar kəndində anadan olmuşdur. Cağarda ibtidai, Əniğdə orta məktəbi bitirən Tevriz Bakıda Kənd Təsərrüfatı Texnikumunu bitirərək, M.F.Axundov adına kolxozda, sonradan “III Beynəlmiləl” sovxozunda işləmişdir. 1973-cü ildə pensiyaya çıxana kimi Cağar kənd klubuna rəhbərlik edən Tevrizin şeirləri 1950-ci ildən başlayaraq mətbuatda çap olunur.

## АГЪАВЕРДИ АЛИВЕРДИЕВ



***Алатай асирдин 60-йисарилай кхьинрив эгечIнавай А.Аливердиев марагълу новеллайрин автор я.***

Агъаверди Мевлидан хва Аливердиев 1937-йисуз КцIар райондин Мучугъ хуьре дидедиз хьана. Хуьруьн мектебда 7-синиф, Бакуда юкьван мектеб куьтягьна. Москвада Губкинан тIварунихъ галай Химиядинни Технологиядин Институтдин энергетикадин факультет тафаватлувилелди акьалтIарай ам Байконурдиз ракъурна. Инин радиостанциядин начальниквиле кIвалахай ам гуьгъуьнлай Туьркменистан Республикадин Чимкент шегьердин химиядин заводда сменадин началникквиле тайинарна.

Яргъал йисара ина кIвалахай А.Аливердиев 1971-йисуз Бакудиз хтана. Инин Метростройда механиквиле кIвалахай ам алай вахтунда пенсияда ава. Лезги чIалал гзаф рикI алай, вичихъ кьетIен хатI авай кхьирагди сад лагьай ктаб чапдиз гьазурнава.

## AĞAVERDİ ƏLİVERDİYEV

***Ötən əsrin 60-cı illərindən yaradıcılıqla məşğul olan A.Əliverdiyev maraqlı novellalar müəllifidir.***

Ağaverdi Mövlud oğlu Əliverdiyev 1937-ci ildə Qusar rayonunun Mucuq kəndində anadan olmuşdur. Kənddə yeddillik, Bakıda orta məktəbi bitirmişdir. Moskvada Qubkin adına Kimya və Texnologiya İnstitutunun energetika fakültəsini fərqlənmə diplomu ilə bitirmiş A.Əliverdiyev Baykonura işə göndərilmişdir. Burada o, radiostansiya rəisi vəzifəsində çalışmışdır. Sonradan Türkmənistan Respublikasının Çimkənd şəhərindəki kimya zavodunda növbə rəisi vəzifəsində çalışmışdır.

Uzun illər burada işləmiş A.Əliverdiyev 1971-ci ildə Bakıya qayıtmış, Metroinşaatda mexanik işləmişdir. Hazırda pensiyada olan A.Əliverdiyev doğma kəndində yaşayır. Ləzgi dilində yazıb-yaradan müəllifin ilk kitabı çapa hazırlanmışdır.

## МЕЙРАМ ИБРАГЬИМОВА



(1932-2000)

***Зинданмуругърин мел-мехъерра Мейраман шиирдалди гьуьжетунар аламатдин кар тир.***

Мейрам Саидан руш Ибрагьимова КцIар райондин Зинданмуругъ хуьре дидедиз хьана. Руш ирид йиса авайла адан дидеди вичин дуьнья дегишарна, цIуд йис хьайила буба дяведиз фена. Аял чпин кIвализ тухвана хуьз кIан хьайи мукьва-кьилибуруз ада уьтквемдаказ жаваб ганай: "За бубад кIвалин экв туьхуьниз тадач". Мейрама виридахъ галаз къуьн-къуьне туна цан цанай, гвен гвенай, малар хвенай. Дяве куьтягь хьайила адав бубадин чIулав хабар агакьнай. Етимвилени кесибвиле чIехи хьайи, вичин иервилелдини камаллувилелди вири гьейранарзавай Мейрама са ялце цIудралди баядар тесниф-дай, абур иер ванцелди, манияр хьиз лугьудай.

Мектебдин 7-синиф куьтягьайла мехъер авуна Къарабегахъ галаз кIвал-югъ туькIуьрай адаз 5 хвани 2 руш хьанай. Шаирдикай сифте малумат Седакьет Керимовади гайиди я. Мейраман шиирар адан хци Лезги Бегьлула кIватIна чапдиз гьазурнава.

## MEYRAM İBRAHİMOVA

***Zindanmuruq kəndinin el məclislərində Meyramın deyişmələri bir özgə aləm idi.***

Meyram Səid qızı İbrahimova Qusar rayonunun Zindanmuruq kəndində anadan olmuşdur. Meyram yeddi yaşına çatanda anası vəfat etmiş, on yaşında ikən atası müharibəyə getmişdir. Meyram qohum-əqrabanın onu himayəyə götürmək istəmələrinə qəti etiraz etmiş, "Ata ocağının işığının sönməsinə razı ola bilmərəm", - deyə cavab vermişdi. O, evi təkbaşına idarə edir, hamı ilə əkin əkir, biçin biçir, mal-qaraya baxırdı.

Müharibə qurtaranda atasının qara xəbəri gəlir. Meyram çətinliklə, kasıbçılıqla böyüyür. Gözəlliyi və ağlı ilə hamını heyran edən bu sinədəftər qız birnəfəsə onlarca bayatı qoşur, onları avazla deyirdi.

Yeddinci sinfi bitirəndə onun qapısını elçilər döyməyə başlayır. Qız könlünü Qarabəyə verir. Toy edib gəlin köçən Meyram Qarabəyə 5 oğul, 2 qız bəxş edir. Şair haqqında ilk məlumatı Sədaqət Kərimova vermişdir. Meyramın şeirlərini onun oğlu şair Ləzgi Bəhlul toplayıb çapa hazırlamışdır.

## АБИР ЭЧIЕХВИ



***Чи халкьдин тарихдин гуьмбетар чирун патал Абир Тагьиров райондин хуьрера дегь чIаварин гелерихъ гелкъвезва.***

Абир Зейнеддинан хва Тагьиров 1954-йисуз КцIар райондин ЭчIехуьре дидедиз хьана. Ина юкьван мектеб акьалтIарна, А.Азимзадедин тIварунихъ галай харусенятдин мектебда кIелна. Художник хьиз кIвалахив эгечIай жегьилдин марагълу эсерри пешекаррин фикир желбна. Тешкилатчивилин бажарагъдалди тафаватлу тир Абир Тагьирова яргъал йисар я "Самур" Лезги Милли Меркездин Азизбегов райондин тешкилатдиз регьбервал гуз. Адан куьмекдалди Бакудин Бузовна поселокда гьар йисуз лезги поэзиядинни музыкадин нянияр кьиле физва.

"Самур" газет кIелзавайбуруз ам Абир ЭчIехви хьиз чида. ЦIуд йисалай виниз я ада чи халкьдин этнографиядиз, адетриз ва ацукьун-къарагъуниз талукь макъалаяр кхьена газетдин чинриз акъудиз.

## ABİR EÇEXVİ

***Xalqımızın tarixi abidələrini öyrənmək məqsədilə Abir Tahirov rayonun kəndlərini qarış-qarış gəzib qədim dövrlərin izlərini axtarır.***

Abir Zeynəddin oğlu Tahirov 1954-cü ildə Qusar rayonunun Əcəxür kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirib, Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində təhsil almışdır. Rəssam kimi əmək fəaliyyətinə başlamış gəncin maraqlı rəsm əsərləri peşəkarların diqqətini cəlb etmişdir. Təşkilatçılıq bacarığı ilə seçilən Abir Tahirov uzun illərdir ki, "Samur" Ləzgi Milli Mərkəzinin Əzizbəyov rayon şöbəsinə rəhbərlik edir. Onun yaxından köməyi ilə Bakının Buzovna qəsəbəsində hər il ləzgi poeziyası və musiqisi gecələri keçirilir.

"Samur" qəzetinin oxucuları onu Abir Eçexvi kimi tanıyırlar. On ildən çoxdur ki, o, ləzgilərin etnoqrafiyasına, adət-ənənələrinə aid məqalələrlə qəzet səhifələrində çıxış edir.

## САИМАТ ШИХКЪАЙИБОВА



*(1938-2000)*

***Намерддин гуьлледиз туьш хьайи элдин шаирдин кьилел атай мусибатдикай виридаз дерт хьанай.***

Яргъал йисара элдин мярекатриз ярашух гайи, вичин шиирар хуралай кIелуналди сейли хьайи Саимат халисан шаир тир. Гьар дуьшуьшдиз, гьар кьисадиз кутугай чIал теснифдай ада. Мел-мехьерар, тазиятдин межлисар ам галачиз кьиле фидачир.

Саимат Гьамидан руш Нурметова 1938-йисуз КцIар райондин Аваран хуьре дидедиз хьана. Адан буба Гьамидахъ иер ван авай, ада халкьдин манийрал илигайла вири гьейран жедай. Касдин и алакьун ругуд веледдизни ганвай. Абурукай кьведакай: Сайматакайни Заиракай жегьилзамаз шаирар хьана.

Саимат хуьре юкьван мектеб куьтягьна, Къайинбег Шихкъайибоваз гъуьлуьз фена. Абуруз са хвани 5 руш хьана. Гьалал зегьметдив кьил хуьзвай къени къилихрин Сайматан кIвале рябет, гьуьрмет авай. Сайматан шаирдин рикI намерддин гуьлледи кисарна.

## SAİMAT ŞIXQAYIBOVA

***Namərd gülləsinə tuş gəlmiş el şairinin başına gəlmiş faciə onu tanıyanları ürəkdən sarsıtdı.***

Uzun illər el məclislərinin yaraşığı olmuş, bədahətən söz qoşub şeir demək istedadı ilə seçilən Saimat əsl şair idi. Onun sinəsində ilham bulağı çağlayırdı. Hər hadisəyə, hər təsadüfə aid söz qoşmaq istedadı var idi onun. Saimatsız nə toy, nə bayram, nə şənlik keçərdi. Yas məclislərinin də yaraşığı idi qadın: onun kimi ağı deyən tapılmazdı.

Saimat Həmid qızı Nurmətova 1938-ci ildə Qusar rayonunun Avaran kəndində anadan olmuşdur. Onun atası Həmidin gözəl səsi var idi. Bu istedad 6 uşağına da keçmişdi. Saimatla qardaşı Zairdə isə şeir qoşmaq istedadı var idi. Sonradan hər ikisindən şair oldu.

Saimat kənddə 7-illik məktəbi bitirdikdən sonra Qayınbəy Şıxqayıbovla ailə qurmuş, onların 6 övladı dünyaya gəlmişdi. Halal zəhmətlə dolanıb, mehriban ömür sürürdü ailə. Saimatın şair ürəyini namərd gülləsi susdurdu.

## “РИКIИН ГАФ”

***Халкьдин арада сейли хьайи “РикIин гаф” литературадин кIватIалди Азербайжандин лезгийрин тарихда зурба роль къугъвана.***

КцIар райондин медениятдин дараматда 1959-йисан 18-октябрдиз “РикIин гаф” кIватIалдин З.Ризванова, А.Абдуллаева, Б.Салимова, Н.Зекиева, З.Бабаханова, А.Мерданова, А.Мусаева, Я.Шейдаева, Ф.Регьимханова иштирак авур сифте мярекат кьиле фена. Са тIимил берeдилай “КIватIал”див хайи чIалал, медениятдал ва тарихдал рикI алай 64 кас агатна. Абурун арада Теймур Алиханов, Лезги Нямет, Багъиш Багъишов, Иззет Шерифов, Гьажибала Къафланов, Ниязали Пашаев, Магьсим Магьсимов ва масабур авай.

1960-йисалай кIватIалдик квай ксари партиядин ва советрин органриз лезги чIал вилик тухун патал къулай шартIар тIалабзавай чарар ракъуриз башламишна. Гьа и тIалабунар себеб яз 1962-йисуз Азербайжандин КП-дин ЦК-ди республикада яшамиш жезвай лезги агьалийрин чIал ва медениат вилик тухун патал кьилди къарар кьабулна. Мектебра лезги чIал чирун кардик кухтуна, райондин газетдин са чин лезгидалди акъатна, Бакуда лезги кхьирагрин эсерар чапдай акъудиз, чкадин радиодай лезги чIалал гунугар гуз башламишна.

1964-йисуз “Азернешрда” “Рикин гаф” ктаб чапдай акъатнай. Ина 21 кцIарви кхьирагдин шиирар гьатнавай. Шихзада Веледов, Межлум Ферзалиев, Тевриз Пиралиева, Шакир Наврузбегов, Асеф Мегьман, Байрам Салимов, Келентер Келентерли, Агьамегьамед Беделов, Нияз-Али Пашаев, Бажиханум Исаева ва маса авторрин лезги чIалал шиирар сифте яз и кIватIалда чап хьанай. 1976-йисалай “РикIин гаф” кIватIалдин уьмуьрда З.Ризванова, Л.Нямета хьиз Ядуллагь Шейдаевани чIехи роль къугъвана. Ада туькIуьрай “Бахтавар чил” альманах 1983-йисуз “Язычи” чапханади басмадай акъудна.

“РикIин гаф” кIватIал арадал гъайи ксари чIугур зегьметар гьавая фенач. Алай вахтунда чи республикадин Къуба, КцIар, Хачмаз, Исмаиллы, Къебеле, Огъуз районрин 126 мектебда лезги чIалан ва литературадин тарсар гузва. КцIара Гьукуматдин Лезги драмтеатр, лезги ва азербайжан чIалан муаллимар гьазурзавай коллеж кардик кутунва.

1992-йисалай Бакуда “Самур” Лезги Милли Меркездин орган тир “Самур” газет, 2009-йисалай аслу тушир “ЧиРагъ” журнал акъатзава.

## “ÜRƏK SÖZÜ”

***“Ürək sözü” adı ilə fəaliyyət göstərmiş ədəbi birlik Azərbaycan ləzgilərinin mədəni həyatında olduqca böyük rol oynamışdır.***

Qusar şəhər mədəniyyət evində 1959-cu ilin oktyabrın 18-də birliyin ilk yığıncağı keçirilmişdir. Burada Z.Rizvanov, A.Abdullayev, B.Səlimov, N.Zəkiyev, Z.Babaxanov, A.Mərdanov, Ə.Musayev, Y.Şeydayev, F.Rəhimxanov iştirak etmişlər. Bir qədər sonra birliyin işinə xalqın dilinin və mədəniyyətinin inkişafı, tarixinin öyrənilməsi naminə çalışan daha 64 nəfər qatılmışdır. Onların arasında Teymur Əlixanov, Ləzgi Nemət, Bağış Bağışov, İzzət Şərifov, Hacıbala Qaflanov, Niyaz-Əli Paşayev, Məhsim Məhsimov və başqaları var idi.

1960-cı ildən başlayaraq, birliyin üzvləri partiya və sovet orqanlarına ləzgi dilinin məktəblərdə tədrisi ilə bağlı müraciətlər etməyə başlamışlar. 1962-ci ildə Azərbaycan KP MK respublikanın ləzgi əhalisinin dilinin və mədəniyyətinin inkişaf etdirilməsi ilə bağlı xüsusi qərar qəbul etmişdir. Məktəblərdə ləzgi dilinin tədrisi təşkil olunmuş, rayon qəzetinin bir səhifəsinin ləzgi dilində çap edilməsi, yerli radioda ləzgi dilində verilişlərin səslənməsi üçün göstəriş verilmişdir.

1964-cü ildə “Azərnəşr” “Ürək sözü” adlı kitab nəşr etdi. Burada 21 qusarlı şairin şeirləri toplanmışdı. Şixzada Vələdov, Məclum Fərzəliyev, Tevriz Piraliyeva, Şakir Novruzbəyov, Asəf Mehman, Bayram Səlimov, Kələntər Kələntərli, Ağaməhəmməd Bədəlov, Niyaz-Əli Paşayev, Bacıxanım İsayeva kimi şairlərin ləzgicə əsərləri məcmuədə ilk dəfə çap olunur. 1976-cı ildən “Ürək sözü” ədəbi birliyinin fəaliyyətində Z.Rizvanov və L.Nemətlə yanaşı Yadulla Şeydayev də böyük rol oynayır. Onun tərtib etdiyi “Bəxtəvər torpaq” məcmuəsi 1983-cü ildə “Yazıçı” nəşriyyatında çapdan çıxır.

“Ürək sözü” ədəbi birliyinin fəaliyyətinin nəticəsi olaraq, sonrakı illərdə də ləzgilərin həyatında bir sıra dəyişikliklər baş verdi. Hazırda respublikamızın Quba, Qusar, Xaçmaz, İsmayıllı, Qəbələ, Oğuz rayonlarının 126 məktəbində ləzgi dili və ədəbiyyatı tədris olunur. Qusarda Ləzgi Dövlət Dram Teatrı, ləzgi və Azərbaycan dili müəllimləri hazırlayan kollec fəaliyyət göstərir.

1992-ci ildən Bakıda “Samur” Ləzgi Milli Mərkəzinin orqanı olan eyniadlı qəzet, 2009-cu ildən isə “ÇiRağ” müstəqil jurnalı nəşr olunur.

## КЦIАРИКАЙ БАЯДАР

Шагь дагъд кукIа рагъ акьуна,
Ана живер жими ялда.
Дуьнья женнет хьайитIани,
РикIиз КцIар чими ялда.

Гъуцар сувун хураллайди
Чи Сувалрин яйлах яни?
Зи гафарин ван тахьана,
Вун эллерин чIалахъ яни?

Яд элцифай "Къайи булах",
Булахдин яд дугунава.
Я КцIарин хару тават,
Вун зи рикIи чIугунава.

Шагь дагъдин кIукI живедаваз,
Къвезвайди мад къаяр ялда.
Мулейлияр жергедаваз,
КIвенкIвевайди зи яр ялда.

Касан пелел чиг ацукьна,
Чиг ацукьай къванер аку.
Къеневай рикI акъудзавай,
Ярдин верцIи ванер аку.

Яру дагъдал яр акьалтна,
Циф алатна синерилай.
На чи кьарай атIумир яр,
Килигиз, физ гъенерилай.

Касан пелен вини патар
Тамар авай дереяр я.
Яр атана, рагъ хьиз хъуьрез,
Муьгъуьббатдин береяр я.

Шагьнабатдал алай фири,
Хьанвайди я селлерикай.
Чун гъуцари халкьнавайд я,
Касар лугьур эллерикай.

Хайидакай хай рахана,
Жув акьахай хел атIумир.
Къариблухдиз акъатай яр,
КцIарикай вил атIумир.

## QUSAR HAQQINDA BAYATILAR

Şah dağına gün ələnir,
Orda qarlar əriyərmi?
Qusarıma vurğun olan
Başqa cənnət arayarmı?

Ğutsar dağın qoynundakı
Bizim Suval yaylağıdır.
Yada uyub məni dandın,
Səni görmək göz dağıdır.

Sərin sulu Qayi bulaq,
Yer altında çağlanıbdır.
Ey qusarlı gözəl mələk,
Könlüm sənə bağlanıbdır.

Şahdağının başı qardır,
Deyirlər şaxta düşəcək.
Muleylilər cərgələnib,
Biri qəlbimi deşəcək.

Kasan dağa şeh qonubdur,
Təbiətin bəhsinə bax.
Ürəyimi dərdə salan
Yarın şirin səsinə bax.

Yaru dağda dan ağarır,
Duman enir zirvəsindən.
Qərarımı kəsir yarım,
Baxıb keçib qənşərimdən.

Bu meşəli dar dərələr
Kasan adlı dağlarındır.
Yarım gəlib, günə bənzər,
Məhəbbətli çağlarımdır.

Şahnabatda sular qaynar,
Çılğın bahar sellərindən.
Bizi ğutslar xəlq eləyib,
Kasar adlı elllərindən.

Ey doğmanı yada satan,
Qonduğun budağı kəsmə.
Qərib elə düşən yarım,
Qusardan meylini üzmə.

## КЦIАРВИ ЗАРИЯР

СтIур Далагь (XII-XIII в.й.)
Лезги Абдуллагь (XIV в.й.)
Нуруллагь Хьиливи (XIV в.й.)
Лезги Гьамди Аваранви (XVI в.й.)
Лезги Агьмед (XVII-XVIII в.й.)
Ибрагьим эфенди СтIурви (XVIII в.й.)
Абдулкерим эфенди (XVIII в.й.)
Мучугъ Магьмуд (Мевланан Магьмуд) (XVIII в.й.)
Яргун Селей (XVIII в.й.)
Эмирали ТIигьиржалви (XIX в.й.)
Исгьакь эфенди Яргунви (XIX в.й.)
Эмираслан Гъанидин (XIX в.й.)
Мегьамед Саид Эвежугъи (XIX в.й.)
Нуреддин Шерифов (XIX-XX в.й.)
Саяд Пери (XIX в.й.)
Кесиб Абдуллагь (XIX в.й.)
Ашукь Ягья (XIX-XX в.й.)
Абдулжелил Хуьлуьхъви (XIX-XX в.й.)
Шемседдин Пиругъланов (XX в.й.)
Забит Ризванов (XX в.й.)
Лезги Нямет (XX в.й.)
Ашукь Абдуллагь (XX в.й.)
Ашукь Нуьсрет (XX в.й.)
Эмираслан Асланов (XX в.й.)
Ядуллагь Шейдаев (XX в.й.)
Расим Гьажи (XX-XXI в.й.)
Байрам Салимов
Келентер Келентерли
Асеф Мегьман
Иззет Шерифов
Эмир Мустафаев
Юсиф Гьажиев
Мегьамед Агъа
Мирзали Рустамов
Нияз-Али Пашаев
Гьажибала Яргунви
Къудрат Велиханов
Эгьмедбег Шихкъайибов
Седакъет Керимова
Азиз Мирзебегов
Фейруз Беделахтул

## QUSARLI YAZARLAR

Stur Dalah (XII-XIII əsr)
Ləzqi Abdullah (XIV əsr)
Nurullah Hilivi (XIV əsr)
Ləzqi Həmdi Avaranvi (XVI əsr)
Ləzqi Əhməd (XVII- XVIII əsrlər)
İbrahim əfəndi Sturvi (XVIII əsr)
Abdulkərim əfəndi (XVIII əsr)
Mucuğ Mahmud (Mevlanan Mahmud) (XVIII əsr)
Yargun Seley (XVIII əsr)
Əmirəli Tihircalvi (XIX əsr)
İshaq əfəndi Yargunvi (XIX əsr)
Əmiraslan Ğanidin (XIX əsr)
Məhəmməd Səid Əvəcuği (XIX əsr)
Nurəddin Şərifov (XIX-XX əsrlər)
Sayad Pəri (XIX əsr)
Kasıb Abdullah (XIX əsr)
Aşıq Yəhya (XIX-XX əsrlər)
Abdulcəlil Xuluqvi (XIX-XX əsrlər)
Şəmsəddin Piroğlanov (XX əsr)
Zabit Rizvanov (XX əsr)
Ləzqi Nemət (XX əsr)
Aşıq Abdullah (XX əsr)
Aşıq Nüsrət (XX əsr)
Əmiraslan Aslanov (XX əsr)
Yadullah Şeydayev (XX əsr)
Rasim Hacı (XX-XXI əsr)
Bayram Səlimov
Kələntər Kələntərli
Asəf Mehman
İzzət Şərifov
Əmir Mustafayev
Yusif Hacıyev
Məhəmməd Ağa
Mirzəli Rüstəmov
Niyaz-Əli Paşayev
Hacıbala Yargunvi
Qüdrət Vəlixanov
Əhmədbəy Şıxqayıbov
Sədaqət Kərimova
Əziz Mirzəbəyov
Feyruz Bedelaxtul

| | |
|---|---|
| Магьсим Магьсимов | Məhsim Məhsimov |
| Акиф Алиханов | Akif Əlixanov |
| Медет Эрзиманов | Mədət Ərzimanov |
| Ризван Ризванов | Rizvan Rizvanov |
| Этибар СтӀурви | Etibar Sturvi |
| Къагьриман Якъубов | Qəhrəman Yaqubov |
| Сейидмет Самури | Seyidmət Samuri |
| Видади Севзиханов | Vidadi Sevzixanov |
| Бажиханум Исаева | Bacıxanım İsayeva |
| Зерифа Кьасумова | Zərifə Qasımova |
| Римма Гьажимурадова | Rimma Hacımuradova |
| Гуьлбес Асланханова | Gülbəs Aslanxanova |
| Гьилал Аскеров | Hilal Əsgərov |
| Гьасан Хасиев | Həsən Xasiyev |
| Майис Гьажиев | Mayis Hacıyev |
| Анеля Ордухан | Anelya Orduxan |
| Эшреф Келбиханов | Əşrəf Kəlbixanov |
| Мамедагъа Сардаров | Məmmədağa Sərdarov |
| Мейрам Ибрагьимова | Meyram İbrahimova |
| Юнус Багьиров | Yunus Bağırov |
| Роза Шерифова | Roza Şərifova |
| Магьмуд Челебов | Mahmud Çələbov |
| Эфруз Регьимова | Əfruz Rəhimova |
| Шафиддин Герейханов | Şafiddin Gərəyxanov |
| Вакъиф Муьшкуьрви | Vaqif Müşkürvi |
| Лезги Бегьлул | Ləzgi Bəhlul |
| Эйваз Гуьлалиев | Eyvaz Qüləliyev |
| Фикрет Хидиров | Fikrət Xidirov |
| Назир Гуьлметов | Nazir Gülmətov |
| Фехреддин Оружов | Fəxrəddin Orucov |
| Абир ЭчӀехви | Abir Eçexvi |
| Агъариза Мучугъви | Ağariza Mucuğvi |
| Абдулгьалим Агьмедзаде | Abdulhəlim Əhmədzadə |
| Самуддин Хидиров | Samuddin Xidirov |
| Мегьамед Мегьманов | Məhəmməd Mehmanov |
| Мирзе Мирзеев | Mirzə Mirzəyev |
| Загьиддин Рзаханов | Zahiddin Rzaxanov |
| Балабег Няметов | Balabəy Nemətov |
| Азиз Азизов | Əziz Əzizov |
| Азима Садикьова | Əzimə Sadıqova |
| Мейведдин Жабраилов | Meyvəddin Cəbrayılov |
| Туфикь Веледахтул | Tofiq Veledaxtul |
| Багьиш Багьишов | Bağış Bağışov |
| Шихзада Веледов | Şixzada Vələdov |

| | |
|---|---|
| Агъамегьамед Беделов | Ağaməhəmməd Bədəlov |
| Шакир Наврузбегов | Şakir Novruzbəyov |
| Тажиддин Агъавердиев | Taciddin Ağaverdiyev |
| Межлум Ферзалиев | Məclum Fərzəliyev |
| Муьгьйеддин Мамедов | Mühyəddin Məmmədov |
| Угъланбике Даштиева | Oğlanbikə Daştiyeva |
| Айгуьн Ордуханова | Ayqün Orduxanova |
| Дадашбала Ризванов | Dadaşbala Rizvanov |
| Мегьди Пашаев | Mehdi Paşayev |
| Шагьисмаил Векилов | Şahismayıl Vəkilov |
| Гуьлмет ТIигьиржалви | Gülmət Tihircalvi |
| Алимурад Алимурадов | Əlimurad Əlimuradov |
| Агъаверди Аливердиев | Ağaverdi Əliverdiyev |
| Саимат Шихкъайибова | Saimat Şıxqayıbova |
| Шемседдин Шерифов | Şəmsəddin Şərifov |
| Сабир Мегьди | Sabir Mehdi |
| Фетуллагь Фетуллаев | Fətullah Fətullayev |
| Абдулагъа Абдуллаев | Abdulağa Abdullayev |
| Велихан Давудов | Vəlixan Davudov |
| Жафер Жаферов | Cəfər Cəfərov |
| Гуьлмет Гъегъеви | Gülmət Ğəğəvi |
| Гуьлмурад Кузунви | Gülmurad Kuzunvi |
| Мегьерали Лацуви | Məhərəli Latsuvi |
| Ибадуллагь Межмуллаев | İbadullah Mecmullayev |
| Зияла Агъавердиева | Ziyalə Ağaverdiyeva |
| Тевриз Пиралиева | Tevriz Piraliyeva |
| Наргиз Абдуллаева | Nərgiz Abdullayeva |
| Амид Ферзалиев | Amid Fərzəliyev |
| Къайитмаз ЭчIехуьрви | Qayıtmaz Əcəxürvi |
| Забит Зекиев | Zabit Zəkiyev |
| Лезги Октай | Ləzgi Oqtay |
| Ягья Абилов | Yəhya Əbilov |
| Насруллагь Манкъулидхуьруьнви | Nəsrullah Manqulidxürünvi |
| Интизар Рамалданова | İntizar Ramaldanova |
| Мелагьет Гуьлмамедова | Məlahət Gülməmmədova |
| Рагьиб КцIарви | Rahib Qusarlı |
| Абдулкерим Керимов | Abdulkərim Kərimov |
| Семае Гьакъкъыкъызы (Эрзиманова) | Səmayə Haqqıqızı (Ərzimanova) |
| Мегьбубе Агъаева | Məhbubə Ağayeva |
| Элчин Балабегов | Elçin Balabəyov |
| Камилла Гьатамова | Kamilla Hətəmova |

## ПОЭЗИЯДАЛ РИКI АЛАЙДИ



Дербентда и кас тийижирди бажагъат жеди. Адан таксида ацукьайбур руьгь ацIанваз эвичIда. Са ялце цIудралди шиирар хуралай кIелдай, лезги, азербайжан ва урус чIаларал агъзурралди цIарар эзбердай чидай Мегьман Саруханов поэзиядал рикI алай кас я. 1952-йисуз КцIар райондин Вурварин хуьре дидедиз хьайи, юкьван мектеб акьалтIарна аскервилиз фейи Мегьман Саруханова 25 йисуз Урусатдин кефер пата военныйвиле кIвалахна.

Пенсиядиз фейи прапорщик М.Саруханов ватандиз хтунин кьилин себеб поэзия хьана. Гила ам Дербентда яшамиш жезва. И касдин лезги чIалал, лезги шаиррин шииррал рикI ала. Сятралди эзбердай шиирар кIелда ада. СтIал Сулейманан, Алирза Саидован, Забит Ризванован, Муьзеффер Меликмамедован, Фейзудин Нагъиеван, Седакъет Керимовадин ктабра гьатнавай гзаф шиирар хуралай чида адаз. Мегьманаз А.Пушкинан, М.Лермонтован, Р.Рождественскийдин, Е.Евтушенкодин, Р.Гьамзатован гзаф чIалар чида. Азербайжандин шаиррикай Самед Вургъунан, Мамед Аразан ва Бехтияр Вагьабзадедин яратмишунрални рикI ала адан.

## POEZİYA VURĞUNU

Dərbənddə onu tanımayan çətin tapılar. Onun sürdüyü taksiyə əyləşənlər mənən zənginləşirlər. Birnəfəsə onlarca şeri əzbərdən deyən, ləzgi, Azərbaycan və rus dillərində minlərlə misranı asanlıqla yadında saxlayan Mehman Saruxanov poeziya aşiqidir. 1952-ci ildə Qusar rayonunun Urva kəndində anadan olmuş Mehman burada orta məktəbi bitirib əsgərliyə getmiş, 25 il Rusiyanın şimalında hərbçi peşəsində çalışmışdır.

Praporşik M.Saruxanovu təqaüdə çıxandan sonra vətənə qayıtmağa məcbur edən onun poeziyaya sonsuz məhəbbəti olmuşdur. İndi o, Dərbənddə yaşayır. Ləzgi poeziyasına vurğun olan M.Saruxanov saatlarla bədahətən şeir deyir. Süleyman Stalskinin, Əlirza Saidovun, Zabit Rizvanovun, Müzəffər Məlikməmmədovun, Feyzudin Nağıyevin və Sədaqət Kərimovanın yaradıcılığına dərindən bələd olan bu adamın fenomenal yaddaşına heyran olmaya bilmirsən. Mehman Puşkinin, Lermontovun, Həmzətovun, Rojdestvenskinin, Yevtuşenkonun çoxlu şeirlərini əzbərdən deyir. Azərbaycan şairlərindən Səməd Vurğunun, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin yaradıcılığına vurğundur.

## КВЕЗ ЧИДАНИ?

XVI-XIX асирра кьуд чIалалди: лезги, туьрк, араб ва фарс чIаларалди эсерар тесниф авур 60-далай гзаф лезги сеняткарар малум я. Абурун жергеда Акпер Муьшкуьрви (XVI в.й.), Лезги Салегь (XVII в.й.), Лезги Агьмед (XVIII в.й.), Лейла ханум (XVIII в.й.), Режеб Ихрекви (XIX в.й.), Эмирали ТIигьиржалви (XIX в.й.) ва масабур ава.

* * *

ЧIехи алим, маарифчи, араб, фарс ва лезги чIаларал эсерар тесниф авур сейли шаир, Къафкъазда муьридизмдин бине кутур ва Имам Шамилан муаллим хьайи Шейх Мегьамед Ярагъвиди Ярагъдал ачухарай медреса а девирдин илимдинни диндин меркезрикай тир. И медресада Ислам диндилай гъейри математика, астрономия, география, гьукъукъ, этика, философия ва тарихни чирзавай. Ина чирвилер къачуз Мукьвал ва Юкьван РагъэкъечIдай уьлквей-

## BİLİRSİNİZMİ?

XVI-XIX əsrlərdə dörd dildə: ləzgi, türk, ərəb və fars dillərində yazıb-yaratmış 60-dan çox ləzgi sənətkarı məlumdur. Onların arasında Əkbər Müşkürvi (XVI əsr), Ləzgi Saleh (XVII əsr), Ləzgi Əhməd (XVIII əsr), Leyla xanım (XVIII əsr), Rəcəb İxrekvi (XIX əsr), Əmirəli Tihircalvi (XIX əsr) və başqaları olmuşdur.

* * *

Böyük alim, maarifçi, ərəb, fars, türk və ləzgi dillərində yazıb-yaratmış məşhur şair, Qafqazda müridizmin banisi və İmam Şamilin müəllimi Şeyx Məhəmməd Yarağinin Yaraqda açdığı mədrəsə öz dövrünün tanınmış elm və din məbədgahlarından sayılırdı. Bu mədrəsədə dini biliklərlə yanaşı, riyaziyyat, astronomiya, coğrafiya, hüquq, etika, fəlsəfə və tarix də tədris edilirdi. Buraya oxumağa Yaxın və Uzaq Şərq ölkələrindən gəlirdilər. Mədrəsənin məzunları

райни инсанар къвезвай. Медреса акьалтIарайбурун арада гзаф кцIарвиярни авай. Абур ватандиз хтайдалай кьулухъ медресаяр ахъайна, маарифчивилив машгъул хьанай. Ихьтин ксарикай садни Эмирали ТIигьиржалви тир.

* * *

1929-йисуз Бакуда "Корогълу" дастандин лезги вариант чапдай акъатна кIанзавай. Анжах вучиз ятIани и кар кьиле фенач ва къедалди ам акъатнавач. И вариант лезгийрин мецерай кIватIнавай чара-чара чIукарикай туькIуьрнавайди я. Филологиядин илимрин доктор Мавлуд Ярагьмедова кхьейвал, дастанда гьатнавай къушмайрин чIехи пай дишегьли сеняткаррин яратмишунар я ва абур Республикадин Гьилин ХатIарин Фондуна хуьзва.

* * *

К.Келентерлидин Азербайжанда Совет гьукумат арадиз гьайибурукай сад, "Гьуьммет" ва "Фарукьдин" (лезгийрин большевик тешкилат) регьберрикай хьайи Мукьтадир Айдунбеговаз талукьарнавай "Дагълар юзана" пьеса 1971-йисуз Мингечевирда сегьнедал эцигна ва 52 гьилера къугьвана.

* * *

1964-йисуз "Азернешр"да "Рикин гаф" ктаб чапдай акъатнай. Ина 21 кцIарви кхьирагдин шиирар гьатнавай. КIватIалда Шихзада Веледован, Межлум Ферзалиеван, Тевриз Пиралиевадин, Шакир Наврузбегован, Асеф Мегьманан, Байрам Салимован, Келентер Келентерлидин, Агьамегьамед Беделован, Нияз-Али Пашаеван, Бажиханум Исаевадин ва маса авторрин шиирар авай.

* * *

1992-йисан 16-сентябрдиз "Азербайжан Республикадин кьадардал гьалтайла тIимил халкьарин ва этнический группайрин ихтиярар ва азадвилер хуьнихъ, абурун чIал ва меденият вилик тухунихъ гьукуматди пай кутунин гьакъиндай" Азербайжан Республикадин Президентдин указ акъатна.

* * *

Юсиф Гьасанбега вичин "Манидал илигай пешер" ктабда ЧIакIар хуьруьн акунар теснифнава.

* * *

Октай Рзади вичин "КцIарин тамар", "ХупI иер я", "Къарабулах", "Сейливал гана" шиирар КцIариз талукьарнава.

arasında onlarca qusarlı olmuşdur. Vətənə qayıtdıqdan sonra onların əksəriyyəti mədrəsələr açaraq maarifçiliklə məşğul olmuşdur. Belələrindən biri Əmirəli Tihircalvi idi.

* * *

1929-cu ildə Bakıda "Koroğlu" dastanının ləzgi variantı çapdan çıxmalı idi. Lakin naməlum səbəblərə görə bu iş baş tutmadı. Ləzgilərdən toplanmış həmin variantda dastanın azərbaycanca qollarından əlavə başqa qollar da var idi. F.e.d. Mövlud Yarahmədovun verdiyi məlumata görə həmin qolların əksəriyyəti qadın müəlliflərdən toplanmışdı, onlar Respublika Əlyazmaları Fondunda saxlanılır.

* * *

K.Kələntərlinin Azərbaycanda Sovet hakimiyyətinin qurucularından biri, "Hümmət" və"Farux" (ləzgi bolşevik təşkilatı) rəhbərlərindən biri olan inqilabçı Müqtədir Aydınbəyova həsr olunmuş "Dağlar silkələndi" pyesi 1971-ci ildə Mingəçevir Dövlət Dram Teatrında səhnəyə qoyulmuş və 52 dəfə oynanılmışdır.

* * *

1964-cü ildə "Azərnəşr"də "Ürək sözü" almanaxı çap olunmuşdur. Burada 21 qusarlı qələm sahibinin şeirləri verilmişdir. Onların arasında Şıxzada Vələdovun, Məclum Fərzəliyevin, Tevriz Pirəliyevadin, Şakir Novruzbəyovan, Asəf Mehmanan, Bayram Səlimovan, Kələntər Kələntərlidin, Ağaməhəmməd Bədəlovun, Niyaz-Əli Paşayevin, Bacıxanım İsayevanın və başqa müəlliflərin şeirləri var idi.

* * *

1992-ci ilin sentyabrın 16-da "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı çıxmışdır.

* * *

Yusif Həsənbəy "Nəğməli yarpaqlar" kitabında Cağar kəndinin mənzərələrini təsvir etmişdir.

* * *

Oqtay Rza "Qusar meşələri", "Nə gözəldir", "Qarabulaq", "Şöhrəti oldu" şeirlərini Qusara həsr etmişdir.



*Абдулжелил эфендидин эхиримжи шикил. 1937.*

*Abdulcəlil əfəndinin son şəkili. 1937.*



*И шикил 1932-йисуз ягъанвайди я. А юкъуз Эвежугърин хуьре сифте яз гьукуматдин мектебдин бине эцигнай. Муаллимрин тIалабуналди бинедик сифте къван Мегьамед Саид эфендиди кутунай. Шикилда: Саид эфенди хуьруьн муаллимрин къула. Сад лагьай жергеда Сейфуллагь Абдуллаев (эрчIи патай) ва Вилибег Ашуров (чапла патай). Кьулухъ жергеда: Межид Муьслуьмов, Ибрагьим Агьмедов, Имамали Имамалиев.*

*Bu şəkil Əvəciq kəndində 1932-ci ildə çəkilmişdir. Həmin gün kənddə ilk dövlət məktəbinin bünövrəsi qoyulmuşdur. Müəllimlərin arzusu ilə ilk daşı Məhəmməd Səid əfəndi qoymuşdur. Şəkildə birinci cərgədə: Seyfulla Abdullayev (sağda), Vilibəy Aşurov (solda), ortada Səid əfəndi. Arxa cərgədə: Məcid Müslümov, İbrahim Əhmədov, İmaməli İmaməliyev.*



*Нуреддин Шерифов вичин хизандихъ галаз.*

*Nurəddin Şərifov ailəsi ilə birlikdə.*




*Лезги Нямета Манидин суварин юкъуз шиир кIелзава. 1968.*

*Ləzgi Nemət Mahnı bayramında şeir oxuyur. 1968.*



*“Къизил Къусар” газетдин редакцияда. 1967.*

*“Qızıl Qusar” qəzetinin redaksiyasında. 1967.*



*Дагъустандин халкьдин шаир Байрам Салимов (эрчIи пата) ва сейли шаир, Дагъустандин халкьдин артист Асеф Мегьман.*

*Dağıstanın xalq şairi Bayram Səlimov (sağda) və tanınmış şair, Dağıstanın xalq artisti Asəf Mehman.*



*Ядуллагь Шейдаев (чапла патай), Жамал Жамалов ва Эгьмедбег Шихкъайибов. 1967.*

*Yadullah Şeydayev (soldan), Camal Camalov və Əhmədbəy Şixqayıbov. 1967.*



*Къелемэгьлияр. 1962.* *Yazarlar. 1962.*



*Фейруз Беделахтул (эрчIи патай), Иззет Шерифов, Келентер Келентерли ва Жалал Жалалов поэзиядин мярекатда.*

*Feyruz Bədəlaxtul (sağdan), İzzət Şərifov, Kələntər Kələntərli və Cəlal Cəlalov poeziya gecəsində.*



*Забит Ризванов вичин уьмуьрдин юлдаш Гуьлбанудихь галаз.*

*Zabit Rizvanov həyat yoldaşı Gülbanu ilə.*



*КцIара “РикIин гаф” кIватIалдин мярекатдилай къулухъ ягъанвай шикил. 1962.*

*“Ürək sözü” birliyinin tədbirindən sonra çəkilmiş şəkil. 1962.*



*КцIарин виридалайни къуьзуь шаир Абдулкерим Керимов.*

*Qusarın qocaman şairi Abdulkərim Kərimov.*



*Эшреф Келбиханов Азербайжан ва лезги чIаларалди шиирар теснифай шаир тир.*

*Əşrəf Kəlbixanovu oxucular azərbaycan və ləzgi dillərində şeirlər müəllifi kimi tanıyırdılar.*



*Дагъустандин композитор-шаир Асеф Мегьман ва тIвар-ван авай шаир, Дагъустандин Гъукуматдин премиядин лауреат Арбен Къардаш.*

*Dağıstanın bəstəkar-şairi Asəf Mehman və məşhur şair, Dağıstanın Dövlət Mükafatı laureatı Arben Qardaş.*



*Ашукь Нуьсретан концертар гурлубур тир.*

*Aşıq Nüsrətin konsertləri həmişə gür keçərdi.*



*Зари-журналист Ризван Ризванов (эрчIи патай), “Лезги газетдин” къилин редактор Агъариза Саидов, “Самур” газетдин къилин редактор Седакъет Керимова, шаир Фейзудин Нагъиев, “Аран” TV-дин регьбер Исмаил Исмаилов ва “Сувар” ансамблдин маничи Решад Ибрагьимов Ахцегьа “Шарвили” эпосдин суварин мярекатда. 2009.*

*Şair-jurnalist Rizvan Rizvanov (sağdan), “Ləzgi qəzeti”nin baş redaktoru Ağariza Səidov, “Samur” qəzetinin baş redaktoru Sədaqət Kərimova, şair Feyzudin Nağıyev, “Aran TV”-nin rəhbəri İsmayıl İsmayılov, “Suvar” ansamblının solisti Rəşad İbrahimov Axtıda “Şarvili” eposu bayramında. 2009.*



*Азербайжандин лезги шаирар (эрчIи патай): Келентер Келентерли, Зерифа Кьасумова, Седакьет Керимова, Асеф Мегьман, Муьзеффер Меликмамедов.*

*Azərbaycanın ləzgi şairləri (sağdan): Kələntər Kələntərli, Zərifə Qasımova, Sədaqət Kərimova, Asəf Mehman, Müzəffər Məlikməmmədov. 2008.*



*Забит Ризвановни (эрчIи патай) Ашукь Нуьсрет чIехи дустар тир.*

*Zabit Rizvanovla (sağdan) Aşıq Nüsrət möhkəm dost idilər.*

## *КЦIАРВИ КЪЕЛЕМЭГЬЛИЯР*

## *QUSARLI YAZARLAR*



*Велихан Давудов*
*Vəlixan Davudov*



*Мегьди Пашаев*
*Mehdi Paşayev*



*Межлум Ферзалиев*
*Məclum Fərzəliyev*



*Алимурад Алимурадов*
*Əlimurad Əlimuradov*



*Шихзада Веледов*
*Şixzada Vələdov*



*Шемседдин Шерифов*
*Şəmsəddin Şərifov*



*Мелагьет Гуьлмамедова*
*Məlahət Gülməmmədova*



*Камилла Гьатамова*
*Kamilla Hətəmova*

# VII

# КЬЕГЬАЛАР



# İGİDLƏR

*Кьегьал я пурара, яни накьвара.*
*Дагъустандин мисал*

*İgid ya yəhər üstə, ya da torpaq üstə.*
*Dağıstan atalar sözü*

## АЗАДВИЛИН ЖЕНГЧИЯР

Халкьдин къагьриманвилин тарихдик кцIарвийрини лайихлу пай кутунва. VII виш йисан сифте кьилера гьезеррин аксина женг чIугур яргунви Тагъан пагьливандикай халкьди манияр туькIуьрнава. XIV виш йисан эхирра монголрихъ галаз женгера чIехи къагьриманвилер къалурай хьиливи Шанайилан тIвар тарихда гьатна. XVI виш йисан сейли алим стIурви Шихим эфенди гьамни зурба женгчи тир. Ам 1603-йисуз I Шагь Аббасан къушунрихъ галаз женгина кьегьалвилелди гьелек хьанай.

Халкьди 1837-йисан Къубадин бунтуниз регьбервал гайи Гьажи Мегьамед Хуьлуьхъви, хьиливи Ярали даим рикIел хкизва. Имни дуьшуьшдин кар туш. Бунт халкьдин гегьенш къатарин рикIяй тирвиляй, ада агъзурралди инсанар агуднай. Гьавиляй вакъиадилай чIехи са девир алатнаватIани, ам халкьдин мурадра яшамиш жезва. 1918-йисуз эрмени дашнакар ва большевикар кукIварай Муьгьуьбали эфенди Кузунви, Гьатем агъа ЧIакIарви хьтин къагьриманрин тIварар халкьдин меце гьатна.

Агъадихъ чна чпин тIварар тарихда гьатнавай чи са кьадар къагьриманрин гьакъиндай малуматар гузва.

## AZADLIQ MÜBARİZLƏRİ

Xalqın qəhrəmanlıq tarixinə qusarlılar da layiqli töhfələr vermişlər. VII əsrin əvvəllərində xəzərlərlə döyüşlərdə şücaətlər göstərmiş yargunlu (həzrəli) Tağan pəhləvan haqqında xalq mahnılar qoşub. XIV əsrin sonlarında monqollarla döyüşlərdə böyük qəhrəmanlıqlar göstərmiş hilli Şanayilin adı tarixə düşüb. XVI əsrin məşhur alimi sudurlu Şixim əfəndi həm də böyük qəhrəman idi. O, 1603-cü ildə I Şah Abbasın qoşunlarına qarşı döyüşlərdə həlak olmuşdur.

1837-ci il Quba üsyanının rəhbərləri də daim xatırlanır. Üsyan sadə insanların maraqlarını ifadə etdiyi üçün bu tarixi hadisənin üstündən böyük bir tarixi dövr keçməsinə baxmayaraq, o, hələ də xalqın yaddaşında yaşayır.

Üsyanın başçıları Hacı Məhəmməd Xuluqlu, hilli Yarəli, 1918-ci ildə erməni daşnaklarına və bolşeviklərə qarşı vuruşmuş Möhübəli əfəndi Kuzunvi, Hatəm ağa Cağarvi kimi qəhrəmanların adları dillər əzbəridir.

Aşağıda adları tarixə düşmüş bir sıra qəhrəmanlar haqqında məlumat veririk.

## ХАНБУТАЙ БЕГ ЯРГУНВИ
*(1761-1823)*

***Девлетлу ва заха кас тир Ханбутай бегди вичин уьмуьрдин эхирдалди халкьдин рекье женг чIугунай.***

Вири Къафкъаздиз сейли къагъриман тир Ханбутай бег гилан КцIар райондин Яргунрин хуьре дидедиз хьана. Адан чIехи буба Бутая са шумуд агъзур касдикай ибарат кIеретIдин кьиле аваз Надир шагьдин кьушунрин аксина женг чIугунай. Ирандин тарихчи А.Т.Сардадвара вичин “Тарих-е-незами ва сийаси-йе довране Надиршагь-е Афшар” ктабда малумат ганвайвал, 1735-йисан ноябрдин вацра Дербентдал вегьен патал Хьилерин хуьре кIватI хьайи Надир шагьдин кьушундиз басрух гайи яргунви Бутаян кIеретIди фарсарин 6 агъзур аскерар тергнай. Гуьгъуьнлай Надир шагьди 12 лезги хуьруьз цIай янай. ЯтIани Бутая цIийи кIеретI туькIуьрна, чапхунчийрин аксина женг давамарнай.

Гьа ихьтин къагъриман сихилдай тир Ханбутай бегди халкьдин арада чIехи гьуьрмет къазанмишнай. Им Дагъустанда урус кьушунриз регьбервал гайи генерал Н.М.Хатунцева генерал-аншеф Н.Ф.Ртишеваз кхьей рапортдайни аквазва: “Ягь-ягъунрай хъсандиз кьил акъудзавай Ханбутай бегди вичин яракьлуяр телеф хьуникай хуьн патал чкадин рельефдикай, сал жигъиррикайни дар кIамарикай, дагъларин гирвейрикай менфят къачузвай. Лезгийриз урусрин яракьдин гуж къалурун патал чна тупарикайни атлуйрикай мадни пара менфят къачуна. ГьакI ятIани абуру эхирдал кьван женг чIугвазвай. Есирда гьатайла чаз муьтIуьгъ тахьун патал лезгийри чпи чеб хенжелдив яна рекьизвай”.

Ханбутай бегди неинки вичин, гьакIни къунши хуьрерин кесибриз куьмек гудай. Гьа ихьтин крарихъ ялзавайвиляй ам Яргунрин хуьруьн старшинавиле хкянай. Гуьгъуьнлай ада Къуба аялатдин старшинайрин арада чIехи нуфуз къазанмишнай ва гьавиляй абуру 1809-йисан декабрдиз Ханбутай бег чпин патай векил яз Бакудин комендант В.А.Репинан кьилив ракъурна, адавай Къуба аялат Урусатдин эгьливиле кьабулун тIалабнай. Амма комендантди и тIалабун кьилиз акъудначир. Ханбутай бегди 1810-йисуз урус чапхунчийрин аксина женг чIугвазвай Къубадин жегьил хан Шихалидиз куьмек ганай. 1811-йисуз кьиле фейи женгера генерал Гурьеван кьушун магълуб хьанай. 1815-йисуз генерал Гурьеваз

## XANBUTAY BƏY YARGUNVİ
*(1761-1823)*

***Dövlətli və xeyirxah insan olan Xanbutay bəy ömrünün sonuna kimi xalq yolunda mübarizə aparmışdır.***

Qafqazın məşhur qəhrəmanlarından olan Xanbutay bəy indiki Qusar rayonunun Yargun (Həzrə) kəndində dünyaya gəlmişdir. Onun babası Butay bir neçə minlik dəstəsi ilə Nadir şahın qoşunlarına qarşı döyüşmüşdür. İran tarixçisi A.T.Sardadvarın verdiyi məlumata görə 1735-ci ilin noyabr ayında Dərbəndi tutmaq üçün Hil kəndi ətrafında toplaşmış Nadir şahın qoşunu yargunlu Butayın hücumuna məruz qalmış, döyüşdə farslar 6 min əsgər itirmişdilər.

Sonradan Nadir şah qisas alaraq, 12 ləzgi kəndini od vurub yandırmışdı. Buna baxmayaraq, Butay yeni silahlı dəstə yaradaraq, mübarizəni davam etdirir.

Xanbutay bəy bu cür qəhrəman nəslin övladı idi və xalq arasında böyük nüfuz qazanmışdı. Bunu Dağıstanda rus qoşunlarına rəhbərlik edən general N.M.Xatuntsevin general-anşef N.F.Rtişevə yazdığı raportdan da görmək olar: “Vuruşmadan yaxşı baş çıxaran Xanbutay bəy öz silahdaşlarını məhv olmaqdan xilas etmək üçün yerli relyefdən, dar cığırlardan və ensiz keçidlərdən, dağların zirvələrindən istifadə edir. Ləzgilərə rusların silahının gücünü göstərmək üçün biz toplardan və atlılardan daha çox istifadə edirik. Buna baxmayaraq, onlar axıra qədər döyüşürlər. Əsir düşəndə bizə təslim olmamaq üçün ləzgilər xəncərlə özlərini öldürürlər”.

Tarixi mənbələrdən göründüyü kimi, Xanbutay bəy dövlətli olduğu qədər də xeyirxah insan idi və o, qonşu kəndlərin kasıblarına da əl tuturdu. Elə buna görə də onu Həzrə kəndinin starşinası seçmişdilər. Quba əyalətinin yüzbaşıları arasında böyük nüfuzu olduğuna görə 1809-cu ildə Xanbutay bəyi özlərinin nümayəndəsi kimi Bakı şəhərinin komendantı V.A.Repinin yanına göndərib xahiş etdilər ki, Quba əyaləti Rusiya təbəəliyinə qəbul olunsun. Komendant vəd versə də, sözünə əməl etmədi.

Xanbutay bəy Yargunvi 1810-cu ildə rus işğalçılarına qarşı döyüşən gənc qubalı Şixəli xana kömək edir. 1811-ci ildə baş verən döyüşlərdə general Quryevin qoşunları məğlubiyyətə uğrayır.

1815-ci ildə general Quryev Yargun kəndini ələ keçirərək, burada müdafiə istehkamı yaratmaq istəyir. Xanbutay bəyin dəstəsi rus generalına güclü müqavi-

Яргун кьуна, ина сенгерар туькӀуьриз кӀан хьана. Яргунвийри и кардиз рехъ тагана, чпин чилер хвена.

Ханбутай бег 1823-йисуз генерал Ермолова кьвед лагьай гьилера Къубадин лезгийриз басрух гайила кьиле фейи ягъ-ягъунра гьелек хьанай.

Ханбутай бегдин Бакихановрин несилдихъ галаз мукьвавилер авай. Архивдин материалрай аквазвайвал, адан руш Чимназ Абаскъули агъа Бакиханован стха генерал Жаферкъули агъа Бакихановаз гъуьлуьз фенай. Абурун кьве хци военный рекьяй чирвилер къачуна бубадин рехъ давамарнай.

## КЪУБАДИН БУНТ ВА КЦӀАРВИЯР

***Лезги халкьдин къагьриманвилин тарихда и бунтуни махсус чка кьазва.***

Къубадин бунтуникай Азербайжандин сейли тарихчи А.С.Сумбатзадеди 1961-йисуз урус чӀалал “Къубадин бунт” тӀвар алай ктаб чапдай акъудна. ТӀвар-ван авай кхьираг М.Меликмамедова вичин “Къубадин гъулгъула” ктабда и бунт кьве йисуз давам хьайиди къалурнава. И авторри къейд ийизвайвал, гьам бунтуниз регьбервал гузвай ксар, гьамни урус пачагьдин кьушунрин аксина женг чӀугвазвайбур лезгияр тир.

КцӀарин Уьнуьгъдере магьалдин ва ТӀигьиржалрин азад жемиятдин агьалияр женгера иллаки тафаватлу жезвай. Бунтуниз Хуьлуьхъ хуьруьн старшина Гьажи Мегьамеда ва хьиливи Яралиди регьбервал гузвай. Бунт арадиз атунин шумудни са себебар авай.

Гьам чкадин гьакимри, гьамни урусрин чапхунчийри халкь ара датӀана таракшзавай, адан кьилел мусибатар гъизвай. Агьалийри цин, рекьерин, кьушундин паталди гузвай налогар гьукуматдин хазинадиз гун тийиз чпиз серфзавай. Аялатдин 111 яйлах, 328 хьишлах, 4 ветега, багьлар ижарадиз къачунвай прапорщик Шергилов, Мирзе Мегьамедхан, полковник Агьабег Садыкъов, майор Иса бег хьтин залумри халкьдин чан туьтуьниз гъанвай. Къубадин комендант полковник Гимбутан азгъунвилерин и кьил а кьил авачир. Агьалийри и гьахъсузвилерин гьакъиндай Дагъустан вилаятдин чӀехидаз ва Къафкъаздин сердердиз арза-фарза ийизвайтӀани, абурун шикаятар кваз кьазвачир.

1837-йисан апрелдиз пачагьдин гьилибанри Варшавадиз ракъурун патал хуьрерай атлуяр кӀватӀиз гатӀунайла, халкьдин арада гъулгъула гьатна ва и кар бунт къарагъарун патал багьна хьана. Хуьлуьхъ-

mət göstərərək, çar əsgərlərini kəndə buraxmır.

Ömrünün sonuna kimi xalqın azadlığı uğrunda mübarizə aparmış Xanbutay bəy 1823-cü ildə, general Yermolovun ikinci dəfə Quba ləzgilərinin üzərinə hücumu zamanı baş verən döyüşlərdə qəhrəmancasına həlak oldu.

Xanbutay bəy Yargunvinin Bakıxanovlar nəsli ilə qohumluq əlaqələri var idi. Onun qızı Çimnaz Abbasqulu ağa Bakıxanovun qardaşı general Cəfərqulu ağa Bakıxanova ərə getmişdi. Çimnazın dünyaya gətirdiyi iki oğul atalarının yolunu davam etdirmişdir.

## QUBA ÜSYANI VƏ QUSARLILAR

***Ləzgi xalqının qəhrəmanlıq tarixində bu üsyan xüsusi yer tutur.***

Quba üsyanı haqqında Azərbaycanın məşhur tarixçisi Ə.S.Sumbatzadə 1961-ci ildə rus dilində “Quba üsyanı” adlı kitab çap etmişdir. Tanınmış yazıçı M.Məlikməmmədov özünün “Quba iğtişaşı” kitabında bu üsyanın 2 il davam etdiyini göstərmişdir. Hər iki müəllifin qeyd etdiyi kimi, üsyana rəhbərlik edənlər və iştirakçılar rus çarına qarşı mübarizəyə qalxmış ləzgilər idi.

Üsyanda Qusarın Əniğdərə mahalının və Tahircal azad cəmiyyətinin əhalisi xüsusilə fəal iştirak etmiş, ona Xuluq kəndinin starşinası Hacı Məhəmməd və Hil kəndinin sakini Yarəli rəhbərlik etmişdi. Üsyanın baş qaldırmasının müxtəlif səbəbləri var idi. Həm yerli hakimlər, həm də rus işğalçıları xalqı insafsızcasına talayırdı. Əhalidən suya, yola və rus qoşunlarının saxlanmasına görə vergilər alınırdı. Bundan əlavə, əyalətin naibləri xalqı yaylaqlardan, qışlaqlardan, örüşlərdən məhrum etmişdi. Məsələn, təkcə praporşik Şergilov əyalətin 111 yaylağını, 328 qışlağını, 4 vətəgəni və xeyli bağları öz əlinə keçirmişdi. Bundan başqa yerli hakimlərdən Mirzə Məhəmməd xan, polkovnik Ağabəy Sadıqov, mayor İsa bəy və başqaları da hədlərini aşmışdılar. Qubanın komendantı polkovnik Gimbutun özbaşınalıqları isə getdikcə artırdı. Bununla əlaqədar yerli əhali Dağıstan vilayətinin qubernatoruna və Qafqaz canişininə ərizələrlə müraciət etmişdi. Lakin onların şikayətinə baxan yox idi.

1837-ci ilin aprelində çarın əlaltıları Varşavaya göndərmək üçün ləzgi kəndlərindən süvarilər yığmağa başladı. Bu, böyük narazılıq doğurdu və üsyanın başlanması üçün bəhanə oldu. Xuluqlu Hacı Məhəmməd, hilli Yarəli, Yargun kəndindən Ələsgər bəy və

ви Гьажи Мегьамеда, хьиливи Яралиди, яргунви Алескер бегди, юзбаши Хуршуда, муругъви Иляс бегди, кузунви Агъа бегди, мискискави Мегьамед бегди, зизикви Немихан бегди, тагьирхуьруьнви Жафер бегди, лакарви Шагьнамазан хва Велибега, цIехуьлви Ферзали бегди, майор Иса бегдин стха Мегьди эфендиди, мучугъви Мегьамедан хва Рзахана ва ясабви Шерифалиди чпин ва къунши хуьрерин агьалияр кIвачел къарагъарна.

Халкьди Гьажи Мегьамед Къубадин ханвиле хкяна. Адан кIеретIри ЦIуру Худат хуьруьн патав бине кутунвай урусрин гарнизон кукIварна ва гзаф хуьрер чапхунчийрикай азад авуна. Къуба шегьер кьун патал Агъбил хуьре кIватI хьайи яракълу бунтчийрин кьадар 7000-дав агакьнавай. Са шумуд йикъалай иниз Къуба аялатдин маса магьалрайни инсанар кIватI хьана ва Гьажи Мегьамед хандин къушун 12000-касдив агакьна.

1837-йисан 5-сентябрдиз бунтчияр Къубадив агатна. Ярали 600 касдин кьиле аваз чинеба шегьердиз гьахьна ва абуру Къубадин майдан кьуна. Амай бунтчийривай Къубадиз гьахьиз хьанач, вучиз лагьайтIа урусрин аскерри вири тупар лезгийрихъ элкъуьрна. Шегьердиз гьахьай бунтчийри ина са шумуд сятда женг чIугуна. Урусриз куьмек гуз цIийи къуватар атана. Вишдалай гзаф аскерар яна кьейи Яралидин кIеретIдайни са гьакьван инсанар гьелек хьана. Са патахъайни куьмек авачир Ярали сагъ амай бунтчиярни галаз шегьердай акъатна.

Бунтчийри са шумуд юкъуз Къуба блокадада хвена, амма Гьажи Мегьамеда къетIидаказ гьерекат авунач ва гьавиляй са шумуд йикъалай урусри Къубадиз мадни пара къушунар ракъурна. Им акурла гзаф бунтчияр чпин кIвалериз хъфена. Бунтчийриз хиянат авур Мегьамед Мирзе хандиз лезгийрин гьилералди лезгияр рекьиз кIанзавайди кьатIай Гьажи Мегьамеда вичиз вафалу кIеретIарни кIвалериз ахъайна ва женгинилай гьил къачуна. Гьажи Мегьамед сифте вичин хайи хуьруьз Хуьлуьхъиз, анайни Куьредиз фена.

Куьредин хан Мегьамед Мирзеди вичин дуст Гьажи Мегьамед ва адан хва Навруз есирда кьуна, урусрив вугана. Урус пачагь I Николаян буйругъдалди гьулгъуладин регьберриз дуван кьуна. Чкадин гьакимри, беглери, феодалри бунтчийриз хиянат авуна ва абуру урус пачагьдин пад хвена, гьавиляй бунтчияр магълуб хьана. ЯтIани 1837-йисан Къубадин бунт чи къагьриманвилин тарихдиз элкъвена.

yüzbaşı Xurşud, muruğlu İlyas bəy, kuzunlu Ağa bəy, miskiskalı Məhəmməd bəy, zizikli Nemixan bəy, tahirkəndli Cəfər bəy, ləgərli Şahnamazın oğlu Vəli bəy, zuxullu Fərzalı bəy, mayor İsa bəyin qardaşı Mehdi əfəndi, mucuğlu Məhəmmədin oğlu Rzaxan və yasablı Şərifəli öz kəndlərinin və qonşu kəndlərin əhalisini ayağa qaldırdılar.

Xalq üsyanın rəhbərlərindən olan Hacı Məhəmmədi Quba xanı seçdi. Onun silahlı dəstələri tezliklə Köhnə Xudat kəndi yaxınlığında yerləşən rus qarnizonunu darmadağın etdi. Üsyançılar Quba şəhərini tutmaq üçün Ağbil kəndinə toplaşanda onların sayı 7 min nəfərə çatırdı. Bir neçə gün ərzində buraya Quba əyalətinin başqa mahallarından da silahlı kəndlilər axışmağa başladı. Hacı Məhəmməd xanın qoşununun sayı 12 min nəfərə çatdı.

1837-ci ilin sentyabrın 5-də üsyançılar Qubaya yaxınlaşırlar. Yarəli 600 nəfərlik dəstəsi ilə keçilməz sal cığırlarla Qubaya girir və şəhər meydanını ələ keçirir. Qalan üsyançılar Qubaya girə bilmirlər, çünki rus əsgərləri onları güclü top atəşinə tutur. Yarəli öz dəstəsi ilə bir neçə saat küçə döyüşləri aparsa da, Hacı Məhəmməd ona kömək üçün əlavə qüvvələr göndərə bilmir. Ona görə də ruslara xeyli itki verən və özü də yüzdən çox silahdaşını itirən Yarəli döyüşün qeyri-bərabər olduğunu görüb salamat qalan döyüşçülərlə şəhərdən çıxır.

Bundan sonra üsyançılar bir neçə gün Qubanı mühasirədə saxlayırlar. Lakin Hacı Məhəmməd qətiyyətsizlik göstərir. Ruslar buraya əlavə qoşun göndərirlər. Təpədən-dırnağadək silahlanmış rus qoşununun gəldiyini eşidəndə üsyançıların bir hissəsi evlərinə dağılışır. Nəhayət, Məhəmməd Mirzə xanın xəyanət edərək, üsyançıların üstünə qoşun yeritmək və qardaş qırğını törətmək istədiyini başa düşən Hacı Məhəmməd özünə sədaqətli silahlı dəstələri də evlərinə buraxır və mübarizədən əl çəkir. Yerli hakimlərin, bəylərin və feodalların da rus çarının əlaltılarına kömək etməsi üsyançıların məğlubiyyətinə səbəb olur.

Bundan sonra Hacı Məhəmməd əvvəl doğma kəndi Xuluqa, oradan da Küre xanlığına gedir. Burada Küre xanı Məhəmməd Mirzə dostu Hacı Məhəmmədi və onun oğlu Novruzu əsir alaraq, ruslara təhvil verir.

Yerli əhalini qorxutmaq və bölgədəki üsyankar ruhu öldürmək üçün çar I Nikolayın göstərişi ilə üsyanın rəhbərlərinə amansızcasına divan tutulur. Lakin bütün bunlara baxmayaraq, 1837-ci il Quba üsyanı xalqın qəhrəmanlıq tarixinə dönür.

## ГЬАЖИ МЕГЬАМЕД ХУЬЛУЬХЪВИ
*(1785-1837)*

***1837-йисан Къубадин бунтуниз Хуьлуьхъ хуьруьн старшина Гьажи Мегьамеда регьбервал ганай.***

Гьажи Мегьамед Къуба аялатдин гзаф нуфузлу ксарикай тир. Гьавиляй инин вилик-кьилик квай ксари Къубадин бунт къарагъарун патал къарарни 1837-йисан августдин вацра Гьажи Мегьамедан рушан мехъерик кьабулнай. Ина Кьиблепатан Дагъустандин Мискиска, Кара-Куьре хуьрерай, Къуба аялатдин Вини магьалдай, гьакIни Сирт ва Уьнуьгъдере магьалрай бунтуниз гьазурвилер акваздай 200 кас кIватI хьанай, агьалияр кIвачел къарагъарун патал къарар кьабулнай. 1837-йисан 20-августдиз Къубадин бунт къарагънай.

Вичин 30 йис хьайила Меккедин зияратдиз фейи Гьажи Мегьамеда гзаф хийирлу крар кьилиз акъуднай. Ада Къуба аялатдин пуд хуьре мискIинар эцигнай, мектебар кардик кутунай. Вич хуьруьн старшинавиле хкягъайла кесибриз куьмек гун патал кьилди фонд арадал гъанай. Гьавиляй Дагъустандин военный округдин кьил генерал-майор Реутта Къафкъаздин сердердиз ракъурай са рапортда адакай икI кхьенай: “Гьажи Мегьамед дерин фагьумар авай, акьуллу ва нуфузлу кас я. Ам вири Дагъустандиз сейли я”.

Гьажи Мегьамед Дагъустандиз сейли хьайиди субут авун патал тек са делил бес я: Шейх Шамила адаз кьведра чар ракъурнай ва адавай урусрин кьушунрин аксина эхирдал кьван женг чIугун тIалабнай. Къафкъазда муьридизмдин бине кутур, Дагъустандин халкьар гьиле яракь кьуна урус чапхунчийрин аксина женгиниз къарагъарай, Шейх Шамилан муаллим хьайи лезгийрин машгьур алим ва женгчи Шейх Мегьамед Ярагъвиди Гьажи Мегьамедаз “халкь паталди женг чIугвазвай хан” лагьанай.

Къубадин ханвиле Гьажи Мегьамед халкьди бунт къарагъайдалай са шумуд югъ гуьгъуьниз, 1837-йисан августдин эхирра хкянай. ТIимил вахтунда хан хьанатIани, ада халкь налогрикай азад авунай ва яйлахарни хъишлахар девлетлуйривай къахчуна, кесиб агьалийрин ихтиярда вугун патал буйругъ ганай. Ада Будугъ ва Бармак магьалар галачиз амай 8 магьалдин чIехибур тайинарнай. Абур халкьдихъ ялзавай ксар тир.

Гьажи Мегьамед регьимлу, умун кас тир. Гьавиляй 12 агъзур яракьлудикай ибарат тир кьушун-

## HACI MƏHƏMMƏD XULUQVİ
*(1785-1837)*

***1837-ci ildə baş vermiş Quba üsyanına Xuluq kəndinin starşinası Hacı Məhəmməd rəhbərlik etmişdir.***

Hacı Məhəmməd Quba əyalətinin nüfuzlu şəxslərindən idi. Ona görə də 1837-ci ilin avqust ayında qızının toy günü əyalətin nüfuzlu adamları üsyan qaldırmaq üçün onunla məsləhətə gəlmişdilər. Burada Cənubi Dağıstanın Miskiska, Kara-Küre kəndlərindən, Qubanın Yuxarı Mahal, Sirt və Əniğdərə mahallarından 200 nəfər toplaşmışdı. Həmin gün xüsusi qərar qəbul olunur və 1837-ci ilin avqustun 20-də Quba üsyanı başlanır.

Hacı Məhəmməd 30 yaşında Məkkəni ziyarət etmiş, bir sıra xeyriyyəçilik işləri görmüşdü. Dövlətli nəsildən olan Hacı Məhəmməd Quba əyalətinin 3 kəndində məscid və məktəb binaları tikdirmişdi. Kəndin starşinası seçiləndə yoxsullara yardım fondu yaratmışdı. Əyalətin varlıları da Hacı Məhəmmədlə hesablaşırdılar. Ona görə də Dağıstan hərbi dairəsinə rəhbərlik edən general-mayor Reutt Qafqaz canişininə göndərdiyi raportlardan birində yazmışdı: “Hacı Məhəmməd çox savadlı, ağıllı və nüfuzlu adamdır. O, bütün Dağıstanda məşhurdur”.

Hacı Məhəmmədin Dağıstanda məşhurluğunu sübut edən bircə faktı göstərmək kifayətdir: İmam Şamil iki dəfə ona məktub göndərmiş və ləzgiləri çar qoşunlarına qarşı mübarizəyə qaldırmağı xahiş etmişdi.

Qafqazda müridizmin banisi sayılan, Dağıstan xalqlarını ilk dəfə rus müstəmləkəçilərinə qarşı silahlı mübarizəyə qaldıran, şeyx Şamilin müəllimi olan məşhur ləzgi alimi və qəhrəmanı Şeyx Məhəmməd Yarağvi Hacı Məhəmmədi “xalq yolunda mübarizə aparan xan” adlandırmışdı.

Hacı Məhəmməd 1837-ci ilin avqustun axırlarında Quba xanı seçilmişdi. Az müddətdə xanlıq etməsinə baxmayaraq, o, xalqı bütün vergilərdən azad etmiş, yaylaqları və qışlaqları varlılardan geri alıb, kasıbların ixtiyarına vermişdi. O, Buduq və Barmak mahallarını çıxmaqla, 8 mahala naiblər təyin etmişdi. Onlar xalqa xidmət edən adamlar idilər.

Hacı Məhəmməd mərhəmətli olması və həlim təbiəti ilə seçilirdi. Ona görə də 12 minlik qoşuna rəhbərlik etməsinə baxmayaraq, böyük qırğınlara yol verməmək üçün Quba üzərinə qəti hücuma keçmək fikrindən daşınmışdı. Üsyanın rəhbərlərindən olan Yarəli onu qəti hücuma təhrik etsə də, Hacı Məhəmməd tə-

диз регьбервал гузвайтIани, адавай къетIидаказ гьерекатна Къуба шегьер кьаз хьаначир. Бунт магълуб хьунин кьилин себебрикай садни чкадин феодалри жуванбур маса гана, урус пачагьдин пад хьун тир.

Чапхунчийрин аксина тIимил вахтунда женг чIугунатIани, Гьажи Мегьамедан тIвар лезги халкьдин тарихда чIехи къагьриман хьиз гьатна.

## ХЬИЛИВИ ЯРАЛИ
*(1802-?)*

***Ада Гьажи Мегьамедахъ галаз санал 1837-йисан Къубадин бунтуниз регьбервал ганай.***

Лезги халкьдин къагьриманвилин тарихдик чIехи пай кутур Яралиди Хуьлуьхъви Гьажи Мегьамедахъ галаз санал 1837-йисан Къубадин бунтуниз регьбервал ганай. Ам урус пачагьдин кьушунрин аксина кьиле тухвай азадвилин женгера иллаки тафаватлу хьанай.

1802-йисуз Къуба уезддин Хьилерин хуьре дидедиз хьайи Яралидин чIехи буба Ярали Къуба аялатдин тIвар-ван авай беглерикай тир. И несилда гьиле яракь кьуна женг чIугваз алакьдай 200-далай виниз ксар авай. Къубадин бунтуна иштирак авур 300 хьиливидикай гзафбур Яралидин несилдай тир. Адан кIеретIда вичин хва Режебалай гьейри, мукьвакьилийрикай Юнуса, Селима, Акпера, Шихагьмеда, Жафера, Юсуфа ва масабуруни женг чIугвазвай.

Къубадин бунт къарагьайла Яралидин 35 яшар хьанвай. 1837-йисуз урус пачагьдин кьушунри хуьзвай Къуба шегьердиз гьахьайди, 1838-йисуз генерал Фезедин кьушунрин аксина женг чIугурди, гьа йисан сентябрдиз кузунви Агъа бегдихъ ва рутулви Агъабегахъ галаз санал Нуха шегьер чапхунчийрикай азад авурдини Ярали тир.

Адан кьегьалвилери урус генералар мягьтеларнай. Генерал-майор Реутта 1837-йисан зулуз Къафкъаздин сердердиз ракъурай малуматда кхьенай: "...И хьиливиди лекьре вичин гъуьрчез гьелегьар кьадай саягьда чи кьушунрихъ зарар хкIурзава. ВикIегь, военный крарай хъсандиз кьил акъудзавай Ярали кьун патал пулунин пишкешарни тайинарнава, амма чавай ам сакIани кьаз жезвач. Ярали гагь ина, гагь ана, садани байих тийир чкайра гьафилдай пайда жезва". Яралиди 1839-йисан зулуз урусрихъ галаз женгера эхиримжи гьилера иштиракнай ва ам сагъ амукьнай. Адан гуьгъуьнин уьмуьрдикай са делилни авач.

rəddüd etmiş, rus qoşunları da bundan istifadə edərək, üsyanı yatırtmışdı. Üsyançıların məğlub olması səbəblərindən biri də yerli feodalların xalqa xəyanət edərək, rus çarını müdafiə etməsi olmuşdu.

Müstəmləkəçilərə qarşı az müddətdə mübarizə aparsa da, Hacı Məhəmmədin adı ləzgi xalqının tarixinə böyük qəhrəman kimi düşdü.

## HİLLİ YARƏLİ
*(1802-?)*

***1837-ci il Quba üsyanına Hacı Məhəmmədlə birgə Yarəli də rəhbərlik etmişdir.***

Ləzgi xalqının qəhrəmanlıq tarixində Yarəli xüsusi yer tutur. O, 1837-ci ildə Xuluqlu Hacı Məhəmmədlə birgə Quba üsyanına rəhbərlik etmiş, rus qoşunları ilə döyüşlərdə misilsiz qəhrəmanlıqlar göstərmişdir.

1802-ci ildə Quba əyalətinin Hil kəndində anadan olmuş Yarəlinin ulu babası Yarəli bölgənin məşhur bəylərindən idi. Əyalətin ən böyük nəsillərindən olan Yarəlinin qohumlarından 200 nəfər onunla birlikdə silaha sarılmışdı. Ümumiyyətlə, Quba üsyanında Yarəlinin rəhbərliyi ilə 300 hilli iştirak etmişdi. Onun dəstəsində oğlu Rəcəblə yanaşı qohumlarından Yunus, Səlim, Əkbər, Şixəhməd, Cəfər, Yusuf və başqaları da döyüşürdü. Yarəli qorxu bilməyən, hərb işindən yaxşı baş çıxaran adam idi.

Quba üsyanı başlananda Yarəlinin 35 yaşı var idi. 1837-ci ildə rusların müdafiəsini yarıb Quba şəhərinə girən, 1838-ci ildə general Fezenin qoşunlarına qarşı döyüşən, həmin ilin sentyabrında kuzunlu Ağa bəy və rutullu Ağabəylə birlikdə Nuxa şəhərini rus müstəmləkəçilərindən azad edən məhz Yarəli olmuşdur.

Yarəlinin qəhrəmanlığı rus generallarını da heyrətə gətirmişdi. General-mayor Reutt 1837-ci ilin payızında Qafqaz canişininə göndərdiyi məlumatda yazmışdı: "...Bu hilli qartal öz ovuna divan tutduğu kimi, bizim qoşunlarımıza zərər yetirir. Cəsur, hərbi işlərdən yaxşı baş çıxaran Yarəlini ələ keçirmək üçün pul mükafatları da təyin etmişik, lakin onu tutmaq mümkün olmamışdır. Yarəli gah burada, gah orada, heç kəsin ağlına gəlməyən yerlərdə, qəfildən peyda olur".

Rus generalları Yarəlini "son dərəcə üsyankar ruhlu insan" adlandırmışdılar. O, 1839-cu ilin payızında sonuncu dəfə ruslarla döyüşmüş, düşmən əlinə keçməyərək, sağ qalmışdır. Qəhrəmanın sonrakı taleyi məlum deyildir.

## МУЬГЪУЬБАЛИ ЭФЕНДИ КУЗУНВИ
*(1868-1928)*

***Муьгъуьбали эфенди неинки Азербайжандизни Дагъустандиз, гьакI вири Къафкъаздиз сейли кас тир.***

Туьркияда кIелна хайи ватандиз хтай ада ина мектеб тешкилнай, философиядизни диндиз талукь са шумуд ктаб кхьей Муьгъуьбали эфендиди гьамиша кесибриз куьмек гудай. Са бязи чешмейра адан тIвар Муьгъуьбали Кузунски хьиз гьатнава.

1868-йисуз Къуба уезддин къадим Кузун хуьре дидедиз хьайи Муьгъуьбали девлетлу несилдай тир. Сиягьат авунал гзаф рикI алай ам Урусатдин са шумуд вилаятда, Уьзбекистанда, Туьркияда, Иранда ва маса уьлквейра хьанай.

1902-йисуз Бакуда чапдай акъатай "Ежегодник" кIватIалда курсант Бедел Гьажиева Муьгъуьбали эфендидикайни адан мектебдикай икI кхьенай: "Кузуна мектеб ачухарна ина тарсар гузвай Муьгъуьбали эфенди вириниз сейли кас я. Мектебдин салагъадин ва низамлувили гьасятда фикир желбда. Аялри гъевеслудаказ са шумуд илим чирзава. Абур эфендидивай жезмай кьван мадни пара чирвилер къачуз алахъзава".

Муьгъуьбали эфенди чи чIехи алим Гьасан Алкьвадарвидихъ, Къуба уезддин машгъур ксарикай тир Алибег Зизикскидихъ, Юсуф бег Абусаламбеговахъ галаз кIеви дуст тир. Вичихъ гегьенш дуьньяьякьатIунар ва чIехи алакьунар авай Муьгъуьбали эфенди Къуба уезддин нуфузлу ксарикай тир. Ада 1918-йисуз вичин ва Гьатем агъа ЧIакIарвидин яракьлуйрихъ галаз санал Азербайжандин Жумгьурият хуьн патал Яру кьушундин аксина женг чIугунай, 7 вацра Аладашда яру аскеррин рехъ атIана, большевикар Азербайжандиз ахъайначир.

Муьгъуьбали эфендиди Гьатем агъадин ва Алибег Зизикскидин кIеретIрихъ галаз санал большевикрин ва эрмени дашнакрин аксина къати женгер чIугунай ва 1918-йисан майдин вацра Къубадин Дигагь хуьре полковник А.Амазаспан кьушун дарбадагъ авуник чIехи пай кутунай.

Вичин къастунал кIеви тир Муьгъуьбали эфендиди Азербайжанда Совет гьукумат гьалиб атайдалай гуьгъуьнизни большевикрин аксина женг давамарнай. Гьавиляй адаз гьукуматдин патай къаст авунай ва 1928-йисуз ам яна кьенай.

## MÖHÜBƏLİ ƏFƏNDİ KUZUNVİ
*(1868-1928)*

***Möhübəli əfəndi nəinki Azərbaycanda və Dağıstanda tanınırdı, o, həmçinin bütün Qafqazda məşhur idi.***

Türkiyədə təhsil alıb doğma kəndinə qayıtmış Möhübəli əfəndi geniş dünyagörüşlü, savadlı adam idi. Xeyirxah əməlləri ilə tanınan bu adam kasıblara kömək etməyi mənəvi borc hesab edərdi. O, Kuzunda məktəb açmış, fəlsəfəyə və dinə aid bir neçə kitab yazmışdı. Bəzi məxəzlərdə onun adı Möhübəli Kuzunski kimi qeyd edilmişdir.

1868-ci ildə Quba qəzasının Kuzun kəndində dövlətli ailədə anadan olmuş Möhübəli əfəndi səyahət etməyi xoşlayardı. O, Rusiyanın bir neçə vilayətində, Özbəkistanda, Türkiyədə, İranda və başqa ölkələrdə olmuşdu.

1902-ci ildə Bakıda çap olunmuş "Yejeqodnik" toplusunda kursant Bədəl Hacıyev Möhübəli əfəndi və onun məktəbi haqqında belə yazmışdır: "Kuzunda məktəb açıb burada dərs deyən Möhübəli əfəndinin şöhrəti hər yana yayılıb. Buradakı nizam-intizam və səliqə-sahman diqqəti cəlb edir. Uşaqlar həvəslə bir neçə elmə yiyələnirlər. Onlar əfəndidən daha çox bilik öyrənməyə çalışırlar".

Möhübəli əfəndi məşhur ləzgi alimi Həsən Alqadari, Quba qəzasının tanınmış bəyləri Əli bəy Zizikski və Yusuf bəy Abusalambəyovla dostluq edirdi. Geniş dünyagörüşü, zəngin daxili aləmi olan bu adam Quba qəzasının nüfuzlu adamlarından sayılırdı. O, 1918-ci ildə özünün və cağarlı Hatəm ağanın silahlı dəstələri ilə birlikdə Aladaş düzündə 7 ay Qızıl Ordu hissələrinin qarşısını kəsmiş, qırmızıları Azərbaycana buraxmamışdı.

Olduqca cəsarətli və igid adam olan Möhübəli əfəndinin rəhbərliyi altında 1918-ci ilin may ayında silahlı dəstə Hatəm ağanın və Əli bəy Zizikskinin dəstələri ilə birlikdə Qubanın Digah kəndində polkovnik A.Amazaspın rəhbərlik etdiyi bolşeviklərdən və erməni daşnaklarından ibarət qoşunun darmadağın edilməsində yaxından iştirak etmişdi.

Öz əqidəsinə sadiq olan və son nəfəsinə kimi qətiyyətindən əl çəkməyən Möhübəli əfəndi Azərbaycanda Sovet hakimiyyəti qalib gəldikdən sonra da bolşeviklər əleyhinə mübarizəni davam etdirmişdir. Elə buna görə də yeni hökumətin nümayəndələri 1928-ci ildə sui-qəsd edib onu öldürdülər.

## ГЬАТЕМ АГЪА ЧIАКIАРВИ
*(1867-1922)*

***Гьатем агъа ЧIакIарви большевикрин ва эрмени дашнакрин аксина женг чIугур кьегьал я.***

Гьатем агъадин чIехи буба Аскеран тIвар 1871-йисуз генерал-майор Комарова туькIуьрай Куьре ва Самур округрин беглерин сиягъда гьатнава. И сиягъда 426 лезги бегдин тIварар кхьалурнава. Бубадилай 1000 десятин чилер, 300 кьил къарамалар ва балкIанар, са шумуд суьруь лапагар амай Гьатем агъади кесибриз куьмек гудай. 1917-йисуз Гьатем агъади урус пачагьди чпивай къахчунвай мулкар кьулухъ элкъуьрун патал алахъзавай Уьнуьгъ, Зинданмуругъ, Кузун, ЧIакIар хуьрерин агъалийрин бунтуниз регьбервал ганай.

Урусатда кIелна, военный рекьяй полковниквилин дережадиз акъатай Гьатем Серкерова 1918-йисуз Муьгъуьбали эфендидихъ галаз санал Азербайжандин Жумгьурият хуьн патал Яру Кьушундин аксина женг чIугунай. Санлай 23 варз кьван уьмуьр авур Жуьмгьуьрият 7 вацра и кьве кьегьал касдин гьисабдай яшамиш хьанай. Абурун кIеретIри Аладашда яру аскеррин рехъ атIана, большевикар Азербайжандиз ахъайначир.

Гьатем агъа, Муьгъуьбали эфенди ва Алибег Зизикски кьиле аваз КцIарин ва Къубадин лезгийри 1918-йисан майдин вацра Дигагь хуьруьн "Ивияр авахьай кIама" полковник А.Амазаспа регьбервал гузвай эрмени дашнакрин кьушун кукIварнай. 1920-йисан сентябрдин сифте кьилера Гьатем агъадинни Муьгъуьбали эфендидин кIеретIри большевикрин 246-полк кукIварна.

Идалай гуьгъуьниз, 1920-йисан 8-сентябрдиз Азербайжандин К(б)П-дин ЦК-ди Къуба уездда "инкъилабдин акси тир гьерекат" терг авун патал кьилди къарар кьабулна. Гьатем агъа муьтIуьгъарун патал иниз кьве полк ракъурна. Амма яру аскерар 300 кьегьал лезгидин вягьтедай фенач. Эхирни Совет гьукуматди Гьатем агъадихъ галаз ислягьвилин икьрар кутIунна ва ам Къуба уезддин милициядин идарадин начальниквиле тайинарна. Амма цIийи къурулушдин гьахъсузвилер акур ада 1922-йисуз и везифа гадарна ва цIийи кьилелай большевикрин аксина женг чIугуна. Адан 500 касдикай ибарат тир кIеретIди тупар ва 12 пулемет гвай 3 агъзур яру аскердин аксина кьве вацра женгер чIугуна ва ам гьелек хьана. Большевикри халкьдиз кичIерар гун патал Гьатем агъадин мейит фургъунда туна КцIарин ва Къубадин куьчейра къекъуьрнай ва женгчи лезгийрикай 160 кас Сибирдиз суьргуьн авунай.

## HATƏM AĞA CAĞARVİ
*(1867-1922)*

***Hatəm ağa Cağarvi bolşeviklərə və erməni daşnaklarına qarşı mübarizə aparmış qəhrəmandır.***

Hatəm Əsgər oğlu Sərkərovun babası Əsgərin adı 1871-ci ilin avqustun 20-də general-mayor Komarovun tərtib etdiyi Küre və Samur dairələri bəylərinin siyahısına düşüb. Bu siyahıda 426 ləzgi bəyinin adı göstərilib. Atasından 1000 desyatin torpaq, 300 baş qaramal və atlar, bir neçə qoyun sürüsü qalmış Hatəm ağa kasıblara əl tutardı. 1917-ci ildə Hatəm ağa Əniğ, Zindanmuruğ, Kuzun, Cağar kəndləri əhalisinin qiyamına rəhbərlik etmişdir. Onlar rus çarının kəndlilərdən aldığı mülkləri qaytarmaq istəyirdilər.

Rusiyada hərbi təhsil alıb, polkovnik rütbəsinə yüksəlmiş Hatəm Sərkərov 1918-ci ildə məşhur qəhrəman Möhübəli Kuzunvi ilə birlikdə Azərbaycan Demokratik Cümhuriyyətini müdafiə etmək üçün qırmızı qvardiyaçılara qarşı döyüşmüşdü. 23 ay fəaliyyət göstərmiş Cümhuriyyət 7 ay bu iki igidin hesabına yaşamışdı. Onlar silahlı dəstələri ilə Aladaş düzündə bolşeviklərin qarşısını kəsmiş, onları Azərbaycana buraxmamışlar.

Hatəm ağa həmçinin Möhübəli əfəndinin və Əli bəy Zizikskinin dəstələri ilə birlikdə dəfələrlə bolşeviklərə və erməni daşnaklarına qarşı vuruşmuşdur. Onlar 1918-ci ilin may ayında Quba rayonunun Digah kəndindəki "Qanlı dərə"də polkovnik A.Amazaspın güclü qoşununu darmadağın etmişdi.

Hatəm ağa Sovet hakimiyyəti qalib gəldikdən sonra da bolşeviklərə qarşı mübarizəni davam etdirir. 1920-ci ilin sentyabrın əvvəllərində onun və Möhübəli əfəndinin silahlı dəstələri bolşeviklərin 246-cı polkunu darmadağın edir. Bu hadisədən sonra, 1921-ci ilin sentyabrın 8-də Azərbaycan K(b)P MK Quba qəzasında "əksinqilabi hərəkatı" ləğv etməklə bağlı xüsusi qərar qəbul etdi və Hatəm ağanı ələ keçirmək üçün Qusara 2 polk göndərdi. Lakin qırmızı əsgərlər Hatəm ağanın rəhbərlik etdiyi 300 döyüşçü ilə bacarmadı. Belə olduqda, Sovet hökuməti Hatəm ağa ilə sülh müqaviləsi bağlayıb, onu Quba qəzası milis idarəsinin rəisi təyin etdi. Amma yeni quruluşun haqsızlıqlarını görən Hatəm ağa 1922-ci ildə həmin vəzifədən imtina edərək, yenidən bolşeviklərə qarşı mübarizəyə qalxdı. O, 500 döyüşçüsü ilə 12 topa və pulemyota malik 3000 sovet əsgərinə qarşı 2 ay döyüşdü və qəhrəmancasına həlak oldu. Bolşeviklər xalqın gözünü qorxutmaq üçün Hatəm ağanın cəsədini furqona qoyub, Qusar və Qubanın küçələrində gəzdirmiş, 160 silahlı ləzgini Sibirə sürgün etmişdi.

## КЪУБАДИН ГЕНОЦИД ВА КЦIАРВИЯР

***1918-йисуз эрмени дашнакри ва большевикри Къуба уезддин агъалийриз къур дуван XX виш йисан сифте кьилерин тарихда чIехи мусибат хьиз гьатнава.***



Тарихчийри "Къубадин геноцид" тIвар ганвай а вакъиайрин вахтунда эрменибольшевик къушунри Къуба уезддин 162 хуьр чукIурнай, абурукай 27 хуьруьз агьалиярни аваз цIай янай, санлай 16 агъзурдалай гзаф мусурманар - лезгияр, азербайжанвияр, татар ва масабур къирмишнай.

Чапхунчийрин къушун кьиляй-кьилиз яракьламиш хьуниз ва кьадардал гьалтайла гзаф хьуниз килиг тавуна, чкадин агьалийри душмандин аксина кьегьалвилелди женг чIугвазвай. Женгчийрин кьилин къуватар КцIарин ЧIакIар хуьряй тир Гьатем агъадин ва Кузунай тир Муьгъуьбали эфендидин кIеретIар тир. Абуруз къубави Алибег Зизикскидин, Хачмазин Шихлар хуьруьн беглерин, девечиви Гьамдуллагь эфендидин, къунахкентви Къачагь Майилан кIеретIри, гьакIни Дагъустандин лезгийри куьмек гузвай.

1918-йисан майдин вацра Къуба райондин Дигагь хуьруьн гила "Къанлу дере" лугъузвай чкадал душмандин къуватар кукIвардайла кцIарвийри иллаки чIехи къагьриманвилер къалурнай. Гьавиляй 1998-йисан октябрдин вацран эвелра КцIар райондин сечкичийрихъ галаз гуьруьшмиш хьайи вахтунда дуьньядин тIвар-ван авай сиясатчи Гьейдар Алиева лагьанай: "Къанлу дереда" 1918-йисуз кцIарвийри Азербайжан халкьдиз басрух гайи эрмени миллетчийрин вилик пад кьунай ва абур дарбадагъ-найˮ. И гафари гьар са кцIарвидик руьгь кутазва.

Тарихдин чешмейрай аквазвайвал, 1918-йисан майдин вацра эрмени дашнакринни большевикрин аксина КцIарай Гьатем Саркарован регьбервилик кваз 1000 касдикай, Муьгъубали Магьамадован регьбервилик кваз 1000 касдикай, Мегьамед Мелико-

## QUBA QENOSİDİ VƏ QUSARLILAR

***1918-ci ildə erməni daşnaklarının və bolşeviklərin Quba qəzasında törətdikləri qırğınlar XX əsrin əvvəllərində həyata keçirilmiş ən dəhşətli soyqırımlardan biri kimi tarixə düşüb.***

Tarixçilərin "Quba genosidi" adlandırdıqları qırğınlar zamanı işğalçı erməni-bolşevik qoşunları Quba qəzasında 162 kəndi dağıtmış, onlardan 27-sini əhalisi ilə birlikdə yandırmış, 16 min nəfərdən çox müsəlmanı - ləzgiləri, azərbaycanlıları, tatları və başqalarını qətlə yetirmişlər.

Tarixi faktlardan məlum olduğu kimi, İşğalçıların təpədəndırnağadək silahlanmasına, sayca qat-qat çox olmasına baxmayaraq, yerli əhali düşmənə qarşı qəhrəmancasına mübarizə aparırdı. Mübarizənin aparıcı qüvvəsi Qusarın Cağar kəndindən olan Hatəm ağanın və Kuzun kəndindən olan Möhübəli əfəndinin döyüşçü dəstələri idi. Onlara qubalı Əlibəy Zizikskinin, Xaçmazın Şıxlar kəndinin bəylərinin, dəvəçili Həmdulla əfəndinin, qonaqkəndli Qaçaq Mayılın dəstələri, həmçinin Dağıstandan gəlmiş ləzgi dəstələri də kömək edirdilər.

1918-ci ilin may ayında Qubanın Digah kəndi ərazisində, indi "Qanlı dərə" adlanan yerdə düşmənin darmadağın edilməsində qusarlılar xüsusilə böyük qəhrəmanlıqlar göstərmişlər. Ona görə də 1998-ci ilin oktyabrın əvvəllərində Qusar rayonunun seçiciləri ilə görüşü zamanı dünya şöhrətli siyasətçi Heydər Əliyev demişdi: "Qanlı dərədə 1918-ci ildə qusarlılar Azərbaycan xalqına təcavüz edən erməni millətçilərinin qarşısını alıb, onları darmadağın etmişlər". Bu sözlər hər bir qusarlının qəlbində böyük qürur doğurur.

Tarixi sənədlərdən göründüyü kimi, 1918-ci ilin mayında erməni daşnakları və bolşeviklərlə döyüşlərdə Qusar nahiyəsindən Hatəm Sərkarovun rəhbərliyi ilə 1000 nəfərlik, Möhübəli Mahamadovun rəhbərliyi ilə 1000 nəfərlik, Məhəmməd Məlikovun və

ван ва Нуреддин Шерифован регьбервилик кваз 300 касдикай ибарат кIеретIри, кузунви къачагъ Расулан, гадацIийихуьурунви Гуьлмегьамед Нуралидин хцин, вурвуви Мегьди Шейдабеган хцин, хуьлуьхъви Гьажи Жавадан, аваранви Гьажи Шейда Назаралидин хцин, манкъулидхуьруьнви Абдуллагь Саруханован, хьиливияр тир Мегьамед Гьажиеван ва Гуьлмегьамед Муьршуьдован, эчIехуьруьнви Таждидин Эфендиеван, чIакIарви Нурмет Мегьамедован, тIигьирви Идрис Чубанан гьарадан 100 касдикай ибарат тир кIеретIри, Зеки Расулова Уьнуьгъ, Зинданмуругъ ва ЧIакIар хуьрерай кIватIнавай 300 касдикай ибарат кIеретIди, гьакIни гадацIийихуьруьнви Нуьдуьр Исламован, яргунви Ханбуба Агъасиеван гьарадан 80 касдикай ибарат тир кIеретIри, ясабви Мирзебег Илясован, вурвуви Зуьлфали Азизован, эвежугъви Агъа эфендидин, агъалакарви Эбил Сеферован, цIийихуьруньви Абдулладин гьарадан 40-60 касдикай ибарат тир кIеретIри кьегьалвилелди женг чIугунай.

А вахтунда ксарихъ галаз санал чи дишегьлиярни женгерив эгечIнай. Вичин кIеретIдихъ галаз санал 100 эрмени кьена, абурун са туп кукIварай Гьамид Ашуров душмандин гуьлледиз туьш хьанай ва адан мейит гьабурун пата амукьнай. Идакай хабар кьур адан папа Угъланагъади касдин пекер алукIна, гьиле яракь кьунай. Ада душмандиз гуьлле гуз-гуз вичин касдин мейит майдандай акъуднай, ам кучукайдалай кьулухъ женг эхирдал кьван давамарнай. Ихьтин мисалар гзаф гьиз жеда.

Эхиримжи йисара тарихчийри винел акъудай делилри, Атахан Пашаева, Анар Искендерова ва маса тарихчийри республикадин газетрин чинриз акъудай макъалайри, гьакIни Солмаз Тогьидидин и темадай кьилди ктабди кцIарвийри кьегьалвилелди женг чIугурди мад гьилера субутна. Муьзеффер Меликмамедова вичин "Къанлу дере" ктабда кцIарвийрин кьегьалвилериз лайихлудаказ къимет гана.

2009-йисан 18-сентябрдиз гьукуматди КцIар шегьерда "Къанлу дередин" къагьриманриз гзаф зурба гуьмбет эцигна.

Nurəddin Şərifovun rəhbərliyi ilə 300 nəfərlik, kuzunlu qaçaq Rəsulun, gədəzeyxürlü Gülməhəmməd Nurəli oğlunun, urvalı Mehdi Şeydabəy oğlunun, xuluqlu Hacı Cavadın, avaranlı Hacı Şeyda Nəzərəli oğlunun, imamqulukəndli Abdullah Saruxanovun, hilli Məhəmməd Hacıyevin və Gülməhəmməd Mürşüdovrün, əcəxürlü Taciddin Əfəndiyevin, cağarlı Nurmət Məmmədovun, düztahirli İdris Çubanan hərəsinin 100 nəfərlik dəstələri, Zəki Rəsulovun Əniğ, Zindanmuruq və Cağar kəndlərindən topladığı 300 nəfərlik dəstə, o cümlədən gədəzeyxürlü Nüdür İslamovun, həzrəli Xanbuba Ağasiyevin hərəsinin 80 nəfərlik dəstələri, həmçinin yasablı Mirzəbəy İlyasovun, urvalı Zülfəli Əzizovun, əvəcuqlu Ağa Əfəndinin, aşağı ləgərli Əbil Səfərovun, zeyxurlu Abdullanın 40-60 nəfərlik dəstələri böyük şücaətlə döyüşmüşdür.

O vaxt kişilərlə yanaşı qusarlı qadınlar da silaha sarılmış, xalqın mübarizə tarixinə şanlı səhifələr yazmışlar. Həmid Aşurov öz dəstəsi ilə ermənilərin 100-ə yaxın əsgərini və bir topunu sıradan çıxarıb geri qayıdanda düşmən gülləsinə tuş gəlir. Onun cəsədi döyüş meydanında qalır. Bunu eşidən Uğlanağa Aşurova kişi paltarını geyinib döyüş yerinə gəlir və ərinin cəsədini oradan çıxarır. Bundan sonra o, axıra kimi düşmənlə döyüşür. Belə misallar çoxdur.

Son illərdə tarixi həqiqətlərin üzə çıxarılması və əsrin əvvəllərində baş vermiş hadisələrə layiqincə qiymət verilməsi, Ataxan Paşayev, Anar İskəndərov və başqa tarixçilərin respublika mətbuatında dərc olunan məqalələri, Solmaz Tohidinin bu mövzuda nəşr etdirdiyi kitabı qusarlıların o dövrdəki qəhrəmanlıqlarını bir daha təsdiq etdi. Müzəffər Məlikməmmədovun bölgə əhalisinin erməni daşnaklarına və bolşeviklərə qarşı mübarizəsindən bəhs edən "Qanlı dərə" kitabında qusarlıların qəhrəmanlığına böyük qiymət verildi.

2009-cu ilin sentyabrın 18-də Qusar şəhərində hökumət tərəfindən "Qanlı dərə" qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldıldı.

## ВАТАНДИН ЧIЕХИ ДЯВЕДИН КЪАГЪРИМАНАР

### ТАРИХДИН РИКIЕЛ ХКУНАР

Ватандин ЧIехи дяведа чи халкьари гъалибвал къазанмишайдалай 65 йис алатнаватIани, адан хирер гьелени алатнавач. ИкI тирди КцIарин чилерални хъсандиз кьатIуз жеда. КцIарвияр патал и дяве гьам кьегьалвилин майдан, гьамни чIехи азиятар чIугур, агъзурралди инсанар квадарай йисар хьана.

А чIавуз вичин агьалийрин кьадар 50 агъзурдав агакьнавай КцIарай агьалийрин вадакай са пай - 10125 кас дяведиз ракъурнай, абурукай 3905 кас кьулухъ элкъвеначир. Анжах са 1941-йисан июндин эхиримжи кьве юкъуз инай 200 жегьил гуьгьуьллудаказ дяведиз фенай. Абурун арада КцIарин педтехникумдин студентарни авай.

Тек са Хьиляй са агъзур кас дяведиз тухванай. Абурун са паяр женгера гьелек хьанай. Мите Къайинбегован 11 хцикай 9 дяведиз ракъурнай, абурукай 6 саламатдиз кьулухъ элкъвенай. Уьнугъви Изетуллагь Абдуллаев дяведиз вичин буба Кебетуллагьахъ галаз санал фенай. Буба гьелек хьана, хва саламатдиз хтанай.

Ингъе дяведихъ мужидатарни авай. Бедирхан Адилханован 4 хва - Бургьаддин, Адилхан, Гьатем ва Жаруллагь са юкъуз дяведиз рекье тунай. Дяве куьтягь хьайила абур кьудни саламатдиз хайи хуьруьз хтанай. Камал Алиеван чIулав кагъаз къахчур хайибур адахъ гзаф шехьнай. Дяве куьтягь хьайила ам сагъ-саламат яз акурла вири къах хьанай.

1942-йисуз вич дяведа гьелек хьанва лагьай хабар хайибурал агакьай ясабви Нуреддин Ханалиевал Пензадин моргуна пуд йикъалай чан хтанай. Залан хирер хьайи кьегьал сагъ хьайидалай кьулухъ женгерив эхгечIнай. Дяведай сагъ-саламат яз хайи хуьруьз хтай Нуреддин агьил вахтунда рагьметдиз фенай.

И дяве вичин амансуз къанунралдини рикIерал аламукьна. Кичанви Элгьед Исмаилов фашистрин хура акъвазай вахтунда адан къуьзуь буба Серкер 1944-йисуз советрин аксина теблигъат тухузвай кас хьиз дустагъда тунай ва ам гьана рагьметдиз фенай. Элгьед Исмаилова бубадин тIвар михьидиз акъудун патал яргъал йисара зегьмет чIугунай ва эхирни ам вичин мураддив агакьнай.

КцIарви Багъиш Султанован 3 хва - Абумуьслуьм,

## BÖYÜK VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANLARI

### TARİXİN YADDAŞI

Böyük Vətən müharibəsində postsovet məkanı xalqlarının tarixi qələbəsindən 65 il keçməsinə baxmayaraq, müharibənin vurduğu yaralar hələ də sağalmamışdır. Qusar rayonunun timsalında bunu daha aydın görmək olar. Qusarlılar üçün bu müharibə həm igidlik və sınaq meydanı, həm ağrılı-acılı, itkilər dolu illər olmuşdur.

O vaxt sayı 50 min nəfərdən çox olmayan Qusar rayonu əhalisinin təxminən beşdə biri - 10125 nəfər səfərbərliyə alınmış, onlardan 3905-i geri qayıtmamışdır. Təkcə 1941-ci ilin iyunun son iki günündə Qusardan 200 gənc könüllü olaraq cəbhəyə yola düşmüşdür. Onların arasında Qusar pedaqoji texnikumunun tələbələri də var idi.

Təkcə Hil kəndi müharibəyə 1000 nəfər göndərmişdir. Mitə Qayınbəyovun 11 oğlundan 9-u cəbhəyə getmiş, onlardan 3-ü həlak olmuş, 6-sı sağ-salamat geri qayıtmışdır. Bədirxan Adilovun 4 oğlu - Burhaddin, Adilxan, Hətəm və Carullah bir gündə müharibəyə yola salınmış, müharibədən onların dördü də sağ-salamat geri qayıtmışdır.

Lakin müharibə gözlənilməz hadisələrlə də dolu olmuşdur. 1944-cü ildə Kamal Əliyevin cəbhədə həlak olması haqqında rəsmi sənəd alan hillilər üçün qələbədən sonra onun doğma vətənə qayıtması əsl bayram olmuşdu. Əniğli Kəbətullah Abdullayev müharibəyə oğlu İzətullah ilə bir yerdə yola düşmüşdür. Ata cəbhədə həlak olmuş, oğul isə müharibə alovlarından qurtulub vətəninə dönmüşdür.

1942-ci ildə ağır yaralanıb həlak olması xəbəri doğma Yasab kəndinə çatmış Nurəddin Xanaliyev bir neçə gün Penza meyitxanasında qalmış, möcüzə nəticəsində həyata qayıtmış, müharibədən sonra uzun illər doğma kəndində ömür sürmüşdür.

Müharibə öz amansız qanunları ilə də yadda qalmışdır. Əlhəd İsmayılov faşistlərlə ölüm-dirim mübarizəsi apardığı vaxt onun qoca atası Sərkəri antisovet təbliğatı aparan şəxs kimi ləkələyərək, həbs etmişlər və ağsaqqal həbsxanada vəfat etmişdir. Atasının adının təmizə çıxarılması üçün Ə.İsmayılov ömrünün sonuna kimi mübarizə aparmış, nəhayət, buna nail olmuşdur.

Qusarlı Bağış Sultanovun üç oğlu - Abumüslüm, Məcvəddin və Sultan bir gündə davaya getmişdir. Onlardan ən kiçiyi olan Sultan 1936-cı ildə Azərbaycan

Межведдин ва Султан са юкъуз дяведиз ракъурнай. Султана Азербайжандин Гьукуматдин Медицинадин Институт акьалтIарна, Бердеда ва КцIара духтурвиле кIвалахнай. Савадлу ва дерин дуьньякьатIунрин инсан тир Султана жемятдин патай чIехи гьуьрмет къазанмишнай. Ингье дяведа кьегьалвилелди женг чIугур Султанал буьгьтен вегьена, ам 10 йисуз Свердловскда дустагьда тунай. И гьахьсузвилериз эхиз тахьай кас вич азад авур са йисалай рикIин инфарктдикай рагьметдиз фенай.

Ихьтин гьахьсузвилериз килиг тавуна, кцIарвийри халисан къагьриманвилин тарихар кхьенай. Дяведа райондай вишералди офицерри иштиракнай. КцIар райондин райкомдин сад лагьай секретарь хьайи Гьаким Мирзеханов дяве гатIунайла гуьгьуьллудаказ гьиле яракь кьур сад лагьай везифалу кас тир. Гуьгъунлай Франциядин азадвилин гьерекатдин регьберрикай сад хьайи адакай Франциядин газетрин ва журналрин чинриз гзаф макъалаяр акъатнай.

КIурви майор Ибрагьим Мирзекъулиев дяведиз райондин азарханадин кьилин духтурвиляй фенай. Ам дяведай саламат хтанай, адан стхаяр Мамедкъулу ва Сейиджамал лагьайтIа, 1942-йисуз гьелек хьанай.

Ватандин ЧIехи дяведи вич дуьньядиз сейли авур генерал Магьмуд Абилова вичин ватан КцIар вириниз машгьурнай. КцIарай тир пуд касдиз - Мирзе Велиеваз, Александр Рыбниковаз ва Адил Къулиеваз Советрин Союздин Игитвилин гьуьрметдин тIвар ганай.

Къиримханов Шуькуьр Къиримханан хци вичи къалурай кьегьалвилерай 75 гьилерда Сталинан баркалладин чарар къачунай. Пуд кцIарвидиз дяведин вахтунда "Женгинин Яру Пайдах" орден ганай. Ибур Абдулгьалим Абдулгьалимов, Салат Мевланов ва Байрам Байрамов тир. Бедиржагьан Зекиевади дяведин йисара Вольф ва Наргин къураматра авай зенитдин отделенийра 2 йисуз прожекторчи хьиз къуллугъ авунай.

Ибур а четин ва залан йисарин куьруь эпизодар я. Фашизмди арадал гьайи мусибатриз килиг тавуна, а йисара кцIарвийрини ЧIехи Гьалибвилик пай кутуна. КцIарви аскерри, офицерри виринра душмандин аксина кьегьалвилелди женг чIугуна. Агьзурралди чи ватанэгьлийри азадвал патал чпин чанар къурбанд авуна.

Агьадихъ чна Ватандин ЧIехи дяведа тафаватлу хьайи кьегьалрикай куьруь малуматар гузва.

Dövlət Tibb İnstitutunu bitirib, əvvəl Bərdədə, sonradan isə Qusarda həkim işləmişdir. Savadlı və geniş dünyagörüşlü Sultan rayon zəhmətkeşlərinin böyük hörmətini qazanmışdı. Cəbhədə qəhrəmanlıqla döyüşən Sultan heç bir günahı olmadığı halda 1942-ci ilin sonlarında həbs edilərək, 10 il Sverdlovsk həbsxanasında saxlanmışdır. Ona qarşı edilmiş haqsızlığa dözə bilməyən Sultan azadlığa çıxdıqdan bir il sonra ürək infarktından vəfat etmişdir.

Böyük Vətən müharibəsi qusarlıların yaddaşına çoxlu qəhrəmanlıq səhifələri ilə yazıldı. Qusar Rayon Partiya Komitəsinin birinci katibi Həkim Mirzəxanov müharibənin ilk günlərində könüllü olaraq cəbhəyə yola düşən ilk yüksək vəzifə sahiblərindən biri idi. Fransa müqavimət hərəkatının rəhbərlərindən biri olan H.Mirzəxanovun igidlikləri barədə Fransa mətbuatında çoxlu materiallar dərc olunmuşdur.

Ukur kəndindən olan İbrahim Məirzəquliyev isə səhiyyə şöbəsinin müdiri vəzifəsindən könüllü olaraq cəbhəyə yola düşmüşdü. Mayor İbrahim Mirzəquliyev müharibədən sağ-salamat qayıtmış, lakin qardaşları Məmmədqulu və Seyidcamal isə 1942-ci ildə həlak olmuşlar.

Böyük Vətən müharibəsində mətinləşmiş, döyüşlərə rəhbərlikdə qətiyyət və savad nümayiş etdirmiş dünya şöhrətli sərkərdə - general Mahmud Əbilov Qusarın yetirməsidir. Qusardan üç döyüşçü - Mirzə Vəliyev, Aleksandr Rıbnikov və Adil Quliyev Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldülər. Yüzlərlə qusarlı Vətənin ən yüksək orden və medalları ilə təltif edildilər.

Şükür Qirimxan oğlu Qirimxanov cəbhədə göstərdiyi şücaətlərə görə rekord sayda - 75 dəfə Stalinin yazılı təşəkkürnaməsini almışdır. Üç qusarlı Böyük Vətən müharibəsi illərində "Qırmızı Döyüş Bayrağı" ordeni ilə təltif olunub. Bunlar Salat Mövlanov, Əbdülhəlim Əbdülhəlimov və Bayram Bayramov idi. Tibb bacısı Bədircahan Zəkiyeva müharibə illərində Volf və Nargin adalarında zenit hissələrində 2 il projektorçu kimi xidmət etmişdir.

Bütün bu fraqmentlər o uzun və keşməkeşli illərin kiçik anlarıdır. Faşizmin dünyanı düçar etdiyi müsibətlərə baxmayaraq, o illərdə qusarlılar da Böyük Qələbənin qazanılmasına layiqli töhfə vermişlər. Qusarlı əsgərlər və zabitlər hər yerdə düşmənə qarşı igidliklə döyüşürdülər. Minlərlə həmyerlimiz azadlıq uğrunda mübarizədə canlarından keçmişdir.

Bu fəsildə bir sıra müharibə qəhrəmanları haqqında qısa məlumat veririk.

## МАГЪМУД АБИЛОВ

***Генерал-майор Магъмуд Абилован тIвар дуьньядин машгьур генералрин сиягьда гьатнава. Ватандин ЧIехи дяведа дивизиядиз регьбервал гайи ада военный тактикадиз гзаф цIийивилер гьанай.***



***(1898-1972)***

Лезгийрин кьегьал хва Магьмуд Абдулрзадин хва Абилов 1898-йисуз КцIар райондин КIур хуьре дидедиз хьана. 1920-йисуз Бакуда Яру Армиядин жергейрик экечIай Магьмуда уьмуьрдин эхирдалди ватандиз къуллугъна.

1921-йисуз Бакуда военный мектеб акьалтIарай ам къуллугъ авун патал Урусатдиз ракъурнай. Са вахтунда и алакьунар авай жегьил Нижний Новгороддин 17-дивизиядин 49-полкунин ротадин командирвиле тайинарнай. 1922-йисалай М.Абилова Азербайжандин 77-дивизияда къуллугъна. 1929-1930-йисара ам Тифлис шегьердин военный мектебдин курсант, анаг кIелна куьтягьайла ротадин командир тир. 1937-йисуз Бакудиз хтай Магьмудаз Жемшид Нахчиванский, Самедбег Мегьмандаров, Алиагъа Шихлинский ва Гамбой Везиров хьтин сейли военныйрихъ галаз санал кIвалахун несиб хьана.

1938-йисуз вини дережадин офицервилин курс акьалтIарай Магьмуд Абиловал Дальний Востокдин Военный Округдин стрелковый корпусдин бригададин разведкадин частунин командирвал ихтибарна. И частуни Япон гьуьлуьн къерехда японрин самурайрихъ галаз женгера къагьриманвилер къалурна.

М.Абилова Ватандин ЧIехи дяведин тарихдин зурба чинар кхьена. 1939-1941-йисара М.Абилов дивизиядин командирдин заместителвиле тайинарна. Инай ам кIелун патал Москвадиз, Яру Армиядин Кьилин Штабдин Академиядиз ракъурна. Академия акьалтIарайла адаз Сибирдин Военный Округдин 146-стрелковый бригададин командирвал тагькимарна.

1942-1943-йисара Лычково-Белый Бордин патав дяведиз гьазур хьайи адан бригадади душмандин сенгерар кьиляй-кьилди чукIурна, фашистриз Ленинграддиз гьахьдай мумкинвал ганач. Идалай гуьгъуьниз М.Абилова Калуга шегьерда 146-бригададин бинедал алаз 70-дивизия тешкилна ва Москва хуьн патал кьиле фейи женгера иштиракна. Адан дивизияди 300-далай гзаф хуьрерни шегьерар фашистрин пацукай хкудна. Десна вацIун къерехда кьиле фейи къати женгера полковник М.Абилова къагь-

## MAHMUD ƏBİLOV

***General-mayor Mahmud Əbilovun adı dünyanın məşhur generallarının siyahısına düşmüşdür. Böyük Vətən müharibəsi illərində diviziyaya rəhbərlik etmiş bu hərbçinin döyüş taktikasına gətirdiyi yeniliklər dərsliklərə salınmışdır.***

Görkəmli hərbi xadim Mahmud Abdülrza oğlu Əbilov 1898-ci ildə Qusar rayonunun Ukur kəndində anadan olmuşdur. M.Əbilov 1920-ci ildə Bakıda Qızıl Ordu sıralarına daxil olmuş və taleyini Silahlı Qüvvələrlə bağlamışdır.

1921-ci ildə Bakı hərbi məktəbini bitirib Uzaq Şərqə təyinat almış, 17-ci Nijni Novqorod atıcı diviziyasının 49-cu atıcı alayında bölük komandiri olmuşdur. 1922-ci ildə Bakıdakı 77-ci Azərbaycan dağ-atıcı diviziyasına taqım komandiri vəzifəsinə təyin edilmişdir. 1926-1929-cu illərdə 3-cü Bakı atıcı alayında bölük komandiri, 1929-1930-cu ilərdə Tiflis şəhərindəki Zaqafqaziya piyada məktəbində kursant olmuşdur. Tiflis hərbi piyadalar məktəbini bitirib 1932-1937-ci illərdə bölük komandiri olmuş, Bakıda 230-cu atıcı alayının komandiri vəzifəsinə təyin edilmişdir. Mahmud Əbilov Azərbaycanın Cəmşid Naxçıvanski, Səmədbəy Mehmandarov, Əliağa Şıxlinski, Qamboy Vəzirov kimi görkəmli hərbi xadimləri ilə bir yerdə çalışmışdır.

1938-ci ildə ali zabitlər kursunu bitirdikdən sonra Mahmud Əbilov Uzaq Şərq Dairəsinə göndərilmiş, 59-cu atıcı korpusunun 2-ci əlahiddə atıcı briqadasının kəşfiyyat bölməsinin rəisi təyin olunmuşdur. Onun rəhbərlik etdiyi hissə Xasan gölü ətrafında yapon samuraylarına qarşı döyüşlərdə qəhrəmanlıq nümunələri göstərmişdir.

M.Əbilov Böyük Vətən müharibəsi salnaməsinə şanlı səhifələr yazmışdır. 1939-cu ilin avqustundan 1941-ci ilin avqustunadək o, diviziya komandirinin müavini olmuşdur. Moskva şəhərində Fəhlə-Kəndli Qızıl Ordusu Baş Qərargahı Akademiyasını bitirən M.Əbilov Sibir Hərbi Dairəsinin 146-cı əlahiddə atıcı briqadasının komandiri təyin edilir.

1942-ci ilin iyulundan 1943-cü ilin fevralınadək Mahmud Əbilovun briqadası Lıçkovo-Belıy Bor ətrafında hücum əməliyyatlarına hazırlıq görür, düşmənin Leninqrad şəhərinə daxil olması planının qarşısını alır. Kaluqa şəhərində 146-cı atıcı briqadasının bazasında 70-ci atıcı diviziyasını təşkil edən M.Əbilov Moskva ətrafında gedən ağır döyüşlərə cəlb olunur və 300-dən

риманвилинни тешкилатчивилин чешне къалурна. 1944-йисан мартдилай ада 70-дивизиядиз регьбервал гана ва гуьгъуьнлай ам II Белорусиядин Фронтдин 250-Бобруйск дивизиядин командирвиле тайинарна. Адан регьбервилик кваз и дивизия 1944-йисан 22-июндиз фашистрин "Меркез" группировка дарбадагъ авун патал къати женгерив эгечIна. Дивизияди Белорусиядин вишералди шегьерар ва хуьрер душмандикай азад авуна. Польшадин сергьятар элячIна, инай фашистар чукурайдалай гуьгъуьниз дивизия РагъэкъечIдай Пруссиядиз гьахьна.

1945-йисан 20-апрелдиз СССР-дин Халкьдин Комиссаррин Советдин къарардалди М.Абиловаз генерал-майордин чин гана. Гьа йисан 7-майдиз М.Абилован кьушунди Эльба вацIун къерехар фашистрикай михьна ва адан яракьлу къуватар союзникрин кьушунрихъ галаз гуьруьшмиш хьана. Германиядин Бранденбург шегьерда кьиле фейи дяведа къалурай къагьриманвилерай генерал-майор М.Абилов Америкадин "Легион-оф-мерит" ордендиз лайихлу хьана. Америкадин Президент Гарри Трумена Магьмудаз ракъурай чар дуьньядин печатдин органри сад лагьай чинра чап авуна.

*"ЛАЦУ КIВАЛ, ВАШИНГТОН.*

***Яру Армиядин 250-дивизиядин командир, генерал-майор Магьмуд Абилова 1943-йисан августдилай 1945-йисан майдал кьван кьиле фейи женгера ва чуьлда дяведин везифаяр кьилиз акъудун патал гьерекатар алакъаламишунин карда лугьуз тежедай хьтин чIехи бажарагъ къалурна. Адан регьбервилик квай дивизияди Десна вацIал вегьена ва муькуь йисуз Нарев вацIун рагъакIидай кьер кьуна. Идалай кьулухъ ада РагъэкъечIдай Пруссия галайнихъ гьерекат авуна, душмандин чIехи группаяр дарбадагъна, Берлиндив агакьна. Ам даим вичин дивизиядин кIвенкIве хьана ва рагъакIидай патан сюзникрихъ галаз гъалибвилин гуьруьш гьазурайбурукай сад хьана. Генерал Абилован кьегьалвилери ва къалурай гьунарри Европада санал операцияр тухунин кардик чIехи пай кутуна.***

***АСШ-дин Президент Гарри Трумен"***

1946-йисан июлдиз Советрин Яракьлу Къуватрин кьадар тIимиларунихъ галаз алакъалу яз маса дивизияр хьиз Бобруйск дивизияни чукIурна. М.Абилова Белорусиядин Военный Округдин 96-бригададин командирдин заместителвиле, гуьгъуьнлай 28-Армиядин 41-корпусдин командирдин заместител-

çox yaşayış məntəqəsini azad edir. Desna çayı sahillərində polkovnik Mahmud Əbilov əsl şücaət və təşkilatçılıq qabiliyyəti nümayiş etdirir. O, 1944-cü ilin mart ayınadək 70-ci atıcı diviziyaya, bir qədər sonra II Belorusiya Cəbhəsinin Bobruysk diviziyasına komandir təyin olunur. 1944-cü ilin iyunun 22-də alman faşistlərinin "Mərkəz" qruplaşmasının darmadağın edilməsi istiqamətində Belorusiyaya hücum əməliyyatı başlanır. Polkovnik Mahmud Əbilovun diviziyası Belorusiya ərazisində yüzlərlə şəhəri və yaşayış məntəqəsini azad edərək, Polşa sərhədlərinə çıxır. Polşanın bir çox yaşayış məntəqələrini azad edib Şərqi Prussiya sərhədinə çatır.

1945-ci ilin aprelin 20-də SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Mahmud Əbilova general-mayor rütbəsi verilir. 1945-ci ilin mayın 7-də əbilovçular Elba çayına çataraq, ərazini düşməndən təmizləyir və müttəfiqlərin hərbi hissələri ilə görüşürlər. Almaniyanın Brandenburq şəhərində keçirilən əməliyyata görə general-mayor Mahmud Əbilov Amerikanın fəxri "Legion-of-merit" ordeni ilə təltif olunur. Bu münasibətlə ABŞ Prezidentinin Mahmud Əbilova göndərdiyi təbrik teleqramı dünya mətbuat orqanlarının birinci səhifələrində çap olunur.

*"AĞ EV, VAŞİNQTON.*

***Qızıl Ordunun 250-ci diviziyasının komandiri, general-mayor Mahmud Əbilov 1943-cü ilin avqustundan 1945-ci ilin mayına kimi keçirilmiş döyüşlərə rəhbərlikdə və çöl əməliyyatlarının əlaqələndirilməsində olduqca böyük bacarıq nümayiş etdirmişdir. Onun rəhbərlik etdiyi diviziya Desna çayına hücum etmiş və növbəti il Narev çayının qərb sahilini tutmuşdur. Bundan sonra o, Şərqi Prussiyaya tərəf hərəkət edərək, düşmənin böyük qruplarını məhv etmiş və Berlinə yaxınlaşmışdır. O, daim öz diviziyasının öncülü olmuş və Qərb müttəfiqləri ilə qalibiyyət görüşünü hazırlayanlardan biri olmuşdur.***

***General Əbilovun misilsiz şücaəti və göstərdiyi şəxsi igidlik Avropada birgə əməliyyatların müvəffəqiyyətinə böyük töhfə vermişdir.***

***ABŞ Prezidenti Harri Trumen"***

1946-cı ilin iyul ayında Sovet Silahlı Qüvvələrinin sayının azaldılması ilə əlaqədar olaraq Bobruysk diviziyası ləğv olunur. Lakin general-mayor Mahmud Əbilov hərbi xidmətini davam etdirir. 1946-cı ilin iyulunda o, Belorusiya Hərbi Dairəsinin 96-cı briqadasının komandir müavini, 1946-cı ilin oktyabrında 28-ci Or-

виле къуллугъ авуна.

1951-йисуз генерал-майор М.Абилов Ворошилован тIварунихъ галай Военный Академиядиз ракъурна. 1954-йисуз инаг акьалтIарай ам 216-дивизиядин командирвиле тайинарна. 1955-йисан 13-декабрдиз отставкадиз экъечIай Магьмуд Абилова вичин уьмуьрдин эхирдалди жегьил несил ватанпересвилин руьгьда тербия авунин карда иштиракна.

Ватандиз ва халкьдиз къуллугъ авунин рекьяй чешне къалурай М.Абилов Ленинан ордендиз, вад Яру Пайдах ордендиз, II дережадин Суворован ва II дережадин Кутузован орденриз, Богдан Хмелницкийдин ордендиз, Яру Гъед ордендиз, Польша Республикадин "Виртути-Миллитари" ордендиз ва гзаф медалриз лайихлу хьанай.

М.Абилов 1972-йисан 2-январдиз рагъметдиз фена. Ам Бакудин Фехри Хиябанда кучукна.

1998-йисуз генерал-майор Магьмуд Абилован 100-йисан юбилей гегьеншдиз къейд авуна. КцIар шегьердин майдандал адан гуьмбет хкажна ва гьа майдандиз генералдин тIвар гана.

## МИРЗЕ ВЕЛИЕВ

***22 йиса аваз ватандин рекье кьегьалвилелди гьелек хьайи Мирзе Велиев кьиникьилай кьулухъ Советрин Союздин Игитвилин тIварцIиз лайихлу хьана.***

Ватандин ЧIехи дяведин йисара чи къагьриманвилин тарихдин цIийи чинар кхьей кьегьалрикай тир Мирзе Велиев 1923-йисуз КцIар райондин Вини Лакар хуьре дидедиз хьана. Дяве къарагъайла Мирзедин 18 йис цIийиз тамам хьанвай. Ада юкьван мектеб акьалтIарна, "Яру пайдах" колхозда кIвалахзавай. Мирзе гуьгъуьллудаказ дяведиз рекье гьатнай. Кеферпатан Къафкъазда гьиле яракь кьуна, фашистрин аксина женгиниз экъечIай гадади гуьгъуьнлай вичи регьбервал гузвай батареядихъ галаз санал Украинада, Белорусияда кьиле фейи ягъ-ягъунра чешне къалурна. Вадра вичел залан хирер хьайи жегьилди Румыния, Болгария ва Венгрия фашистрикай азад авун патал къати женгера иштиракна.

1944-йисан 5-ноябрдиз Будапештдин мукьув гвай Вашад хуьре вичин юлдашар телеф хьана текдиз амукьай ада фашистрин 20 танкунихъ галаз женг чIугунай. И женгина Мирзеди фашистрин 5 танк,



*(1923-1945)*

dunun 41-ci atıcı korpusu komandirinin müavini vəzifələrində xidmət edir. 1951-ci ilin avqustunda general-mayor Mahmud Əbilov Voroşilov adına Hərbi Akademiyanın kurslarına göndərilir və bu kursları bitirdikdən sonra 1954-cü ildə 216-cı diviziyaya komandir təyin edilir. 1955-ci ildə ehtiyata buraxılan general-mayor Mahmud Əbilov ömrünün sonuna kimi gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində fəal iştirak edir. Vətən, xalq qarşısında misilsiz xidmətlərinə, göstərdiyi rəşadət və şücaətlərə görə general-mayor Mahmud Əbilov Lenin ordeni, beş dəfə Qırmızı Bayraq ordeni, 2-ci dərəcəli Suvorov ordeni, 2-ci dərəcəli Kutuzov ordeni, Boqdan Xmelnitski ordeni, "Qırmızı Ulduz" ordeni, Polşa Respublikasının "Virtuti-Millitari" ordeni və çoxlu medallarla təltif olunmuşdur.

Əbilov Mahmud Əbdülrza oğlu 1972-ci il yanvarın 2-də ömrünün 74-cü ilində dünyasını dəyişmişdir.

Görkəmli sərkərdə Bakıdakı Fəxri Xiyabanda dəfn olunmuşdur. Qusarın mərkəzində onun büstü ucaldılmış, mərkəzi meydana sərkərdənin adı verilmişdir.

## MİRZƏ VƏLİYEV

***22 yaşında vətən uğrunda qəhrəmancasına həlak olan Mirzə Vəliyev ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldü.***

Sovet İttifaqı Qəhrəmanı Mirzə Vəliyev Böyük Vətən müharibəsi salnaməsinə qəhrəmanlıq səhifələri yazmış igidlərdəndir. 1923-cü ildə Qusar rayonunun Yuxarı Ləgər kəndində anadan olmuş Mirzə orta məktəbi bitirib, kənddəki "Qırmızı Bayraq" kolxozunda işləyirdi. Müharibə başlananda onun 18 yaşı var idi. Cəbhəyə könüllü şəkildə yola düşən bu gənc 3 il döyüşmüş, atıcı qvardiya polkunun tərkibində bir sıra ağır döyüşlərdə iştirak etmişdir.

Top komandiri Mirzə Vəliyev beş dəfə yaralanmışdı. Qroznı yaxınlığındakı döyüşlərdə, Ukraynanın, Belorusiyanın, Rumıniyanın və Bolqarıstanın alman faşistlərindən azad edilməsində qəhrəmanlıq nümunələri göstərən komandir Macarıstan torpaqlarının təmizlənməsində də iştirak etdi. Lakin o, Budapeştə çatmadı. 1944-cü ilin noyabrın 5-də yoldaşları həlak olub tək qalan gənc düşmənin 20 tankı ilə üzbəüz qaldı. Qanlı döyüşlərdə düşmənin 5 tankını, piyadalarla dolu 2 maşınını vurduqdan sonra özünün idarə

2 машин ва вищдалай гзаф аскерар телефнай ва вични кьегьал хьиз гьелек хьанай. Мирзе Велиев женгера къалурай кьегьалвилерай 1945-йисан 24-мартдиз Советрин Союздин Игит гьуьрметдин тIварцIиз лайихлу хьанай. 1967-йисан сентябрдиз КцIар шегьердин паркуна Мирзе Велиеван гуьмбет эцигна.

## АДИЛ КЪУЛИЕВ



***265 гьилера цавуз хкаж хьайи Адил Къулиева душмандин 18 самолет яна тергнай.***

Советрин Союздин Игит Адил Гьуьсейнан хва Къулиев 1922-йисуз Бакуда дидедиз хьана. Аял чIавар, гьакIни мектебдин йисар КцIара акъудай ада шегьердин 2-нумрадин урус мектебда кIелнай. Бакудин аэроклубда машгъул хьайи жегьил гьиле ярахь кьуна Ватандин ЧIехи дяведин йисара женг чIугваз-чIугваз Великий Лукидай Берлиндиз фена акъатнай. Эскадрилиядин командирдин заместителвилиз лайих акур ам вичин самолетда аваз 265 гьилера цавуз хкаж хьанай. Ада 64 гьилерда гьавадин женгера иштиракнай ва душмандин 18 самолет яна тергнай.

Женгера къалурай къагьриманвилерай Адил Къулиеваз 1945-йисуз Советрин Союздин Игит гьуьрметдин тIвар ганай. Дяведин эхирда адан хурал 7 орден ва 9 медаль алай.

buraxılan T.Səidov 1961-ci ildə ailəsi ilə Bakıya köçmüş, 27 il fasiləsiz olaraq Respublika Mülki Aviasiya İdarəsində səfərbərlik şöbəsinin rəisi vəzifəsində işləmişdir.

Peşəkar hərbçi olan Taciddin Səidov istedadlı insan idi. O, tarda və pianinoda məharətlə çalır, şeir və hekayələr yazır, gözəl rəsmlər çəkirdi.

Maraqlı söhbətləri ilə həmişə insanları özünə çəkirdi. Taciddin Səidov 1998-ci ildə, 82 yaşında vəfat etmişdir.

## İSKƏNDƏR QULİYEV

***Böyük Vətən müharibəsində, Əfqanıstanda döyüşmüş, eləcə də Qarabağ uğrunda döyüşlərdə fərqlənmiş qusarlılar barədə İskəndər Quliyev uzun illərdir məlumatlar toplayır.***

Ömrünü hərbi vətənpərvərlik tərbiyəsinə həsr etmiş Quliyev İskəndər Adışirin oğlu 1932-ci ildə Qusar rayonunun Hil kəndində anadan olmuşdur. Böyük vətən müharibəsi dövrünün çətinliklərini şəxsi həyatında yaşamış İskəndər uşaqlıqdan zəhmətkeş böyümüşdür. O, doğma kəndində orta məktəbi bitirib, Quba Müəllimlər İnstitutunda təhsil almış, bir müddət Salyanda müəllim işləmişdir.

Kaliningradda hərbi xidmətdə olarkən o, qvardiya artilleriyası hərbi məktəbini bitirmiş, savadı və bacarığı ilə seçilərək, Zaqafqaziya Hərbi Dairəsinin Axaltsikidəki 10-cu dağ qvardiya motoatıcı diviziyasının artilleriya alayında zabit işləmişdir. O vaxtdan onun ömür yolları silahlı qüvvələrlə bağlı olmuşdur.

1957-ci ildən Bakı şəhərinin, Ağcabədi, Qusar, Zaqatala, Füzuli rayonlarının hərbi komissarlıqlarında müxtəlif vəzifələrdə, son 11 il ərzində Füzuli və Qusar rayonlarında hərbi komissar vəzifəsində çalışmışdır. 1970-ci ildə SSRİ Silahlı Qüvvələri Baş Qərargahının Saratov şəhərindəki mərkəzi səfərbərlik kurslarını bitirib, 3 il Zaqafqaziya hərbi dairəsinin kurslarında dərs demişdir.

İ.Quliyev 1985-ci ildən Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti Qusar Rayon Şurasının sədri vəzifəsində çalışır. Onun hərbi məktəblərə göndərdiyi yüzə yaxın gəncdən yüksək rütbəli zabitlər yetişmişdir. Polkovnik-leytenant İskəndər Quliyev “30 il qüsursuz hərbi xidmətə görə” medalının I, II, III dərəcələrinə layiq görülmüş, 17 medalla təltif olunmuşdur.

## ГЬАМИД ФЕРГЬАДОВ

***Къубадин милициядин отделдиз регьбервал гайи Гьамид Фергьадов вичин гафунин иеси тир адалатлу кас хьиз сейли хьанай.***

Намуслу уьмуьр гьалай, халкьдин патай чIехи гьуьрмет къазанмишай чекист Гьамид Демиран хва Фергьадов 1908-йисуз КцIар райондин ЧIехи Муругъ хуьре дидедиз хьана. Бакудин къванцин карханайра кIвалахай ам гуьгъуьнлай халкьдин милициядин жергейрик экечIнай. Шегьердин 7-нумрадин милициядин отделда кIвалахал акъвазай ада Бакудин милициядин мектеб акьалтIарайдалай гуьгъуьниз Шушада следователвиле кIвалахнай. Вичин бажарагъдалди тафаватлу хьайи Гь.Фергьадов Лачин райондин милициядин отделдин начальниквиле тайинарнай.

1930-1948-йисара ада Къунахкент, Зердаб, Къуткъашен, Хачмаз ва Худат районрин, 1948-1956-йисара Къубадин милициядин отделриз регьбервал ганай. Гьамид Фергьадова пенсиядиз фейидалай уьмуьрдин эхирдалди Къубадин концервийрин заводдин кадрийрин отделдиз регьбервал ганай.


*(1908-1976)*

## HƏMİD FƏRHADOV

***1948-1956-cı illərdə Quba Rayon Milis Şöbəsinə rəhbərlik edən Həmid Fərhadov prinsipial və ədalətli insan kimi tanınmışdır.***

Namuslu və şərəfli həyat sürmüş, Azərbaycanın ilk peşəkar hüquqşünaslarından olmuş Həmid Dəmir oğlu Fərhadov Böyük Muruq kəndindən çıxmış ilk orqan işçisi idi. 1908-ci ildə anadan olmuş Həmid Bakının daş karxanalarında işləmişdir. Sonradan xalq milisi sıralarına qoşulmuş, peşəkar çekist kimi tanınmışdır. Bakı milis məktəbini bitirən H.Fərhadov Şuşa Rayon Milis Şöbəsinə əməliyyat müvəkkili göndərilmiş, çox keçmədən Laçın Rayon Milis Şöbəsinin rəisi təyin olunmuşdur.

1930-1948-ci illərdə o, Qonaqkənd, Zərdab, Qutqaşen (indiki Qəbələ), Xaçmaz və Xudat rayonlarında, 1948-1956-cı illərdə Qubada milis şöbəsinin rəisi vəzifəsində çalışmışdır. Prinsipial və ədalətli insan olan Həmid Fərhadov milis podpolkovniki rütbəsində təqaüdə çıxdıqdan ömrünün sonuna kimi Quba konserv zavodunda kadrlar şöbəsinin müdiri vəzifəsində işləmişdir.

## ФЕРГЬАД ФЕРГЬАДОВ

***Къуба, Хачмаз, Девечи ва Горанбой районрин судриз регьбервал гайи Фергьад Фергьадова адалатлу судья хьиз тIвар къазанмишнай.***

КцIар райондин ЧIехи Муругъ хуьруьн мектебдин гьенел вичин бюст эцигнавай Фергьадов Фергьад Эминбаладин хва 1942-йисуз дидедиз хьана. Юкьван мектеб акьалтIарна Къубадиз фейи жегьилдин алакьунар куьруь вахтунда винел акъатнай ва са йисалай ам райкомдин завотделвиле тайинарнай.

Азербайжандин Гьукуматдин Университетдин юриствилин факультетда заочныдаказ кIелзавай и гададин савадлувал акурла ам Къубадин Суддин секретарвиле, са кьадар вахтундилай седривиле тайинарнай. Гуьгъуьнлай Фергьад Фергьадова Хачмаз, Девечи ва Горанбой районрин судриз регьбервал ганай. Ам Азербайжандин Кьилин Суддин член тир. 1996-йисуз рагьметдиз фейи Ф.Фергьадов Къубада кучукнава.


*(1942-1996)*

## FƏRHAD FƏRHADOV

***Quba, Xaçmaz, Dəvəçi və Goranboy rayonlarında məhkəmə sədri vəzifəsində çalışmış Fərhad Fərhadov ədalətli hakim kimi şöhrət qazanmışdı.***

Qusar rayonundakı Böyük Muruq kənd məktəbinin həyətində büstü qoyulmuş Fərhad Eminbala oğlu Fərhadov 1942-ci ildə anadan olmuşdur. Əmək fəaliyyətinə Qubada başlamışdır. Rayon partiya komitəsində ümumi şöbənin müdiri işləyən, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində qiyabi təhsil alan bu bacarıqlı gənc tez bir zamanda bütün aparat işçilərinin diqqətini cəlb edir.

Dərin savadı sayəsində gənc Fərhad hələ ali təhsilini başa vurmamış Quba Rayon Xalq Məhkəməsinin katibi, bir müddət sonra isə sədri təyin olunur. Sonralar Xaçmaz, Dəvəçi və Goranboy rayonlarında məhkəmə sədri vəzifəsində çalışır. F.Fərhadov Respublika Ali Məhkəməsinin üzvü idi. 1996-cı ildə vəfat etmiş F.Fərhadov Qubada dəfn olunmuşdur.

## РАФИКЪ ЭФЕНДИЕВ



***Рафикъ Эфендиева Азербайжандин Гъукуматдин Каспи Гъуьлуьн Гимичивилин Идарада гимийрин капитанвиле кIвалахиз 30 йис я.***

Рафикъ Бегьлулан хва Эфендиев 1949-йисуз КцIар шегьерда дидедиз хьана. Аял чIавалай гьуьлерал гимидал кIвалахунихъ ялай Рафикъ Самур поселкада юкьван мектеб акьалтIарайдалай кьулухъ вичин мурадрин гуьгъуьна аваз Бакудиз атана. Ина ам Гьуьлерин Мектебдик экечIна. Гуьгъуьнлай Одессадин Гьуьлерин Инженервилин Институт куьтягьай Р.Эфендиев 1979-йисалай яргъал сиягьатрин капитан хьиз чи республикадиз сейли я.

ЧIулав гьуьлуьн ва Аралух гьуьлуьн бассейндай дуьньядин 40-далай гзаф уьлквейриз сиягьатар авур Р.Эфендиева алай вахтунда Теймур Агьмедован тIварунихъ галай гимидин капитанвиле кIвалахзава. 25 йисуз ара датIана нафт ялдай танкеррин коллективриз регьбервал гайи ам эхиримжи 8 йисуз кьуру пар ялдай гимидин капитан я.

## RAFİQ ƏFƏNDİYEV

***Rafiq Əfəndiyev 30 ilə yaxın fasiləsiz olaraq Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi İdarəsində nəqliyyat gəmilərinin kapitanı vəzifəsində çalışır.***

Rafiq Bəhlul oğlu Əfəndiyev 1949-cu ildə Qusar şəhərində anadan olmuşdur. Uşaqlıqdan dənizçi olmaq, gəmidə işləmək arzusu ilə yaşayan Rafik Samur qəsəbəsində orta məktəbi bitirdikdən sonra arzusunun arxasınca Bakıya gəlir. Burada Dənizçilik Məktəbində təhsil aldıqdan sonra o, Odessa Ali Dəniz Mühəndisləri Məktəbini bitirir. 1979-cu ildən etibarən R.Əfəndiyev respublikamızda uzaq səfərlər kapitanı kimi məşhurlaşır.

Qara dəniz və Aralıq dənizi hövzələrindən dünyanın 40-dan çox ölkəsinə səfərlər etmiş kapitan Rafiq Əfəndiyev son illər Teymur Əhmədov adına gəminin heyətinə rəhbərlik edir. 25 il fasiləsiz olaraq neft daşıyan tankerlərdə işləmiş kapitan son 8 ildə quru yük daşıyan gəmiyə rəhbərlik edir.

## САДУЛЛА АСЛАНХАНОВ



***Садулла Асланханова 23 йисуз Азербайжандин Къенепатан Крарин Министерстводин “Вихрь-9” гимидин командирвиле кIвалахна.***

Садулла Икрамуддинан хва Асланханов 1953-йисуз КцIар райондин Манкъулидхуьре дидедиз хьана. Къафур Мамедован тIварунихъ галай Бакудин Гьуьлуьн Рекьерин Мектеб акьалтIарна “Генерал Къулиев” гимида штурманвиле кIвалахна. 1985-йисуз ада Москвадин Пожарно-Технический Мектеб акьалтIарна.

1986-йисуз Калининграддай Бакудиз “Вихрь-9” гими гъайи йикъалай къедалди адан командир тир С.Асланханован кIвалах кьегьалвилералди чешнелу я. 1989-йисуз Гуьнешлидин нафтIадин ятахдин 2-майдан кудайла адан гими са вацра цIухъ галаз женгина хьана. И кьегьалвиляй ам “ЦIай туьхуьрунин игитвиляй” медалдиз лайихлу хьана.

1992-йисуз адан гимиди Каспи Гьуьлуьн НафтIадин Флотилиядиз махсус “Атлет-5” гими батмиш хьуникай хвена. “Вихрь-9” гимиди са шумуд йисуз Ирандин гьуьлерин разведкадин нафтIадин къуяр цIай кьуна куникай хвена. Полковник-лейтенант Са-

## SADULLA ASLANXANOV

***Sadulla Aslanxanov 23 il Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin “Vixr-9” yanğın xilasedici gəmisinin komandiri vəzifəsində çalışmışdır.***

Sadulla İkramuddin oğlu Aslanxanov 1953-cü ildə Qusar rayonunun İmamqulukənd kəndində anadan olmuşdur. Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbində təhsil almış, “General Quliyev” yanğınsöndürən və xilasedici gəmisində şturman işləmişdir. O, 1985-ci ildə SSRİ DİN-in Moskva Ali Yanğın-Texniki Mühəndislər Məktəbini bitirmişdir.

1986-cı ildə Kalininqraddan Bakıya gətirdiyi “Vixr-9” yanğın xilasedici gəmisinin heyətinə rəhbərlik edir. 1989-cu ildə Günəşli neft yatağındakı 2 saylı meydan alışıb yananda “Vixr”in heyəti 1 ay ölümlə əlbəyaxa olmuş, nəhayət, yanğını söndürmüşdür. Bu əməliyyata görə S.Aslanxanov “Yanğında igidliyə görə” medalı ilə təltif olunmuşdur.

1992-ci ildə “Vixr-9” gəmisinin heyəti Xəzər Dəniz Neft Donanmasına məxsus “Atlet-5” kran-yedək gəmisini batmaqdan xilas etmişdir. “Vixr-9” bir neçə il İranda dəniz kəşfiyyat neft quyularının qazılması işlərində qurğuların yanğın təhlükəsizliyini təmin edib.

дулла Асланханов чара-чара йисара “Вичин кардин устIар”, “Гъукуматдин ЦIукай Хуьдай Къуллугъдин виридалайни хъсан кIвалахдар” хьтин гъуьрметдин тIварариз лайихлу хьана.

## РАСИМ ШИРИНБЕГОВ



***Бакудин Флотилиядин пешекаррин арада Расим Ширинбегова махсус чка къунва.***

Бакудин Нахчиванскийдин тIварунихъ галай военный мектеб, гуьгъуьнлай Бакудин Вини Дережадин Гъуьлерин Мектеб акьалтIарай Расим Мидгьедан хва Ширинбегов 1958-йисуз КцIар райондин Манкъулидхуьре дидедиз хьана.

Юкьван мектеб куьтягьна, вичин рикI алай моряквилин пешедив эгечIай жегьилди 1985-1987-йисара хиласдай гимида кIвалахна. 1987-йисуз ам СССР-дин Кеферпатан Военно Морской Флотилияда чIехи къуллугъдал хьана, 1988-йисуз А.Гречкодин тIварунихъ галай Военный Гъуьлерин Академиядин курсар акьалтIарна. 1991-йисуз Бакудин Флотилияда гимидин командирвиле кIвалахай Р.Ширинбегов 1992-йисалай ина жагъурна-хилас авунин къуллугъдин командирдин заместитель хьана. Ада 1997-йисалай куьмекчи флотилиядиз регьбервал гузва.

## ЖАМАЛ ЖАМАЛОВ



***Ада гайи тарсарин нетижа яз 30-далай гзаф жегьилри военный академийра чирвилер къачуна. Абурукай гзафбур полковникар я.***

Мучугъа дидедиз хьайи, Яргундал юкьван мектеб, Калининградда офицервилин курсар акьалтIарай Жамала гуьгъуьнлай АПИ куьтягьнай. Майор Жамал Хаметан хва Жамалован жегьилриз военный ватанпересвилин рекьяй тербия гунин тежрибадикай Азербайжандин мектебра менфят къачунай. Республикадин Образованидин Министерстводи мучугъвийрин тежриба вири мектебра кардик кутан ниятдалди кьилди къарар къабулнай. Идакай Мамедали Агъаева ва Балогълан Къулиева чпин илимдин кIвалахра кьилди кхьенва.

Жамал Жамалов “Республикадин кIвенкIвечи маарифдин кIвалахдар”,“Методист муаллим”, “Вини дережадин муаллим” хьтин гъуьрметдин тIвариз лайихлу хьанай.

Gəmi komandiri, polkovnik-leytenant Sadulla Aslanxanov müxtəlif illərdə “Öz işinin ustası”, “Dövlət Yanğın Təhlükəsizliyi Xidmətinin ən yaxşı əməkdaşı” fəxri adlarına layiq görülmüşdür.

## RASİM ŞİRİNBƏYOV

***Bakı Flotiliyasının mütəxəssisləri arasında Rasim Şirinbəyovun özünəməxsus yeri vardır.***

Naxçıvanski adına hərbi məktəbin, Ali Hərbi Dənizçilik Məktəbinin məzunu Rasim Midhəd oğlu Şirinbəyov 1958-ci ildə İmamqulukənddə anadan olmuşdur. Burada orta məktəbi başa vuran gənc taleyini dənizçiliklə bağlamışdır.

1983-1985-ci illərdə xilasetmə gəmisində işləmiş, 1987-ci ildə SSRİ Şimal Hərbi Dəniz Bazasında rəis müavini olmuş, 1988-ci ildə A.Qreçko adına Hərbi Dəniz Akademiyasının kurslarını bitirmişdir. 1991-ci ildə Qırmızı bayraqlı Xəzər Donanmasında gəmi kapitanı olmuşdur. 1992-ci ilin aprelindən Azərbaycan Hərbi Dəniz Donanmasında axtarış-xilasetmə xidməti komandirinin müavini vəzifəsində çalışır. Polkovnik-leytenant Rasim Şirinbəyov 1997-ci ildən köməkçi donanma rəisi və 1999-cu ildən Hərbi Dəniz Donanması təşkilatı plan şöbəsinin rəis müavini işləyir.

## CAMAL CAMALOV

***Onun hərbi vətənpərvərlik dərslərinin təsiri ilə 30-dan çox gənc hərbi akademiyalarda təhsil almışdır. Onların arasında çoxlu polkovniklər var.***

Camal Xamət oğlu Camalov Mucuqda anadan olmuş, Həzrə kənd orta məktəbini, Kaliningrad şəhərində zabit kurslarını bitirdikdən sonra APİ-də təhsil almış, Azərbaycan ETPEİ-nin dissertantı olmuşdu.

Onun təşəbbüsü ilə Mucuq kənd məktəbində yaradılmış “Döyüş şöhrəti” muzeyinin respublikada analoqu yox idi. Mayor Camal Camalovun hərbi vətənpərvərlik tərbiyəsi sahəsindəki iş təcrübəsi Azərbaycanda öyrənilmiş və tətbiq olunmuşdur. Bu təcrübə Məmmədəli Ağayevin və Baloğlan Quliyevin tədqiqat əsərlərində öz əksini tapıb. Camal Camalov “Respublikanın qabaqcıl maarif xadimi” fəxri adına, “Baş müəllim”, “Metodist müəllim”, “Ali kateqoriyalı müəllim” dərəcələrinə layiq görülmüşdür.

## СЕФЕР ЖАНМИРЗЕЕВ

***Кьве юкъуз Япон гьуьлуьн мурк хьтин къайи ятара амукьай чпирви Одиссея вири дуьнья мягьтеларнай.***



Сефер Жанмирзеевакай 2004-йисуз дуьньядин гзаф газетрини журналри кхьенай, телеканалри сюжетар кьалурнай. А дуьньядай хтай гададин - лезги Одиссеян кьегьалвилел вири мягьтел хьанай. 17 йисуз ара датIана гимидаваз дуьньядилай цIар ягъай моторист Сефера кIвалахзавай "Вест" гимиди 2004-йисан 2-ноябрдиз Находкадай Япониядиз пар тухузвай.

Морякрин арада чпирви Сефералай гъейри мадни 3 лезги авай: яргунви Тагьир Бабаханов, пириви Умалат Шихбабаев ва балакенви Рафик Алиев. ТIурфандиз таб гуз тахьана къвалай тIвек акьатай гими 1500 метрдин деринвиле батмиш жез акурла мотросриз гидрокостюмар алукIна, циз хкадарунилай гъейри маса рехъ амукьнач. Тежрибалу моряк Сефера лагьайтIа, чукIул, яцIу еб ва хиласдай жилет жагъурнай. Гьуьл батмиш жезвай куьмексуз инсанрин рикI атIудай ванеривди ацIанвай.

Лепейрал аватайла Сефера вич са гужуналди гимидай гьуьлуьз аватнавай гъварарикай садал кутIуннай. Лепейри ам алай гъвар муькуьбурал гьалчзавай. Ада гьилеривди вич хуьзвай. Ругуд сятдилай гьуьл секин хьайила Сефералвагьши къушар гьавалат хьанай. Анжах адал чан аламаз акур ничхирри гададик ктадначир.

Кьве юкъуз гьуьле амукьай Сефер эхирни са гимида авайбуруз акуна ва ам цяй акъудна. Адак сагъ чка кумачир. Находкада адаз килигай духтурри гададин жигерарни тIуркIунар гьалдай фенвайди, гьуьлуьн яд хъвадалди хук кьелечI хьанвайди малумарнай. Абуру ихьтин инсандиз четин чара ийиз жеда лугьузвай. Анжах Сефер такси кьуна кIвализ хъфиз акур абурун пагь атIанай. КIвале а дуьньядай хтанвай кьегьалдин рехъ тек адан папани аялри ваъ, вири мукьва-кьилийри хуьзвай.

Гимидин 27 морякдикай сагьдиз амай и садан кьилив вири находкавияр атанай. Хайибуру халкьдин чарайрин дава-дарманралди ам сагъарна кIвачел ахкьалдарнай. Чпирви Одиссей са шумуд вацралай гьуьлерал алаз акур духтурар къах хьанай. Им аламатдин кар я лагьанай абуру.

## SƏFƏR CANMİRZƏYEV

***İki gün Yapon dənizinin buz kimi soyuq sularında qalan cibirli Odissey bütün dünyanı heyrətə gətirdi.***

Səfər Canmirzəyev haqqında 2004-cü ildə dünyanın bir çox qəzet və jurnalları yazmış, televiziya kanalları onunla bağlı süjetlər göstərmişdir. O dünyadan qayıtmış ləzgi Odisseyin qəhrəmanlığına hamı mat qalmışdı. 17 il gəmilərlə dünyanı gəzmiş motorçu Səfərin işlədiyi "Vest" gəmisi 2004-cü ilin noyabrın 2-də Naxodkadan Yaponiyaya yük aparırdı.

Dənizçilər arasında Səfərdən başqa daha üç ləzgi var idi: Qusar rayonunun Həzrə kəndindən Tahir Babaxanov, Piral kəndindən Umalat Şıxbabayev və Balakən rayonundan Rafik Əliyev. Tufana tab gətirməyib deşilən gəmi dənizin 1500 metr dərinliyində suya qərq olmazdan əvvəl dənizçilərin hidrokostyumlar geyinib suya tullanmaqdan başqa çarəsi olmadı. Təcrübəli matros Səfər isə suya tullanmazdan əvvəl bıçaq, kəndir və xilasedici jilet tədarükündə oldu. Dəniz batmaqda olan köməksiz insanların tükürpədici səslərinə qərq olmuşdu. Dəniz onların hamısını uddu.

Ləpələrin qoynunda yalqız qalan, ölümə tabe olmaq istəməyən Səfər özünü gəmidən dənizə tökülmüş dirəklərdən birinə sarıdı. Altı saat sərt dalğaların qoynunda taleyin ümidinə qalan gənc, nəhayət, dəniz sakitləşəndə vəhşi quşların hücumuna məruz qaldı. Lakin igidin iradəsini görən vəhşi quşlar ondan əl çəkdilər.

İki gün ölümlə mübarizə aparan Səfərin köməyinə nəhayət, təsadüfən buradan keçən bir gəmi çatır. Naxodkada həkimlər sağ yeri qalmayan, duzlu su içməkdən ciyərləri və böyrəkləri fəaliyyətini itirmiş gəncə heç cür kömək edə bilməyəcəklərini boyunlarına alırlar. Amma gəncin taksi tutub evinə yola düşdüyünü görəndə onlar mat qalırlar. Səfərin yolunu təkcə ailəsi yox, bütün şəhər gözləyirdi.

Qəzaya uğramış gəminin 27 nəfərlik heyətindən salamat qalmış Odisseyin ziyarətinə şəhər yığılmışdı. Doğmaları həkimlərin çarə edə bilmədiyi xəstəliyi ləzgi loğmanlarının Qusardan göndərdiyi dava-dərmanlarla sağaltdılar. Bir neçə aydan sonra Səfəri sağ-salamat görən həkimlər heyrətlərini gizlədə bilmədilər. Bu, möcüzədir, dedilər.

## ФЕРГЪАД КЕРИМОВ

***Вичин цIайни ялав квай репортажри дуьньядиз ван авур и сейли журналист Чеченистандин дяведин гьакъикъатар дуьньядиз чукIурдайла гьелек хьанай.***



КичI тийижир и кьегъалдиз лугъуз тежедай хьтин мусибатдин кьиникь несиб хьанай. Ам вичин кьиникьдилай 3 йис алатайла, 1998-йисан 29-ноябрдиз хайи чилел кучукнай.

1995-йисан 22-майдиз Чеченистанда гьелек хьайи репортер Керимов Фергъад Аскеран хцин тIвар вири дуьньядиз сейли хьана. 1948-йисуз дидедиз хьайи Фергъада “Молодежь Азербайджана” газетда, “Хезер” журналда, “Туран”, REUTER, Associated Press информациядин агентствойра кIвалахнай. 1992-1994-йисара ада къаларин зонайрикай тир Къарабагъ, Абхазия, Тажикистан, Чеченистан хьтин дяве физвай чкайрай гъазурай репортажри дуьньядиз ван-сес авунай. Чеченистандиз дяведикай нубатдин репортажар гъазурун патал фейи Фергъад ина гуьлледиз туьш хьана.

1996-йисан 21-майдиз журналистикадин проблемайрив машгъул тир виридалайни чIехи тешкилат тир Freedom Forum Международный фондуни чпин къуллугъ кьилиз акъуддайла гьелек хьайи журналистрин хатурдиз Мемориал ачухарна. И мемориалда Азербайжандай пуд журналистдин тIварар гьатнава. Абур Чингиз Мустафаев, Адил Буьньядов ва Фергъад Керимов я. Фергъадан видеорепортажар журналистдин кьиникьдилай гуьгъуьниз Рори Пеканан тIваруныхъ галай Международный премиядиз лайихлу хьанай. Азербайжандин “Ени несил” Журналистрин КIватIалди Фергъадан тIвар алай премия тайинарнай.

КцIар райондин ТIигьиррин хуьре дидедиз хьайи, М.В.Ломоносован тIваруныхъ галай МГУ-дин тарих факультет акьалтIарна, Бакуда муаллимвал авур вичин буба Аскералди Фергъада гьамиша рикIяй дамахдай. Гуьнаялай кьулухъ дуьньядиз атай вичин хцел ада бубадин тIвар эцигнай. Аскер къилихралди вичин чIехи бубадиз ухшар хьун Фергъадан эрзиман тир. Гила гъвечIи Аскер патал къагьриманвилин чешне вичин буба Фергъад я. Им ван хьайила кьуьзуь Аскеран вилер ацIуда...

## FƏRHAD KƏRİMOV

***Özünün odlu-alovlu reportajları ilə dünyaya səs salmış bu məşhur jurnalist Çeçenistan müharibəsinin həqiqətlərini dünyaya yayarkən həlak olmuşdur.***

Bu qorxu bilməyən igid gəncə faciəli ölüm qismət oldu. Onun cismi vətənində torpağa 3 il keçəndən sonra - 1998-ci ilin noyabrın 29-da tapşırıldı.

1995-ci il mayın 22-də Çeçenistanda həlak olmuş Azərbaycan jurnalisti Fərhad Əsgər oğlu Kərimovun qəhrəmanlığı bütün dünyaya yayıldı. 1948-ci ildə anadan olmuş Fərhad “Molodyoj Azerbaydjana” qəzetində, “Xəzər” jurnalında çalışmış, “Turan”, REUTER və Associated Press agentlikləri ilə əməkdaşlıq etmişdi.

1992-1994-cü illərdə onun qaynar bölgələr olan Qarabağdan, Abxaziyadan, Tacikistandan, Çeçenistandan hazırladığı silsilə reportajlar bütün dünyaya səs salmışdı. Dəfələrlə Çeçenistanda olmuş reportyor növbəti dəfə buraya döyüş bölgəsindən reportaj hazırlamağa gedəndə gülləyə tuş gəlir.

1996-cı il mayın 21-də mətbuat problemləri ilə məşğul olan ən böyük beynəlxalq qurum - Freedom Forum fondu xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş jurnalistlərin xatirəsinə həsr olunmuş Memorial açmışdır. Həmin əzəmətli kompleksdə xidməti borcunu yerinə yetirərkən həlak olmuş jurnalistlər sırasında üç azərbaycanlı jurnalistin - Çingiz Mustafayevin, Adil Bünyadovun və Fərhad Kərimovun da adları vardır. Fərhadın videoreportajları onun ölümündən sonra Rori Pekan adına beynəlxalq mükafata layin görülmüşdür. Azərbaycanın “Yeni nəsl” Jurnalistlər Birliyi Fərhad Kərimov adına mükafat təsis etmişdir.

Qusar rayonunun Düztahir kəndində anadan olmuş, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsini bitirib, Bakıda müəllim işləyən atası Əsgər ilə Fərhad həmişə fəxr edərdi. Günaydan sonra doğulmuş oğluna o, atasının adını vermişdi ki, uşaq böyüyəndə atasına oxşasın. Onun üçün atası ən gözəl nümunə idi. İndi onun oğlu Əsgər üçün atası Fərhad qəhrəmanlıq rəmzidir. Bunu eşidəndə babası Əsgər göz yaşlarını gizlədə bilmir..



*Наруллагь Жаруллагьан хва Асланов (эрчIи патай кьвед лагьайди) 1882-йисуз Яргундал дидедиз хьана. Ина урус-татар мектебда кIелай ада Кьуба уезддин суддиз регьбервал ганай. Ирид веледдин буба тир Наруллагьан руш Куьбра тIвар-ван авай духтур тир. Рухвайрикай Гьейдар АПИ-дин профессор, Октай Москвадин Военный Академия акьалтIарна Закавказье округда къуллугъ авур полковник тир.*

*Narulla Carulla oğlu Aslanov (sağdan ikinci) 1882-ci ildə Həzrə kəndində anadan olmuş, Həzrə kənd rus-tatar məktəbində oxumuşdur. Quba qəzasında məhkəmə sədri vəzifəsində çalışmışdır. Onun 7 övladından qızı Kübra məşhur həkim, oğlu Heydər Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunun professoru idi. O biri oğlu Oqtay Moskva Dövlət Hərbi Akademiyasını bitirib Zaqafqaziya Hərbi Dairəsində xidmət etmiş polkovnik idi.*



*1924-йисан 4-октябрдиз Халиддин Мамедханова ва Сергей Полякова синагъдай акъудзавай немсерин “Фоккер-3” самолет къазадик акатнай.*

*1924-ci ilin oktyabrın 4-də Xaliddin Məmmədxanovun və Sergey Polyakovun idarə etdikləri “Fokker-3” təyyarəsi sınaqdan keçirilərkən qəzaya uğrayır.*



*Полковник Октай Асланов*

*Polkovnik Oqtay Aslanov*



*Къуба округдин милициядин къил Абдуллагь Алиметов вичин хизандихъ галаз санал. 1930.*

*Quba dairə milis şöbəsinin rəisi Abdulla Əlimətov ailəsi ilə birlikdə. 1930.*



*Къуба округдин исполкомдин уьзвияр шегьердиз сад лагьай цин гунгар гъизвай мярекатда. ЭрчIи патай кIвачеллай кьвед лагьайди Абдуллагь Алиметов я. 1930.*

*Quba Dairə İcraiyyə Komitəsinin üzvləri şəhərin birinci su kəmərinin çəkilişində. Sağdan ayaq üstə ikinci A.Əlimətovdur. 1930.*




*Республикадин милициядин 10 йисан юбилейдиз талукьарнавай заседанидин президиум. ЭрчIи патай кьвед лагьайди Абдуллагь Алиметов я. Баку, 1930.*

*Respublika milisinin 10 illik yubileyinə həsr olunmuş yığıncağın prezidiumu. Sağdan ikinci A.Əlimətovdur. Bakı, 1930.*





*Генерал Магьмуд Абилова Бакуда парад кьабулзава. 1950*

*General Mahmud Əbilov Bakıda parad qəbul edərkən. 1950*





*КцIарин кьилин майданда Генерал Магьмуд Абилован гуьмбет.*

*Qusarın baş meydanında general Mahmud Əbilovun abidəsi.*



*Советрин Союздин Игит Мирзе Велиеван хайи хуьре - Вини Лакардал эцигнавай гуьмбет.*

*Sovet İttifaqı Qəhrəmanı Mirzə Vəliyevə doğma kəndi Yuxarı Ləgərdə ucaldılmış abidə.*



*2007-йисан 9 - май. Искендер Кьулиев (юкьва) Ватандин ЧIехи дяведин ветеранар тир Салат Мевлановахъ ва Байрам Байрамовахъ галаз санал.*

*9 may 2007-ci il. İskəndər Quliyev (ortada) Böyük Vətən müharibəsinin veteranları Salat Mevlanov və Bayram Bayramovla birlikdə.*



*Мучугъай тир и Ватандин ЧIехи дяведин ветеранриз ЧIехи Гъалибвилин 65-йисан юбилей къейд ийидай бахтлувал несиб хьана.*

*Micuq kəndindən olan Böyük Vətən müharibəsinin veteranlarına Böyük qələbənin 65 illik yubileyini qeyd etmək xoşbəxtliyi nəsib oldu.*



Азербайжандин Президент Гьейдар Алиева Республикадин битаввал хуьнай чIехи агалкьунар къазанмишай Шаир Рамалдановаз "Азербайжандин Пайдах" орден гузва. 1994.

Azərbaycan Prezidenti Heydər Əliyev Respublikanın ərazi bütövlüyünün qorumasında xüsusi xidmətlərinə görə Şair Ramaldanova "Azərbaycan Bayrağı" ordenini təqdim edir. 1994.



1995-йисан 4-апрель. Азербайжандин Президент Гьейдар Алиева Агъабалаев Тебрик Малибан хциз "Военный къуллугърай" медаль гана. Гьа юкъуз Заур Алимов ва Вафадар Бабавердиевни гьа медалдиз лайихлу хьана.

4 aprel 1995-ci il. Azərbaycan Prezidenti Heydər Əliyev Ağabalayev Təbrik Malib oğlunu "Hərbi xidmətlərə görə" medalı ilə təltif edir. Həmin gün Zaur Əlimov və Vəfadar Babaverdiyev də eyni mükafata layiq görülürlər.



Къарабагъдин дяве азербайжанви Семендер Гьажиев ва лезги Бегьрам Агьакишиев патал анжах къагьриманвилин майдан тушир, гьакIни дуствилин синагъ тир.

Qarabağ müharibəsi azərbaycanlı Səməndər Hacıyev və ləzgi Bəhram Ağakişiyev üçün təkcə qəhrəmanlıq meydanı deyildi, həm də dostluğun sınağı idi.



Заур Алимов

Zaur Əlimov



Вафадар Бабавердиев

Vəfadar Babaverdiyev



КцIар шегьерда Къарабагъдин дяведин ветеранар патал эцигнавай кIвал.

Qusar şəhərində Qarabağ müharibəsi veteranları üçün ucaldılmış yaşayış evi.



*KIурви Абдулазизан 3 хва дяведиз фенай. Абурукай Мамедкъулуни Саиджамал гьелек хьанай. Саиджамал тракторист тир. Терзидихъ галаз бахтавардиз уьмуьр гьалзавай ада. Ам дяведиз фейи пуд вацралай адан кьве гъвечIи хва начагъ хьана телеф хьана. И дердиниз эхиз тахьай Терзидини вичин дуьнья дегишарна. Роза етимвилелди чIехи хьана.*

*Ukurlu Əbdüləzizin 3 oğlu davaya yola düşür. Onlardan Məmmədqulu ilə Seyidcamal həlak olur. Seyidcamal traktorçu idi. Tərzi ilə xoşbəxt ömür sürürdü. O, müharibəyə gedən üç aydan 2 kiçik oğlu xəstələnib ölür. Buna dözə bilməyən Tərzi dünyasını dəyişir. Roza yetimliklə böyüyür.*






*КцIарин тIвар-ван авай маарифчи Иляс Илясован авай-авачир са хва Масуд 17 яшда гуьгьуьллудаказ дяведиз фенай ва гьелек хьанай.*

*Qusarın adlı-sanlı maarifçisi İlyas İlyasovun yeganə oğlu Məsud 17 yaşında könüllü cəbhəyə getmiş və orada həlak olmuşdur.*



*Генералвилин чин къачурдалай вилик Забит Хийирбегов Кремлда РФ-дин Президент А.В.Путина кьабулнай. 2007.*

*General rütbəsi almazdan qabaq Zabit Xeyirbəyov Kremldə RF Prezidenti A.V.Putinin rəsmi qəbulunda olmuşdur. 2007.*



*Ремзия Шерифова Ватандин ЧIехи дяведин йисара КцIара тешкил хьайи истребителрин батальондин фелдшер тир. Ада дяведин эхирдалди ина къуллугънай.*

*Rəmziyə Şərifova Böyük Vətən müharibəsi illərində Qusarda təşkil olunmuş qırıcılar batalyonunun feldşeri olmuşdur. O, müharibənin sonuna kimi burada xidmət etmişdir.*



*Ватандин дяведин ветеранрин кIватIалдин КцIар райондин отделдин кьил Къумрал Лачинова Къарабагъдин женгера иштиракнай.*

*Vətən müharibəsi veteranlar birliyi Qusar rayon şöbəsinin sədri Qumral Laçınov Qarabağ cəbhələrində döyüşmüşdür.*



*Къарабагъда женг чIугур Самая Беделова.*

*Qarabağ döyüşçüsü Səmayə Bədəlova.*



*Чекист Гьамид Фергьадов вичин пабпахъ Тугъуя муаллимдихъ галаз санал. 1932.*

*Çekist Həmid Fərhadov həyat yoldaşı Tuğuya müəllimlə birlikdə.1932.*

# VIII

## АКЪАЖУНАР, АГАЛКЬУНАР



## YARIŞLAR, UĞURLAR

***Кьегьалар халкьдин луварар я.***

*Лезги халкьдин мисал*

### ШЕГЬРЕДА АВАЙБУР

Вичихъ спортдин рекьяй махсус мектеб авай КцIара виш йисара халкьдин акъажунрин чара-чара хилер, гьабурукай яз симин пагьливанвал вилик фена. ЦIудралди хуьрер симин пагьливанралди сейли хьана. Къуватдин пагьливанрини КцIариз машгьурвал гьана. Алай аямдин КцIарин спортдин мектеб ихьтин агалкьунрин бинедаллаз арадиз атана.

Олимпиядин Къугъунрин тарихда аслу тушир Азербайжандин пайдах сад лагьай гьилера 1992-йисуз Барселонада кцIарви Назим Гьуьсейнов чемпион хьунай хкажнай. 1990-йисуз Венесуэлада самбодай дуьньядин кубок патал акъажунра къизилдин медаль къачур Камран Мамедов, 2004-йисуз Голландияда дзюдодай дуьньядин чемпионвилин тIвар къачур Тимур Алиханов, 2009-йисуз кьуршахар кьунай ветеранрин арада дуьньядин чемпион хьайи Шекерхан Алисманов, таеквондодай Европадин ва дуьньядин чемпион хьайи Фарида Азизова, Азербайжандин дзюдо ва самбо спортдик чIехи пай кутур, чи республикадиз цIудралди медалар гьайи Режеблияр ва масабур кцIарвийрин дамах я.

Ктабдин и кьил Азербайжандин ва дуьньядин спортдик чIехи пай кутур кцIарви спортсменрин агалкьунриз талукьарнава.

***İgidlər xalqın qanadlarıdır.***

*Ləzqi atalar sözü*

### ZİRVƏDƏ OLANLAR

Zəngin idman ənənələri olan Qusarda xalq idmanının bir sıra növləri geniş yayılmışdır. Onlarca kənddə kəndirbazlıq inkişaf etmişdir. Güc pəhləvanlarına gəldikdə isə, onlar yüz illər boyu bu yurdu hər yanda şöhrətləndirmişlər. Belə bünövrə üzərində qurulmuş müasir Qusar idman məktəbi özünün məşhur yetirmələri ilə tanınır.

Olimpiya Oyunları tarixində müstəqil Azərbaycan Respublikasının dövlət bayrağı ilk dəfə 1992-ci ildə Barselonada qusarlı Nazim Hüseynovun qələbəsi şərəfinə qaldırılmışdır. 1990-cı ildə Venesuelada sambo üzrə dünya kuboku uğrunda yarışlarda qızıl medala layiq görülmüş Kamran Məmmədov, 2004-cü ildə Hollandiyada keçirilmiş cüdo üzrə dünya çempionatında birincilik qazanmış Timur Əlixanov, 2009-cu ildə yunan-roma güləşi üzrə dünya çempionatında qızıl medala layiq görülmüş Şəkərxan Əlismanov, tayekvondo üzrə Avropa və dünya çempionu olmuş Fəridə Əzizova, Azərbaycanın cüdo və sambo idmanını inkişaf etdirmiş, respublikamıza onlarca medallar gətirmiş Rəcəblilərlə qusarlılar fəxr edirlər.

Kitabın bu fəslində Azərbaycan və dünya idmanına böyük töhfələr vermiş qusarlı idmançılar haqqında materiallar verilmişdir.

## НАЗИМ ГЪУЬСЕЙНОВ

***Олимпиядин Къугъунрин тарихда аслу тушир Азербайжандин пайдах сифте яз 1992-йисуз Барселонада XXV Гатун Олимпиадада Назим Гъуьсейнов чемпион хьунай ххажнай.***



Вич КцIар райондин Пиралрин хуьряй тир Назима спортда сифте камар 10 йиса авайла вегьена. А чIавуз ам “Локомотив” жемиятда Агъаяр Ахундзадеди регьбервал гузвай дзюодин секциядик экечIна. Ада вичин сад лагьай чIехи агалкьун 1987-йисуз къазанмишна. Жегьилрин арада СССР-дин чемпионатда тафаватлу хьайи гадади спортдин устIарвилин тIвар къачуна.

1988-йисуз акъажунра гимишдин, 1989-йисуз лагьайтIа, къизилдин медаль къазанмишай ам СССР-дин хкягъай командадиз кьабулна. 1991-йисан мартдиз дуьньядин чемпионатдилай вилик кьиле фейи Будапештдин турнирда вич буьруьнж медалдиз лайихлу хьайи Назима вири мягьтеларнай. А чIавуз 22 йиса авай и жегьил анжах дуьньядин чемпион хьайи японви Тоданори Косинодиз магълуб хьанай.

Барселонада къазанмишай зурба агалкьунрикай Назима икI лугьузва:

- Болгариядай тир А.Русевахъ галаз акъажунра зун гьасятда уфтан хьана. Гвинеяви М.Ванидин далу за кьвед лагьай декьикьада чилиз яна. Италиядай тир Европадин чемпион М.Катедро ва Монголиядин спортсмен Д.Батулдани регьятдаказ кIаник кутуна за. Дуьньядин чемпион Т.Косинодиз уфтан хьунни заз четин хьанач. Финалда за Кьиблепатан Кореядин дзюдоист, дуьньядин чемпионатдин призер К.Юнк кIаник кутуна.

Назим Гъуьсейнов Олимпиададилай гуьгъуьниз кьведра Европадин чемпион хьана. 1993-йисуз Канадада кьиле фейи дуьньядин чемпионатда ада II чка кьуна. 1994-йисуз Польшадин Гданск шегьерда кьиле тухвай Европадин чемпионатда ам гимишдин медалдиз лайихлу хьана. 1995-йисуз Токиода дуьньядин чемпионатда ада 5-чка кьуна.

1996-йисуз Европада дзюдоистар патал “101 михьи гъалибвал” тIвар ганвай фильм арадиз гъана. Ина 1970-йисалай инихъ Европадин, дуьньядин ва Олимпиядин чемпионатра виридалайни хъсан фендер кардик кутур спортсменрин гъуьжетунрай эпизодар гьатнава. И кIватIалда муькуь спортсменрин

## NAZİM HÜSEYNOV

***Olimpiya Oyunları tarixində müstəqil Azərbaycan Respublikasının Dövlət Bayrağı ilk dəfə 1992-ci ildə Barselonada XXV Yay Olimpiya Oyunlarının qalibi cüdoçu Nazim Hüseynovun qələbəsi şərəfinə qaldırılmışdır.***

Əslən Qusar rayonunun Piral kəndindən olan Nazim idmana 10 yaşında ikən “Lokomotiv” cəmiyyətinin cüdo bölməsində məşqçi Ağayar Axundzadənin rəhbərliyi altında gəlmişdir. İlk böyük qələbəni o, 1987-ci ildə qazanmışdır. Nazim gənclər arasında SSRİ çempionatında uğurla çıxış edərək, idman ustası adına layiq görülmüşdür.

1988-ci ildə həmin yarışların gümüş, 1989-cu ildə qızıl medalını qazandığına görə SSRİ yığma komandasına daxil edildi. 1991-ci ilin martında dünya çempionatı ərəfəsində keçirilən Budapeşt turnirində o, bürünc medal qazandı. 22 yaşlı idmançı üç görüşdə göstərdiyi texnika ilə hamını heyrətə gətirdi. Nazim gələcək dünya çempionu, yapon Todanori Kosinoya cəmi bir “koka” qiyməti ilə uduzdu.

Barselona olimpiadasında qələbəsini isə çempion belə şərh edir:

- İlk rəqibim bolqar A.Rusevə vaxtından əvvəl qalib gəldim. Qvineya güləşçisi M.Vanini ikinci dəqiqədə məğlub etdim. Növbəti görüşlərdə italiyalı Avropa çempionu M.Katedro və monqolustanlı D.Batulda üzərində qələbə çaldım. Yarımfinalda rəqibim bir il əvvəl dünya çempionatında uduzduğum yaponiyalı dünya çempionu T.Kosino idi. Mən ona beşinci dəqiqədə qalib gəldim. Finalda Cənubi Koreya cüdoçusu, dünya çempionatının mükafatçısı K.Yunkla çətin mübarizədə tullama fəndi işlədərək çempion oldum.

N.Hüseynov bundan sonra iki dəfə Avropa çempionu olmuş, 1993-cu ildə Kanadada keçirilmiş dünya çempionatında ikinci yerə çıxmış, 1994-cü ildə Polşanın Qdansk şəhərində Avropa çempionatının ikinci mükafatını almış, 1995-ci ildə Tokioda dünya çempionatında beşinci yeri tutmuşdur. 1996-ci ildə növbəti XXVI Yay Olimpiya Oyunlarında uğurla çıxış edə bilməyən idmançı mükafatlar uğrunda mübarizəni vaxtından əvvəl dayandırmalı olmuşdur.

1996-cı ildə Avropada cüdoçular üçün tədris vəsaiti kimi xüsusi bir film buraxılıb. Həmin film “101 təmiz qələbə” adlanır. 1970-ci ildən bəri Avropa, dünya və Olimpiya birinciliklərində ən uğurlu fənd-

гьарадан са ва я кьве эпизод ганватIа, японви Коганан ва Назиман гьарадан пуд фенд ачухарнава. Имни дуьшуьшдин кар туш. Вучиз лагьайтIа 1992-йисуз Международный Дзюдодин Федерацияди Назим заланвилин вири категорийрай виридалайни хъсан дзюдоист яз гьисабнай. Къедалди адан техникадин агалкьунар дуьньяда тикрарсузбур яз кьабулнава.

Спортда къазанмишай агалкьунрай Азербайжандин Президент Гьейдар Алиеван серенжемдалди Назим Гьуьсейнов "Шуьгърет" ордендиз, адан тренер Агьаяр Ахундзаде "Терекъкъи" медалдиз лайихлу хьана. Азербайжандин гьукуматди вичин гьисабдай чемпиондин мехъер кьиле тухванай, адаз машинни багьишна. 2009-йисуз Назим Гьуьсейновакай документальный фильм чIугуна, Азербайжандин телеэкранрай къалурна.

lər, hər mötəbər idmançıdan bir və ya iki nümunə lentə alınıb. Yalnız 2 idmançının - yapon Koqanın və Nazim Hüseynovun hərəsinin üç fəndi bura düşüb. Bu da təbiidir. Axı, 1992-ci ildə Beynəlxalq Cüdo Federasiyası Nazimi bütün çəki dərəcələrində ən yaxşı cüdoçu elan etmişdir. Onun texniki göstəriciləri bu günə qədər dünyada təkrarsızdır.

Nazim Hüseynovun beynəlxalq yarışlardakı nailiyyətləri yüksək qiymətləndirilmişdir. Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanı ilə Nazim "Şöhrət" ordeni, onun məşqçisi Ağayar Axundzadə isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Azərbaycan hökuməti dövlət hesabına Nazimin toy mərasimini keçirmiş, ona minik maşını bağışlamışdır. 2009-cu ildə Nazim Hüseynov haqqında sənədli film çəkilərək, Azərbaycanın telekanallarında nümayiş etdirilmişdir.

## КАМРАН МАМЕДОВ

***1990-йисуз Венесуэлада кьиле фейи самбодай дуьньядин кубок патал акъажунра Камран Мамедова Азербайжандин тIвар кьакьанриз хкажнай, ада къизилдин медаль къачунай.***



Камран Гьажибаладин хва Мамедов 1967-йисуз КцIар шегьерда дидедиз хьана. Ада сад лагьай агалкьун 1979-йисуз къазанмишна ва дзюдодай Сумгаит шегьердин чемпион хьана. 1983-йисуз ада жегьилрин арада Азербайжандин чемпионвилин тIвар къачуна. 1984-йисуз К.Мамедов Дашкентда юкьван мектебрин спортсменрин СССР-дин XVII спартакиададин къизилдин медалдиз лайихлу хьана. 1985-йисуз ада жегьилрин арада Вирисоюздин акъажунра самбодай буьруьнждин медаль къачуна, гьа йисузни СССР-дин хуьруьн спортсменрин арада дзюдодай сад лагьай чка кьуна.

Москвада Советрин армияда къуллугъай вахтунда ам военныйрин арадай СССР-дин чемпион хьанай. Камрана гьакIни Варшавадин Икьрардик акатзавай уьлквейрин спортсменрин арада кьиле фейи акъажунра сад лагьай чка кьунай.

1989-йисуз Алма-Атада СССР-дин чемпионатда кьвед лагьай чка кьур Камран СССР-дин хкянавай командадиз кьабулнай. Гьа йисуз ада са шумуд къецепатан уьлкведин чемпионатра къизилдин медалар къазанмишнай. 1990-йисуз Камрана виридалайни чIехи агалкьун къалурнай - вич самбодай дуьньяда тай авачирди тирди субутнай.

## KAMRAN MƏMMƏDOV

***1990-cı ildə Venesuelada keçirilmiş sambo üzrə dünya kuboku yarışlarında Kamran Məmmədov Azərbaycanın idman şərəfini yüksəklərə qaldırmış, qızıl medala layiq görülmüşdür.***

Kamran Hacıbala oğlu Məmmədov 1967-ci ildə Qusar şəhərində anadan olmuşdur. Uşaqlıqdan idmanla məşğul olan Kamran böyük idmanda ilk böyük uğurunu 1979-cu ildə qazanmış, cüdo üzrə Sumqayıt çempionu olmuşdur. 1983-cü ildə o, yeniyetmələr arasında Azərbaycan çempionu adını qazanmış, 1984-cü ildə Daşkənddə keçirilmiş məktəblilərin XVII Ümumittifaq spartakiadasında qızıl medala layiq görülmüşdür. 1985-ci ildə Kamran yeniyetmələr arasında Ümumittifaq idman oyunlarında sambo üzrə bürünc medalçı, kənd idmançıları arasında cüdo üzrə SSRİ çempionu olmuşdur.

Moskva şəhərində hərbi xidmətdə olarkən o, hərbçilər arasında SSRİ çempionu olmuş, Varşava Müqaviləsi ölkələri arasında keçirilən beynəlxalq turnirin qızıl medalını qazanmışdır.

Gənc idmançı 1989-cu ildə Alma-Atada keçirilmiş SSRİ çempionatında gümüş medalla təltif olunmuş və SSRİ yığma komandasına daxil edilmişdir. Həmin il o, bir neçə xarici ölkə çempionatlarında qızıl medallar qazanmışdır. 1990-cı ildə Venesuelada keçirilən sambo üzrə dünya kuboku yarışları istedadlı idmançı üçün uğurlu olmuşdur. Kamran Məmmədov qızıl medala sahib olmuş, dünyanın birinci dərəcəli samboçusu adını rəsmən qazanmışdır.

## ШЕКЕРХАН АЛИСМАНОВ



***Кьуршахар кьунай цIудра Азербайжандин чемпион тир Шекерхан Алисманов 2009-йисуз дуьньядин ветеран спортсменрин арада чемпион хьана.***

ЦIудра Азербайжандин чемпион хьайи (1973-1997-йисар), дуьньядин чемпионатра гимищдин ва буьруьнждин медалриз лайихлу хьайи Шекерхан Алисманова 2009-йисуз ветеранрин арада кьиле фейи дуьньядин чемпионатда сад лагьай чка кьуна. Шекерхан Шалбузан хва Алисманован тIвар СНГ-дин виридалайни гужлу спортсменрин сиягьда гьатна. Адан тIвар Азербайжандин спортдин энциклопедиядиз ва "Азербайжандин пагьливанар" ктабдиз акъудна.

1957-йисуз КцIар шегьерда дидедиз хьайи, шегьердин 5-нумрадин мектебда спортдив эгечIай Шекерхана Азербайжандин Гьукуматдин Физкультурадин Институтда кIелдай чIавуз и рекьяй чIехи агалкьунар къазанмишна. Гьуьгъуьнлай, яни 2000-йисуз ада ветеранрин арада кьиле фейи дуьньядин чемпионатда III чка, 2009-йисуз кьиле фейи чемпионатда I чка кьуна. Са шумудра дуьньядин ва СССР-дин турниррин гъалиб хьайи, спортдай международный дережа къачур Ш.Алисманов КцIарин спортдин мектебдин тренер я. Ам республикадин хкягъай командадик хьайи Намик Камилован, дуьньядин ва Европадин чемпионар Эльнур Къазимамедован, Федаил Къурбанован, республикадин чемпионар Фариз Агъасиеван ва Азер Алиеван муаллим я. Алай вахтунда Ш.Алисманов вичихъ республикадин 10 район акатзавай кеферпатан зонадин кьилин тренер я.

## ŞƏKƏRXAN ƏLİSMANOV

***Yunan-roma güləşi üzrə on dəfə Azərbaycan çempionu olmuş Şəkərxan Əlismanov 2009-cu ildə veteran idmançıların dünya çempionatında qızıl medala layiq görülmüşdür.***

On dəfə Azərbaycan çempionu olmuş (1973-1997-ci illər), veteranlar arasında dünya çempionatlarının gümüş və bürünc medallarına layiq görülmüş Şəkərxan Əlismanov 2009-cu ildə dünya çempionatında qızıl medala layiq görülmüşdür. Şəkərxan Şalbuz oğlu Əlismanovun adı MDB ölkələrinin ən güclü idmançılarının siyahısına daxil edilmişdir. Onun haqqında Azərbaycanın idman ensiklopediyasında və "Azərbaycan pəhləvanları" kitabında maraqlı materiallar verilmişdir.

1957-ci ildə Qusarda anadan olmuş, 5 saylı məktəbdə oxumuş Şəkərxan Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun tələbəsi olarkən böyük uğurlar qazanmışdır. O, klassik güləş üzrə respublika yığma komandasının üzvü idi. Bir neçə dəfə beynəlxalq turnirlərin, həmçinin "Məhsul" və "Burevestnik" cəmiyyətlərinin SSRİ çempionatının mükafatçısı olmuşdur.

Beynəlxalq dərəcəli idman ustası Ş.Əlismanov Qusar şəhər idman məktəbinin məşqçisidir. Onun yetirmələri arasında respublika yığma komandasının tərkibində çıxış etmiş Namiq Kamilov, dünya və Avropa çempionatlarının mukafatçıları Elnur Qazıməmmədov, Fədail Qurbanov, respublika çempionları Fariz Ağasiyev, Azər Əliyev və başqaları vardır. Hazırda Ş.Əlismanov respublikanın 10 rayonunu əhatə edən şimal bölgəsi üzrə baş məşqçidir.

## САМИР СЕРКЕРОВ



***Дзюдодай Азербайжандин хкягъай командадик квай спортдин устIар Самир Серкерова КцIарин Спортдин Мектеб сейли авуна.***

Самир Элшадан хва Серкеров 1986-йисуз КцIар шегьерда дидедиз хьана. 2000-йисуз ада Азербайжандин чемпионатдин къизилдин медаль къачуна. Гьа йисуз Туькрияда кьиле фейи жегьилрин турнирда Самира II чка кьуна. 2001-йисуз ам Польшада тешкил авур международный турнирда

## SAMİR SƏRKƏROV

***Cüdo üzrə Azərbaycan yığma komandasının üzvü, idman ustası Samir Sərkərov Qusar Uşaq-Gənclər İdman Məktəbinin şöhrətini yüksəklərə qaldırmışdır.***

Samir Elşad oğlu Sərkərov 1986-cı ildə Qusar şəhərində anadan olmuşdur. 2000-ci ildə o, Azərbaycan çempionatında qızıl medal qazanmışdır. Həmin il Türkiyədə keçirilmiş gənclərin turnirində Samir II yeri tutmuşdur. 2001-ci ildə Polşada keçirilmiş beynəlxalq turnirin gümüş medalına sahib

гимишдин медалдиз лайихлу хьана. Гьа йисуз Испанияда кьиле фейи жегьилрин Олимпиядин фестивалдай Самир ватандиз буьруьнждин медаль гваз хтана.

2002-йисуз Самир Серкеров Азербайжандин чемпион хьана. Гьа йисуз Туьркияда кьиле фейи международный турнирда ада III чка къазанмишна. Са йис алатайла, яни 2003-йисуз Бакуда тешкил авур международный турнирда и жегьилди I чка кьуна. 2004-йисуз Туьркияда кьиле фейи "А" категориядай международный турнирдани Самир къизилдин медалдиз лайихлу хьана. Гьа йисуз Киевда кьиле тухвай международный турнирда ада III чка кьуна.

Самир Серкеров 2005-йисуз мад гьилера Азербайжан Республикадин чемпионвилин гурариз хкаж хьана.

çıxmışdır. Həmin il İspaniyada o, daha bir uğur əldə etmişdir - gənclərin Olimpiya festivalında Samir üçüncü pilləyə qalxaraq, bürünc medala sahib olmuşdur.

2002-ci ildə Samir Azərbaycan çempionu adını qazanmışdır. Həmin il Türkiyədə keçirilən beynəlxalq turnirdə o, III yerə layiq görülmüşdür. Bir il sonra, yəni 2003-cü ildə Bakıda keçirilən beynəlxalq turnirin qızıl medalını qazanmaq da bu qusarlı gəncə nəsib olmuşdur. 2004-cü ildə Türkiyədə keçirilmiş "A" kateqoriyasında beynəlxalq turnirin çempionu da Samir Sərkərov olmuşdur. Həmin il Kiyevdə keçirilmiş beynəlxalq yarışlarda qusarlı idmançı bürünc medala yiyələnmişdir.

Samir Sərkərov 2005-ci ildə Azərbaycan çempionu adını yenidən özünə qaytarmışdır.

## ТИМУР АЛИХАНОВ

***2004-йисуз Голландияда дзюдодай кьиле фейи дуьньядин чемпионатда Тимур Алиханова къазанмишай зурба агалкьунрай гьа уьлкведа Азербайжандин пайдах хкажнай.***



Тимур Исмаилан хва Алиханов 1988-йисуз КцӀар шегьерда дидедиз хьана. Спортда сад лагьай агалкьун 2001-йисуз къазанмишай ада дзюдодай Азербайжандин чемпионатда II чка кьуна, 2002-йисуз республикадин чемпион хьана. Гьа йисуз Тимура Бакуда кьиле фейи международный турнирдин къизилдин медаль къачуна. 2003-йисуз Бакуда жегьилрин арада тухвай чемпионатдани гадади I чка кьуна. Гуьгъуьнлай Парижда кьиле фейи 7 лагьай Европадин Олимпиядин Фестивалда ам III чкадиз лайихлу хьана. 2003-йисуз Бакуда кьиле фейи Европадин акьажунра ада гимишдин медаль къазанмишна.

Вич дзюдодай дуьньядин гужлу спортсменрикай тирди мад гьилера субут авур Тимура 2004-йисуз Тверь шегьерда кьиле фейи международный турнирдани къизилдин медаль къазанмишна. Гьа йисуз ам агалкьунрин кукӀушдиз хкаж хьана ва Голландияда кьиле фейи турнирда Европадин чемпионвилин тӀвар къачуна. Им адан пуд лагьай къизилдин медаль тир. 2006-йисуз ада мад гьилера Азербайжандин чемпионвилин тӀвар къачуна, кьуд лагьай медаль гьилик авуна.

Тимур алай вахтунда Эстонияда яшамиш жезва, ам и уьлкведин пуд къат чемпион я.

## TİMUR ƏLİXANOV

***2004-cü ildə Hollandiyada keçirilmiş cüdo üzrə dünya çempionatında qızıl medala layiq görülmüş Timur Əlixanovun şərəfinə həmin ölkədə Azərbaycan bayrağı qaldırılmışdır.***

Timur İsmayıl oğlu Əlixanov 1988-ci ildə Qusar şəhərində anadan olmuşdur. 2001-ci ildə o, idmanda ilk böyük nailiyyətini qazanmış, cüdo üzrə Azərbaycan çempionatında II yerə sahib çıxmışdır. 2002-ci ildə o, yarışlarda əzmkarlıq nümayiş etdirmiş, respublika çempionu olmuşdur. Həmin il bacarıqlı idmançı Bakıda keçirilmiş beynəlxalq turnirdə yüksək qələbə əldə etmiş, qızıl medal qazanmışdır. 2003-cü ildə Bakıda keçirilmiş beynəlxalq cüdo çempionatında da Timur I yerə sahib olmuşdur. 2004-cü ildə Parisdə 7-ci Avropa Olimpiya Festivalında isə o, bürünc medala layiq görülmüşdür. 2003-cü ildə Bakıda keçirilmiş yeniyetmələr arasında Avropa birinciliyində gümüş medal qazanmışdır.

2004-cü ildə Tver şəhərində yeniyetmələr arasında keçirilmiş beynəlxalq turnirdə cüdodan dünyanın güclü idmançılarından biri olduğunu bir daha sübut edən Timur parlaq qələbə qazanaraq, vətənə qızıl medalla qayıtmışdır. Həmin il o, azarkeşlərinə daha bir qələbə sevinci yaşatmış, Hollandiyada yeniyetmələr arasında keçirilmiş Avropa birinciliyində qızıl medal qazanmışdır. 2006-cı ildə Timur Əlixanov dördüncü dəfə Azərbaycan çempionu tituluna yiyələnmişdir.

Timur hazırda Estoniyada yaşayır, o, bu ölkənin üçqat çempionudur.

## РЕЖЕБЛИЯР

*И хизан неинки Азербайжандиз, гьакI къецепатан уьлквейризни сейли я. Азербайжандин дзюдо ва самбо спортдик Режеблийри чIехи пай кутуна.*



## RƏCƏBLİLƏR

*Bu ailə nəinki Azərbaycanda, həmçinin xaricdə də tanınır. Azərbaycanda cüdo və sambo idman növlərinin inkişafında Rəcəblilərin böyük xidmətləri vardır.*

### АГЬМЕД РЕЖЕБЛИ



Агьмед Режебли Азербайжанда дзюдодин бине кутурбурукай я. Агьмеддин Иззетан хва Режебли 1945-йисуз КцIар райондин ЭчIехуьре дидедиз хьана. Ина 7-синиф куьтягьна, Сумгаитдин Химиядинни Технологиядин Техникумда чирвилер къачуна. Самбодив машгъул жез эгечIай гадади ина сад лагьай агалкьунар къазанмишна. Гуьгъуьнлай ада Азербайжандин Физкультурадин Институт акьалтIарна.

1961-1962-йисара Агьмед самбодай республикадин чемпион хьана. 1967-йисуз адан хизан Сумгаитдиз куьч хьайила, Агьмеда вичин 3 гъвечIи стхани спортдив агудна. 1969-йисуз Агьмед самбодай республикадин категориядин судьявиле хкяна. 1972-йисуз А.Режеблиди спортдин устIарвилин тIвар къачуна. 1981-йисуз Азербайжандин лайихлу тренер, всесоюзный категориядин устIар хьайи Агьмеда 1989-йисал къведалди республикадин дзюдодин командадин кьилин тренервиле кIвалахна.

Азербайжандин дзюдодин тренеррикай сифте яз Агьмед Режеблидиз 1984-йисуз Азербайжандин лайихлу физкультурадинни спортдин деятелдин тIвар гана. 2007-йисуз Президентдин указдалди ам “Терекъкъи” медалдиз лайихлу хьана. 2002-йисалай А.Режебли дзюдодай Милли Паралимпиядин командадин кьилин тренер я. 2010-йисуз чи паралимпиядин хкягъай команда Туькриядин Анталья шегьерда командадин гьисабдай дуьньядин чемпион хьана, финалда Россиядин командадиз уфтан хьана.

Агьмед Режеблиди къедалди 40 кас спортдин шегьредиз акъудна. Абурун арада адан 3 стха: Мамед, Ферг ьад ва Агьед, гьакIни кьве хва: Заур ва Элханни ава.

### ƏHMƏD RƏCƏBLİ

Əhməd Rəcəbli Azərbaycanda cüdonun əsasını qoyanlardan biridir. Əhməddin İzzət oğlu Rəcəbli 1945-ci ildə Qusar rayonunun Əcəxür kəndində anadan olmuşdur. 1959-cu ildə burada yeddillik təhsil aldıqdan sonra Sumqayıt Kimya-Texnologiya Texnikumuna daxil olmuşdur. İdmanda ilk addımlarını bu təhsil ocağında atmışdır. Sambo güləşi ilə məşğul olmağa başlayan gənc tezliklə uğurlar qazanmışdır.

Sonradan o, Azərbaycan Bədən Tərbiyəsi İnstitutunu bitirmişdir. 1961-1962-ci illərdə Əhməd sambodan respublika çempionu olmuşdur. 1967-ci ildə ailəsi Sumqayıta köçəndə o, 3 kiçik qardaşını da idmana cəlb etmişdir. 1969-cu ildə Əhməd sambodan respublika dərəcəli hakim seçilmişdir. 1972-ci ildə Ə.Rəcəbliyə idman ustası dərəcəsi verilmişdir. 1981-ci ildə Azərbaycanın əməkdar məşqçisi və Ümumittifaq dərəcəli hakim adlarına layiq görülmüş Əhməd Rəcəbli 1989-cu ilə kimi respublika cüdo komandasının baş məşqçisi olmuşdur.

Azərbaycanda cüdo məşqçiləri arasında ilk dəfə olaraq Əhməd Rəcəbliyə 1984-cü ildə “Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəçisi və idman xadimi” fəxri adı verilmişdir. 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə “Tərəqqi” medalı ilə təltif olunmuşdur. 2002-ci ildən o, cüdo üzrə Milli Paralimpiya komandasının baş məşqçisidir. 2010-cu ilin martında komanda Türkiyənin Antaliya şəhərində komanda hesabında dünya çempionu olmuş, finalda Rusiya komandasına qalib gəlmişdir.

Əhməd Rəcəbli indiyə kimi 40-dan çox istedadlı



*Агьмед Режебли вичин шакIуртI, кьведра паралимпиядин, кьведра дуьньядин, пудра Европадин чемпион хьайи Илгьам Зекиевахъ галаз санал.*

*Əhməd Rəcəbli yetirməsi, ikiqat paralimpiya, ikiqat dünya, üçqat Avropa çempionu İlham Zəkiyevlə bir yerdə.*

Ада шегьредиз акъуднавайбурукай Илгьам Зекиев кьведра паралимпиядин, кьведра дуьньядин, пудра Европадин чемпион хьана.

Режеблийрин хизанда спортдин рекьяй пуд лагьай несил кIвачел акьалтзава. Зауран хва Жесур Азербайжандин Гьукуматдин Физкультурадинни Спортдин Академиядин студент я. Ада шегьердин, республикадин ва международный акъажунра хъсан нетижаяр къалурнава. Зауран гъвечIи хва Шамилни дзюдоист я, ада вичин яшда авай аялрин арада шегьердин акъажунра сад лагьай чка кьуна.

## ФЕРГЪАД РЕЖЕБЛИ



Ам чIехи спортдиз зурба агалкьунралди атана. 1978-йисуз ада СССР-дин чемпионатда I, Азербайжандин спортсменрин арадай сифте яз Европадин чемпионатда III чкаяр кьуна. Фергьад 1980-йисузни СССР-дин чемпион хьана. 1982-йисуз "А" категориядин международный турнирда Фергьада II чка кьуна.

1988-йисуз СССР-дин чемпионатда II чка кьур ада гуьгъуьнлай Италияда кьиле фейи дуьньядин чемпионатда къизилдин медаль къачуна ва ам международный категориядин спортдин устIарвилин тIварцIиз лайихлу хьана. 1995-1996-йисара Фергьад Азербайжандин чемпион хьана.

Дзюдодин устад спортсменрин дуьньядин чемпи-



*Устад спортсменрин арада дуьньядин чемпионар. Чапла патай: Агьед Режебли, Фергьад Режебли ва Азер Аскеров.*

*Ustad idmançılar arasında dünya çempionları. Soldan: Əhəd Rəcəbli, Fərhad Rəcəbli, Azər Əsgərov.*

idmançı yetişdirmişdir. Onların arasında Əhmədin 3 qardaşı: Məmməd, Fərhad və Əhəd, eləcə də 2 oğlu: Zaur və Elxan da vardır. Ə.Rəcəblinin yetirməsi İlham Zəkiyev paralimpiya oyunlarının ikiqat çempionu, ikiqat dünya çempionu, üçqat Avropa çempionudur.

Zaurun oğlu Cəsur Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alır. Onun şəhər, respublika və bir sıra beynəlxalq yarışlarda nəticələri var. Kiçik oğlu Şamil də cüdoçudur və şəhər yarışlarında öz yaşıdları arasında qalib gəlmişdir.

## FƏRHAD RƏCƏBLİ

Böyük idmana o, parlaq qələbələrlə gəlmişdir. 1978-ci ilin SSRİ çempionatında I, Avropa çempionatında Azərbaycan idmançıları arasında ilk dəfə olaraq III yeri tutmuş Fərhad 1980-ci ildə yenidən SSRİ çempionu olmuşdur.

1982-ci ildə "A" kateqoriyası üzrə beynəlxalq turnirdə gümüş medal qazanmışdır. 1988-ci ildə SSRİ çempionatında II yerə layiq görülən idmançı İtaliyada keçirilən dünya çempionatında qızıl medal qazanmış və beynəlxalq dərəcəli idman ustası adına layiq görülmüşdür. 1995-1996-cı illərdə Fərhad Azərbaycan çempionu olmuşdur.

2002-ci ildə cüdo üzrə ustad cüdoçuların dünya çempionatında III, 2003-cü ildə isə II yerlərə sahib

онатда 2002-йисуз III ва 2003-йисуз II чкаяр кьур Фергьад Режеблиди и вахтунда пудра Европадин ва дуьньядин чемпионвилин титулар къазанмишна. 2006-йисуз 49 уьлкведай 1200 ветеран дзюдоистди иштираквавай дуьньядин чемпионатда ада I чка кьуна. Адан хва, Азербайжандин Физкультурадинни Спортдин Академиядин студент тир Мурадни дзюдодив машгъул жезва. Ам республикадин чемпион я ва хкягъай командадик ква.

olmuş və bu müddət ərzində üçqat dünya çempionu və Avropa çempionu titullarını qazanmışdır. Fərhad Rəcəbli 2006-cı ildə yeni uğur əldə etmişdir. O, 49 ölkədən 1200 veteran idmançının iştirak etdiyi dünya çempionatında birinci yeri qazanmışdır. Onun oğlu, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi Murad da cüdo ilə məşğul olur. O, respublika çempionudur, yığma komandamızın üzvüdür.

## МАМЕД РЕЖЕБЛИ

Самбодайни дзюдодай спортдин устIарвилин тIвар къачур Мамед Режебли чи республикадин тIварван авай спортсменрикай я. Ам вичи къазанмишай агалкьунрай "Азербайжандин лайихлу тренер" гьуьрметдин тIварцIиз лайихлу хьана.

М.Режеблидин агалкьунар 11 къизилдин медалдалди къейд авуна. Мамеда абур 11 гьилера самбодай уьлкведин чемпион хьунай къачурди я. Ам дзюдодайни са шумудра Азербайжандин чемпион хьана.



## MƏMMƏD RƏCƏBLİ

Sambo və cüdo üzrə idman ustası Məmməd Rəcəbli respublikamızın adlı-sanlı idmançılarındandır. İdmanda qazandığı nailiyyətlərinə görə o, "Azərbaycanın əməkdar məşqçisi" fəxri adına layiq görülmüşdür.

M.Rəcəblinin idman nailiyyətləri 11 qızıl medalla qeyd edilmişdir. Məmməd 11 dəfə sambo güləşi üzrə Azərbaycan çempionu olmuşdur. O, cüdo üzrə də bir neçə dəfə respublika çempionunun titulunu qazanmışdır.

## АГЬЕД РЕЖЕБЛИ

Агьед Режебли яргъал йисара самбодай ва дзюдодай Азербайжандин чемпион хьана. И рекьяй къазанмишай агалкьунрай ам спортдин устIар, Азербайжандин лайихлу тренер, республикадин категориядин судья хьтин тIварариз лайихлу хьана.

2002-йисуз Италияда кьиле фейи самбодай ветеранрин чемпионатда Агьед Режеблиди гимишдин медаль къачуна. 2003-йисуз самбодай дуьньядин чемпиондин тIварцIиз лайихлу хьайи Агьедан хци Фаридани бубадин рехъ давамарзава.



## ƏHƏD RƏCƏBLİ

Əhəd Rəcəbli bir neçə il dalbadal sambodan və cüdodan Azərbaycan çempionu olmuşdur. Qazandığı nailiyyətlərə görə o, idman ustası, Azərbaycanın əməkdar məşqçisi, respublika dərəcəli hakim adlarına layiq görülmüşdür.

2002-ci ildə samboçu veteranların İtaliyada keçirilmiş çempionatında Əhəd Rəcəbli gümüş medal qazanmışdır. 2003-cü ildə sambo güləşi üzrə dünya çempionu adına layiq görülmüş Əhədin oğlu Fərid atasının yolunu layiqincə davam etdirir.

## ЗАУР РЕЖЕБЛИ

Са шумудра республикадин чемпион хьайи спортдин устIар Заур Режеблиди 1985-йисуз СССР-дин чемпионатда II чка кьуна. Ам СССР-дин хкягъай командадик квай. "Буревестник" жемиятдин турнирра ам кьведра чемпион хьана. Заур

## ZAUR RƏCƏBLİ

Bir neçə dəfə respublika çempionu olmuş idman ustası Zaur Rəcəbli 1985-ci ildə SSRİ çempionatında II yerə layiq görülmüş, SSRİ-nin yığma komandasına daxil edilmişdir. "Burevestnik" cəmiyyətinin turnirlərində iki dəfə çempion titulu qa-

шумудни са международный турниррин призер я. Ада тренер-муаллимди хьиз жегьил несилдиз чирвилер гузва.

## ЭЛХАН РЕЖЕБЛИ

Жегьилрин арада самбодай 1997-1998-йисара кьиле фейи Европадин чемпионатда Элхана I чка кьуна. Гьа йисуз Кьазахстанда кьиле фейи дуьньядин чемпионатда ам II чкадиз лайихлу хьана. 1996-1997-йисара дзюдодай Азербайжандин чемпион хьайи спортдин устӀар Элхан Режеблиди 1999-йисуз "А" категориядай чемпионатда I чка кьуна.

2001-йисуз ада военный спортсменрин чемпионатда II, гьа йисуз Мюнхенда кьиле фейи дуьньядин чемпионатда III чкаяр кьуна. 2004-йисуз военныйрин дуьньядин чемпионатда кьизилдин медаль кьачур ам и акьажунрин виридалайни техникалу спортсмен яз малумарна. Алай вахтунда ам Азербайжандин дзюдодай хкягъай командадин виридалайни тежрибалу спортсмен я. Элханан 6 йиса авай хва Омарани дзюдодихъ ялзава.



*Агьмед Режебли вичин рухвайрихъ - Заурахъни Элханахъ галаз санал.*

*Əhməd Rəcəbli oğulları Zaur və Elxanla bir yerdə.*

zanmış Zaur bir sıra beynəlxalq yarışların mükafatçısıdır və indiyə kimi məşqçi-müəllim kimi gənc nəslin fiziki hazırlığı ilə fəal məşğul olur.

## ELXAN RƏCƏBLİ

Gənclər arasında 1997-1998-ci illərdə keçirilən sambo güləşi üzrə Avropa çempionatında Elxan qızıl medal qazanmışdır. Həmin il Qazaxıstanda keçirilmiş dünya çempionatında o, II yeri tutmuşdur. 1996-1997-ci illərdə cüdo üzrə Azərbaycan çempionu olmuş Elxan Rəcəbli 1999-cu ildə "A" kateqoriyası üzrə çempionatda qızıl medala layiq görülmüşdür.

2001-ci ildə hərbi idmançıların çempionatında II, həmin il Münhendə keçirilmiş dünya çempionatında III yeri tutmuşdur. 2004-cü ildə hərbçilərin dünya çempionatında birinci olmuş və yarışların ən texnikalı cüdoçusu kimi xüsusi mükafata layiq görülmüşdür. Hal-hazırda cüdodan Azərbaycan yığma komandasının ən təcrübəli idmançısı kimi hazırlığını davam etdirir. Onun 6 yaşlı oğlu Ömər də cüdoya maraq göstərir.



*Режеблияр Сумгаитдин Мегьди Гьуьсейнзаededин тӀварунихъ галай стадионда. Чапла патай: Фергьад, Заур, Агьмед, Элхан, Мамед, Агьед.*

*Rəcəblilər Sumqayıtdakı Mehdi Hüseynzadə adına şəhər stadionunda məşqdən əvvəl. Soldan sağa: Fərhad, Zaur, Əhməd, Elxan, Məmməd, Əhəd.*



*КцӀарин Олимпиядин Меркезда Азербайжандин шегьеррин дзюдодин командайрин ачух турнирдин гъалибриз Агьмед Режеблиди ва КцӀарин Жегьилринни Спортдин Идарадин кьил Эмин Эмирметова призар гузва. 2010.*

*Qusar Olimpiya mərkəzində keçirilmiş cudo üzrə Azərbaycanın şəhərlərarası açıq turnirində qalib gəlmiş idmançılara Əhməd Rəcəbli və Qusar Gənclər və İdman İdarəsinin rəhbəri Emin Əmirmətov mükafatlar təqdim edirlər. 2010.*

## НОФЕЛ МУСАЕВ



***ЦIуд йисуз кьуршахар кьунай республикадин чемпионвилин тIвар хвейи Нофел Мусаев 1963-1971-йисара спортдин шегьреда хьанай.***

Нофел Гъасанан хва Мусаев 1945-йисуз КцIар райондин ТIигьиррин хуьре дидедиз хьана. КцIар шегьердин 1-нумрадин юкьван мектеб акьалтIарна, Азербайжандин Гьукуматдин Физкультурадин Институтда чирвилер къачуна. Ада 1968-1973-йисара “Спартак” спортдин жемиятда тренервиле кIвалахна.

1963-1971-йисара республикадин хкягъай командада къугъвай Н.Мусаев са шумудра Бакудин ва Азербайжандин чемпион хьана. Международный турнирра уфтан хьайи спортдин устIар Н.Мусаева 1970-йисуз СССР-дин халкьарин вад лагьай юбилейдин спартакиадада агалкьунар къазанмишна ва гьавиляй ам СССР-дин хкягъай командадиз кьабулна. 1973-йисуз КцIариз хтай спортсменди 20 йисуз шегьердин 3-нумрадин юкьван мектебда муаллимвал авуна.

## NOFƏL MUSAYEV

***10 il sərbəst və milli güləş növləri üzrə respublika çempionu titulunun sahibi olmuş Nofəl Musayev 1963-1971-ci illərdə şöhrət zirvəsində olmuşdur.***

Nofəl Həsən oğlu Musayev 1945-ci ildə Qusar rayonunun Düztahir kəndində anadan olmuşdur. O, Qusar şəhər 1 saylı orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda təhsil almışdır. 1968-1973-cü illərdə “Spartak” idman cəmiyyətində məşqçi işləmişdir.

1963-1971-ci illərdə respublika yığma komandasına üzv qəbul olunmuş N.Musayev dəfələrlə Bakı və Azərbaycan birinciliklərinin, Zaqafqaziya və beynəlxalq turnirlərinin qalibi olmuşdur. İdman ustası N.Musayev 1970-ci ildə SSRİ xalqlarının 5-ci yubiley spartakiadasının mükafatını qazanmış və SSRİ yığma komandasına daxil edilmişdir.

1973-cü ildə Qusar rayonuna qayıdan idmançı 20 il Qusar 3 saylı orta məktəbində idman müəllimi işləmişdir.

## ЭЛЬНУР КЪАЗИМАМЕДОВ



***1999-йисуз Данимаркада греко-римдин кьуршахар кьунай дуьньядин чемпионатда III чка кьур Эльнур Къазимамедова чIехи спортда са шумудра вичин гаф лагьана.***

Кьуршахар кьунай республикадин хкягъай командадик квай спортдин устIар Эльнур Алибеган хва Къазимамедов 1983-йисуз КцIара дидедиз хьана. Тофикь Камилован регьбервилик кваз спортдив мукьувай эгечIай Эльнура вичин виридалайни чIехи агалкьун 1999-йисуз къазанмишна. Ада Данимаркада дуьньядин чемпионатда III чка кьуна.

2000-йисуз Словакияда Европадин чемпионатда Эльнур гимишдин медалдин сагьиб хьана. 2002-йисуз Азербайжандин Гьукуматдин Физкультурадинни Спортдин Академия акьалтIарай Э.Къазимамедова гьа йисуз Азербайжандин чемпионвилин титул къачуна.

## ELNUR QAZIMƏMMƏDOV

***1999-cu ildə Danimarkada keçirilmiş yunan-roma güləşi üzrə yeniyetmələrin dünya birinciliyində III yerə sahib olmuş Elnur Qazıməmmədov böyük idmanda bir neçə dəfə öz sözünü deyib.***

Yunan-roma güləşi üzrə idman ustası Elnur Əlibəy oğlu Qazıməmmədov 1983-cü ildə Qusar şəhərində anadan olmuşdur. Tofiq Kamilovun rəhbərliyi altında peşəkar idmanla məşğul olmağa başlayan Elnur 1999-cu ildə Danimarkada keçirilmiş yunan-roma güləşi üzrə yeniyetmələrin dünya birinciliyində III yerə sahib olmuşdur.

2000-ci ildə Slovakiyada keçirilmiş yeniyetmələrin Avropa çempionatında o, gümüş medala layiq görülmüşdür. 2002-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirən E.Qazıməmmədov həmin ilin Azərbaycan çempionatının qızıl medalını qazanmışdır.

## ФАРИДА АЗИЗОВА



***2009-йисан июндиз Загребда кьиле фейи таеквондодай Европадин чемпионатда Фарида Азизова республикадин жегьил рушарин арадай сифте яз чемпион хьана.***

Гуьгъуьнлай Сеулда кьиле фейи дуьньядин чемпионатда лагьайтIа, и лезги руша буьруьнждин медаль къазанмишна. Азербайжандин пайдах Загребда ва Сеулда хкажиз тур Фарида Шихеммедан руш Азизовади алай вахтунда КцIар шегьердин 2-нумрадин юкьван мектебдин 9-синифда кIелзава. Фарида гьакIни кьудра республикадин къизилдин медалриз, кьведра Европадин, садра дуьньядин чемпионатрин буьруьнждин медалриз лайихлу хьана.

2010-йисуз Кореяда кьиле фейи и уьлкведин чемпионатда I чка кьур Фаридадиз “Чемпионатдин виридалайни гужлу таеквондист” тIвар гана. Фарида спортдал машгъул жез вад йис я. Адан тренер КцIарин таеквондо секциядиз регьбервал гузвай Камран Къарибов я. Фаридадин мурад гележегда КцIар шегьерда таеквондодал машгъул жезвай рушар патал кьилди секция кардик кутун я.

## FƏRİDƏ ƏZİZOVA

***2009-cu ilin iyununda Zaqrebdə keçirilmiş tayekvondo üzrə Avropa çempionatında Fəridə Əzizova respublikamızın yeniyetmə qızları arasında ilk dəfə çempion adını qazanmışdır.***

Bir ay sonra Seulda keçirilmiş dünya çempionatında isə bu Azərbaycan idmançısı bürünc medala layiq görülmüşdür. Azərbaycan bayrağını Zaqrebdə və Seulda dalğalandırmış Fəridə Şixəmməd qızı Əzizova hazırda Qusar şəhər 2 saylı orta məktəbinin 9-cu sinfində oxuyur. Fəridənin idman nailiyyətləri arasında Azərbaycan çempionatlarında qazandığı 4 qızıl medal, Avropa və dünya çempionatlarında qazandığı bürünc medallar da vardır.

Fəridə 2010-cu ilin avqust ayında Koreyada keçirilmiş ölkənin açıq çempionatında da qalib gəlmiş, “Çempionatın ən güclü tayekvondoçusu” fəxri adına layiq görülmüşdür. İdmanla 5 il məşğul olan F.Əzizovanın məşqçisi Qusar tayekvondo bölməsinin rəhbəri Kamran Qəribovdur. Gənc İdmançının ən böyük arzusu ali təhsil aldıqdan sonra Qusar şəhərində qızlar üçün ayrıca tayekvondo bölməsi yaratmaqdır.

## ЗАМИК МАМЕДОВ



***Барьердин чукурунай Замик Мамедов Азербайжанда спортдин мастер тир авай-авачир сад я. Ам иридра Азербайжандин чемпионвилин тIварцIиз лайихлу хьана.***

Замик Рафиагъадин хва Мамедов 1982-йисуз Бакуда дидедиз хьана. Дидени буба КцIар райондин ЭчIехуьряй тир гададик руьгь кутурди, адаз спорт кIанарайди и райондин симин пагьливанар хьана. Абуру симинал ийизвай аламатдин гьерекатрал гьейран хьайи ам мектебда кIелдайла кьезил атлетикадив машгъул жез эгечIна.

Азербайжандин Гьукуматдин НафтIадин Академия акьалтIарай Замик иридра Азербайжандин чемпионвилин тIварцIиз лайихлу хьана. 2003-йисалай республикадин хкягъай командадик квай ада 2007-йисуз спортдин мастервилин норма кьилиз акъуд-

## ZAMİQ MƏMMƏDOV

***Baryerlə qaçış üzrə Azərbaycanda yeganə idman ustası Zamiq Məmmədovdur. O, yeddi dəfə dalbadal bu növ üzrə respublika çempionu titulunu qazanmışdır.***

Zamiq Rəfiağa oğlu Məmmədov 1982-ci ildə Bakıda anadan olmuşdur. Valideynləri Qusar rayonunun Əcəxür kəndinin sakinləri olan Zamiqi idmana yerli kəndirbazlar ruhlandırmışdır. Ləzgi pəhləvanlarının kəndir üzərində nümayiş etdirdikləri qeyri-adi tryuklar onu hələ orta məktəbdə təhsil alarkən yüngül atletika ilə məşğul olmağa həvəsləndirmişdir.

Azərbaycan Dövlət Neft Akademiyasını bitirən Zamiq yeddi dəfə Azərbaycan çempionu adına layiq görülmüşdür. 2003-cü ildən respublikanın yığma komandasının tərkibində çıxış edən gənc 2007-ci ildə idman ustası normasını yerinə yetirmişdir. 2008-ci

на. 2008-йисуз Пекиндин олимпиададиз кандидат тир Замикавай кIвач тIар хьун себеб яз норматив кьилиз акъудиз хьанач.

ilin Pekin olimpiadasında iştirak etməyə namizəd olan Zamiq aldığı zədə nəticəsində idman normativini yerinə yetirə bilməmişdir.

## РАФИК АГЪАБАБАЕВ



***Армрестлингдай кцIарви спортсменрин арада Рафик Агъабабаеван агалкьунар дамах кутадайбур я.***

Рафик Арифан хва Агъабабаев 1986-йисуз КцIар райондин Ясаб хуьре дидедиз хьана. Ина ам Ариф Агъабабаеван регьбервилик кваз спортдив мукьувай машгъул хьана. 2005-йисуз ада сад лагьай чIехи агалкьун къазанмишна. Азербайжан Республикадин Яракьлу Къуватрин армспортдай чемпионатда 80 кг заланвал авай жегьилрин арада I чка кьуна.

2006-йисуз армрестлингдай Азербайжандин кубок патал акъажунра 78 кг заланвиле авай спортсменрин арада Рафик I чкадиз лайихлу хьана. 2007-йисуз жегьилрин арада кьиле фейи Азербайжандин акъажунра Рафика II чка кьуна. Гьа йисуз Азербайжандин чемпионатдани ам II чкадиз лайихлу хьана. 2008-йисан республикадин чемпионатда 80 кг авай спортсменрин арада ам I чкадиз лайихлу хьана. Р.Агъабабаева 2010-йисузни (85 кг) виридалайни хъсан нетижа къалурна сад лагьай чка кьуна. Ам армрестлингдай спортдин устIарвилиз кандидат я.

## RAFİK AĞABABAYEV

***Qol güləşi idmanı ilə məşğul olan qusarlı gənclər arasında Rafik Ağababayevin uğurları ürəkaçandır.***

Rafik Arif oğlu Ağababayev 1986-cı ildə Qusar rayonunun Yasab kəndində anadan olmuşdur. Burada o, məşqçi Arif Ağababayevin rəhbərliyi altında idmanla ciddi məşğul olmağa başlamışdır. Rafiq 2005-ci ildə ilk böyük uğurunu qazanmış, qol güləşi idman növü üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin birinciliyində 80 kq çəki dərəcəsində I yeri tutmuşdur.

2006-cı ildə həmin növ üzrə Azərbaycan kuboku yarışlarında o, 78 kq çəkili idmançılar arasında I yerə sahib olmuşdur. 2007-ci ildə gənclər arasında keçirilmiş respublika birinciliyində Rafik II yerə layiq görülmüşdür. Həmin ilin Azərbaycan çempionatında da o, II yeri tutmuşdur. 2008-ci ildə keçirilmiş Azərbaycan çempionatında 80 kq çəki dərəcəsində I pilləyə çıxmış R.Ağababayev 2010-cu ildə də (85 kq) ən yaxşı nəticə göstərərək birinci yeri qazanmışdır. O, qol güləşi üzrə idman ustalığına namizəddir.

## НАСИР МАМЕДАЛИЕВ



***Къванер хкажунай са шумудра Азербайжандин чемпион хьайи Насир Мамедалиеван муаллим Желил Муьштакъов я.***

Насир Алияран хва Мамедалиев 1975-йисуз КцIар райондин Ширвановка хуьре дидедиз хьана. Ада гьеле мектебда кIелдай йисара спортдай гзаф агалкьунар къазанмишнай.

Насира сад лагьай гъалибвал 1988-йисуз Казань шегьерда кьиле фейи Вирисоюздин турнирда къазанмишна. Ам кьудра “Мегьсул” жемиятдин спартакиадайра сад лагьай чкадин, садра Азербайжандин кубокдин сагьиб хьана.

## NASİR MƏMMƏDƏLİYEV

***Daşqaldırma üzrə bir neçə dəfə Azərbaycan çempionu olmuş Nasir Məmmədəliyev adlı-sanlı pəhləvan Cəlil Müştaqovun yetirməsidir.***

Nasir Əliyar oğlu Məmmədəliyev 1975-ci ildə Qusar rayonunun Şirvanovka kəndində anadan olmuşdur. O, məktəb illərindən idmanla məşğul olmuş və bir sıra uğurlar qazanmışdır.

Nasir ilk böyük uğurunu Kazan şəhərində 1988-ci ildə keçirilmiş Ümumittifaq turnirində qazanmışdır. O, 4 dəfə “Məhsul” KKİC-nin spartakiadalarının qalibi olmuş, 1 dəfə Azərbaycan kubokuna yiyələnmişdir.

## КАМРАН ФЕРЗАЛИЕВ

***1986 ва 1989-йисарин СССР-дин чемпион Камран Ферзалиева гимнастикадай международный дережадин мастервилин тIвар къачунай.***



(1974-1999)

Камран Межведдинан хва Ферзалиеван бубаяр КцIар райондин Кьуьхуьруба хуьряй я. Са шумудра Азербайжандин чемпион хьайи, СССР-дин Яракьлу Къуватрин ва Всесоюзный турнирра гъалибвал къазанмишай Камрана вичин 24 йисан уьмуьрда 10 къизилдин, 8 гимишдин ва 6 буьруьнждин медалар къачунай.

1981-йисалай гимнастикадив эгечIай гада 1986-йисуз ЦСКА-дин хкягъай командадиз кьабулнай. 1988-йисуз ам СССР-дин хкягъай командадик экечIна. Ина олимпиядин чемпион А.Андрианова ам олимпиядин къугъунриз гьазурзавай. СССР чкIайдалай гуьгъуьниз Камран Азербайжандин хкягъай командадик квай. Дуьньядин чемпионатра чIехи агалкьунар къазанмишай, вичихъ гзаф зурба алакьунар авай Камран 24 йиса аваз Москвада гъазадик акатна гьелек хьана.

2008-2009-йисара КцIар райондин Кьуьхуьруба хуьре чкадин органрин мукьувай куьмекдалди Камран Ферзалиеван хатурдиз бахшнавай кьуршахар кьунай райондин чемпионатар кьиле фена.

## KAMRAN FƏRZƏLİYEV

***1986 və 1989-cu illərdə SSRİ çempionu olmuş Kamran Fərzəliyev gimnastika üzrə beynəlxalq dərəcəli idman ustası adına layiq görülmüşdür.***

Kamran Məcvəddin oğlu Fərzəliyev əslən Qusar rayonunun Quxuroba kəndindəndir. Bir neçə dəfə respublika çempionu olmuş, SSRİ Silahlı Qüvvələrinin çempionatında və Ümumittifaq turnirlərində qalib gəlmiş Kamran 24 illik həyatında 10 qızıl, 8 gümüş və 6 bürünc medala sahib olmuşdur.

1981-ci ildən gimnastika ilə məşğul olan Kamran 1986-cı ildə OMİK-in yığma komandasına qəbul olunmuşdu. 1988-ci ildən o, SSRİ yığma komandasının üzvü idi. Burada Olimpiya çempionu A.Andrianov onu olimpiya oyunlarına hazırlaşdırırdı. SSRİ dağılandan sonra Kamran Azərbaycan yığma komandasının tərkibində məşqlər edirdi. Dünya çempionatlarında böyük uğurlar qazanan, olduqca istedadlı idmançı olan Kamran Fərzəliyev 24 yaşında ikən Moskvada müəmmalı şəkildə həlak olmuşdur. 2008-2009-cu illərdə Qusar rayonunun Quxuroba kəndində kənd bələdiyyəsi ilə icra nümayəndəliyinin yaxından dəstəyi ilə yunan-roma güləşi üzrə Kamran Fərzəliyevin xatirəsinə həsr olunmuş rayon çempionatı keçirilmişdir.

## ВАСИФ КЪУРБАНОВ

***Васиф Къурбанова 2008-йисуз Иранда международный турнирда къизилдин медаль къачуна.***



Васиф Элшадан хва Къурбанов 1987-йисуз КцIара дидедиз хьана. ЧIулав чIулунин ва II дандин сагьиб я. 2005-йисуз таеквондодай жегьилрин арада кьиле фейи республикадин чемпионатда ада III чка кьуна.

2006-йисуз Египетда кьиле фейи международный акъажунра Васиф II чкадин сагьиб хьана. 2008-йисуз Иранда международный турнирда ада къизилдин медаль къачуна.

## VASİF QURBANOV

***Vasif Qurbanov 2008-ci ildə İranda keçirilmiş beynəlxalq turnirdə qızıl medala layiq görülmüşdür.***

Vasif Elşad oğlu Qurbanov 1987-ci ildə Qusar şəhərində anadan olmuşdur. Qara kəmərin və II danın sahibidir. 2005-ci ildə gənclər arasında tayekvondo üzrə respublika çempionatında III yeri tutmuşdur.

2006-cı ildə Misirdə keçirilmiş tayekvondo üzrə beynəlxalq turnirdə o, II yerə sahib olmuşdur. 2008-ci ildə İranda keçirilmiş beynəlxalq turnirdə qızıl medala layiq görülmüşdür.

## РУСЛАН РАМАЗАНОВ



***Къванер хкажунай ва армрестлингдай Руслан республикадин сад лагьай дережадин спортсмен я.***

Рамазанов Руслан Гьафизан хва 1982-йисуз КцӀар райондин Ясаб хуьре дидедиз хьана. Ада вичин сад лагьай агалкьун 2003-йисуз къазанмишна. Азербайжандин хуьруьн спортсменрин XIV Спартакиадада къванер хкажунай I чка кьуна. 2004-йисан XV Спартакиадада ам (60 кг) къванер хкажунай I чкадиз лайихлу хьана. 2005-йисан XVI Спартакиадада 70 кг заланвал авай пагьливанрин арада Руслан мадни сад лагьайди хьана.

2006-йисуз кьиле фейи XVII Спартакиададин чемпионвилин титулни Русланаз кьисмет хьана. 2007-йисуз кьиле фейи Азербайжандин зегьметчийрин III Спартакиадада ада 90 кг заланвал авай пагьливанрин арада къванер хкажунай сад лагьай чка кьуна. Гьа йисуз армрестлингдай кьиле фейи Азербайжандин чемпионатда ам кьвед лагьай чкадиз лайихлу хьана. 2010-йисуз Руслана армрестлингдай (65 кг) респубдикадин чемпионатда II чка кьуна. Руслан Рамазанован тренер Ариф Агъабабаев я.

## RUSLAN RAMAZANOV

***İdmanın daşqaldırma və armrestlinq növləri üzrə Ruslan respublikanın birinci dərəcəli idmançısıdır.***

Ramazanov Ruslan Hafiz oğlu 1982-ci ildə Qusarın Yasab kəndində anadan olmuşdur. İlk uğurunu 2003-cü ildə qazanmış, daşqaldırma üzrə kənd idmançılarının XIV Respublika Spartakiadasında I yeri tutmuşdur. 2004-cü ildə keçirilmiş XV Respublika Spartakiadasında daşqaldırma üzrə yarışlarda Ruslan (60 kq) I yerə sahib olmuşdur. 2005-ci ilin spartakiadasında 70 kq çəkili pəhləvanlar arasında da Ruslan birincilik qazanmışdır.

2006-cı ildə keçirilmiş XVII Spartakiadanın çempionu titulunu qazanmaq da Ruslana nəsib olmuşdur. 2007-ci ildə keçirilmiş zəhmətkeşlərin III Respublika Spartakiadası da 90 kq çəkili pəhləvanlar arasında ona birincilik gətirmişdir. Həmin il o, armrestlinq idman növü üzrə keçirilmiş respublika çempionatında ikinci pilləyə qalxmışdır. 2010-cu ildə idmançı armrestlinq üzrə respublika çempionatında (65 kq) II yeri tutmuşdur. Ruslan Ramazanovun məşqçisi Arif Ağababayevdir.

## ВАЛЕГЬ АМИРАЛИЕВ



***Валегь Амиралиев 2006-йисуз къайдасуздаказ кьуршахар кьунай Азербайжандин чемпион хьана.***

Валегь Жаванширан хва Амиралиев 1986-йисуз КцӀара дидедиз хьана. Ам аял чӀавалай КцӀарин Аялринни Жегьилрин Спортдин Мектебда Рауф Къазиханован регьбервилик кваз дзюдодив машгъул хьана. 2004-йисуз самбодай жегьилрин акъажунра ада Дагъустандин чемпионвилин тӀвар къазанмишна.

2005-йисуз дзюдодай Азербайжандин чемпионатда III чкадиз лайихлу хьайи Валегь 2006-йисуз къайдасуздаказ кьуршахар кьунай Азербайжандин чемпион хьана. Гьа йисуз Челябинск шегьерда кьиле фейи Кьиблепатан Уралдин чемпионатда I чкадиз лайихлу хьайи гадади, Россиядин чемпионатда III чка кьуна. 2007-йисуз Валегь Амиралиева Къазахстандин Караганда шегьерда къайдасуздаказ кьуршахар кьунин акъажунра къизилдин медаль къачуна.

## VALEH ƏMİRƏLİYEV

***Valeh Əmirəliyev 2006-cı ildə qaydasız döyüş üzrə Azərbaycan çempionu titulunu qazanmışdır.***

Valeh Cavanşir oğlu Əmirəliyev 1986-cı ildə Qusar şəhərində doğulmuşdur. O, kiçik yaşlarından Qusar UGİM-də məşqçi Rauf Qazixanovun rəhbərliyi altında cüdo ilə məşğul olmuşdur. 2004-cü ildə sambo üzrə gənclər arasında Dağıstan çempionu titulunu qazanmışdır.

2005-ci ildə cüdo üzrə gənclər arasında Azərbaycan birinciliyində III yeri (90 kq) tutmuşdur. 2006-cı ildə qaydasız döyüş üzrə Azərbaycan çempionatında və Çelyabinsk şəhərində Cənubi Ural üzrə qaydasız döyüş yarışlarında I yeri tutmuşdur. 2006-cı ildə əlbəyaxa döyüş növü üzrə Ümumrusiya turnirində III yerə layiq görülmüşdür. 2007-ci ildə Qazaxıstanın Karaqanda şəhərində keçirilmiş qaydasız döyüş üzrə açıq birincilikdə Valeh Əmirəliyev qızıl medal qazanmışdır.

## РЕШАД МЕДЕТОВ



***Атлет Решад Медетов чи республикадин вичихъ чIехи алакьунар авай спортсменрикай я.***

Медетов Решад Тофикьан хва 1985-йисуз КцIар райондин Чпир хуьре дидедиз хьана. 2003-йисуз КцIара кьиле фейи районрин акъажунра ада 1500 метрдиз чукурунай I чка кьуна. Гьа йисуз Азербайжандин Гьукуматдин Физкультурадинни Спортдин Академиядик экечIай Решад 2004-йисалай вуздин хкягъай командадиз кьабулна.

2004-йисуз Бакуда кьиле фейи республикадин чемпионатда 6 километрдиз чукурунай ада I чка кьуна. Икьван гагьди чара-чара дистанцийриз чукурунай Р.Медетов 34 гьилера I, 22 гьилера II, 12 гьилера III чкайрин сагьиб хьана. Международный акъажунрин призер хьайи ада Республикадин Яракьлу Къуватрин кроссдай акъажунра I, II, III чкаяр кьуна. 2009-йисуз кьил кIевирнавай залда 3 км-диз чукурунай республикада виридалайни хъсан нетижа къалурай Решад санлай 68 медалдиз сагьиб хьанва, абурукай 34 къизилдинбур я.

## RƏŞAD MƏDƏTOV

***İdmanın yüngül atletika növü ilə məşğul olan Rəşad Mədətov respublikamızın perspektivli idmançılarındandır.***

Mədətov Rəşad Tofiq oğlu 1985-ci ildə Qusar rayonunun Cibir kəndində anadan olmuşdur. 2003-cü ildə Qusarda keçirilən rayonlararası yarışlarda o, 1500 metr məsafəyə qaçışda I yeri qazanmışdır. Həmin il Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olunmuş, 2004-cü ildə bu ali məktəbin yığma komandasına üzv olmuşdur.

2004-cü ildə Bakıda keçirilmiş respublika çempionatında o, 6 km-lik məsafəyə qaçış üzrə I yerə layiq görülmüşdür. İndiyə kimi müxtəlif məsafələrə qaçış üzrə 34 dəfə I, 22 dəfə II, 12 dəfə III yerləri tutmuşdur. Beynəlxalq yarışların mükafatçısı olan Rəşad hərbi xidmətdə olduğu dövrdə Respublika Silahlı Qüvvələrinin kross üzrə yarışlarında I, II və III yerlərə sahib olmuşdur. 2009-cu ildə örtülü zalda 3 km-lik məsafəyə qaçış üzrə respublikada ən yaxşı nəticə göstərmiş R.Mədətov üst-üstə 68 medal qazanmışdır ki, onlardan da 34-ü qızıl medaldır.

## ЖЕЙГЬУН ПАШАЕВ



***Армрестлингдай агалкьунар къазанмишай Жейгьун Пашаеван регьбервилик кваз цIудралди жегьилар спортдив эгечIнава.***

Пашаев Жейгьун Адилан хва 1980-йисуз КцIар райондин Хьилерин хуьре дидедиз хьана. Ина юкьван мектеб акьалтIарай жегьил 2001-йисалай Ариф Агъабабаеван регьбервилик кваз армрестлингдив машгъул жез гатIунна. Сад лагьай агалкьун 2003-йисуз къазанмишай ада республикадин кубок патал акъажунра II чка кьуна.

“Мегьсул” жемиятдин чемпионатра 2004-йисуз II, 2005-2006-йисара лагьайтIа, I чкадиз лайихлу хьана. 2008-йисуз “Мегьсулдин” чемпионатда II чка кьур жегьилди гьа чIавалай хуьре армрестлингдин секция кардик кутуна, адаз регьбервал гузва. Ада кIвачел ахкьалдарай спортсменрикай 8 касди Азербайжандин Яракьлу Къуватрин чемпионатра I чкаяр кьуна.

## CEYHUN PAŞAYEV

***Armrestlinq idmanında uğurlar qazanmış Ceyhun Paşayevin rəhbərliyi altında onlarca gənc idmanın bu növü ilə məşğul olur.***

Paşayev Ceyhun Adil oğlu 1980-ci ildə Qusar rayonunun Hil kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirib, 2001-ci ildən məşqçi Arif Ağababayevin rəhbərliyi altında armrestlinqlə məşğul olmağa başlamışdır. C.Paşayev idmanda ilk böyük uğurunu 2003-cü ildə qazanmış, respublika kuboku yarışlarında II yerə sahib olmuşdur.

2004-cü ildə “Məhsul” KKİC-nin çempionatında II, 2005-2006-cı illərdə isə I yerə layiq görülmüşdür. 2008-ci ildə “Məhsul”un çempionatında II yeri qazanan Ceyhun o vaxtdan doğma kəndində armrestlinq bölməsi yaradaraq ona rəhbərlik edir. Onun yetirmələrindən 8 nəfəri Azərbaycan Silahlı Qüvvələrinin çempionatlarında I yerləri tutmuşdur.

## АФЕТ АЛИВЕРДИЕВА



***Азербайжандин ва Вирисоюздин чемпионатра медалар къазанмишай Афет Аливердиевади 1989-йисуз СССР-дин профсоюзрин чемпионатда къизилдин медаль къачуна.***

КцIар шегьерда 1973-йисуз дидедиз хьайи Аливердиева Афет Арифан руш 3-нумрадин юкьван мектеб акьалтIарна, Дагъустандин Гьукуматдин Университетдин химиядин факультетдик экечIна. Инаг куьтягьна Дагъустандин Гьукуматдин Технический Университетда муаллимвал авуна. 2007-йисуз ада диссертация хвена, биологиядин илимрин кандидатвилин тIвар къачуна.

А.Аливердиевади райондин спорт ва тIвар-ван авай тренер Гьабиб Агъаларов сейли авуна. Ада шагьматдай Азербайжандин чемпионатра ва Вирисоюздин акъажунра гзаф медалар къазанмишна. 1989-йисуз СССР-дин профсоюзрин чемпионатда рушарин арада кьиле фейи акъажунра къизилдин медаль къачуна. Ам са шумудра Дагъустандин чемпион хьана.

2000-2002-йисара Майкоп, Кисловодск ва Анапа шегьерра кьиле фейи Кеферпатан Къафкъаздин халкьарин Спартакиадада сад лагьай чка кьуна. ФИДЕ-дин устIар тир Афета пудра Каспи гьуьлуьн къвалав гвай уьлквейрин университетрин спартакиадада къизилдин медаль къачуна.

## AFƏT ƏLİVERDİYEVA

***Azərbaycan və Ümumittifaq çempionatlarında bir sıra medallar qazanan Afət Əliverdiyeva 1989-cu ildə SSRİ həmkarlar ittifaqlarının çempionatında qızıl medala sahib olmuşdur.***

Qusar şəhərində 1973-cü ildə anadan olmuş, şəhər 3 saylı orta məktəbini bitirmiş Əliverdiyeva Afət Arif qızı Dağıstan Dövlət Universitetinin kimya fakültəsini başa vurub, Dağıstan Dövlət Texniki Universitetində müəllim işləmişdir. 2007-ci ildə dissertasiya müdafiə edib, biologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

A.Əliverdiyeva tanınmış məşqçi Həbib Ağalarovun rəhbərliyi altında rayonun idman şərəfini qaldırmışdır. O, Azərbaycan çempionatlarında və Ümumittifaq yarışlarında medallar qazanmışdır. 1989-cu ildə Afət SSRİ həmkarlar ittifaqlarının çempionatında qızlar arasında birincilik əldə edərək, qızıl medala sahib olmuşdur. Qadın şahmatçılar arasında dəfələrlə Dağıstan çempionu adını qazanmışdır.

O, 2000-2002-ci illərdə Maykop, Kislovodsk və Anapa şəhərlərində keçirilmiş Şimali Qafqaz xalqlarının Spartakiadasının üçqat çempionu olmuşdur. Şahmat üzrə FİDE ustası A.Əliverdiyeva üç dəfə dalbadal Xəzəryanı dövlətlərin universitetlərinin spartakiadalarının qızıl medalına sahib durmuşdur.

## ГЬАЖИБАЛА ГЬАЖИБАЛАЕВ



***2004-йисуз кикбоксингдай кьиле фейи республикадин чемпионатда Гьажибала Гьажибалаева къизилдин медаль къачуна.***

Украинадин Бахчасарай шегьерда гьа йисуз кикбоксингдай международный турнирдани Гьажибалади I чка кьуна. Ам 2005-йисуз Бакуда кьиле фейи кикбоксингдай международный турнирдин къизилдин медалдиз сагьиб хьана. Гуьгъуьнлай ада Москвада международный турнирдин къизилдин медаль къачуна.

2006-йисуз Бакуда боксдай международный чемпионатда II чкадиз, боксдай республикадин акъажунра гимишдин медалдиз лайихлу хьана. Алай вахтунда Гьажибала Азербайжандин жегьил гадайрин хкягъай командадин сад лагьай спортсмен я.

## HACIBALA HACIBALAYEV

***2004-cü ildə yeniyetmələr arasında kikboksinq üzrə respublika birinciliyində Hacıbala Hacıbalayev qızıl medala layiq görülmüşdür.***

Ukraynanın Baxçasaray şəhərində həmin il kikboksinq üzrə beynəlxalq turnirdə Hacıbala I yerə sahib olmuşdur. 2005-ci ildə Bakıda kikboksinq üzrə beynəlxalq turnirdə o, qızıl medala layiq görülmüşdür. Həmin il Moskvada kikboksinq üzrə dünya kubokunun qızıl medalını qazanmışdır.

2006-cı ildə Bakıda keçirilmiş boks üzrə beynəlxalq turnirdə I yerə yiyələnmiş, boks üzrə respublika çempionatının gümüş medalçısı olmuşdur. Hazırda Hacıbala Azərbaycanın boks üzrə yeniyetmələrdən ibarət yığma komandasının 1 nömrəli idmançısıdır.

## ФАРИЗ АГЪАСИЕВ



***2007-йисуз Азербайжандин чемпионатдин къизилдин медаль къачур Фариз Агъасиев шегьредиз Тофикь Камилова акъудна.***

КцIар шегьерда 1983-йисуз дидедиз хьайи Фариз Агъасиев спортдин устIар я. Ада 2000-йисуз жегьилрин арада греко-римдин кьуршахар кьунай Азербайжандин чемпионатда III чка кьуна (69 кг). 2005-йисуз Азербайжандин чемпионатда и кцIарви жегьил II чкадиз, 2006-йисуз буьруьнждин медалдиз лайихлу хьана. 2007-йисуз Ф.Агъасиева Азербайжандин чемпионатдин къизилдин медаль къачуна (84 кг).

## FARİZ AĞASİYEV

***2007-ci ildə keçirilmiş Azərbaycan çempionatının qızıl medalını qazanmış Fariz Ağasıyev Tofiq Kamilovun yetirməsidir.***

Qusar şəhərində 1983-cü ildə anadan olmuş Fariz Ağasiyev idman ustasıdır. O, 2000-ci ildə gənclər arasında yunan-roma güləşi üzrə Azərbaycan çempionatında III yeri qazanmışdır (69 kq). 2005-ci ildə həmin növ üzrə Azərbaycan birinciliyində II yerə layiq görülmüşdür. 2006-cı ildə Azərbaycan çempionatının bürünc medalçısı olmuş F.Ağasiyev 2007-ci ildə Azərbaycan çempionatında qızıl medala layiq görülmüşdür (84 kq).

## АЗЕР АЛИЕВ



***Кьуршахар кьунай жегьилрин арада Азербайжандин тIвар-ван авай пагьливанрикай садни Азер Алиев я.***

КцIар шегьерда 1987-йисуз дидедиз хьайи Азер Алиев Тофикь Камилован регьбервилик кваз спортдив эгечIна. Ам спортдин устIарвилиз кандидат я. Греко-римдин кьуршахар кьунай жегьилрин арада Азербайжандин чемпионатда 2003-йисуз III, 2004-йисуз II чка кьуна. 2005-йисуз жегьилрин арада кьиле фейи Азербайжандин чемпионатда ада I чка кьуна. 2006-йисуз Азербайжандин Яракьлу Къуватрин чемпионатда Азер къизилдин медалдин сагьиб хьана. 2007-йисан Азербайжандин чемпионатда ам III чкадиз лайихлу хьана.

## AZƏR ƏLİYEV

***Yunan-roma güləşi üzrə gənclər arasında adlı-sanlı idmançılardan biri də Azər Əliyevdir.***

Qusar şəhərində 1987-ci ildə anadan olmuş Azər Əliyev Tofiq Kamilovun rəhbərliyi altında məşğul olmuşdur. O, idman ustalığına namizəddir. Yunan-roma güləşi üzrə yeniyetmələr arasında Azərbaycan birinciliyində Azər 2003-cü ildə III, 2004-cü ildə II yeri tutmuşdur. 2005-ci ildə gənclər arasında Azərbaycan çempionatında o, I yerə sahib olmuşdur. 2006-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin çempionatında qızıl medala layiq görülmüş A.Əliyev 2007-ci ildə gənclər arasında respublika çempionatında 3-cü yeri tutmuşdur.

## ПЕРВИН ГЬАСАНОВ



***Пешекарри Первинахъ чIехи умудар кутазва ва ам спортин рекьяй мадни вилик фидайди малумарзава.***

Греко-римдин кьуршахар кьунай жегьилрин арада 2009-йисуз кьиле фейи республикадин чемпионатда кцIарви Гьасанов Первин Сагьибан хци 100 кг заланвал авай жегьилрин арада виридалайни хъсан нетижа къалурна, ам сад лагьай чкадиз лайихлу хьана. Первин Тофикь Камилован шакIурт я.

## PƏRVİN HƏSƏNOV

***Peşəkarlar Pərvinin gələcəyinə böyük ümidlər bəsləyir, onun böyük uğurlar qazanacağına əminliklərini bildirirlər.***

Yunan-roma güləşi üzrə 2009-cu ildə yeniyetmələr arasında keçirilmiş respublika çempionatında qusarlı Həsənov Pərvin Sahib oğlu 100 kq çəkisində olan idmançılar arasında ən yaxşı nəticə göstərərək, birinci yerə çıxmışdır. Pərvin tanınmış məşqçi Tofiq Kamilovun yetirməsidir.

## ШАГЬДАГЪВИЯР

### БУБА



***Уьнуьгъа дидедиз хьайи Гьабил Микаилова гъвечIизмаз пагьливандин тIвар къазанмишнай.***

Садра уьнуьгъвийри машгъур пагьливан Сали Сулейманаз суварин мярекатдиз эверда. Хуьруьз къведайла адан ракьарив ацIанвай араба рекьяй акъатда. Им акур чатун устIар Абдулбега арабадик къуьн кутуна ам рекьиз акъудда. Няниxъ элдиз вичин гьунарар къалурайдалай кьулухъ пагьливанди рекье вичин кьилел атай дуьшуьшдикай элдиз ихтилатда. Идалай кьулухъ абур дустар хьанай.

Абдулбеган гужуникай адан 9 хцелни пай гьалтна. Адан чIехи хва Адил кьуршахар кьунай Уьзбекистандин, гъвечIи хва Къабил Азербайжандин чемпион хьана. Юкьван хва Гьабила лагьайтIа, 14 йиса аваз пагьливандин тIвар къазанмишна. Кьамал 5-6 аял акьадарна кьуьлзавай, яцIу зунжурар еб хьиз хразвай, ханвай шуьшейрал ярх хьана, винелай машин гьализ тазвай и пагьливан вири республикадиз сейли хьана. Ада 12 къван кIвачерикай кудна, кьвед гьиле кьуна къалурай гьерекатар тикрарсузбур тир.

### ХВА



***Фамил Шагьдагъви заланвал ххажунай пудра Азербайжандин, садра СНГ-дин чемпион хьана.***

Гьабилан авай-авачир хва Фамила спортдин са шумуд хиляй вичин алакьунар къалурзава. Ам гьилин гужунай республикадин акъажунра тафаватлу хьана. Пауэрлифтингдай спортдин устIарвилиз кандидат, бенж прессдай республикадин чемпион я. 2007-йисуз “Лидер” телевиденидин “Талант шоу” тIвар ганвай гунугда кьиле фейи пагьливанрин акъажунра ам машиндин сагьиб хьана.

Сарарикай 320 килограмдин къванер кудна, кьамал кьуд кас акьадарна къекъвезвай, винелай 4,5 тонндин “Зил” машин гьализ тазвай и жегьил халисан пагьливан я. Къубада яшамиш жезвай Фамил “Мегьсул” жемиятдин райондин отделдин тренер я. Ада вич хьтин зурба спортсменар арадиз атуниз куьмек гузва.

## ŞAHDAĞLILAR

### ATA

***Əniğdə anadan olmuş Habil Mikayılov pəhləvan adını hələ uşaqlıqda qazanmışdır.***

Sali Süleyman Əniğ kəndinə el şənliyinə dəvət olunubmuş. Yolda zəncirlərlə, ağırlıq daşları ilə dolu arabası aşır. Dəmirçi Abdulbəy arabanın altına girib çiyni ilə onu çökəkdən çıxarır.

Sali Süleyman el şənliyində çıxış edib qurtarandan sonra camaata Abdulbəyin hünərindən danışır. Pəhləvanla bir neçə dəfə görüşən, onun qeyri-adi istedadından heyrətə gələn Abdulbəyin gücündən doqquz oğluna da pay düşdü. Sonralar onun böyük oğlu Adil yunan-roma güləşi üzrə Özbəkistanın, ən kiçik oğlu Qabil isə Azərbaycanın çempionu olur. Ortancıl oğlu - iri çay daşlarını oyuncaq kimi oynadan, çiyninə 5-6 uşaq mindirib rahatlıqla yeriyən Habil isə 14 yaşından güc pəhləvanı kimi məşhurlaşır. Qalın zəncirləri asanlıqla qıran, mismarları ip kimi toxuyan, qırılmış şüşələr üzərində uzanaraq, üstündən maşın sürdürən bu pəhləvanın şöhrəti respublikaya yayılır. Onun 12 daşı ayaqlarından asaraq, 2-sini isə əlində tutaraq göstərdiyi tryuk bu günə qədər təkrarsız sayılır.

### OĞUL

***Famil Şahdağlı daş qaldırmaqda üç dəfə Azərbaycan, bir dəfə MDB ölkələri çempionudur.***

Habil Şahdağlının yeganə oğlu Famil idmanın bir neçə növündə təkrarsız olduğunu sübut etmişdir. O, qol gücü üzrə respublika yarışlarının mükafatçısı, pauerliftinq üzrə idman ustalığına namizəd, benc press üzrə respublika çempionudur. “Lider” televiziyasının 2007-ci ilin “Talant-şou” televiziya yarışında maşın udmuşdur.

Familin yalın kürəklərlə mismarlar üzərində uzanaraq sinəsində çay daşlarını sındırması, diz üstə oturub başı üstündə çay daşlarını sındırması, dişindən 320 kq-lıq daşlar, boynundan və kürəklərindən dörd kişi sallayaraq yeriməsi, üstündən 4,5 tonluq “ZİL” maşınının keçməsi kimi nömrələri məşhurdur. Qubada yaşayan pəhləvan “Məhsul” cəmiyyəti rayon şöbəsinin məşqçisidir. Onun yetirmələri arasında ümidverici gənclər çoxdur.

## ФЕРЯД МЕРДАНОВ



***Феряд Мерданова къванер хкажунай ва залан атлетикадай чIехи агалкьунар къазанмишна.***

Феряд Нугьбаладин хва Мерданов 1960-йисуз КцIара дидедиз хьана. КцIар шегьердин 1-нумрадин юкьван мектеб акьалтIарна Азербайжандин Гьукуматдин Физкультурадинни Спортдин Институтда кIелна. 1982-йисуз Къуба райондин Дигагь хуьруьн мектебда кIвалахал акъвазна. 1991-йисуз КцIариз хтай ам алай вахтунда 2-нумрадин мектебдин муаллим я.

Къванер хкажунай адахъ хъсан агалкьунар ава. 1986-йисуз Хачмаза кьиле фейи республикадин чемпионатда II, 1987-1991-йисара Къахда, Къубада, КцIара ва Къубада кьиле фейи республикадин акъажунра I чкаяр кьуна.

1987-1988 ва 1990-1991-йисара республикадин кубок патал акъажунра I чкадиз лайихлу хьайи Феряда 1999-йисуз Минскда кьиле фейи СНГ-дин уьлквейрин спортсменрин акъажунра III чка кьуна. 1984-2009-йисарин милли халкьдин къугъунрин спартакиадайра ам 17 гъилера I ва 5 гъилера II чкайрин сагъиб хьана. Азербайжандин зегьметчийрин 1997, 1999 ва 2003-йисарин спартакиадайра I чкаяр кьуна. Залан атлетикадай лагьайтIа, Феряд "Мегьсул" жемиятдин республикадин акъажунра 1983-йисуз III, 1984-йисуз II чкайриз лайихлу хьана.

## FƏRYAD MƏRDANOV

***Fəryad Mərdanov daşqaldırma və ağır atletika sahəsidə böyük uğurlar qazanmışdır.***

Fəryad Nuhbala oğlu Mərdanov 1960-cı ildə Qusarda anadan olmuşdur. Şəhər 1 saylı orta məktəbini bitirib, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutuna daxil olmuşdur. 1982-ci ildə təyinatla Quba rayonunun Digah kəndinə müəllim göndərilmişdir. 1991-ci ildə Qusara qayıdan Fəryad hazırda şəhər 2 saylı orta məktəbində çalışır.

F.Mərdanovun daşqaldırmada göstərdiyi nəticələr ürəkaçandır. O, respublika birinciliklərində 1 dəfə II yerə (1986, Xaçmaz) çıxmış, 1987-1991-ci illərdə Qax, Quba və Qusar şəhərlərində keçirilmiş yarışlarda dalbadal I yerə sahib olmuşdur. Fəryad 1987-1988 və 1990-1991-ci illlərdə respublika kuboku yarışlarında da ən yüksək nəticə göstərmişdir.

1999-cu ildə Minskdə keçirilmiş MDB ölkələrinin beynəlxalq yarışlarında o, III yeri tutmuşdur. 1984-2009-cu illərdə milli xalq oyunları spartakiadalarında 17 dəfə birinci, 5 dəfə ikinci yeri qazanmışdır. Azərbaycan zəhmətkeşlərinin 1997, 1999 və 2003-cü illərdə Bakıda keçirilmiş spartakiadalarında o, I yeri tutmuşdur. Gücünü ağır atletikada da sınamış idmançı "Məhsul" cəmiyyətinin 1983 və 1984-cü illərdəki birinciliklərində III və II yerə çıxmışdır.

## ВОЛЕЙБОЛ КЪУГЪВАЗВАЙ РУШАР

***КцIарви рушарин волейболдин команда 2002-йисуз шегьердин беледиядИ арадиз гъана. Командади 2007-йисуз вини лигадин республикадин чемпионатда III чка кьуна.***

Волейболдин командадин тренер Рамиз Алиханов я. Командада чпихъ алакьунар авай Севил Бегова, Оксана Шагьбазова ва Сабина Герейханова хьтин рушар къугъвазва. Команда 2007-йисуз вини лигада къугъванай ва III чкадиз сагъиб хьанай.



## VOLEYBOLÇU QIZLAR

***Qızlardan ibarət voleybol komandası 2002-ci ildə Qusar şəhər bələdiyyəsinin nəzdində yaradılmışdır. Komanda 2007-ci ildə yüksək liqada respublika çempionatında III yeri tutmuşdur.***

Voleybol komandasının məşqçisi Ramiz Əlixanovdur. Burada Sevil Bəyova, Oksana Şahbazova, Səbinə Gərəyxanova kimi perspektivli idmançılar oynayır. Komanda 2007-ci ildə ölkənin yüksək liqasında çıxış etmiş və III yerə sahib olmuşdur.

## АЭЛИТА ХЕЛЕФОВА



***Художественный гимнастикадай Азербайжандин хкягъай командадик квай вад руша чи республикадин тIвар дуьньядиз сейли авуна. Абурукай сад Аэлита Хелефова я.***

Польшада 2007-йисуз кьиле фейи чIехи турнирда чи командади къизилдин медаль къачуна. Гуьгъуьнлай Бакуда кьиле тухвай Европадин 23 лагъай чемпионатда командади 4 лагъай чка кьуна. 2009-йисуз Бакуда кьиле фейи 25 лагъай Европадин чемпионат Азербайжан патал супариз элкъвена: чи рушари гимишдин медалар къачуна. Иервилинни викIегьвилин чешне тир и рушари Азербайжандиз цIудралди медалар гъана.

И вад рушакай сад кцIарви я. Аэлита Руьвшенан руш Хелефовадин бубаяр Чпир хуьряй я. 2007-йисалай чи республикадин хкягъай командадик квай руша вичин сад лагъай агалкьун 7 йиса авайла къазанмишна.



Иридра Бакудин, кьведра Азербайжан Республикадин чемпион хьана ам. Алай вахтунда Аэлитади Бакудин 83-нумрадин мектеб-лицейдин 10-синифда кIелзава.

## AELİTA XƏLƏFOVA

***Bədii gimnastika üzrə Azərbaycan yığma komandasında çıxış edən beş qız son illər respublikamızın adını bütün dünyada tanıtdırmışdır. Onlardan biri Aelita Xələfovadır.***

Polşada 2007-ci ildə keçirilmiş böyük turnirdə respublikamızın yığma komandası qızıl medal alıb. Bakıda keçirilmiş 23-cü Avropa çempionatında yığmamız 4-cü yerə layiq görülüb. 2009-cu ildə Bakıda keçirilmiş 25-ci Avropa çempionatı da Azərbaycan üçün əlamətdar oldu. Qızlarımız burada ikinci yeri qazandılar. Gözəllikləri və qoçaqlıqları ilə seçilən bu qızlar Azərbaycan idmanına onlarca medallar gətirmişlər.

Həmin beş qızdan biri qusarlıdır. Əslən Qusar rayonunun Cibir kəndindən olan Aelita Rövşən qızı Xələfova 2007-ci ildən respublikamızın yığma komandasında çıxış edir. Aelitanın idman nailiyyətləri böyükdür.

Bədii gimnastika ilə 5 yaşından məşğul olan bu qız ilk uğurunu 7 yaşında ikən qazanmışdır. 7 dəfə Bakı çempionu, 2 dəfə isə Azərbaycan çempionu olmuş Aelita hazırda Bakının 83 saylı məktəb-liseyinin 10-cu sinfində oxuyur.








*Азербайжандин чемпион Аэлита Хелефовади гзаф йисар я инсанриз шадвилин гьиссер бахш ийиз.*

*Yeddiqat Azərbaycan çempionu Aelita Xələfova uzun illərdir pərəstişkarlarına sevincli anlar yaşadır.*





## ЧIУРАЛ ХОККЕЙ

***2002-йисуз КцIара ксарикай ва дишегьлийрикай ибарат тир чIурал къугъвазвай хоккейдин командаяр туькIуьрна.***

Ксарин командадин тренер республикадин спортдин лайихлу кIвалахдар Агъададаш Къадимов я. 2005-йисуз командади республикадин гужлу коллективрин арада IV, 2007-йисуз I чка кьуна. Командадик квай 7 кас республикадин хкягъай командадиз къабулнава.

Дишегьлийрин командадиз Седакъет Балакишиевади регьбервал гузва. Командади 2002-йисуз республикадин чемпионатда III, 2003-йисуз I, 2005-йисуз II чка къазанмишна. Алай вахтунда и командадай тир Магьире Агьмедова ва Севда Хийирова республикадин хкягъай командада къугъвазва.

## МАКСИМ МУСЛИМОВ



***Адан са къадар трюкар дуьньядин циркинин тарихда гьатна. 25 йисуз садрани вичин игьтиятлувал хуьник гелкъуьн тавуна, цава четин гьерекатар кьилиз акъудна.***

Кьилел пуд акробат руш кьуна ада къалурай трюкар тек са СССР-диз ваъ, гьакI вири дуьньядиз машгъур тир. Максим гастролда хьайи 30 уьлкведа и лезгидин трюкар Москвадин циркини гайи концертрин виридалайни марагълу нумраяр яз гьисабзавай.

## OT ÜSTÜNDƏ XOKKEY

***2002-ci ildə Qusar şəhərində həm kişilərdən, həm də qadınlardan ibarət ot üstündə xokkey komandaları yaradılmışdır.***

Kişilərdən ibarət komandanın məşqçisi respublikanın əməkdar bədən tərbiyəsi və idman işçisi Ağadadaş Qədimovdur. Komandanın 7 üzvü respublika yığma komandasının tərkibinə daxil edilmişdir. 2005-ci ildə yığma komanda respublikanın güclülər dəstəsində IV, 2007-ci ildə isə I yeri tutmuşdur.

Qadınlardan ibarət komandanın məşqçisi Sədaqət Balakişiyevadır. Komanda 2002-ci ildə respublika birinciliyində III, 2003-cü ildə I, 2005-ci ildə II yeri tutmuşdur. Hazırda komandanın üzvləri Mahirə Əhmədova və Sevda Xeyirova respublika yığma komandasının üzvləridir.

## МАКСИМ МУСЛИМОВ

***Onun bir neçə tryuku bu günə kimi dünya sirkinin tarixində yeganə və təkrarsız sayılır. 25 il ərzində o, təhlükəsizlik tədbirlərinə əməl etmədən onları yerinə yetirmişdir.***

Başındakı lövhədə üç qız olmaqla kəndir üzərində ağlasığmaz akrobatik hərəkətlər edən Maksim təkcə SSRİ-də deyil, xaricdə də tanınırdı. Qastrol səfərlərində olduğu 30 ölkədə Maksimin çıxışı proqramın kulminasiya nöqtəsi sayılırdı. Bu sarışın, hündürboy, yaraşıqlı akrobata hamı ayaq üstə əl çalırdı.

Maksim Müslümov 1953-cü ildə Qusar rayonunun

Максим Муслимов 1953-йисуз КцIар райондин Уьнуьгъ хуьре дидедиз хьана. ГъвечIи чIавалай лезгийрин дегь чIаварин сенятрикай тир симин пагъливанвилел рикI алай Максима и кьегьалрин нумраяр виливди хуьдай. Москвадин Циркинин Мектеб акьалтIарна Волградда кIвалахал акъвазай жегьилдин алакьунрин шагьид хьайи Москвадин “Прометей” циркинин директорди, СССР-дин халкьдин артист Владимир Волжанскийди адаз кIвалах теклифна. Гьа чIавалай Максима 25 йисуз ара датIана ина кIвалахна. “Фирка”, “Достун”, “Къекъвезвай гурарар”, “Кьилел гьерекатар” хьтин нумрайри Максимаз машгьурвал гьана. Эхиримжи йисара адан руша Амалядини бубадихъ галаз санал акробатвал ийизвай. Лезгийрин къадим сенят Москвадин циркина 25 йисуз вилик тухвай М.Муслимов алай вахтунда пенсиядиз фенва, ам Хачмаз шегьерда яшамиш жезва.

Əniğ kəndində anadan olmuşdur. Uşaqlıqdan ləzgi kəndirbazlarının ustalığının şahidi olmuş Maksimin arzusu bu sənətlə məşğul olmaq idi. Bu maraq onu Moskvaya, iki illik sirk studiyasına gətirib çıxardı. Burada təhsilini başa vurub, Volqoqrad sirkində çalışdı. Tamaşalardan birində iştirak edən SSRİ xalq artisti, Dövlət Mükafatı laureatı, Moskvanın “Prometey” sirkinin direktoru Vladimir Voljanski onun çıxışını bəyənib Maksimi işə dəvət etdi. O vaxtdan 25 il fasiləsiz olaraq Maksim dünyanın ən məşhur sirki sayılan “Prometey”də çalışdı. Onun “firka”, “yeriyən pilləkən”, “dostun”, “baş üzərində hərəkətlər” kimi nömrələri Maksimə şöhrət gətirdi. Son illər onunla yanaşı qızı Amalya da akrobat kimi çıxış edirdi. Ləzgilərin qədim kəndirbazlıq sənətini Moskva sirkində 25 il yaşatmış Maksim Müslümov hazırda Xaçmazda yaşayır.

## ГЕРМАНИЯДИН ЛЕЗГИ ЧЕМПИОНАР

***Жиу-житсудай Германиядин гужлу спортсменрик Салмановарни акатзава. Абуру уьлкведин спортдик чпин зурба пай кутунва.***




Гамбург шегьерда 2008-йисан мартдин вацра жиужитсудай кьиле фейи уьлкведин чемпионатда Яшара сад лагьай, Марияди пуд лагьай чкаяр кьуна. Гьа йисуз Салмановри агалкьунралди пешекарар чпихъ ялна. Апрелдиз Меркездин Германиядин ва майдиз РагъэкъечIдай Германиядин чемпионатда вахани стхади къизилдин медалар къачуна. 20-июндиз Германиядин чемпионатра Яшар чемпион хьана, Марияди 3-чка кьуна.

РагъэкъечIдай Германиядин Намбург шегьерда Салмановрин хизандихъ агьалийрин патай чIехи гьуьрмет ава. Чеб кцIарвияр тир Акифни Интизар цIикьвед йис я и уьлкведа яшамиш жез. Акифахъ вичин фирма ава, Интизара духтурвиле кIвалахзава. Абуру чпин кьуд веледни зегьметдал рикI алаз чIехи авунва.

Алай вахтунда Салмановар Германиядин чпихъ чIехи перспективар авай спортсменрикай яз гьисабзава. 2010-йисан майдиз Европадин чемпионатда Марияди (49 кг) къизилдин медаль къачуна. Яшара (55 кг) кьвед лагьай чка кьуна.

## ALMANİYANIN LƏZGİ ÇEMPİONLARI

***Almaniyada jiu-jitsu üzrə güclü idmançılar arasında Salmanovların xüsusi yeri var. Onlar bu ölkənin idmanına böyük uğurlar gətirmişlər.***

Hamburq şəhərində 2008-ci ilin mart ayında keçirilən ölkə çempionatında Yaşar birinci, Mariya üçüncü yerləri qazanmışdır. Həmin il onlar öz uğurları ilə peşəkarların diqqətini cəlb etdilər. Aprel ayında Mərkəzi Almaniyanın çempionatında bacı və qardaş qızıl medallara sahib oldular. Mayın 9-da keçirilmiş Şərqi Almaniya çempionatında da onlar qızıl medallara layiq görüldülər. İyunun 20-də baş tutmuş Almaniya çempionatında Yaşar çempion titulu qazandı, Mariya isə bürünc medala layiq görüldü.

Şərqi Almaniyanın Namburq şəhərində Salmanovlar ailəsinin böyük nüfuzu var. Əslən qusarlı olan Akiflə İntizar on iki ildən artıqdır ki, burada yaşayırlar. Akifin şəxsi firması var, İntizar isə həkim işləyir. Onlar övladlarının dördünə də zəhmətkeşlik ruhu aşılayıblar.

Hazırda Salmanovlar Almaniyanın perspektivli idmançılarından sayılırlar. 2010-cu ilin mayında keçirilmiş Avropa çempionatında Mariya (49 kq) qızıl medal qazandı. Yaşar (55 kq) isə ikinci yerə layiq görüldü.

## АГАЛКЬУНРИК ПАЙ КУТУРБУР

### ШУЬВКЕТ ОРДУХАНОВ



***Азербайжандин спорт вилик тухуник зурба пай кутур Шуьвкет Ордуханован алакьунар ада “Мегьсул” жемиятдиз регьбервал гайи йисара генани хъсандиз ашкара хьана.***

Шуьвкет Ордуханов КцIар шегьерда дидедиз хьана. КцIара 8-синиф акьалтIарна Кировабаддин (гилан Генже) Эцигунрин Техникумдик экечIна. Гьеле студент яз ам шегьерда кьиле фейи эстафетадин акъажунрин тешкилатчи хьиз сейли хьанай. Техникум куьтягьна Азербайжандин Гьукуматдин Физкультурадин ва Спортдин Институтдик экечIай жегьил 23 йиса аваз институтдин проректорвиле тайинарнай.

Гуьгъуьнлай Ш.Ордуханов Спортдин Жемиятрин Республикадин Союзда (гилан Жегьилрин, Спортдин ва Туризмдин Министерство) чIехи къуллугъдал акъвазнай. Вичин агалкьунралди виридан гьуьрмет къазанмишай и кас 30 йиса аваз “Нефтчи” футболдин командадин регьбервиле тайинарнай.

1966-йисуз и командади СССР-дин чемпионатдин буьруьнждин медаль къачун гьакIни Ш.Ордуханова чIугур зегьметдин нетижа тир. И агалкьунрай адаз “Азербайжандин лайихлу спортдин кIвалахдар” гьуьрметдин тIвар ганай.

1969-йисуз Азербайжандин Гьукуматдин Физкультурадинни Спортдин Комитет тешкил хьайила Ш.Ордуханова седридин заместителвиле кIвалахнай. И касдин алакьунар ада “Мегьсул” жемиятдин седривиле кIвалахай 1978-1985-йисара генани хъсандиз ашкара хьанай.

Ингье Азербайжандин лап яргъал пипIерани спорт вилик тухун, чпихъ алакьунар авай жегьилар майдандиз акъудун, чемпионар арадал гъун патал йифди-югьди кIвалахзавай и зегьметдал рикI алай намуслу инсан такIанзавай ксарни авачиз тушир. Ихьтин ксари 1985-йисуз Шуьвкет Ордуханован 50 йисан уьмуьр кьатIайла и карди республикада гзафбурун рикIер тIарнай. Адан тIвар чи республикадин спортдин тарихда гьамишалух яз гьатна.

## QƏLƏBƏYƏ APARANLAR

### ŞÖVKƏT ORDUXANOV

***Azərbaycan idmanının inkişafında böyük xidmətləri olmuş Şövkət Orduxanovun istedadı “Məhsul” Kənd Könüllü İdman Cəmiyyətinin sədri vəzifəsində çalışdığı illərdə daha qabarıq üzə çıxdı.***

Şövkət Orduxanov Qusar şəhərində anadan olmuşdur. Qusarda 8-illik məktəbi bitirib, Kirovabad (indiki Gəncə) İnşaat Texnikumuna daxil olan gənc hələ tələbə ikən şəhərdə estafet yarışlarının təşəbbüsçüsü və təşkilatçısı kimi idman ictimaiyyətinin diqqətini cəlb etmişdir. Texnikumu bitirib, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olan Ş.Orduxanov 23 yaşında institutun prorektoru təyin olunur.

Sonradan o, İdman Cəmiyyətləri və Təşkilatları Respublika Şurasında (indiki Gənclər, İdman və Turizm Nazirliyinin sələfi) məsul vəzifədə çalışır. İstedadı və təşkilatçılıq qabiliyyəti ilə diqqəti cəlb edən 30 yaşlı Şövkət “Neftçi” futbol komandasının rəisi təyin edilir.

1966-cı ildə “Neftçi”nin SSRİ çempionatında bürünc medala layiq görülməsində onun böyük zəhməti olmuşdur. Bu böyük nailiyyətə görə Ş.Orduxanov “Azərbaycanın əməkdar bədən tərbiyəsi və idman xadimi” adına layiq görülmüşdür.

1969-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi yaradılanda Ş.Orduxanov sədrin müavini təyin olundu. Onun istedadı “Məhsul” Kənd Könüllü İdman Cəmiyyətinin sədri vəzifəsində çalışdığı 1978-1985-ci illərdə daha qabarıq üzə çıxdı. O, Azərbaycanın ən ucqar yerlərində də idmanın inkişafına çalışır, istedadların üzə çıxmasına səy göstərirdi.

Lakin idmanı zəhmətkeşlərin həyatının ayrılmaz hissəsi etməkdən ötrü gecə-gündüz yorulmaq bilmədən çalışan bu zəhmətkeş, təşəbbüskar insanın fəaliyyəti, görünür, kimlərinsə rahatlığını pozurmuş. 1985-ci ildə Şövkət Orduxanovun müəmmalı şəkildə qətlə yetirilməsi respublika ictimaiyyətini sarsıtdı. 50 yaşında dünyanı tərk edən bu istedadlı insanın, idman fədaisinin adı respublikamızın idman tarixinə əbədi həkk olundu.

## АЛИЮЛЛАГЬ НАЖАРОВ



***Ам халисан пагьливан тир. Къуватлу бедендин и кас пешекарри Сали Сулейманав гекъигдай.***

Кцlар райондин Кузун хуьре 1922-йисуз дидедиз хьайи Алиюллагь Къубалидин хва Нажаров зурба пагьливан тир. Адан винелай инсанрив ацlанвай "Вилис" машин гьалдай. Ада вичин кьилел вад путунин, руфунал яхцlур путунин къванер хадай, яцlу мисмарар сад садал регьятдиз арушдай. Пагьливандин программада гзаф четин 50 трюк авай.

1948-йисалай Бакуда залан атлетикадив машгъул хьайи А.Нажарова кьамал вад кас кьуна, "Лезгинкадал" кьуьлайла ам акурбур пагь атlана амукьдай. Самбодай ва азаддаказ кьуршахар кьунай вини дережадин устадвал авай и пагьливандиз Бакудин циркина кlвалах теклифнай, анжах Алиюллагьа и теклиф кьабулначир.

1954-1962-йисара "Колхозчи" тlвар алай спортдин жемиятдин Кцlар райондин отделдиз регьбервал гайи ада гзаф спортсменар арадиз гъуник вичин пай кутунай. Абурукай сад азаддаказ кьуршахар кьунай СССР-дин спортдин устlар, са шумудра Азербайжандин чемпион хьайи Нофел Мусаев я.

Алай вахтунда Кцlар шегьердин спортзал Алиюллагь Нажарован тlварунихъ гала.

## ƏLİYULLAH NACAROV

***Qusar güləş məktəbinin yaradıcısı olmuş Əliyullah Nacarovu Sali Süleymanla müqayisə edirdilər.***

Əliyullah Qubali oğlu Nacarov 1922-ci ildə Qusar rayonunun Kuzun kəndində anadan olmuşdur. Peşəkarların məşhur "Qafqaz aslanı" Sali Süleymanla müqayisə etdikləri bu ucaboy, möhkəm bədənli adam başında beş pudluq, qarnı üzərində qırx pudluq daşları asanlıqla sındırırdı, iri mismarları ip kimi hörürdü. Üstündən içi adamla dolu "Vilis" maşını keçəndə tükü də tərpənmirdi. Pəhləvanın proqramında 50-dən artıq son dərəcə çətin nömrələr var idi.

1948-ci ildə Bakıda ağır atletika ilə məşğul olan Ə.Nacarov Azərbaycan rayonlarına qastrollara gedəndə tamaşaçıları heyrətə gətirirdi. Çiynindən 5 kişini salladıb rəqs edən pəhləvanın ünvanına gurultulu alqışlar yağırdı. Bakı sirkinə işə dəvət olunan Əliyulla bu təklifi rədd edərək, xalq idman növünün təbliğini davam etdirmişdir.

1954-1962-ci illərdə "Kolxozçu" idman cəmiyyətinin Qusar şöbəsinə rəhbərlik etmiş Ə.Nacarov çoxlu idmançılar yetişdirmişdir. Onlardan biri sərbəst güləş üzrə SSRİ idman ustası, bir neçə dəfə respublika çempionu olmuş Nofəl Musayevdir. Hazırda Qusar şəhərinin idman zalı Əliyulla Nacarovun adını daşıyır.

## ГЬУЬСЕЙНБАЛА АГЪАЕВ



***Футболдай республикадин дережадин судья Гьуьсейнбала Агъаева Тофик Бегьрамовахъ галаз санал гзаф акъажунар идара авунай.***

Гьуьсейнбала Айдабаладин хва Агъаев 1926-йисуз Кцlара дидедиз хьана. Ада Къубадин Муаллимрин Институт акьалтlарна, са шумуд йисуз муаллимвал авуна. 1954-йисуз ам Кцlар райондин здравотделдин физкультурадай ревизорвиле тайинарна. Гьа чlавалай кцlарвияр республикадин акъажунра иштиракиз эгечlна. Гуьгъуьнлай ада райондин спортдин комитетдиз ва "Мегьсул" жемиятдиз регьбервал гана. И вахтунда "Шагь дагъ" футболдин командади республикадин вини лигада II чка кьуна, кьведра "Мегьсулдин" чемпион хьана. Райондин ксарин волейболдин команда республикадин чемпионатда III чкадиз лайихлу хьана.

## HÜSEYNBALA AĞAYEV

***Futbol üzrə respublika dərəcəli hakim Hüseynbala Ağayev məşhur hakim Tofiq Bəhramovla birgə bir sıra məsul yarışları idarə etmişdir.***

Hüseynbala Aydabala oğlu Ağayev 1926-cı ildə Qusarda anadan olmuşdur. Quba Müəllimlər İnstitutunu bitirib, bir neçə il tarix müəllimi işləmişdir. 1954-cü ildə Qusar rayon səhiyyə şöbəsinin bədən tərbiyəsi üzrə baş müfəttişi təyin olunmuş, həmin vaxtdan onun rəhbərliyi ilə idmançılar respublika səviyyəli yarışlarda iştirak etməyə başlamışlar. Sonralar o, rayon idman komitəsinə və "Məhsul" KKİC-in rayon şurasına rəhbərlik etmişdir. Bu dövrdə "Şahdağ" futbol komandası respublikanın yüksək liqasında II yeri tutmuş, 2 dəfə "Məhsul"un çempionu olmuş, rayonun kişilərdən ibarət voleybol komandası respublikada III yeri tutmuşdur.

## ЖЕЛИЛ МУЬШТАКЪОВ



***20 йисуз спортдин шегьредал хьайи Желил Муьштакъов залан атлетикадай ва къванер хкажунай муьжуьдра уьлкведин чемпион хьана.***

Адан титулрин арада республикадин акъажунра къазанмишай са шумуд гимишдин ва буьруьнждин медалар, гьакIни Бакудин чемпионатда къазанмишай 2 къизилдин медални ава. "Мегьсул" жемиятдин 1974, 1983, 1984, 1985, 1989, 1990-йисара кьиле фейи спартакиадайра ада сад лагьай чкаяр кьуна. Ж.Муьштакъова мукIватI ялунай вич республикада тай авачир спортсмен тирдини са шумудра субутна.

Желил Илясан хва Муьштакъов 1952-йисуз Хачмаз райондин 3-Ялама поселокда дидедиз хьана. КцIар райондин Ширвановка хуьре мектеб акьалтIарна, Бакуда училищеда кIелна. 1977-йисалай спортдив эгечIай Желила 10 йисуз Ширвановкада инструкторвиле, 12 йисуз тренервиле кIвалахна. ЦIудралди бажарагълу спортсменар кIвачел ахкьалдарай Ж.Муьштакъов кьведра республикадин виридалайни хъсан инструктор-методиствилин тIварцIиз лайихлу хьана.

## CƏLİL MÜŞTAQOV

***20 il Azərbaycanın idman aləmində canlı əfsanəyə dönmüş Cəlil Müştaqov ağır atletika və daşqaldırma üzrə 8 dəfə respublika çempionu olmuşdur.***

Onun təltifləri arasında Azərbaycan birinciliklərinin bir neçə gümüş və bürünc medalları və Bakı çempionatının 2 qızıl medalı da vardır. "Məhsul" KKİC-nin 1974, 1983, 1984, 1985, 1989, 1990-cı illərdə keçirilmiş respublika spartakiadalarında birinci yeri tutmuş C.Müştaqov milli idman növü olan kəndirdartmada da respublikanın ən güclü idmançısı olduğunu dəfələrlə sübut etmişdir.

Cəlil İlyas oğlu Müştaqov 1952-ci ildə Xaçmaz rayonunun 3-cü Yalama qəsəbəsində anadan olmuşdur. Qusar rayonunun Şirvanovka kənd məktəbini, Bakıda peşə-texniki məktəbini bitirmişdir. 1977-ci ildən peşəkar idmanla məşğul olan C.Müştaqov 10 il Şirvanovka kəndində idman təlimatçısı, 12 il isə məşqçi işləmiş, onlarca istedadlı idmançı yetişdirmişdir. Elə buna görə də o, 2 dəfə respublikanın ən yaxşı təlimatçı-metodisti adına layiq görülmüşdür.

## БАДАШ ШИРИНОВ



***1980-йисалай къедалди "Мегьсул" Хуьруьн Спортдин Жемиятдин КцIарин отделдиз Бадаш Ширинова регьбервал гузва.***

Бадаш Балаширинан хва Ширинов 1951-1964-йисара КцIарин "Шагь дагъ" футболдин командадин вратарь хьанай. 1953-1954-йисара ам Къубадин "Искра" командада къугъванай ва гьа вахтунда и команда республикадин чемпион хьанай. 1964-йисуз "Шагь дагъ"ди республикадин кубок къазанмишнай.

1962-йисуз Б.Ширинован регьбервилик кваз рушарин волейболдин командади республикадин районрин арада кьиле фейи чемпионатда I чка кьунай.

1965-йисуз КцIар райондин Аялринни Жегьилрин Спортдин Мектебдин директор хьайи Б.Ширинов 1980-йисалай къедалди "Мегьсул" Хуьруьн Спортдин Жемиятдин КцIарин отделдин седри я.

## BADAŞ ŞİRİNOV

***1980-ci ildən hal-hazıra kimi "Məhsul" Kənd Könüllü İdman Cəmiyyəti Qusar şöbəsinə Badaş Şirinov rəhbərlik edir.***

Badaş Balaşirin oğlu Şirinov 1951-1964-cü illərdə Qusarın "Şahdağ" futbol komandasının qapıçısı olmuşdur. 1953-1954-cü illərdə o, Qubanın "İskra" komandasında oynamış, bu vaxt həmin komanda respublika çempionu titulunu qazanmışdır. 1964-cü ildə isə "Şahdağ" komandası respublika kubokuna yiyələnmişdir.

1962-ci ildə onun məşqçisi olduğu qusarlı qızlardan ibarət voleybol komandası respublikanın kənd rayonları arasında keçirilmiş çempionatda I yeri tutmuşdur. 1965-ci ildə Qusar Rayon Uşaq Gənclər İdman Məktəbinin direktoru təyin edilən B.Şirinov 1980-ci ildən hal-hazıra kimi "Məhsul" Kənd Könüllü İdman Cəmiyyəti Qusar şöbəsinin sədridir.

## ЖАРУЛЛАГЬ ШИНГЪАРОВ



***КцIарин Аялринни Жегьилрин Спортдин мектебдин тренер Жаруллагь Шингъарован куьмекдалди цIудралди чемпионар арадиз атана.***

Азербайжандин районрин арада дзюдодай авай-авачир са “Лайихлу тренер” Жаруллагь Наруллагьан хва Шингъаров 1952-йисуз КцIара дидедиз хьана. 18 йиса аваз ам Сумгаит шегьерда Азербайжанда самбодин бине эцигай Исмаил Агьмедован секцияда машгъул хьана. Ам шумудни садра “Мегьсул” Хуьруьн Спортдин Жемиятдин ва “Спартак” жемиятдин акъажунрин, Вирисоюздин турниррин гьалиб ва призер хьана.

Ж.Шингъаров 1973-йисуз Азербайжанда дзюдодай кьиле фейи сад лагьай чемпионатдин буьруьнждин призер я. 1973-1974-йисара Сумгаитдин “Спартак” жемиятдин самбодай ва дзюдодай тренервиле кIвалахай, М.Ф.Ахундован тIварунихъ галай Азербайжандин Педагогикадин Институт акьалтIарай жегьилди КцIара дзюдодин секция кардик кутуна.

1980-йисалай КцIарин Аялринни Жегьилрин Спортдин Мектебдин тренервиле кIвалахзавай ада дережа авай гзаф спортсменар арадиз гъана. Абур СССР-дин, Азербайжандин, Россиядин, Белорусиядин, Украинадин чемпионар хьана. Жаруллагьан давамчийрикай Камран Мамедов международный дережадин устIар я. Айдын Кебетов, Къалиб Агъабегов, Элман Агъаев, Валери Мардахаев, Видади Мусаев, Самир Серкеров, Тимур Алиханов, Рамик Багьадуров, Гьикмет Османов, Фетулла Амрагьов, Илкъар Эрзиманов, Айнур Исмаилов, Зуьгьраб Митеев ва масабур чара-чара йисара республикадин чемпионар хьана. Жаруллагьан регьбервилик кваз адан спортсменри Вирисоюздин акъажунра къад гьилера I, 8 гьилера II, 7 гьилера III чкаяр кьуна.

## РАУФ КЪАЗИХАНОВ

***Эхиримжи йисара Рауф Къазиханова кIвачел ахкьалдарнавай спортсменрин суракьар дуьньядин шумудни са уьлквейрай къвезва.***

Рауф Надиран хва Къазиханов 1968-йисуз КцIар шегьерда дидедиз хьана. Ина 3-нумрадин юкьван мектеб акьалтIарна, Могилевдин Педагогикадин Институтдин физкультурадин факуль-

## CARULLAH ŞİNĞAROV

***Otuz il fasiləsiz Qusar Uşaq-Gənclər İdman Məktəbində məşqçi işləyən Carullah Şinğarov qusarlı gənclər arasından onlarca çempion yetişdirmişdir.***

Respublika rayonları arasında cüdo üzrə yeganə “Əməkdar məşqçi” olan Carullah Narullah oğlu Şinğarov 1952-ci ildə Qusar şəhərində anadan olmuşdur. 18 yaşında ikən Carullah Sumqayıt şəhərində Azərbaycanda sambonun əsasını qoymuş İsmayıl Əhmədovun bölməsində məşğul olmuşdur. O, “Məhsul” Kənd Könüllü İdman Cəmiyyətinin, “Spartak” cəmiyyətinin yarışlarının qalibi və mükafatçısı olmuşdur. Dəfələrlə Ümumittifaq turnirlərində Azərbaycanın idman şərəfini qorumuşdur. 1973-1974-cü illərdə Sumqayıtın “Spartak” cəmiyyətinin sambo və cüdo üzrə məşqçisi işləmişdir. M.F.Axundov adına APİ-ni bitirib Qusarda cüdo bölməsinin əsasını qoymuşdur.

C.Şinğarov 1973-cü ildə Azərbaycanda keçirilmiş ilk tarixi cüdo çempionatının bürünc mükafatçısı olmuşdur. 1980-ci ildən o, Qusar Uşaq-Gənclər İdman Məktəbinin məşqçisidir. Çoxlu dərəcəli idmançılar yetişdirmişdir. Onlar SSRİ, Azərbaycan, Rusiya, Belorusiya, Ukrayna çempionları olmuşlar.

Carullahın yetirmələrindən Kamran Məmmədov beynəlxalq dərəcəli idman ustası adına layiq görülmüşdür. Aydın Kəbətov, Qalib Ağabəyov, Elman Ağayev, Valeri Mardaxayev, Vidadi Musayev, Samir Sərkərov, Timur Əlixanov, Ramik Bahadurov, Hikmət Osmanov, Fətulla Əmrahov, İlqar Ərzimanov, Aynur İsmayılov, Zöhrab Mitəyev va başqaları müxtəlif illərdə respublika çempionu olmuşlar. C.Şinğarovun yetirmələri müxtəlif illərdə komanda hesabında Ümumittifaq yarışlarında 20 dəfə I, 8 dəfə II, 7 dəfə III yerə çıxmışlar.

## RAUF QAZİXANOV

***Son illər Rauf Qazixanovun yetirmələri olan idmançıların uğurlu çıxışlarının sorağı dünyanın mötəbər yarışlarından gəlir.***

Rauf Nadir oğlu Qazixanov 1968-ci ildə Qusar şəhərində anadan olmuşdur. Burada 3 saylı orta məktəbi bitirmiş, Mogilyov Pedaqoji İnstitutunun bədən tərbiyəsi fakültəsində təhsil almışdır. Cüdo və

тетдик экечӀна. Ам дзюдодай ва самбодай спортдин устӀарвилиз кандидат я. 1993-йисалай КцӀарин Аялринни Жегьилрин Спортдин Мектебда тренервиле кӀвалахзавай Рауф Къазихanован шакӀуртрин арада 2 Европадин, 10 республикадин призерар, 3 спортдин устӀарар, 5 устӀарвилиз кандидатар ава. Самир Серкерован ва Тимур Алиханован тӀварар дуьньядин гужлу спортсменрин сиягьда гьатнава. Алай вахтунда Р.Къазиханован регьбервилик кваз 30 аял спортдив машгъул жезва. Абурукай вад чпихъ генани чӀехи агалкьунар авайбур я.



sambo güləşi üzrə idman ustalığına namizəddir. 1993-cü ildən Qusar Uşaq və Gənclər İdman məktəbinin məşqçisi işləyən Rauf Qazixanovun yetirmələri arasında 3 nəfər idman ustası, 5 nəfər idman ustalığına namizəd vardır. R.Qazixanovun məktəbini keçmiş qusarlılardan 2 nəfər Avropa, 10 nəfər isə respublika mükafatçısıdır. Onlardan Samir Sərkərovun və Timur Əlixanovun adları dünyanın güclü idmançılarının siyahısına düşmüşdür. Hazırda cüdo bölməsinin məşqçisi R.Qazixanovun rəhbərliyi altında 30 yeniyetmə məşğul olur. Onlardan beşi perspektivli idmançılardır.

## ШАГЬЛАР МУСТАФАЕВ

***Международный экстра дережадин судья, республикадин лайихлу тренер Шагьлар Мустафаев Азербайжандин 2007-йисан виридалайни хъсан тренер тирди малумарнай.***

Самбодай республикадин виридалайни хъсан тренеррикай сад тир Шагьлар Гьулмегьамедан хва Мустафаев КцӀар райондин Пиралрин хуьре дидедиз хьана. 1974-йисуз Азербайжандин Физкультурадин Институт акьалтӀарай ам “Водник” спортдин жемиятдин тренервиле, 1974-1987-йисара кьилин тренервиле тайинарна. 1979-1985-йисара ада самбодай Азербайжандин хкягьай командадин тренервиле кӀвалахна.



Бакудин Хатаи райондин спортзалда ам машгъул хьайи жегьилрин арадай Рамил Ибрагьимов, Акиф Худиев, Решад Алыев, Яшар Сефералиев, Валегь Загьидов, Ислам Кьасумов, Самир Шихкеримов хьтин зурба спортсменар акъатна. Шамил Сефиханова, Рамил Ибрагьимова ва Ислам Кьасумова пудра Европадин чемпионвилин тӀвар къачуна. Абуру пудани дуьньядин чемпионатда II чкаяр кьуна.

Шагьлара вишералди жегьилар спортдин шегьредиз акъудна. Абурукай 50 кас спортдин устӀарар, 500 кас спортдин устӀарвилиз кандидатар я. Ада спортдив агуднавайбурукай 300 жегьил кцӀарвияр я. Шамил Сефиханов Мучугъ, Элшен Беделов Пирал, Самир Шихкеримов Ясаб хуьряй я. Самира самбодай Европадин чемпионатда буьруьнждин медаль къачуна. Жегьилрикай Орхан Незеров (Ясаб), Элхан

## ŞAHLAR MUSTAFAYEV

***Beynəlxalq ekstra dərəcəli hakim, respublikanın əməkdar məşqçisi, Azərbaycanın fəxri bədən tərbiyəsi və idman xadimi Şahlar Mustafayev 2007-ci ilin ən yaxşı məşqçisi elan olunmuşdur.***

Sambo üzrə respublikanın aparıcı məşqçilərindən biri olan Şahlar Gülməhəmməd oğlu Mustafayev Qusar rayonunun Piral kəndində anadan olmuşdur. 1974-cü ildə o, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu idman ustası kimi bitirmiş, “Vodnik” Respublika İdman Cəmiyyətində məşqçi işləmiş, 1974-1987-ci illərdə həmin cəmiyyətin baş məşqçisi olmuşdur. 1979-1985-ci illərdə o, sambo üzrə Azərbaycan yığma komandasının məşqçisi işləmişdir.

Onun zəhməti sayəsində Bakının Xətai rayonu ərazisindəki idman zalından Ramil İbrahimov, Akif Xudiyev, Rəşad Alıyev, Yaşar Səfərəliyev, Valeh Zahidov, İslam Qasımov, Samir Şixkərimov kimi dünya şöhrətli idmançılar pərvazlanmışdır. Şamil Səfixanov, Ramil İbrahimov, İslam Qasımov üç dəfə Avropa çempionu olmuşlar. Onların hər üçü dünya çempionatlarında II yeri tutmuşdur.

Şahlar yüzlərlə peşəkar idmançı, 50-dən çox idman ustası, 500 nəfərdən çox idman ustalığına namizəd yetişdirmişdir. Onlardan 300 nəfəri qusarlıdır. Şamil Səfixanov Mucuq, Elşən Bədəlov Piral, Samir Şixkərimov Yasab kəndinin sakinləridir. Samir sambo güləşi üzrə Avropa çempionatının bürünc mükafatçısı, hərbçilərin ümumdünya cudo festivalının bürünc medalının sahibidir. Yeniyetmələrdən Orxan Nəzərov

Эмирбегов (Ясаб), Элвин Беделов (Пирал) республикадин чемпионатрин гъалибар я.

Алай вахтунда Шагьлар республикадин "Пагьливан" спортдин клубдин самбодай тренер, гьакIни самбодай Бакудин командадин кьилин тренер я.

(Yasab), Elxan Əmirmətov (Yasab), Elvin Bədəlov (Piral) respublika birinciliklərinin qalibləri olmuşlar. Hazırda Ş.Mustafayev "Pəhləvan" respublika idman klubunda sambo üzrə baş məşqçi, sambo üzrə Bakı şəhər komandasının baş məşqçisidir.

## КАМРАН КЪАРИБОВ



***2007-йисуз Азербайжандин Таеквондодин Федерацияди вич "Йисан тренер" тIварцIиз лайих акур Камран Къарибов КцIара таеквондодин секция арадиз гъайи кас я.***

Азербайжандин Спортдин Институт акьалтIарна, III дандин иеси хьайи Камран Къарибова чпихъ алакьунар авай гзаф гадаярни рушар спортдив агудна. Машгъул хьун патал кутугай чка тахьуни четинвилер арадиз гъанатIани, адан аялри алатай йисара гзаф медалар къазанмишна. Шегьрияр Жамаледдинов, Элдениз Зербелиев, Васиф Къурбанов, Анар Гъаживердиев, Решад Дашдиев, Рамик Незеров хьтин спортсменри КцIарин таеквондо мектеб Азербайжандай къецизни сейли авуна.

Таеквондодал машгъул ирид рушани хъсан нетижаяр къалурзава. Севда Гъасановадин, Севда Гьейдаровадин, Эмиля Гъажибалаевадин тIварар вири республикадиз сейли я. Фарида Азизова лагьайтIа, кьудра республикадин, садра Европадин чемпион хьанва. Камран Къарибован регьбервилик кваз алай вахтунда 40 жегьил таеквондодал машгъул жезва. КцIарин Олимпиядин меркезда абур патал къулай шартIар арадал гъанва.

## KAMRAN QƏRİBOV

***2007-ci ildə Azərbaycan Tayekvondo Federasiyasının qərarı ilə "İlin məşqçisi" fəxri adına layiq görülmüş Kamran Qəribov Qusarda tayekvondo bölməsini yaratmış şəxsdir.***

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib, III dan qazanmış Kamran Qəribov Qusarda onlarca istedadlı gənci idmana cəlb etmişdir. Müvafiq məşq yerinin olmamasına, bəzi çətinliklərə baxmayaraq, onun yetirmələri ötən illərdə bir sıra medallar qazanmışlar. Şəhriyar Camaləddinov, Eldəniz Zərbəliyev, Vasif Qurbanov, Anar Hacıverdiyev, Rəşad Daşdiyev, Ramik Nəzərov kimi idmançılar Qusar tayekvondo məktəbini Azərbaycandan uzaqlarda da tanıtmışlar.

Sevindirici haldır ki, tayekvondo ilə məşğul olan yeddi qız da son illər yaxşı nəticələr göstərir. Sevda Həsənova, Sevda Heydərova, Emiliya Hacıbalayevanın adları artıq respublikada tanınır. Onun yetirməsi Fəridə Əzizova isə 4 dəfə respublika, 1 dəfə isə Avropa çempionu adını qazanmışdır.

Kamran Qəribovun rəhbərliyi altında hazırda 40 gənc tayekvondo ilə məşğul olur. Qusar şəhər olimpiya mərkəzində onlar üçün hər cür şərait yaradılmışdır.

## ГЬАБИБУЛЛАГЬ АГЪАЛАРОВ

***Шагьматдин доскадиз килиг тавуна уюн давамардай и кас КцIара шагьматдайни тIамадай садавайни тухуз жезвачир Гьабиб Агъаларов я.***

Дагъустан Республикадин Ахцегь райондин Текияр хуьре 1960-йисуз дидедиз хьайи Гьабиба КцIарин 2-нумрадин юкьван мектебдин 5-синиф куьтягьна, Бакудин набут аялрин интернатда кIелун давамарна. Бакудин "Спартак" жемиятда пешекар спортдив эгечIай Гьабиба "Мегьсул" Хуь-

## HƏBİBULLAH AĞALAROV

***Şahmat lövhəsinə baxmadan oyunun gedişlərini diqtə edən, Qusarda şahmat və damada heç kəsin apara bilmədiyi bu adam idman ustalığına namizəd Həbib Ağalarovdur.***

Dağıstan Respublikası Axtı rayonunun Tekiyar kəndində 1960-cı ildə anadan olmuş Həbib İsmixan oğlu Ağalarov Qusar şəhər 2 saylı orta məktəbinin 5-ci sinfindən təhsilini Bakıdakı gözdən əlillər üçün internat məktəbində davam etdirib. Bakının "Spartak" cəmiyyətində peşəkar idmanla məşğul ol-



руьн Спортдин Жемиятдин республикадин чемпионатра са шумудра I, II ва III чкаяр кьуна. Ам кьведра Закавказьедин, садра Юкьван Азиядин чемпион хьана.

2008-йисан октябрдиз Адлерда кьиле фейи международный турнирда ада II, 2009-йисан январдиз Курганда кьиле фейи международный турнирда I чкаяр кьуна.

КцIарви шагьматчийри 1981-1991-йисара къазанмишай агалкьунрик Гьабиба чIехи пай кутуна. А чIавуз КцIар Шегьердин Пионеррин КIвале кардик квай шагьматдин кружок тренер Гь.Агьаларован алахъунар себеб яз клубдиз элкъвенай.

Санлай 180 аял машгъул жезвай 3 группадай тIвар-ван авай шагьматчияр акъатнай. Абурукай Афет Аливердиевади СССР-дин профсоюзрин чемпионвилин тIвар къачунай. Шерифе Ибрагьимовади республикадин "Лацу ладья" акъажунра кьведра къизилдин медаль къачунай. 1984-йисуз Хумар Севзихановади гадайрихъ галаз санал акъажунра II разряд къазанмишнай. Ингье ихьтин агалкьунар кваз такьуна, клуб кIевирнай.

## ФИКРЕТ КЪАРДАШОВ

***Жегьилар ватанпересвилин руьгьда тербия авуник вичин пай кутур Фикрет Къардашов райондин спортсменрин рикI алай кас тир.***



***(1955-2002)***

КцIар райондин ЭчIехуьре дидедиз хьайи Фикрет Къардашан хва Къардашова шегьердин 3-нумрадин юкьван мектеб акьалтIарайдалай кьулухъ Бакудин Физкультурадин Техникум, гьакIни Азербайжандин Гьукуматдин Физкультурадин Институт куьтягьнай.

1990-1994-йисара ада КцIар Райондин Спортдин Комитетдиз, 1994-йисалай уьмуьрдин эхирдалди КцIар райондин Жегьилрин ва Спортдин Комитетдиз регьбервал ганай. Райондин ва республикадин спорт вилик тухунай адаз "Азербайжандин физкультурадин ва спортдин лайихлу кIвалахдар" тIвар ганай ва райондин тежриба вири республикада теблигъ авунай. Районда Фикрет Къардашоваз бахшнавай волейболдин турнир кьиле фена.

mağa başlayan Həbib dəfələrlə "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətinin respublika çempionatlarında I, II və III yerləri tutub. O, iki dəfə Zaqafqaziya, bir dəfə isə Orta Asiya çempionu olub.

2008-ci ilin oktyabrında Adlerdə keçirilmiş şahmat üzrə beynəlxalq turnirdə 2-ci yeri qazanan idmançı 2009-cu ilin yanvarında Kurqanda keçirilmiş beynəlxalq turnirin qızıl medalını qazanmışdır.

Qusarlı gənc şahmatçıların 1981-1991-ci illərdə qazandığı bir sıra uğurlar Həbib Ağalarovun adı ilə bağlıdır. Qusar Şəhər Pionerlər Evində fəaliyyət göstərmiş şahmat dərnəyi məşqçi Həbib Ağalarovun səyləri nəticəsində kluba çevrilmişdi.

180 şagirdin məşğul olduğu 3 qrupdan onlarca istedadlı idmançı yetişmişdir. Onlardan Afət Əliverdiyeva SSRİ həmkarlar ittifaqlarının çempionu olmuş, Şərifə İbrahimova respublikanın "Ağ top" yarışlarında iki dəfə qızıl medala layiq görülmüşdür. 1984-cü ildə Xumar Sevzixanova oğlanlarla yarışda II dərəcə normasını yerinə yetirmişdir. Təəssüf ki, belə uğurları olan şahmat klubu inkişaf etdirilmək əvəzinə bağlanmışdır və bu vaxta kimi fəaliyyəti bərpa olunmamışdır.

## FİKRƏT QARDAŞOV

***Yeniyetmələrin və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında xüsusi xidmətləri olan Fikrət Qardaşov rayon idmançılarının sevimlisi idi.***

Qusar rayonunun Əcəxür kəndində anadan olmuş Qardaşov Fikrət Qardaş oğlu Qusar şəhər 3 saylı orta məktəbdə oxumuş, Bakı Bədən Tərbiyəsi Texnikumunu və Azərbaycan Dövlət Bədən Tərbiyəsi İstitutunu bitirmişdir.

1990-cı ildə o, Qusar Rayon İdman Komitəsinin sədri təyin olunmuşdur. 1994-cü ildən ömrünün sonuna kimi Qusar Rayon Gənclər və İdman İdarəsinin rəisi işləmişdir. Rayon və ölkə idmanının inkişafındakı xidmətlərinə görə "Azərbaycan Respublikasının fəxri bədən tərbiyəsi və idman işçisi" adına layiq görülmüşdür. Onun fəaliyyəti dövründə idarənin qabaqcıl iş təcrübəsinin respublikada yayılması tövsiyyə olunmuşdur. Rayonda Fikrət Qardaşovun xatirəsinə həsr edilmiş voleybol turniri keçirilmişdir.

## КЬАКЬАНАР РАМЗАВАЙДИ

***Шагь дагъдин кукIушдал 23 гьилера, Базардуьзуьдин кукIушдал кьудра акьахай Илкъар Исрафилова Азербайжандин командадик кваз 2009-йисан августдиз Африкадин Килиманжаро дагъдин 5895 метр кьван кьакьан тир кукIуш рамна.***



Илкъар Кебетуллагьан хва Исрафилов неинки кцIарвийриз, гьакI чи республикадин альпинистризни хъсандиз чида. КцIар райондин чилерал алай дагъларин кукIушрал акьахиз кIанзавайбуру Илкъар хабар кьада. Ам галачиз кукIушдал акьахун садан акьулдизни къведач.

1961-йисуз КцIар шегьерда дидедиз хьайи Илкъара Азербайжандин Гьукуматдин Физкультурадин Институт акьалтIарна, 10 йисуз ара датIана Къуба райондин Агъбил хуьре муаллимвал авуна. И яргъал рехъ гьар юкъуз велосипеддал алаз къетI авур жегьилдин суракьар кьве райондизни чкIана. Альпинизмдихъ галаз Илкъар 1983-йисалай машгъул жезва.

Азербайжандин Спортдин ва Гьавадин Экстремал Спортдин Хилерин Федерациядин кефер-рагъэкъечIдай филиалдин регьбер, КцIарин "Салават" спортдин клубдин кьил Илкъар Исрафилов 2010-йисуз Шагь дагъ Милли Паркунин директордин заместителвиле тайинарна.

Исрафиловар спортсменрин хизан хьиз сейли я. Илкъарани Эзимеди са институтдин гьа са факуль-

## YÜKSƏKLİKLƏRİ FƏTH EDƏN

***23 dəfə Şahdağın, 4 dəfə Bazardüzünün zirvələrinə qalxmış İlqar İsrafilov 2009-cu ilin avqustunda Azərbaycan alpinistlərinin komandasının tərkibində Afrikanın ən hündür dağı olan Kilimancaronun 5895 metr yüksəklikdə olan zirvəsini fəth etmişdir.***

İlqar Kəbətullah oğlu İsrafilovu nəinki qusarlılar, həmçinin respublikamızın alpinistləri yaxşı tanıyırlar. Qusar rayonu ərazisindəki dağların zirvələrinə qalxmaq istəyənlər adətən İlqarı soraqlayırlar. Onsuz dağlara qalxmağı heç kəs ağlına gətirmir.

1961-ci ildə Qusar şəhərində anadan olmuş İlqar Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra 10 il fasiləsiz Quba rayonunun Ağbil kəndində müəllim işləmişdir. Bu uzaq yolu qət edib işə hər gün velosipedlə gedib-gələn idmançının sorağı tezliklə hər iki rayona yayılmışdır. Həvəskar idmançı kimi 1983-cü ildən alpinizmlə məşğul olmağa başlamış İlqar sonralar bu idman növünə ürəkdən bağlanmışdır.

Azərbaycan İdman və Hava Ekstremal İdman Növləri Federasiyasının şimal-şərq filialının rəhbəri, Qusarın "Salavat" idman klubunun sədri İlqar İsrafilov 2010-cu ildən Şahdağ Milli Parkının direktor müavini təyin olunmuşdur.

İsrafilovlar Qusar rayonunda idmançılar ailəsi kimi tanınır. Eyni institutun eyni fakültəsində və kur-





тетда, са курсуна кIелна. 1989-йисуз жегьилар эвленмиш хьана. Кьудра Шагь дагъдал, 12 гьилера Гьейдар Алиеван тIварунихъ галай кукIушдал акьахай Эзиме КцIарин Жегьилринни Спортдин Идарадин кIвалахдар я. Абурун рушарни альпинистар я.

sunda oxumuş İlqarla Əzimə 1989-cu ildə evləniblər. Dörd dəfə Şahdağ, 12 dəfə Heydər Əliyev zirvəsini fəth etmiş Əzimə Qusar Gənclər və İdman İdarəsində işləyir. Onların qızları da həvəskar alpinistlərdir.

## ДАТIАНА ГИРВЕДАЛ

Кьакьанвилинни такабурвилин кукIуш, лекьерин макан тир Шагь дагъдиз илифай ксаривай уьмуьрлух инагар рикIелай алудиз жедач. КцIарви духтур Низами Руьстемовни икI Шагь дагъдал рикI алай кас я. Гьуьлуьвай 4243 метр кьакьандиз хкаж хьанвай Шагь дагъдин виридалайни кьакьан кукIуш цIудра рам авур и альпинистдин рикIе дагълариз чIехи муьгьуьббат ава. Ара-ара Яру дагъ, Нисин дагъ, Кабаш дагъ такурла эхиз жедач адавай. Инин булахар, чарчарар, дагъарар вад тIуб хьиз чида адаз.



***Шикилда:*** *ЦIар чарчардиз илифай Низами Руьстемовани Илгьам Агъакишиева йиф ЦIар дагъарда акъуднай. Абуру муькуь юкъуз мад са шумуд чарчардал кьил чIугунай.*

## DAİM ZİRVƏDƏ

Ucalıq rəmzi olan, zirvəsində qartalların qıy vurduğu Şahdağı bircə dəfə ziyarət edən insan onu ömürlük unuda bilməz. Qusarlı həkim Nizami Rüstəmov da Şahdağa qəlbən bağlı insandır. Dəniz səviyyəsindən 4243 metr yüksəklikdə yerləşən bu dağın zirvəsini dəfələrlə fəth etmiş alpinistin ürəyində dağlara böyük məhəbbət var. Yaru dağı, Nisin dağı, Kabaş dağını, buralardakı mağaraları görməyəndə dözə bilmir.

***Şəkildə:*** *Tsar şəlaləsinə baş çəkən Nizami Rüstəmovla İlham Ağakişiyev gecəni Tsar mağarasında keçirib, ertəsi günü daha bir neçə şəlaləyə baş çəkdilər.*

## ДАГЪЛАРАЛ КЬАРУДИ

Шагь дагъ Зейналаз кьван чидай маса кас бажагьат жеди. Инин гьар са гирве, гьар са кIам, гьар са къван чида адаз. Кьвалалай-кьвалал хкадарда, Кабаш дагъдал балкIандаллаз акьахда ам. Лацарин Гавдан дередай тIуз СтIуррин Яргъи кикел кьван физ-хтун яд хъвадай хьиз асант аквадай и шаирдин рикI авай касдин викIегьвилер вирибуруз сейли я.

Лацар хуьряй тир Зейнал Эмирханан хва Агъакишиев алпинистриз хъсандиз чида. Гьавиляй Азербайжандин чара-чара чкайрай тир спортсменри Шагь дагъдин кукIушдал акьахун патал и кас тухуда чпихъ галаз. 50 гьилера акьахнава ам кукIушдал. Ада гьакIни 10 гьилера Базарюрддинни Базардуьзуьдин кукIушар рам авунва.



## DAĞLARIN MƏFTUNU

Şahdağa Zeynal kimi bələd olan ikinci adam tapmazsınız. Burada hər cığırın, hər keçidin yerini bilir o. Qayadan-qayaya atılır, Kabaş dağa at belində qalxır. Ləzənin Gavdan dərəsindən Sudurun Yarğikek yaylağına kimi gedib-gəlməyi bir içim su kimi asan hesab edən bu şair təbiətli adamın sorağı bütün rayona yayılıb.

Ləzə kəndinin sakini Zeynal Əmirxan oğlu Ağakişiyevi alpinistlər yaxşı tanıyırlar. Şahdağda hər cığıra bələd olan Zeynal uzun illərdir peşəkar və həvəskar alpinistlərə bələdçilik edir. O, 50 dəfə Şahdağın, 10 dəfə Bazaryurdun və Bazardüzünün zirvələrini fəth etmişdir.

## ЧЕМПИОНРИН ХИЗАН

Яргунви Шихнеби Наврузан хва Мурадов 55 йис идалай вилик вичин паб Етерахъ галаз санал Бакудиз куьч хьана ва нафтIадин мяденра кIвалахал акъвазна. Абурун чIехи веледди илимдин рехъ хкяна. Азербайжан Республикадин Образованидин Месэлайрин Институтдин кIвалахдар, педагогикадин илимрин кандидат, доцент Нигар Мурадовади докторвилин диссертация тамамарзава. Муькуь веледри спортдин рехъ кьуна.

Роман Мурадов самбодай СССР-дин спортдин устIар, дзюдодай спортдин устIарвилиз кандидат, каратэдай II дандин - чIулав чIулунин сагьиб я. 1992-йисуз кьуршахар кьунай Санкт-Петербургда уьлкведин чемпионатда ада къизилдин медаль къазанмишнай. Алай вахтунда ам Бакудин Ж.Нахчиванскийдин тIварунихъ галай военный лицейдин муаллим я. Романа Азербайжанда цIудралди чемпионар гьазурна. 1994-йисуз рушарин арадай каратэ-додай сифте яз чемпионвилин тIвар къачур Элмира Алекперова, 1995-йисан чемпион Севил Аббасова, машгьур чемпион Александр Овечкин ва масабур ада кIвачел ахкьалдарнавайбур я.

Кьезил атлетикадал рикI алай Севда Мурадова са шумудра республикадин чемпион хьана.

Вичин уьмуьрдин 32 йис гандболдиз серф авур Гуьлнара Мурадова (Нагъибегова) 25 йисуз (1982-2006) Азербайжандин хкягъай командадик хьана. СССР-дин спортдин устIар, Азербайжандин хкягъай командадиз ирид йисуз регьбервал гайи, гзаф цурцун, гимишдин ва къизилдин медалрин сагьиб хьайи Гуьлнара 1996-2000-йисара Туьркиядин клубрани къугъвана.

## ÇEMPİONLAR AİLƏSİ

Həzrəli Şixnəbi Novruz oğlu Muradov 55 il əvvəl həyat yoldaşı Yetərlə Bakıya köçmüş və taleyini Neft Daşları ilə bağlamışdır. Onların böyük övladı elmə meyl saldı. Azərbaycan Respublikası Təhsil Probemləri İnstitutunun elmi işçisi, pedaqoji elmlər namizədi, dosent Nigar Muradova doktorluq dissertasiyası üzərində çalışır. Şixnəbinin digər övladları isə idmanı seçdilər.

Roman Muradov Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun məzunudur. Sambo üzrə SSRİ idman ustası, cüdo üzrə idman ustalığına namizəd və karate-do üzrə II dan qara kəmər sahibidir. 1992-ci ildə Sankt-Peterburqda keçirilmiş əlbəyaxa döyüş üzrə ölkə çempionatında qızıl medal qazanmışdır. Hazırda C.Naxçıvanski adına hərbi liseyin karate-do üzrə müəllimidir. Onun yetirmələri arasında çoxlu ulduzlar var. 1994-cü ildə qızlardan karate-do üzrə ilk dəfə çempion olmuş Elmira Ələkbərova, 1995-ci ilin çempionu Sevil Abbasova belələrindəndir. Məşhur idmançı Aleksandr Oveçkin də onun yetirməsidir.

Sevda Muradova uzun illər yüngül atletika ilə məşğul olmuş, bir neçə dəfə respublika çempionu adını qazanmışdır.

Gülnarə Muradova (Nağıbəyova) isə ömrünün 32 ilini həndbola həsr etmiş və 25 il (1982-2006) Azərbaycan yığmasının şərəfini qorumuşdur. SSRİ idman ustası, 7 il Azərbaycanın yığma komandasının kapitanı, çoxlu sayda qızıl, gümüş və bürünc medalların sahibi G.Nağıbəyova 1996-2000-ci illərdə Türkiyənin klub komandalarının şərəfini qorumuşdur.




*Гуьлнара Нагъибегова*

*Gülnarə Nağıbəyova*



*Роман Мурадов вичин шакIуртрихъ галаз.*



*Roman Muradov öz yetirmələri ilə.*

## СИМИН ПАГЪЛИВАНАР

***Кьакьан гуларал симер кутlунна абурун винел гьунарар къалурдай пагъливанар лезги мярекатрин ярашух я. Абуру симинал "Лезгинкадал" кьуьлдайла пагь атIуда инсанрин.***

И мярекат КцIарин хуьрерани гурлуз кьиле фида. Гзаф хуьрер, иллаки Пирал, Мучугъ, Лечет чпин пагъливанралди сейли я.

Дегь чIаварилай кьил кутуна халкьдин спортдин и хел вилик тухузвайбур кичI тийижир, викIегь ва кьегъал ксар я. Мярекат квасади гурлу ийида. Адан зарафатри межлисдик дад кутада.

Симин пагъливанрин къугъунриз килигзавайбурун гъил жибинда хьун важиблу я. Мискьибурун вилериз квасади гъуьр вегьеда. И чlавуз жемятар рикlяй хъуьреда. Бегьем паяр кlватlна, кефияр къумбар хьайила, квасани симинал акьахда. Адан гьунардал вири гьейран жеда. Гьам акробат я кваса, гьамни артист.

Кваса анжах Яран суварин чарасуз лишандай гьисабзавай маса халкьарилай тафаватлу яз лезгийри гьеле дегь чlавара симин пагъливанрин къугъунра адакай менфят къачудай. И къугъунар чеб са сувар тир ва абур кьуьд, гад, зул, гатфар талана гьамиша кьиле фидай. Гагь-гагь чара-чара хуьрерин пагъливанрини квасайри акъажунарда. Ихьтин мярекатриз къунши хуьрерайни эл кlватl жеда. Пагъливанриз хунчаяр гун адет я. Гуларал шал, бишме, парча кутIунда. Рушари пагъливанриз цуьквер гуда.

## KƏNDİRBAZLAR

***Hündür dirəklərə məftil bağlayaraq, onların üzərində mürəkkəb akrobatik hərəkətlər ifa edən pəhləvanlar çətin elementlərlə zəngin olan maraqlı nömrələr nümayiş etdirirlər.***

Ləzgilərin qədim xalq yaradıcılığı növlərindən ən geniş yayılanı kəndirbazlıqdır. Uzun əsrlər boyu el şənliklərinin yaraşığı sayılan kəndirbazlar xalq idmanının bu çətin və maraqlı növünü yaşadan cəld, çevik və qorxmaz insanlardır. Qusar rayonunda geniş yayılmış, onun Piral, Mucuğ, Ləcət və başqa kəndlərində peşəkar səviyyədə inkişaf etmiş kəndirbazlıq mərasim şənliklərinin, ələlxüsus Yaran suvarın (Bahar bayramının) vacib atributu sayılır.

Mərasimin ən maraqlı anı pəhləvanların kəndir üzərində "Ləzginka" rəqsini ifa etməsidir. Gözləri bağlı halda kəndir üzərində ağlasığmaz nömrələr göstərən kəndirbazlar xalq idmanının bu qeyri-adi növünə öz fantaziyalarını da əlavə edirlər.

Kosanın məzəli zarafatları məclisə xüsusi yaraşıq verir, kəndir üzərində məharətini göstərən bu xalq məzhəkəçisi həm akrobat, həm də artistdir. Bir sıra xalqlardan fərqli olaraq, kosa ləzgi məclislərində yalnız Bahar bayramında peyda olmur, o, kəndirbazların bütün çıxışlarında, ilin bütün fəsillərində aparıcı rol oynayır. Pəhləvanların çıxışından sonra onlara xonçalar vermək, hədiyyə olaraq dirəklərə şal, kəlağayı, parça bağlamaq, onlara çiçək bağışlamaq adətdir.



## “КЬЕГЪАЛАР”

***Яргун, Кириг ва Лечет хуьрерин гадайри арадал гъанвай “Кьегьалар” тlвар алай коллектив Азербайжандизни Дагъустандиз сейли я.***

КIватIалдин кьил Кьасум ва адан рухваяр Виталикни Сеймур лечетвияр, Шихнуьдуьр яргунви, Абдуллагьни адан стха Элим кириггвияр я. Абуру санал кlвалахиз 18 йис я.

Виталикни Сеймур зурба акробатар я. Абур симинал фарфалаг хьиз элкъведа. Абдуллагьан ва Кьасуман симинал “Лезгинкадал” кьуьлуни жемятдин кlвачерик звер кутада. Программадин виридалайни марагълу чка Кьасума симинал гьер туклун я. Дагъустандин симин пагьливанрин акъажунра сад лагьай чка кьур и коллективди шумуд йисар я Кцlарин тlвар вириниз сейли ийиз.

## “İGİDLƏR”

***Üç kəndin - Həzrə, Kirig və Ləcət kəndlərinin kəndirbazlarının yaratdığı “İgidlər” kollektivi Azərbaycanda və Dağıstanda məşhurdur.***

Kollektivin rəhbəri Qasım, onun oğlanları Vitalik və Seymur ləcətli, Şixnüdür həzrəli, Abdulla və qardaşı Əlim kiriglidir. Vitaliklə Seymur akrobatlardır. Onlar kəndir üzərində fırfıra kimi fırlanırlar. Abdullahla Qasımın kəndir üzərində “Ləzginka” oynaması bir özgə aləmdir. Pəhləvanların nümayiş etdirdikləri bir-birindən çətin hərəkətlər, ələlxüsus Qasımın kəndir üzərində qoyun kəsməsi hünər, çeviklik və cəldlik tələb edən mürəkkəb və riskli şoudur. Kollektivin 18 yaşı var. Dağıstan kəndirbazlarının respublika yarışında I yeri tutmuş, ümumxalq məhəbbəti qazanmış bu kollektiv Qusarın adını hər yerdə şöhrətləndirir.









## МУЧУГЪВИ ПАГЪЛИВАН

***Азербайжандин пайдах са шумудра симин винел хкажай пагьливан Миримов Жаруллагь Гьакиман хва 1961-йисуз КцIар райондин Мучугъ хуьре дидедиз хьана.***

Мектебда кIелдайла ам сифте яз вичин хуьруьн пагьливанрихъ галаз санал халкьдин вилик экъечIнай. И къадим сенятдал ашукь тир Жаруллагь 1982-йисуз КцIар райондин медениятдин кIвале кIвалахал акъвазна.

Магьачкъаладин талукь техникумдин халкьдин театрдин факультет акьалтIарай ам Дагъустандин Мегьарамдхуьр районда сиркинин устIар хьиз сейли хьана. Ж.Миримов 1989-йисуз Испанияда кьиле фейи “Romerio Internasional” виридуьньядин фестивалдин лауреат хьана.

СССР-дин са шумуд шегьердин фестивалрин ва акъажунрин гъалиб хьайи Ж.Миримова 2006-йисуз Дагъустанда кьиле фейи симин пагьливанрин республикадин фестивалда сад лагьай чка кьуна. Алай вахтунда Жаруллагьа Дагъустан Республикадин Мегьарамдхуьруьн медениятдин кIвалин симин пагьливанрин коллективдиз регьбервал гузва.

## MUCUQLU PƏHLƏVAN

***Azərbaycan Respublikasının bayrağını bir neçə dəfə kəndir üzərində dalğalandırmış Mirimov Carullah Həkim oğlu 1961-ci ildə Qusar rayonunun Micuq kəndində anadan olmuşdur.***

O, uşaqlıqdan kəndirbazlıqla məşğul olmuş, yerli kəndirbazlar və xalq sirk ustaları ilə birgə çıxış etmişdir. Bu qədim sənətin vurğunu olan Carullah Mirimov 1982-ci ildə Qusar Rayon Mədəniyyət Evində təsərrüfat hesabı ilə işləməyə başlamışdır.

Mahaçqala Mədəni-Maarif Texnikumunun xalq teatrı fakültəsini bitirib, Dağıstanın Məhərrəmkənd rayonunun mədəniyyət evində sirk ustası kimi fəaliyyət göstərmişdir. C.Mirimov 1989-cu ildə İspaniyada keçirilmiş “Romerio Internasional” ümumdünya festivalının laureatı olmuşdur.

Keçmiş İttifaqın bir sıra şəhərlərində keçirilmiş festival və müsabiqələrin qalibi C.Mirimov 2006-cı ildə Dağıstanda kəndirbazların respublika müsabiqəsində birinci yeri tutmuşdur. Hazırda Carullah Dağıstan Respublikasının Məhərrəmkənd Rayon Mədəniyyət Evinin kəndirbazlar kollektivinə rəhbərlik edir.











*Олимпиядин къугъунрин тарихда Азербайжандин пайдах сифте яз Назим Гъуьсейнова хкажиз туна (2002-йис, Барселона).*

*Olimpiya oyunları tarixində ilk dəfə Azərbaycan bayrağı Nazim Hüseynovun qələbəsi şərəfinə qaldırıldı (2002-ci il, Barselona).*



*Гъалибвал къазанмишиз са легьзе амаз.*

*Qələbəyə bir an qalmış.*





КцӀарин спорт вилик тухвай ксар.

Вилик жергеда чапла патай:
Бадаш Ширинов,
Гьуьсейнбала Агьаев.
Кьулухъ жергеда (чапла патай):
Агьададаш Къадимов,
Гьамид Бабаханов,
Рауф Мамедов,
Надир Мустафаев,
Жаруллагь Шингьаров.

Qusar idmanına töhfə verənlər.

Ön cərgədə soldan:
Badaş Şirinov,
Hüseynbala Ağayev.
Arxa cərgədə (soldan):
Ağadadaş Qədimov,
Həmid Babaxanov,
Rauf Məmmədov,
Nadir Mustafayev,
Carullah Şinqarov.



КцӀарин футболдин команда (1948-йис).

Qusarın futbol komandası (1948-ci il).



Максим Муслимова вичин уьлкведин циркина къалурай нумрайрикай хуш атай Римдин Падади ам тебриксава.

Maksim Müslümovun ölkəsindəki çıxışından təsirlənən Roma Papası onu təbrik edir.



Максим Муслимован машгьур трюк.

Maksim Müslümovun məşhur tryuku.



СССР-дин кооператоррин спартакиадада I чка кьур КцӀарин футболдин команда. 1984.

SSRİ kooperatorlarının spartakiadasında I yerə layiq görülmüş Qusarın futbol komandası. 1984.






*Шекерхан Алисманован цIусад лагьай гъалибвал: дуьньядин чемпионатдин къизилдин медаль. 2009.*

*Şəkərxan Əlismanovun on birinci qələbəsi: dünya çempionatında qızıl medal. 2009.*



*Къванер хкажунай са шумудра республикадин чемпион хьайи Насир Мегьамедалиев.*

*Daşqaldırma üzrə bir neçə dəfə respublika çempionu olmuş Nasir Məhəmmədəliyev.*



*Камран Ферзалиеван эхиримжи гъалибвал. 1989-йис.*

*Kamran Fərzəliyevin son qələbəsi. 1989-cu il.*



*Азербайжандин чемпион Аэлита Хелефова.*

*Bədii gimnastika üzrə Azərbaycan çempionu Aelita Xələfova.*



*КцIарви альпинист Илкъар Исрафилова 2009-йисуз Азербайжандин командадик кваз Африкадин Килиманжаро дагъдин кукIуш рам авуна.*

*Qusarlı alpinist İlqar İsrafilov 2009-cu ildə Azərbaycan komandasının tərkibində Afrikanın Kilimancaro dağının zirvəsini fəth etmişdir.*




***Азербайжандин Таеквондодин Федерациядин вице-президент Фуьзули Мусаева кцIарви Камран Къарибов "Йисан тренер" тIварцIиз лайихлу хьунай тебриквава. 2007***

***Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Füzuli Musayev qusarlı Kamran Qəribovu "İlin məşqçisi" fəxri adına layiq görülməsi münasibəti ilə təbrik edir. 2007***



***Таеквондодай Европадин ва дуьньядин чемпион Фарида Азизова. Загреб, 2009***

***Taekvondo üzrə Avropa və dünya çempionu Fəridə Əzizova. Zaqreb, 2009***



***Фарида Азизова Европадин чемпионатда.***

***Fəridə Əzizova Avropa çempionatında.***



***Фарида Азизова ва адан тренер Гуьндуьз Абдуллаев.***

***Fəridə Əzizova və onun məşqçisi Gündüz Abdullayev.***



***КцIарин таеквондо мектебдин тренер Камран Къарибов чпихъ алакьунар авай аялрихъ галаз.***

***Qusar taekvondo məktəbinin məşqçisi Kamran Qəribov öz yetirmələri ilə.***



*КцIарин Олимпиядин комплекс. Qusar Olimpiya Kompleksi.*




*Шуьвкет Ордуханован тIварунихъ галай КцIарин стадион.*

*Şövkət Orduxanov adına Qusar şəhər stadionu.*



*Волейболдай Азербайжандин чемпионатдин вини лигада 2007-йисуз III чка къур КцIарин команда. Тренер: Рамиз Алиханов.*

*2007-ci ildə voleybol üzrə Azərbaycan çempionatının yüksək liqasında 3-cü yeri qazanmış Qusar komandası. Məşqçi: Ramiz Əlixanov.*



*КцIарви жегьилрин дзюдодин команда.*

*Qusarlı yeniyetmələrdən ibarət cudo komandası.*



*Акиф ва Интизар Салмановри жиу-житсудай Европадин чемпион тир чпин руш Мариядалди дамахзава.*

*Akif və İntizar Salmanovlar jiu-jitsu üzrə Avropa çempionu olan qızları Mariya ilə fəxr edirlər.*



*Мария Салманова.*

*Mariya Salmanova.*



*Международный дережадин судья Сергей Кириенкоди 2009-йисуз шагьматдай Курганда кьиле фейи международный турнирда сад лагьай чка кьур Гьабиб Агьаларовав кубок вугузва.*

*Beynəlxalq dərəcəli hakim Sergey Kiriyenko 2009-cu ilin yanvarında Kurqanda keçirilmiş beynəlxalq şahmat turnirinin qalibi Həbib Ağalarova mükafat təqdim edir.*



*Самбодай СССР-дин чемпионатдин судьяйрин коллегия. Чапла патай сад лагьайди международный экстра дережадин судья Шагьлар Мустафаев я. 1985*

*Sambo üzrə SSRİ çempionatının hakimlər kollegiyası. Soldan birinci beynəlxalq ekstra dərəcəli hakim Şahlar Mustafayevdir. 1985*



*КцIарви Зейдуллагь Сулейманов са береда "Нефтчи" командадин меркездин гьужумчи тир.*

*Qusarlı Zeydulla Süleymanov bir vaxtlar "Neftçi"nin mərkəz hücumçusu idi.*



*Васиф Къурбанова Иранда кьиле фейи дуьньядин чемпионатда къизилдин медаль къазанмишна. 2008.*

*Vasif Qurbanov İranda keçirilmiş dünya çempionatında qızıl medala sahib oldu. 2008.*



*Сейли пагьливан Фамил Шагьдагьви.*

*Məşhur pəhləvan Famil Şahdağlı*



*Халуни хтул - Жаруллагь Шингьаров ва Рауф Къазиханов тек са КцIариз ваъ, гьакIни республикадиз сейли тренерар я.*

*Dayı və bacıoğlu - Carullah Şinğarov və Rauf Qazixanov təkcə Qusarın deyil, həm də respublikanın tanınmış məşqçiləridir.*



*Азербайжандин чемпион Решад Медетов.*

*Azərbaycan çempionu Rəşad Mədətov.*



*Гьабил Шагьдагъвиди вичин алакьунар къалурзва.*



*Habil Şağdağlı hünərini göstərir.*



*КцІарин пагьливанрин муаллим хьайи Алиюллагь Нажаров.*

*Qusar pəhləvanlarının müəllimi olmuş Əliyullah Nacarov.*



*Олимпиядин чемпион Назим Гьуьсейнов кцІарвийрин мугьман я. 1993.*

*Olimpiya çempionu Nazim Hüseynov qusarlıların qonağıdır. 1993.*



# IX

# ЙИСАР, ИНСАНАР



# İLLƏR, İNSANLAR

***Инсан кирпич хьиз я: кунивай мягькем жеда.***

*Ж.Ж.Руссо*

Гьар чкадихъ вичин вилик-кьилик галай, масабуруз чешне тир кIвенкIвечи инсанар ава. ДуьньякьатIунралди ва къенепатан алемдин девлетлувилелди тафаватлу тир и инсанрилай ярар-дустариз, жемиятдиз чешне къалуриз алакьда. Са вуч ятIани арадал гъунал, яратмишунрал рикI алай, адетдин инсанар тушир, чпин ва масабурун уьмуьрар хъсанариз алахъзавай ихьтин интеллигентар элдихъ ялуналди, ватандин таъсиб чIугуналди тафаватлу жеда.

КцIара вишералди ихьтин инсанар ава. Абурухъ галаз ихтилат авурла и инсанрин дуьньядал, уьмуьрдал кьару хьунал, абурун яратмишунрал рикI хьунал гьейран жеда вун. Ктабдин и паюна чна ихьтин инсанрин са бязибурукай ихтилатзава. Авайвал лагьайтIа, чпикай кхьена кIанзавай лайихлу инсанар районда гзаф ава. Чпин амалралдини къени краралди тафаватлу тир ихьтин инсанар несилриз чешне я.

***İnsan kərpic kimidir: yandıqca möhkəmlənir.***

*J.J.Russo*

Hər yerin, hər yurdun öndə gedən ziyalıları olur. Əməlləri ilə nümunə olan bu ziyalılarla hamı fəxr edir. Geniş dünyagörüşü, zəngin mənəvi aləmi ilə seçilən belə insanlar cəmiyyətə, onları əhatə edənlərə nümunə olmağı bacarırlar. Adiliyi sevməyən, yaradıcılıq şövqü ilə çalışan, özlərinin və başqalarının həyatını maraqlı etməyə səy göstərən belə ziyalıları elə bağlılıq, təəssübkeşlik kimi yüksək insani dəyərlər birləşdirir.

Qusarda belə ziyalılar yüzlərlədir. Onlarla söhbət edəndə daxilən zənginləşirsən, bu insanların həyat eşqinə, yaradıcılıq imkanlarına və qurub-yaratmaq əzminə heyran olursan. Bu fəsildə söhbət açacağımız insanlar yüzlərlə qusarlı ziyalıdan bəziləridir. Bu seçim əslində şərti xarakter daşıyır. Bir şeyi səmimi etiraf edirik ki, haqlarında yazılmalı insanlar rayonda olduqca çoxdur. Onlara ayrıca kitablar həsr olunmalıdır. Çünki əməlləri, gördükləri xeyirxah işlərlə seçilən belə ziyalılar nəsillərə örnəkdir.

## ЦIАЙЛАХАНДИН КЬИСА

Касан хуьре са иер руш авай. Адал сад садакай хабарсуз кьве дуст - кьве кьегьал ашукь хьанай. Абурукай сада рушаз рикI ахъайнай. Руша жегьилдиз Шагь дагьдин кIукI къалурна лагьанай:

- Йиф чIичIна, югъ жедалди вуна ана цIайлахан кайитIа, зун ваз къведа.



Хвеши хьайи жегьил балкIандал акьахна, дагълар галайнихъ фенай. Са вахтундилай муькуь жегьилни рушан кьилив атана, адаз вичин рикI ахъайнай. Руша гьадазни Шагь дагьдин кIукI къалурна лагьанай:

- Экуьналди ана цIаяр куда. Вавай а цIайлахан туьхуьриз хьайитIа, зун види я.

Жегьил хвешила рекье гьатнай. Экуьнахъ дагъдал акьахайла, адаз туьхуьнзавай цIайлахан ва адан патав ширин ахварал фенвай вичин дуст акунай. Ам цIайлахандал кIарасар хъивегьна, “регьятдиз ксус, дуст”, лагьана кьулухъ элкъвенай.

## БАГЪИД ПЕР

Фетали хандин девирда адан ханлухдин ЦIуру Худат хуьре Багъи лугьудай са кас авай. Ирид юкI алай Мегьамед пагьливандин ухшар авай ада яхцIур йисан тар кIаняй акъуддай, путун къванер кIетI хьиз авадардай.

Адахъ чатун устIарди яхцIур юкъуз расай чIехи са пер авай. Перцин сив кьве юкI тир. Багъидлай гъейри са касдивайни ам хкажиз ва я чилик кутаз жедачир. И карди Багъидин пер вири ханлухдиз сейли авунвай. Гьавиляй вирида адаз “Багъид пер” лугьудай.

Багъиди вичин пер кардик кутурла, жемятарни белгенар къарагъариз эгечIдай. Багъид перни пер тир гьа: са гьилера са къаблама (са къаблама зур гектар я) чил къарагъардай. Вичихъ кьве виш къаблама цан цадай чилер авай Багъиди кьвед-пуд йикъан къене никIиз тум вегьена куьтягьдай. Адан никIин са къабламадай са эмбиз (са эмбиз 5 тон я) къуьл акъатдай. Багъид никIин са эмбизди са базар тухардай. Гьавиляй ам вириниз сейли хьанвай.

Багъидин хабар агакьайла, Фетали хандик къалабулух акатна. КIеле ханлухда Багъи хьтин гужлу кас авач лагьайла, ада вичин виридалайни зурба пагьливандиз эверна.

Белгъ тIвар алай и пагьливанни вириниз маш-

## TONQAL ƏHVALATI

Kasan elində gözəl bir qız var idi. Ona iki dost - iki igid bir-birindən xəbərsiz vurulmuşdu. İgidlərdən biri ürəyini qıza açır. Qız cavana Şahdağın zirvəsini göstərib deyir:

- Əgər sabah gecə səhərə kimi orada tonqal qalaya bilsən, mən səninəm.

Oğlan sevincək halda atına minir və dağlara tərəf üz tutur. Bir qədər keçəndən sonra qızın yanına o biri igid gəlir. O da gözələ ürəyini açır. Qız ona da Şahdağın qarlı zirvəsini göstərərək deyir:

- Sabah gecə səhərə kimi orada tonqal alovlanacaq. Həmin tonqalı söndürə bilsən, sənə gələrəm.

Gənc sevincək halda Şahdağa yola düşür. Səhər zirvəyə qalxanda o, artıq sönməkdə olan tonqalı və onun yanında şirin yuxuya getmiş dostunu görür və hər şeyi başa düşür. Tonqala odun atıb, “rahat yat, dostum”, deyib geri qayıdır.

## BAĞININ BELİ

Fətəli xanın dövründə onun xanlığının Köhnə Xudat kəndində Bağı adlı bir pəhləvan yaşayırdı. Ləzgi nağıllarındakı əfsanəvi Məhəmməd pəhləvana bənzəyən, adı dillərdə gəzən bu dağ cüssəli adam qırx illik ağacı yerindən qoparır, pudluq daşları əlində asanlıqla oynadırdı.

Bir dəmirçi 40 gün ərzində onun üçün bir bel düzəltmişdi. Ağzı 2 metr olan bu beli ondan başqa heç kəs qaldıra bilmirdi. Ona görə də adını “Bağının beli” qoymuşdular. Bağı əlinə bel alanda, kənd camaatı da əkin işlərinə başlardı.

Bel də bel idi ha! Bir dəfəyə bir qablama yeri (1 qablama yarım hektar yerdir) yumşaldırdı. 200 qablama əkin yeri olan Bağı toxumu 2-3 gün ərzində zəmiyə səpib qurtarardı. Onun zəmisinin bir qablamasında bir əmbiz (bir əmbiz 5 tona bərabərdir) taxıl yetişərdi. Bir əmbiz bir bazarı doyuzdurardı. Elə buna görə də Bağı hər yerdə məşhur idi.

Pəhləvanın sorağı xanlığa yayılmışdı. Nəhayət, Bağı haqqında danışılanlar gedib Fətəli xana da çatır. Xan bunları eşidəndə dərin fikrə gedir. Sonra özünün ən güclü pəhləvanını yanına çağırtdırır.

Bəlğ adlı bu pəhləvan da hər yerdə məşhur idi. O, yeddi xanlıqda yeddi yüz pəhləvanın kürəyini yerə vurmuş, yeddi vilayətdə yeddi qoşunu ram etmişdi.

гъур тир. Адакай ирид ханлухда ирид виш пагъливандин кIвачер галудай, ирид вилаятда ирид къефле кукIварай риваятар туькIуьрнавай. Вичин рикI алай и пагъливандилай гужлуди ава лагьай хабарди хандин кьарай атIанвай.

Фетали ханди Белгъ пагъливандиз Багъи кIеледиз гъун буйругъна. Пагъливан ЦIуру Худатиз рекье гьатна. Хуьруьз агакьайла, ада кимел ацукьнавай ксарикай садаз лагьана:

- Тадиз Багъидиз инал ша лагь.

Касди сивик хъвер кваз лагьана:

- Икьван гагьди ам садан кьиливни фейиди туш. Алад, жув адан кьилив.

И гафари Белгъ пагъливандик хъел кутунатIани, ам чуьлда кIвалахзавай Багъидин кьилив физ мажбур хьана. И чIавуз Багъиди чIехи тарцин кIаник ацукьна фу незвай. Суфрадал са хуьруьн жемятди недай кьван ризкьи алай. И кар вилералди акур Белгъ пагь атIана амукьна. Ада хъел кваз жузуна:

- Багъи вун яни?

Мугьмандиз икрам авуна, кIвачел къарагъай Багъиди сивик хъвер кваз лагьана:

- Вахъ вучиз хъел ква, хванахва, ви хатурдик хукIурайди вуж я? БалкIандилай эвичI, захъ галаз са кап фу неъ, ахпа жуван дерди лагь.

Белгъ пагъливан чара атIана, балкIандилай эвичIна. Ам суфрадив эгечIна. ТIуьн-хъун куьтягь хьайила Багъи хванахвадихъ элкъвена:

- Гила лагь кван вун вуж кас ятIа, гьинай атана, гьиниз физвайди ятIа?

Белгъ пагъливанди вич Фетали хандин пагъливан тирди малумарна:

- Хандиз вун акваз кIанзава. Вун захъ галаз фин герек я.

Багъиди хъвер кваз мугьмандиз лагьана:

- Къе чил къарагъарна куьтягь тавуртIа, пака завай тум вегьиз жедач эхир. Ингъе зун хандин кьилив фена кIанзаватIа, куьмек це.

Ада Белгъ пагъливандиз вичин пер лишан гана, вичин кIвалахив эгечIна.

Багъи са гъвар кьилиз акъудна кьвед лагьайдал атанвай, амма Белгъ гьелени вичин чкадилай юза хьанвачир. Адавай Багъиди акIурай пер сакIани чиляй акъудиз жезвачир.

ИкI хьайила ЦIурухудатвиди чилик кутунвай пер пагъливанни галаз хкажна лагьана:

- Мад вучда кьван, хванахва, вавай заз куьмек гуз хьанач, завайни КIеледиз физ жедач.

Белгъ пагъливан кьил хураваз кьулухъ элкъвена.

Bəlğdən güclü pəhləvanın olması xəbəri Fətəli xanın rahatlığını əlindən alır. O, Bəlğ pəhləvana Bağını qalaya gətirməyi tapşırır. Pəhləvan xanın tapşırığını yerinə yetirmək üçün Köhnə Xudat kəndinə yola düşür.

Kəndə çatanda Bəlğ kimdə (ləzgi ağsaqqallarının oturduğu yer "kim" adlanır) oturmuş kişilərdən birinə yaxınlaşıb ondan Bağının yerini soruşur və qocaya əmr edir:

- Get Bağını buraya çağır.

Kişi ona deyir:

- Görkəmindən pəhləvana oxşayırsan, amma deyəsən Bağını yaxşı tanımırsan. Bu vaxta kimi o, heç kəsin çağırışına getməyib. Yaxşısı budur, özün onun yanına get.

Bəlğ acıqlansa da, əkin yerində işləyən Bağının yanına getməyə məcbur olur.

Böyük bir ağacın kölgəsində oturub çörək yeyən Bağının süfrəsində bir kəndin camaatını doyuran ərzaq var idi. Bunu görən Bəlğ acığını gizlədə bilmir. O, soruşur:

- Bağı sənsən?

Qonağa hörmət əlaməti olaraq ayağa qalxan Bağı gülə-gülə deyir:

- Niyə bu qədər acıqlısan? Bəlkə xətrinə dəyən var? Atdan düş, mənimlə bir loxma çörək ye, sonra dərdini danış.

Bəlğ pəhləvan çarəsiz halda atdan düşür. O, süfrəyə yaxınlaşır və yeməyə başlayır.

Yeməkdən sonra Bağı qonağa müraciət edir:

- İndi de görüm, kimsən, haradan gəlib haraya gedirsən?

Qonaq özünün Fətəli xanın pəhləvanı olduğunu bildirir:

- Xan səni görmək istəyir, gərək mənimlə gedəsən.

Bağı gülümsəyir:

- Əgər bu gün yeri şumlayıb qurtarmasam, sabah toxum səpə bilməyəcəyəm. Xanın yanına getməyimi istəyirsənsə, mənə kömək et.

O, əlindəki beli Bəlğ pəhləvana göstərir və yarımçıq işini davam etdirməyə girişir.

Bağı əkin yerinin bu başından o başına kimi iki dəfə gedib gəlmişdi, amma Bəlğ hələ yerindən tərpənməmişdi. O, Bağının yerə sancdığı beli heç cür çıxara bilmirdi. Bunu görən köhnəxudatlı pəhləvan beli Bəlğ qarışıq qaldırıb deyir:

- Daha nə edim? Sən mənə kömək etmədin, mən də Qubaya gedə bilməyəcəyəm.

Bəlğ pəhləvan kor-peşman geri qayıdır.

## “ИРИД СТХАДИН” ПIИР

КцIарин ирид хуьре “Ирид стха” тIвар ганвай пIирер ава. Абурукай Зинданмуругъ хуьре авай пIирел ара датIана инсанар къведа.

Дегь чIавара Зинданмуругъ хуьруьн мублагь чилерин, нехиррин, рамагрин иеси тир ирид стхадин суракьар вириниз чкIанвай. Аялзамаз дидени буба кьена етим амукьай ирид стхадикай кьегьалар хьанвай. Душманди басрух гайила яргъалди адан хура акъвазун патал хуьруьнбуру кIеледиз хъенчIин гунгаррив яд гъанай, кIеледиз чинебан рехъ акъуднай. Гадаяр нубатдалди кIеледин къаравулда акъваздай. Чпин авай-авачир са вахан хатур хадачир абуру. Хуьре гадаяр пара авайтIани, рушан рикI садавайни рамиз жезвачир.

Садра руш булахдал фейила адал са къари дуьшуьш хьана. Ам кIвализ гъана, чан-рикI авуна, фу-къафун гана рекье хтуна руша. Къариди фин-хтунрин ара атIанач. Гьар гьилера ада са кьегьал гададикай ихтилатдай. Гьа икI, рушан рикIе муьгьуьббатдин цIай куькIвена. Садра рушаз булахдал къариди лагьай гада акуна. Абуру ихтилатарна, гъуцариз икрамзавай рушани хачуниз икрамзавай гадади кIанивилин икьрар кутIунна.

Мад гьилера къари хтайла, гададиз ам кIанзавайди лагьана. Ингье руша адаз вичин стхаяр рази тежедайди малумарна. И гафарин ван хьайила къариди рушаз кIанидахъ галаз катун меслят акуна. Стхайри хабар такьадайвал къир цIурурна абурун турарин къакъариз цуз лагьана. Къариди лагьайвал авур руш пакамахъ гадад галаз катна. Тамай тIуз фена дередив агакьайла, мурад кьилиз акъатай гадади ”Вичин хайи стхаяр маса гайидаз, чарадан хвани кIан жеч!” лагьана гьилевай гапур рушан рикIиз сухна.

Вах гваз катна лагьай хабар агакьайла стхаяр фад балкIанрал акьахна. Абуруз рушан фите къавахдин хилел аруш хьанваз акуна. НикIин патав душманри абур юкьва турла стхайривай турар къакъарай акъудиз хьанач.

Хуьряй куьмек атайла стхаяр ивиди тухванвай. Дишегьлийрин шувандин ванци дагълар юзурнай. Эл кIватI хьайи и чкадин тIвар гьа чIавалай “Шуван” тIул яз ама. Руш кьейи кIамуз лагьайтIа, элди “ЧIулав кIам” тIвар гана. Стхаяр къарагъаждин тарцин кIаник кучукна, аниз “Ирид стхадин пIир” лагьана. Вахан сур рекьел эгъуьнна, тIуш гуз, негьна элди.

## “YEDDİ QARDAŞ” PİRİ

Qusarın yeddi kəndində “Yeddi qardaş” adlı pirlər var. Onlardan biri Zindanmuruq kəndindədir. Onun ziyarətinə ilin bütün fəsillərində insanlar gəlir.

Qədim zamanlarda Zindanmuruq kəndinin bərəkətli torpaqları, at ilxıları, qoyun sürüləri yeddi qardaşın zəhmətindən və şücaətindən xəbər verirdi. Uşaqlıqdan ata-analarını itirmiş yeddi qardaşdan yeddi igid olmuşdu. Düşmən hücumlarına davam gətirmək üçün qardaşlar qalanın içinə saxsı borularla su çəkmiş, qaladan çölə çıxmaq üçün gizlin yol açmışdılar. Növbə ilə qalanın keşiyini çəkirdilər. Onların bir bacısı da var idi. Kənd cavanlarından heç biri bu gözəl qızın ürəyini ram edə bilməmişdi.



Bir dəfə bulağa gedən qız bir qarı ilə rastlaşır. Onu evə gətirib, çay-çörək verir, mehribanlıqla yola salır. O vaxtdan qarı tez-tez onlara gəlib-gedir. O, hər dəfə qıza bir igid haqqında söhbət edirdi. Bir dəfə qız bulaq başında qarının nişan verdiyi oğlanı görür. Xaçpərəst oğlanla ğuts dinindən olan qız bir-birinə aşiq olur, əhd-peyman bağlayırlar.

Növbəti dəfə qarı qıza oğlana ərə getməyi məsləhət görür. Lakin qız qardaşlarının bu izdivaca razı olmayacağını deyir. Belə olduqda qarı ona sevgilisi ilə qaçmağı məsləhət görür. Qardaşlarının silah işlətməməsi üçün xəncərlərinin qınına əridilmiş qır doldurmağı təklif edir. Qız məsləhətə qulaq asır və səhər tezdən oğlana qoşulub qaçır. Dərin bir dərəyə çatanda kamına çatmış oğlan qıza deyir: “Öz doğma qardaşlarının qədrini bilməyən sabah məni də istəməz.” Qız qəbahətini anlayır, lakin artıq gec idi. Oğlan əlindəki xəncəri onun ürəyinə sancır.

Bacılarının qaçdığını eşidən qardaşlar atlarına minib onların izinə düşürlər. Onlar bulaq başında qovaq ağacına ilişib qalmış örpəyi görürlər. Elə burada düşmənlər qardaşları mühasirəyə alırlar. Düşmənlə döyüşmək üçün əllərini silaha uzadan qardaşlar xəncərlərini qından çıxara bilmirlər. Kənddən kömək gəlib çatanda qardaşlar qan içində idilər. Qadınlar bu səhnəni görüb elə şivən qoparırlar ki, səsdən dağlar titrəyir. Elin yığışdığı həmin talanın adı bu günə qədər “Şuvan” (Şivən) qalıb. Qızın öldüyü dərəyə isə el “Qara dərə” adını verib. Qardaşları orada böyük qarağacın kölgəsində basdırırlar və ona “Yeddi qardaş piri” adını verirlər. Qızın qəbrini isə yol kənarında qazırlar ki, ötüb gedənlər onu tapdalayıb lənətləsinlər.

## ПИРАЛВИ ПАГЪЛИВАН

Пиралрин хуьре XIX виш йисан эхирра Гуьлагьмед лугъудай са пагъливан авай. Садра яцран арабадив кIарасар гъиз тамуз фейи гададин яцарикай сад квахьнай ва ам вич викиник гьахьнай. Хуьруьнбурун мягьтелвал акуначиртIа, ада вичихъ зурба къуват авайди байихдачир жеди.

Гуьгъуьнлай гадади Яламадин ватагайрал кIвалахнай. Садра чил цIийиз гъуьляй акъудайла абурув са шумуд кас агатнай. Сада майдандилай цIар ягъиз лагьанай: “Куь кьула пагъливан аватIа, захъ галаз кьуршахар кьаз экъечIрай. Садни экъечI тавуртIа, балугъар чиди я”.

“Пагъливанвилин иниз вуч талукьвал ава? Балугъар фялейрин ризкьи я”, - лагьана Гуьлагьмеда виридан эвездай жаваб ганай.

Пагъливанди ягьанатна гададин шалвардин кек ялнай. ЦIуру шалвар гьасятда гватнай ва гададин кьецIил якIар акунай.

Вичихъ хъел акатай Гуьлагьмеда са легьзеда пагъливан чилел гьалчнай. КIват хьанвайбуру адаз капар янай. Атайбур сиви чуькь тавуна хъфенай.

И вакъиадилай пуд югъ алатайла гьа ксари ватагадай ялгъуздиз Яламадиз хъфизвай Гуьлагьмедан рехъ атIанай. Са шумуд кас садал гьавалат хьанай. Ингье абур ивидалди авуна, гада секиндаказ кIвализ хъфенай. Дуьшуьшдай хуьруьнбурукай садаз адан гьунар вилералди акуначиртIа, и кардикай садани хабар кьадачир. Вучиз лагьайтIа Гуьлагьмед тIимил рахадай, инсанрив агат тийидай кас тир.

## МИСКIИН ЧУКIУРАЙ КЬИСА

Вурварин хуьре алатай асирдин 70-йисаралди кардик квай мискIин халкьдин рикI алай пак чка тир. Яргъал йисара мискIинда фекьивал авур Зуьлфали буба неинки хайи хуьруьз, гьакIни районддиз тIвар-ван авай агъсакъал, дерин чирвилер авай кас хьиз сейли хьанай. Зуьлфали Азизан хва Мегьеров бегдин несилдай тирвиляй Совет гьукуматди адан аксина репрессийриз башламишнай. ИкI хьайила ада вичин мал-девлет, чилер гуьгъуьллудаказ цIийи гьукуматдив вугана, ругуд хвани кьве руш чIехи жезвай хизан саламатдиз хвенай.

Вичин уьмуьр ибадатдив, Къуръан кIелна зикр авунив акъудзавай агъсакъалди инсанрин рикIера имандин тумар цазвай. Ада хуьруьнбуруз гьахъсузвилерикай яргъал хьунин, хъсанвилерихъ гелкъуьнин рекьер чирзавай.

## PİRALLI PƏHLƏVAN

Piral kəndində XIX əsrin sonlarında Güləhməd adlı bir pəhləvan yaşayırdı. Bir dəfə öküz arabası ilə meşəyə odun gətirməyə gedən oğlan qayıdanda görür ki, öküzlərdən biri yoxdur. Belə olduqda özü boyunduruğa girib arabanı kəndə gətirir. Kənd camaatının heyrətli baxışlarını görməsəydi, o, özünün qeyri-adi gücə malik olduğunun fərqinə varmazdı.

Sonralar o, Yalamanın vətəgələrində işləyir. Bir dəfə balıqçılar yenicə toru sahilə çıxarmışdılar ki, vətəgəyə bir dəstə adam gəlir. Onlardan biri meydan sulamağa başlayır: “Aranızda pəhləvan varsa, qabağa çıxsın, yoxsa balıqlar bizimdir”.

“Pəhləvanlığın bura nə dəxli var, bu balıqlar fəhlələrin ruzisidir”, - deyə Güləhməd hamının əvəzində cavab verir. Lakin pəhləvan onun sözlərinə məhəl qoymayıb, Güləhmədin şalvarının balağını dartır. Köhnə şalvar cırılır, kişinin baldırı görünür. Hirslənən Güləhməd bir göz qırpımında “pəhləvan”ı yerə çırpır. Bunu elə məharətlə edir ki, ətrafdakılar əl çalırlar. Pərt olmuş qonaqlar heç nə deməyib, gəldikləri kimi də gedirlər.

Bu hadisədən bir neçə gün sonra axşamüstü vətəgədən təkbaşına Yalamaya qayıdan Güləhmədi yenə həmin adamlar əhatə edir, onun dərsini vermək üçün yumruqlarını işə salırlar. Qeyri-bərabər döyüşdə kişilər Güləhməddən paylarını alırlar. Onları şil-küt edib evinə qayıdan oğlanın hünərindən təsadüfən buradan keçən həmyerlisi xəbər tutmasaydı, azdanışan və adamayovuşmaz Güləhməddən çətin ki, bir söz çıxardı.

## MƏSCİD NECƏ UÇURULDU

Urva kəndində ötən əsrin 70-ci illərinə kimi fəaliyyət göstərmiş məscidin yaxşı ənənələri var idi. O, insanların güvənc yeri idi. Uzun illər məscidin mollası olmuş Zülfəli baba isə nəinki kəndin, həmçinin rayonun adlı-sanlı ağsaqqallarından sayılırdı. Savadlı və rəhmli insan kimi tanınan Zülfəli Əziz oğlu Məhərov bəy nəslindən olduğuna görə Sovet hökuməti qurulanda ona qarşı repressiyalara başlandı. Belə olduqda o, var-dövlətini, torpaq sahələrini könüllü şəkildə təhvil verdi, əvəzində altı oğlan və iki qız böyüyən ailəsinə toxunulmazlıq istədi.

Ömrünü ibadətlə, Quran oxuyub zikr etməklə keçirən Zülfəli baba insanların ürəyində Allaha sevgi toxumu cücərdir, onları haqsız işlər görməkdən yayındırır, xeyirxah işlərə istiqamətləndirirdi.

Onun kənddəki nüfuzuna qısqanan bəzi adamlar

Адан жемятдин арада авай нуфуздикай кичIе хьайи вилик-кьилик квай ксари эхирни мискIин чукIурун къетIнай. 1971-йисуз и кар кьилиз акъудун патал райондин меркездай везифалу ксар атанай.

- Куьне вуч ийизвайди я? Аллагьдин кIвал чукIурун чIехи гунагь я, - лугьуз Зуьлфали буба абурун вилик экъечIнай. Ингъе адан гафарихъ садани яб акалначир. МискIин чукIурун патал са касни мукьув агатначир. Эхирни эрекь хъунал рикI алай тракторист Себзалидив и кар кьилиз акъудиз тунай.



*Зуьлфали буба*
*Zülfəli baba*

Экуьнахъ хуьруьз хабар чкIанай:

- Себзали фалужди ягъанва!

Гъа чIавалай хуьре ихьтин мисал ава: “Гъахъсуз кар мийир, тахьайтIа вунни Себзалидин йикъа гьатда”.

Зуьлфали бубади ва адан папа Сейлиди 100 йис уьмуьр гьална. Агъсакъал мискIин чукIурай са йисалай дуьньядилай куьч хьана. Адавай рекьидалди и гьахъсузвал рикIелай алудиз хьаначир лугьуда хуьруьнбуру.

məscidin uçurulmasını məsləhət görərək buna nail olurlar. 1971-ci ildə bu işin icrası üçün rayon mərkəzindən kəndə bir dəstə vəzifəli şəxs gəlir.

- Siz nə edirsiniz? Allah evini uçurmaq böyük günahdır, - deyə Zülfəli baba onları fikrindən yayındırmaq istəyir. Lakin ağsaqqalın sözlərinə məhəl qoymurlar.

Binanı uçurmaqdan ötrü onlar neçə adama ağız açırlarsa, qorxudan bir kimsə yaxın düşmür. Nəhayət, içki düşkünü kimi ad çıxarmış traktorçu Səbzəlini bu işə təhrik edirlər. Kənd adamlarının etirazına baxmayaraq, məscid sökülür.

Ertəsi gün səhər tezdən kəndə xəbər yayılır:

- Səbzəli iflic olub!

O vaxtdan kənddə misal gəzir: “Haqsız iş görmə, yoxsa Səbzəlinin gününə düşərsən”.

Zülfəli baba və arvadı Seyli 100 il ömür sürürlər. Zülfəli baba məscid uçurulandan bir il sonra dünyadan köçür. Həyatda çox haqsızlıqlar görmüş ağsaqqal bu hadisənii heç cür unuda bilmirmiş.

## ЯРГУНДАЛ МЕХЪЕР

Алим, шаир ва генерал Аббаскъулу агъа Бакиханован стха майор Жаферкъулу агъа 1829-йисан гатфариз лезгийрин машгьур къагьриман, яргунви Ханбутай бегдин руш Чимназал ашукь хьанай. Урусатдинни Ирандин дяведа кьегьалвилер къалурай, вич “Святая Анна” ордендиз лайихлу хьайи, Дагъустандин кьушунрин командан генерал М.З.Аргутинскийдихъ галаз санал Яргундал атай Жаферкъулу агъа Чимназахъ галаз таниш хьанай.

Ставрополда кIелай Чимназ алакьунар авай руш тир. Хайи хуьр абад авун патал ада гзаф алахъунар ийизвай. Жаферкъулу агъади рушаз вичин рикI ахъайила, Чимназа гададин вилик пуд шартI эцигнай: лезги чIал чирун, хуьруьн рехъ гуьнгуьна хтун ва хуьруьн медресадиз куьмек гун.

Сад лагьай шартI четинди тушир. Яргъал йисара Дагъустанда къуллугъзавай Жаферкъулу агъадиз лезги чIал хъсандиз чизвай. Кьвед лагьай шартI кьилиз акъудун четин тир: гададихъ пулар авачир. И рекьяй Чимназа адаз куьмекна. Бубадин девлетдикай вичел гьалтзавай 40 балкIан ва кьве суьруь хпер маса гана, рехъ гуьнгуьна хутаз туна. Пуд лагьай шартI кьилиз акъудун патал генерал М.З.Аргутинскийди гададиз куьмекдин гьил яргъи авуна.

## HƏZRƏDƏ TOY

Bu hadisə 1829-cu ilin yazında baş vermişdir. Rus-İran müharibəsində böyük qəhrəmanlıqlar göstərmiş, “Müqəddəs Anna” ordeninə layiq görülmüş Cəfərqulu ağa (alim, şair və general Abbasqulu ağa Bakıxanovun qardaşı) Dağıstan qoşunlarının komandanı general M.Z.Arqutinski ilə birlikdə Həzrəyə qonaq gəlmişdi. Burada o, məşhur ləzgi qəhrəmanı və maarifçisi, görkəmli xeyriyyəçi olan həzrəli Xanbutay bəyin evində onun qızı Çimnazı görür və ona ürəkdən vurulur.

Stavropolda təhsil almış bu bacarıqlı qız gözəlliyi və savadı ilə seçilirdi. Onun doğma kəndini abadlaşdırmaq üçün gördüyü işlər qıza kənddə böyük hörmət qazandırmışdı. Cəfərqulu ağa ona ürəyini açanda Çimnaz oğlanın qarşısında üç şərt qoyur: o, ləzgi dilini öyrənməli, kənd yolunu abadlaşdırmalı və kəndin mədrəsəsinə maddi cəhətdən kömək etməlidir.

Birinci şərt çətin deyildi, çünki uzun illər Dağıstanda qulluq edən Cəfərqulu ağa ləzgi dilini yaxşı bilirdi. İkinci şərti yerinə yetirmək çətin idi, çünki oğlanın pulu yox idi. Bu sahədə Çimnaz ona kömək göstərdi. Atasının dövlətindən ona pay düşən 40 atı və 2 sürü qoyunu satıb kənd yolunu qaydaya saldırdı. Üçüncü şərti yerinə yetirməkdə isə gəncə general M.Z.Ar-

Жегьилар мехъерардай фикирдал атана. Жаферкъулу агъади Тифлисда кІвалахзавай вичин чІехи стха Аббаскъулу агъадиз хабар ракъурна. А.Бакиханова а вахтунда Къубада авай вичин папаз Секинедиз ихьтин чар кхьенай: “...Стха Жаферкъулудин хийирдин кІвалах зи рикІяй я. За жуван разивал гузва. КІантІа хандин, кІантІа бегдин, кІантІа са маса касдин руш хьурай, вичиз кІанивал авурай. Куьнени адаз жедайвал куьмек це. Захъ пул авайтІа, и хийир кІвалах патал ракъурдай. Анжах авач. Жуван шаларикай сад сусаз це.”

ГьакІни хьана. Секинеди мехъерин юкъуз Чимназан къуьнерал иер са шал вегьена. Ханбутай бегдин дидеди цІийи сусан къужахда кьилел бармак алай кьве гада аял ацукьарна. Аллагьди Чимназаз пуд велед гана - кьве гадани са руш. Жаферкъулу агъа Бакиханова 1853-йисуз полковниквилин, гуьгъуьнлай генерал-майорвилин чин къачуна. Адан рухвайри бубадин рехъ давамарна. Гьасан генерал-майорвилин, Агьмед полковниквилин дережадив агакьна. Нуржагьана вичин дидеди хьиз кІелна, халкьдиз къуллугъ авуна.

## КАСДИН ГАФ

Азербайжандин сейли художник, вич Дагъустандин Ахцегь райондин Чепер хуьряй тир Дарвин Велибегован чІехи буба Вилибег Дагъустандиз ва Азербайжандиз машгьур лезги карчи тир. Адахъ Набрандин тамара чІехи карханаяр авай. И савадлу, зегьметдал рикІ алай, хъсанвилерихъ ялдай, шаирдин рикІ авай касдин Чепердал алай чІехи дарамат халисан сенятдин эсер тир.



Адан ракІарин къаншардал кьве чІехи аждагьандин гуьмбет алай, къен ва къеце пад къиметлу натюрмортралди, декорацийралди, марагьлу витражралди, айнадин сталактитралди туькІуьрнавай кІвализ килигиз XIX виш йисан эхирра Дагъустандин чилерал атай сиягьатчияр, алимар, къелемэгьлияр къведай. Вилибег вичихъ шаирвилин тІебиат, художниквилин алакьунар авай, гьахъ вине кьадай инсафлу ва нуфузлу кас тир.

Вилибеганни Азербайжандин сейли миллионер Гьажи Зейналабдин Тагъиеван арада яргъал йисаралди давам хьайи дуствилихъ марагълу тарих ава. Садра дуьшуьшдай Гь.З.Тагъиев Вилибеган Набранда авай кьуларин карханадиз къведа ва вичиз инай

qutinski kömək etdi.

Şərtlər yerinə yetiriləndə gənclər evlənmək qərarına gəlirlər. Cəfərqulu ağa Tiflisdəki böyük qardaşı Abbasqulu ağaya qərarını bildirir. Qardaşının sevincinə şərik çıxan Abbasqulu ağa Bakıxanov isə bu vaxt Qubada olan arvadı Səkinə xanıma belə bir məktub göndərir. “...Qardaşım Cəfərqulunun xeyir işi ürəyimcədir. Mən razılığımı verirəm. İstər xanın, istər bəyin, istərsə də başqa adamın qızı olsun, özü istədiyi olsun. Siz də ona bacardığınız köməyi edin. Pulum olsaydı, bu xeyir işdən ötrü göndərərdim. Lakin yoxdur. Öz şallarından birini gəlinə bağışla.”

Səkinə xanım belə də edir. O, Qubadan Qusara yola düşür, toy günü Çimnaza bahalı bir şal bağışlayır. Xanbutay bəyin anası isə təzə gəlinin qucağında iki oğlan uşağı oturdur. Allah da Çimnaza üç övlad qismət edir - iki oğlan və bir qız.

Cəfərqulu ağa Bakıxanov 1853-cü ildə polkovnik, sonradan isə general-mayor rütbəsini alır. Onun oğlanları da atalarının yolunu davam etdirirlər. Həsən general-mayor, Əhməd polkovnik rütbəsinə layiq görülür. Nurcahan isə anası kimi oxuyub, xalqına xidmət edir.

## KİŞİ SÖZÜ

Azərbaycanın adlı-sanlı rəssamı, əslən Dağıstanın Axtı rayonunun Çeper kəndindən olan Darvin Vəlibəyovun babası, məşhur ləzgi sənayeçisi Vilibəyin Nabran meşələrində böyük istehsal sahələri var idi. Bu savadlı və işgüzar adam böyük nüfuz sahibi kimi həm Dağıstanda, həm də Azərbaycanda tanınırdı. O, Qafqaza Avropa meyarları gətirmiş yeni iş adamlarından biri kimi nüfuz qazanmışdı.

Onun Çeper kəndindəki ikimərtəbəli imarəti əsl sənət əsəri idi. Qapısında iki nəhəng əjdaha heykəli qoyulmuş, çölü və içərisi qiymətli natürmortlarla, dekorasiyalarla, maraqlı vitrajlarla bəzədilmiş, güzgülü stalaktitləri uzaqdan göz oxşayan bu evin tamaşasına XIX əsrin sonlarında Dağıstanda olmuş onlarca alim, səyahətçi, iş adamı gəlmişdi. Evin sahibi Vilibəy şair təbiətli, rəssam xislətli, haqqı və ədaləti uca tutan adam idi.

Onun və Azərbaycanın məşhur milyonçusu H.Z.Tağıyevin dostluğunun maraqlı tarixçəsi vardır.

Bir dəfə H.Z.Tağıyev onun taxta-şalban zavoduna gələrək, hazırlanmış inşaat materiallarını təcili satın almaq istədiyini bildirir. Lakin Vilibəy həmin materi-

гъазур кьулар къачуз кIанзавайди малумарда. Ингъе Вилибега абур са маса кас патал гъазурнавайди я лугьуда.

ИкI хьайила миллионерди адаз кьведра артух пул теклифда. Вилибега им мумкин туширди, вичи касдиз гаф ганвайди тикрарда. Гьажи Зейналабдина вич вуж кас ятIа чирда ва Вилибегаз вадра артух пул теклифда. Вилибега и гьилера кьетIидиз лугьуда: "Завай касдиз гайи гаф чIуриз жедач". Гь.З.Тагъиев мад са гафни талана хъфида.

Муькуь юкъуз вичин файтонда аваз Набрандиз хтай миллионерди Вилибегав са чар вугуда. "Им вуч я, Гьажи?" - лагьана хабар кьада Вилибега. "Ви къуншидал алай тамун документ я, им заз вичин гафни кар сад тир халисан хозейиндиз пишкеш ийиз кIанзава" лагьана ада ордер Вилибегав вугуда.

Гьа чIавалай абурун арада башламишай дуствал 1924-йисалди давам хьанай. Миллионер рагьметдиз фейила, Вилибег Сибирдиз суьргуьн авунай ва ада гьана вичин дуьнья дегишарнай. Адан тахсиррикай садни "миллионердихъ галаз дуствал авун" тир.

## МИТЕДИЗ КЬУР ГЬАД

Советар къведалди Мите Мегьсинан хва Къайинбегов Хьилерин хуьруьн юзбаши тир. 46 кьил хизан - Митедин, адан кьве стха Къайинбеганни Алидин хизанар санал са чIехи кIвале яшамиш жезвай. Митедин пуд папа 19 аял дуьньядиз гъанвай. Вичихъ гзаф мал-девлет авай, кесибрихъ рикI кудай, абуруз куьмек гудай кас тир лугьуда Мите.

1908-йисуз хьиливияр мискIин эцигдай икьрардал атана, и ниятдалди пул кIватIайла эцигунриз Митеди регьбервал ганай. Хуьруьнбуру мелер ийиз и кар кьилиз акъуднай. 1912-йисан мискIин кардик кутур югъ сувариз элкъвенай.



1933-йисуз Митедихъ "кулак"дин тIвар гилигна кьурла, адан тахсиркарвилерин сиягьда "мискIин эцигиз тунни" авай. 1937-йисуз дустагъдай акъатай кас са йисалай кьун хъувунай ва гуьлле гана кьенай.

Ватандин ЧIехи дяве къарагъайла Мите Къайинбегован 11 веледдикай 8-да - Жалала, Хейруллагъа, Мухтара, Садира, Къембера, Эдиналиди, Седреддина ва Бейкаса женгера иштиракнай. Абурукай Жалални Хейруллагь гьелек хьанай, амайбур саламатдиз кIвализ хтанай.

alların başqa bir adamın sifarişi ilə hazırlandığını deyir. Hacı Zeynalabdin sahibkara ikiqat zəhmət haqqı təklif edir. Lakin Vilibəy bunun mümkün olmadığını, sifarişçiyə verdiyi sözü yerə sala bilməyəcəyini etiraf edir. Belə olduqda milyonçu özünü təqdim edir və ona beşqat dəyərində mükafat verəcəyini vəd etdikdə, sənayeçi qonağa qətiyyətlə deyir: "Mən kişi sözü vermişəm, onu dəyişə bilmərəm!"

H.Z.Tağıyev daha heç nə deməyib çıxıb gedir. Ertəsi gün faytonunda Nabrana gələn milyonçu Vilibəyə bir sənəd uzadır. "Bu nədir, Hacı?" - deyə Vilibəy ondan soruşur. Bunun qonşuluqdakı meşə sahəsinin sənədi olduğunu bildirən hacı onu sözü ilə işi bir olan əsl sahibkara bağışlamaq istədiyini söyləyib sənədi ona verir.

Həmin gündən onların arasında başlanan dostluq münasibətləri 1924-cü ilə kimi davam edir. Milyonçu vəfat etdikdən sonra Vilibəy var-dövləti müsadirə olunaraq, Sibirə sürgün edilir və orada vəfat edir. Ona qarşı irəli sürülmüş ittihamlardan biri "milyonçu ilə dostluq etməsi" idi.

## MİTƏYƏ ÇƏKİLƏN DAĞ

Sovet hökuməti qurulana kimi Mitə Məhsin oğlu Qayınbəyov Hil kəndinin yüzbaşısı idi. O vaxt 46 baş ailə - Mitənin, qardaşları Qayınbəy və Əlinin ailələri böyük evdə, bir damın altında yaşayırdı. Mitənin üç arvadı 19 uşaq dünyaya gətirmişdi. Mitə rəhmli və kasıblara ürəyi yanan adam idi.

1908-ci ildə kənd camaatı məscid tikmək üçün pul yığıb inşaat işlərinə rəhbərlik etməyi Mitəyə etibar edir. Xalq iməcilikləri tikintini sürətləndirir. 1912-ci ildə məscid istifadəyə veriləndə bu hadisəni kənddə bayram kimi qeyd edirlər.

1933-cü ildə "qolçomaq" adı ilə tutulanda "məscidin tikintisinə rəhbərlik etməsini" də Mitənin təqsirlərindən biri kimi aktlaşdırırlar. 1937-ci ildə yenidən həbs olunan kişi bir ildən azadlığa buraxılır, amma bir neçə gündən sonra yenidən tutulub, güllələnir.

Böyük Vətən müharibəsi başlananda Mitə Qayınbəyovun 11 övladından 8-i - Cəlal, Xeyrulla, Muxtar, Sadir, Qəmbər, Edinali, Sədrəddin və Beykas döyüşlərdə iştirak etmişdir. Onlardan Cəlal və Xeyrullah həlak olmuş, qalanları sağ-salamat vətənə dönmüşlər.

## НЕК ПАЙДАЙ ГЬАЖИ

Суважалдай Гьажи Мегьамед ва Гьажи Аслан 200 йиис инлай вилик санал гьаждал фенай. И кьве кас чпин хийирлу краралди сейли тир. Иллаки Гьажи Мегьамедакай хуьруьнбуру къедалди марагълу ихтилатар ийизва. Гьар жуьмядин юкъуз ада хьрак фу чраз туна, арабада аваз рекьел тухудай ва инихъ-анихъ физвайбуруз пайдай лугьуда. 500 кьван хпер хуьзвай ада гьакIни гьар юкъуз кесибриз са квар нек пайдай.

## МИРЗЕМЕГЬАМЕД ХАЛУДИН ТАРС

Чпирдал Мирземегьамед халудиз кьван гафар чидай кьвед лагьай кас авач. Исятда вичин 90 яшар хьанвай Бекеров Мирземегьамед Мирземегьамедан хва дуьньядиз татанмаз адан буба, вич хайи са шумуд йикъалай диде рагьметдиз фенай. Ам Назани бадеди чIехи авунай. Гьар аял шехьайла къари булахдин рекьел акъатиз, цел фидай, хурудик аял квай сусаривай бицIекдиз нек гун тIалабиз жедай. Гьа икI, аялди 64 дишегьлидин нек хъванай. Адаз гафар пара чир хьунни гьа и кардихъ галаз алакъалу я лугьуда садбуру.

Дяве къарагъайла ам гьиле яракь кьуна ватан хуьз фенай ва вад йисалай хуьруьз хтанай. Вичин папахъ галаз санал 7 рушни са гада чIехи авур Мирземегьамед халу ширин ихтилатрал илигиз вири вичел гьейранардай, хуьруьнбурун рикI алай кас я.



Мирземегьамед халудин викIегьвилерикай марагълу ихтилатар ийида чпирвийри. Са кар лагьайтIа, виридан меце гьатна.

Хуьруьн магьлейрикай сада жегьилриз хам балкIан рам ийиз кIанзавай, амма гьайванди акьахай-акьахайди чилел вегьизвай. БалкIан маса къачунвай касни вучдатIа тийижиз амай. И кар вилералди акур Мирземегьамед халу балкIандив агатна. И чIавуз жегьилри "чавай тахьай кар и кьуьзека кьилиз акъуддай хьтинди я", - лагьана айгьамарна.

Ингье хъел акатай кьуьзека пурар авачиз вичин кIурт балкIандал вегьена, хкадарна адал акьахна. Кьулухъ кIвачерал хкаж хьана кас чилел гьалчиз кIанзавай балкIан рам жедалди ада зарпанд бушарнач. Эхирни гьекьни-каф хьайи балкIан галатна се-

## SÜD PAYLAYAN HACI

Suvacal kəndinin sakinləri Məhəmməd və Aslan 200 il əvvəl bir yerdə həccə ziyarətə gediblər. Bu iki adam xeyirxah əməlləri ilə tanınırdı. Ələlxüsüs Hacı Məhəmməd haqqında kənd əhalisi bu günə qədər maraqlı əhvalatlar danışır. Guya bu adam hər cümə günü evində bir tabaq çörək bişirtdirib arabaya qoyar, yola çıxıb gedib-gələnlərə paylayarmış. 500 qoyun saxlayan bu mömün hər gün səhənglə kasıblara süd paylayarmış.

## MİRZƏMƏHƏMMƏD DAYININ DƏRSİ

Cibir kəndində Mirzəməhəmməd dayı dilavər adam, söz sərrafı kimi məşhurdur. Onun qədər söz bilən, birnəfəsə 50-60 bayatını deyən başqa ağsaqqal tapmazsan. Yaşı 90-ı ötmüş Bəkərov Mirzəməhəmməd Mirzəməhəmməd oğlunun taleyi onun üzünə gülməyib. Hələ dünyaya gəlməmiş atası, o doğulandan üç gün sonra isə anası vəfat edib. Uşağı nənəsi Nazani böyüdüb. Hər dəfə uşaq ağlayanda qarı onu bulaq başına aparıb əmizdirmək üçün südəmər uşağı olan gəlinlərə verərmiş. Beləliklə, uşaq 64 ananın südü ilə böyüyür. Mirzəməhəmməd dayının saysız-hesabsız bayatı deməsinin sirri də elə bundadır, deyirlər. Onun sinəsi xalq yaradıcılığı bulağıdır.

Böyük Vətən müharibəsində iştirak edib qəhrəmanlıqlar göstərmiş, odun-alovun içindən sağ-salamat qayıtmış Mirzəməhəmməd 7 övlad atasıdır. Ağsaqqal özünün şirin söhbətləri, məzəli zarafatları ilə kənd camaatının dərin hörmətini qazanmışdır.

Mirzəməhəmməd dayının qoçaqlıqları ilə bağlı kənddə çoxlu əhvalatlar danışırlar. Bir əhvalat isə kənd camaatının dilində dolaşır. Kəndin məhəllələrindən birində bir neçə cavan bir xam atı ram etmək üçün qan-tərə batmışdı. At, belinə minənləri yerə çırpır, heç cür sakitləşə bilmirdi. Mirzəməhəmməd dayı xam atı ram edə bilməyən cavanlara məsləhət vermək istəyir. Lakin cavanlar qocanı məsxərəyə qoyurlar.

Belə olduqda Mirzəməhəmməd dayı əynindəki gödəkcəni atın üstünə atıb bir göz qırpımında kəhərin belinə atılır. At onu yerə atmaq üçün nə qədər şahə qalxsa da, qoca inadından dönmür. Nəhayət, qan-tər

кин хьана. Мирземегьамед халуди балкIандилай эвичIна зарпанд гадайрив вугана, куьтIни тавуна вичин рехъ давамарна. Жегьилар регъуьла вучдатIа тийижиз амукьна.

Мирземегьамед халудиз гзаф манияр чида. Булахдай яд авахьдайвал кIвахьда адан хурай манияр. Вичини акьван хъсандиз, акьван рикI алаз лугьуда хьи... Гзаф манияр кIаниди кьисмет тахьай жегьилдин дердийрикай я. Гьам вич хьиз жеди ваз яб гайила. Эхь, вичин дердийрикай я и манияр. Жегьил чIавуз кIаниди кьисмет хьаначир лугьуда адаз.

içində olan at yorulub sakitləşəndə qoca yerə düşür, atın yüyənini cavanlara verib heç nə demədən məhəllədən uzaqlaşır. Pərt olmuş cavanlar utandıqlarından deməyə söz tapmırlar.

Mirzəməhəmməd dayı yüzlərlə ləzgi mahnısı və bayatılarını bilir. Onun sinəsindən bayatılar bulaqdan su necə axırsa, o cür süzülür. Onları elə gözəl deyir ki, adam heyran olur. Bayatıların əksəriyyəti istəkli yarına yetməyən nakam gənc haqqındadır. Deyirlər öz həyatı haqqındadır onlar. Axı, o da gəncliyində kama yetməyib.

## МИРЗЕКЪУЛИЕВАР СЕЙЛИ СИХИЛ ТИР

Вири дуьньядиз сейли тир, "Азербайжанфильм" студияди чIугунвай "Ам тахьурай, им хьурай" фильмдин кьилин къагьриман Серверан ролда КцIар райондин КIуррин хуьряй тир Ариф Теюбан хва Мирзекъулиев къугъвазвай. "Гуьруьш" фильмда Камил ролни Арифа тамамарнай. Са шумуд фильмда кьилин ролара къугъвай и иер акунар авай гада вичин уьмуьрдин жегьил вахтунда рагьметдиз фена.

## MİRZƏQULİYEVLƏR MƏŞHUR NƏSL İDİ

Bütün dünyada məşhur olan, "Azərbaycanfilm" studiyasının istehsal etdiyi "O olmasın, bu olsun" filminin baş qəhrəmanı Sərvər rolunda əslən Qusar rayonunun Ukur kəndindən olan Arif Teyyub oğlu Mirzəquliyev çəkilmişdir. "Görüş" filmindəki Kamil rolu da Arifə məxsusdur. Bir neçə filmdə baş rolda və ikinci dərəcəli rollarda çəkilmiş bu yaraşıqlı və istedadlı gənc yaradıcılığının çiçəkləndiyi bir vaxtda dünyasını dəyişmişdir.



Мирзекъулиевар КIур хуьре яшамиш хьанай. Агьмед Мирзекъулиевахъ Дербентда вичин туьквенар авай. Совет гьукумат туькIуьр хьайила Агьмеда абур гьукуматдив вахгана Азербайжандиз хтанай, Ялама станцияда алишверишдив машгъул хьанай. Адан 4 хци ва 3 руша КIуррин мектебда кIелнай.

Абурукай Юсуф вичин буба хьиз савдагар хьанай. Адан 4 гададини са руша институтар акьалтIарнай. Теюба Бакудин 4-нумрадин азарханада кафедрадиз, Ватандин ЧIехи дяведин йисара лагьайтIа, "Лечкомиссия" азарханадиз регьбервал ганай. Гуьгъуьнлай актер хьайи Ариф Теюбан хва я. Арифа сифте Москвада Гьукуматдин Консерватория, гуьгъуьнлай Азербайжандин Гьукуматдин Медицинадин Институт акьалтIарна духтурвиле кIва-

Mirzəquliyevlər Ukur kəndinin adlı-sanlı nəsillərindəndir. Çar Rusiyası dövründə Əhməd Mirzəquliyevin Dərbənddə mağazaları olmuşdur. Sovet hakimiyyəti qurulanda o, Dağıstandakı mağazalarını dövlətə təhvil verib Azərbaycana qayıtmış, Yalama stansiyasında ticarətlə məşğul olmuşdur. Onun dörd oğlu və üç qızı orta təhsillərini Ukurda almışlar.

Yusuf atası kimi ticarətlə məşğul olmuş, Qubada, Qusarda və Yalamada işləmişdir. Onun 4 oğlu və 1 qızı olmuşdur. Teyyub həkim idi, o, Bakıdakı 4 saylı xəstəxananın əsəb xəstəlikləri kafedrasının müdiri olmuş, Böyük Vətən müharibəsi illərində "Leçkomissiya"ya rəhbərlik etmişdir. Onun bir oğlu və bir qızı olmuşdur.

Arif Teyyub oğlu Moskva Dövlət Konservatoriyasını bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitu-

лахнай. Теюбан руша Диларадини Бакуда Консерватория акьалтIарнай, алай вахтунда ам Германияда яшамиш жезва.

Тагьир инкъилабчи хьанай, гьавиляй ам мусаватчийри яна кьенай. Ибрагьима Бакуда Азербайжандин Гьукуматдин Медицинадин Институт акьалтIарна, Ватандин ЧIехи дяведин женгера иштиракна, Къубада ва КцIара духтурвиле кIвалахнай. Салигьатни духтур тир, ада яргъал йисара Мердеканда вилерин духтурвиле кIвалахнай. Муьмината Бакуда, Бикеди Яламада муаллимвал авунай.

## ИСАКЬ БУБАДИН КIВАЛ

И кIвалин яшар 200 йисалай виниз я. Адан иесиди - Исакь бубади 107 йиса аваз вичин дуьнья дегишарна.

ГъвечIизмаз етим амукьай, халудин кIвале чIехи хьайи Исакь викIегь аял тир. Яргундай тIуз физвай карванриз рехъ къалуриз вичин кьил хуьзвай гадади са кьадар вахтундилай вичи къазанмишай пулдихъ данаяр къачуна. Абур хвена, куькарна маса гайи Исакьа гилан СДК алай чкадал чил къачуна дуьгуь цана. Жегьилди гьа йисуз лугьуз тежедай хьтин гад кIватIна. Берекатдин дад чир хьайи ада садакай вад авуна.



Са шумуд йисалай ам неинки хуьруьн, гьакIни Къуба патан девлетлу ва муьмин ксарикай сад хьиз вириниз сейли хьана. Меккедиз фена хтай Гьажи Исакь савадлу, регьимлу, фу гудай кас тир.

Зегьметчивал вичин чIехи хцив Къамбаявни ирс яз вуганай ада. Къамбай цIийивилерихъ, иервилерихъ ялдай итим тир. Ада бубадин кIвализ мукьва эцигиз тур кIвали и кар мад гъилера субутзавай. Чкадин устIарри лезги архитектурадив кьадайвал эцигай и кьве гьавадин кIвале 20-далай гзаф утагьар авай.

Кьиляй-кьилди нехишар атIана а девирдин архитектурадив кьадайвал тамамарнавай кIвал сенятдин эсердиз ухшар тир. Адан ракIарар, дакIарар, къав акьван иер тир хьи, адаз килигиз патан хуьрерайни инсанар къведай. КIвалин чIехи карда хуьруьн мехьерар кьиле тухудай. Гьаятда чIехи ланж, сала лагьайтIа, цIудралди сортарин цуьквер авай. КIвале Къамбаян хизан яшамиш жезвай. 4 хвани 4 руш чIехи авур Къамбайни вичин буба хьиз гьаждал фена хтанвай.

tunda ikinci təhsil alıb həkim işləmişdir. Teyyub Mirzəquliyevin qızı Dilarə Bakıda Konservatoriyanı bitirmişdir. Hazırda Almaniyada yaşayır.

Tahir Sovet hakimiyyətinin qurucularından biri kimi Dağıstanda fəal iş apardığına görə əksinqilabçılar tərəfindən qətlə yetirilmişdir. İbrahim Bakıda Tibb İnstitutunu bitirdikdən sonra Böyük Vətən müharibəsi cəbhələrində döyüşmüş, Qubada və Qusarda həkim işləmişdir. Salihat uzun illər Mərdəkanda göz həkimi, Muminat Bakıda, Bikə isə Yalamada müəllimlik etmişdir.

## İSAQ BABANIN EVİ

Bu evin 200 ildən çox yaşı var. Onun sahibi İsaq baba 107 yaşında dünyasını dəyişmişdir.

Uşaq ikən yetim qalmış, dayısının himayəsində böyümüş İsaq olduqca qoçaq oğlan idi. Zəhmətkeşliyi ilə uşaqlıqdan doğmalarının, kənd camaatının diqqətini cəlb edən, Həzrədən keçib gedən karvanlara bələdçilik edib gündəlik ruzisini qazanan İsaq bir qədər sonra qazandığı pulla buzovlar alır. Onları böyüdüb, satandan sonra qazandığı gəlirlə indiki SDK sahəsindən torpaq alıb düyü əkir. Həmin il bol məhsul götürür. Bərəkətin dadına bələd olan İsaq biri beş etməyi öyrənir.

Bir neçə il sonra o, nəinki doğma kəndinin, həmçinin Quba bölgəsinin dövlətli və mömün şəxslərindən birinə çevrilir. Məkkəni ziyarət edən Hacı İsaq geniş dünyagörüşlü, savadlı, rəhmli və çörəkverən adam kimi tanınır.

O, öz zəhmətkeşliyini oğluna da təlqin edir. Qambay yeniliyə can atan, gözəllik yaratmağı bacaran şair təbiətli adam idi. Onun ata evinə yaxın yerdə tikdirdiyi ikimərtəbəli, 20 otaqdan ibarət evin tərifi tezliklə hər yana yayılır.

Ləzgi memarlığı üslubunda tikilmiş bu ev əsl sənət əsəri idi. Onun qapıları, pəncərələri, damı incə naxışlarla işlənmişdi. Evin bağlı həyətində kəndin toyları keçirilirdi. Həyətdə böyük hovuz var idi, bağında isə onlarca növ çiçək yetişdirilirdi. Evdə Qambayın böyük ailəsi yaşayırdı. 4 qız və 4 oğlan böyütmüş Qambay da atası kimi həccə gedib qayıtmışdı.

Xoşbəxt ömür sürən bu ailənin rahatlığı Sovet hökuməti qurulan gündən pozulur. Evin sahibinə “qol-

Бахтавардиз уьмуьр гьалзавай хизандин регьятвал Совет гьукумат туькIуьр хьайи йикъалай квахьна. КIвалин иесийрал "кулакдин" тIвар илитIна абур анай акъудна. Бубадин кIвализ куьч хьайи хизандивай и кIвалерни вахчуна, абуруз кьве утагъдилай гъейри масабурукай менфят къачудай ихтияр ганач. Муькуь утагъар хуьруьн мектебдиз, гуьгъуьнлай клубдиз, са кьадар вахтундилай ктабханадиз элкъуьрна.

Гьажи Къамбай Астрахандиз суьргуьн авуна. Вич тахсирсуз тирди субутай ам эхирни ватандиз хтана. Вичин музейдиз ухшар кIвал са шумуд йисан къене харапIадиз элкъуьрнавайди, мал-девлет варазара авунвайди вилералди акур адавай и гьахъсузвилер эхиз хьанач. 60 яшинда аваз дуьньядилай фена кас. Хизандин, вичин бубадин кьилел атай мусибатар эхиз тахьай, хуьруьн тIвар-ван авай муаллимрикай тир адан хци Исакьани пуд инфарктдилай кьулухъ вичин дуьнья дегишарна.



*Гьажи Къамбай*
*Hacı Qambay*

Исакь бубадин кIвал лагьайтIа, алатай девиррин аманат хьиз ама. Исакь бубадин штул, хуьруьн духтур Акъил Исакьан хва Исакьов вичин хизандихъ галаз санал чIехи бубадин кIвале яшамиш жезва. Ина гьар са затI авайвал хвенва ада. Куьгьне къул, тавдин кIвал, утагърин такIар, цларал алай шикилар. И кIвал XVIII виш йисан архитектурадин гуьмбет яз гьисабзава.

## АГЬМЕДХАНАН ПIИР

КцIарин тIвар-ван авай пIирерикай сад Агьмедханан пIир я. XVIII виш йисуз яшамиш хьайи кьуд стха - Бедирхан, Агьмедхан, Жиловхан ва Регьимхан тIвар-ван авай несилдин веледар тир. Кьведра Меккеда хьайи Агьмедханаз аялар хьанач. Хийирлу краралди сейли тир и касдикай къедалди хуьре риваятар рахазва. Эвежугъа чIехи тутун багъ гьада кутунай лугьуда. Тут фан тар я лугьудай ада, а багъдиз рикIин сидкьидай къуллугъдай.

Садра мискIиндин къавал алай лифериз къван гузвай аялриз телегь-билегь ийидайла абуру кьуьзуьдан гафар кваз кьазвачир кьван. И чIавуз са лиф атана дуьз кьуьзуьдан гьапал ацукьда. Им акур аялар кичIела мискIиндин гъенелай катда.

Бедирхананни Агьмедханан сурар сад садан патав гва. Абур рагьметдиз фейила Жиловхана кьведан сурун кьилелни гуьмбет хкажна. Ингье Агьмед-

çomaq" adı verilərək, ailəsi ilə birlikdə öz halal evindən çıxarılır. Yenidən ata evinə köçmək məcburiyyətində qalan ailənin əlindən buradakı otaqlar da alınır, onlara yalnız iki otaqdan istifadə etməyə icazə verilir. Yerdə qalan otaqlar məktəbin, sonralar klubun, daha sonralar isə kitabxananın ixtiyarına verilir.

Bütün bunlar az imiş kimi Hacı Qambay Həştərxana sürgün olunur. Günahsız olduğunu sübut edəndən sonra nəhayət, o, vətəninə qayıdır. Muzeyə oxşayan evinin bir neçə ilin içində xarabaya döndərildiyini gözləri ilə görən kişi bu haqsızlığa davam gətirə bilmir. O, 60 yaşında dünyasını dəyişir. Atasının, ailəsinin başına gələn müsibətlərə dözə bilməyən onun oğlu, kəndin adlı-sanlı müəllimi İsaq da sonralar dalbadal keçirdiyi 3 infarktdan sonra 45 yaşında dünyasını dəyişir.

İsaq babanın evi ötən dövrlərin canlı şahididir. Onun nəticəsi, kənd həkimi Aqil İsaq oğlu İsaqov ailəsi ilə birlikdə ulu babasının evində ömür sürür. Bu evdə hər şey keçmişdəki kimidir. Qədim ocaq, qonaq otağı, rəfli otaqlar, divarlardakı şəkillər, hər şey o dövrdən nişanədir. Aqilin övladları da babalarının ruhu yaşayan bu evin arxitekturasını pozmamağa çalışırlar. Onlar tez-tez tarixin acı dərslərini yada salır, ulularını minnətdarlıq hissi ilə xatırlayırlar. Bu ev XVIII əsr memarlıq abidəsi kimi dövlət tərəfindən mühafizə olunur.

## ƏHMƏDXAN PİRİ

Qusarın tanınmış ocaqlarından biri Əhmədxan piridir. XVIII əsrdə Əvəcuqda ömür sürmüş dörd qardaş - Bədirxan, Əhmədxan, Cilovxan və Rəhimxan tanınmış nəslin nümayəndələri olublar. İki dəfə Məkkədə olmuş Əhmədxanın övladları olmayıb. Xeyirxah əməlləri ilə tanınan, mehriban, elcanlı və mömün insan olan Əhmədxanla bağlı kənddə çoxlu rəvayətlər dolaşır. Əvəcuğdakı ən böyük tutluğu vaxtilə o salmışdı, deyirdi ki, tut çörək ağacıdır.

Bir dəfə kənd uşaqları məscidin damına qonmuş göyərçinlərə daş atırmış. Əhmədxan onlara quşlara daş atmağın günah olduğunu deyəndə uşaqlar qocanın sözlərinə gülürlər. Elə bu vaxt bir göyərçin gəlib qocanın ovcuna qonur. Bunu görən uşaqlar heyrət içində məsciddən uzaqlaşırlar.

Bədirxanla Əhmədxanın qəbirləri yanaşıdır. Cilovxan onların ikisinin də qəbirləri üzərində məq-

ханан сурун кьилел алай гуьмбет кьведра чкІана. Садра Жиловханаз ахварай аквада хьи, Агьмедхана адаз вичин винел пад кІевирмир лугьузва.

Гьа чІавалай и сур пІир хьиз элдин арада сейли я. Къедалди чара-чара чкайрай инсанар и пІирел чпин дердериз дарман жагьуриз къведа. Инай вири туьтуь гваз хъфида.

## МЕГЬАМЕДАННИ ЗАРБИКЕДИН ЧІЕХИ ХИЗАН

Вичин 15 йис хьайила Зарбике цІийи варз хьиз иер тир. Дагъустандин Миграгь хуьряй Гъепцегьиз - мукьвабурун кІвализ мугьманвилиз атай Мегьамед руш акун кумазни адал ашукь хьана. Зарбикедин вилни и пагьливандин акунар авай гададал ацукьна. Ингъе рушан иесийри илчийриз "чахъ большевикдиз гудай руш авач" лагьана.

Бакудин нафтІадин мяденра кІвалахзавай Мегьамед Меликов "Фарукь" тешкилатдик квай. Къ.Агъасиев, М.Айдунбегов, А.Османов, И.Ахтынски хьтин лезги большевикри арадиз гъанвай и тешкилатди фялеяр инкъилабдиз желб ийизвай. Мегьамед Меликовахъ галаз санал Нуреддин Шерифовани и тешкилатдин кІвалахра мукьувай иштиракзавай. Ибур чизвайвиляй Зарбике Мегьамедаз ваъ, девлетлу Гьейбатаз гъуьлуьз гана. Мегьамедни маса рушал эвленмиш жез мажбур хьана.



Ингъе кьисметди акІ авуна хьи, Гьейбат рагьметдиз фена. Зарбикеди вичин цІийиз хьанвай хциз адан тІвар гана. Аялдин ругуд варз хьайила яран дидеди Зарбикедиз лагьана: "Чаз вун гьикьван багьа ятІа ваз хъсандиз чизва. Анжах и иер дишегьли кьуд цлан арада амукьун гунагь я. Вун кІанзавайбур гзаф ава, абурун арада виридалайни лайихлуди вичин паб рагьметдиз фенвай Мегьамед я". Рушан рикІ зурзуна. РикІе чинеба хвенвай муьгьуьббат гатфариз чиликай хкатзавай гъвергъверар хьиз юза хьана. Ада разивал гана.

Са шумуд йикъалай Мегьамед ам тухуз атана. Къужахда бицІек кьунвай свас безетмишнавай арабада ацукьарайла, вад йиса авай са руш аялди шехьиз-шехьиз вич адан винел гадарна. Им Зарбикедин хинен руш Фатма тир. Диде-буба вахтсуз кварә tikdirir. Əhmədxanın qəbrinin üzərindəki məqbərə isə iki dəfə dağılır. Cilovxan yuxuda görür ki, Əhmədxan ondan qəbrinin üstünü örtməməyi xahiş edir.

O vaxtdan Əhmədxanın qəbri pirə dönür. Onun ziyarətinə insanlar dava-dərman diləməyə gedirlər. Bu günə kimi adamlar buradan tütüyə aparırlar.

## MƏHƏMMƏDLƏ ZARBİKƏNİN BÖYÜK AİLƏSİ

Zarbikə 15 yaşına çatanda ay parçasına oxşayırdı. Dağıstanın Migrağ kəndindən Qepsehə - qohumlarıgilə qonaq gəlmiş Məhəmməd qızı görən kimi ona vuruldu. Qızın da meyli bu pəhləvan cüssəli igidə düşdü. Lakin elçilər rədd cavabı aldılar: "Bizim bolşevikə verəsi qızımız yoxdur".

Bakının neft mədənlərində çalışan Məhəmməd Məlikov "Farux" təşkilatının üzvü idi. Q.Ağasiyev, M.Aydınbəyov, A.Osmanov, İ.Axtınski kimi ləzgi bolşevikləri tərəfindən yaradılmış bu təşkilat fəhlələri inqilaba səfərbər edirdi. Məhəmməd Məlikovla Nurəddin Şərifov da təşkilatın fəal üzvlərindən idi. Bunlardan xəbərdar olan qızın valideynləri Zarbikəni bolşevik Məhəmmədə yox, dövlətli Heybətə ərə verdilər. Məhəmməd isə başqa qızla evlənməyə məcbur oldu.



Amma tale elə gətirdi ki, Heybət qəfil vəfat etdi. Zarbikənin yeni doğulmuş oğluna onun adını verdilər. Uşaq altı aylıq olanda qaynanası Zarbikəni yanına çağırdı: "Özün bilirsən ki, hamımız sənə bağlanmışıq. Amma bu gözəlliklə dörd divar arasında qalmaq insafdan deyil. Səni istəyən çoxdur. Amma aralarında ən yaxşısı Məhəmməddir. O da gənc arvadını itirib". Zarbikənin ürəyi yerindən oynadı. Qəlbində gizlin saxladığı ilk məhəbbəti yazda qarın altından boylanan novruzgülü kimi baş qaldırdı. O, razılıq verdi.

Bir neçə gündən sonra Zarbikəni aparmağa gəldilər. Qucağında körpəsini tutmuş gəlini bəzəkli arabada yenicə oturtmuşdular ki, birdən beş yaşlı bir qız uşağı ağlaya-ağlaya özünü Zarbikənin üstünə atdı. Bu, onun qaynı qızı Fatma idi. Ata-anasını itirmiş bu uşaq ilk gündən ona bağlanmışdı. Zarbikə bir əli ilə körpəsini, o biri əli ilə balaca qızı bağrına basmışdı, göz

дарай и руша сад лагъай йикъалай адаз майилвал авунай. Зарбикеди са гъилив вичин бицIек, муькуьдав руш хурув агуднай. Адан вилерилай накъвар алахьзавай. Свас рекье твазвай мукьва-кьилиярни шехьзавай. Мегьамеда Зарбикедиз хъуьтуьлдаказ лагьана: “Аялдин хатурдихъ хкIурмир”. Хвешила сусан вилер хъуьрена. Са герендилай араба рекье гьатна.

Зарбике цIийи гъуьлуьн кIвале мадни кьве аялди гуьзлемишзавай. 17 яшинда аваз сад лагьана 4 аялдин диде хьанвай Зарбикеди Мегьамедаз мадни аялар хана: Залике, Рефикъе, Фируза, Фикрет, Руфат, Вакъиф...

## ГЬИДАЯТАН ТIАЛ

Къуба уезддин сейли ксарикай тир яргунви Гьидаят Мегьамедкериман хва Керимовахъ (1890-1964) чIехи мулкар, чилер, багълар авай. Хуьруьн медресада чирвилер къачур, лезги, араб, азербайжан, урус чIаларал кIелиз, кхьиз чирай ада цIудралди вичин хуьруьнбурувни кIелиз тунай.

Къуба уезддин чара-чара чкайра, гьакIни Бакуда вичихъ гзаф магазинар авай Гьидаята большевикри Совет гьукумат туькIуьрайла вичин мал-девлетдин чIехи пай гуьгьуьллудаказ цIийи гьукуматдив вуганай. Ингье идалди чкадин органри адалай гьил къачуначир. 1934-йисуз адавай вири мал-девлет вахчунай. Идакай наразивал къалурайла адан тIвар гьукуматдин векилрин “чIулав сиягьда” гьатнай.



Ам дустагъда твaз атайбурукай катай Гьидаят вичин пабни пуд руш хуьре туна, Ирандиз куьч жез мажбур хьанай. Шумудни са йисара адаз вичин хизандихъ галаз алакъа яратмишдай мумкинвал ганачир. Ада кхьей чарарни хайибурал агакьарначир. Хайибурукай са хабар кьаз тахьана, лугьуз тежедай хьтин рикIин тIаларалди цIуд йисуз Иранда яшамиш хьайи ада яру кирпичар гьасилдай завод эцигна, кардик кутунай. Гуьгьуьнлай кас Туьркиядин Амасия шегьердиз куьч хьанай. Ина уьзуьмдин багълар кутуна, чехирдин завод эцигай, магазинар, кафеяр, ресторанар кардик кутур Гьидаятаз кар алакьдай касдиз хьиз вирида гьуьрметдай.

Адан сад лагъай паб Айбике макъсудхуьруьнви Мегьамедан руш тир. Абуруз пуд руш хьанай. 1910-йисуз дидедиз хьайи Мейрам АПИ акьалтIарна, Агъа Лакаррин юзбаши Ханбуба Сеферован гададиз

yaşları yanaqlarına axırdı. Onu yola salmağa yığışmış doğmaları da ağlayırdı. Məhəmməd atdan düşüb yaxına gəldi, üzünü Zarbikəyə tutub nəvazişlə dedi: “Uşağın qəlbinə dəymə”. Sevincdən gəlinin gözləri güldü. Bir azdan gəlin arabası yola düşdü.

İki yetimlə ər evinə köçən gəlini burada daha iki yetim gözləyirdi. 17 yaşlı Zarbikə 4 uşaqla yeni həyata başlayırdı. Məhəmməd Zarbikənin uşaqlarına öz familiyasını verdi. Zarbikə isə onun uşaqlarına öz övladı kimi bağlandı. Xoşbəxt ailədə yenə övladlar dünyaya gəldi: Zalikə, Rəfiqə, Firuzə, Fikrət, Rüfət, Vaqif ...

## HİDAYƏTİN AĞRISI

Quba qəzasının adlı-sanlı, nüfuzlu adamlarından olmuş Həzrə kəndinin sakini Hidayət Məmmədkərim oğlu Kərimovun (1890-1964) böyük mülkü, geniş torpaq sahələri, bağ və örüşləri var idi. Mədrəsə təhsili görmüş, ləzgi, ərəb, Azərbaycan və rus dillərində oxuyub-yazmağı öyrənmiş bu adam həmyerlilərindən onlarca gənci öz hesabına oxutdurmuşdu.

Quba qəzasının müxtəlif yerlərində, o cümlədən Bakıda çoxlu mağazaları olan Hidayət Sovet hökuməti qurulduqdan sonra var-dövlətinin böyük hissəsini könüllü olaraq təhvil vermişdi. Lakin bununla kifayətlənməyən yerli orqanlar 1934-cü ildə onun hər şeyini əlindən alaraq müflisləşdirdilər. Buna etiraz edəndə o, yerli hökumətin “qara siyahı”sına düşdü.

Onu həbs etməyə gələnlərdən canını qurtarmaq üçün qaçmağa məcbur olan Hidayət arvadını və 3 qızını kənddə qoyub İrana köçməyə məcbur olur. Neçə illər ona ailəsi ilə əlaqə saxlamaq nəsib olmur. Hidayətin yazdığı saysız-hesabsız məktublar doğmalarına çatdırılmır. Ayrılığın gətirdiyi dözülməz qəlb ağrısı ilə, doğmalarından nigaranlıq hissi ilə 10 il İranda yaşayan, qırmızı kərpic istehsal edən zavod tikdirib onun qazancı ilə dolanan Hidayət, nəhayət, Türkiyənin Amasiya şəhərinə köçür. Üzüm plantasiyaları, çaxır zavodu, kafe və restoranları, dükanları olan bu bacarıqlı ləzgi burada böyük nüfuz sahibi kimi tanınır.

Maqsudkəndli Aybikə Məhəmməd qızından Hidayətin 3 qızı olmuşdur. 1910-cu ildə anadan olmuş Məryəm APİ-ni bitirmiş, Aşağı Ləgər kəndinin kəndxudası Xanbaba Səfərovun oğlu Əbillə ailə qurmuş-

гъуьлуьз фенай. 1926-йисуз дидедиз хьайи Жемилади Азербайжандин Гьукуматдин Медицинадин Институт акьалтӀарна, Бакудин 3-нумрадин поликлиникада духтурвиле кӀвалахнай. 1934-йисуз, Гьидаят хуьряй акъатай са шумуд вацралай дидедиз хьайи Бесиради илимдин рехъ кьуна. Ам Бакудин Университетдин доцент, химиядин илимрин кандидат я.

Туьркияда цӀийи хизан туькӀуьрай Гьидаятаз 3 хва хьанай. Нежмеддина, Фидаята ва Инаята институтар акьалтӀарна, бизнесменри хьиз чпин бубадин рехъ давамарна.

## УЬМУЬРДИН САВРУХАР

Большевикри лезгийрин тӀвар-ван авай интеллигент Абид Амирасланов Наргин кьураматда гуьлле гана кьейи вахтунда адан паб Зуьлгьиже 28 йиса авай. Абид Салманан хва Амирасланов 1898-йисуз Дагъустандин Самур округдин Миграгъ хуьре дидедиз хьана. 1904-йисуз 6 йиса аваз бубадихъ галаз Бакудиз фейи Амираслан 12 яшинда Нобелан мяденра кӀвалахал акъвазнай. 1914-йисуз забастовкада иштирак авур гада кӀвалахалай алуднай. И савадлу жегьил гуьгъуьнлай тӀвар-ван авай инкъилабчи хьиз сейли хьанай. Азербайжандин большевикрин "Гъуьммет" тешкилат арадиз гъайибурукай тир адан хиве Дагъустандинни Азербайжандин арада дуствилинни стхавилин алакъаяр мягькемарун гьатнай. Ада Мукьтадир Айдунбеговахъни Къазимегьамед Агъасиевахъ галаз санал халкьдин арада инкъилабдин идеяяр теблигьнай.



*Абид* *Abid*



*Зуьлгьиже* *Zülhicə*

Советрин девирда Абид Амирасланов чӀехи къуллугърал акъвазнай. 1928-1930-йисара ада КцӀарин РИК-диз, гуьгъуьнлай райкомдиз регьбервал ганай. Ина тешкилатчивилин бажарагъдалди тафаватлу хьайи, халкьдин гьуьрмет къазанмишай ам Али Байрамлы ва Сальян районра райисполкомдин седривиле ва райкомдин сад лагьай секретарвиле тайинарнай. 1934-1936-йисара АСПС-дин седри хьайи А.Амирасланов республикадин тӀвар-ван авай ксарикай тир. 1937-йисуз ам Азербайжандин балугъчивилин майишатдин министрвиле тайинарнай.

dur. 1926-cı ildə anadan olmuş Cəmilə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib, uzun illər Bakının 3 saylı poliklinikasında rentgenoloq işləmişdir.

Bəsirə atası Hidayət vətəni tərk edəndən bir neçə ay sonra dünyaya gəlmişdir. 51 il fasiləsiz Bakı Dövlət Universitetinin kimya fakültəsində çalışan kimya elmləri namizədi, dosent Bəsirə Kərimova adlı-sanlı alimdir. Vətənə qayıtmaq ümidini itirən, Türkiyədə yenidən ailə quran Hidayətin üç oğlu - Nəcməddin, Fidayət və İnayət ali təhsil alaraq, ataları kimi adlı-sanlı iş adamları olmuşlar.

## ACILARLA DOLU ÖMÜR

Bolşeviklər Abid Əmiraslanovu Nargin adasında güllələyəndə onun ömür-gün yoldaşı Zülhicənin 28 yaşı yenicə tamam olmuşdu. Abid Salman oğlu Əmiraslanov 1898-ci ildə Dağıstanın Samur dairəsinin Migrağ kəndində anadan olmuşdur. 1904-cü ildə 6 yaşında ikən atası ilə Bakıya köçən Əmiraslan 12 yaşında Nobelin neft mədənlərində işə düzəlir. 1914-cü ildə burada keçirilən tətildə iştirak etdiyinə görə onu işdən çıxarırlar. Sonralar o, adlı-sanlı inqilabçı olur.

Azərbaycan bolşeviklərinin "Hümmət" təşkilatını yaradanlardan biri kimi onun öhdəsinə Dağıstan və Azərbaycan xalqları arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmlətmək düşür. Müqtədir Aydınbəyov və Qazıməhəmməd Ağasiyevlə birlikdə o, ləzgi xalqı arasında inqilabi ideyalar təbliğ edir.

Sovet hakimiyyəti illərində A.Əmiraslanov rəhbər vəzifələrdə çalışır. 1928-1930-cu illərdə o, Qusar RİK-nə, sonradan Qusar Rayon Partiya Komitəsinə rəhbərlik edir. Burada təşkilatçılıq bacarığı ilə seçilən, xalqın etimadını qazanan A.Əmiraslanovu Əli Bayramlı və Salyan RİK-nin sədri və raykomun birinci katibi vəzifələrinə təyin edirlər. 1934-1936-cı illərdə AHİŞ-in sədri olan Abid Əmiraslanov respublikanın adlı-sanlı ziyalılarından biri idi. 1937-ci ildə Azərbaycan Balıqçılıq Təsərrüfatı naziri təyin olunan A.Əmiraslanov 1938-ci ildə "xalq düşməni" kimi həbs olunmuş və Nargin adasında güllələnmişdir.

Ингъе вичин бажарагъдалди, савадлувилелни ачух фикирлувилелди тафаватлу тир Абид Амирасланов везифадин кIарарал хкаж хьуникай хуш къвезвачирбурни гзаф авай. Гьабурун футфадалди 1938-йисуз Амирасланал “халкьдин душман” тIвар илитIна, дустагъда тунай ва Наргин кьураматда гуьлле гана кьенай. Халкьдин патай чIехи гьуьрмет къазанмишай, чIехи къуллугърал хьуниз килиг тавуна вичин рикIин михьивални инсанпересвал квадар тавур къени къилихрин Амирасланахъ галаз уьмуьр гьалзава лугьуз вичин кьисметдилай рази тир Зуьлгьиже. Жегьил хизан гьикьван бахтлу тир! Кьуд лагьай велед дуьньядиз атана кIанзавай абурун.


*Роза* *Roza*

Пуд гъвечIи аял - Роза, Султан ва Телман хуьз, кьуд лагьайди руфуна къекъуьрзавай кьакьан буйдин, иер дишегьлидикай садлагьана “душмандин паб” хьанай. Дердер тIимил тир хьиз, Ватандин ЧIехи дявени гатIуннай. Чкадин органри басрухар гуз, вирибуру негь авур и дишегьлидивай адан аялар къакъудна, Украинадин Кировоград вилаятдин Александрово шегьердин детдомдиз ракъурнай. Вилин накъвар селлериз элкъвей Зуьлгьижеди чIугур агьари везифайрал алай ксарин къван хьтин рикIериз эсер авуначир. Адал амайдалайни чIехи тагъ илисун къетIнай абуру - кIвачел залан дишегьли 8 йисуз Комидиз суьргуьн авунай.

Суьргуьнда кьуд лагьай аял хайи Зуьлгьиже фронтда авай солдатриз пекер цудай цехда кIвалахал акъвазнай. Ина стахановчи хьиз сейли хьайи ам 4 йисалай суьргуьндай азад авунай. КцIариз хтай Зуьлгьиже “халкьдин душмандин паб” хьиз къаршиламишнай. КIвал гьиляй акъатай, мукьвакьилийривай хьайи, садбуру кичIела вичиз саламни гузмачир свас вучдатIани тийижиз амай. КцIарин НКВД-диз регьбервал гузвайбуру адав гьалалвилелди фу нез тазвачир.

Ингъе хъсан инсанарни авачиз тушир. Ленинан тIваруниxъ галай куьчеда ялгъуздиз яшамиш жезвай Дуьгме халади Зуьлгьиже вичин кIвализ ахъайна, адаз дидевал авунай.

Садра РОНО-дин кьил Ильяс Ильясоваз дуьшуьшдай къвалал аял алаз обпитда кьапар чуьхуьзвай Зуьлгьиже - Абид Амирасланован яхунвиляй

Ucaboy, gözəl Zülhicə xalq arasında böyük hörmət sahibi olan xoşxasiyyət Əmiraslanla bir yerdə ömür sürdüyünə görə taleyindən razı idi. Gənc ailə xoşbəxt yaşayırdı. Onların dördüncü övladı dünyaya gəlməli idi. Üç azyaşlı uşağını - Rozanı, Sultanı və Telmanı böyüdən, boynunda dördüncünü bəsləyən ana əri güllələnəndən sonra “düşmən arvadı” kimi qələmə verildi və yerli orqanlar tərəfindən incidilməyə başladı. Bunlar azmış kimi, Böyük Vətən müharibəsinin ağır, həyəcanlı illəri gəldi. Hamının arxa çevirdiyi bu qadının uşaqlarını zorla əlindən alıb, Ukraynanın Kirovoqrad vilayətinin Aleksandrovo şəhərindəki uşaq evinə göndərdilər, Zülhicəni isə Komiyə sürgün etdilər.

Sürgündə dördüncü övladını dünyaya gətirən Zülhicə sexdə çalışır, cəbhədəki əsgərlərə paltar tikirdi. Burada staxanovçu kimi tanınan qadın 4 ildən sonra sürgündən azad edilir. Qusara qayıdan Zülhicəni “xalq düşməninin arvadı” damğası ilə qarşılayırlar. Evi əlindən alınmış, qohum-əqraba tərəfindən tərk olunmuş Zülhicəyə qorxudan salam belə vermirdilər. Qusar NKVD-sinə rəhbərlik edənlər bu bədbəxt qadına göz verib işıq vermir, onu halal çörək qazanmağa qoymurdular. Lakin həyat yaxşı insanlardan da xali deyildi. Lenin küçəsində tək yaşayan Düymə xala körpə uşaqla qapılarda qalmış bu talesiz qadını evində yerləşdirdi, onun qayğısına qaldı.


*Зуьлгьиже вичин руш Розадихъ галаз* *Zülhicə qızı Roza ilə*

Bir dəfə rayon maarif şöbəsinin müdiri İlyas İlyasov ictimai iaşə idarəsində işləyən, çirkli qazanları yuyan uşaqlı qadını - Abid Əmiraslanovun arvadı Zülhicəni görür və bundan sarsılır. Onun köməyi ilə Zülhicə tikiş sexinə işə düzəlir.

кIарабар хкатнавай паб акунай. РикI тIар хьайи ада дишегьлидиз пекер цудай цехда кIвалахдай куьмекар ганай.

Вичин пуд веледдин гел квадарай Зуьлгьиждин вилерин накъвар кьуразвачир. Адан аялар авай детдом бомбади чукIурнай. Аялрикай вуж сагъ аматIа садазни чизвачир. Гужалди чпин чими мукай яргъариз акъудай пуд етимдиз - Абиданни Зуьлгьиждин аялриз дердеринни хажалатрин дад вахтундилай фад чир хьанай. Гьавиляй детдомда сад садавай къакъатдачир абур. Ингье къарилай са къуз бомбади абурун детдом чукIурнай ва инин аялар гьарад саниз акъатнай. Роза, Султан ва Телманни сад садавай къакъатнай. Гзафбур мукьув гвай хуьрерин агьалийри чпин кIвалериз тухванай.

Зуьлгьиждин духтур стхадиз, военный госпиталдин начальниквиле кIвалахзавай духтур, полковник Мавлуд Поладоваз вичин вахан кьилел атанвай мусибатдикай хабар авай. Гьавиляй Украинадиз акъатай йикъалай ам ара датIана вичин хтулрихъ къекъвезвай. Эхирни са кьуьзуь къариди вичи 14 яшинда авай Роза хуьзвайди малумарнай адаз.

Яргъал йисарин чаравили штумарнавай халуни хтул сад-садан гарданра гьатна шехьнай. Мавлуд Розадив адан дидединни гъвечIи стхадин шикил, гьакIни КцIара абур амукьзавай кIвалин адрес вугана фронтдиз рекье гьатнай. Анжах Розади кьве гъвечIи стха жагъур тавунмаз дидедин кьилив хъфидач лагьана гаф ганвай. Кьве йисуз хуьр-хуьр, кIвалкIвал къекъвей и рушан вичин стхайрал рикI хьуни вири мягьтеларнай. Адаз эхирни абур къажгъанай. Дердери лигимарнавай и пуд аял эхирни поездда акьахна Ватандиз рекье гьатнай.

Гьа икI, Амирaслановрин хизан ахгатна. Гьахъсузвилер, кашар, дяведин цIаяр, чаравилер акур хайибур шумудни са йисар алатайдалай гуьгъуьниз сад лагьай гьилер тир хвешивиляй санал шехьиз.

Четинвилери лигимарнавай Зуьлгьиждин руш Розадихъ чIехи алакьунар авай. Бакудин Университетда кIелдайлани, инаг куьтягьна КцIар шегьердин 2- нумрадин урус мектебда кIвалахал акъвазайлани Роза Амирaслановади виридан гьуьрмет къазанмишнай. Гьахъ вине кьадай, инсафлу инсан хьиз чешнелу тир ам. Вичин уьмуьрдин эхирдалди гьа са чкада кIвалахнай ада. Муаллим хьизни, директор хьизни адан тай авачир. 40 йисуз ара датIана педагогвал, 28 йисуз директорвал авур и инсанди 40 йисуз вичин уьмуьрдин юлдашдихъ, райондин тIарван авай тарихдин муаллим Нариман Мамедовахъ галаз къуьн-къуьне кIвалахнай.

Üç övladının izini itirmiş qadının gözünün yaşı qurumurdu. Zülhicənin aldığı məlumatlara görə Ukraynada onun uşaqlarının yerləşdirildiyi uşaq evi bombardman nəticəsində dağılmışdı. Uşaqların sağ qalıb qalmaması sual altında idi.

Zorla isti yuvalarından didərgin salınmış balaca Əmiraslanovlar vətəndən uzaqlarda, yadlar arasında ata-ana nəvazişindən və qayğısından məhrum halda yaşayırdılar. Qəmin, kədərin dadını vaxtından tez bilmişdilər, ona görə də uşaq evində bir-birindən ayrılmırdılar. Lakin Böyük Vətən müharibəsi başlananda onların tərbiyə olunduqları uşaq evinin üstunə bomba düşməsi nəticəsində uşaqlar pərən-pərən düşdülər. Çoxları kimi Roza, Sultan və Telman da bir-birini itirdilər.

Zülhicənin həkim qardaşı, hərbi hospitalın rəisi vəzifəsində çalışan polkovnik Mövlud Poladovu bacısı Zülhicənin başına gələn müsibətlər ürəkdən sarsıtmışdı. Ona görə də o, Ukraynaya qədəm qoyduğu gündən bacısı uşaqlarının axtarışı ilə məşğul olmağa başladı. Nəhayət, onun axtarışlarının nəticəsi oldu. Bir gün ona bir qarının 14 yaşlı Rozanı öz evinə apardığını bildirdilər. Həmin ünvana gələn hərbçi axır ki, bacısının ilki Rozanı tapır. Döğmalar bir-birinə qovuşanda göz yaşlarını saxlaya bilmirdilər.

Mövlud Rozaya anasının və kiçik qardaşının şəkillərini, Qusarda onların qaldığı evin ünvanını verib, cəbhəyə yola düşür. Lakin Roza özünə söz vermişdi ki, iki kiçik qardaşını tapmayınca vətənə qayıtmayacaq. Ukraynada bu yeniyetmə ləzgi qızının inadcıllıqla apardığı axtarışlara bir neçə vilayət qoşuldu. Ev-ev gəzib qardaşlarını soraqlayan qızın fədakarlığı hamını kövrəldirdi. Nəhayət, inadcıl və qətiyyətli qız qardaşlarını tapır. Bir-birinə yenidən qovuşmuş doğmalar qatara minib, vətənə qayıdırlar. Əmiraslanovlar ailəsi uzun illərin ayrılığından sonra qovuşur. Haqsızlıqlar, aclıq, müharibə alovları, ayrılıqlar görmüş bu insanlar, ilk dəfə xoşbəxtliyin şirin dadını duyurlar.

Çətinliklərin mətinləşdirdiyi Zülhicənin qızı Roza savadlı və bacarıqlı qız idi. Azərbaycan Dövlət Universitetində təhsil alanda da, Qusar şəhər 2 saylı orta məktəbində çalışanda da Roza Əmiraslanova haqqı uca tutan insaflı insan kimi hamıya nümunə idi. O, ömrünün sonuna kimi eyni iş yerində işlədi .

Müəllim kimi də, direktor kimi də o, hamının sevimlisi oldu. 40 il fasiləsiz müəllimlik etdi, 28 il məktəb direktoru oldu. 40 illik ömür yoldaşı Nəriman Məmmədovla o, həm də iş yoldaşı idi.

## БУРСАДАЙ КЦІАРИЗ

Вич туьрк тирди яргъал йисара виридакай чуьнуьхариз мажбур хьанай ам. ЦІийи гъукуматди и кардикай хабар кьуртІа адаз вил гана, экв гудачир. Лезги чІалалди хъсандиз рахазвай и касдин акунарни, къилихарни лезгийриз ухшар тир.

Туьркиядин Бурса шегьерда 1893-йисуз дидедиз хьайи Эфендиев Бегьлул Агьмедан хва 5 яшинда аваз етим амукьна. Кьисметди ам Бакудин нафтІадин мяденриз акъудна. Адан уьмуьр лезгийрин арада фена.



1917-1928-йисара КцІар райондин ЛукІар хуьре вичин майишат туькІуьрай ада Яргундал Хьил райондин малдарвилин союздин векилвиле, ЛукІарин совхозда гъамбарханадин заведишвиле, Чпира, КцІара ва Манкъулидхуьре селсоветдин седривиле, райсобесдин заведишвиле, ЦІийихуьре колхоздин седривиле кІвалахнай. 1943-1949-йисара Самур-Девечи къаналдин заведишвиле кІвалахай и кас Туьркиядай атанва лугьуз суьргуьндиз ракъурнай. Ам 1949-1953-йисара Томск вилаятдин Бакчар райондин Подолск поселокда яшамишиз мажбурнай.

Суьргуьндилай кьулухъ Хачмаз райондин Къусарчай станцияда гидроузелда кІвалахай Б.Эфендиев кьисметди цІийи кьилелай СДК-диз акъуднай. 1966-йисалай Самур поселокдин комендант хьайи и касдихъ халкьдин арада чІехи гъуьрмет авай.

## BURSADAN QUSARA

Türk olduğunu o, uzun illər hamıdan gizlətməyə məcbur olmuşdu. Yeni hökumət bundan xəbər tutsaydı, ona göz verib, işıq verməzdi. Ləzgi dilində səlis danışan bu adam nə görkəmi, nə də təbiəti ilə ləzgilərdən seçilirdi.

Türkiyənin Bursa şəhərində 1893-cü ildə anadan olmuş Əfəndiyev Bəhlul Əhməd oğlu 5 yaşında yetim qalmış, yeniyetmə çağında Bakıya gəlib neft mədənlərində işləmişdir. Onun həyatı ləzgilər arasında keçmişdir.

1917-1928-ci illərdə Qusarın Qullar kəndində şəxsi təsərrüfatını yaratmış, 1929-cu ildən etibarən bir sıra məsul vəzifələrdə çalışmışdır. Hil Rayon Heyvandarlıq İttifaqının Həzrədəki nümayəndəsi, Qullar sovxozunda anbardar, Cibirdə, Qusarda və İmamqulukənddə kənd sovetinin sədri, rayon ictimai təminat şöbəsinin müdiri, Zeyxurda kolxoz sədri işləmişdir. 1943-1949-cu illərdə Samur-Dəvəçi kanalının rəisi vəzifəsində işləmiş Bəhlul Əfəndiyev türkiyəli olduğuna görə sürgün edilmiş, 1949-1953-cü illərdə Tomsk vilayəti Bakçar rayonunun Podolsk qəsəbəsində yaşamağa məcbur olmuşdur.

Sürgündən qayıtdıqdan sonra Xaçmaz rayonunun Qusarçay kəndindəki hidroqovşaqda işə düzələn Bəhlul 1966-cı ilə kimi burada çalışmışdır. 1966-cı ildə taleyi onu yenidən SDK ilə qovuşdurmuş, ahıl yaşlarına qədər burada qəsəbə komendantı vəzifəsində çalışmışdır.

## НЯМЕТАН АЛИМ РУХВАЯР

Сулеймановар КцІарин тІвар-ван авай сихилрикай я. Нямет Сулейманов Къуба уездтдин виридалайни чІехи кьуларин заводдин иеси тир. XX асирдин сифте кьилера кардик кутур и заводда гъазилзавай тахтаярни шалманар Азербайжандин ва Дагъустандин шумудни са районриз тухудай. Гзаф кцІарвийри кІвалахзавай и завод зонадин чІехи карханайрикай сад тир.

Ингье 1926-йисуз Совет Гьукуматди Нямет заводдикай магьрумарнай ва кас вичин заводда фялевиле кІвалахиз мажбур хьанай. Гуьгъуьнлай ада Хачмаз райондин кьуларин заводда механиквиле кІвалахнай. Ам 1943-йисуз рагьметдиз фена.

Няметан 2 хцикай дяведин йисара тІвар-ван авай офицерар, гуьгъуьнлай алимар хьанай. 1916-йисуз

## NEMƏTİN ALİM OĞULLARI

Süleymanovlar Qusarın adlı-sanlı nəsillərindəndir. Nemət Süleymanov inqilabdan əvvəl Quba qəzasının ən böyük taxta-şalban zavodunun sahibi olmuşdur. XX əsrin əvvəllərində yaradılmış bu zavodda istehsal olunan taxta-şalban Azərbaycanın və Dağıstanın ayrı-ayrı rayonlarına aparılırdı. Çoxlu qusarlının çalışdığı bu zavod bölgənin iri emal müəssisələrindən biri idi.

Lakin 1926-cı ildə Sovet hökuməti bu zavodu sahibinin əlindən alaraq milliləşdirir, Nemət isə özünün yaratdığı zavodda fəhlə işləməyə məcbur edilir. Bu haqsızlığa dözə bilməyən Nemət Xaçmaza köçüb, buranın taxta zavodunda mexanik işləyir. O, 1943-cü ildə vəfat edir.

Nemətin övladlarından ikisi bu ailənin adını hər

дидедиз хьайи, 1941-йисуз Азербайжандин Гьукуматдин Университет акьалтIарай Гьейбат Сулейманов дяведиз фенай. Взводдин командирвиле, ротадин командирдин заместителвиле къуллугъ авур кьилин лейтенант Гьейбат дяведай хурал “Яру гъед”ва I дережадин Ватандин ЧIехи Дяведин орденар ва цIудралди медалар алаз хтанай.



*Гьейбат Heybət*



*Мавлуд Mövlud*

Дяведилай кьулухъ ада Азербайжандин НафтIадинни Химиядин Институтда кIвалахнай. 1952-йисуз кандидатвилин диссертация хвейи доцент Гьейбат Сулейманова вичин уьмуьрдин эхирдалди Азербайжандин ИА-дин НафтIадинни Химиядин Процессрин Институтдин лабораториядиз регьбервал ганай. Ам “СССР-дин лайихлу химик” тIварцIиз лайихлу хьанай. Алим 1989-йисуз рагьметдиз фенай.

1920-йисуз дидедиз хьайи Мавлуд юкьван мектеб акьалтIарна дяведиз фенай. А девирдин газетрин чинриз лейтенант Мавлуд Сулейманован къагьриманвилерикай ихтилатзавай гзаф макъалаяр акъатнай. Ингье са тIимил берeдилай гадади хайибурал ракъурай шикилдай пагонар алачир аскерди килигзавай. На лугьумир, адан табийвилик квай аскерри есирда кьур немсериз гуьлле ганай кьван ва гьавиляй военный трибуналди Мавлуд пагонрикай магьрумарнай.

И карди Сулеймановрин хизандиз, гьакIни абурун мукьва-кьилийриз пашманвал гъанай. ЯтIани Мавлуда цIийи кьегьалвилер къалурнай ва дяве майор яз кьилиз акъуднай. Вич “Яру пайдах”, “Яру гъед” ва маса орденриз лайихлу хьайи Мавлуда МГУ-дин тарихдин факультет акьалтIарнай.

Ина кIелдайла испанви руш Бетадихъ галаз эвленмиш хьайи ам Бакудиз хтанай. Азербайжандин НафтIадинни Химиядин Институтда кандидатвилин диссертация хвейи ада яргъал йисара ина доцентвиле кIвалахнай. Алай вахтунда Мавлудан хизан Испанияда яшамиш жезва, адан хва Эмина Мадриддин Университет акьалтIарна.

yerdə ucaldır. 1916-cı ildə anadan olmuş, 1941-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmiş Heybət Süleymanov Böyük Vətən müharibəsi illərində vzvod, sonradan rota komandirinin müavini olur, baş leytenant rütbəsində müharibəni başa vurur.

Cəbhədə göstərdiyi igidliklərə görə “Qırmızı ulduz”və I dərəcəli Böyük Vətən Müharibəsi ordenlərinə, eləcə də bir sıra medallara layiq görülən Heybət Süleymanov müharibədən sonra Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda fəaliyyətə başlayır. 1952-ci ildə namizədlik dissertasiyası müdafiə edən dosent Heybət Süleymanov ömrünün sonuna kimi Azərbaycan EA Neft və Kimya Prosesləri İnstitutunun laboratoriyasına rəhbərlik etmişdir. O, “SSRİ-nin fəxri kimyaçısı” adına layiq görülmüşdür. Alim 1989-cu ildə vəfat etmişdir.

1920-ci ildə anadan olmuş Mövlud orta məktəbi bitirib cəbhəyə yola düşür. M.Süleymanovun qəhrəmanlıqları ilə bağlı o dövrün cəbhə qəzetlərində bir neçə məqalə dərc olunmuşdu. Lakin bir müddət sonra Qusardakı doğmaları onun paqonsuz şəkillərini alırlar. Sən demə tabeliyindəki əsgərlər bir neçə alman əsirini özbaşına güllələdiyinə görə hərbi tribunal gənc leytenant Mövlud Süleymanovu paqonlarından məhrum edibmiş.

Bu hadisə onun Qusardakı əzizlərini ürəkdən sarsıdır. Lakin Mövlud yeni qəhrəmanlıqlar göstərir, müharibəni mayor rütbəsində başa vurur. “Qırmızı Bayraq”, “Qırmızı ulduz” ordenləri və başqa döyüş orden və medalları ilə təltif olunan M.Süleymanov Moskva Dövlət Universitetinin tarix fakültəsinə daxil olur və oranı fərqlənmə diplomu ilə bitirir.

Moskvada Mövlud Süleymanov ispan qızı Beta ilə evlənib Bakıya qayıdır və Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda işləyir. Burada namizədlik dissertasiyası müdafiə edərək, uzun illər dosent vəzifəsində çalışır. Pensiyaya çıxdıqdan sonra ailəsi ilə İspaniyaya köçür. Onun oğlu Emin Madrid Universitetinin məzunudur.

## РЕГЬИМ БУБА

***Америкада "Азербайжан" жемият арадал гьайи, "Истикълал" газет чапдай акъудай Б.Бабаев М.А.Расулзадедин женгинин юлдаш тир.***



Азербайжандин телевиденидин гунуграй "Регьим буба" хьиз сейли хьайи Бейдуллагь Регьиман хва Бабаев КцIар райондин Кичан хуьре дидедиз хьанай. Къубадин Хуьруьн Майишатдин Техникум ва Генжедин Хуьруьн Майишатдин Институт акьальтIарай ада са кьадар вахтунда КцIар райондин Яргун хуьре агрономвиле кIвалахнай.

1939-йисуз аскервилиз фейи жегьилди Ватандин ЧIехи дяве ина къаршиламишнай. Фашистри есирда кьур ам есирвиляй катнай. Ингье Сталинан репрессийрикай кьил къакъудун патал Италиядиз, анайни Америкадиз фенай.

Бейдуллагь Бабаева сифте яз океандин а пата "Азербайжан" жемият яратмишнай, 1970-йисалди адаз регьбервал ганай. И викIегь ва савадлу инсан М.А.Расулзаедин женгинин юлдаш тир. Б.Бабаеван рикIе вичин ватандиз - Азербайжандиз чIехи муьгьуьббат авай. Гъурбатда яргъал йисара уьмуьр гьалай Бейдуллагьа лезги ва азербайжан чIалар вичин уьмуьрдин эхирдалди рикIелай ракъурнавачир.

Нью Жерси штатдин Трентон шегьерда яшамиш хьайи, Республикачийрин Партиядин уьзви тир и бизнесменди вичин кьуд веледдизни лезги тIварар ганвай - Инжиханум, Керимхан, Регьимхан, Селимхан. Б.Бабаев 2004-йисуз рагьметдиз фена.

## RƏHİM BABA

***Amerikada "Azərbaycan" cəmiyyəti yaradıb, ona rəhbərlik etmiş, "İstiqlal" qəzetini nəşr etdirmiış B.Babayev M.Ə.Rəsulzadənin silahdaşı idi.***

Azərbaycan televiziyasının verilişlərindən "Rəhim baba" adı ilə tanınan Beydulla Rəhim oğlu Babayev Qusar rayonunun Kiçan kəndində anadan olmuşdur. Quba Kənd Təsərrüfatı Texnikumunu və Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirərək, bir müddət Qusar rayonunun Həzrə kəndində aqronom işləmişdir.

1939-cu ildə əsgərliyə gedən Beydulla Böyük Vətən müharibəsini Sovet Ordusu sıralarında xidmət edərkən qarşılayır. Faşistlərin əsir götürdükləri gənc tezliklə əsirlikdən qaçır. Stalinin repressiyalarından qurtulmaq üçün o, İtaliyaya, oradan da Amerikaya yollanır.

Okeanın o tayında ilk dəfə "Azərbaycan" cəmiyyəti yaradaraq, 1970-ci ilə kimi ona rəhbərlik etmiş, "İstiqlal" qəzetini nəşr etdirərək, həmvətənləri arasında yaymış Beydullah mərd və savadlı insan idi. M.Ə.Rəsulzadənin məslək yoldaşı olan B.Babayev doğma vətəni Azərbaycanın aşiqi və həsrətlisi idi. Qürbət eldə uzun illər yaşamış bu adam ömrünün axırına kimi ləzgi və Azərbaycan dillərini unutmamışdı.

Nyu Cersi ştatının Trenton şəhərində yaşayan, bizneslə məşğul olan, Respublikaçılar Partiyasının üzvü olan bu adam dörd övladına da ləzgi adlarını vermişdi - İncixanım, Kərimxan, Rəhimxan, Səlimxan. B.Babayev 2004-cü ildə vəfat etmişdir.

## ЧИЛЕРБАН

***1930-йисалай инихъ чIугунвай КцIар, Къуба, Худат районрин чилерин картайра Режеб Айдазадедин тIвар фад-фад гьалтда.***

КцIар райондин Агъа Лакар хуьре 1894-йисуз дидедиз хьайи Режеб Агьаметан хва Айдазаде райондин сад лагьай чилербан хьиз сейли хьанай. Къубадин медреса акьалтIарна, Бакудин Чилерин Къурулушдин Техникумда чирвилер къачур ада 1932-йисалди Халкьдин Чилерин Комитетда кIвалахна. Хьилерин райкомдин чилерин отдел кардик кутурла адаз регьбервал гудай авай-авачир кандидат

## YER QURULUŞÇUSU

***1930-cu ildən başlayaraq, Qusar, Quba, Xudat rayonları üçün tərtib edilmiş xəritələrdə Rəcəb Aydazadənin adına tez-tez rast gəlmək olar.***

Qusar rayonunun Aşağı Ləgər kəndində 1894-cü ildə anadan olmuş Rəcəb Ağamət oğlu Aydazadə Quba mədrəsəsini bitirib, 1925-1929-cu illərdə Bakı Yerquruluşçuluğu Texnikumunda təhsil almış, 1932-ci ilədək Xalq Torpaq Komitəsində işləmişdir. Hil Rayon Partiya Komitəsinin nəzdində torpaq şöbəsinin təşkili zamanı yerquruluşçusu vəzifəsinə R.Aydazadə yeganə namizəd idi.

Р.Айдазаде тир. И жавабдар везифади хуьрерин ва кьилди ксарин арада гьуьжетар гьялдай вахтунда адаз чIехи ихтиярар гузвай.

Советрин девирда КцIар ва Къуба районрин гзаф чилерин картаяр и касди чIугунай ва КцIарин талукь идарайри абурукай къедалди менфят къачузва. Р.Айдазаде алатай асирдин 30-йисара Азербайжандинни Дагъустандин арада сергьятар тайинардайла тешкил хьайи Гьукуматдин Комиссиядин уьзви тир.



Савадлувили адаз халкьдин патай чIехи гьуьрмет гъанай. Лезги, азербайжан, урус ва араб чIалар хъсандиз чизвай ада "Къуръандай" гзаф сураяр хуралай кIелдай ва абурун манаяр ачухардай.

1941-йисан июлдиз 47 йиса аваз гуьгьуьллудаказ дяведиз фини адан характер ачухарзава. И кичI тийижир кас 1944-йисуз, вичел залан хирер хьайидалай кьулухъ ватандиз хтанай ва рикI алай кIвалах давамарнай.

Самур-Девечи къаналдихъ галаз алакъалу крар гуьнгуьна хутадайла, КцIарани Къубада багълар кутадайла, КцIар-Къуба рехъ акъуддайла, ГадацIийихуьруьн электростанция арадал гъидайла Р.Айдазадеди мукьувай иштиракнай

## КЦIАР АВАДАН АВУРДИ

***Алатай виш йисан 60-йисара Муьслуьм Муртузаеван регьбервилик кваз КцIара гзаф проектар кардик кутунай.***

Къуллугъдилай алуднавай инсан лугьуз теxедай хьтин гьуьрметдив рекье тун республикадин тарихда чIехи вакъиа тир. Келбежердай акъатай машинрин карвандихъ вишдалай гзаф машин авай. Келбежервийри вич райондин сад лагьай секретарвилин къуллугъдилай алуднавай Муьслуьм Муртузаев Бакуда кьван рекье тунай. Адаз чпин гьуьрмет ва кIанивал райондин жемятди и рекьелди къалурнай. 1970-йисан октябрдилай 1974-йисан январдалди Келбежердиз регьбервал гайи касди и гъвечIи дагъдин райондин меркез эцигунрин ва абадвилерин майдандиз, шегьердиз элкъуьрнай.

Советрин девирдин КцIар районни эцигунрай ва абадвилерай Муртузаев Муьслуьм Куьребеган хциз буржлу я. Яргъал йисара райондиз регьбервал гайи и чIехи алакьунрин иесиди Бакудай райондиз

Sovet dövründə Qusar və Quba rayonlarının torpaq bölgülərinin ilk xəritələri R.Aydazadənin iştirakı ilə tərtib edilmişdir və onlardan bu günədək müvəffəqiyyətlə istifadə olunur. R.Aydazadə nəinki respublikanın rayonlarındakı xüsusi mülkiyyətçilər, həmçinin kolxozlar, kəndlər arasındakı torpaq sərhədlərinin müəyyən edilməsində də iştirak edirdi. O, 30-cu illərdə Azərbaycanla Dağıstan arasında sərhədin təyin edilməsi üzrə təşkil edilmiş Dövlət Komissiyasının da fəal üzvü idi.

Dərin biliyi ona böyük hörmət qazandırmışdı. Ləzgi, Azərbaycan, rus və ərəb dillərini mükəmməl bilən R.Aydazadə "Quran"ın əksər surələrini əzbərdən deyir və onların mənasını şərh edirdi. 1941-ci ilin iyulunda, 47 yaşında könüllü surətdə cəbhəyə yola düşməsi bu adamın xarakteri haqqında təsəvvür yaradır. O, ağır yaralandıqdan sonra, 1944-cü ilin oktyabr ayında ordudan təxris olunaraq, öz işinə qayıtmışdır.

Samur-Dəvəçi kanalına səviyyə verilməsi, Quba və Qusar rayonlarında alma bağlarının salınması, Qusar-Quba yolunun tikintisi, Gədəzeyxür elektrik stansiyasından yüksək gərginlikli elektrik veriliş xəttinin çəkilişi R.Aydazadənin iştirakçısı olduğu iri həcmli işlərin bəziləridir.

## QUSARI ABADLAŞDIRAN

***Ötən əsrin 60-cı illərində Müslüm Murtuzayevin rəhbəriyi ilə burada bir sıra layihələr həyata keçirilmişdir.***

Tutduğu vəzifədən azad edilmiş insanın təmtəraqla yola salınması respublikamızın tarixində nadir hadisə idi. Kəlbəcərdən çıxan maşın karvanında 100-dən artıq maşın var idi. Vəzifəli şəxslər və sadə adamlar siqnal verə-verə Kəlbəcər Rayon Partiya Komitəsinin sabiq birinci katibi Müslüm Murtuzayevi Bakıya yola salırdılar. Onlar öz minnətdarlıqlarını belə bildirirdilər. 1970-ci ilin oktyabrından 1974-cü ilin yanvarına kimi Kəlbəcər rayonuna rəhbərlik etmiş M.Murtuzayev bir neçə il ərzində dağlar qoynunda yerləşən bu kiçik rayon mərkəzini tikinti-quruculuq meydanına, şəhər tipli qəsəbəyə çevirmişdi.

Qusar rayonu da quruculuq, tikinti-abadlıq işlərinə görə Murtuzayev Müslüm Kürəbəy oğluna minnətdardır. Rayona rəhbərlik etdiyi illərdə ürəyi qurub-yaratmaq eşqi ilə döyünən bu insan mərkəzdən buraya ma-

марагълу проектар гъанай ва абур кьилиз акъуднай. Алатай асирдин 60-йисара чи республикадин кIвенкIвечи районрикай сад хьиз сейли хьайи КцIар вичин архитектурадай гьа и касдиз буржлу я. Муьслуьм Муртузаеван регьбервилик кваз КцIара гзаф иер куьчеярни майданар, паркар ва багълар кутунай, гегьенш абадвилин кIвалахар кьиле тухванай.



М.Муртузаева агъадихъ галай везифайрал кIвалахна: КцIарин райкомдин парткабинетдин заведиш (1942-1944), отделдин кьил (1945-1946), райкомдин секретарь (1946-1947), райкомдин II секретарь (1947-1952), Самур-Девечи къаналдин эцигунрин политотделдин кьил (1952-1954), КцIарин райкомдин I секретарь (1954-1956), Азербайжандин КП-дин ЦК-дин жавабдар кIвалахдар (1958), КцIарин райкомдин секретарь (1958-1962), Азербайжандин КП-дин ЦК-дин колхозринни совхозрин идарадин Кировабад шегьердин отделдин партиядин тешкилатдин секретарь (1962-1963), КцIарин райкомдин секретарь (1963-1965), КцIарин райкомдин I секретарь (1965-1970), Келбежер райкомдин I секретарь (1970-1974). М.Муртузаев инсанрин рикIел яратмишунрал рикI алай, цIийивилерихъ ялдай инсан хьиз алама.

raqlı layihələr gətirmiş, onların həyata keçməsi üçün əlindən gələni etmişdir. Uzun illər respublikanın yaraşıqlı rayon mərkəzlərindən biri kimi tanınmış Qusar öz arxitekturasına görə ona minnətdardır. Yüksək zövqü ilə seçilən Müslüm Murtuzayevin rəhbərliyi altında Qusarda bir sıra yaraşıqlı küçə və meydanlar, xiyaban və bağlar salınmış, geniş abadlıq işləri görülmüşdü.

M.Murtuzayev aşağıdakı vəzifələrdə çalışmışdır: Qusar Rayon Partiya Komitəsində partiya kabinetinin müdiri (1942-1944), şöbə müdiri (1945-1946), raykom katibi (1946-1947), raykomun ikinci katibi (1947-1952), Samur-Dəvəçi kanalı tikintisi siyasi şöbəsinin müdiri (1952-1954), Qusar Rayon Partiya Komitəsinin birinci katibi (1954-1956), Azərbaycan KP MK-nın məsul işçisi (1958), Qusar Rayon Partiya Komitəsinin birinci katibi (1958-1962), Azərbaycan KP MK ərazi istehsalat kolxoz-sovxoz idarəsinin Kirovabad şəhər şöbəsinin partiya təşkilatı katibi (1962-1963), Qusar Rayon Partiya Komitəsinin katibi (1963-1965), Qusar Rayon Partiya Komitəsinin birinci katibi (1965-1970), Kəlbəcər Rayon Partiya Komitəsinin birinci katibi (1970-1974). Müslüm Murtuzayev yaddaşlarda daim axtarışlar aparan yenilikçi və yaradıcı rəhbər kimi qalmışdır.

## ПЕДИНСТИТУТДИН ДИРЕКТОР

***Дяведай залан хирер алаз хтай Ниязи Эмирбегова 1944-йисалай кIевирдалди Къубадин Муаллимрин Институтдиз регьбервал ганай.***

Ниязи Эмирбегов 1914-йисуз КцIар райондин Мучугъ хуьре дидедиз хьанай. Адан буба Муьзеффер савадлу ва алакьунар авай кас тир. Ада Бакуда машгьур миллионер Гь.З.Тагьиеван бухгалтервиле ва куьмекчивиле кIвалахнай. Гуьгъуьнлай хуьруьз хтай Муьзеффера ина мектеб кардик кутуна, муаллимвал авунай. КцIар районда савадсузвал терг авунин карда мукьувай иштирак авур Муьзеффера вичин пуд хцив - Сейфуллагьав, Тайибав ва Ниязидив кIелиз тунай.



1932-йисуз Къубадин педмектеб, 1939-йисуз АПИ-дин физикадинни математикадин факультет акьалтIарай Ниязиди КцIарин ва

## PEDİNSTİTUTUN DİREKTORU

***Müharibədə yaralanıb vətənə qayıdan Niyazi Əmirbəyov 1944-cü ildən ta bağlanana kimi Quba Müəllimlər İnstitutunun direktoru vəzifəsində çalışmışdır.***

Niyazi Əmirbəyov 1914-cü ildə Qusar rayonunun Mucuğ kəndində anadan olmuşdur. Niyazinin atası Müzəfféri savadına və bacarığına görə məşhur milyonçu H.Z.Tağıyev mühasib vəzifəsinə təyin etmişdi. Müzəffər həm də milyonçunun yaxın məsləhətçisi idi. Kəndə qayıtdıqdan sonra Müzəffər məktəb açaraq, müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Qusar rayonunda savadsızlığın ləğv olunmasında fəallıq göstərən Müzəffər 3 oğluna - Seyfullaha, Tayıba və Niyaziyə ali təhsil verir.

Niyazi 1932-ci ildə Quba pedməktəbini, 1939-cu ildə isə APİ-nin fizika-riyaziyyat fakültəsini bitirib,

Балакъусар хуьруьн мектебра муаллимвал авунай. Ватандин ЧIехи дяве къарагъайла ада гъиле яракь къунай. Дяведай залан хирер алаз хтай Н.Эмирбегова 1944-йисалай кIевирдалди Къубадин Муаллимрин Институтдиз регьбервал ганай.

1950-йисуз гилан НафтIадин Академияда кIвалахал акъвазай ада диссертация хвена, техникадин илимрин кандидатвилин тIвар къачунай. Ада и институтда, Политехнический Институтда ва гуьгъуьнлай АПИ-да доцентвиле кIвалахна. Ам 2006-йисуз 92 йиса аваз рагьметдиз фена.

Qusar şəhərində və Balaqusar kəndində müəllim işləyir. Böyük Vətən müharibəsində iştirak edən N.Əmirbəyov 1944-cü ildə ağır yaralanıb vətənə qayıdır. 1944-cü ildən ta bağlanana kimi Quba Müəllimlər İnstitutunun direktoru vəzifəsində çalışır.

1950-ci ildə Azərbaycan Neft və Kimya İnstitutuna işə düzələn N.Əmirbəyov dissertasiya müdafiə edərək, texnika elmləri namizədi elmi dərəcəsini alır. Həmin institutda, Politexnik İnstitutunda və APİ-də dosent vəzifəsində çalışan alim 2006-cı ildə 92 yaşında vəfat etmişdir.

## ЭЛ КIАНИ ИНСАН

***Наруллагь Къадимов вич маарифдин кIвалахдар тушиз “Азербайжандин маарифдин кIвенкIвечи кIвалахдар” гьуьрметдин тIварцIиз лайихлу хьанай.***



Адан алакьунар акьван зурбади, крар акьван хийирлубур тир хьи, кас вири республикадиз сейли хьанай. Ватандин ЧIехи дяведин цIаярай саламатдиз хтай Къадимов Наруллагь Имамкъулидин хва уьмуьрдин эхирдалди гьакъисагъвилелди вичин хуьруьнбурун къуллугъдал акъвазнай. Ам хайи хуьрелни хуьруьнбурал гзаф рикI алай, абурун яшайиш хъсанарун патал вири алахъунар авур инсан тир.

1950-йисуз “Яру Октябрь” колхоздиз ва гуьгъуьнлай и майишатдин бинедал тешкил хьайи М.Азизбегован тIварунихъ галай совхоздиз регьбервал гайи йисара ада хуьре гзаф эцигунарни абадвилер кьиле тухванай. Ина юкьван мектеб, аялрин бахча, азархана, идарадин дарамат, регьвер, фермаяр, чехир гьасилдай завод кардик кутунай. Манкъулидхуьруз Лечетрин хуьряй гунгаррив булахдин яд гъанай. Ам директор тир вахтунда М.Азизбегован тIварунихъ галай совхоз райондин кIвенкIвечи майишатрикай тир.

Вичин уьмуьрдин юлдаш Пакизатахъ галаз санал 11 велед чIехи авур и касди мектебдиз, муаллимриз, кIелдайбуруз иллаки къайгъударвал къалурнай. Мектебдихъ галаз алакъалу эцигунриз ада вичи регьбервал ганай. Наруллагь Къадимов 6-созывдин Азербайжан ССР-дин Верховный Советдин депутатвиле хкянай.

## ELİNƏ VURĞUN İNSAN

***Narullah Qədimov Azərbaycanda maarif sahəsinə heç bir aidiyyatı olmadığı halda “Respublikanın qabaqcıl maarif xadimi” fəxri adına layiq görülmüş nadir şəxslərdən idi.***

Onun fəaliyyət sahələri o qədər geniş, gördüyü işlər o qədər faydalı idi ki, şöhrəti Qusardan uzaqlara yayılmışdı. Böyük Vətən müharibəsinin odalovundan çıxan, İmamqulukəndə vurğun olan Qədimov Narullah İmamqulu oğlu həyatını doğma kəndinin inkişafına sərf etmiş nadir insan idi. O, həmvətənlərinin həyat tərzini yaxşılaşdırmaq üçün əlindən gələni etmişdir.

1950-ci ildə “Qırmızı Oktyabr” kolxozuna sədr, sovxozlar yarananda M.Əzizbəyov adına sovxoza direktor təyin olunan bu adamın rəhbərliyi ilə kənddə geniş tikinti-quruculuq işləri həyata keçirilmiş, əhalinin güzəranı xeyli yaxşılaşmışdı. İmamqulukənddə tikilmiş orta məktəb, uşaq bağçası, mədəniyyət evi, xəstəxana, idarə binası, elektriklə işləyən dəyirman, texniki binalar, heyvandarlıq və quşçuluq kompleksləri, fermalar, şərab istehsal edən zavod-sex onun adı ilə bağlı idi.

O, Ləcət kəndindən İmamqulukəndə bulaq suyu çəkdirmişdi. Onun dövründə M.Əzizbəyov adına sovxoz rayonun qabaqcıl təsərrüfatlarından idi və dövlət planlarını hər il artıqlaması ilə yerinə yetirirdi.

Arvadı Pakizat ilə 11 uşaq böyüdən bu insan məktəbə və məktəblilərə qarşı olduqca diqqətcil idi. Məktəblə bağlı tikinti-abadlıq işlərinə özü şəxsən rəhbərlik edirdi. Narullah Qədimov 6-cı çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdi.

## АГРОНОМРИН МУАЛЛИМ

***Ада алатай асирдин 50-йисара КцIара агрономрин несил арадиз гъанай, 20-далай гзаф жегьилриз и сенятдив агакьиз куьмекар ганай.***



Хуьлуьхъа дидедиз хьайи Садуллагьа дуьньядиз атай 15 йикъалай диде, са йисалай буба квадарнай. Кьисметди кIевера тунатIани, инсанрихъ рикI кудай, хийирлу крарихъ ялдай кас хьиз сейли хьанай. Ам кцIарвийрин рикIел фу гудай кас хьиз алама.

1928-йисуз Генжедин Зираэт ва Сенят Техникум кьилиз акъудай С.Рзаева 1930-йисуз Хьил райондин хуьруьн майишатдин отделдин кьилин агрономвиле, 1934-йисуз КцIарин МТС-дин кьилин агрономвиле кIвалахнай. Гуьгъуьнлай ам Ниждин ва Закъаталадин шуьмягъар михьдай заводрин кьилин агрономвиле тайинарнай.

Ватандин ЧIехи дяве къарагъайла гъиле яракь кьур С.Рзаев 1942-йисуз вичел залан хирер алаз аскервиляй хтанай. Адал а девирдин четин везифайрикай сад - МТС-дин директорвал ихтибар авунай. 1943-1946-йисара С.Рзаева регьбервал гайи КцIарин МТС-диз Дагъустандай ва Урусатдай гзаф машинар ва тракторар гъанай. Гьа и карди районда алава яз агъзур гектарралди цанар цадай ва кашарин вилик пад кьадай мумкинвал ганай.

1947-йисалай Калининан тIваруникхъ галай колхоздиз ва М.Горькийдин тIваруникхъ галай совхоздиз регьбервал гайи Садуллагь Рзаев бажарагълу ва нуфузлу кас тир. Адан хци Имран Рзаева 27 йис я "Азербколхозларарасысагъламлыкъ" объединенидиз регьбервал гуз. Ам 2007-йисуз Азербайжандин "Тэрэкъкъи" медалдиз лайихлу хьана.

## AQRONOMLAR MÜƏLLİMİ

***O, ötən əsrin 50-ci illərində Qusarda böyük bir aqronomlar nəsli yetişdirmiş, bu ixtisasa yiyələnməkdə 20-dək gəncə kömək göstərmişdir.***

Sadullah Rzayev Xuluq kəndində anadan olmuşdur. Dünyaya gəldiyi 15 gündən anasını, bir il sonra atasını itirsə də, həyat onu sarsıda bilmədi. İnsanlara qarşı xeyirxah olmaq elmini öyrənən S.Rzayev "çörək verən kişi" kimi elin yaddaşında qaldı.

1928-ci ildə Gəncə Ziraət və Sənət Texnikumunu bitirmiş S.Rzayev 1930-cu ildə Hil rayon kənd təsərrüfatı şöbəsinin baş aqronomu, 1934-cü ildə Qusar Rayon MTS-nin baş aqronomu işləyir. Sonradan o, Nic və Zaqatala fındıqtəmizləmə zavodlarının baş aqronomu təyin edilir.

Böyük Vətən müharibəsi başlananda əlinə silah alan S.Rzayev 1942-ci ildə ağır yaralanaraq, ordudan tərxis edilir. Vətənində ona dövrün məsul vəzifələrindən birini - MTS direktorluğunu etibar edirlər. 1943-1946-cı illərdə S.Rzayevin rəhbərlik etdiyi Qusar MTS-i bölgədə ən çox texnikaya malik müəssisə idi. Dağıstandan və Rusiyadan rayona xeyli maşın və traktor gətirən S.Rzayev təsərrüfatlarda əlavə olaraq min hektarlarla taxıl əkilməsinə, bununla da aclığın qarşısını almağa kömək etmişdir.

1947-ci ildən başlayaraq uzun illər rayonun Kalinin adına kolxozuna və M.Qorki adına sovxozuna rəhbərlik etmiş Sadullah Rzayev bacarıqlı və nüfuzlu təsərrüfat başçısı idi. Onun oğlu İmran Rzayev 27 ildir ki, "Azərbkolxozlararasısağlamlıq" Respublika Birliyinə başçılıq edir. O, 2007-ci ildə Azərbaycanın "Tərəqqi" medalına layiq görülmüşdür.

## КЪАЦУ ГЕЛЕР ТУРДИ

***Сумгаитдин 25 йисан юбилейдиз КцIарай жегьил шегьердиз адетдин тушир савкьват - 4 агъзур чинардин къелемар рекье тунай.***

Абур вичин гъилералди арадиз гъайи КцIар райондин ГьасанкIеле хуьруьн муаллим Абдуллетиф Мусаеваз "Сумгаитдин гьуьрметлу ватандаш" тIвар ганай. Гьа чIавалай гзаф йисар алатнава. Гила а къелемрикай чIехи тарар хьанва. Абуру шегьердиз ярашух гузва. Абдуллетиф муаллимдин къа-

## YAŞIL İZLƏR QOYAN

***Sumqayıtın 25 illik yubileyi təntənə ilə qeyd olunanda Qusardan gənc sənaye şəhərinə qeyri-adi hədiyyə - 4 min çinar tingi yola salındı.***

Onları öz əli ilə yetişdirmiş Qusar rayonundakı Həsənqala kəndinin sakini Abdullətif Musayev "Sumqayıtın fəxri vətəndaşı" elan olundu. O vaxtdan uzun illər keçib. Həmin tinglər indi qəddqamətli ağaclar olub, şəhərə yaraşıq verir. Abdullətif müəllimin yaşıl avtoqraflarına Qusar şəhər stadionun-

цу автографар КцIар шегьердин стадион-да, интернатдин гъенел, шегьердин куьчейрани гьалтзава. А.Мусаеван 15 агъзур къелем чи республикадин чара-чара чкайра зурба тарариз элкъвенва.



КцIар райондин ГьасанкIеле хуьре дидедиз хьайи, Къубадин педмектеб ва АПИ акьалтIарай Абдуллетиф муаллимди Худат райондин Пиркъули, КцIар райондин Балакъусар ва ГьасанкIеле мектебра муаллимвиле ва директорвиле кIвалахнай.

Ада мектебда арадиз гьайи зегьметдин бригададин суракьар вири республикадиз чкIанай. Ина адан ва биологиядин муаллим Шагьбала Жаббарован регьбервилик кваз 10 агъзурралди къелемар цанай. Рагьметдиз фенватIани, Абдуллетиф муаллимдин къацу гелери ам фадфад кцIарвийрин рикIел хкизва.

da, internat məktəbinin həyətində də rast gəlmək olar. Ümumiyyətlə, A.Musayevin yetişdirdiyi 15 mindən çox ağac respublikamızın müxtəlif guşələrində əkilmişdir.

Qusar rayonundakı Həsənqala kəndində anadan olmuş, Quba pedməktəbini və APİ-ni bitirmiş Abdullətif müəllim vaxtilə Xudat rayonunun Pirqulu, Qusar rayonunun Balaqusar və Həsənqala kənd məktəblərində müəllim və direktor işləmişdir.

Abdullətif Musayevin məktəbdə yaratdığı əmək briqadasının şöhrəti bütün respublikaya yayılmışdı. Burada onun və biologiya müəllimi Şahbala Cabbarovun rəhbərliyi ilə 10 minlərlə ağac tingi yetişdirilmişdi. İndi həyatda olmasa da, Abdullətif müəllimin yaşıl izləri insanlara bu xeyirxah adamı tez-tez xatırladır.

## ЗЕГЬМЕТДИН ИГИТ

***КцIарай Социализмдин Зегьметдин Игит лагьай гьуьрметдин тIварцIиз тек са кас - Низамеддин Агьамурадов лайихлу хьанай.***

Алатай асирдин 70-йисара Бакудин А.Къараеван тIварунихъ галай нафтIар михьдай заводдин 39-установкадиз регьбервал гайи Низамеддин Агъамурадован тIвар вири республикадиз сейли хьанай. Адан цIийи теклифар себеб яз заводди гьар йисуз пландилай артух 150 агъзур тон нафтIадин магьсулар гьасилзавай. Им санлай а чIавуз Бакудин вири машинри са йисуз серфзавай бензиндиз барабар тир.



Низамеддин Агъамурадан хва Агъамурадов 1935-йисуз КцIар райондин Хурай хуьре дидедиз хьана. Дидени буба фад квадарай ам КцIарин детдомда чIехи хьана. 1953-йисуз А.Къараеван тIварунихъ галай нафт михьдай заводда операторвиле кIвалахал акъвазай Низамеддина гуьгъуьнлай виридалайни чIехи установкадиз регьбервал гана.

Азербайжандин КП-дин XXVIII ва XXIX съездрин иштиракчи хьайи ам ЦК-дин уьзвивиле хкянай. Н.Агъамурадов гьакъисагъвилелди чIугур зегь-

## ƏMƏK QƏHRƏMANI

***Qusar rayonundan Sosialist Əməyi Qəhrəmanı fəxri adına təkcə bir adam - Nizaməddin Ağamuradov layiq görülmüşdür.***

Ötən əsrin yetmişinci illər Bakısının qaynar əmək həyatında Sosialist Əməyi Qəhrəmanı Nizaməddin Ağamuradovun xüsusi yeri var idi. Ə.Qarayev adına neftayırma zavodundakı 39-cu qurğunun rəisi Nizaməddin Ağamuradovun 30-dan artıq səmərələşdirici təklifi istehsalata tətbiq olunmuş, nəticədə hər il 150 min tondan artıq neft məhsulları istehsal olunmuşdu. Bu, o dövrdə Bakı şəhərinin minik avtomobillərinin bir illik yanacağı demək idi.

Nizaməddin Ağamurad oğlu Ağamuradov 1935-ci ildə Qusar rayonunun Xuray kəndində anadan olmuş, Qusar şəhərindəki uşaq evində tərbiyə almışdır. O, Bakı Neft Texnikumunu, sonradan isə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. 1953-cü ildə Ə.Qarayev adına neftayırma zavodunda əmək fəaliyyətinə başlamış, operator köməkçisindən qurğu rəisi vəzifəsinə kimi yüksəlmişdir.

Azərbaycan KP XXVIII və XXIX qurultaylarının

метдай Ленинан ордендиз ва гьакIни Зегьметдин Яру Пайдах ордендиз лайихлу хьанай. 1971-йисуз Социализмдин Зегьметдин Игитдин тIвар къачур адаз "Яру Гъед" орден ганай. Ада 1981-1984-йисара Баку шегьердин бензин ацIурдай станцийрин начальниквиле, гуьгъуьнлай Республикадин Кудай ЗатIарин Комитетдин идарайра инженервиле кIвалахна.

iştirakçısı olmuş, MK-nın üzvi seçilmiş, Lenin ordeni, Qırmızı Əmək Bayrağı və "Qızıl Ulduz" ordenləri ilə təltif olunmuş, 1971-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Nizaməddin Ağamuradov 1981-1984-cü illərdə Bakı şəhər benzindoldurma stansiyaları idarəsinin rəisi, sonrakı illərdə Respublika Dövlət Yanacaq Komitəsinin idarələrində mühəndis işləmişdir.

## АГЪСАКЪАЛ ЖУРНАЛИСТ

***Жегьил чIавалай журналистикадив эгечIай ада вичин уьмуьрдин эхиримжи 20 йисни рикI алай и пешедиз бахшнай.***



Селимхан Зиядханан хва Азизов 1922-йисуз КцIар райондин ЧIехи Муругърин хуьре дидедиз хьана. 1939-йисуз КцIарин педмектеб акьалтIарай ада Хуьлуьхърин, ТIигьиррин ва ЧIехи Муругърин юкьван мектебра муаллимвиле ва директорвиле кIвалахна.

Гуьгъуьнлай Азербайжандин Гьукуматдин Педагогикадин Институт тафаватлувилелди куьтягьна, Азербайжандин ИА-дин Тарихдин Институтдин диссертант хьана. Кандидатвилин диссертация хвена кIанзавай ам, Азербайжандин КП-дин ЦК-дин инструкторвиле тайинарна, пуд йисалай райкомдин заведишвиле кIвалахун патал КцIар райондиз рахкурна.

1952-1962-йисара ада "Социализмадин темп" газетдиз регьбервал ганай. Гуьгъуьнлай 20 йисуз КцIар райондин исполкомдин седридин заместителвиле кIвалахнай. С.Азизова районда мектебар, аялрин бахчаяр, медениятдин дараматар эцигуниз регьбервал гана, спорт вилик тухун патал алахъунар авунай.

Ам са шумудра райондин советдин депутатвиле хкянай. КцIарин 1-нумрадин мектебда тарихдин тарсар гайи С.Азизов дерин чирвилер ва дуьньякьатIунар авай савадлу муаллим хьиз сейли тир. Селимхан Азизова 1982-йисалай вичин уьмуьрдин эхирдалди, вичин 80 йис жедалди, санлай 20 йисуз КцIар райондин чкадин радиодин редакциядин редакторвиле кIвалахнай.

## AĞSAQQAL JURNALİST

***Hələ gənclik illərindən jurnalistika ilə məşğul olmuş Səlimxan Əzizov ömrünün son 20 ilini də sevdiyi peşəyə həsr etmişdir.***

Səlimxan Ziyadxan oğlu Əzizov 1922-ci ildə Qusar rayonunun Böyük Muruq kəndində anadan olmuşdur. 1939-cu ildə Qusar Pedaqoji Məktəbini bitirib, Xuluq, Düztahir və Böyük Muruq kəndlərində müəllim və direktor işləmişdir.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə bitirib, Azərbaycan EA-nın dissertantı olan S.Əzizov namizədlik dissertasiyasının müdafiəsi ərəfəsində Azərbaycan KP MK-nın təlimatçısı vəzifəsinə təyin olunmuşdur. 3 il sonra o, Qusar Rayon Partiya Komitəsinə şöbə müdiri vəzifəsinə göndərilmişdir.

1952-1962-ci illərdə S.Əzizov Qusar rayonunda çıxan "Sosializm tempi" qəzetinin redaktoru vəzifəsində çalışmışdır. Sonrakı 20 ildə o, fasiləsiz olaraq RİK sədrinin müavini vəzifəsində işləmişdir. Bu vəzifədə çalışarkən o, rayonda məktəb binalarının, uşaq bağçalarının, mədəniyyət evlərinin tikintisinə, parkların salınmasına, idmanın inkişafına rəhbərlik etmişdir.

S.Əzizov bir neçə çağırış rayon sovetinin deputatı seçilmişdir. O, eyni zamanda Qusar şəhər 1 saylı orta məktəbdə tarix dərslərini tədris etmiş, savadlı və nüfuzlu müəllim kimi ad-san qazanmışdır. 1982-ci ildən ömrünün sonuna kimi, 20 il fasiləsiz rayon radio verilişləri redaksiyasının redaktoru işləmiş Səlimxan Əzizov 80 yaşı tamam olana kimi həmin vəzifədə çalışmışdır.

## ЭЦИГУНРИЗ РЕГЬБЕРВАЛ ГАНА

***Азербайжан Республикадин гьукуматдин эцигунрихъ галаз алакъалу къуллугърал Шаир Гьасанова 50 йисуз ара датӀана кӀвалахнай.***



Шаир Нежмеддинан хва Гьасанов 1936-йисуз КцӀар шегьерда дидедиз хьана. Ина 2-нумрадин юкьван мектеб акьалтӀарна, Азербайжандин Политехник Институтда кӀелна. 1959-йисалай адал шумудни са регьбер везифаяр ихтибарна.

Чи республикадин шегьерра ва районра яргъал йисара кьиле фейи эцигунрин, гуьнгуьна хтунрин ва абадвилерин кӀвалахар адан тӀварцихъ галаз алакъалу я. Ада Азербайжандин хуьруьн эцигунрин министрдин I заместителвиле, министрвиле, Азербайжан Республикадин Агропромдин седридин заместителвиле, Гьукуматдин Эцигунрин Идарадин седридин заместителвиле, эцигунрин материалрин министрвиле, Азербайжандин Эцигунрин Материалрин Гьукуматдин Концерндин седривиле, республикадин коммунал майишатдин министрвиле кӀвалахна, Гьукуматдин Эцигунрин Компанидиз регьбервал гана. Ам пудра Азербайжандин Верховный Советдин депутатвиле хкяна.

Шаир Гьасанова 2006-йисалай "Самур" Лезги Милли Меркездиз регьбервал гузва.

## TİKİNTİLƏRƏ RƏHBƏRLİK ETDİ

***Azərbaycan Respublikasının dövlət tikintiləri ilə əlaqədar məsul vəzifələrdə Şair Həsənov 50 il fasiləsiz olaraq çalışmışdır.***

Şair Nəcməddin oğlu Həsənov 1936-cı ildə Qusar şəhərində anadan olmuşdur. Qusar şəhər 2 saylı rus orta məktəbini bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunda təhsil almışdır. Buranı başa vurub, öz ixtisası üzrə bir sıra yerlərdə çalışan Ş.Həsənov savadı və təşkilatçılıq bacarığı ilə seçilmiş, 1959-cu ildən etibarən rəhbər vəzifələrə irəli çəkilmişdir.

Respublikamızın şəhər və rayonlarında həyata keçirilmiş bir sıra tikinti-abadlıq, yenidənqurma işləri birbaşa onun adı ilə bağlıdır. O, Azərbaycan kənd tikintisi nazirinin I müavini, Kənd tikinti naziri, Azərbaycan Respublikası Aqrar Sənaye Birliyinin sədr müavini, Dövlət Tikinti İdarəsinin rəis müavini, tikinti materialları naziri, Azərbaycan Tikinti Materialları Dövlət Konserninin sədri, respublika kommunal təsərrüfatı naziri, Dövlət Tikinti Şirkətinin sədri vəzifələrində çalışmışdır. IX-X-XI çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

Şair Həsənov 2006-cı ildən "Samur" Ləzgi Milli Mərkəzinə rəhbərlik edir.

## ЗЕРИФАДИЗ ГЬУКУМАТДИН ПРЕМИЯ

***КцӀарин тарихда тек са инсан Азербайжан Республикадин Гьукуматдин Премиядиз лайихлу хьана - ам Зерифа Кьасумова я.***

Кировабаддин (гилан Генжедин) храдай затӀарин комбинатдин кӀвалахдар Зерифа Кьасумовадиз 1987-йисуз Азербайжан Республикадин Гьукуматдин Премия ганай. 40 йисуз ара датӀана гьакъисагьвилелди кӀвалахай и дишегьли Азербайжан ССР-дин Верховный Советдин депутатвиле хкянай, кьведра Зегьметдин Яру Пайдах ордендиз лайихлу хьанай.

КцӀар райондин Агъа Лакаррин хуьре Алибуба Шихиеван хизанда дидедиз хьайи руш аялзамаз етим амукьнай ва ам Кировабаддин етимханадиз ракъурнай. Лезги руша кьисметди вич акъудай къадим шегьерда вичиз зегьметдин гуьмбет хкажнай.

## ZƏRİFƏNİN DÖVLƏT MÜKAFATI

***Qusar rayonunun tarixində bircə nəfər Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüşdür. O, Zərifə Qasımovadır.***

Kirovabad (indiki Gəncə) toxuculuq kombinatının işçisi Zərifə Qasımova 1987-ci ildə Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüşdür. 40 il fasiləsiz olaraq həmin müəssisədə çalışmış, rəşadətli əməyi ilə fərqlənmiş bu qadın Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.

Qusar rayonunun Aşağı Ləgər kəndində Əlibaba Şixiyevin ailəsində dünyaya gəlmiş qız uşaq ikən yetim qalmış və Kirovabad uşaq evində tərbiyə almışdır. Ləzgi qızı taleyin onu qovuşdurduğu qədim şəhərdə özünə zəhmətdən abidə ucaltmışdır.

## 50 ЙИСУЗ УНИВЕРСИТЕТДА

***Чи сейли алим Бесира Керимовади 51 йис я ара датIана Бакудин Гьукуматдин Университетдин химиядин факультетда кIвалахиз.***



Химиядин илимрин кандидат, доцент Бесира Гьидаятан руш Керимова университетдин нуфузлу муаллимрикай я. Адалди гьам муаллимри, гьамни студентри дамахда. Б.Керимова 1934-йисуз КцIар райондин Макьсудхуьре дидедиз хьана. Ина юкьван мектеб акъалтIарна ам Къубадин педмектебдик экечIна. Гуьгъуьнлай Азербайжандин Гьукуматдин Университетдик экечIай руша инаг яру дипломдалди куьтягьна. Илимдал гзафни-гзаф рикI алай ам аспирантурада туна.

1967-йисуз кандидатвилин диссертация хвейи, 80-дав агакьна илимдин кIвалахрин автор тир Бесира Керимова чи республикадин тIвар-ван авай алимрикай я. Ада и кьилин вузда муаллимвал ийиз яргъал йисар я.

## “НЕФТ ДАШЛАРЫДИН” ЭНЦИКЛОПЕДИЯ

***1949-йисан 8-ноябрдиз Нефт Дашларыда нафтIадин сад лагьай къуйди фонтан авурла хвеши хьайибурук Шихзада Яралиевни квай.***



АчIавуз Шихзадади машгьур М.Каверочкинан бригадада кIвалахзавай. 2009-йисуз Нефт Дашларыдин 60-йисан юбилей къейд ийидайла и бригададай тек са кас - Шихзада Яралиев сагъ амай. Адаз ярар-дустари “Нефт дашларыдин чан алай энциклопедия” тIвар ганва.

Франциядин Бакуда авай посольствода кIвалахал акъвазай, муаллимрин арада кьиле фейи француз чIалан грамматикадиз талукьарнавай конкурсда сад лагьай чка кьур Айтен Франциядин гьукуматди кьвед лагьай гьилера стипендия тайинарна, Франциядиз кIелиз ракъурна. Ада Франциядин илимдин ахтармишунрин милли меркездихъни Къафкъаздин чIаларин меркездихъ галаз кIевелай алакъаяр хуьзва. Яргун хуьруьн нугъатдикай кхьей адан дипломдин кIвалахдилай вири муаллимар рази я.

Исятда Айтена лезги чIалан группадик акатзавай чIалар илимдин рекьяй ахтармишзава. Франциядин Практикадин Кьилин Институтдин докторантурада кIелзавай Айтеназ лингвист жез кIанзава. Ам докторвилин диссертация хуьз гьазур хьанва.

Азербайжандин Гьукуматдин НафтIадин Академия ва адан магистратура тафаватлувиледи акьалтIарай Элдара "Каспел" компанида программиствиле кIвалахзава. Ам алай вахтунда республикадин лап хъсан пешекаррикай яз гьисабзава.

2007-йисуз 692 балл кIватIна Азербайжандин Гьукуматдин НафтIадин Академиядин информатикадин-

## BABALİYEVLƏR

*Müxtəlif illərdə Qusar rayonunun Həzrə kənd orta məktəbini fərqlənmə ilə bitirmiş Babalievlər - iki bacı və iki qardaş qazandıqları uğurlarla həmyerlilərini sevindirirlər.*

Ailənin ilki Samirə Bakı Dövlət Universitetinin biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib, AMEA-nın Botanika İnstitutunun aspiranturasına daxil olmuşdur. Bu yaxınlarda namizədlik dissertasiyasını müdafiə etməyə hazırlaşır.

Azərbaycan Xarici Dillər İnstitutunun fransız dili fakültəsinin bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirən Aytənə respublikanın beş universitetinin tələbələri arasında ən yaxşı nəticə göstərdiyinə görə Fransa dövləti Strasburq şəhərində təhsilini davam etdirmək üçün təqaüd ayırmışdı. O, Strasburqun MARC BLOCH Universitetinin fransız dili fakültəsinin maqistraturasını fərqlənmə diplomu ilə başa vurmuşdur.

Fransanın Bakıdakı səfirliyində işləyən fransız dili müəllimləri üçün təşkil olunmuş və nəticələri Parisdə yoxlanılmış TSF imtahanında iştirak etmiş 26 nəfər arasında birinci yeri tutmuş Aytənə Fransa dövləti ikinci təqaüd ayırmışdı. O, bu dəfə Paris ERNE Universitetinin müqayisəli qrammatika fakültəsini fərqlənmə diplomu ilə bitirir. Onun ləzgi dilinin Yargun şivəsinə həsr etdiyi diplom işi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir.

Hazırda Aytən həmin universitetin doktoranturasında oxuyur. Bu yaxınlarda müdafiə edəcəyi dissertasiya işi Qafqaz dillərində (ləzgi, tabasaran və ağul) nitq hissələri arasındakı əlaqələrə həsr edilmişdir.

Azərbaycan Dövlət Neft Akademiyasını fərqlənmə diplomu ilə bitirən Eldar öz ixtisası üzrə akademiyanın magistraturasında pulsuz təhsil almaq üçün açılmış yeganə yerə imtahan verib qəbul olunmuşdur. Hazırda "Kaspel" şirkətində çalışan Eldar respublikamızın ən yaxşı mütəxəssislərindən sayılır.

2007-ci ildə 692 bal toplayaraq, respublikada yüksək nəticə göstərən, Azərbaycan Dövlət Neft Akade-

ни гьисабунрин техникадин факультетдик экечIай Сагьиб Президентдин стипендиядиз лайихлу хьана.

Бабалиевар чешнелу ийизвай маса крарни ава. Самиради гьеле юкьван мектебда кIелдай вахтунда лезги ва азербайжан чIаларал хуралай шиирар кIелдай. Айтенани пуд чIалал вижеваз хуралай шиирар кIелда. Вахарини стхайри Бакудин "Сувар" кьуьлерин мектебда чи халкьдин кьуьлер чирнава.

miyasının informatika və hesablama texnikası fakültəsinə qəbul olan Sahib Prezident təqaüdçüsüdür.

Babaliyevlər hərtərəfli olmaları ilə də fərqlənirlər. Dərin mütaliələri ilə seçilən onlar Bakıdakı "Suvar" rəqs məktəbində Qafqaz rəqslərinin incəliklərinə yiyələnmişlər. Doğma ləzgi dilinə vurğun olan bu gənclər bir neçə dildə əzbərdən şeir demək bacarığına da malikdirlər.

## ШАИРДИН РИКI АВАЙДИ

***Ада хразвай халичайрин чешнейри инсан гьейранарда.***

Шагь дагъдин ценерив гвай Лацарин хуьре яшамиш жезвай Тофикъ Абдулрзадин хва Балалиев вичихъ шаирдин алакьунар авай инсан я. Ада хайи хуьре са шумуд булахдал чан хкана. Элкъуьрна къванцин цла тунвай булахдин яд кварцяй авахьзава. Гьа саягъда рекьин къерехда мад са булах гуьнгуьна хтунва. Адан патав гвай тепедал экъечIнавай цIвелин тарарин кIаник кIарасдикай раснавай столни куьсрияр тунва. Рехъ атана галатнавайбур патал къайи яд хьвана, ял ягъидай вижевай чка я инаг.

Зегьметдал рикI алай Тофикъахъ мадни са алакьун ава. Вичин гьилералди эцигнавай адан кIвал халисан сенятдин эсер я: адаз кьиляй-кьилди кIарасдал атIанвай гиширрикай безекар ганва.

КIвалин къен лагьайтIа, адан гамарив ацIанва. Дегь чIаварин халичайринни сумагрин чешнейрал рикI алай Тофикъа халисан сенятдин эсерар яратмишзава. Вичин уьмуьрдин юлдаш Элнарадихъ галаз санал кьуд хва чIехи ийизвай Тофикъ патал гамарбанвал бизнес ваъ, рикI алай сенятдихъ вичин пай кутадай рехъ я.

## ŞAİR TƏBİƏTLİ İNSAN

***Onun toxuduğu xalçaların çeşniləri insanı heyran edir.***

Şahdağın ətəyindəki füsunkar Ləzə kəndində yaşayan Tofiq Abdulrza oğlu Balaliyev şair təbiətli insandır. İlhama gələndə yaradıcılıqla məşğul olur. O, kənddə bir neçə bulağın ətrafını rəngarəng daşlarla hörmüş, gözünə isə bədii tərtibat vermişdir. Səhəngdən axan bulaq suyu hamını özünə cəlb edir. Onun zövqünün və zəhmətinin nişanəsi olan bulaqlar neçə illərdir insanların istifadəsindədir. Belə bulaqlardan biri təpədə söyüd ağacının kölgəsindədir. Burada yoldan keçənlərin dincəlməsi üçün Tofiq ağacdan stol və oturacaqlar da düzəldib.

Zəhmətkeşliyi ilə tanınan Tofiq həm də yaxşı dülgərdir. Onun evi əsl sənət əsəridir. Onun əlləri ilə ucaldılmış bu ev başdan-başa taxta üzərində oyma işləri ilə bəzədilmişdir.



Evin içərisini isə Tofiqin toxuduğu xalça və sumaqlar bəzəyir. Qədim ləzgi xalça və sumaqlarının çeşnilərinə üstünlük verən xalçaçı əsl sənət nümunələri yaradır. Həyat yoldaşı Elnarə ilə dörd oğul böyüdən Tofiq çoxlu sifarişlər alır. Lakin o, bu sənətlə biznes naminə məşğul olmadığını, sadəcə qəlbindəki duyğuları naxışlara köçürdüyünü deyir.

| **КЦIАРВИЙРИН ГАФАЛАГ** | **QUSARLILARIN LÜĞƏTİNDƏN** |
|---|---|
| *Агар* | *yaylaq* |
| *Азим* | *çoxlu* |
| *Аяр* | *gözəl* |
| *Агъалар* | *saman* |
| *Баржагъан* | *kiçik döşək* |
| *Барза* | *dağ meşəsinin örüşü* |
| *Варзаван* | *fərsiz adam* |
| *Бута (гъуьрчехъанри гъуьрч виливди хуьн патал къванерикай туькIуьрдай чка)* | *pusqu (ovçuların ovu izləməsi üçün daşlardan düzəltdikləri yer)* |
| *Вурв* | *bərəkət* |
| *Гаргам* | *tərə növü* |
| *Гилгам* | *ağacın hamar gövdəsi* |
| *Гирт* | *lap çox* |
| *Гугъри* | *şaftalı* |
| *ГургутI* | *sıfir* |
| *Гурава* | *pis niyyət* |
| *ГурганчIар* | *yəhər saçaqları* |
| *Гурмагъ* | *baca* |
| *ГъапIитI* | *pinti* |
| *Гьертеш* | *genəlmiş* |
| *Дамбул* | *gavalı* |
| *Дестен* | *fikir* |
| *Девах* | *xala* |
| *Жиреяр* | *hərisi alınan qızın evinə göndərilən ərzaq* |
| *Зулун аял* | *valideynləri yaşlı ikən doğulmuş uşaq* |
| *ЗакIан* | *bir tondan artıq taxıl tutan qab* |
| *Зумул* | *evdə gizlin yol* |
| *Калун* | *çay kənarında düzənlik* |
| *Кандурагъ* | *saqqız* |
| *Квач (нацIадикай раснавай какаяр хуьдай къаб)* | *qamışdan toxunmuş yumurta qabı* |
| *Кести (хьрак кутадай чепедин ягълав)* | *xərəkdə istifadə olunan saxsı tava* |

| | |
|---|---|
| *Куз* | *qoyun yatağı* |
| *Куд* | *pətək* |
| *Кутар* | *kuzə* |
| *КутIал* | *səbət* |
| *Кушаяр (гъилибанар)* | *nökərlər* |
| *Кхел (бурандин къен михьдай алат)* | *boranı içi təmizləyən alət* |
| *КъанатI* | *sözanlamaz* |
| *Къасават* | *ürəyi ağlayan* |
| *КъакъацI* | *ağac göbələyi* |
| *Къарбуяр* | *cır armud* |
| *Къайсархана* | *buzxana* |
| *Къаят* | *kifayətdir* |
| *Къуба* | *oymaq* |
| *КьитI (кьев)* | *elti* |
| *Кьудялар (къубавияр)* | *qubalılar* |
| *КIаштIи* | *gavalı sortu* |
| *КIемер (эвягъайла авахьдай чIарар)* | *darananda tökülən saçlar* |
| *КIемпил* | *liliput* |
| *Ланж (хъвадай цин вир)* | *içməli su hovuzu* |
| *Лац* | *əfsanəvi uçan gəmi* |
| *Лукь* | *dəridən düzəldilmiş içməli su qabı* |
| *Лурс* | *əvəlik* |
| *Мамургъан* | *yara dərmanı* |
| *Мант* | *zərərli ağac göbələyi* |
| *Марву* | *cökə çiçəyi* |
| *Мац* | *kiçik çeşmə* |
| *Мегьреб* | *dərə* |
| *МеркIи* | *şəlalə* |
| *Мукук* | *yumaq, kələf* |
| *Муьрц* | *uşaq doğan ananın sancısı* |
| *Никь* | *çənə* |
| *НикьитI* | *sözbaz* |
| *Пали (пIини)* | *gilas* |
| *Пампили (лилибан)* | *yelləncək* |
| *Пили (пепе)* | *cücü* |
| *Пили* | *suçu* |
| *Пергер* | *möhkəm* |
| *Пецил* | *aftafa* |
| *Пурцух* | *gombul* |

| | |
|---|---|
| *ПIадан (цурцун цIиб )* | *mis parç* |
| *ПIачIах* | *saçı dağınıq* |
| *ПIверх* | *məktub* |
| *ПIузкьелечI* | *kəlbətin* |
| *Самарган (муьхц)* | *pəyə* |
| *Самурган* | *kəpkir* |
| *Самбур* | *qarmaqarışıq* |
| *СветI* | *hünü* |
| *Севт* | *əks-səda* |
| *Сед* | *müsibət* |
| *Семе* | *ağılsız* |
| *Семерар* | *samandan toxunmuş yəhər* |
| *Семизан* | *xırman* |
| *Сересар* | *eyvanlar* |
| *Сив (дагъдин къуш)* | *siv (dağ quşu)* |
| *Силибир* | *yaylaq və çiçək adı* |
| *Сиягь* | *vecsiz* |
| *Сулук (суфи тарикъатдин шейхери кьилди ибадатдай кIеви чка)* | *sufi təriqətindən olan şeyxlərin ayrıca ibadət yeri* |
| *Снарар* | *belflor alması* |
| *СтIам (рагъалаг)* | *ərsin* |
| *Таркв* | *həvəngdəstə* |
| *Термил* | *tavanı döyəcləmək üçün xüsusi çəkic* |
| *Тикъил* | *qurudulmuş təzək* |
| *Тулаба* | *yarımçıq* |
| *Туьтуь* | *tütüyə* |
| *ТIатIаб* | *baldırğan* |
| *ТIес* | *saman şapka* |
| *ТIинкь* | *nöqtə* |
| *Успагьи* | *gözəl* |
| *РипицI* | *balacaboy adam* |
| *Уму* | *mülayim hava* |
| *Фирн* | *ölü buz* |
| *ХвацI* | *erkək uşaq* |
| *Херцелаг* | *yəhərlik* |
| *Хурчарар* | *heybə* |
| *Хьалаш* | *böyük alaq* |
| *Хьархьам* | *vecsiz adam* |
| *ЦипIрепI* | *qara tut* |

| | |
|---|---|
| *Цуьргъуь (хуз)* | *eşşəkarısı* |
| *ЦIуьнтIуь* | *xırda qar* |
| *ЦIангу* | *gəzəyən qadın* |
| *ЦIангур* | *baldırğan zoğu* |
| *Цlарни* | *yaşıl lobya* |
| *ЦIигъцIигъан* | *skripka* |
| *ЦIидгъай* | *əyri yol* |
| *Цlимпlих* | *körpə* |
| *ЦIитI* | *nida* |
| *Чалаг* | *qanad* |
| *Чахчахар* | *çəpər* |
| *Чиланбар* | *suda bitən ağac* |
| *Чин (баскIум)* | *oraq* |
| *ЧикIебанар* | *üstüaçıq çəkmə* |
| *Чупаз* | *tut* |
| *ЧIарба* | *qalın tüklü adam* |
| *ЧIагуг* | *farağat* |
| *ЧIамха* | *armud növü* |
| *ЧIафарар* | *gavalı növü* |
| *ЧIеми* | *dumanlı* |
| *ЧIикь* | *dərz bağlamaq üçün ip* |
| *ЧIимчIир* | *çəlimsiz adam* |
| *ЧIугъ* | *dərə* |
| *ЧIух* | *yanıq* |
| *ШапI* | *möhür* |
| *Шеври* | *şorgöz* |
| *ШиблитI* | *bünövrə* |
| *Шираз* | *dövrələmə eyvanlar* |
| *Элкъвер* | *vergül* |
| *ЭкIерар* | *əriştə* |
| *Ягъв* | *dağ döşü* |
| *Яргъияр* | *sicilləmə* |
| *Ятаб* | *birlikdə* |

# КЦӀАРВИЙРИ ЛУГЪУДА...



# QUSARLILAR DEYİRLƏR...

КцӀарвийрин гъар са мисалда лезги халкьдин агъзур йисарин ахлакьдин ивирар ава. ДатӀана хъсанвилерихъ ялдай, сая ва инсафлу ксар я кцӀарвияр. Гъавиляй чпин веледриз акьулар гудайла абуру икӀ лугъуда:

◆ *Инсанриз анжах хъсанвал ая - жуван рикӀиз регьят хьурай.*

◆ *Масабурун ахваррални мурадрал хъуьремир. Аллагьдиз кӀан хьайила члаф тарцини цуьк акъудда.*

◆ *Яргъалди уьмуьр гьализ кӀанзаватӀа, рикӀе анжах кӀанивилиз чка ая. ТакӀанвилер жував агудмир.*

◆ *Са гъвечӀи хъилев чӀехи дуствал чукӀуриз тамир. Жува авур гъалатӀ хиве кьуникай регъуь жемир.*

◆ *Хайибурукай рикӀ хайила гафарал фимир, секиндаказ абурувай яргъал хьухь. Са куьруь вахтундилай гьарадаз вичин гъалатӀар аквада.*

◆ *Масадан дердинин вилик кьил агъуз, жуван дердинин вилик хкаж.*

◆ *Жуван гафунал амал ая.*

◆ *Гьахъ гафунилай элячӀмир.*

◆ *Гьар са карда итимвилин гел тур.*

◆ *ТӀвар хвейида къулни хуьда.*

◆ *Шагь дагъ хьтин такабурлуди, Шарвили хьтин кьегьалди хьухь!*

Qusarlıların hər məsəlində xalqın min illərdən bəri yetirdiyi əxlaqi məzmun var. Daim yaxşılıq etməyə çalışan, sadə və düzünə insanlardır qusarlılar. Ona görə də övladlarına nəsihət edəndə onlar belə deyirlər:

◆ *İnsanlara ancaq yaxşılıq elə - qoy ürəyin rahat olsun.*

◆ *Başqalarının yuxularına və arzularına lağ etmə. Allah istəsə quru kötük də gül açar.*

◆ *Uzun ömür sürmək istəyirsənsə, ürəyində ancaq məhəbbətə yer ayır. Nifrəti özünə yaxın qoyma.*

◆ *Kiçik küsüyə görə böyük dostluğun uçurulmasına imkan vermə. Öz səhvini düzəltməkdən utanma.*

◆ *Doğmalarından inciyəndə sözləşmə, onlardan sakitcə uzaqlaş. Az vaxtdan sonra hər kəs öz təqsirini başa düşəcək.*

◆ *Özgə dərdi qarşısında başını əy, öz dərdinin qabağında başını uca tut.*

◆ *Verdiyin sözə əməl et.*

◆ *Haqqdan keçmə.*

◆ *Hər işdə kişi kimi iz qoy.*

◆ *Adını qoruyan, yurdunu da qoruyar.*

◆ *Şahdağ kimi qürürlu, Şarvili kimi igid ol!*

# ГЬАР ШИКИЛ СА ТАРИХ Я HƏR ŞƏKİL BİR TARİXDİR









# ГЪАР ШИКИЛ СА ТАРИХ Я

# HƏR ŞƏKİL BİR TARİXDİR













# ГЪАР ШИКИЛ СА ТАРИХ Я

# HƏR ŞƏKİL BİR TARİXDİR













# X

## ЯРГЪАЛ УЬМУЬР ГЪАЛЗАВАЙБУР



## UZUNÖMÜRLÜLƏR

***Гьар лепе кьерев агакьдач.***
*Азербайжан халкьдин мисал*

## ТАЙ АВАЧИР МАКАН

Геронтологиядихъ (яргъалди уьмуьр гьалунин сирер чирзавай илимдихъ) галаз машгъул жезвайбур патал КцIар асул тежрибадин мектеб я. ТIебиатди гьар жуьредин иервилер бахшнавай и район михьи гьавадални серин булахралди вириниз сейли я. Дегь чIаварилай лежбервиливни малдарвилив машгъул хьайи, тIебиатдин бул няметрикай менфят къачур кцIарвияр сагъламвилелдини тафаватлу тир.

Арабрин къадим "Малте Брун" ктабда лезгияр кьакьан буйдин, акунар авай, къуватлу ва сагълам инсанар тирди къейд авунва. Ана кхьенва: "Лезгийри пара яшамишда. Идан себеб ам я хьи, абуру тIимил ва михьи ризкьи неда. Абурун уьлкведин гьава михьи я ва абуру чпин яшайишдин чкаяр михьиз хуьда".

КцIара хьайи, ина илимдин ахтармишунар тухвай урусрин машгъур натуралист алим Раддеди

***Hər ləpə sahilə çatmaz.***
*Azərbaycan atalar sözü*

## BƏNZƏRSİZ MƏKAN

Qusar herontoloqlar (uzunömürlülüyün sirlərini öyrənənlər) üçün əsl təcrübə məktəbidir. Gözəlliklərlə zəngin olan rayon bənzərsiz təbiəti, saf havası, soyuq bulaqları ilə məşhurdur. Qədim zamanlardan əkinçilik və maldarlıqla məşğul olan yerli sakinlər üçün fiziki əməklə məşğul olmaq həyat tərzi olmuşdur. Loğman təbiətin səxavətlə bəxş etdiyi nemətlərdən bol-bol istifadə edən qusarlılar möhkəm sağlamlıqları ilə seçilmişlər.

Ərəblərin qədim "Malte Brun" kitabında ləzgilərin uca boylu, göyçək, qüvvətli və sağlam insanlar olduğu qeyd edilir. Orada yazılmışdır: "Ləzgilər uzun ömür sürürlər. Bunun səbəbi odur ki, onlar az və təmiz qida qəbul edirlər. Onların ölkəsinin havası təmizdir və onlar özləri də yaşayış yerlərinin təmizliyini qoruyub saxlayırlar".

Qusarda olmuş, burada elmi müşahidələr aparmış məşhur rus naturalist alimi Radde 1885-ci ildə yaz-

1885-йисуз икI кхьенай: “Лезгийри набататрикай лугьуз тежедай кьван хийирлу дарманар гьазурзава. Са хуьре зал набататрикай 100-далай виниз дарманар гьазурнавай, вичин яшар 110-дав агакьнавай са кьуьзек дуьшуьш хьана. Адаз вирида “лукьман” лугьузвай. Хуьруьнбуру тестикьарзавайвал, адалай гьихьтин хьайитIани начагъвилериз чара ийиз алакьдай. Са шумуд йис инлай вилик хуьруьз атай вабадикай 20 кас начагъ хьанай. Лукьманди вичин дарманрин куьмекдалди абур сагъарнай ва анжах са аял кьенай. Кьуьзекан дарманханада хирер, агъургъан, верем, ваба, цIегьер, цIаяр, уьгьуь, гъура, хума, хъутур, фул, кIарабдин тIалар, къен фидай азар сагъардай, гьакI къен хадай гзаф дарманар авай...”

140 йисуз яшамиш хьайи тIигьиржалви Нуьзуьр бубади, 121 йиса аваз вичин дуьнья дегишарай халичайрин устIар Зибейда Шейдаевади КцIарин тIвар сейли авунай. Райондай 100-120 йисуз уьмуьр гьалай цIудралди баядрин устадар акъатна.

Тек са Хьилерин хуьре 105-120 йис уьмуьр гьалай 20-далай гзаф инсан яшамиш хьанай. Атлухан Атлуханова, Балабег Балабегова, Лейли Адыгуьзеловади, Суьрме Къурбановади, Руьстем Бекерова, Гилавар Хазриева, Макьсуд Суьлейманова, Ханумагъа Рзахановади, Зерлу Заловади ва масабуру тIалквал тийижиз уьмуьр гьалнай.

Вурвуви Айда Шейдабеган хва Имам Шамилан дустарикай тир. 80 йиса авайла Меккедиз гьаждал фейи ам 1935-йисуз 110 яшинда аваз рагьметдиз фенай.

Хурайрин хуьруьнэгьли Фетулла Гьуьсейнова 2008-йисуз 105 йиса аваз вичин дуьнья дегишарна. 2010-йисуз адан папан - Незигье Мутудин рушан 100 йис тамам хьана. Яргъал йисара санал уьмуьр гьалай абурухъ 9 велед, гзаф хтулар, штулар ава.

Халькьдихъ яргъал уьмуьр гьалзавай инсанар гзаф хьун дуьшуьшдин кар туш. Ина тIебиатдин къулайвилери хьиз, инсанрин рафтарвилерини чIехи роль къугъвазва. Гьеле Страбона кхьейвал, лезгийри неинки чпин, гьакIни патан халкьарин кьуьзуьбуруз гьуьрметда. Хизанда кьуьзуьбуруз гьуьрмет авунин нетижа яз чахъ яргъал уьмуьр гьалзавай ксарни гзаф ава. Абур зегьметдални хъсан къилихрал рикI алаз чпин сагъламвал, инсаниятвал хуьз алакьзавайбур я. ИкI уьмуьр гьалун бахтлувал я. Дагъустандин халькьдин шаир Шагь-Эмир Мурадова лагьайвал: “Уьмуьр гьална кьуьзуь хьунни бахт я, бахт!”

И кьил чна яргъал уьмуьр гьалай са бязи инсанриз бахшзава.

mışdır: “Ləzgilər dərman bitkilərindən olduqca qiymətli məlhəmlər hazırlayırlar. Bir kənddə mənə bitkilərdən 100-dən artıq dərman düzəldən, yaşı 110-u ötmüş bir qoca rast gəldi. Hamı onu “loğman” deyə çağırırdı. Kənd camaatının dediyi kimi, o, bir sıra xəstəlikləri sağalda bilirdi. Bir neçə il bundan əvvəl kənddə 20 adam vəbaya tutulmuşdu. Loğman öz əlləri ilə hazırladığı dərmanların köməyi ilə onları sağaltmış, yalnız bir uşağı xilas edə bilməmişdi. Qocanın əczaxanasında müxtəlif yaraları, səpgiləri, vərəm, vəba, qızılca, qızdırma, öskürək, qotur, üşütmə, sümük ağrıları, ishal və başqa xəstəlikləri müalicə etmək üçün çoxlu dərmanlar var idi...”

140 il ömür sürmüş Tahircal kənd sakini Nüzür baba, 121 il yaşamış məşhur xalça ustası Zibeydə Şeydayeva kimi uzunömürlülər Qusarı şöhrətləndirmişlər. Rayondan 100-120 il ömür sürmüş neçə-neçə bayatı ustası çıxmışdır.

Təkcə Hil kəndində 20-dən çox insan 105-120 il ömür sürmüşdür. Atluxan Atluxanov, Balabəy Balabəyov, Leyli Adıgözəlova, Sürmə Qurbanova, Rüstəm Bəkərov, Gilavar Xəzriyev, Maqsud Süleymanov, Xanımağa Rzaxanova, Zərli Zalova və başqaları ömürlərinin sonuna kimi xəstəlik bilmədən yaşamışlar.

Urvalı Ayda Şeydabəy oğlu İmam Şamilin dostu idi. 80 yaşında piyada həccə getmiş bu ağsaqqal 1935-ci ildə 110 yaşında vəfat etmişdir.

Xuray kəndinin sakini Fətulla Hüseynov 2008-ci ildə 105 yaşında dünyasını dəyişmişdir. 2010-cu ildə onun arvadı Nəzihə Mutu qızının 100 yaşı tamam olmuşdur. Uzun illər bir yerdə ömür sürmüş bu qocaman insanların 9 övladı, çoxlu nəvə, nəticə və kötücələri var.

Xalqın uzunömürlülərinin çox olması təsadüfi deyil. Burada təbii amillərlə yanaşı insani münasibətlər də böyük rol oynayır. Hələ Strabon yazmışdı ki, ləzgilər nəinki özlərinin, hətta başqa xalqların qocalarına da hörmətlə yanaşırlar. Ailədə yaşlılara hörmət bəslənməsinin nəticəsidir ki, Qusarda uzunömürlülər çoxdur. Onlar zəhmətkeşliyi, xoş xasiyyətliyi, insanpərvərliyi ilə seçilən, sağlamlıqlarını qorumağı bacaran insanlardır. Belə ömür sürmək xoşbəxtlikdir. Məşhur ləzgi yazarı, Dağıstanın xalq şairi Şah-Əmir Muradovun yazdığı kimi: “Ömür sürüb qocalmaq da bəxtdir, bəxt!”

Bu fəsildə Qusar uzunömürlülərinin bir neçəsi haqqında məlumat veririk.

## СЕЙЛИ ГАМАРБАН

***121 йисуз уьмуьр гьалай Зибейда Шейдаева чи республикадин халичачивилин тарихда тIвар гьатай зурба сеняткар я. Галайвал авунайтIа, адан тIвар Гиннесан рекордрин ктабда гьатдай.***

Зибейда Микаилан руш Шейдаева 1860-йисуз Къуба уезддин Хьилерин хуьре дидедиз хьана. Ада халичаяр хран вичин диде Первиназавай чирнай. 106 йисуз уьмуьр гьалай Первиназа 40-далай виниз чешнеяр хранай. Сифте яз "Сафар" чешне гьада арадал гъанай. Исятда Куьре пата и чешнедин 3 жуьре ама.



М.Челебов. "Гамарбан Зибейда"
M.Çələbov. "Xalçaçı Zibeydə"

1874-йисалай халичаяр храз эгечIай Зибейда Шейдаева куьгьне девирда мануфактурадин уьзви тир, ада кIвале гамар, сумагар, рухар храдай. 1924-йисуз КцIарин "Сумаг" артелда кIвалахал акъвазай ам гуьгъуьнлай Къубадиз куьч хьанай ва гьана вичин кIвалах давамарнай. Вич Ленинан ва Зегьметдин Яру Пайдах орденриз лайихлу хьайи З.Шейдаевадин 100 йисан зегьметдин юбилей 1974-йисуз Къуба шегьерда гурлудиз къейд авунай. И мярекатдиз республикадин чIехибурни атанай. Азербайжандин Верховный Советдин кьил Къурбан Хелилова Азербайжандин КП-дин ЦК-дин сад лагьай секретарь Гьейдар Алиеван юбилярдиз тебрикдин чар кIелнай.

Зибейда бадедин са кьадар халичаяр исятдани дуьньядин музейра хуьзва. Ада "Зарлу Зибейда", "КIеле", "Гатфар", "Ислягьвилин лиф", "Солмаз", "Яру гъед", "Хунчаяр", "Шагь дагъ" хьтин цIийи чешнеяр арадал гъанай. Сеняткар 1981-йисуз 121 йиса аваз рагьметдиз фенай. Ада вичин гъуьлуьхъ Шихбаладихъ галаз санал 4 хва чIехи авунай. Гьажибуба, Шихмегьамед, АбдулмутIалим ва Зикруллагь къуьзуь чIавуз, ингье чпин дидедилай вилик рагьметдиз фенай.



## MƏŞHUR XALÇAÇI

***121 il ömür sürmüş Zibeydə Mikayıl qızı Şeydayeva adı respublikamızın xalçaçılıq sənəti tarixinə düşmüş böyük sənətkardır. Səy göstərən olsaydı, onun adı Ginnesin rekordlar kitabına düşə bilərdi.***

Zibeydə Mikayıl qızı Şeydayeva 1860-cı ildə Quba qəzasının Hil kəndində anadan olmuşdur. O, xalçaçılıq sənətini anası Pərvinazdan öyrənmişdir. 106 il ömür sürmüş Pərvinaz 40-dan artıq çeşni toxumuşdur. O, məşhur "Safar" çeşnisinin yaradıcısıdır. Hazırda Küre tərəfdə həmin çeşninin 3 növü toxunur.

1874-cü ildə əmək fəaliyyətinə başlamış Zibeydə çar Rusiyası dövründə manufaktura üzvü olmuş, evdə palaz, xalça, sumaq toxumuşdur. 1924-cü ildən o, Qusardakı "Sumaq" xalça emalatxanasının üzvü olmuşdur. Sonradan Qubaya köçmüş, orada əmək fəaliyyətini davam etdirmişdir.

Lenin ordeni və "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuş Zibeydə Şeydayevanın əmək fəaliyyətinin 100 illiyi 1974-cü ildə Qubada təntənə ilə qeyd olunmuşdur. Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevin yubilyara təbrik məktubunu Respublika Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov oxumuşdur.

Zibeydə nənənin toxuduğu onlarca xalça dünya muzeylərində saxlanır. Onların arasında "Zərli Zibeydə", "Qala", "Bahar", "Sülh göyərçini", "Solmaz", "Qırmızı ulduz", "Xonçalar", "Şahdağ" kimi yeni çeşnilər də vardır. Zibeydə Şeydayeva 1981-ci ildə 121 yaşında vəfat etmişdir. O, əri Şıxbala ilə birlikdə dörd oğul böyütmüşdür. Hacıbaba, Şixməhəmməd, Abdulmütəllim və Zikrullah ahıl yaşlarında, lakin uzunömürlü analarından çox-çox əvvəl dünyalarını dəyişmişlər.

## ЧИЛИН ШАРДИН КЬУЬЗУЬДИ

***Сейли сеняткар Сеттар Бегьлулзадеди 140 йиса авай Нуьзуьр бубадин портрет чIугунай, шаирар тир Гьуьсейн Гьуьсейнзадедини Нариман Гьесензадеди адаз шиирар бахшнай.***

КцIар райондин ТIигьиржал хуьряй тир Нуьзуьр Мустафадин хва Мустафаева 140 йисуз уьмуьр гьалнай. Вичин уьмуьр чубанвиле фейи ам пудра эвленмиш хьанай, адаз 6 велед хьанай. 140 йисуз тIал-квал чин тийиз, гьалал зегьметдалди уьмуьр гьалай ам, верцIи ихтилатрал илигдай, хуьр кIани, хуьруьнбуруз кIани инсан тир.

Нуьзуьр бубадихъ гзафни-гзаф кьетIенвилер авай. Адаз пехилвал вуч ятIа чидачир. Хуьруьнбуруз адан сивяй садра кьванни масадан рикIик хукIурдай гаф ван атаначир. Вичихъ шаирдин рикI авай и кас гзаф чIавуз тIебиатдин къужахда жедай. Дагъларал, яйлахрал, тамарал ашукь тир ада акатай затI недачир.

## ЧАН АЛАЙ ТАРИХ

***101 йиса аваз рагьметдиз фейи Баламет Баламетовал "чан алай тарих" тIвар алай. Са шумуд къурулуш ва гьукумат акур и касдихъ аламатдин зигьин авай.***

Са чIавуз Азербайжандиз регьбервал гайи М.Ж.Багьирова Баламет Баламетов маса кадрийриз чешне къалурдай. Ада вичин уьмуьр кьиляйкьилди гьукуматдин кIвалахдиз серфнай. И касдиз са шумудра И.В.Сталинахъ галаз гуьруьшмиш хьун несиб хьанай. Ара-ара Оржоникидзедин, Маленкован ва Куйбышеван кьилив фейи ам машгьур инкъилабчи Мирбешир Кьасумовахъ галаз санал Михаил Калининан мугьман хьанай. Гьейдар Алиев жегьил береда сифте яз Нахчиванда кIвалахал акъвазайла Б.Баламетова адаз хийирдуьа ганай. Уьзейир Гьажибегов, Самед Вургьун, Мирзе Ибрагьимов, Сулейман Руьстем, Рамазан Халилов хьтин инсанрихъ галаз дуствал авунай ада.



Баламет Юземмедан хва Баламетов 1906-йисуз КцIар райондин Уьнуьгърин хуьре дидедиз хьана. Ина мектеб акьалтIарна Къуба округдин комсомолдин комитетда, гуьгъуьнлай Гьил райондин парт-

## PLANETİN QOCAMANI

***Məşhur fırça ustası Səttar Bəhlulzadə 140 yaşlı Nüzür babanın portretini yaratmış, bir çox şairlər, o cümlədən Nəriman Həsənzadə və Hüseyn Hüseynzadə ona şeirlər həsr etmişlər.***

Qusar rayonunun Tahircal kəndində yaşamış Nüzür Mustafa oğlu Mustafayev 140 il ömür sürmüşdür. Ömrünü çobanlıqda keçirmiş Nüzür baba 3 dəfə evlənmiş, onun 6 övladı olmuşdur. 140 il xəstəlik bilmədən, halal zəhmətlə yaşamış bu söhbətcil, elcanlı adam kənddə böyük hörmət sahibi idi.

Bu mülayim təbiətli xeyirxah adamın özünəməxsus xüsusiyyətləri var idi. O, paxıllıq nə olduğunu bilməzdi. Kənd adamları bircə dəfə də olsun onun dilindən kobud söz eşitməmişdilər. Şair təbiətli bu insan dağlara, yaylaqlara, meşələrə vurğun idi, elə buna görə də vaxtının çoxunu təbiətin qoynunda keçirərdi. O, hər şeyi yeməzdi, təzə ət və ağartı onun ən çox istifadə etdiyi ərzaq idi.

## CANLI TARİX

***101 yaşında vəfat etmiş Balamət Balamətovu çoxları "canlı tarix" adlandırırdı. Bir neçə ictimai-siyasi quruluşun şahidi olmuş bu adamın fenomenal yaddaşı var idi.***

Bir vaxtlar Azərbaycana rəhbərlik etmiş Mircəfər Bağırov Balamət Balamətovu başqa kadrlara nümunə göstərərdi. O, özünü başdan-başa dövlət işinə həsr etmiş nadir insan idi. Ona bir neçə dəfə İ.V.Stalinlə görüşmək nəsib olmuşdu. Orconikidze, Malenkov və Kuybışevlə dəfələrlə görüşmüş, məşhur inqilabçı Mirbəşir Qasımovla birlikdə Mixail Kalininin qonağı olmuşdu. Naxçıvanda işləyərkən gənc Heydər Əliyevə partiya işində ilk xeyir-duanı vermiş B.Balamətov Üzeyir Hacıbəyov, Səməd Vurğun, Mirzə İbrahimov, Süleyman Rüstəm, Ramazan Xəlilov kimi insanlarla dostluq edirdi.

Balamət Yüzəhməd oğlu Balamətov 1906-cı ildə Qusar rayonunun Əniğ kəndində anadan olmuşdur. Kənd məktəbini bitirib, Quba Qəza Komsomol Komitəsində, sonradan Hil Rayon Partiya Komitəsində təlimatçı vəzifəsində işləmişdir. 1933-cü ildə Bakı

комда инструкторвиле кIвалахна. 1933-йисуз Бакудин Партиядин Мектеб акьалтIарна, КцIарин РИК-дин седридин заместителвиле ва седривиле кIвалахна. Б.Баламетов кьведра - 1937-1942 ва 1951-1957-йисара Нахчиван АССР-дин Халкьдин Комиссаррин Советдин седри хьана.

1942-1947-йисара КцIариз регьбервал гайи Б.Баламетова гуьнгуьнай акъатнавай мадарат, хуьруьн майишат кIвачел аххьалдарна, дяведин залан йисара халкьдив каш чIугваз тунач. 1947-йисуз Б.Баламетов Нахчивандин Министррин Советдин седривиле тайинарна. И къуллугъдал ада 1951-йисалди кIвалахна. Ингье вич Азербайжан ССР-дин ва СССР-дин Верховный Советрин депутатвиле хкягъай, Москвадин Вини Дережадин Партиядин Мектеб акьалтIарай, кьве Ленинан орден ва “Яру Пайдах” орден къачур и нуфузлу кас вили къачузвачирбуру ам вичин къуллугъдилай алудна, Бакуда кIвалин дустагъ авуна. ЧIулав цифер цIуд йисалай чкIана. 1961-йисуз ам республикадин финансрин министерствода ревизорвиле кIвалахал акъвазна, гуьгъуьнлай ина кьилин ревизор хьана. 1986-йисалай республикадин персональный пенсионер тир Б.Баламетов 2007-йисуз 101 йиса аваз рагьметдиз фена.

## БАЯДРИН УСТАД

***Ам хуьруьнбурун арада баядрин устад хьиз сейли тир. Гзаф маналу, рикIиз эсердай баядар теснифай и дишегьлиди вичин рикIин тIалар цIарариз элкъуьрнай.***



Къилагъубада дидедиз хьана, гьанани рагьметдиз фейи Шейдаева Ана Къазагьмедан руша 110 йисуз уьмуьр гьалнай. ГьикI ятIани и иер дишегьлидиз веледар кьисмет хьанач. Ада вичин уьмуьр, кIанивал мукьва-кьилийрин аялриз бахш авуна. Хуьряй тек садра акъатай, Бакудиз фена хтай Ана бадеди тIал-квал тийижиз яшамишна. Эхиримжи йикъалди кIвачел хьайи, гзаф зегьметчи, хъсанвилерихъ ялай и къени къилихрин дишегьлиди хуралай кIелай баядар къени элдин мецел алама. Абурукай сад генани машгьур я:

*Къакьан къавун аскIан чIере,*
*ЧIередаллай зулун фере,*
*Перемдин хел са чIук дере,*
*Вуч хъсан тир руш тир бере.*

Ali Partiya Məktəbini bitirdikdən sonra o, Qusar RİK sədrinin müavini və sədri vəzifələrində çalışmışdır. B.Balamətov iki dəfə -1937-1942 və 1951-1957-ci illərdə Naxçıvan MSSR Xalq Komissarları Sovetinin sədri təyin olunmuşdur.

1942-1947-ci illərdə Qusar rayonuna rəhbərlik etmiş B.Balamətov rayonun olduqca ağır vəziyyətdə olan iqtisadiyyatını dirçəltmək, onun kənd təsərrüfatını inkişaf etdirmək sahəsində böyük işlər görmüş, müharibə illərində əhalini aclıqdan xilas etmişdir. 1947-ci idə Naxçıvan MSSR Nazirlər Sovetinin sədri təyin olunmuş B.Balamətov bu vəzifədə 1951-ci ilə kimi çalışmışdır. Lakin Moskva Ali Partiya Məktəbini bitirən, Azərbaycan SSR və SSRİ Ali Sovetlərinə deputat seçilən, 2 Lenin ordeni və “Qırmızı Bayraq” ordeni ilə təltif olunan bu savadlı və nüfuzlu adamı gözü götürməyənlər də var idi. Onların fitvası ilə B.Balamətov vəzifədən uzaqlaşdırıldı.

10 il Bakıda ev dustağı olan B.Balamətovun başı üzərindəki qara buludlar 1961-ci ildə dağıldı. Həmin il o, Respublika Maliyyə Nazirliyinə müfəttiş, bir qədər sonra isə baş müfəttiş vəzifəsinə təyin olundu. 1986-cı ildən respublikanın fərdi təqaüdçüsü olan B.Balamətov 2007-ci ildə 101 yaşında dünyasını dəyişdi.

## BAYATI USTASI

***Kənd camaatı arasında o, bayatı ustası kimi məşhur idi. Bu qadın olduqca mənalı, ürəyə nüfuz edən bayatılar qoşardı. Ürəyinin ağrılarını misralara çevirmək istedadı var idi.***

Qusar rayonunun Qılahoba kəndində anadan olub, orada da vəfat etmiş Şeydayeva Ana Qazəhməd qızı 110 il ömür sürmüşdür. Gözəlliyinə baxmayaraq, talesiz Anaya ana olmaq səadəti nəsib olmur. Ömrünü doğmalarının övladlarına həsr etməklə təsəlli tapan qarı ömründə bircə dəfə kənddən çıxmışdı - bir günlüyə Bakıya gedib qayıtmışdı. Xəstəlik nədi bilməyən, həmişə xeyirxah işlərlə məşğul olmuş bu ağbirçəyin sinəsi folklor xəzinəsi idi. Onun bayatıları bu günə kimi dillərdə dolaşır. Onlardan birində deyilir:

*Çiçək toxur yaz dərəsi,*
*Şirin oxur yaz fərəsi,*
*Kimə deyim bu dərdimi,*
*Ötüb keçdi qız bərəsi.*

## ХЬИЛЕРИН БАДЕ

***КцIара Муьгьуьббат баде тийижирбур бажагьат жедай. Мел-межлисрал, мярекатрал ада лагьай манийрин суракьар яргьариз чкIанай.***

Адан манийри рикIиз эсердай, инсанрив дуьньядикай фикир-фагьум ийиз тадай. Бадедин айгьамдин зарафатрихьни ихтилатрихъ яб акалай инсандик руьгь акатдай.

Кьве гьавадин кIвале ялгъуздиз яшамиш жезвай къари. ХъуьтIуьз хци Искендера са гужалди КцIариз, вичин кьилив тухвайтIани, кьве вацралай артух эхиз жедачир адавай хуьр галачиз. “Зун кIандайбур зи кьилив атурай” лугьудай. Вичи авур гьаларикай хранвай са шумуд чешнидин гамар экIянавай адан кIвал михьида кьван вуч тир! КIвалин цлар кьиляй-кьилди адан эсерралди безетмишнавай. Винидай цлариз элкъвез-элкъвез безенагар янавай. Жуьреба-жуьре парчайрин кIусарикай цванвай, седефралди атIанвай безенагрин рангарини нехишри гьейранарнай чун. Рангунин зериф гьаларив агьдал цванвай гиширри, нехишар атIанвай парчайрин чинар гьалдна, харадиз янвай хъуьтуьл хъуьцуьганри кIвализ регьятвал гъанвай.



Милли пекер алай бадедал. Вичи цванвайбур тир абур. Гьяркьуь вахчаг, памбагдин перем, шуткьу, сун гуьлуьтар алаз, туьтуьна кагьрабадин хтарар аваз кIвалин крарихъ гелкъвезвай къари. Ада хразвай гуьлуьтдин тай гьеле акьвандай акъатнавачир. Кьурук квай тIанурда паквар кьурурзавай ада. И яшда хьрак, тIанурдихъ ацукьна фу чразвай, кIарасар хазвай, кIвал, гьен шиткизвай, вичин пекер вичи цузвай, тараз акьахна майваяр атIузвай, мугьманрин вилик фу эцигзавай къаридин викIегьвилел гьейран тахьун мумкин тушир.

Муьгьуьббат хуьруьн варлу ксарикай тир Идрисан 8 веледдикай сад тир. 15 йиса аваз ам Аликъулидин авай-авачир са хциз Адышириназ гъуьлуьз фенай. Кьуд аял хайи Муьгьуббатан гъуьл жегьилзамаз рагьметдиз фенай. КIвалин вири пар къуьнерал кьур и иер дишегьлидиз вилералди гьикьван

## HİLİN AĞBİRÇƏYİ

***Qusar rayonunda Məhəbbət nənəni tanımayan az olardı. Onun toyda-düyündə, məclislərdə dediyi bayatıların sorağı uzaqlara yayılmışdı.***

Bədahətən dediyi bəndlər o qədər mənalı idi ki, ürəkləri ram edir, insanları düşündürürdü. Onun qoçaqlığı, bacarığı, təmizkarlığı, zarafatları, eyhamları, şirin söhbətləri dillər əzbəri idi.

İkimərtəbəli evdə tək yaşayan qarını oğlu İskəndər qışda məcburən rayon mərkəzindəki evinə aparsa da, qarı iki aydan artıq orada dözə bilmirdi. “Məni istəyənlər qoy yanıma gəlsinlər” deyirdi. Döşəməsinə özünün əyirdiyi saplardan toxuduğu incə naxışlı xalçalar döşənmiş bu ev təmizlikdən parpar parıldayırdı. Evin divarları onun əsərləri ilə bəzədilmişdi. Tavandan aşağı bəzənəklər sallanmışdı. Müxtəlif parça tikələrindən tikilib sədəflərlə işlənmiş bəzənəklərin naxışları göz oxşayırdı. Ağ bez üzərində rəngli saplarla tikilmiş naxışlar bir-birindən gözəl idi. Naxışlı parçalarla işlənmiş yastıqlar çarpayıların üstündə üst-üstə yığılmışdı. Hər yerdə elə təmizlik var idi ki, sanki onu yaradan yaşlı qadın deyil, təzə gəlin idi.

Nənənin əynində həmişə olduğu kimi milli geyim var idi. Onları özü tikmişdi. Uzun illər kəndin əvəzsiz dərzisi olmuş Məhəbbət nənə son illər yalnız özünə tikirdi. Enli vaxçaq (tuman), pambıq köynək, şutqu (baş örtüyü), naxışlı yun corab geyinmiş, boynunda kəhraba boyunbağı olan qarı elə hey nə iləsə məşğul olurdu. Onun toxuduğu corabın bir tayı milin üstündə idi. Aşağıdan təndirdə qurudulan meyvənin xoş ətri gəlirdi. Bu yaşda xərəkdə, təndirdə çörək bişirən, ev, həyət süpürən, paltar yuyan, ağaca çıxıb meyvə dərən, qonaq qabağına yemək qoyan qarının qoçaqlığı heyrət doğururdu.

Məhəbbət Hilin varlı adamlarından olan İdrisin səkkiz övladından biri idi. O, 15 yaşında Əliqulunun yeganə oğlu Adışirinə ərə gedib. Dörd övladı anadan olandan sonra əri vəfat edib. Çiyinlərinə evin və ailənin bütün ağırlığı düşən bu gözəl qadın o qədər əziyyət görüb ki! Bolşeviklərin bir balaca imkanı olan

мусибатар акунай. Большевикри чпихъ са тIимил кьван мумкинвилер авай инсанривай мал-девлет къакъудун, Ватандин ЧIехи дяведин йисара хуьрера са бязи ламатI ксари авур гьахъсузвилер, вичи чIугур дарвилер, азиятар гзаф хьанатIани, руьгьдай ават тавуна, викIегьвилелди, намуслувилелди уьмуьр гьална ада. Веледар, хтуларни штулар вичин кьилив атайла, хвеши жедай къаридиз. Яргъарай хтай хтулар кIвенкIве хизанарни галаз Хьилиз фена са шумуд юкъуз бадедин кIвале амукьдай, ахпа чпин диде-бубайрал кьил чIугвадай абуру. И къайда садавайни чIуриз жедачир.

Уьмуьрдикай шел-хвал тийиз, текдиз хуьре кьил хуьзвай, кьиляй-кьилди лезгивал хвенвай, яшамишунал рикI алай, тIал-квал такуна уьмуьр гьалай къари вичин 100 йис жез са шумуд варз амаз рагьметдиз фенай.



Кьве Муьгьуьббат - бадени штул.
İki Məhəbbət - nənə və nəticəsi.

insanların illər boyu qazandıqları var-dövləti zorla onların əllərindən almalarını, Böyük Vətən müharibəsi illərində bəzi vəzifəli kişilərin camaata tutduqları divanı gözləri ilə görən qadın uzun, əzablı ömür sürüb, ancaq heç zaman vüqarını itirməyib, namusla övladlarını böyüdüb. Ona görə də övladları, nəvə və nəticələri yanına gələndə o qədər sevinərdi! Uzaqlarda yaşayan nəvələri əvvəl kəndə gedib bir-iki gün nənənin yanında qalır, sonra öz valideynləri ilə görüşürdülər. Bu qaydanı heç kəs dəyişə bilməzdi.

Taleyindən şikayətlənmədən tək-tənha yaşayan, həyatı çox sevən, xəstəlik bilmədən ömür sürən Məhəbbət nənə 100 yaşının tamam olmasına bir neçə ay qalmış dünyadan köçdü.

## ДАМАХАР ГВАЙ БАДЕ

***108 йисуз уьмуьр гьалай Медина бадедив рекьидалди дамахар гвай. Михьивилер кIандай и къари датIана кар-кеспидихъ гелкъведай.***

КцIар райондин Манкъулидхуьряй тир Медине Дуьйуьшовадин 2004-йисан майдин вацра 106 йис хьанвай. Адан юкь бегьем какванвай. Ингье чна вич камерадиз чIугвазва лагьайла, ада чавай рухсат къачуна, вичин утагъдиз фенай. Са герендилай Медина баде анай дамахарна, тимтик яз экъечIайла чун къах хьанай. На лугьуди, им къегьненан а юкь какванвай къари туш. Чина хъвер авай бадеди ихтилатдал илигнай. Са ялце вишдалай гзаф баядар лагьанай ада. РикI хъуьтуьлардай, гьиссерал звал гъидай баядар тир абур.

2006-йисуз и рикIиз чими къари рагьметдиз фена. Медина бадедихъ авсиятда чна чIугур сюжетди лагьайтIа, "Зи хайи эл" филмдин мана-метлеб генани артухарна.



## BƏZƏK-DÜZƏKLİ NƏNƏ

***108 il ömür sürmüş Mədinə nənə son nəfəsinə kimi geyinib-gecinməyinə fikir verirdi. Bu təmizkar qarı işgüzarlığı ilə ad çıxarmışdı.***

Qusar rayonunun İmamqulukənd kəndinin sakini Mədinə Düyüşovanın 2004-cü ilin may ayında 106 yaşı tamam olmuşdu. Beli tamam bükülmüşdü qarının. Amma onu videoya çəkmək istədiyimizi biləndə, qarı bizdən izin alıb otağına getdi. Bir azdan bəzənib-düzənib, dikəlmiş halda oradan çıxan qarını görəndə heyrətə gəldik. Elə bil o, bayaq yanımızda durmuş, sual işarəsi kimi əyilmiş adam deyildi. Gülərüz və mehriban Mədinə nənə yaman söhbətcil idi. Yüzdən artıq bayatını bədahətən söyləyən qarı güclü yaddaşı ilə bizi heyrətə gətirdi. Olduqca mənalı, yaddaqalan bayatılar idi bunlar.

2006-cı ildə bu suyuşirin, göyçək qarı dünyasını dəyişəndə bir şeylə təsəlli tapdıq ki, Mədinə nənəni "Mənim doğma elim" adlı sənədli-musiqili filmdə yaşatmışıq.

## КЬУЬЗУЬ ШАИР

***КцIарин и виридалайни кьуьзуь шаирдин - Абдулкерим Керимован 100 йисан юбилей 2002-йисуз райондин кьиле авайбуру адан хайи хуьре гурлудаказ кьейд авунай.***

Яргун хуьряй тир Абдулкерим МутIалибан хва Керимов райондин тIвар-ван авай диндаррикай тир. Са береда хуьре авай Шейх Жуьнейдан мискIиндин гьуьжреда, гуьгъуьнлай Къубадин педмектебда кIелай, муаллимвал авур, араб чIал хъсандиз чидай, Къуръан авазалди хуралай кIелдай и муъмин касди яргъал йисара фекьивал авунай.

Абдулкерим Керимова гьакIни лезги ва азербайжан чIаларал шиирар кхьенай. 2008-йисуз 106 йиса аваз рагьметдиз фейила 5 хва, 2 руш, 33 хтул, 65 штул, 10 птул авай Абдулкерим бубадихъ.



## QOCAMAN ŞAİR

***Qusar rayonunun ən qocaman şairi Abdulkərim Kərimovun 100 illik yubileyi 2002-ci ildə rayon rəhbərlərinin təşəbbüsü ilə onun doğma kəndində təntənə ilə qeyd olunmuşdur.***

Həzrə kəndində anadan olmuş və burada ömür sürmüş Abdulkərim Mutalib oğlu Kərimov rayonun adlı-sanlı dindarlarından biri idi. Bir vaxtlar kənddəki Şeyx Cüneyd məscidinin nəzdindəki hücrədə, sonralar Quba pedtexnikumunda oxumuşdu. Ərəb dilini yaxşı bilən, Quranı əzbərdən və avazla oxuyan bu ağsaqqal savadlı ruhani kimi tanınırdı.

Abdulkərim Kərimov həmçinin ləzgi və Azərbaycan dillərində şeirlər də yazırdı. 2008-ci ildə 106 yaşında dünyadan köçəndə 5 oğlu, 2 qızı, 33 nəvəsi, 65 nəticəsi, 10 kötücəsi vardı Abdulkərim babanın.

## ГЕЖ ЖАГЪАЙ БАХТ

***107 йисуз уьмуьр гьалай Айнисе бадедиз дуьньядиз атай йикъалай гьамарни дердер несиб хьанай. ЯтIани бахтунихъ гелкъвен патал датIана женг чIугунай ада.***

Айнисе Агъавердидин руш 1895-йисуз ТIигьируба хуьре дидедиз хьанай. Ам хайи юкъуз буба рагьметдиз фенай, са йисалай диде Муругърин убадиз гъуьлуьз хъфенай. Аял вичин кьве стхани галаз имидин кIвале амукьнай. Имид папа адаз гзаф зулумар авунай. Айнисе пудра гъуьлуьз фенай. Вичиз аялар кьисмет тахьай и дишегьлиди пуд хизандин аялар чIехи авунай. Пуд гъуьлни вичин гьилералди кучукнай ада.

Пуд лагьай гъуьлуьн-манкъулудхуьруьнви Шемседдин Данияллован хизанда 25 йисуз уьмуьр гьалай къариди и хизандилай гзаф разивалдай, вичиз бахтлувал вуч лагьай затI ятIа ина чир хьана лугьудай.



## GECİKMİŞ SƏADƏT

***107 il ömür sürmüş Aynisə nənəyə dünyaya göz açandan qəm və kədər nəsib olur. Buna baxmayaraq o, həmişə ümid içində yaşayır. Səadətinə çatmaq üçün mübarizə aparmaqdan yorulmur.***

Aynisə Ağaverdi qızı 1895-ci ildə Tahiroba kəndində anadan olmuşdur. O doğulan gün atası vəfat etmiş, bir ildən isə anası Muruqoba kəndinə ərə getmişdir. İki qardaşı ilə əmisi evində qalan qıza əmisi arvadı olmazın əzab-əziyyət vermişdir. Üç dəfə ərə getmiş, üç ərini dəfn etmiş bu qadına analıq səadəti qismət olmasa da, o, üç ailənin də uşaqlarını böyüdüb boya-başa çatdırmışdır.

Üçüncü əri - imamqulukəndli Şəmsəddin Daniyalovun ailəsində 25 il yaşamış bu çevik və qıvraq qarı nəinki ailənin, bütün kəndin sevimlisinə çevrilmişdi. Aynisə nənə xoşbəxt ailə həyatını yalnız

107 йисани вичин викӀегъвал квадарнавачир баде лагъайтӀа, тек вичин хизандин ваъ, гьакӀ вири хуьруьн рикӀ алай инсандиз элкъвенай. Ам 2002-йисуз рагъметдиз фена.

## НЕКІЕДИН САС



***105 йиса авай аваранви Сечме бадеди некӀедин сас акъуднава лагьай хабар са геренда КцӀар райондиз чкӀанай.***

И хабар чал агакьайла, Бакудай хуьруьз рекье гьатнай чун. Сечме баде вичин 85 йиса авай рушан - Гьажихануман тазиятда авай. Ада ишеларзавай: "Чан дуьньядлай вахтсуз фейи бала дидедин..." Адан муькуь рушар - 80 йиса авай Зибейдани 65 йиса авай Секинат зарулдиз шехьзавай. Абурувай яргъаз ацукьнавай Сечме бадедин 77 яшинда авай хцивай Везирханавайни вилин накъвар хуьз жезвачир.

Кьве вацралай чун мад гьилера хуьруьз фейила Сечме бадедин кӀвале адан птулрин ванер гьатнавай. Къари иер са гамунал ацукьнавай. Им адан жегьиздин сумаг тир. Вишдалай гзаф гамар хранвай Сечме бадедиз и сумаг гзаф кӀандай.

Бадедин цӀийи сас акван лагьайтӀа, чаз несиб хьанач. Къариди лагьана:

- 50 йисуз сиве сарар авачир за некӀедин сас акъудайла, кӀвале вири зал хъуьрена. ГьикӀ ятӀани, хуьруьн папарикай садаз жуван сас къалурайла, ада заз лагьана: "Им гьич хъсан кар туш, вун рекьидай хътинди я". Мад за садазни идакай ихтилат хъувунач. Чан ширин я эхир. Садра ахварай аватайла зи сиве сас амачир. Ам за фахъ галаз хъуьтӀкьуьннай жеди. Садбур сас чпиз ганач лугьуз закай инжиклуни хьана. Ихьтин сас низ гайитӀа, гьамни гзаф яшамишда лугьуда кьуьзуьбуру.

Везирханова Сечме Шихкериман руш са йисалай рагьметдиз фенай. Са тӀал-квалани авачиз, кӀвалин, салан крар ийиз, гамар храз уьмуьр гьалай и къени къилихрин дишегьлидиз вич рекьидай югъ чидай.

Адан сусан, вичин 80 йис хьанвай Гуьлембер халадин ихтилатдай: "Садра къариди заз лагьана, я свас, ваз веси хьурай, кьве юкъуз зи иштагь атӀана хьи, тазиятдин гьазурвилер ая". ГьакӀни хьана. Кьве

üçüncü kəbində yaşadığını deyərdi. Üçüncü ərini də tez itirən qarını kişinin övladları öz doğma anaları kimi qəbul etmişdilər. Aynisə nənə 2002-ci ildə vəfat etmişdir.

## SÜD DİŞİ

***Avaran kəndinin qocaman sakini, 105 yaşlı Seçmə nənənin süd dişi çıxarması xəbəri ildırım sürəti ilə Qusar rayonuna yayılır.***

Bu xəbəri eşidəndə Bakıdan kəndə yollandıq. Seçmə nənə 85 yaşlı qızı Hacıxanımın yas məclisində idi. O, yanıqlı-yanıqlı ağı deyirdi: "Dünyadan vaxtsız köçən balam mənim..." Onun o biri iki qızı - 80 yaşlı Zibeydə və 65 yaşlı Səkinə də ağlayırdı. Kandarda gəzişən Seçmə nənənin 77 yaşlı oğlu Vəzirxan da göz yaşlarını saxlaya bilmirdi.

İki aydan sonra kəndə yenidən getdik. Seçmə nənə incə naxışları ilə seçilən bir sumaqın üstündə bardaş qurub oturmuşdu. Bu, qarının cehizliyi idi. 100-dən artıq xalça toxumuş qarı həmin sumaqı həmişə əzizləyirdi. Ev onun kötücələrinin səsləri ilə dolmuşdu. Nənənin süd dişini görmək bizə nəsib olmadı. O, dedi:

- 50 ildir ağzımda bir dənə də olsun diş yoxdur. Damağımdan təzə diş çıxdığını görəndə bu işə məəttəl qaldım. Evdəkilərə dişimi göstərəndə bunu zarafata saldılar. Bir dəfə kənd arvadlarından birinə dişimi göstərəndə mənə dedi: "Bu yaşda diş çıxarmaq yaxşı əlamət deyil, deyəsən dünya ilə vidalaşmalı olacaqsan". Daha heç kəsə dişimi göstərmədim. Can şirin şeydir axı! Bir də onda ayıldım ki, dişim yoxdur. Sən demə onu yemək qarışıq udmuşam. Məndən inciyənlər oldu ki, dişi onlara bağışlamamışam. Guya qoca adamın dişini kimə versən, o da uzunömürlü olur.

Vəzirxanova Seçmə Şixkərim qızı bir il sonra dünyasını dəyişir. Xəstəlik nədir bilməyən, daim həyətbaca işləri ilə məşğul olmuş, xalçalar toxumuş bu həlim təbiətli qadın öləcəyi günü əvvəlcədən bilirdi.

Onun gəlini, 80 yaşlı Güləmbər xalanın söhbətindən: "Qaynanam bir dəfə mənə nə desə yaxşıdır: "Ay gəlin, elə ki, gördün, iki gün iştahım kəsildi, tez yas mərasiminə hazırlıq gör". Belə də olur. Qarı iki gün səhərdən axşama kimi dilinə heç nə vurmur. İkinci

юкъуз къариди затIни тIуьнач. Кьвед лагьай йикъан нянихъ хайибур, мукьва-кьилибур кIватIна, абуруз вичин весияр авуна, ксуз хъфена. Экуьнахъ ам кьенвай. НуькI хьиз, садазни азият тагана фена къари...”

günün axşamı doğmalarını, qohum-əqrabalarını başına toplayıb, onlara vəsiyyətini edib yatmağa gedir və səhər ayılmır. Quş kimi, heç kəsə əziyyət vermədən dünyadan köçür qarı...”

## ГЬУЛЖЕЙРАНАН КУЛА

***Аваранвийрин меце гьатнавай “Гьулжейранан кула” лугьудай мисал вичин 100 йис хьанвай Регьимова Гьулжейран Тагьидин рушахъ галаз алакъалу я.***



Уьмуьр четинвилерани дарвилера фейи, сиве-сивди ацIанвай кула пеш хьиз хкажна кIула кьадай и викIегь дишегьли са береда хуьруьн ксаризни чешне тир.

Чун вичикай хабар кьаз фейила Гьулжейран баде сала авай. Таран кулунив хьипи пешер штукизвай кьакьан буйдин, лацу якIарин, гьеле иервал квадарнавачир, вили вилера эквер къугъвазвай и баде рикIиз акьван чими тир хьи!

Гьулжейран бадеди чаз цIийиз асуннавай кьур къалурна гьамлудаказ хъуьренай:

- ЯхцIур къажгъан накьв ялна асуннавайди я за инаг. Зун кьейила тазиятдиз атайбуруз инагар хъсандиз акурай ман.

Михьивиляй рекIв гузвай кIвалер-къар къаридин хиве авай. Ада 56 яшар хьанвай вичин начагъ рушаз Майиседизни къуллугъзавай. Мад вучда кьван дидеди!

## GÜLCEYRANIN ZƏNBİLİ

***Avaran kəndinin camaatının dilində uzun illərdən bəri dolaşan “Gülceyranın zənbili” məsəli 100 yaşlı Rəhimova Gülceyran Tağı qızı ilə bağlı yaranmışdır.***

Ömrü əzab-əziyyətlə, çətinliklərlə keçən, ağzına kimi dolu ağır zənbili rahatlıqla çiyninə qaldıran bu qoçaq qadını bir zamanlar bu kənddə kişilərə də nümunə göstərirdilər. Biz onun yanına gedəndə Gülceyran nənə bağda idi. Ağacların dibindəki xəzəli süpürən bu ucaboy, ağbəniz, mavigözlü qadının gənclik gözəlliyinin izlərini qoruyub saxlamış üzündə mehriban təbəssüm var idi. Gülceyran nənə yenicə suvanmış talvarın döşəməsini bizə göstərib qəmli halda gülümsədi:

- Buranı 40 qazan torpaq daşıyıb suvamışam. Mən öləndə yas məclisimə gələnlər buraları səliqəsiz görməsinlər.

Təmizlikdən par-par parıldayan bu ev, həyət, bağ Gülceyran nənənin zəhmətinin nəticəsidir. Üstəlik o, 56 yaşlı əlil qızı Mayisəyə də qulluq edir. Anadır axı!

## ПУД ГЬАВАДИН КIВАЛЕРИН РУШ

***XX виш йисан эвелра Хьиле пуд гьавадин са шумуд кIвал авай. Абурукай сад Тамаман буба Бейбаладинди тир. Гзаф хьиливийри хьиз адани кIвал вичин гьилералди эцигнай.***

Бейбаладин руш Тамамаз (1905-2007) “пуд гьавадин кIвалерин руш” лугьудай хуьруьнбуру. Ингье гьгъуьнлай халичаяр храдай устIар хьиз сейли хьанай ам. Кьиляй-кьилди гамарбанар тир хьиливи дишегьлийрин арада Тамамахъ вичин махсус чка авай.

## ÜÇMƏRTƏBƏLİ EVİN QIZI

***XX əsrin əvvəllərində Hil kəndində bir neçə üçmərtəbəli şəxsi ev var idi. Onlardan biri Tamamın atası Bəybalaya məxsus idi. Hillilərin əksəriyyəti kimi, o da evini özü inşa etmişdi.***

Bəybalanın qızı Tamamı (1905-2007) həmkəndliləri “üçmərtəbəli evin qızı” deyə çağırardılar. Sonralar isə o, xalça ustası kimi məşhur oldu. Xalçaçılar kəndi kimi tanınan Hildə Tamamın öz yeri var idi.

Yeniyetmə vaxtından toxuduğu xalça və sumağların şöhrəti uzaqlara yayılmış Tamam kolxozda, son-

Ада храй халичаяр, сумагар гьасятда чир жедай. Ада колхозда, гуьгъуьнлай совхозда кӀвалахай вахтарани вичин рикӀ алай пешедилай гъил къачуначир. Къе КцӀарин цӀудралди кӀвалера адан халичаяр аманат яз ама.

## ЭМИРАЛИ БУБАДИН ГАФ

***Адан гаф виридак акатдай, адал вирида меслят гъидай, адан рухсат авачиз мехъерар ийидачир, рекьиз акъатдачир.***

Яргъал йисара Уьнуьгърин хуьруьн кимин кьиле хьайи и элдин агъсакъалдихъ неинки хайи хуьруьн, гьакӀни Уьнуьгърин дередин хуьрерин агьалийрин арада чӀехи нуфуз авай. XIX асирдин эхирра, XX асирдин эвелра яшамиш хьайи, 120 яшинда дуьньядлай фейи Эмирали бубадин тӀвар инсанри гьамиша рикӀел хкида.

Са береда инра кьиле фейи вири гъуьжетунар ва къалар Эмирали бубадин куьмеквилелди арадай акъуддай. Вичин уьмуьрда гзаф мидяяр дуст хъувур, мидявилер арадай акъудун патал алахъунар авур и касдин акьуллу меслятар къедалди элдин рикӀел алама.

## ПАГЬЛИВАН БАДЕ

***2009-йисан зулуз Шагьнигар баде чаз вичин салаз пер ягъаз акунай. АскӀан буйдин викӀегь дишегьли виш йисан къари я лагьайдан чӀалахъ хьаначир чун.***

ВерцӀи ихтилатрал гзаф рикӀ алай Шагьнигар бадеди са бязи дишегьлийри хьиз вичин яшар тӀимилардач. Ада ихтилатда:

- 1918-йисан эрмени-мусурман дяведин чӀавуз зун агакьнавай руш тир. Гьа дяведиз фейи зи буба Шевлетни чӀехи буба Везирхан кьулухъ элкъвенач. Етим амукьай зун Гьуьсейназ гъуьлуьз фена. Чахъ вад аял хьайила, Гьуьсейн дяведиз фена, гьана гьелек хьана.



Аварандал яшамиш жезвай Шагьнигар бадеди вичин вад велед текдиз чӀехи авуна, кӀвалин-къан иесияр жедалди абурун къайгъу чӀугуна. Вичихъ 25 хтул, 4 штул, 2 птул авай ам кӀвалин даях я. Вичин хтулди Майиса къене тини авай текне хкажайла къариди гьасятда "чан бала, ви юкь

ralar isə sovxozda işləyə-işləyə də sevimli peşəsindən əl çəkməmişdi. 102 il ömür sürmüş sənətkarın toxuduğu xalçalar hazırda onlarca evi bəzəyir.

## ƏMİRƏLİ BABANIN SÖZÜ

***Onun sözünün üstünə söz qoymaz, məsləhəti olmadan iş görməz, xeyir-duasını almadan toydüyün etməz, ondan izinsiz səfərə yola düşməzdilər.***

Uzun illər Əniğ kəndinin kiminin başında durmuş Əmirəli baba nəinki bu kəndin, həmçinin Əniğ dərəsi kəndlərinin əhalisinin hörmətini qazanmışdı. XIX əsrin sonları, XX əsrin əvvəllərində yaşamış, 120 yaşında dünyadan köçmüş bu el ağsaqqalının adını bu gün də kənd camaatı hörmətlə çəkir.

Burada baş vermiş bütün mübahisə və münaqişələr Əmirəli babanın köməyi ilə həll olunardı. Ömrü boyu ədavət edənlərin barışmasında vasitəçi olmuş bu ağsaqqalın ibrətamiz sözləri, öyüd və nəsihətləri bu günə kimi elin yaddaşında yaşayır.

## PƏHLƏVAN NƏNƏ

***Biz 2009-cu ilin payızında Şahnigar nənə ilə görüşəndə o, bağda yer belləyirdi. Bu bəstəboy, gümrah və çevik qarının 100 yaşı olduğuna inanmaq çətin idi.***

Şirin söhbətləri ilə kənddə tanınan Şahnigar nənə bəzi qadınlar kimi yaşını azaltmağı xoşlamır. O, yaşı ilə bağlı deyir:

- 1918-ci ilin erməni-müsəlman davası zamanı mən yeniyetmə qız idim. Həmin davada iştirak etmiş atam Şevlet və babam Vəzirxan geri qayıtmadılar. Yetim qalmış məni Hüseynə ərə verdilər. Beş övladımız olanda Hüseyn Böyük Vətən müharibəsinə yola düşdü və orada həlak oldu.

Avaran kəndində yaşayan Şahnigar təkbaşına beş övladını böyüdüb ərsəyə çatdırır. 25 nəvəsi, 4 nəticəsi, 2 kötücəsi olan Şahnigar nənə evin dirəyidir. Nəvəsi Mayis xəmir dolu təknəni qaldırmaq istəyəndə Şahnigar nənə: "Sənin belin ağrıyar, bala", deyib dər-

тIар жеди”, лагъана ам вичи текдиз къада. Майиса “чан зи пагьливан баде” лагъана зарафатарда. Къедалди фу, афарар чразва Шагьнигар бадеди. Ял ягъидай чIавуз гамар, пекер, сун гуьлуьтар храда. И дишегьлидиз чида кьван лезги халкьдин махар вуч я!

## ЧПИРИН ИЕРДИ

***1905-йисуз дидедиз хьайи Шагьнесиб Абдулрагьиман руш Режебова КцIар райондин Чпир хуьряй я. Жегьил чIавуз адаз “Чпирин иерди” тIвар ганай.***

Адан гъуьл Гьасанпаша хъсан устIар тир. Абурухъ 5 аял авай. Гьасанпаша Ватандин ЧIехи дяведиз фейила мусибат хьана дишегьлидиз. Адан аялар кашаризни начагъвилериз эхиз тахьана кьена. Анжах вилералди мусибатар акур дишегьлиди кьисметдин вилик мет ягъанач. Кас дяведай хтайла абурухъ мадни 4 аял хьана. Гила къаридихъ шумудни са хтулар, штулар, птулар ава. Гъуьл рагьметдиз фена яргъал йисар я.

Шагьнесиб бадедин викIегьвилел чIал хьана лугьуда хуьруьнбуру. 2007-йисуз вилер буьркьуь хьана къаридин. Нагагьдай кIвач нажахди атIана, ивидалди хьайи вичин хцин Ширинбаладин гьалар акур къаридиз гьайифар хьана. Хцин кIвачелай кап аладарна кIвализ хтайла, адан вилерин экв квахьна. Гьа чIавалай секин хьанва къари.

Гила дуьньядикай хъелнава Шагьнесиб бадеди. “Заз чилери чка гузвач, цаварикни пай кумач”, - лугьуз шел-хвалзава ада. Хтулар, штулар адан кьи-



*Шагьнесиб баде*
*Şahnəsib nənə*

hal təknəni onun əlindən alır. Mayis isə zarafata keçir: “Ay mənim pəhləvan nənəm!” Şahnigar nənə bu günə kimi xərək çörəyi, qutab bişirir, boş vaxtlarında xalça, corab toxuyur. Ləzgi xalq nağıllarının əsl bilicisidir.

## CİBİR GÖZƏLİ

***1905-ci ildə anadan olmuş Şahnəsib Abdulrəhim qızı Rəcəbova Cibir kəndinin sakinidir. Üzündən nur yağan bu ağbirçəyi qeyri-adi gözəlliyinə görə gəncliyində “Cibir gözəli” çağırırdılar.***

Onun əri Həsənpaşa mahir usta idi. O, Böyük Vətən müharibəsinə yola düşəndə 5 övlad atası idi. Müharibə çalın-çarpaz dağlar çəkdi qadının ürəyinə. Onun uşaqları aclıqdan və xəstəlikdən tələf oldu. Ancaq gördüyü müsibətlərə qatlaşan qadın taleyi qarşısında diz çökmür. Əri müharibədən qayıdanda o, 4 uşaq da doğur. Onları sağ-salamat böyüdüb, ev-eşik sahibi edən qarının çoxlu nəvə, nəticə və kötücələri var. Bu diribaş qarının əri çoxdan vəfat edib.



*Шагьнесиб баде вичин хтул Венерадихъ галаз санал.*
*Şahnəsib nənə nəvəsi Venera ilə.*

Şahnəsib nənənin qoçaqlığı deyəsən gözə gəldi. 2007-ci ildə dünya işığından məhrum oldu qarı. Ehtiyatsızlıqdan Şirinbalanın ayağını balta kəsəndə, qan içində olan oğlunu görən ananın həyəcandan gözləri tutuldu. O vaxtdan tamam dəyişib Şahnəsib nənə. Dünyadan küsüb. “Yerlər məni qəbul etmir, göylərə isə əlim çatmır”, - deyir. Nəvələri, nəticələri onu əzizləyir, daim qulluğunda dururlar. Kənd sakinləri, qohum-əqraba qadının başını qatmaq üçün tez-tez

лел элкъведа. Хуьруьнбур, мукьва-кьилияр кьил какадарун патал дишегьлидин патав къведа. Абурун тIалабуналди фад-фад баядрал илигда жегьилвилин иервал гьелени хвенвай къариди. Баядрикай вилериз экв, руьгьдиз тIям къвезвай хьтинди я адан.

## СЕДЕФ БАДЕДИН ШУЬТКЬВЕРАР

***КIвалин ахъа айвандик ацукьнавай ам. ЧIарни юзур тавуна далудиз рагъ гузвай ада. Къадим кIвални кьуьзуь къари сад садаз акьван ухшар тир хьи!***



Къадим ТIигьиржал са береда КцIарин виридалайни чIехи дагъдин хуьрерикай тир. Гила ичIи хьанвай, са бязи кIвалер харапIайриз элкъвенвай и хуьре тупIаралди гьсабиз жедай кьван кIвалер ама.

Хуьруьн алатай бахтавар йикъар фад-фад рикIел хкида инсанри. Вичин виш йис хьанвай Седеф бадедин рикIелай а йикъар иллаки алатдач. Эхиз жезвач къаридивай хуьруьн къенин йикъан гьалар.

Хуьруьнбуру лугьузвайвал, Седеф Азизан руш Серкерова и кIвализ свас атайла кIвалин яшар 100-далай гзаф тир. КIвачер зайиф тир гъуьлуьн эвездани кIвалахиз мажбур хьайи, са гапIал аялар хана хвейи къаридихъ хтулар, штулар, птулар ава. И дишегьлиди чIугур кьван азиятар шуьткьверар хьана адан чиниз, гъилериз чкIанва.

Къаридиз чун вичин кьилив атуникай хабар тушир. Байихзавачир ада чун атайди. Вичин алемда авай ам. КIакIар аламачир вилин кьебекьар кIевна дерин хиялриз фенвай.

- Седеф баде, ви яшар гьикьван я? - лагьана ихтилатдик кьил кутуна чна.

Заландиз жаваб гана ада:

- Вучда куьне зи яшарикай?

Ахпа дериндай агь чIугуна хълагьна:

- Хуьруьн гьар чкIай кIвал зи са шуьткьвер я.

Гапур хьиз рикIе акIидай гафар тир ибур. Адан вилери гьамлудиз килигзавай чаз.

- Квез гзаф лезги баядар чида лугьуда хуьруьнбуру.

На лугьуди, и гафар гуьзлемишзавай къариди. Чи рикIин гьал атIана адан са баядди:

onun yanına gedirlər. Hamı ondan bayatı sovqatı gözləyir. Bilirlər ki, bayatı deməklə təsəlli tapır. Xanım-xatın Şahnəsib nənə yanıqlı-yanıqlı bayatı deməyə başlayanda hamı diqqətini ona cəmləyir. Deyəsən ruhunun qidasını onlardan alır.

## SƏDƏF NƏNƏNİN QIRIŞLARI

***Evlərdən birinin açıq eyvanında oturmuşdu o. Tükünü də tərpətmədən, eyni qaydada kürəyini günə verirdi. Qədim evlə qoca qarı bir-birinə elə oxşayırdı!***

Qədim Tahircal kəndi bir vaxtlar Qusarın ən böyük, ən gur dağ kəndlərindən biri idi. İndi boşalmış, bəzi evləri xarabalığa dönmüş bu kənddə barmaqla sayılacaq qədər evlər qalıb.

Kəndin bəxtəvər keçmişindən burada şirin xatirələr yaşayır. Onları yaşadanlardan biri də yüz yaşlı Sədəf nənədir. Dözə bilmir qarı kəndin bu günə düşməsinə.

Bizə danışdılar ki, yüz yaşlı Sədəf Əziz qızı Sərkərova gəlin köçəndə bu evin 100-dən çox yaşı var idi. Bir çətən külfət saxlamış qarının çoxlu sayda nəvə, nəticə və kötücələri var. Ömrü boyu fiziki cəhətdən zəif olan ərinin yerinə də işləmiş bu qadın evin həm kişisi, həm də qadını olub. Çəkdiyi əziyyətlər qırışlara dönüb onun üzünə, əllərinə səpilib.

Qarı ya bizim gəlişimizdən xəbər tutmamışdı, ya da bizə əhəmiyyət vermirdi. O, öz dünyasında idi. Kirpikləri tökülmüş göz bəbəklərini yarı örtüb dərin xəyallara dalmışdı. Sədəf nənə özü də bir xəyala bənzəyirdi.

- Sədəf nənə, sənin neçə yaşın var? - deyə onu söhbətə tutmağa çalışdıq.

O, ağır-ağır cavab verdi:

- Mənim yaşımı neynirsiniz?

Sonra dərindən bir ah çəkib əlavə etdi:

- Kənddəki hər boşalmış ev mənim üzümün bir qırışıdır.

Ürəyə xəncər kimi batan sözlər idi bunlar. Onun gözləri qəmli-qəmli baxırdı.

- Deyirlər çoxlu bayatı bilirsiniz?

Elə bil bunu gözləyirdi, belə bir bayatı dedi:

*Ахьтин гъариб хуьр я хьи, им,*
*Гъам чIугвар кьван зарул жедай.*
*Куьч кьамаллай зи эл аку,*
*Вилер кIанда къе ишедай...*

## ТIИГЬИРЖАЛДИН РЕХИДИ

***Вичин 116 йис хьанвай Ханумагъа Имирханан руш Бабаева исятда ТIигьиржалдин виридалайни кьуьзуьди я. Хуьруьн тарихар гьадавай хабар яхъ!***



Вад велед чIехи авунвай Ханумагъа бадедихъ гзафни-гзаф хтулар, штулар ава. Хуьруьнбуру лугьуда хьи, девлетлу хизандин свас хьайи ам гъуьлуь какадин къене авай къиб хьиз хвейиди я, гьавиляй чандик цIвегь кума адан. Къедалди начагъвал вуч ятIа тийижир, дарманрин дад, азарханадин рехъ чир тахьай и къаридин хайибурун арада шумудни са йисар рекье твазва.

Хизан адан къайгъудихъ гелкъвезватIани, ада къедалди садан куьмекни галачиз вичин кьил хуьзва. Умун къилихрин и секин дишегьлиди вичин сая, хъуьтуьл ванцелди куьгьне ихтилатрал илигайла, вири адан кьилив кIватI жеда.

Чун хуьре авайла са ялце, ништа, шумуд баяд лагьанатIа ада (Авайвал лагьайтIа, и хуьре баядар тийижир дишегьли жагъидач).

Къаридин эхиримжи баяд дяведикай тир:

*Зи яр алай лацу балкIан*
*Къацу чIурал элкъвезава.*
*Зи кьве стха дяведава,*
*Йикъа пудра зун шезава.*

Ван зурзуна, къагьарди бамишарна къари. Адан вилин накъвар гъилерал авахьна.

И хуьряй Ватандин ЧIехи дяведиз 1000 кас фенай. Абурукай анжах 300 кас саламатдиз хуьруьз хтанай. Дяведи инад авунай тIигьиржалвийриз. Ханумагъа бадедин кьве стха - Баласултанни Нуьдуьрмет дяведай хтанач. Баде 65 йис я вичин стхайрик ишез. КIвалинбуру чаз лагьана хьи, стхаяр рикIел хтайла бадедивай вучайтIани баядар хълагьиз жедач.

*Elə qərib kənddir bu kənd,*
*Cana gəldik qəm əlindən.*
*İynə boyda ümid tapan,*
*Köç edərmi öz elindən?*

## TAHİRCALIN AĞBİRÇƏYİ

***116 yaşı tamam olmuş Xanımağa Əmirxan qızı Babayeva hazırda Tahircal kəndinin ən qocaman sakini sayılır. Çoxları kəndin tarixi ilə bağlı əhvalatları ondan xəbər alırlar.***

Tahircallılar danışırlar ki, Xanımağa imkanlı ailənin gəlini olub, o, xanımsayağı ömür sürüb, elə buna görə də canı suludur. Beş övlad böyütmüş qarının çoxlu nəvə, nəticə və kötücələri var. İndiyə kimi xəstəlik nədir bilməyən, dərman dadmayan, xəstəxananın yolunu tanımayan bu diribaş qarının sağlamlığı çoxlarında həsəd oyadır.

Ailəsi qarının qayğısını çəksə də, hələlik kimsənin köməyi olmadan öz-özünü idarə edir, doğmalarının əhatəsində illəri yola salır qarı. Mehriban təbiətli Xanımağa nənə sakit və yumşaq səslə köhnə əhvalatları yada salanda hamı onun ətrafına yığışıb qulaq kəsilir. Tahircalda olanda qarı birnəfəsə bir boxça bayatı dedi bizə (Əslində bu kənddə bayatı deməyi bacarmayan qadın tapmazsan).

Qarının son bayatısı müharibə mövzusunda idi:

*Yar oturmuş ağ kəhəri*
*Göy çəməndə bağlaram.*
*Qardaşlarım davadadır,*
*Gündə üç yol ağlaram.*

Bu bayatını tamamlayanda onu qəhər boğdu, göz yaşları əllərinin üstünə töküldü.

Bu kənddən Böyük Vətən müharibəsi cəbhələrində 1000 nəfər iştirak edib. Onlardan yalnız 300-ü sağ-salamat geri dönüb. Müharibə dağ çəkib tahircallılara. Xanımağa nənənin iki qardaşı - Balasultanla Nüdürmət də müharibədə həlak olublar. Qadın 65 ildir onlara yas saxlayır. Evdəkilər dedilər ki, qardaşları yadına düşəndə neynəsən də qarı daha bayatı deyən deyil.

## БЕДИРНИСЕДИН БАЯДАР

***КцIарин манийрал рикI алайбурун макан хьиз сейли тир хуьрерикай садни ГадацIийихуьр я. Баядар туькIуьрна, мел-межлисрал абур хъсандиз кIелдай халисан шаирар я инин дишегьлияр. Элдин шаиррикай Бедирниседини Сусанхануман чIалар гзафбуру хуралай кIелда.***

КцIар райондин Эвежугъ хуьре 1900-йисуз дидедиз хьайи Бедирниседин 13 йис хьайила адан иервилин суракьар къуншни хуьреризни чкIанай. Шумудни са жегьил адан дердина авай.

Ингье иервили гьамиша бахтлувал гъидач. Чуьлда гвен гуьдайла руш сада балкIандаллаз гваз катна. Вич ГадацIийихуьряй тир ирид аялдин буба Межлума гваз катнавайди чир хьайила руша ахьтин са агь чIугунай хьи, ван хьайибурун пагь атIанай лугьуда. Ахпа рушан вилерай ирид жерге накъвар авахьнай. Эхирни баядри секинарна ам. РикIин тIалар илиtermвариз алахъай рушан мецяй акъатай дертлу баядри ван атайбурун рикIин гъалар атIанай. "Са чIиб кьван авай и рушав гвай аламатар вуч я?" лугьуз хуьруьн дишегьлияр мягьтел хьанай.

Умун къилихрин иер Бедирнисе вичин кьуьзуь гъуьлуьн диде кьена етим амай аялри фад хъуьтуьларнай. Яшдиз вичелай чIехи тир и аялрихъ галаз санал чIехи хьанай ам. Гуьгъуьнлай вичини 4 аял ханай. Санлай 7 гададизни 4 рушаз дидевал авур Бедирниседин баядар лагьайтIа, ам хуьруьз атай йикъалай мел-межлисрин абурдиз элкъвенай.

Бахтунай хьиз Бедирниседин сусарикай садаз - Сусанханумазни Аллагьди баядрал илигдай алакьун ганвай. ГадацIийихуьре дидедиз хьайи Сусанханум хура лезги баядрин булах ргазвай элдин шаир тир. Ам сейли ашукь Девришалидин хизанда чIехи хьанай. Чуьнгуьр ягьиз, верцIи манийралди мел-мехъерар кьиле тухудай Девришалидин и алакьунрикай адан рухвайриз Ханкишидиз ва Гьуьсейназни пай ганвай.

Хизандин гъвечIи велед тир Сусанханума лагьайтIа, аял чIавалай бендер туькIуьруналди вири мягьтелардай. Иер, кьени къилихрин руш тир Сусанханума манийрин гьуьжетунра тек дишегьлийрал ваъ,



*Бедирнисе*
*Bədirnisə*

## BƏDİRNİSƏNİN BAYATILARI

***Gədəzeyxür kəndi xalq bayatılarının vurğunu olan insanların məskəni kimi Qusar rayonunda məşhurdur. Bayatı qoşub, məclislərdə onları ustalıqla ifa edən əsl şairlərdir bu kəndin qadınları. Belə şairlərdən Bədirnisə ilə Susanxanımın şeirlərini çoxu əzbərdən deyir.***

Əvəcuq kəndində 1900-cü ildə anadan olmuş Bədirnisə 13 yaşına çatanda onun gözəlliyinin sorağı qonşu kəndlərə də yayılmışdı. Neçə-neçə gənc onun dərdindən dəli-divanə idi.

Lakin gözəllik həmişə xoşbəxtlik gətirmir. Bədirnisəni çöldə biçində ikən at belində qaçırırlar. Onu qaçıranın qonşu Gədəzeyxür kəndindən olan 7 uşaq atası Məclum olduğunu biləndə qız elə ah çəkir ki, eşidənlər mat qalır. Sonra onun gözlərindən yaş sel yerinə axır. Bununla sakitləşməyən Bədirnisənin köksündən sel qopur. Bu, bayatı seli idi. Qızın dərdli bayatılarını eşidənlər göz yaşlarını saxlaya bilmirlər. "Əl boyda uşağa bax, sözlərinə bax!" deyə qadınlar pıçıldaşırlar. Bədirnisənin söz demək qabiliyyəti tezliklə kəndə yayılır.

Bədirnisənin ürəyini onun yaşlı ərinin anaları vəfat etmiş uşaqları tez yumşaldır. Yaşda özündən böyük olan "övladları" ilə bir yerdə böyüyür bu Əvəcuq gözəli. Sonradan özü də dörd uşaq dünyaya gətirir. Üstüstə 7 oğul və 4 qız böyüdüb ərsəyə çatdıran bu mehriban və xoşxasiyyət qadın ilk gündən kənd məclislərinin yaraşığı olur, onun bayatıları dildən-dilə düşür.

Xoşbəxtlikdən onun gəlinlərindən birinin - Susanxanımın da Allahdan verilmiş söz qoşub demək istedadı var idi. Qusar rayonunun Gədəzeyxür kəndində anadan olmuş Susanxanım sinəsində ləzgi bayatılarının bulağı qaynayan el şairi idi. O, məşhur el aşığı Dəvrişəlinin ailəsində böyümüşdü. Saz çalıb, söz qoşub toyları, el məclislərini yola salan Dəvrişəlinin bu istedadından onun oğlanları Xankişiyə və Hüseynə də pay düşmüşdü.

Ailənin sonbeşiyi Susanxanım isə hələ uşaqlıqdan bayatılar qoşmaqla hamını heyrətə gətirir. Gözəl və xoşxasiyyət Susanxanım deyişmələr vaxtı nəinki qadın, hətta kişi şairlərə də qalib gəlirdi. Ona görə də

итимрални гъалибвал къазанмишдай. Гьавиляй ам жегьил чIавалай хуьруьнбурун рикI алай инсандиз элкъвенай.

Бедирниседин хцихъ, хуьруьн мектебдин муаллим, Ватандин ЧIехи дяведин женгерай саламатдиз хтай Сеферагьмед Келбелиевахъ галаз санал уьмуьр гьална, 7 велед чIехи авунай ада. И хизандихъ ГадацIийихуьре ахьтин гьуьрмет авай хьи, вирида Сусанханумаз "диде", Сеферагьмедаз "буба" лугьуз эвердай.

Сусанханумани адан ярандиде Бедирниседи са кIвале гзаф гьуьрметлуз уьмуьр гьалнай. И кIвале кьиле фейи манийринни баядрин мелерин суракьар вири райондиз чкIанай. Бедирнисединни Сусанхануман манийрин гьуьжетунар элдин сувариз элкъведай.



*Сусанханум*
*Susanxanım*

Виш йисакай кьве йис кими яз рагьметдиз фена Бедирнисе баде. Эхиримжи 7 йис буьркьуь яз акъудна къариди. Сусанханума вичин дидедиз хьиз къуллугъна адаз. Рекьидалди вичин шаирвилин алакьунар хвена Бедирниседи. Ада манийрал илигайла, садавайни и къаридин хура акъвазиз жедачир. Вичин иервални квадарнач дишегьлиди... Сусанханума лагьайтIа, 82 йиса аваз дуьнья дегишарна.

hələ cavanlıqdan həmkəndlilərinin sevimlisinə çevrilmişdi.

Kənd məktəbinin müəllimi, Böyük Vətən müharibəsi cəbhələrindən salamat qayıtmış Səfərəhməd Kəlbəliyevlə ömür sürən o, 7 övlad böyütmüşdü. Onlar kənd əhalisi arasında elə hörmət qazanmışdılar ki, hamı Susanxanımı "ana", Səfərəhmədi isə "ata" deyə çağırırdı.

Susanxanımla qaynanası Bədirnisə bir damın altında mehriban yaşayırdılar. Bu evdə keçirilən mahnı və bayatı yarışmalarının sorağı bütün rayona yayılmışdı. Ələlxüsus Bədirnisə ilə Susanxanımın deyişmələri el şənliyinə çevrilirdi. İndiyə kimi kənddə bu iki el şairinin şeirlərini əzbərdən deyənlər var.

Bədirnisə nənə yüz yaşına iki il qalmış vəfat edir. Ömrünün son 7 ilini dünya işığına həsrət qalaraq keçirən qarıya Susanxanım doğma anası kimi qulluq edir. Bədirnisə son nəfəsinə kimi şairlik istedadını saxlayır. O, bayatı deməyə başlayanda onunla bəhsləşməyə bir kimsə cürət eləməzdi. Ölənə kimi gözəlliyini də qoruyub saxladı Bədirnisə. Susanxanım isə 82 yaşında dünyasını dəyişdi.

## ХУЬРУЬЗ КIАНИ АДИЛ ХАЛУ

***КцIар райондин Мучугърин хуьруьн тIварван авай агъсакъалрикай гаф кватайла вирида сад хьиз Адил халудин тIвар кьада. Вичин 97 йис хьанвай Адил Айдемиран хва Сефиханов пуд дяведин иштиракчи я.***



Ам япон ва фин дявейрин яцIарай акъатна Ватандин ЧIехи дяведин женгера хьана. Гъиле яракь кьуна ватан фашистрикай хвейи адал са шумудра хирер хьанай. ЯтIани ам руьгьдай аватначир ва цIийи кьилелай женгерив эгечIнай. 1943-йисуз вичел залан хирер хьайи ам дяве куьтягь тахьанмаз аскервиляй ахъайнай. Ватандиз хтай

## KƏNDİN SEVİMLİSİ ADİL DAYI

***Qusar rayonundakı Mucuq kəndinin adlı-sanlı ağsaqqallarından söz düşəndə hamı bir nəfər kimi Adil dayının adını çəkir. Bu yaxınlarda 97 yaşı tamam olmuş Adil Aydəmir oğlu Səfixanov üç müharibənin iştirakçısıdır.***

Yapon və fin müharibələrinin od-alovundan çıxan, Böyük Vətən müharibəsi cəbhələrində vuruşub qəhrəmanlıqlar göstərən, bir neçə dəfə yaralanan Adil Səfixanov 1943-cü ildə növbəti dəfə ağır yaralandıqdan sonra ordudan tərxis olunub.

Vətənə qayıdan o, ömrünü halal zəhmətə həsr edib. Altı

Адил Сефиханова ина гьакъисагъвилелди кIвалахна. Ругуд веледдин, хтулринни штулрин буба тир Адил халу къени къилихрин, умун хесетрин, зегьметдал рикI алай инсан я. Вичин гъвечIи хцин Агъамиран хизандихъ галаз санал яшамиш жезвай и кас уьмуьрдикай кфет хкудиз алакьдай инсан я. Гьавиляй начагъвал вуч ятIа чидач адаз. Фадлай пенсиядиз фенватIани салан, багъдин кIвалахар вичи ийида. Хуьруьн кимел кIватI жедай агъсакъалри адан верцIи ихтилатрихъ рикI алаз яб акалда. Мектебдин муаллимри аялриз ам чешне яз къалурда. Агъсакъалдиз ЧIехи гъалибвилин 65 йис барка ийиз гзафни-гзаф мучугъвияр атанай.

## КЬВЕ СУВАР

***Гургьамеддин халу патал 2010-йисан 9 май рикIел аламукьдай югъ хьана. А юкъуз адан 100 йис тамам хьана. Ватандин ЧIехи дяведа гъалибвилин 65-йисан юбилей сагълам яз вичин хайибурун арада къейд авуна.***

КцIар райондин Пирал хуьре дидедиз хьайи Гургьамеддин Нуралиев гъвечIи чIавалай кIелунал тафаватлу тир. Вичихъ чIехи алакьунар авай ада 1941-йисуз Бакуда юриствилин мектеб акьалтIарайла дяве гатIуннай. Гьиле яракь кьур ада дяведин эхирдал кьван женг чIугунай. Дяведилай кьулухъ Г.Нуралиева Ленинграддин Чекистрин Мектебда кIелнай.



Яргъал йисара Бакудин ва КцIар райондин талукь идарайра кIвалахай агъсакъалди пенсиядиз фидайдалай вилик 14 йисуз ара датIана сберкассадиз регьбервал гана.

Вичин гзаф ярар-дустарилай зегьметдал рикI хьуналди тафаватлу я Гургьамеддин халу. Салан, багъдин кIвалахрал рикI алай ам хъсан багъманчи тирди виридаз малум я. Вич сагълам хуьзвайди михьи гьавадал зегьметдив машгъул хьун я, лугьуда ада.

övlad atası olan, nəvə-nəticələrinin əhatəsində yaşayan bu mehriban və xoşxasiyyət ağsaqqal kiçik oğlu Ağamirin ailəsi ilə birgə yaşayır. Həyatı sevən bu insan daim fiziki işlə məşğul olduğuna görə xəstəlik nədir bilmir.

Çoxdan pensiyaya çıxsa da, bağ-bağat işlərinin hamısını özü görür. Kənd kiminə yığışan ağsaqqallar onun maraqlı söhbətlərinə qulaq asmağı xoşlayırlar. Məktəb müəllimləri onu şagirdlərə nümunə göstərirlər. Böyük Vətən müharibəsində Böyük Qələbənin 65 illiyi münasibətilə onu bütün kənd camaatı təbrik etmişdir.

## İKİ BAYRAM

***Gurhaməddin dayı üçün 2010-cu ilin 9 mayı unudulmaz gün oldu. Həmin gün onun 100 yaşı tamam oldu. O, həmçinin Böyük Qələbənin 65 illiyini də sağlam halda, doğmalarının əhatəsində qeyd etdi.***

Qusar rayonunun Piral kəndində anadan olmuş Gurhaməddin Nurəliyev uşaqlıqdan oxumağa meyllililiyi ilə seçilib. 1941-ci ildə o, Bakıda hüquq məktəbini bitirəndə müharibə başlanıb. Əlinə silah alan gənc müharibənin sonuna kimi cəbhədə vuruşub. Müharibədən sonra Leninqrad Çekistlər Məktəbini bitirib.

Uzun illər Bakının və Qusarın müvafiq orqanlarında ixtisasına uyğun işləmiş G.Nurəliyev pensiyaya çıxmazdan əvvəl 14 il fasiləsiz Qusar əmanət kassasının müdiri vəzifəsində işləyib.

Həmyaşıdlarından Gurhaməddin dayı özünün qeyri-adi zəhmətkeşliyi ilə seçilir. Bağ-bağat işlərini təkbaşına görən bu ahıl adamın yaxşı bağban olduğunu hamı yaxşı bilir. Ağsaqqal deyir ki, onu gümrah saxlayan da təmiz havada fiziki əməklə məşğul olmasıdır.



*Хурайви Фетулла Гьуьсейнова 2008-йисуз 105 йиса аваз вичин дуьнья дегишарна. 2010-йисуз адан папан - Незигье Мутудин рушан 100 йис тамам хьана. Яргьал йисара санал уьмуьр гьалай абурухъ 9 велед, гзаф хтулар, штулар ава.*



*Xuray kəndinin sakini Fətulla Hüseynov 2008-ci ildə 105 yaşında dünyasını dəyiştmişdir. 2010-cu ildə onun arvadı Nazihə Mutu qızının 100 yaşı tamam olmuşdur. Uzun illər bir yerdə ömür sürmüş ərlə arvadın 9 övladı, çoxlu nəvə, nəticə və kötücələri var.*





*ЧӀехи Гъалибвилин 65-йисан юбилей 100 йиса авай Гургьамеддин Нуралиева ва 97 йиса авай Адил Сефиханова Бакуда къаршиламишна. 2010.*

*Böyük Qələbənin 65 illik yubileyini 100 yaşlı Gurhaməddin Nuraliyev və 97 yaşlı Adil Səfixanov Bakıda qarşıladılar. 2010*







*Чи дамах тир къуьзуьбур.*

*Fəxrimiz qocalar.*

# ГадацӀийихуьруьнви Гьасанан сихилдин тар




## Qədəzeyxürlü Həsənin nəsil şəcərəsi

## *Мучугъви Ваданрикай Талибан сихилдин тар*




## *Mucuqlu Vadanlardan Talibin nəsil şəcərəsi*

## *ГуьндуьзкІелеви Мундузан сихилдин тар*




***Gündüzqalalı Munduzun nəsil şəcərəsi***

## Уьнуьгъьи Зекидин сихилдин тар

## Əniğli Zəkinin nəsil şəcərəsi



# XI

## КЦIАР ТЕСНИФАЙБУР



## QUSARI VƏSF EDƏNLƏR

***Мугьмандиз икрам тавурдан къуьлуь кьил кьадач.***

*Лезги халкьдин мисал*

### КЦIАРИЗ ИКРАМ АВУРБУР

КцIарикайни кцIарвийрикай марагълу малуматар кцIарви тушир къелемэгълийрин эсеррани дуьшуьш жезва. Абуру ина кьиле фейи тарихдин вакъиайриз, кцIарвийрин алакьунриз, кьегьалвилериз авайвал, лайихлудаказ къимет ганва.

Тарих тирвал гьикьван машгьур ксар, чара-чара халкьарин шумудни са сейли алимар, шаирар, кхьирагар, журналистар, художникар, композиторар, маничияр КцIариз мугьман хьанай. А мугьманри и чилерин иервилерални адан агьалийрин кьегьалвилерал гьейран яз КцIариз икрам авунай. Шаирри чпин шиирралди, кхьирагри гьикаятралди, алимрини журналистри макъалайралди, художникри таблойралди вириниз сейли авунай и макан. Абурун эсерар тай авачир эменни я. Лезгийрин, азербайжанвийрин, урусрин сеняткарри рикIин сидкьидай теснифнай и чилер. КцIара кьиле фейи тарихдин вакъиайрикай, адан къагьриманрикай, рагъэкъечIдай патан уьлквейриз сейли хьайи чи алимрикай хабар ганай абуру.

Ктабдин и кьил КцIар вириниз сейли авур машгьур инсанриз бахшнава.

***Qonağa hörmət etməyənin sünbülü dən tutmaz.***

*Ləzgi atalar sözü*

### QUSARI TƏRƏNNÜM EDƏNLƏR

Qusar və qusarlılar haqqında məlumatlara qusarlı olmayan qələm sahiblərinin əsərlərində də təsadüf olunur. Onlar burada baş vermiş tarixi hadisələrə, qusarlıların bacarığına, qəhrəmanlığına olduğu kimi, obyektiv və layiqincə qiymət vermişlər.

Tarix boyu neçə-neçə məşhur insanlar, ayrı-ayrı xalqların tanınmış alimləri, şairləri, yazıçıları, jurnalistləri, rəssamları, bəstəkarları, müğənniləri Qusarın qonağı olmuşdur. Onlar bu yerlərin təbiətinə, insanlarının mərdliyinə vurularaq, Qusarın adını böyük ehtiramla çəkmişlər.

Şairlər öz şeirləri, yazıçılar nəsr əsərləri, alimlər və jurnalistlər məqalələri, rəssamlar tabloları ilə Qusarı hər yanda tanıtmışlar. Onların əsərləri əvəzsiz irsdir. Ləzgi, azərbaycanlı, rus söz ustadları bu torpağı böyük məhəbbətlə tərənnüm etmişlər. Onlar Qusarla bağlı bir sıra tarixi hadisələrdən, onun qəhrəmanlarından, Şərq ölkələrində tanınmış alimlərindən maraqlı məlumatlar vermişlər.

Kitabın bu bölməsi Qusarı hər yanda şöhrətləndirmiş məşhur insanlara həsr olunmuşdur.

## ЛЕРМОНТОВ ВА КЪАФКЪАЗ

***Къафкъаздин чара-чара пипIера, гьакIни КцIара хьана, инин иервилер вичин вилералди акурдалай кьулухъ М.Ю.Лермонтова вичин дустарикай садаз гьейранвилелди кхьенай: “Къафкъаздиз атана ина шаир тахьун мумкин туш”.***



Къафкъаздин темади урусрин чIехи шаир М.Ю.Лермонтован яратмишунра кьетIен чка кьазва. “Ватандин дадлу, верцIи мани хьиз, Къафкъаз кIани я даим зи рикIиз”. И цIарар кIанивили арадиз гъанай.

Аял чIавуз Лермонтовак цIаяр акатнай ва хайибуру ам кьведра Къафкъаздин минерал ятарал гъанай. Пуд лагьай гьилерда 10 йиса аваз Къафкъаздиз атай ам вичин халадин кIвале амукьнай. Гьа чIавалай Къафкъаздин иервилери ам рам авунай. Шаирдин сифте эсеррикай тир “Черкезар”, “Къафкъаздин есир”, “Измаил бег”, “Къачагъ Гьажи” гьа девиррин таъсирдик кваз арадиз атанай.

1837-йисан гатфариз А.С.Пушкинан кьиникьдихъ авсиятда кхьей “Шаирдин кьиникь” шиир себеб яз Лермонтов Къафкъаздиз суьргуьн авунай. 1837-йисан Къубадин бунт къаткурун патал Гуржистандай Къубадиз ракъурай военныйрин кIеретIда Лермонтовни авай. И вакъиайри адан яратмишунриз чIехидиз таъсирнай. Къафкъаздин халкьарин, гьабурукай яз лезгийрин ацукьун-къарагъун, абурун адетар мукьувай чирай шаирди и темадай гзаф эсерар яратмишнай: “Иблис”, “Мцыри”, “Бастунжадин аул” ва мсб. Адан “Катайди”, “Жегьил лезги”, “Хенжел”, “Хиялар” хьтин шиирар Къафкъаздин гьава, инин инсанрин руьгь квайбур я. “Къакъатун” шиир Лермонтова КцIариз атайдалай гуьгъуьниз кхьенай.

Къубада ва КцIара хьайи шаир инрин иервилерал, адан инсанрин кьегьалвилелни захавилел гьейран хьанай. КцIара военный духтур, подполковник Александр Александрович

## LERMONTOV VƏ QAFQAZ

***Qafqazın ayrı-ayrı yerlərinin, o cümlədən Qusarın gözəlliklərini görəndən sonra buralara vurğun olmuş M.Y.Lermontov dostlarından birinə göndərdiyi məktubda heyranlıqla yazmışdır: “Qafqaza gəlib burada şair olmamaq mümkün deyil”.***

Qafqaz mövzusu böyük rus şairi M.Y.Lermontovun yaradıcılığından qırmızı xəttlə keçir. “Vətənin dadlı, şirin nəğməsi tək hey qəlbən, sevirəm Qafqazı mən” misraları bu məhəbbətdən yaranmışdır.

Məlum olduğu kimi, uşaqlıqda şair qızılca keçirmiş, doğmaları onu iki dəfə Qafqazın mineral su mədənlərinə aparmışlar. Üçüncü dəfə 10 yaşında Qafqaza gələn gələcək şair xalasının evində yaşayır. O vaxtdan bu diyarın gözəllikləri şairin yaddaşına həkk olunur. Onun ilk poetik yaradıcılığının məhsulu olan “Çərkəzlər”, “Qafqaz əsiri”, “İsmayıl bəy”, “Qaçaq Hacı” həmin təəssüratların nəticəsində yaranmışdır.

1837-ci ilin baharında A.S.Puşkinin ölümü ilə əlaqədar yazdığı “Şairin ölümünə” şerinə görə Lermontov Qafqaza sürgün olunur. 1837-ci ildə Quba üsyanını yatırtmaq üçün Gürcüstandan Qubaya göndərilən hərbi dəstədə gənc Lermontov da var idi. Bu səfər onun yaradıcılığına olduqca böyük təsir göstərir.

Qafqaz xalqlarının, o cümlədən ləzgilərin həyat tərzi, adət-ənənələri ilə yaxından tanış olmaq imkanı qazanan şair Qafqaz mövzusunda silsilə əsərlər yaradır. “İblis”, “Msıri”, “Bastunca aulu” və sairə belə əsərlərdəndir. Lermontovun “Qaçqın”, “Gənc ləzgi”, “Xəncər”, “Xəyallar” şeirlərində Qafqazın bənzərsiz ab-havası, buranın insanlarının ruhu inandırıcı boyalarla verilmişdir. “Ayrılıq” şerini o, Qusara gələndən sonra qələmə almışdır.

Qubada və Qusarda olan şair bu yerlərin gözəlliyinə, insanlarının igidliyinə və saflığına heyran olur. Qusarda hərbi həkim, podpolkovnik Aleksandr Alek-



*КцIар шегьерда М.Ю.Лермонтован кIвал-музей*
*Qusar şəhərində M.Y.Lermontovun ev-muzeyi*

Маршеван кIвале пуд юкъуз амукьай шаир инин тIвар-ван авай инсанрихъ галаз таниш хьанай. Машгъур ашукь Лезги Агьмедавай ван хьайи "Ашукь Къариб" дастанди шаирдиз кIевелай эсернай ва ада гуьгъуьнлай гьа тIвар гана поэма кхьенай.

Къуба-КцIар зонада алим хьиз сейли тир Мирза Али эфендидин кIвале ада машгъур "Хенжел" шиир кхьенай. И кьве кас шаирди фад-фад рикIел хкидай. Вичин къейдерикай сада М.Ю.Лермонтова икI кхьенвай: "Зун Къафкъазда алим Алидихъ ва Агьмедахъ галаз таниш хьана" *(Лермонтов М.Ю. П.С. стр.383. АН СССР).*

Са береда КцIара Лермонтов хьайи кIвалин цлал гила барельеф ва шаирдин Къафкъаздиз талукьарнавай чIалар ала.

## МАРЛИНСКИЙ ЦIИЙИ КЪУБАДА

***1834-йисуз Дербент, Къуба ва КцIара хьайи, дагъдин рекьерай тIуз Тифлисдиз элкъвей А.А.Бестужев-Марлинскийди вичин "Къубадин рехъ" очеркда вич фейи рекьер художникди сеняткарвилелди чIугур эсердив гекъигнай ва лагьанай хьи, ибур къелемдивай теснифиз жедач, и иервилер кьатIун патал абур вилералди акун герек я.***



Бестужев Александр Александрович (Марлинский) (1797-1837) декабрист, Кефер жемиятдик квай женгчи, 1825-йисан 14-декабрдин бунтунин иштиракчи, штабс-капитан, кхьираг, "Полярная звезда" альманах арадиз гъайи кас тир. Вичиз 20 йисан каторга атIай ам 1829-йисалай Къафкъаздин армиядиз аскервилиз ракъурнай. Ина кьегьалвилер къалурунай Марлинскийдиз чин гун патал императордин вилик месэла къарагъарнай, ингъе ада разивал ганачир. Эхирни 1836-йисуз адаз офицердин чин ганай.

Къафкъазда Бестужева вичин машгъур "Синагъ" (1830), "Лейтенант Белозор" (1831), "Амалат бег" (1832), "Мулла Нур" (1836) эсерар ва Къафкъаздин очеркар кхьенай. Ада абур 1830-йисалай кьил кутуна Петербургдин ва Москвадин журналра чапнай. Адлер патал кьиле фейи женгера гьелек хьайи Бестужеван мейит жагъаначир.

Чкадин агьалийри КцIар, патанбуру ЦIийи Къуба тIвар ганвай КцIара XIX асирда Базарная, Офи-

sandroviç Marşevin evində üç gün qalan şairlə görüşmək üçün onun yanına buranın adlı-sanlı adamları gəlirlər. Məşhur ləzgi şairi və aşığı Ləzgi Əhməddən eşitdiyi "Aşıq Qərib" dastanı Lermontovu o qədər təsirləndirir ki, tezliklə o, eyniadlı poema yazır.

Quba-Qusar bölgəsində məşhur olan filosof-alim Mirzə Əli əfəndi ilə tanışlıqdan sonra isə o, məşhur "Xəncər" şerini qələmə alır. Ümumiyyətlə, bu iki adamla yaxından tanışlığı o, sonralar dəfələrlə xatırlamışdır. Qeydlərindən birində M.Y.Lermontov yazırdı: "Mən Qafqazda alim Əli ilə və Əhmədlə tanış oldum" *(Лермонтов М.Ю. П.С. səh.383. АН СССР).*

Lermontovun vaxtilə Qusarda qaldığı evin qarşısında şairin barelyefi qoyulmuş, Qafqaza həsr etdiyi şətirləri həkk olunmuşdur.

## MARLİNSKİ YENİ QUBADA

***1834-cü ildə Dərbənd, Quba və Qusarda olmuş, sonradan dağ yolları ilə Tiflisə qayıtmış Bestujev Marlinski "Quba yolu" oçerkində keçdiyi yolları mahiranə çəkilmiş rəsm əsərinə bənzədir və deyirdi ki, bunları təsvir etməklə onlar haqqında təsəvvür yaratmaq çətindir. Bunları gərək görəsən və gözəlliyini duyasan.***

Bestujev Aleksandr Aleksandroviç (Marlinski) (1797-1837) dekabrist, Şimal cəmiyyətinin üzvü, 14 dekabr 1825-ci il üsyanının iştirakçısı, ştabs-kapitan, yazıçı, "Polyarnaya zvezda" almanaxının yaradıcısıdır. O, 20 il katorqa cəsası almış, 1829-cu ildən sıravi əsgər kimi Qafqaz ordusunda xidmət etmiş, burada şücaətlər göstərmişdir. Ona rütbə verilməsi təqdimatını imperator hər dəfə rədd etmiş, nəhayət, 1836-cı ildə Bestujevə zabit rütbəsi verilmişdir.

Qafqazda Bestujev özünün ən məşhur nəsr əsərlərini yazmışdır: "Sınaq" (1830), "Leytenant Belozor" (1831), "Amalat bəy" (1832), "Molla Nur" (1836). Yazıçı onları və məşhur Qafqaz oçerklərini 1830-cu ildə Peterburqun və Moskvanın jurnallarında A.Marlinski imzası ilə dərc etdirmişdir. Adler körfəzi uğrunda gedən döyüşlərdə Bestujev həlak olmuş, onun meyidi tapılmamışdır.

Yerli sakinlərin Qusar, gəlmə adamların isə Yeni Quba adlandırdıqları Qusarda XIX əsrdə Bazarnaya,

церская, Садовая, Крепость куьчеяр авай. Крепостда Гродненск полк авай. Гьа полкуна къуллугъ авур урусрин кхьираг Александр Бестужев Марлинскийди вичин полк хьайи чка дустарикай садаз кхьей чарче авайвал къалурнава: "Полк ЦIийи Къуба лугьудай чкадал, Куьгьне Къубадивай цIикьвед верст яргъа, гьулуьз мукьва, КцIар вацIун къерехда акъвазнава. Чун авай чка гзаф иерди я, кьуд пад емишар авай тамар я".

## ВЛАДИМИР ДАЛАН ЛЕЗГИ ГЬАСАНАКАЙ ИХТИЛАТ

***1865-йисуз Санкт-Петербургда басма хьайи "Лезги Гьасанакай ихтилат" повесть урусрин тIвар-ван авай кхьираг Владимир Иванович Дала кхьенай. Эсер XIX асирдин 30-йисарин Къуба аялатдин хуьрерин залан гьалар, лезгийрин яшайиш ва майишат чирун патал марагълу я.***



Урусрин тIвар-ван авай этнограф, лингвист, лексикограф, духтур, 50 йисан къене 200 агъзур гафунин баянрин гафарган туькIуьрна, "Жанлу зурба урус чIалан гафариз баянар гузвай гафарган" тIвар гана чапдай акъудай Владимир Иванович Дала гьакIни урусрин уьмуьрдин гьакъикъи делилрал бинелу тир прозадин эсерралди кIелдайбурун гьуьрмет къазанмишнай. Адан къелемдикай марагълу гьикаяяр, повестар, этнографиядин очеркар хкатнава.

Кхьираг вичин Къафкъаздиз ва адан халкьариз талукьарнавай эсерралди сейли я. Ихьтин эсеррикай сад "Лезги Гьасанакай ихтилат" я. 1831-йисуз къелемдиз къачунвай и повестда девирдин татугайвилер себеб яз къачагъвал ийиз мажбур хьайи ГадацIийихуьруьнви жегьил Гьасанан уьмуьрдикай ихтилатзава. Вакъиаяр Къубада, КцIара, ГадацIийихуьре, Манкъулидхуьре кьиле физва. Кхьирагди Гьасанан образ чIалахъ жедайвал яратмишнава.

## ПОЛЯКАР КЦIАРИЗ СУЬРГУЬННАЙ

Урусри полякрин бунт къаткурайдалай кьулухъ и бунтуна иштирак авур гзаф полякар урус пачагьдин кьушунрихъ галаз санал Къафкъаздин дяведиз ракъурнай. XIX асирда Къубадиз ва КцIариз акъатай полякри чпин ватандиз хъфейда-

Ofiserskaya, Sadovaya, Krepost adlı küçələr var idi. Krepost küçəsində Qrodnensk polku yerləşirdi. Həmin polkda qulluq etmiş rus yazıçısı Aleksandr Bestujev-Marlinski dostlarından birinə ünvanladığı məktubunda belə yazmışdır: "Polk Yeni Quba adlanan yerdə, Köhnə Qubadan on iki verstlik məsafədə, dənizə yaxın, Qusar çayının sahilində yerləşir. Bu yer olduqca gözəldir, dörd tərəfdən meyvəli meşələrlə əhatə olunmuşdur".

## VLADİMİR DALIN LƏZGİ HƏSƏN HAQQINDA HEKAYƏTİ

***1865-ci ildə Sankt Peterburqda çapdan çıxmış "Ləzgi Həsənin hekayəti" povestinin müəllifi tanınmış rus yazıçısı Vladimir İvanoviç Daldır. Əsər XIX əsrin 30-cu illərində Quba qəzasının ucqarlarındakı ağır ab-havanı, ləzgilərin həyat və məişətini öyrənmək nöqteyi-nəzərindən olduqca maraqlıdır.***

Adlı-sanlı rus etnoqrafı, linqvisti, leksikoqrafı, həkimi, 50 il üzərində çalışıb nəşr etdirdiyi 200 000 min sözdən ibarət "Canlı rus dilinin izahlı lüğəti"nin müəllifi Vladimir İvanoviç Dal XIX əsr rus həyatının reallıqları ilə zəngin nəsr əsərləri ilə oxucuların rəğbətini qazanmışdı. Onun qələmindən bir sıra maraqlı hekayələr, povestlər, etnoqrafik oçerklər çıxmışdır.

Müəllif Qafqaza və onun xalqlarına aid əsərlərlə də tanınmışdır. Belə əsərlərdən biri 1865-ci ildə Sankt Peterburqda çapdan çıxmış "Ləzgi Həsənin hekayəti" povestidir. Əsər 1831-ci ildə qələmə alınmışdır. Dövrün hadisələrinin qaçaqlıq etmək məcburiyyətində qoyduğu Gədəzeyxür kəndindən olan gənc Həsənin taleyindən bəhs edən bu əsərdəki hadisələr Quba, Qusar, Gədəzeyxür, İmamqulukənd kimi yerlərdə cərəyan edir. Yazıçı Həsənin obrazını inandırıcı boyalarla yarada bilmişdir.

## POLYAKLAR QUSARDA SÜRGÜNDƏ

Ruslar polyakların qiyamını yatırtdıqdan sonra bu qiyamda iştirak etmiş çoxlu polyaklar rus qoşunları ilə birgə Qafqaz müharibəsinə göndərilir. XIX əsrdə Qubaya və Qusara gəlib çıxan polyaklar vətənlərinə döndükdən sonra bu yerlər haqqında bir

лай кьулухъ и чкайрин гьакъиндай гзаф марагълу малуматар ганай. Ихьтин малуматар М.Анжейковичан, М.Гралевскийдин, С.Падлевскийдин ва маса къелемэгълийрин ктабра, абурун къейдера дуьшуьш жезва.

Къубада ва КцӀара суьргуьнда хьайи М.Гралевскийдин КцӀарикай къейдер иллаки марагълубур я. Ада КцӀарин иервилер тесниф авурдалай гуьгъуьниз ина Польшадин князь Паскевичан тӀварунихъ галай Ширвандин полк авайдакай малумат ганай. Ада кхьизвайвал, а чӀавуз КцӀара 300 кӀвал авай, ина гьакӀни католикрин килиса кардик квай. КцӀарин рагъэкъечӀдай пата казарма, аскерар патал утагъар, канцелярия ва килиса, рагъакӀидай пата лагьайтӀа, мискӀин авай, иниз гзаф мусурманар къвезвай. Къафкъаздиз суьргуьн авурбурун арада са шумуд поляк шаирни авай. Абуру Къафкъаздиз ва лезгийриз гзаф шиирар теснифнай. Владимир Стрезелинскийдин яратмишунра лагьайтӀа и темади кьетӀен чка кьазвай.

## АГЬМЕД ЖАВАД ХУЬЛУЬХЪА

***Са шумуд йисуз КцӀарин Хуьлуьхъ хуьре муаллимвал авур Азербайжандин сейли шаир Агьмед Жавадан яратмишунриз и девирди чӀехидиз таъсир авунай. ТӀебиатдин къужахда яшамиш жезвай, гзаф четинвилериз таб гузвай кесиб, сая ва рикӀ ахъа лезгийрин арада уьмуьр гьалай шаирди ина гзаф марагълу эсерар кхьенай.***



Садбуру адан и девирдин яратмишунрикай ихтилатдайла шаирди "Хуьлуьхъа " шиир и яргъал хуьруьн адетар русвагъун патал къелемдиз къачунвайди я лугьуда. Ингье Азербайжандин сейли шаир, 15 ктабдин, 40 дастандин автор тир, яргъал йисара Келбежерда уьмуьр гьалай, гила Генжеда яшамиш жезвай, Агьмед Жавадан уьмуьрдин рекьер тупӀалай авур Али Къурбан Дастанчиди им зарафатдин шиир тирди малумарзава.

И фикир шаирди вичи делилрал бинеламиш хьана кхьей "Мешедисе дастандани" къейд ийизва. Дастанда идахъ авсиятда кхьенва хьи, Эрменистандин Гуьйче магьалдай катна Генжедиз атай Къараиманлы Мешедисе Агьмед Жавадан кӀеви дуст тир. 1920-йисуз Хуьлуьхъиз рекье гьатай кьве вацралай шаирди Генжедиз Мешедиседиз са шиир ракъурнай.

sıra məlumatlar verirlər. Belə məlumatlara M.Anjeykoviçin, M.Qralevskinin, S.Padlevskinin və başqa polşalı qələm sahiblərinin kitablarında, onların qeydlərində rast gəlmək mümkündür.

Qubada və Qusarda sürgündə olmuş, xeyli müddət burada yaşamış M.Qralevskinin Qusarla bağlı qeydləri xüsusilə maraqlıdır. O, Qusarın təbiətinin gözəlliklərini təsvir etdikdən sonra burada Polşa knyazı Paskeviçin adına "Şirvan alayı"nın olması barədə məlumat verir. Onun qeydlərindən məlum olduğu kimi, o zaman Qusarda 300 ev var idi, həmçinin burada katolik kilsəsi fəaliyyət göstərirdi. Müəllif Qusarın şərqində alayın kazarmalarının yerləşdiyini, orada əsgərlərin yaşaması üçün otaqlar, dəftərxana və kilsə olduğunu, Qusarın qərbində isə müsəlman məscidinin fəaliyyət göstərdiyini və buraya ibadətə çoxlu insanın gəldiyini də qeyd edir. Qafqaza, onun xalqlarına, o cümlədən ləzgilərə şeirlər həsr etmiş Vladimir Strezelinskinin əsərlərində bu mövzu xüsusi yer tutur.

## ƏHMƏD CAVAD XULUQDA

***Ömrünün bir neçə ilini Qusarın Xuluq kəndində müəllimlik fəaliyyətinə həsr etmiş böyük Azərbaycan şairi Əhməd Cavadın yaradıcılığına bu dövr böyük təsir göstərmişdir. Təbiətin sərt qoynunda yaşayan, hər gün saysız-hesabsız məişət çətinlikləri ilə üzləşən kasıb, sadə, eyni zamanda ürəyi açıq ləzgilərin arasında yaşamış şair burada bir sira maraqlı əsərlər yaratmışdır.***

Bəzi tədqiqatçılar şairin bu dövr yaradıcılığından söhbət açarkən birmənalı olaraq onun "Xuluqda" şeirini misal göstərir və onu Əhməd Cavadın kəndə yazdığı həcv kimi qiymətləndirirlər. Lakin azərbaycanlı şair, 15 kitab və 40 dastan müəllifi, uzun illər Kəlbəcərdə ömür sürmüş, hazırda Gəncədə yaşayan, Əhməd Cavadın ömür yolunu diqqətlə tədqiq edən Əli Qurban Dastançı bunun zarafat şeri olduğunu bildirir.

Bu fikir şairin Ə.Cavada həsr olunmuş "Məşədisə dastanı"ndan aydın görünür. Dastandan bununla əlaqədar oxuyuruq ki, Göycə mahalından qaçqın düşüb Gəncədə məskunlaşmış Qaraimanlı Məşədisə Əhməd Cavadla möhkəm dost imiş. 1920-ci ildə Xuluqa yola düşəndən iki ay sonra şair Gəncəyə Məşədisəyə özünün "Xuluqda" адлы şerini göndərir.

*Са къайи жегьеннем, са къайи уьлкве,*
*АлукIна кавал за, жуваз лап мекьиз.*
*Кавал хьаначиртIа къведачир белки,*
*Яргъи кьуьд алатна, гатфар Хуьлуьхъиз.*

И цIарaралди башламишзавай шиир кIелайла мукьва-кьилибурун ахвар атIуда кьван. Шиирда Агьмед Жавада хуьре вичихъ рикI кудайбур авачирди, чими гуьлуьтар авачирвиляй кIвачер къаю тухузвайди къалурзавай. Генжедин базардай пайуьлуьш, чими пекер къачуна рекье гьатда кьван абур Хуьлуьхъиз. Ингъе хуьре абур маса са сегьнедин шагьид жеда. Шаирдиз ина чIехи гьуьрмет авайди, ам нубатдалди хуьруьнбуру чпин кIвалера илифарзавайди акур Мешедиседи ва адахъ галаз атайбуру шаирдин шиир зарафат тирди, чеб акван патал фикирнавайди кьатIана. Атай мугьманар лагьайтIа, хуьруьнбуру са вацра мугьманвиле хвена. Хъфидайла Агьмед Жавада Мешедиседиз хуьруьнбуру вичиз багъишнавай са къиметлу бармак ва са хенжелни гана.

Агьмед Жавадан шииррихъ КцIариз, лезгийриз теснифнавайбурни ава. Абурукай сад “Перизада” я. И шиирда шаирди халкьдин мани “Перизада” кIелзавай лезги рушарин образ гзаф иердиз, кIанивилелди яратмишнава:

### ПЕРИЗАДА

*Алатда виликай сунайрин саягъ,*
*Лугьуз Перизада лезги рушари.*
*Ашкъидин булахдай яд хъвайбуру хьиз,*
*Сад садаз эверда лезги рушари.*

*Вуч чир хьуй зи рикIе цIелхем авайди,*
*Адакай цIай кьади чIехи дуьньяди.*
*Зи гуьгьуьл кукIвариз тахьуй векъиди,*
*РикIе мус бегьерда лезги рушари.*

*Са гафни авачиз иер я, иер,*
*КIанивал чидайдан галатдан гьилер?*
*ХупI рикIиз чимида авурла хьилер,*
*Куда цIун тегьерда лезги рушари.*
*(Элкъуьрайди С.Керимова я.)*

Агьмед Жавад (Жавад Мамедалидин хва Ахундзаде) гилан Шемкир райондин Сейфели хуьре дидедиз хьана. 1913-йисалай шиирар чап жезва. Филологиядин илимрин доктор Али Саледдина “Азербайжан мектеби” журналда (1992, №2) къейд авурвал, А.Жавада 1920-йисан 20-августдилай 1922-йи-

*Soyuq bir cəhənnəm, bir soyuq ölkə,*
*Soyuq güc gətirdi, sığındım kürkə.*
*Bu kürk olmasaydı, gəlməzdi bəlkə,*
*Bu imansız qışın yazı Xuluqda.*

Bu misralarla başlanan şeri oxuyanda qohum-əqrabanın qərarı kəsilir. Şeirdən belə məlum olurdu ki, soyuqdan canı əsən şairə kənddə bir cüt yun corab belə qıyan yoxdur. Gəncə bazarından şairə isti pal-paltar alıb bir dəstə adam Xuluqa yola düşür. Lakin kənddə onlar şairin yazdıqlarının əksini görürlər. Burada hörmət və qayğı ilə əhatə olunan şairi kənd sakinləri növbə ilə evlərinə qonaq aparırdılar.

Məşədisə və onunla gələnlər anlayırlar ki, bu, zarafat şeri imiş, dostları üçün darıxmış şair onları bura gətirmək üçün bunu fikirləşibmiş. Üç günlüyə kəndə gedən qonaqların geri qayıtması isə düz bir aydan sonra baş tutur. Qonaqları növbə ilə evlərinə aparıb qulluq etmək bu kəndin adəti imiş. Ayrılanda Əhməd Cavad Məşədisəyə kənddə ona bağışlanmış bir qiymətli papaq və xəncər də bağışlayır.

Əhməd Cavadın bu yurda, eləcə də ləzgilərə heyranlıqla yazdığı şeirlər də məlumdur. Onlardan biri “Pərizadə” adlanır. Qədim xalq mahnısı “Perizada” oxuyan ləzgi qızlarının obrazını şair inandırıcı boyalarla, məhəbbətlə yaratmışdır:

### PƏRİZADƏ

*Süzər yaşılbaşlı sonalar kimi,*
*Oxur Pərizadə ləzgi qızları.*
*Dadmışlarmı nədir eşqin camını,*
*Gəlmişdir fəryadə ləzgi qızları.*

*Bilməzlər ki, məndə bir qığılcım var,*
*Bircə zərrəsindən yanar dünyalar.*
*Etdilər könlümü yaxşı tari-mar,*
*Gəlməzlər ki, dadə ləzgi qızları.*

*Oynadaraq durur gözəl, gözəli,*
*Eşq anlayanların yorulmaz əli.*
*Süzgün gözlərini yana süzəli,*
*Saldı məni oda, ləzgi qızları.*

Əhməd Cavad (Cavad Məmmədəli oğlu Axundzadə) indiki Şəmkir rayonunun Seyfəli kəndində anadan olmuşdur. 1913-cü ildən şeirləri dövri mətbuatda nəşr olunmuşdur. Filologiya elmləri doktoru Əli Saləddinin “Azərbaycan məktəbi” jurnalının 1990-cı ilin 2-ci sayında dərc olunmuş “Mədəniyyət və maarif fə-

сан 1-сентябрдалди Къуба уездда туьрк чIалан ва литературадин муаллимвиле, Азербайжандин маарифдин комиссариатди тешкил авур педагогикадин курсара лекторвиле, КцIара, Хуьлуьхъа ва маса хуьрера мектебдин директорвиле, са кьадар вахтунда Къуба уезддин маарифдин идарадин регьбервиле ва маса къуллугърал кIвалахнай. Къуба уездда адахъ галаз санал Гьуьсейн Мусаева ва Мир Жафер Багьировани кIвалахнай ва абуру дуствал авунай.

Кхьираг Эмир Мустафаева вичин "Эдебият газети" газетда чап хьайи "Шаирдин уьмуьрдин пуд йис" макъалада (1992-йисан 13-март) кхьенвайвал, А.Жавада Хуьлуьхъа кIвалахдайла а девирдин тIарван авай алим ва маарифчи Абдулжелил эфендидихъ галаз дуствал ийизвай. 8 чIал чизвай А.Жавада 9 лагьайди - лезги чIални чирнавай.

А.Жавад лезгийрин камалэгьли Гьасан Алкьвадарвидин ирсинихъ, лезги шаиррикай Етим Эминан, Кьуьчхуьр Саидан, СтIал Сулейманан яратмишунрихъ галаз таниш тир. Ю.Исмаилова "Азербайжан генжлери" газетдин 1988-йисан 29-сентябрдин тилитда кхьенвайвал, кцIарви дустари шаирдиз пишкеш яз кьве хенжел ганай.

daisi" məqaləsində göstərildiyi kimi, Əhməd Cavad 1920-ci ilin avqustun 20-dən 1922-ci ilin sentyabrın 1-nə kimi Quba qəzasında türk dili və ədəbiyyatı müəllimi, Azərbaycan maarif komissarlığının təşkil etdiyi qısa pedaqoji kurslarda mühazirəçi, Qusarda, Xuluqda və başqa kəndlərdə məktəb direktoru, Quba qəzasının maarif şöbə müdiri, yoxlama komissiyasının üzvü və başqa vəzifələrdə çalışmışdır. Quba qəzasında onunla bir məktəbdə Hüseyn Musayev və Mir Cəfər Bağırov da dərs deyirdi və onlar dostluq edirdilər.

Yazıçı Əmir Mustafayevin "Ədəbiyyat qəzeti"nin 13 mart 1992-ci il tarixli sayında dərc olunmuş "Şair ömrünün üç ili" məqaləsində göstərildiyi kimi, Əhməd Cavad Xuluqda işləyərkən o dövrün tanınmış ləzgi ziyalısı və alimi Adbulcəlil əfəndi ilə dostluq edirdi. 8 dil bilən Əhməd Cavad 9-cu dil də öyrənmişdi - ləzgi dilini.

Ə.Cavad görkəmli ləzgi alimı Həsən Alqadarinin irsinə, o cümlədən məşhur ləzgi şairləri Yetim Eminin, Qüçxür Səidin və Süleyman Stalskinin yaradıcılığına bələd idi. Y.İsmayılovun "Azərbaycan gəncləri" qəzetinin 29 sentyabr 1988-ci il tarixli sayında dərc olunmuş "Tale" məqaləsində göstərildiyi kimi, Qusarda ləzgi dostları Əhməd Cavada iki xəncər bağışlamışdılar.

## САМЕД ВУРГЪУН КЦIАРВИЙРИН ДЕПУТАТ ТИР

***КцIар районда Самед Вургъунан тIварцIиз инсанри рикIивай икрамда. Адан шиирар хуралай кIелдайбур ина гзаф ава. Хъсан гъуьрчехъан хьиз ара датIана Яргун, Хуьлуьхъ, ТIигьир ва маса хуьрера къекъвей шаирдикай халкьдин арада гзаф марагълу ихтилатар ава.***



Райондин интеллигентрин арада вичихъ Иляс Илясов, Агьмед Агьмедов, Зал Залов хьтин гзаф дустар хьайи шаир хуьрба-хуьр къекъвенай, инин инсанрихъ галаз таниш хьанай. Гуьгъуьнлай абур шаирдин образриз элкъвенай.

КцIар райондин Манкъулидхуьурьн "Яру Лежбер" колхоздин уьзвийрин, КцIарин МТС-дин къуллугъчийрин, Къунахкент райондин Ворошилован тIварунихъ галай халичачивилин артелдин ва Молотован тIварунихъ галай колхоздин коллективрин собранийри акъудай къарарар асасдиз къачуна 158-

## SƏMƏD VURĞUN QUSARLILARIN DEPUTATI İDİ

***Qusar rayonunda Səməd Vurğun şəxsiyyətinə xüsusi münasibət var. Burada onun şeirlərini əzbərdən deyən insanlar çoxdur. Dəfələrlə Həzrə, Xuluq, Düztahir və başqa kəndlərdə olmuş, mahir ovçu kimi tanınmış şairlə bağlı xalq arasında bir-birindən maraqlı əhvalatlar dolaşır.***

Rayon ziyalıları arasında İlyas İlyasov, Əhməd Əhmədov, Zal Zalov kimi çoxlu dostları olan şair rayonu kəndbəkənd gəzmiş, burada olduqca maraqlı insanlarla görüşmüş, sonralar onları əsərlərinin obrazlarına çevirmişdir.

Şairin Quba-Qusar bölgəsindən deputatlığa namizəd göstərilməsi də təsadüfi deyildi. Qusar rayonundakı İmamqulukənd kəndinin "Qırmızı əkinçi" kolxozunun üzvlərinin, Qusar MTS-nin qulluqçularının, Qonaqkənd rayonundakı Voroşilov adına xalçaçılıq artelinin və Molotov adına kolxozun üzvlərinin ümu-

нумрадин Къубадин сечкийрин округдай СССР-дин Верховный Советдин депутатвиле Самед Вургъун Юсифан хва Векилован кандидатвал къалурнай. ЧІехи сеняткар пудра - II созывдин (1946), III созывдин (1950) ва IV созывдин (1955) Миллетрин Советдиз Къуба зонадай депутатвиле хкянай.

КцІарал рикІ алай Самед Вургъун гъиле фирсет гъатун кумазни райондиз фидай. Гъам депутат хьиз, гъамни шаир хьиз ара датІана инсанрин арада жедай ам. Гъавиляй инсанри икрамдай адаз. Хъсан гъуьрчехъан тир С. Вургъун тфенг къуьне аваз чи чуьллера, тамара, дагълара къекъведай, рикІ ахъа инсанрин кІвалериз илифдай, абурун суфрадихъ ацукьдай. Шаирдин илгьамдин булах ргайла тух жедачир кцІарвияр адан верцІи ихтилатрикай.

Садра адаз вичин муаллим дустарикай сад пашман яз акунай. "Вун вучиз сефил я?" - лагъана жузунай шаирди. Дустуни авайвал вичин дерт лагъанай: "Захъ кьве гада ава, гзаф алакьунар авай аялар я. Абуруз мектеб куьтягьна институтрик экечІиз кІанзава. Анжах захъ абур Бакудиз ракъурдай мумкинвилер авач". Шаирди адан къуьнел гъил эцигна лагъанай: "Бес чун гьин йикъан дустар я? За куьмекда аялриз". Са шумуд югъ алатайла кцІарви дустуни аялар Бакудиз, Самед Вургъунан кьилив ракъурнай. Шаирди вичин гаф кьилиз акъуднай.

Ихьтин мисалар мадни гъиз жеда. КцІарвийриз шаир гьикьван пара кІанзавайтІа, гьадани абуруз гьакьван куьмекар ганай.

КцІарал ашукь тир сеняткарди инаг рикІ алаз тесифнай. Ада ихьтин цІарар къелемдиз къачунай:

*Хиялу жеда зун акваз и уба,*
*Ина гьакъикъатар, кьисаяр ава.*
*РикІера гурлувал, гъилера къуват,*
*Ина гумрагь я хупІ хъуьрез тІебиат.*
*Инаг цуькверинни къушарин макан,*
*Гуьгьуьлар шад жеда акурла гьикьван...*
*Килиг циферик квай гьар са къаядиз,*
*Авазва ракъиниз, вацраз вил ягъиз.*
*Дагъларин синелай физвай жигъирар,*
*Бубайри чун патал тунва ядигар...*
*Дагъларал тунва кьил чІехи Шагь дагъди,*
*Кьунва алем вири адан суракьди.*
*Адан булахри къе хуьзва михьивал,*
*Сиве мез авачир виш йисар патал...*

mi yığıncaqlarının qərarı ilə 158 saylı Quba seçki dairəsindən SSRİ Ali Sovetinə deputatlığa namizədliyi göstərilmiş Səməd Vurğun Yusif oğlu Vəkilov üç dəfə dalbadal - II çağırış (1946), III çağırış (1950) və IV çağırış (1955) Millətlər Sovetinə Quba zonasından deputat seçilmişdi.

Qusara qəlbən bağlı olan Səməd Vurğun əlinə fürsət düşən kimi rayona gedərdi. O, həm deputat kimi, həm də şair kimi daim insanların arasında olardı. Ona görə də insanlar onunla fəxr edərdilər. Yaxşı ovçu kimi ad qazanmış şair çiynində tüfəng çölləri, meşələri, dağları dolaşar, ürəyi açıq insanların qonağı olar, onların süfrəsində çörək kəsərdi. İlhamı coşanda qusarlılar onun şirin söhbətlərindən doymazdılar.

Bir dəfə o, müəllim dostlarından birini çox qayğılı görür və "niyə pərişansan?" deyə ondan soruşur. Dostu olduğu kimi dərdini ona danışır: "Çox istedadlı iki oğlum var. Məktəbi bitirib institutda oxumaq istəyirlər. Amma mənim nə onları Bakıya göndərməyə imkanım var, nə də tələbə vaxtı kömək göstərməyə". Şair əlini müəllimin çiyninə qoyub deyir: "Bəs biz hansı günün dostlarıyıq? Uşaqlara mən kömək edərəm".

Bir neçə gündən sonra qusarlı müəllim uşaqlarını Bakıya, Səməd Vurğunun yanına göndərir. Şair dostuna verdiyi vədə əməl edir.

Belə misalları çox çəkmək olar. Qusarlılar şairi nə qədər sevirdilərsə, o da onlara bir o qədər yaxından kömək göstərirdi.

Qusara vurğun olan sənətkar bu diyarın gözəlliklərini məharətlə qələmə almışdır. Şair onu belə vəsf edir:

*Düşündürür məni bu sirli diyar,*
*Burda həqiqətlər, əfsanələr var -*
*Ürəklərdə axın, qollarda qüvvət,*
*Burda öz-özünə gülür təbiət.*
*Burda çiçəklərin, quşların dəmi,*
*Burda könüllərin əski həmdəmi...*
*Dumanlar içində duran hər qaya,*
*Göz vurur günəşə, göz vurur aya.*
*Dağların döşündən gedən cığırlar*
*Qalmış babalardan bizə yadigar...*
*Başını dağlara vurur Şah dağı,*
*Alınır aləmdə onun sorağı.*
*Döşündən çağlayan soyuq bulaqlar,*
*Dilsiz əsrlərə xatirə saxlar...*

## ЛЕЗГИ ЧIАЛАН КЪУБА ДИАЛЕКТ ТУПIАЛАЙ АВУР АЛИМ

***Азербайжандин лезгийрин рахунри вичихъ ялай Мегьамед Гьажиева вичин уьмуьрдин эхиримжи йисар лезги чIалан Къуба диалект чируниз серф авунай.***



Дагъустандин филологиядин илимдин ахьтин хел авач хьи, ана М.Гьажиеван хатI, адан гел тахьурай. Мегьамед Гьажиев 1887-йисан 10-декабрдиз Мегьарамдхуьре дидедиз хьана. 5 йис тамам хьайила ам мектебдиз ракъурна. Хци зигьиндалди тафаватлу тир аял са йисалай Алкьвадар хуьруьн мектебдиз ракъурна. Ина ада 5 йисуз кIелна, Кьасумхуьруьн училищедик экечIна. Инаг куьтягьна, Мегьарамдхуьре кхьинардай къуллугъчивиле, чкадин комиссарвиле кIвалахна. Лезги, табасаран, къирицI чIаларилай гъейри урус, араб чIаларни хъсандиз чидай адаз. Къуръан хуралай чизвай, араб чIалал ктабар кIелзавай Мегьамедаз большевикри мискIинар чукIуриз, араб гьарфаралди акъатнавай ктабар цIуз вегьез акурла, ам кIвалахалай элячIна, ктабрив агатна. Кьве йисуз хуьряй санизни акъатнач.

1920-йисуз Дербентда муаллимвилин курсар акьалтIарна, Мегьарамдхуьре ва Кьасумхуьре муаллимвал авур ада 1924-йисуз Къубада муаллимвилин курсара кIелна ва азербайжан чIални хъсандиз чирна. Дербентда муаллимвиле ва ликбездин инспекторвиле кIвалахай Мегьамеда гьакIни немс чIал дериндай чирнай.

1931-йисалай М.Гьажиева вичин уьмуьр лезги чIалан илимдиз серфна. Дагъустандин Педагогикадин Институт акьалтIарна, Москвада аспирантурада кIелна. 1946-1951-йисара ада Дагъустандин Тарихдин, ЧIалан ва Литературадин Институтда Дагъустандин чIаларин сектордиз регьбервал гана, гьакIни Дагъустандин Гьукуматдин Педагогикадин Институтда кIвалахна. Гзаф алимриз тарс гайи и инсанди докторвилин диссертация дуьнья дегишардайдалай са шумуд варз вилик хвена.

1958-йисан 20-мартдиз 70 йиса аваз рагьметдиз фейи алимди вичелай гуьгъуьниз са чIехи институтди тадай хьтин ирс туна. 1950-йисуз басмадай акъуднавай, 35 агъзур гафуникай ибарат тир "Урус чIаланни лезги чIалан словарь" ада чи чIалаз хкажнавай чIехи гуьмбет я. Ада "Лезги чIалан термин-

## LƏZGİ DİLİNİN QUBA DİALEKTİNİ TƏDQİQ ETMİŞ ALİM

***Azərbaycan ləzgilərinin danışığının zənginliyinə heyran olan Məhəmməd Hacıyev ömrünün son illərini ləzgi dilinin Quba dialektini elmi cəhətdən öyrənməyə sərf etmişdir.***

Dağıstan filologiyası elminin elə bir sahəsi yoxdur ki, orada M.Hacıyevin dəst-xətti, izi görünməsin. M.Hacıyev 1887-ci ilin dekabrın 10-da Dağıstanın Məhərrəmxür rayonunda anadan olmuşdur. Oxumağa meylli olduğunu görən atası onu 5 yaşında məktəbə qoyur. İti zehnə malik oğlanı bir ildən sonra müəllimlərin məsləhəti ilə Alqadar məktəbinə qoyurlar. Buranı 5 ildə başa vuran yeniyetmə Qasımkənd peşə məktəbinə daxil olur. Buranı bitirib, Məhərrəmxürdə dəftərxana işçisi, sahə komissarı vəzifələrində işləyir. O, ləzgi, tabasaran, qırız dillərindən başqa rus və ərəb dillərini də yaxşı bilirdi. Quranı əzbər bilən, ərəbcə çap olunmuş kitablar oxuyan Məhəmməd bolşeviklərin məscidləri dağıdıb ərəb dilindəki kitabları yandırdığını görəndə etiraz əlaməti olaraq işdən çıxır və iki il kənddən heç yana çıxmadan evə qapanaraq, kitablar oxumaqla məşğul olur.

1920-ci ildə Dərbənddə müəllimlər üçün kurslar açılanda Məhəmməd oraya daxil olur. Buranı bitirib, ömrünün sonuna kimi taleyini ləzgi dilinin tədrisi ilə bağlayır. O, bir neçə il Məhərrəmxür və Qasımxür rayonlarında müəllim işləyir. 1924-cü ildə Qubada açılmış pedaqogika kurslarında oxuyur və o vaxtdan Azərbaycan dilini mükəmməl öyrənir. Azərbaycan ləzgilərinin ləhcələrinin zənginliyi onu cəlb edir. Dərbəndin I dərəcəli məktəbində müəllim işləyən, savadsızlığı ləğv etmə kurslarında dərs deyən M.Hacıyev alman dilini də öyrənir.

1931-ci ildən etibarən Məhəmməd Hacıyev ömrünü ləzgi dili elminə həsr edir. O, Dağıstan Pedaqogika İnstitutunu bitirib, Moskvada aspiranturada oxuyur. 1946-1951-ci illlərdə Dağıstan Tarix, Dil və Ədəbiyyat İnstitutunda dillər bölməsinə rəhbərlik edir, həmçinin Dağıstan Dövlət Pedaqogika İnstitutunda işləyir. Bir sıra alimlərin müəllimi olmuş M.Hacıyev doktorluq dissertasiyasını ölümündən bir neçə ay əvvəl müdafiə edir. 1958-ci ilin martın 20-də 70 yaşında vəfat etmiş alim özündən sonra böyük bir institutun qoya biləcəyi qədər irs qoyur. 1950-ci ildə çap

рин словарь", "Лезги чIалан орфографиядин словарь", "Орфографиядин къайдаяр", "Русско-лезгинский школьный словарь" ва маса ктабар туькIуьрнай, лезги чIалан фонетикадин, морфологиядин, синтаксисдин гзаф проблемаяр тупIалай авунай. Лексиколог ва лексикограф хьиз адав къведайди авачир. Кавказоведри М.Гьажиев Дагъустандин халкьарин алимрин арада виридалайни зурба синтаксист яз гьисабзавай.

Лезги шаиррикай Е.Эминан, С.Сулейманан, Х.Тагьиран эсерар чапдиз гьазурна, абурун гьакъиндай макъалаяр кхьей М.Гьажиев вични хъсан шаир тир. Адан поэзиядин чIал михьивилелди, рифмайринни метафорайрин девлетлувилелди тафаватлу жезва. Ада гьакIни Пушкинан, Тургеневан, Л.Н.Толстоян, Чехован, Горькийдин, Маяковскийдин, Шолохован эсерар лезги чIалаз элкъуьрнай. М.Гьажиева 20 йисан къене Дагъустандин юкьван мектебрин вири синифар патал текдаказ учебникар туькIуьрнай.

Алимди вичин уьмуьрдин эхиримжи йисар Къуба диалект чируниз серф авунай. ТIазвай кIвачер гужуналди ялиз-ялиз, ам КцIарин, Къубадин, Худатин хуьрера къекъведай. Адан "Лезги чIалан къуба диалект" ктаб гзаф къиметлу илимдин кIвалах я. И эсердалди М.Гьажиева, санлай къачурла, лезги диалектологиядин илимдин бине кутунва.

М.Гьажиев рагьметдиз фейила адан архивдай "Лезгийрин махар", "Лезгийрин хкетар", "Къуба диалектдиз талукь материалар", "Лезги чIалан пунктуациядин къайдаяр"... тIварар алай гзаф къиметлу эсерар жагъанай. "ЧIалан битав словарь" акъудун алимдин чIехи мурад тир, анжах ажалди адаз гьиле кьур и кар кьилиз акъуддай мумкинвал ганач.

## ЛЕЗГИ ТАВАТАР ТЕСНИФ АВУР ШАИР

***Са шумудра КцIара хьана, Шагь дагъдин ценерив гвай хуьрера, Самур ва Шагьнабат вацIарин къерехра къекъвей Азербайжандин сейли шаир Гьуьсейн Ариф и чилерин иервилел ашукь хьанай ва ада цIудралди шиирар теснифнай. Ам виридалайни гзаф лезги таватри гьейранарнай. Гзаф халкьарин векилри лезги рушариз шиирар теснифнава. Ингье Гьуьсейн Арифан шиирдив къведайди авач.***



olunmuş, 35 min sözdən ibarət "Rusca-ləzgicə lüğət" onun ləzgi dilinə ucaltdığı ən böyük abidədir. Ləzgi dilinin peşəkarları bu günə kimi onun "Ləzgi dili terminləri lüğəti", "Ləzgi dilinin orfoqrafiya lüğəti", "Orfoqrafiya qaydaları", "Rusca-ləzgicə məktəbli lüğəti" və başqa kitablarından istifadə edirlər.

O, ləzgi dilinin fonetikasını, morfologiyasını, sintaksisini tədqiq etmişdir. Leksikoloq va leksikoqraf kimi onun tayı-bərabəri yox idi. Qafqazşünaslar onu Dağıstan xalqlarının alimləri arasında ən mötəbər sintaksist hesab edirdilər. Ləzgi şairlərindən Y.Eminin, S.Süleymanın, X.Tahirin əsərlərini toplayıb nəşr etmiş, onlar haqqında məqalələr yazmış Məhəmməd Hacıyev özü də gözəl şair olmuşdur. Onun şeirləri dilinin təmizliyi ilə yadda qalır. O, yaxşı tərcüməçi idi, Puşkinin, Turgenevin, L.N.Tolstoyun, Çexovun, Qorkinin, Mayakovskinin, Şoloxovun əsərlərini ləzgi dilinə çevirmişdi. 20 il ərzində Dağıstanın orta məktəblərinin bütün sinifləri üçün təkbaşına dərsliklər tərtib etmişdi.

M.Hacıyev əvəzsiz dialektoloq idi. O, ömrünün son illərini ləzgi dilinin Quba dialektini öyrənməyə sərf etmişdi. Ağrıyan ayaqlarını güclə sürüyə-sürüyə Qubanın, Qusarın, Xudatın kəndlərini gəzirdi. Onun "Ləzgi dilinin Quba dialekti" kitabı çox qiymətli elmi əsərdir. Bu əsərlə o, ləzgi dialektologiyasının bünövrəsini qoymuşdur.

M.Hacıyev vəfat edəndə onun arxivindən "Ləzgi nağılları", "Ləzgi lətifələri", "Quba dialektinə dair materiallar", "Ləzgi dilinin punktuasiyasının qaydaları" və sair qiymətli kitablar tapılmışdır. Uzun illərdən bəri üzərində çalışdığı "Ləzgi dilinin izahlı lüğəti" kitabını tamamlamaq onun böyük arzusu idi, lakin ölüm alimin arzusunu ürəyində qoydu.

## LƏZGİ GÖZƏLLƏRİNİ TƏRƏNNÜM ETMİŞ ŞAİR

***Dəfələrlə Qusarda olub, Şahdağın ətəklərində, Samur və Şahnabat çaylarının sahillərində gəzərkən bu yerlərin gözəlliklərinə heyran olmuş Azərbaycan şairi Hüseyn Arif məftunluğunu onlarca şeirlərində bildirmişdi. Onu ən çox ovsunlayan isə ləzgi gözəlləri olmuşdur. Bir sıra xalqların şairləri ləzgi gözəlləri haqqında çoxlu şeirlər qoşublar. Amma Hüseyn Arifin "Ləzgi qızı" şeri əvəzsizdir.***

## ЛЕЗГИ РУШ

*Къекъифиз хъуьхъверал гецифайла ал,*
*Назлудиз килигиз, вилер хъуьрезва.*
*Шагь дагъдин гатфарив диганвай тӀулал*
*На лугьуд, цуьквери кӀунчӀар хразва.*

*А зериф гъилери ахъаяй яха -*
*Лацу хур дагъларин лацу кӀукӀ ятӀа?*
*Къизилдин кифер ви, чкӀанвай, ахъа,*
*Зулун савкьват ятӀа, къизилд чӀук ятӀа?*

*А вацӀун кьере захъ галукьай ви ван*
*Яни, лагь, шуршуррин гурлуз къвезвай сес?*
*Атирлу нефес ви ятӀа пакаман*
*Чиг алай тӀуларин цуьквედин нефес?*

*Кьилел алукӀайла а бишме вили,*
*Юзазвайд ви вилер ятӀа зар алаз?*
*Вилидив диганвай и иервал ви,*
*Завай дегишиз жеч гатфарихъ галаз.*

*Иервал чимивал, цӀелхемрин сачах,*
*Иервал илгьамдиз, руьгьдизни тек я.*
*Иер руш цавара нурар гузвай рагъ,*
*Чиликай хкатай са таза цуьк я.*

*Чин элкъвей чӀавуз руш я вун гьукумлу,*
*Гъазабни ава вахъ бинедлай кӀеви.*
*А ви килигунар икьван зегьемлу,*
*Я лезги бубайрин хенжел хьиз хци.*

*Бахтлувал кьисмет жеч гьардаз дуьньяда,*
*Чидач вун гьахълу ян, гьахъсуз ян суна.*
*Агъзур рикӀер хана, авуртӀани тӀа,*
*Эхирни са рикӀиз туьмерда вуна.*

*Замандин шив физва йигиндай жуьре,*
*Йисар къвез, уьмуьрдай йисар алатна.*
*Гьайиф хьи, лезги руш ви жегьил бере*
*Гьуьсейнан кьуьзьуь тир чагъинда гьатна.*

***(Элкъуьрайди С. Керимова я)***

## LƏZGİ QIZI

*O tər yanaqların qızaran zaman,*
*Süzülə-süzülə gözlərin gülür.*
*Sanki Şah dağının çəmənzarından*
*Çiçəklər toplanıb çələng hörülür.*

*Açanda yaxanı ağ təmiz əllər,*
*Ağ sinə dağların ağ zirvəsimi?*
*Çiyninə tökülən qızılı tellər*
*Payızın qızılı hədiyyəsimi?*

*Səsini dinlədim çay qırağında*
*Bu səs şır-şırların şaqraq səsimi?*
*Ətirli nəfəsin səhər çağında*
*Şeh dolu çəmənin gül nəfəsimi?*

*Çəkəndə başına mavi örpəyi,*
*Mavi gözlərdimi yellənən bu dəm?*
*Sən göy geyinəndə bu gözəlliyi*
*Bahara dəyişib, yaza verməərəm.*

*Gözəllik hərarət, gözəllik atəş,*
*Gözəllik ilhamdır, ruhdur, diləkdir.*
*Gözəl qız səmada parlayan günəş,*
*Torpaqda boylanan təzə çiçəkdir.*

*Üzün bozaranda hökmün qətidir,*
*Qəzəb dalğaları qalxar dərindən.*
*Zəhmli baxışlar sərtdir, itidir,*
*Ləzgi babaların xəncərlərindən.*

*Səadət hər ömrə gülməz cahanda,*
*Bilmirəm nahaqsan, bilmirəm haqsan.*
*Min qəlbi küsdürüb yaralasan da,*
*Bir qəlbi dindirib oxşayacaqsan.*

*Zamanın köhləni yeyindən yeyin,*
*Başımın üstündən illər ötüşdü.*
*Heyf ləzgi qızı, sənin gəncliyin*
*Hüseynin qocalan vaxtına düşdü.*

## ШАГЬ ДАГЪ ТАБЛОЙРИЗ КУЬЧАРНА



Азербайжандин сейли художник Сеттар Бегьлулзаде Къубадин ва КцІарин тІебиатдал ашукь тир. Варцаралди Шагь дагъдин ценерив гвай хуьрера къекъвез, анин тІебиатдин иервилер вичин таблойриз куьчардай ада. Ина шумудни са дустар жагъай сеняткар фад-фад абурун кІвалеризни илифдай. Вичин гекъигиз тежедай дуьньядикай захавилелди пай гудай ада инсанриз.

"Шагь дагъ", "Багъларин юкьва", "Цуьквверин багъ", "Лацар", "КцІарин акунар", "Къудял вацІ", "Къечреш", "Къубадин акунар" хьтин гзаф эсерар адан и чкайриз авай муьгъуьббат къалурзавай лишанар я. ЧІехи сеняткардин таблойрай адан иервилерихъ, къенивилерихъ, хъсанвилерихъ ялзавай, датІана инсанрин рикІера эквер куз алахъзавай гьиссерин дуьньяди килигда инсандиз.

## ŞAHDAĞI TABLOLARINA KÖÇÜRDÜ

Azərbaycanın məşhur rəssamı Səttar Bəhlulzadənin yaradıcılığına Qubanın və Qusarın təkrarolunmaz mənzərələri böyük təsir göstərmişdir. Şahdağın ətəklərindəki kəndləri qarış-qarış gəzən, buranın təbiətini tablolarına köçürən böyük sənətkarın bu yerlərə gəlişi həmişə böyük bir hadisəyə çevrilərdi. Neçə-neçə evin əziz qonağı idi, öz bənzərsiz dünyasından hamıya pay verərdi o.

"Şahdağ", "Bağlar arası ilə", "Çiçəklənən bağ", "Ləzə", "Qusar mənzərəsi", "Qudyalçay", "Qəçreş", "Quba mənzərəsi" kimi əsərləri rəssamın bu yerlərə məhəbbətindən yaranmışdır. Səttar Bəhlulzadənin tablolarından onun gözəlliklərə, yaxşılıqlara, pak hisslərə səsləyən, ürəklərə işıq saçan təmiz dünyası boylanır.

## КЦІАРИЗ 50 ЭСЕР БАХШНА



***КцІарин тІебиат виридалайни хъсандиз Дарвин Велибегован эсеррай чириз жеда. Адан пейзажрай чи цуьквверив диганвай яйлахар, кьилел жив алай дагълар, кьакьан чарчарар чиниз хъуьреда. Гзафбуруз и эсеррин автор кцІарви хьиз чида. Гьакъикъатда лагьайтІа, икІ туш.***

Вичин эсерар Азербайжандин, Россиядин, Украинадин, АСШ-дин, Туьркиядин, Германиядин, Франциядин, Австриядин, Израилдин, Норвегиядин, Япониядин, Италиядин, Англиядин, Польшадин, Югославиядин ва маса уьлквейрин музейра тунвай, гьакІни чара-чара ксари чпин коллекцийра хуьзвай Дарвин Гьажибеган хва Велибегов Дагъустандин Ахцегь райондин Чепер хуьряй я. 10 йисуз ина, 3 йисуз Новочеркасскда, 10 йисуз Грознийда, 10 йисуз Ленинградда, 4 йисуз Магъачкъалада яшамиш хьайи сеняткарди В.Мухинадин тІварунихъ галай вини дережадин мектеб (гилан академия) акьалтІарна. 1976-йисуз Дагъустандин ва СССР-дин Художникрин Союзрик экечІай ам гьа йисуз Бакудиз куьч хьана ва 1980-йисалай Азербайжандин Художникрин Союздин уьзви я.

## QUSARA 50 ƏSƏR HƏSR EDİB

***Qusarın təbiəti haqqında ən yaxşı bilgini Darvin Vəlibəyovun əsərlərindən almaq olar. Onun mənzərələrində buranın çiçəkli yaylaqları, qarlı dağları, gur şəlalələri elə ilhamla təsvir olunub ki, çoxu bu rəssamın əslən qusarlı olduğunu zənn edir. Əslində isə belə deyildir.***

Əsərləri Azərbaycan, Rusiya, Ukrayna, ABŞ, Türkiyə, Almaniya, Fransa, Avstriya, İsrail, Norveç, Yaponiya, İtaliya, İngiltərə, Polşa və Yuqoslaviya kimi ölkələrin dövlət muzeylərini və ayrı-ayrı adamların şəxsi kolleksiyalarını bəzəyən Darvin Hacıbəy oğlu Vəlibəyov Dağıstanın Axtı rayonunun Cəbə kəndindəndir. 10 il burada, 3 il Novoçerkasskda, 10 il Qroznıda, 10 il Leninqradda, 4 il Mahaçqalada yaşamış sənətkar V.Muxina adına Leninqrad ali bədii sənaye məktəbinin (indiki akademiyanın) məzunudur. 1976-cı ildə Dağıstan və SSRİ Rəssamlar İttifaqlarının üzvü seçilmiş sənətkar həmin il Bakıya köçmüş, 1980-ci ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul edilmişdir.

Darvin Vəlibəyovun əsərlərinə hisslərin dərinliyi,



*Дарвин Велибегов. Шарвилидин лишанар.* *Darvin Vəlibəyov. Şarvilinin nişanələri.*

Дарвин Велибегован эсерриз гьиссерин деринвал, фикиррин азадвал, философиядин фагьумар хас я. Ам алай аямдин прикладной ва монументальный живописдин зурба сеняткаррикай я. 1000-далай гзаф эсеррин автор тир Д.Велибегован “Лацу дурнаяр” монументальный гуьмбетди 1984-йисуз Дагъустан Республикадин гьукуматди кьиле тухвай конкурсда сад лагьай чка кьуна. 1989-йисуз виридуьньядин ктабрин ярмаркада сад лагьай чка кьур “Азербайжандин Яру ктаб”да Д.Велибегова чIугунвай 150 шикил гьатнава. 30 йисалай гзаф вахтунда ам виридалайни гзаф илифай чка КцIар я. Инин тIебиатдал ашукь сеняткардихъ КцIариз талукьарнавай 50-далай гзаф эсерар ава.

## ЛАЦА ХУЬРЕ ЧIУГУНА

Азербайжандин тIвар-ван авай художник Фарман Алиеван эсерра Шагь дагъдин жив алай кукIушрин, Шагьнабатдин, Хиналугъдин, Бейбике яйлахрин, Къарабулахдин, ЯхцIурбулахдин, Лацадин акунри кьетIен чка кьазва. Къебеледал, КцIарал, Къубадал ашукь сеняткарди вичин кIанивал “Шагь дагъ”, “КцIар”, “Къечреш”, “Лацарин чарчарар”, “Лацарин ценер”, “Базардуьзуь”, “Шагьнабатдин дагълар” хьтин эсерралди винел акъуднава. Ада илгьамдалди кIвалахзавай “Лаца” тIвар алай кьве хуьр ава - сад Къебеледа, муькуьди КцIара. Сеняткарди вичин тавханадал “Лаца” тIварни дуьшуьшдай тунвайди туш.

fikirlərin azadlığı, fəlsəfi məzmun, dünyanı dərkə çağırış xasdır. Tətbiqi və monumental rəngkarlığın müasir yönümündə çalışan rəssam zəmanəmizin görkəmli fırça ustalarından biri kimi dünyada tanınır. O, 1000-dən çox irihəcmli əsərin müəllifidir. Dağıstan hökumətinin 1984-cü ildə keçirdiyi müsabiqədə D.Vəlibəyovun “Ağ durnalar” monumental heykəli I yeri tutmuşdur. 1989-cu ildə ümümdünya kitab sərgisində I yerə layiq görülmüş “Azərbaycanın Qırmızı kitabı”nın rəngli şəkillərinin (150 ədəd) müəllifi də D.Vəlibəyovdur.

Rəssamın ən çox yaradıcılıq ezamiyyətində olduğu yer Qusar rayonudur. Onun bu gözəl diyarı vəsf edən 50-dən çox əsəri vardır.

## LƏZƏ KƏNDİNDƏ YARATDI

Azərbaycanın tanınmış rəssamı Fərman Əliyevin əsərlərində Şahdağın qarlı zirvələri, Şahnabat, Xınalıq, Bəybikə yaylaqları, Qarabulaq, Qırxbulaq, Ləzə böyük sənətkarlıqla təsvir olunur. Qəbələyə, Qusara, Qubaya qəlbən vurğun sənətkar özünün təkrarsız təbiət tablolarını təbiətin qoynunda yaratmışdır. Özünün “Şahdağ”, “Qusar”, Qəçrəş”, “Ləzə şəlalələri”, “Bazardüzü” kimi əsərlərində rəssam bu yerlərə məhəbbətini ifadə edir. Sənətkarın fırçasının ilhamla işlədiyi yerlərdən ən başlıcası iki Ləzə kəndi olmuşdur - biri Qəbələdə, o biri Qusarda. O, öz emalatxanasını da təsadüfən “Ləzə” adlandırmamışdır.

## ЛЕЗГИЙРИН БИЛБИЛ

***1962-йисуз КцIара лезги радио кардик акатайла агъзурралди инсанар патал Дуьрия Регьимова виридалайни рикI алай сеняткардиз элкъвена.***



Алатай асирдин 50-йисарилай гатIунна Магьачкъаладин радиодин лезги гунугрин редакция дуьньядин лезгияр патал ватандин чилин, дидед чIалан, медениятдин, харусенятдин дад чирзавай авай-авачир макан тир. Гунугрин вяде агакьайла гьина яшамиш хьунилай аслу тушиз лезгийри радиодихъ ялдай. Хайи чIалан суьгъуьрда гьатай инсанар вилерал накъвар акьалтIиз, ватандай къвезвай хабаррихъ агъвадай. Ахпа манийрин лувараллаз цавариз хкаж жедай абур. Иллаки Дуьрия Регьимовадин манийрин есир жедай инсанар. А береда и маничиди лугьузвай манияр чIехидалай гъвечIидалди вирибурун мецера гьатнавай.

Дуьрия Гуьлбубадин руш Регьимова 1929-йисуз Къуба райондин Хьимил хуьре дидедиз хьана. Юкьван мектеб Къуба шегьерда акьалтIарай рушан везинлу ванци аял чIавалай вири вичихъ ялнай. Гьеле кьуд лагьай синифда кIелдайла ам Къубадин хордин солистка тир. Мектеб акьалтIарна Къубадин Педмектебда кIелай руша 1947-йисуз республикадин музыкадин коллективрин конкурсда сад лагьай чка кьунай. Ада лагьай "Кесме шикестеди" вири гьейран авунай. Къубави руша "Лайлай" мани лагьайла вири залди кIвачел къарагъна, адахъ галаз и мани лагьанай. Гьа юкъуз ам гурлу капар ягъиз, яргъалди сегьнедай хъфиз туначир.

1956-йисуз Д.Регьимова Къуба Райондин Медениятдин КIвалин директорвиле тайинарнай. Лезги ва азербайжан чIаларалди лагьай манийралди халкьдин чIехи муьгьуьббат къазанмишай Дуьриядин концертрикай сада иштирак авур шаир Байрам Салимова адаз "Лезгийрин билбил" лагьай тIвар ганай. Шаирдин тIалабуналди 1956-йисуз Дагъустандин Гьукуматдин Радиоди лезги таватдиз Магьачкъаладиз эвернай ва ада лугьузвай цIуд мани лентиниз куьчарнай. Гьа чIавалай къедалди Дуьруьядин манияр датIана радиодай гузва. 1959-йисуз Д.Регьимовади маничи коллективрин республикадин конкурсда сад лагьай чка кьунай. И алакьунар авай руша пешекаррин фикир вичихъ ялнай. Адаз Азербай-

## LƏZGİLƏRİN BÜLBÜLÜ

***1962-ci ildə Qusarda ləzgi dilində radio verilişləri yayımlanmağa başlananda Düriyyə efirdən səslənən şirin mahnıları ilə qusarlıların sevimlisinə çevrildi.***

Ötən əsrin 50-ci illərindən başlayaraq Mahaçqala radiosunun ləzgi verilişləri redaksiyası dünya ləzgilərinə vətən torpağının, ana dilinin, doğma mədəniyyətin və incəsənətin dadını tanıdan məkan rolunu oynayırdı. Verilişlərin vaxtı yaxınlaşanda dünyanın harasında yaşamalarından asılı olmayaraq ləzgilər radioya qulaq asardılar. Doğma dilin sehrinə düşən insanlar gözləri yaşarmış halda vətəndən gələn xəbərləri həyəcanla dinləyərdilər. Sonra mahnı qanadlarında göylərə pərvaz edərdilər. Ələlxüsus Düriyyə Rəhimovanın mahnılarının əsiri olardılar. O vaxtlar bu müğənninin ifa etdiyi mahnılar böyükdən tutmuş kiçiyə kimi hamının dilində əzbər idi.

Düriyyə Gülbaba qızı Rəhimova 1929-cu ildə Quba rayonunun Qımıl kəndində anadan olmuş, Quba şəhərində orta təhsil almışdır. Gözəl səsi ilə hamını heyran edən bu qız hələ dördüncü sinifdə oxuyarkən Quba şəhər xorunun solisti olmuşdur. Quba şəhərində orta məktəbi bitirdikdən sonra Quba Dövlət Pedaqoji Məktəbində təhsil almışdır. 1947-ci ildə respublika özfəaliyyət kollektivlərinin müsabiqəsində o, birincilik qazanmışdır. Onun ifasında "Kəsmə şikəstə" radionun qızıl fondunda saxlanır. Qubalı qızı Adil Gərayın sözlərinə yazılmış "Laylay" mahnısını oxuyanda zal ayağa qalxmış, onunla bir yerdə həmin mahnını ifa etmişdir.

1956-cı ildə D.Rəhimova Quba Rayon Mədəniyyət evinin direktoru təyin olunmuşdur. Onun ləzgi və Azərbaycan dillərində oxuduğu mahnılar qıza böyük şöhrət qazandırmışdır. Konsertlərdən birində iştirak etmiş şair Bayram Səlimov Düriyyənin səsinə heyran olaraq, onu "Ləzgilərin bülbülü" adlandırmışdır. Bundan sonra Dağıstan Dövlət Radiosunun dəvəti ilə Mahaçqalaya ezam olunmuş Düriyyə Rəhimovanın ifasında on ləzgi mahnısı lentə alınmışdır. O vaxtdan bu günə kimi müğənninin lent yazıları radio dalğalarında səslənir. 1959-cu ildə Düriyyə özfəaliyyət kollektivlərinin respublika müsabiqəsində birinci yerə layiq görülür.

Tamaşaçıların böyük rəğbətini qazanan gənc qız

жандин Гъукуматдин Радиода кIвалахун теклифнай. Ингъе бубадин кьиникьуни адан мурад рикIе тунай. Вичи лугъузвай лезги ва Азербайжан манийралди сейли хьайи руш 1960-йисуз Къубадин Гъукуматдин Драмтеатрда кIвалахал акъвазнай. Ина ада сад садалай марагълу ролар тамамарнай. 1962-йисуз театр кIевирайдалай кьулухъ Дуьрия Дербентдиз куьч хьана. Ина ада 27 йисуз ара датIана С.Сулейманан тIварунихъ галай Лезгийрин Драм Театрда кIвалахна ва 50-далай гзаф ролар тамамарна. Ингъе адаз сейливал гзафни-гзаф манийри гъана. Сеняткар 1965-йисуз "Дагъустан Республикадин лайихлу артист", 1977-йисуз "Дагъустан Республикадин халкьдин артист" гьуьрметдин тIварариз лайихлу хьана. 1986-йисуз адаз Халкьарин Дуствал Орден гана.

## МАНИДИЗ ЭЛКЪВЕЙ УЬМУЬР



***КцIарвийри гьахълу яз Эльза Ибрагьимова чпиз лап мукьвади яз гьисабда, адалди дамахда. Имни дуьшуьшдин кар туш, адан рикIиз эсердай, гьиссерал звал гъидай шумудни са мани КцIара арадиз атана.***

Адет яз гьар гатуз КцIара вичин вахан, тIвар-ван авай духтур Лейла халумдин кIвале ял ягъидай композиторди вичин вахт гзаф чIавуз пианинодин кьулухъ акъуддай. Ахъа дакIардай кIвахьзавай адан суьгъуьрлу мелодийрихъ яб акалун патал гьар няниxъ инсанар кIватI жедай. Вичин алемда авай Эльзади вири суьгъуьрда твадай. Адан яратмишунрал рикI алай гзаф кцIарвийри композитордин шумудни са манидихъ абур мецера гьат тавунмаз КцIара яб акалнай.

1938-йисуз Азербайжандин Гьажикъабул шегьерда дидедиз хьайи Эльзадин дидени буба Дагъустандин Ахцегь райондай я. ГъвечIи чIавалай музыкадал рикI алай руша А.Зейналлыдин тIварунихъ галай техникум, гуьгъуьнлай Азербайжандин Гьукуматдин Консерватория куьтягьна. Къара Къараевавай чирвилер къачур руша музыкадин жавагьирар яратмишна. Республикадин сейли маничийри - Рашид Бегьбудова, Шуьвкет Алекперовади, Сара Къадимовади, Флора Керимовади, Ялчын Рзазадеди, Заур Рзаева, Акиф Исламзадеди а манияр дуьньядиз чирна. Ада эстрададин манийрилай гъейри чIехи жанрайрин эсерар - фортепианодин концерт, скрипкадин орекестр патал концерт, симфонический по-

peşəkarların diqqətini də cəlb edir. Azərbaycan Dövlət Radiosuna dəvət alan müğənninin planlarını atasının ölümü alt-üst edir, o, Qubaya, tək qalmış anasının yanına qayıtmağa məcbur olur. Düriyyə 1960-cı ildə Quba Dövlət Dram Teatrında işə düzəlir. Burada bir-birindən maraqlı rollarda çıxış edir. 1962-ci ildə teatr bağlandıqdan sonra sənətkar Dərbəndə köçür, burada S.Stalski adına Ləzgi Dram Teatrında işləməyə başlayır.

50-dən çox rolda çıxış etmiş Düriyyə Rəhimova daha çox oxuduğu mahnılarla tanınmışdır. Sənətkara 1965-ci ildə "Dağıstan Respublikasının əməkdar artisti", 1977-ci ildə isə "Dağıstan Respublikasının xalq artisti" fəxri adları verilmişdir. 1986-cı ildə o, Xalqlar Dostluğu Ordeni ilə təltif olunmuşdur.

## MAHNIYA DÖNMÜŞ ÖMÜR

***Qusarlılar haqlı olaraq Elza İbrahimovanı özlərinə doğma sayır, onunla fəxr edirlər. Bu isə təsadüfi deyil, bəstəkarın qəlbə nüfuz edən, könülləri riqqətə gətirən bir sıra mahnıları Qusarda yaranıb.***

Adətən yay aylarında Qusar şəhərində bacısı, tanınmış həkim Leyla xanımın evində dincələn bəstəkar vaxtının çoxunu pianonun arxasında keçirər, öz dünyasına dalardı. Axşamlar açıq pəncərədən süzülərək ətrafa yayılan sehrli melodiyalar insanları musiqinin işığına toplayardı. Bəstəkarın təkrarsız mahnılarının əsiri olan vurğunlar - Elzanın pərəstişkarları onun neçə-neçə mahnısını hələ populyarlaşmazdan əvvəl Qusarda dinləmək xoşbəxtliyinə nail olublar.

1938-ci ildə Azərbaycanın Hacıqabul şəhərində anadan olmuş Elza əslən Dağıstanın Axtı rayonundandır. Uşaqlıqdan qeyri-adi musiqi istedadı ilə seçilən Elza A.Zeynallı adına musiqi texnikumunu, sonradan isə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Görkəmli bəstəkar Qara Qarayevin tələbəsi olmuş gənc qız tezliklə təkrarsız mahnıların yaradıcısı kimi tanınmışdır. Onun əsərlərini Rəşid Behbudov, Şövkət Ələkbərova, Sara Qədimova, Flora Kərimova, Yalçın Rzazadə, Zaur Rzayev, Akif İslamzadə kimi sənətkarlar dünyaya tanıtmışlar. Mahnıları ilə yanaşı iri həcmli əsərləri də bəstəkara böyük şöhrət gətirmişdir. Onun fortepiano üçün konserti, skripka ilə orkestr üçün konserti, simfonik poemaları, prelyudiyala-

эмаяр, прелюдияр, сонатаяр, квартетар, ораториярни теснифна.

Азербайжанда, гьакIни РагъэкъечIдай патан уьлквейра сифте яз опера тесниф авур сад лагьай дишегьли композитор Эльза Ибрагьимова я. Адан “Кузвай лайлаяр” эсерди 25 йис я сегьнедин рекьер хуьз. Ада Гьуьсейн Жавидан пьесадин бинедаллаз тесниф авур “Афет” операдин басаратни къедалди кIеви я. “Имам Шамил” Э.Ибрагьимовадин пуд лагьай опера я. 400-дав агакьна манияр тесниф авур, вичин зурба алакьунралди халкьдин патай гьуьрмет къазанмишай и дишегьли чан аламаз мифдиз элкъвенва.

Сая инсан тир, гзаф кесибдиз уьмуьр гьалзавай, ингье лугьуз тежадай кьван чIехи марифатдин иеси тир, инсанрин рикIера чка кьунвай Эльза Ибрагьимовадин 70 йисан юбилейдихъ галаз алакъалу яз 2008-йисуз адаз “Дагъустан Республикадин халкьдин артист” ва “Азербайжан Республикадин халкьдин артист” гьуьрметдин тIварар гана.

## САМУРДИ АДАЗ ТАГЪ ГАНАЙ

***Самур вацIун селлери 1945-йисуз вичин диде тухвайла Шерафетан 7 йис цIийиз тамам хьанвай. Вилералди акур и мусибатди вичин рикIел кьацI авур адан вилерикай къедалди и вакъиа карагда.***



Вичин тIвар алатай асирдин 50-йисарилай гатIунна гьам Азербайжандиз, гьамни Дагъустандиз сейли хьайи шаир Шерафет Дагъыстанлы кцIарвийризни хъсандиз чида. Ада КцIарин тIебиатдикай, кьегьал инсанрикай шумудни са шиирар кхьена, чапдай акъудна.

Идрисова Шерафет Абдулжелилан руш 1939-йисуз Дагъустандин Рутул райондин Чилихуьре дидедиз хьана. Адан буба Абдулжелил ва вад ими Ватандин ЧIехи дяведиз фенай ва абурукай садни кьулухъ элкъвеначир. Дяве куьтягь хьайи йисуз адан диде Тамам Самурдин селлери тухвайла Шерафет етим амукьнай. Гъам-хифет чIугваз чIехи хьайи рушакай шаир тахьун мумкин тушир. Гуьгъуьнлай Шерафет Дагъыстанлыди и вакъиа гегьенщдиз къелемдиз къачунай. Самед Вургъун ва Расул Гьамзатов хьтин къудратлу шаирри адаз хийир-дуьа гана. Шефикъе Агъаева ва Халиде Гьасилова хьтин сеняткарри ам кIвачел ахкьалдарна. Са шумуд ктабдин автор тир шаирдин лезги, азербайжан, урус, къиргъиз, къазах, тажик,

rı, sonata, kvartet və oratoriyaları yüksək peşəkarlığı ilə seçilir.

Şərqdə opera yazmış ilk qadın bəstəkar olan Elza İbrahimovanın “Yanar laylalar” operası 25 il əvvəl yaranmış, lakin hələ də səhnə həyatı görməmişdir. Hüseyn Cavidin “Afət” pyesi əsasında yaratdığı eyniadlı operasına mütəxəssislər yüksək qiymət versələr də, həmin əsər də səhnə təcəssümü tapmamışdır. “İmam Şamil” bəstəkarın üçüncü operasıdır. 400-dən çox mahnı bəstələmiş, bənzərsiz istedadı ilə xalqın böyük hörmətini qazanmış bu qadın canlı əfsanəyə dönmüşdür.

Sadə, təvazökar insan olan, yalnız sənəti ilə yaşayan, olduqca kasıb həyat sürən, lakin son dərəcə zəngin mənəviyyat sahibi olan, ürəklərdə özünə əbədi yer tutmuş Elza İbrahimovaya 70 illik yubileyi ilə əlaqədar 2008-ci ildə “Dağıstan Respublikasının xalq artisti” və “Azərbaycan Respublikasının xalq artisti” fəxri adları verilmişdir.

## SAMUR ONA DAĞ ÇƏKDİ

***Samur çayının selləri 1945-cı ildə anasını aparanda Şərafətin yeddi yaşı var idi. Gözləri ilə gördüyü bu fəlakəti heç vaxt unuda bilməyən şairin gözləri qarşısında bu günə kimi həmin faciə canlanır.***

Adı hələ ötən əsrin 50-ci illərindən həm Azərbaycan, həm də Dağıstan oxucularına yaxşı tanış olan Şərafət Dağıstanlı qusarlıların yaxın dostudur. O, Qusarın təbiətinə və onun igid övladlarına onlarca şeir həsr edib.

İdrisova Şərafət Abdulcəlil qızı 1939-cu ildə Dağıstanın Rutul rayonunun Çilixür kəndində anadan olmuşdur. Onun atası və beş əmisi Böyük Vətən müharibəsinə getmiş, onlardan heç biri geri qayıtmamışdır. Müharibə sona çatan il anası Tamamı Samur çayının selləri aparır və Şərafət yetim qalır. Qəmqüssə içində böyüyən qızın şair olmaması mümkün deyildi. Sonralar Şərafət Dağıstanlının qələmindən bu mövzuda yazılmış onlarca şeir çıxıb. Şərafət Dağıstanlı poeziyaya Səməd Vurğun və Rəsul Həmzətov kimi qüdrətli şairlərin xeyir-duası ilə gəlib. Şəfiqə Ağayeva və Xalidə Hasilova kimi məşhur sənətkarlar ona dayaq olublar.

Bir neçə kitabın müəllifi olan Şərafət Dağıstanlının ləzgi, Azərbaycan, rus, qırğız, qazax, tacik, özbək, avar,

уьзбек, авар, къумукь, дарги, мари ва татар чIаларал 5 агъзурдав агакьна шиирар 120 газетдин ва журналрин чинриз акъатнава. Адан шиирриз 50-дав агакьна манияр теснифнава.

qumıq, dargi, mari və tatar dillərində 5 minədək şeiri dərc olunub. Keçmiş SSRİ respublikalarının 120 qəzet və jurnalında onun şeirləri işıq üzü görüb. 50-yədək şeirinə mahnı bəstələnib.

## ТАРИХРИН СУРАКЬДА

***КцIар райондин тарихдикайни къагьриман рухвайрикай рикI алаз кхьизвай къелемэгьлийрикай тир Муьзеффер Меликмамедов и мукьвавални хайивал себеб яз гзафбуруз кцIарви яз чида.***



Муьзеффер Низаман хва Меликмамедов 1948-йисан 25-июлдиз Къуба райондин Дигагь хуьре дидедиз хьана. Къуба шегьердин интернат мектеб тафаватлувилелди акьалтIарай ам "Къизил Къусар" газетдин редакцияда кIвалахал акъвазна. Са йис ина кIвалахна, армиядиз къуллугъиз фейи жегьил инай Ленинграддин военный мухбиррин мектебдиз кIелиз ракъурна. 1968-1970-йисара "Советский моряк", "Красная звезда" ва маса газетра вичин гзаф макъалаяр, очеркар, корреспонденцияр ва зарисовкаяр чап хьайи М.Меликмамедоваз "Ленинграддин военный округдин виридалайни хъсан мухбир" гьуьрметдин тIвар гана. Азербайжандин Гьукуматдин Университетдин журналистикадин факультетда кIелдайла кIвенкIвечи яз Ж.Жаббарлыдин тIварунихъ галай стипендия къачур ада университет яру дипломдалди акьалтIарна. Азербайжандин КП-дин ЦК-дин "Совет кенди" газетда кIвалахал акъвазай ам хци, шиирдалди кхьенвай фельетонралди сейли хьана. Ада журналистикадин рейд жанр вилик тухвана.

Азербайжандин КП-дин ЦК-дин 1983-йисан февралдин пленумди М.Меликмамедова регьбервал гузвай чарарин отделдин кIвалах тарифарнай ва республикадин вири газетрин редакцийриз адан тежриба чирна, кардик кутун меслят акунай. 1983-йисуз адан "Газет ва халкьдин контроль" ктаб 10 агъзур тираждалди чап хьана. Ада 1810-1840 ва 1918-1930-йисара Къуба уездда кьиле фейи вакъиаяр гегьеншдиз ахтармишна, урус пачагьдин ва эрмени дашнакрин аксина женг чIугур гзаф лезги къагьриманрин тIварар винел акъудна. И ахтармишунрин нетижа яз ада лезги чIалалди "Къубадин гьулгьула" ва азербайжан чIалалди "Къанлу дере" ктабар кIелдайбурув агакьарна.

## TARİXLƏRİN SORAĞINDA

***Qusar rayonunun tarixini, onun qəhrəman insanlarının həyatını sevə-sevə qələmə alan yazarlardan olan Müzəffər Məlikməmmədovu bu yaxınlığa və doğmalığa görə çoxları qusarlı hesab edir.***

Müzəffər Nizam oğlu Məlikməmmədov 1948-ci ilin iyulun 25-də Quba rayonunun Digah kəndində anadan olmuşdur. Quba şəhər 4 saylı internat məktəbini fərqlənmə ilə bitirib, "Qızıl Qusar" qəzeti redaksiyasında əmək fəaliyyətinə başlamışdır. Bir il burada işlədikdən sonra Sovet Ordusu sıralarında xidmət etmiş, Leninqrad hərbi müxbirlər məktəbinə oxumağa göndərilmişdir. 1968-1970-ci illərdə "Sovetskiy moryak", "Krasnaya zvezda" və digər hərbi qəzetlərdə çoxlu sayda məqalələri dərc olunmuş M.Məlikməmmədov "Leninqrad hərbi dairəsinin ən yaxşı müxbiri" adına layiq görülmüşdür.

Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alarkən əla təhsilinə görə C.Cabbarlı adına təqaüdə layiq görülmüş gənc universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra Azərbaycan KP MK-nın "Sovet kəndi" qəzetində işə göndərilmişdir. Burada o, nəzmlə yazılmış felyetonları ilə tanınmışdır. M.Məlikməmmədov jurnalistikada reyd janrını inkişaf etdirmişdir.

Azərbaycan KP MK-nın 1983-cü ilin fevral plenumunda M.Məlikməmmədovun rəhbərlik etdiyi məktublar şöbəsinin iş təcrübəsinin respublika mətbuatında yayılması tövsiyə edilmişdir. 1983-cü ildə M.Məlikməmmədovun xalq nəzarəti məsələlərinə həsr olunmuş "Qəzet və xalq nəzarəti" kitabı 10 min nüsxə tirajla çap olunmuşdur.

O, 1810-1840 və 1918-1930-cu illərdə Quba qəzasında baş vermiş hadisələri tədqiq edərək, rus müstəmləkəçilərinin və erməni daşnaklarının əleyhinə döyüşmüş neçə-neçə ləzgi qəhrəmanını üzə çıxarmışdır. Bu axtarışların nəticəsi olaraq o, ləzgi dilində "Quba iğtişaşı" və Azərbaycan dilində "Qanlı dərə" kitablarını oxuculara çatdırmışdır.

М.Меликмамедова “Къизил Къусар”, “Советский моряк”, “Совет кенди”, “Гьеят”, “Берекат”, “Алпан” газетрин мухбирвиле, редактордин заместителвиле, редакторвиле, гьакIни “Самур” газетдин кьилин редактордин заместителвиле кIвалахай йисара 7500-далай гзаф макъалаяр, очеркар, эссеяр, репортажар, корреспонденцияр, фельетонар, зарисовкаяр чапдай акъудна. Журналистикадин рекьяй М.Меликмамедов 2 медалдиз, Азербайжандин журналистрин Союздин “Къизилдин къелем” премиядиз ва Азербайжандин КИВГЬИ-дин “Араз” премиядиз лайихлу хьана. Ам лезги ва азербайжан чIаларал чапдай акъуднавай 14 ктабдин автор я. Адан “Йифен экв”, “Беневша хьиз экъечIда”, “Хачмази гьалибвилин рехъ хуьзва”, “КIанидаз кьве виш мани”, “Полковникдин кьин”, “Касар” ва маса ктабар кIелдайбуру хъсандиз кьабулна. “Лезги тIвар алатIа...” ктабдалди ада лезги литературада эссе жанрдин бине кутуна.

М.Меликмамедова урус чапхунчийрин аксина женг чIугур Гьажи Али Аскер эфенди, Ханбутай бег Яргунви, ЦIехуьл Мелки, кузунви Агъа бег, муругъви Иляс бег, хьиливи Ярали, тIигьиржалви Рамазан, манкъулидхуьруьнви Абдурагьман хьтин кцIарви къагьриманрин кьегьалвилер къелемдиз къачунва. Ада 26 йисуз ахтармишунар тухвана арадиз гъайи “Къанлу дере” ктабда 1918-йисуз эрмени дашнакри ва большевикри Къуба уезддал вегьейла абурун аксина кьегьалвилелди женг чIугур кцIарвийрин къагьриманвилерикай генани гегьеншдиз кхьенва. Ада и женгериз регьбервал гайи Муьгьуьбали эфенди Кузунви, Гьатем агъа ЧIакIарви, Бекер Мегьералиев, Юсуф бег Абусаламбегов хьтин кьегьал кцIарвияр винел акъудна. Ктабда ганвай сиягьда женгера тафаватлу хьайи 110 къагьриман кцIарвидин тIварар гьатнава.

Журналистди архивдин материалар асасдиз къачуна XVI-XIX виш йисарин машгьур кцIарви алимрикайни шаиррикай СтIур Шихиман, Ибрагьим эфендидин, Мегьамед эфендидин, Жарулла эфендидин, Эмирали ТIигьиржалвидин, Исгьакь эфенди Яргунвидин, Саяд Перидин гьакъиндай гзаф марагълу макъалаяр кхьена, чапдай акъудна. Ам гьакIни республикадин тIвар-ван авай къелемэгьли Седакъет Керимовадин уьмуьрдин рекьикайни яратмишунрикай кхьенвай “Седакъет” ктабдин автор я.

М.Меликмамедова лезги чIалан илимдин чарачара хилерай 140-далай гзаф макъалаяр чапдай акъудна. Вичин 2008-йисуз чапдай акъудай “Лезги чIалар” ктабда лезги, табасаран, будугъ, хиналугъ ва къирицI чIаларин лексика гекъигунин рекьелди ахтармишза-

M.Məlikməmmədovun “Qızıl Qusar”, “Sovetskiy moryak”, “Sovet kəndi”, “Həyat”, “Bərəkət”, “Alpan” qəzetlərində müxbir, baş müxbir, şöbə müdiri, redaktor müavini, redaktor, həmçinin “Samur” qəzetində redaktor müavini vəzifələrində çalışdığı illərdə ləzgi, Azərbaycan və rus dillərində 7500-dən çox məqalələri, oçerkləri, esseləri, reportajları, korrespondensiyaları, felyetonları, zarisovkaları, reydləri və informasiyaları dərc olunmuşdur. Jurnalistika sahəsində qazandığı uğurlara görə Müzəffər Məlikməmmədov 2 medala, Azərbaycan Jurnalistlər İttifaqının “Qızıl Qələm” mükafatına, Azərbaycan KİVHİ-nin “Araz” ali ədəbi mükafatına layiq görülmüşdür.

Müzəffər Məlikməmmədov Azərbaycan və ləzgi dillərində işıq üzü görmüş 14 kitabın müəllifidir. Onun Azərbaycan dilində qələmə aldığı “İgid ömrü”, “Gecə işığı”, “Xaçmaz zəfər gözləyir”, “Polkovnikin andı”, “Qanlı dərə” və digər kitabları, həmçinin ləzgicə çıxmış “Bənövşə kimi bitərəm”, “Sevgilimə 200 mahnı”, “Quba iğtişaşı”, “Kasar” və başqa kitabları oxucular tərəfindən böyük rəğbətlə qarşılanmışdır. “Adın ləzgidirsə...” kitabı ilə o, ləzgi ədəbiyyatında esse janrının əsasını qoymuşdur. M.Məlikməmmədov çar müstəmləkəçilərinə qarşı döyüşmüş Hacı Əli Əsgər əfəndi, Xanbutay bəy Yargunvi, Zuxul Məlki, kuzunlu Ağa bəy, muruğlu İlyas bəy, hilli Yarəli, tihircallı Ramazan, imamqulukəndli Əbdürrəhman kimi qəhrəman qusarlıların igidliklərini qələmə almışdır. Onun 26 illik axtarışlarından sonra 2009-cu ildə işıq üzü görmüş “Qanlı dərə” kitabında erməni daşnaklarına və bolşeviklərə qarşı yerli əhalinin mübarizəsi qələmə alınıb. O, ilk dəfə olaraq bu mübarizəyə rəhbərlik etmiş qusarlı Möhübəli əfəndi Kuzunvi, Hatəm ağa Cağarvi, Bəkər Məhərəliyev, Yusuf bəy Abusalambəyov kimi qəhrəmanları üzə çıxarıb. Həmin kitaba Quba qəzasının Qusar nahiyəsindən erməni daşnaklarına qarşı döyüşlərdə fərqlənmiş 110 qusarlı qəhrəmanın adı düşüb.

Jurnalist arxiv materiallarına əsaslanaraq, XVI-XIX əsrlərin məşhur qusarlı alimləri və şairləri Stur Şixim, İbrahim əfəndi, Məhəmməd əfəndi, Carulla əfəndi, Əmirəli Tahirjalvi, İshaq əfəndi Yargunvi, Sayad Pəri haqqında maraqlı məqalələr və oçerklər yazıb. O, həmçinin respublikamızın tanınmış qələm sahibi Sədaqət Kərimovanın həyat və yaradıcılığına həsr etdiyi “Sədaqət” kitabının müəllifidir.

M.Məlikməmmədov ləzgi dilçiliyi məsələləri ilə də yaxından məşğul olur. Onun bu sahəyə dair 140-dan çox məqaləsi işıq üzü görmüşdür. 2008-ci ildə çap etdirdiyi “Ləzgi dilləri” kitabında ləzgi, tabasaran, buduq, xına-

вай адаз Дагъустандин Гъукуматдин Университетди и рекьяй диссертация хуьн теклифна.

М.Меликмамедован шииркарни поэмаяр Дагъустанда ва Азербайжанда са шумуд чӀалаз элкъуьрнава. Азербайжандин сейли шаир Келентер Келентерлиди адан "Эрекьистан" поэма лезги чӀалай азербайжан чӀалаз таржума авунва. Лезгийрин тӀвар-ван авай кхьираг Расим Гьажиди вичин "Гьуьлераллай лезгияр" повесть Муьзеффераз бахш авуна. Жегьил алим Гуьлбес Асланхановади 2008-йисуз М.Меликмамедован уьмуьрдин рекьизни яратмишунриз талукьарнавай "ЧӀехи лезги" ктаб чапдай акъудна.

## АКАДЕМИКДИН АГАЛКЬУНАР

***Лезги чӀалан зурба алим Агьмедулагь Гуьлмегьамедова вири лезги халкьдихъ хьиз кцӀарвийрихъни дамах кутазва. ЧӀалан месэлайрихъ авсиятда адан агалкьунриз пешекарри чӀехи тир къимет гузва.***



КцӀарихъ ва кцӀарвийрихъ галаз мукьва алакъаяр авай филологиядин илимрин доктор, профессор, РАЕН-дин академик Агьмедулагь Гуьлмегьамедова къуба наречие, адан кцӀар диалект, КцӀарин хуьрерин рахунар ахтармишунин рекьяй гзаф зегьметар чӀугуна. Алимдин КцӀарин "Къизил Къусар" газетдин чинриз акъатай "Шагьнабатдиз рагъ илифна", "Къуба нугъат (илимдин суьгьбет)", "Лезги халкь, лезги чил, лезги чӀал" ва маса макъалаяр гзаф къиметлу эсерар я.

Гьеле вич аспирант тир вахтунда А.Гуьлмегьамедова "Шагьнабатдиз рагъ илифна" макъалада машгьур кцӀарви шаиррикай Забит Ризванован ва Байрам Салимован яратмишунриз къимет ганай. Алимди КцӀарин хуьрера къекъвена "Лезги чӀалан къуба диалект" тӀвар ганвай илимдин кӀвалах кхьей чи машгьур алим Мегьамед Гьажиевакай урус чӀалал "М.Гь.Гьажиев (Лингвистикадин ирсинай)" тӀвар алай ктабни туькӀуьрна.

1936-йисуз Дагъустан Республикадин Мегьарамдхуьр райондин Муьгъвергъан хуьре дидедиз хьайи А.Г.Гуьлмегьамедова вичин илимдин кӀвалахралди лезги чӀалан илим, вири Дагъустандин филологиядин илим вилик тухвана. Ада сифте яз чи чӀалан фразеология дериндай ахтармишна, Етим Эминан чӀаларин гафарган туькӀуьрна, гафарин мана ачухардай гафарган арадиз гъана. Алимди вичин "Лезгияр

lıq və qrız dillərini müqayisəli tədqiq edən M.Məlikməmmədova Dağıstan Dövlət Universiteti tərəfindən bu mövzuda dissertasiya müdafiə etmək təklif olunmuşdur.

M.Məlikməmmədovun şeir və poemaları Dağıstanda və Azərbaycanda bir neçə dilə tərcümə olunmuşdur. Azərbaycanın tanınmış şairi Kələntər Kələntərli onun "Arağıstan" poemasını ləzgicədən azərbaycancaya çevirmişdir. Məşhur ləzgi yazıçısı Rasim Hacı "Dənizlərdəki ləzgilər" povestini Müzəffərə ithaf etmişdir. Gənc alim Gülbəs Aslanxanova 2008-ci ildə M.Məlikməmmədovun həyat və yaradıcılığına həsr etdiyi "Böyük ləzgi" kitabını çap etdirmişdir.

## AKADEMİKİN UĞURLARI

***Tanınmış dilçi alim Əhmədulah Gülməhəmmədovla bütün ləzgi xalqı kimi qusarlılar da ürəkdən fəxr edirlər. Son illər dilçilik məsələləri ilə bağlı onun tədqiqatlarını peşəkarlar yüksək qiymətləndirirlər.***

Filologiya elmləri doktoru, professor, Rusiya Təbii Elmlər Akademiyasının akademiki Əhmədulah Gülməhəmmədov ləzgi dilinin Quba ləhcəsini, onun Qusar dialektini, Qusarın kəndlərinin danışığını elmi cəhətdən öyrənmək sahəsində ciddi axtarışlar aparmışdır. Qusar və qusarlılarla yaxın əlaqələri olan alimin "Qızıl Qusar" qəzetində dərc olunmuş "Şahnabata gün düşdü", "Quba ləhcəsi (elmi söhbət)", "Ləzgi xalqı, ləzgi torpağı, ləzgi dili" məqalələri çox qiymətli əsərlərdir.

Ə.Gülməhəmmədov hələ aspirant ikən yazdığı "Şahnabata gün düşdü" məqaləsində məşhur qusarlı şairlər Zabit Rizvanovun və Bayram Səlimovun irsini tədqiq edərək, onların yaradıcılığına yüksək qiymət vermişdir. Alim həmçinin bir zamanlar Qusarı kənd-bəkənd gəzib, "Ləzgi dilinin Quba dialekti" adlı məşhur elmi əsərini yazmış görkəmli ləzgi alimi Məhəmməd Hacıyevlə bağlı rus dilində "M.M.Hacıyev (Linqvistika irsindən)" kitabını tərtib etmişdir.

1936-cı ildə Dağıstan Respublikasının Məhərrəmxür rayonunun Müğərgan kəndində anadan olmuş A.G.Gülməhəmmədov öz əsərləri ilə ləzgi dilçiliyi elminin, bütün Dağıstan filologiyasının inkişafına böyük təkan vermişdir. O, ilk dəfə olaraq ləzgi frazeologiyasını dərindən tədqiq etmiş, Yetim Eminin poeziyasının lüğətini, ləzgi dilinin izahlı lüğətini hazırlamışdır. O, özünün "Ləzgilər Türkiyədə: dil, güzə-

Туьркияда: чIал, дуланажагъ, тарих” ктабдалди Дагъустанда илимдин лингвоэкологиядин хилен бине кутуна. А.Г.Гуьлмегьамедов неинки Дагъустандин, гьакIни Россиядин машгьур чIалан алимрикай я. Ам Россиядин Федерациядин ва Дагъустан Республикадин илимрин лайихлу деятель гьуьрметдин тIвариз лайихлу хьана. Алимди 500-дав агакьна илимдин кIвалахар, 40 монография чапдай акъуднава.

## КЦIАРИЗ МУЬГЬУЬББАТ



***Географиядин илимрин доктор, академик Будакъ Будакъов марагълу инсан я. ТIебиатдал ашукь тир и шаирдин рикI авай алимди “КцIар зи муьгьуьббат я” лугьуда.***

Вичин 83 яшар жезвай академик Будакъ Абдулалидин хва Будакъован икьван гагьди 1000-далай гзаф илимдин макъалаяр, 50 ктаб чапдай акъатнава. Ам 1928-йисуз Эрменистандин Зенгибасар райондин Чубанкере хуьре дидедиз хьана. Азербайжандин Гьукуматдин Педагогикадин Институт акьалтIарна, СССР-дин ИА-дин аспирантура куьтягьай ада 1955-йисуз кандидатвилин, 1968-йисуз докторвилин диссертацияр хвена. Алим 1976-йисалай Азербайжандин ИА-дин член-корреспондент, 1989-йисалай уьзви я. 1986-йисалай ада Азербайжандин ИА-дин Географиядин Институтдин директордин заместителвиле, 1994-йисалай директорвиле кIвалахзава.

Академик Будакъ Будакъов Азербайжанда, гьамни къецепата Шагь дагъдин автобиография кхьей кас хьиз сейли я. Адан дагъларал икьван рикI хьун КцIарихъ галаз алакъалу я. Идахъ авасиятда алимди лугьузва:

- КцIари зи уьмуьрда чIехи тир роль къугъвана. За жуван кандидатвилин ва докторвилин диссертацияр и районда тухвай кIвалахрин нетижа хьиз хвена. Азербайжанда КцIарихъ галаз гекъигиз жедай кьвед лагьай район авач. Адан чилер океандивай 28 метрдилай 4300 метр кьван хкаж хьанва. Ихьтин рельефди ина са шумуд ландшафт арадиз гъанва. Ландшафтри чаз лугьуз тежедай хьтин иервилер бахшнава. Генг чуьллер, кьалин гапIалар, къацу тамар, дерин дереяр, кьакьан ва аскIан дагълар сад садан патав экIя хьанва.

КцIар райондин Лацар, Кузун, Четкуьн, ЧIакIар, Зинданмуругъ, Уьнуьгъ ва маса хуьрера къекъвей

ran, tarix” kitabı ilə Dağıstan elmində lingvoekologiya sahəsinin əsasını qoymuşdur.

Ə.G.Gülməhəmmədov nəinki Dağıstanın, həmçinin Rusiyanın tanınmış dilçi alimlərindəndir. O, Rusiya Federasiyasının və Dağıstan Respublikasının əməkdar elm xadimi fəxri adlarına layiq görülmüşdür. Alimin 500-ə yaxın elmi əsəri, 40 monoqrafiyası nəşr olunmuşdur.

## QUSARA MƏHƏBBƏT

***Coğrafiya elmləri doktoru, akademik Budaq Budaqov olduqca maraqlı insandır. Təbiət vurğunu olan bu şair təbiətli alim “Qusar mənim məhəbbətimdir” deyə etiraf edir.***

Ömrünün 83-cü baharını yaşayan akademik Budaq Budaqovun bu vaxta kimi 1000-dən çox elmi və elmi-kütləvi məqaləsi, o cümlədən 50 kitabı nəşr olunmuşdur. O, 1928-ci ildə Ermənistanın Zəngibasar rayonunun Çobankərə kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun məzunudur. SSRİ EA Coğrafiya İnstitutunun aspiranturasını bitirib, 1955-ci ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 1976-cı ildən Azərbaycan EA-nın müxbir üzvü, 1989-cu ildən isə həqiqi üzvüdür. 1986-cı ildən Azərbaycan EA Coğrafiya İnstitutunun direktor müavini, 1994-cü ildən direktorudur.

Akademik Budaq Budaqovu Azərbaycanda və onun hüdudlarından uzaqlarda Şahdağın tərcümeyi-halını yazmış alim kimi tanıyırlar. Dağlara olan bu vurğunluq onda Qusar rayonu ilə tanışlıqdan sonra yaranmışdır. Bununla bağlı alim belə deyir:

- Həyatımın böyük bir hissəsi Qusarla bağlı olub. Namizədlik və doktorluq dissertasiyalarımı bu rayonda apardığım elmi tədqiqatların nəticəsi kimi müdafiə etmişəm. Azərbaycanda Qusara bənzər ikinci rayon yoxdur. Onun relyefi okean səviyyəsindən 28 metr yüksəklikdə başlanır və 4300 metrə qədər ucalır. Belə relyef burada bir neçə landşaft qurşağının yaranmasına səbəb olmuşdur. Çəmənlər, kolluqlar, meşələr, yastanlar, dərələr, orta və yüksək dağlıq ərazilər, alp çəmənlikləri bir-birini əvəz edir.

Qusar rayonunun Ləzə, Kuzun, Çətkün, Cağar, Zindanmuruq, Əniğ və başqa kəndlərini qarış-qarış gəzmiş alim bu yerlərdəki çoxlu dostlarının köməyi və iştirakı ilə ötən əsrin 50-ci illərindən bir sıra elmi eks-

алимдихъ инра гзаф дустар ава. Абурун куьмекдалди ва иштиракдалди ада алатай асирдин 50-йисарилай инихъ гзаф илимдин экспедицийра иштиракна. Вичин уьмуьр кьиляй-кьилди Шагь дагъдин геоморфология, рельеф, инра физвай тектоникадин гьерекатар чируниз серф авур алимдин вири эсеррай адан КцIариз ва кцIарвийриз авай гьуьрмет чир жезва. Райондихъ галаз адан дуствилин алакъайрин 60 йис я. Ада КцIар районда къелемдиз къачур “Кьибле-рагъэкъечIдай Къафкъаздин геоморфология ва цIийи тектоника” эсерди алимдиз СССР-да ва къецепата машгьурвал гъанай. 1978-йисуз гьа эсердай адаз СССР-дин Географиядин Жемиятдин Н.А.Пржевальскийдин тIварунихъ галай Къизилдин медаль ганай.

Шагь дагъдихъ галаз алакъалу са шумуд баянрин автор тир алимди Вини Сарматдин девирдиз талукь тир гьуьлуьн минералар Шагь дагъдин 3600 метр кьакьанвиле ашкара авунай. Адал къведалди алимри ихьтин минералар 2600 метр кьакьанда авайди малумарнай.

Ингье Б.Будакъоваз жагъай минералри, гьакIни гъепIгъепIри Шагь дагъдин яшар гзаф жаван тирди субутна. Им акI лагьай чIал я хьи, эхиримжи 13 миллион йисан къене чилел кьиле фейи тектоникадин процессрин нетижа яз Къафкъаз, иллаки адан кьибле-рагъэкъечIдай пад 3600 метр кьван хкаж хьанва. Къафкъаз чирзавай вири геологри, гьакIни тектонистри Азербайжандин илимдин и цIийивиликай менфят къачузва.

Будакъ Будакъова 1956-йисуз сифте яз Шагь дагъдин муркIарин чилерин майдан тайинарна. Абур пудра муркIади кьунвайди субут авур алимдин фикиррихъ галаз дуьньядин алимарни рази я.

Са шумудра Шагь дагъдин кукIушдал акьахай алимди чилин тектоник гьерекатрин, ам арадиз атунин процессар, гьакIни инаг къадим ва алай вахтунин муркIари кьунин месэлаяр илимдин рекьелди чирнай. Дагълара ара датIана кьиле физвай процессар, абур эрозиядик акатун, залзалайри дагълар чукIурзавай гьалар илимдин рекьелди чирзавай алимдин нетижаяр гзаф марагълубур я.

“Азербайжандин ЧIехи Къафкъаздин пад къадим ва алай девирдин муркIари кьун”, “Геоморфология ва цIийи тектоникадин гьерекатар”, “Дагъларин уьмуьр” ва маса эсерар тикрардиз са шумудра чап хьанвай академикди вичин илимдин ахтармишунар давамарзава. Туризм вилик финихъ авсиятда КцIар районда кьиле физвай эцигунрикай рази тир академикди ибур вичин ва маса алимрин мурадри цуьк акъудун я лугьузва.

pedisiyalarda iştirak etmişdir. Həyatını başdan-başa Şahdağın geomorfologiyasının, relyefinin, burada gedən tektonik hərəkətlərin öyrənilməsinə həsr etmiş alimin bütün əsərlərindən Qusara bağlılığını, onun insanlarına olan doğma hisslərini duymaq mümkündür. Akademik bu yurda 1950-ci ildən başlanan 60 illik tellərlə bağlı olduğunu deyir.

Qusar rayonunda qələmə aldığı “Cənubi-Şərqi Qafqazın geomorfologiyası və yeni tektonikası” adlı əsəri alimə böyük uğurlar gətirmiş, onu SSRİ-də və xarici ölkələrdə tanıtmışdır. 1978-ci ildə həmin əsərə görə o, keçmiş SSRİ Coğrafiya Cəmiyyətinin N.A.Prjevalski adına Qızıl medalı ilə təltif olunmuşdur.

Şahdağla bağlı bir sıra elmi kəşflərin müəllifi olan alim ilk dəfə Yuxarı Sarmat dövrünə məxsus dəniz çöküntülərini Şahdağın 3600 metr yüksəkliyində aşkar etmişdir. Ona qədər alimlər bu çöküntülərin 2600 metr yüksəklikdə olduğunu sübut edirdilər. B.Budaqovun tapdığı dəniz süxurları və balıqqulaqları isə Qafqazın yaşının cavanlığını sübut etdi. Yəni son 13 milyon il ərzində yerdə baş vermiş müxtəlif tektonik proseslər nəticəsində Qafqaz, xüsusilə də onun cənub-şərq hissəsi təxminən 3600 metrə qədər qalxmışdır. Qafqazı öyrənən bütün geoloqlar, o cümlədən tektonistlər Azərbaycan elminin bu yeniliyindən istifadə etməkdə davam edirlər.

Şahdağın buzlaqlarının da elmi cəhətdən öyrənilməsi B.Budaqova məxsusdur. O, 1956-cı ildə ilk dəfə olaraq buradakı buzlaqların sahəsini müəyyənləşdirmiş, ərazinin 3 dəfə buzlaşmaya məruz qaldığını sübut etmişdir.

Dəfələrlə Qusar rayonunun ərazisindən Şahdağın zirvəsinə qalxmış alim yerin tektonik hərəkətlərini, ərazinin əmələ gəlmə proseslərini, o cümlədən buranın qədim və müasir buzlaşmaya məruz qalmasını elmi şəkildə öyrənmişdir. Dağlarda gedən intensiv prosesləri, onların aşınmasını, güclü zəlzələlər nəticəsində uçqunların yaranmasını, ümumiyyətlə, daxili və xarici qüvvələrin təsirinə daim məruz qalmasını göstərən alimin elmi nəticələri olduqca maraqlıdır.

“Azərbaycanın Böyük Qafqaz hissəsində qədim və müasir buzlaşma”, “Geomorfologiya və yeni tektonik hərəkətlər”, “Dağların həyatı” və başqa əsərləri dəfələrlə kütləvi tirajla çap olunmuş Budaq Budaqov turizmin inkişafı ilə bağlı Qusar rayonunda gedən tikinti işlərinin vüsətindən məmnun qalaraq burada qış idman kompleksinin yaradılmasının bir sıra alimlərin, o cümlədən də onun ideyalarının həyata keçməsi olduğunu fəxrlə bildirir.

## ЗАРИДИН ГАФ

***Сейли зари ва алим Гьаким Къурбан (Акимов Къурбан Халикьан хва) кцIарвийрин рикI алай къелемэгьлийрикай я. Ада 16 повесть, 20 роман чапдай акъуднава.***



Адан "Ракъинин муг" трилогия, "Ирид чин алай хуьр", "Къилинж Къемер" романар ва маса эсерар кцIарви кIелдайбуруз хъсандиз таниш я. Ада сифте яз яргъал йисара КцIара яшамиш хьайи ялавлу женгчи, миграгъви Абид Амираслановакай "Асландин рикI авай инсан" тIвар ганвай повесть кхьена. И эсерда авторди чка атунивай кцIарвийрин къени къилихрикайни ихтилатзава.

1938-йисуз Дагъустандин Докъузпара райондин Миграгъ Къазмаяр хуьре дидедиз хьайи Гьаким Къурбан кIелдайбуруз чIехи ватанперес, халкь паталди гьакъисагъвилелди зегьмет чIугвазвай женгчи хьиз чида. Дагъустандин Илимдинни Ахтармишунрин Педагогикадин Институтдин хайи литературайрин сектордиз регьбервал гузвай филологиядин илимрин доктор Гьаким Къурбан лезги литературадин программайрин, учебникрин ва хрестоматийрин автор я. Гь.Къурбан "Россиядин Федерациядин маарифдин кIвенкIвечи" ва "Дагъустан Республикадин лайихлу муаллим" гьуьрметдин тIвarариз лайихлу хьанва.

1990-йисуз Гьаким Къурбана лезги кхьирагрин сад лагьай съезд кIватIна ва анал Лезги Писателрин Союз тешкилна. Зари ЛПС-дин правленидин кьил ва милли литературадин "Шарвили" газетдин редактор я. 1993-йисуз ада Магьачкъалада гележегдин зарияр тербияламишдай "Жегьил литератор" тIвар ганвай махсус мектеб кардик кутуна.

## КЬВЕ ХАЛКЬДИН ДУСТВИЛИЗ БАХШНАВА

***Азербайжан ва лезги халкьар синагърай акъатнавай дуствилинни стхавилин алакъайри галкIурзава. И фикир Эльбрус Шагьмаран эсеррай яру хатI хьиз физва.***

Тарихдин чара-чара девирра и кьве халкь сад садаз даях хьана. Виш йисара лезги зарийри чпин эсерар хайи чIалалай гьейри туьрк чIалални къелемдиз къачуни абурун и чIалаз авай кIа-

## YAZIÇI SÖZÜ

***Məşhur yazıçı və alim Hakim Qurban (Akimov Qurban Xaliqoviç) qusarlıların sevdiyi qələm sahiblərindəndir. Onun 16 povesti, 20 romanı nəşr olunub.***

Onun "Günəş yuvası" trilogiyası, "Yeddi üzlü kənd", "Qılınc Qəmər" romanları və başqa əsərləri qusarlı oxuculara yaxşı tanışdır. O, ilk dəfə olaraq, uzun illər Qusarda yaşamış məşhur inqilabçı, əslən Dağıstanın Miqrağ kəndindən olan Abid Əmiraslanov haqqında "Aslan ürəkli insan" povestini qələmə alıb, çap etdirmişdir. Bu əsərində müəllif yeri gəldikcə qusarlıların mehribanlığından, qonaqpərvərliyindən, gözəl adətlərindən də söhbət açmışdır.

1938-ci ildə Dağıstanın Doquzpara rayonunun Miqrağ Qazmalar kəndində anadan olmuş Hakim Qurbanı oxucular böyük vətənpərvər, mübariz yazıçı və alim kimi tanıyırlar. Dağıstan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda milli ədəbiyyatlar bölməsinə rəhbərlik edən filologiya elmləri doktoru Hakim Qurban ləzgi ədəbiyyatı proqramlarının, dərsliklərinin və müntəxabatlarının müəllifidir. H.Qurban "Rusiya Federasiyasının maarif əlaçısı", "Dağıstan Respublikasının əməkdar müəllimi" fəxri adlarına layiq görülmüşdür.

1990-cı ildə Hakim Qurban bir qrup qələm sahibinin köməyi ilə ləzgi yazıçılarının I qurultayını keçirmiş və burada Ləzgi Yazıçıları İttifaqını təsis etmişdir. O, LYİ idarə heyətinin sədri və "Şarvili" ədəbi-bədii qəzetinin redaktorudur. 1993-cü ildə H.Qurban Mahaçqalada gələcək şairlər və yazıçılar yetirən "Gənc ədib" məktəbini yaratmışdır.

## İKİ XALQIN DOSTLUĞUNA İTHAF

***Azərbaycan və ləzgi xalqlarını uzun əsrlərin sınağından çıxmış möhkəm dostluq və qardaşlıq telləri birləşdirir. Bu fikir yazıçı Elbrus Şahmarın əsərlərindən qırmızı xətt kimi keçir.***

Tarixin müxtəlif dövrlərində bu iki xalq bir-birinə dayaq olmuşdur. Əsrlər boyu bir sıra ləzgi yazarının öz əsərlərini həm doğma dilində, həm də türk dilində qələmə alması bu dostluğa misaldır.

нивиликай хабар гузва.

Кьве халкьдин мукьвавилиз талукь мисалрикай садни азербайжанви кхьираг Эльбрус Шагьмаран яратмишунар я. 1945-йисуз Къубадлы райондин Магьмудлу хуьре дидедиз хьайи Эльбрус Шагьмаран хва Мамедова Азербайжандин Гьукуматдин Университетдин ктабханачивилин ва ихтиярар хуьнин факультетар куьтягьна. 1968-2000-йисара къенепатан крарин органра чара-чара къуллугърал кIвалахай полковник Э.Шагьмар 29 ктабдин автор я.



Кхьирагди 25 йис я гьар гатуз КцIар райондин Четкуьн хуьре ял ягъиз. Лезгийрин адетрал, абурун ацукьун-къарагъунал, мугьманпересвилел, саявилел, дустариз вафалувилел, мердвилел, гафунал акъвазунал гьейран тир кхьирагди чка атунивай вичин гьикая, повесть ва очеркра лезгийрин образарни яратмишнава. Э.Шагьмаран “Касдин уьмуьр” ва “Чи дамах тир Арзуман” ктабарни и муьгьуббатди арадиз гъанва. “Касдин уьмуьр” эсер авторди генерал Ариф Гьейдаров гьулледикай хуьн патал вичин хур вилик гайи подполковник Азиз Азаматан хва Сефихановаз бахш авунва. И намуслу ва кичI тийижир инсандин ватан тир КцIариз вичин кIанивал къалурзава авторди.

Яргъал йисара чи республикадин ихтиярар хуьдай органра кIвалахай, вичин саваддални пешекарвилелди тафаватлу тир полковник Арзуман Зулфикъаровакай кхьенвай “Чи дамах тир Арзуман” ктабни Э.Шагьмара лезги халкьдиз муьгьуьббатдалди къелемдиз къачунва. КцIарви зегьметчи инсанрин уьмуьрдикай кхьенвай цIудралди очеркра ада гзаф марагьлу образар яратмишнава.

Эльбрус Шагьмара вичин философиядин веревирдри арадиз гъайи “Уьмуьрнаме” ктаб азербайжанвийринни лезгийрин дуствилиз бахшнава. Икарди адан къиметлувал артухарзава, автордин къени фикиррикай хабар гузва.

Belə misallardan biri yazıçı Elbrus Şahmarın yaradıcılığıdır. 1945-ci ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olmuş Elbrus Şahmar oğlu Məmmədov Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq və hüquq fakültələrini bitirmişdir. 1968-2000-ci illərdə daxili işlər orqanlarında bir sıra vəzifələrdə çalışmış polis polkovniki Elbrus Şahmar 29 kitabın müəllifidir.

25 il ərzində yay istirahətini hər il Qusar rayonunun Çətkün kəndində keçirən, ləzgilərin adət-ənənələrinə, qonaqpərvərliyinə, sadəliyinə, dosta sədaqətinə, mərdliyinə və sözübütövlüyünə heyran olan E.Şahmar yeri gəldikcə özünün hekayə, oçerk və povestlərində onların obrazlarını da yaratmışdır. Onun “Kişi ömrü” və “Fəxrimiz Arzuman” kitabları da bu məhəbbətdən yaranmışdır. “Kişi ömrü” əsəri general Arif Heydərovun həyatını xilas etmək üçün sinəsini güllə qabağına vermiş podpolkovnik Əziz Əzəmət oğlu Səfixanovun həyat və fəaliyyətinə həsr olunmuşdur. Bu namuslu və cəsur insan haqqında məhəbbətlə yazan müəllif onu yetişdirmiş Qusar torpağına rəğbətini bildirməkdən çəkinmir.

Uzun illər respublikamızın hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə çalışmış, dərin biliyi, peşəkar xüsusiyyətləri, fenomenal yaddaşı olan polkovnik Arzuman Zülfüqarov haqqında qələmə aldığı “Fəxrimiz Arzuman” kitabı da qəhrəmanın mənsub olduğu ləzgi xalqına məhəbbətdən yaranıb. Qusarlı zəhmət adamlarının, namuslu insanların həyatından qələmə aldığı onlarca oçerklərində müəllif onların maraqlı obrazlarını yarada bilmişdir.

Elbrus Şahmarın fəlsəfi düşüncələrindən yaranmış “Ömürnamə” kitabını azərbaycanlılarla ləzgilərin əsrlərin sınağından çıxmış dostluğuna və qardaşlığına ithaf etməsi kitabın sanbalını artırır, onun müəllifinin mənəvi dünyasının zənginliyini bir daha nəzərə çarpdırır.

## КЦIАРАЛ РИКI АЛАЙДИ

***КцIарин иервилериз, адан инсанриз гзаф шиирар бахшнавай Рамиз Къусарчайлыдин "КцIар зи" шиир адан виридалайни хъсан теснифрикай сад я.***



Рамиз Къусарчайлы (Гьамзаев Рамиз Мурсалан хва) 1958-йисуз Къуба райондин Чартепе хуьре дидедиз хьана. Адан буба КцIарин Ясаб хуьряй я. Чартепеда 8-синиф, Бакуда юкьван мектеб куьтягьай Р.Къусарчайлыди Азербайжандин Политехник Институтдин механикадин, Москвадин Социальный Университетдин ихтиярар хуьдай факультетар акьалтIарна. Бакудин Кьилин Эцигунрин Карханада, "Элм ва гьаят" журналда, "Заман" газетда, Тула ва Днепропетровск шегьерра чара-чара къуллугърал хьайи ада 1999-йисалай Къуба районда кIвалахзава.

Мектебдин йисарилай шиирар кхьизвай Рамизан сифте шиир 1975-йисуз "Азербайжан генжлери" газетда чап хьана. 17 йиса авайла халкьдин шаир Осман Сарывеллиди адаз "Къусарчайлы" лакIаб гана ва адан яратмишунрикай кIелдайбурув малуматар агакьарна. 1993-йисуз Къубадин кхьирагрин "Ай ишыгъы" ("Вацран экв") кIватIал арадиз гьайи шаирди гьа чIавалай адаз регьбервал гузва. 1996-йисалай Азербайжандин Кхьирагрин КIватIалдик квай Р.Къусарчайлы кIватIалдин Къуба отделдин кьил я.

Бехтияр Вагьабзаде, Неби Хезри, Мамед Араз, Суьгьраб Тагьир, Муса Якъуб, Фамил Мегьди, Тофикъ Муьтеллибов, Мамед Аслан, Зелимхан Якъуб, Шагьмар Акберзаде, Вакъиф Арзуманлы, Давуд Несиб, Шагьин Фазил, Вакъиф Юсуфлу, Назир Къегьреманлы, Гьамид Аббас, Илгьам Аббасов, Эждер Ол ва масабуру адан яратмишунрикай макъалаяр ва рецензияр кхьена, чапдай акъудна.

"Зи фу къванцяй акъатзава", "Уьмуьрдин ракIарар", "Са цуьквердин няни", "Эшшекнаме" тIварар ганвай шииррин, "Къвакъвадин тар" таржумайрин ктабрин автор я.

Вакъиф Арзуманлыди ва Закир Мамеда шаирдин уьмуьрдиз ва яратмишунриз талукьарнавай ктабар кхьена чапдай акъудна. Адан шиирар ингилис, урус, Украина ва Дагъустандин халкьарин чIалариз элкъуьрнава. Рамиз Къусарчайлы 2009-2010-йисарин Президентдин стипендиант я.

## QUSARI SEVƏN ŞAİR

***Qusarın gözəlliklərinə, onun insanlarına çoxlu şeirlər ithaf etmiş tanınmış şair Ramiz Qusarçaylının "Qusarım" şeri onun ən gözəl şeirlərindən biri sayılır.***

Ramiz Qusarçaylı (Həmzəyev Ramiz Mürsəl oğlu) 1958-ci ildə Quba rayonunun Çartəpə kəndində anadan olmuşdur. Əslən Qusarın Yasab kəndindən olan Ramiz 8 illik məktəbi Çartəpə kəndində, orta məktəbi isə Bakıda bitirmişdir.

Azərbaycan Politexnik İnstitutunun mexanika, Moskva Dövlət Sosial Universitetinin hüquq fakultələrində təhsil almış, Bakı Baş Tikinti İdarəsində, "Elm və Həyat" jurnalı redaksiyasında, "Zaman" qəzetində, Tula və Donetsk vilayətlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1999-cu ildən etibarən Quba Rayon İcra Hakimiyyətində baş məsləhətçi vəzifəsində işləyir.

Yaradıcılığa erkən yaşlarından başlamış, ilk şeri 1975-ci ildə "Azərbaycan gəncləri" qəzetində dərc edilmişdir. 17 yaşında ikən xalq şairi Osman Sarıvəlli ona "Qusarçaylı" təxəllüsünü vermiş, mətbuat səhifələrində yaradıcılığı barədə məlumat verərək, uğurlu yol diləmişdir. Qubada bölgə yazarlarınınn "Ay işığı" məclisini yaratmış R.Qusarçaylı 1993-cü ildən ona rəhbərlik edir. 1996-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2002-ci ildən isə Azərbaycan Yazıçılar Birliyi Quba bölməsinin sədridir.

Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Məmməd Araz, Söhrab Tahir, Musa Yaqub, Famil Mehdi, Tofiq Mütəllibov, Məmməd Aslan, Zəlimxan Yaqub, Şahmar Əkbərzadə, Vaqif Arzumanlı, Davud Nəsib, Şahin Fazil, Vaqif Yusifli, Nazif Qəhrəmanlı, Həmid Abbas, İlham Abbasov, Əjdər Ol və başqaları onun yaradıcılığına həsr olunmuş məqalə və resenziyalarla respublika mətbuatında çıxış etmişlər.

"Çörəyim daşdan çıxır", "Ömür qapıları", "Bir çiçək axşamı", "Eşşəknamə" adlı şeirlər, "Göyəm ağacı" adlı tərcümə kitablarının, Quba adlı foto-albomun müəllifidir.Vaqif Arzumanlı və Zakir Məmməd şairin yaradıcılığı barədə kitablar çap etdirmişlər. Onun şeirləri ingilis, rus, Ukrayna və Dağıstan xalqlarının dillərinə tərcümə edilmişdir.

Ramiz Qusarçaylı 2009-2010-cu illərin Prezident təqaüdçüsüdür.

### *КЦIАР ЗИ*

*Рядени гъамлудиз яна зи гьава,*
*Мецел аваз алаз, яна зи дуьа...*
*И ван Суваринди, Суважалдинд я,*
*ЧIалал атана "Раст",*
*Рахана "Гьисар",*
*Зи хайи КцIар.*

*Адан чил цуькверив диганвай макан,*
*Цаварин экв хьиз я малаикрин ван.*
*Дустариз гьар чIавуз рак ахъа ватан,*
*Душманриз хьайид я кIеви тир часпар,*
*Зи хайи КцIар.*

*Са къван дигединди, сад бинедин къван,*
*Сад зи кьилин къван я, зи дуьнедин къван,*
*Садал пине алаз сад пинедин къван -*
*Гьиниз фейитIани алаз хьуй ви зар,*
*Зи хайи КцIар.*

*Чарчарри лугьузва эллерин мани,*
*Кхьизва кьваларал селлерин мани,*
*ИкI хайи Ясабрин, Хьилерин мани,*
*Аваз хьуй рикIе зи даим цIарба-цIар,*
*Зи хайи КцIар.*

*Вилериз куьчариз иервилер икI,*
*Гьар вун акурла зи юзада хьи рикI,*
*Зи илгьам Шагь дагъдихъ, Лацарихъ гъарикI,*
*Лекь хьиз чи дагълара аваз хьуй ви тIвар,*
*Зи хайи КцIар.*

*Рядени гъамлудиз яна зи гьава,*
*Мецел аваз алаз, яна зи дуьа...*
*И ван Суваринди, Суважалдинд я,*
*ЧIалал атана "Раст",*
*Рахана "Гьисар",*
*Зи хайи КцIар.*

***(Элкъуьрайди С. Керимова я)***

### *QUSARIM*

*Bu axşam mənim də havam çalındı,*
*Havalı dilimdən duam çalındı...*
*Bu səs Suvarındı, Suvacalındı,*
*Dindi "Rast"ım mənim,*
*"Hisar"ım mənim,*
*Qusarım mənim.*

*Yerləri gül səsi, çiçək qapısı,*
*Göyləri nur seli, mələk qapısı,*
*Dosta dost qapısı, ürək qapısı,*
*Düşmənə keçilməz hasarım mənim,*
*Qusarım mənim.*

*Bir daşı yurd daşım, binə daşımdı,*
*Bir daşı baş daşım, sinə daşımdı,*
*Bil ki, yamaq daşım, pinə daşımdı, -*
*Sənsiz hara düşsə güzarım mənim,*
*Qusarım mənim.*

*Ötür şəlalələr tel nəğməsini,*
*Asıb qayalara sel nəğməsini,*
*Yasab nəğməsini, Hil nəğməsini*
*Könlümə əbədi yazarım mənim,*
*Qusarım mənim.*

*Düşsün gözəllikdən gözə dən, baxım,*
*O gözəl hüsnünə təzədən baxım...*
*Çıxım, Şahdan baxım, Ləzədən baxım,*
*Deyim bu qartalım, bu sarım mənim,*
*Qusarım mənim.*

*Bu axşam mənim də havam çalındı,*
*Havalı dilimdən duam çalındı...*
*Bu səs Suvarındı, Suvacalındı,*
*Dindi "Rast"ım mənim,*
*"Hisar"ım mənim.*
*Qusarım mənim.*

***Cavad xanın yaxın dostu şair Əbdürrəhman ağayi Dilboz oğlu Gəncədə Cavad xanın döyüşlərində iştirak edən 15 ləzginin qəhrəmanlığına müxəmməs ithaf etmişdir. Azərbaycanın xalq şairi Mirvarid Dilbazi babasının həmin müxəmməsini S.Kərimovaya çatdırmış və ondan şeri dərc etməyi xahiş etmişdir. Müxəmməs "Samur" qəzetinin 1999-cu ilin 14 yanvar sayında dərc olunmuşdur.***

## LƏZGİLƏR

***(ixtisarla)***

*Guş qıl ey əhli aləm, qələdə on beş ləzgi var,*
*Andrey Yaxsay elindən kim gəlib etsin tücar,*
*Hər biri Dağıstan içrə mərdi-meydan-namidar,*
*Sübhüdən küffarə şəmşir vurdur kim, bərqərar,*
*Maşallah, dini-islam cəng edər aşikardan.*

*Sübh açıldı, bir tamaşa qıldı meydan ləzgilər,*
*Etmədi hərgiz özün meydanda pünhan ləzgilər,*
*Pozdu küffar dəstəsin, etdi pərişan ləzgilər,*
*Qırdı rusun bər-səfin, xak ilə yeksan ləzgilər.*

*Ləzgilər topxanaya kim girdi, tufan etdilər,*
*Xəncəri xunriz ilə küffarı bican etdilər.*
*Eylə san kim, ol zaman bir qana yüz qan etdilər,*
*Durdu məscid qapısında, sanasan bir şiri-nər,*
*İçdilər, şəhri-şəhadət vəhi olan izharidən.*

*Etdilər yüz dürlü dəva, qıldılar olmaz hünər,*
*Gördü kafir kim, tüfəng, şəmşir ilə bulmaz zəfər,*
*Çəkdi toplar üstünə gəl ey mədəd xeyrü-bəşər!*
*Sanasan od yağdı göydən, üstə atəş nardan.*

# ДАГЪУСТАНДИН СЕЙЛИ ЛЕЗГИ ЗАРИЯР
# DAĞISTANIN MƏŞHUR LƏZGİ YAZARLARI



***Миграгъ Къемер***
***(1425-1460)***
***Miqraq Qəmər***



***Кьуьчхуьр Саид***
***(1767-1812)***
***Küçxür Səid***



***Мегьамед Ярагъви***
***(1770-1840)***
***Məhəmməd Yarağİ***



***Гьасан Алкьвадари***
***(1834-1910)***
***Həsən Alqadari***



***Етим Эмин***
***(1838-1885)***
***Yetim Emin***



***СтIал Сулейман***
***(1869-1937)***
***Stal Süleyman***



***Хуьруьг Тагьир***
***(1893-1958)***
***Xürüq Tahir***



***Зияудин Эфендиев***
***(1903-1980)***
***Ziyauddin Əfəndiyev***



***Алибег Фетягьов***
***(1910-1935)***
***Əlibəy Fəttahov***



***Къияс Межидов***
***(1911-1974)***
***Qiyas Məcidov***



***Шагь-Эмир Мурадов***
***(1913-1995)***
***Şah-Əmir Muradov***



***Алирза Саидов***
***(1932-1978)***
***Əlirza Səidov***

# XII

# ХАРУСЕНЯТ



# İNCƏSƏNƏT

***Харусенятди инсандивай вич кьиляй-кьилди адаз муьтӀуьгъ хьун тӀалабда.***

*Микеланжело*

***İncəsənət insandan bütünlüklə ona tabe olmağı tələb edir.***

*Mikelancelo*

## ХАРУСЕНЯТДИН МАКАН

КцӀариз харусенятдал рикӀ алай ксарин маканни лугьуз жеда. Кинодихъни театрдихъ, манийрихъни кьуьлерунихъ ялдайбур я кцӀарвияр. Гьавиляй инай шумудни са композиторар, маничияр, макьамчияр, актерар, художникар, искусствоведар акъатна. Вичин фольклординни эстрададин ансамблралди сейли я КцӀар. Алатай асирдин 90-йисара 20-дав агакьна ихьтин ансамблар авай районда.

КцӀарай акъатна гьам Азербайжанда, гьамни маса уьлквейра кӀвалахай шумудни са сенятэгьлияр вириниз сейли хьана. Бязи сеняткарар "Азербайжандин лайихлу артист", "Дагъустандин халкьдин артист", "Россиядин искусствойрин лайихлу кӀвалахдар" хьтин гьуьрметдин тӀвавариз лайихлу хьана. Са бязи художникриз "Азербайжан Республикадин лайихлу художник", "Россиядин Федерациядин лайихлу художник" хьтин гьуьрметдин тӀварар гана.

Ктабдин и кьил кцӀарвийри харусенятдин рекьяй къазанмишай агалкьунриз талукьарнава.

## İNCƏSƏNƏT MƏKANI

Qusara incəsənəti sevən insanların məskəni də demək olar. Kinoya, teatra, mahnılara və rəqslərə, bir sözlə, incəsənətin ayrı-ayrı sahələrinə son dərəcə meylli insanlardır qusarlılar. Bəlkə də elə ona görə neçə-neçə bəstəkarlar, musiqiçilər, müğənnilər, aktyorlar, rəssamlar, sənətşünaslar çıxıb Qusardan. Özünün folklor və estrada ansamblları ilə ad çıxarıb bu məkan. Ötən əsrin 90-cı illərində burada 20-dək ansambl fəaliyyət göstərirdi.

Azərbaycanda və başqa ölkələrdə yaşayıb yaradan neçə-neçə sənət adamının şöhrəti hər yana yayılıb. Bir sıra sənətkarlar "Azərbaycanın əməkdar artisti", "Dağıstanın xalq artisti", "Rusiyanın əməkdar incəsənət xadimi" fəxri adlarına layiq görülüb. Bəzi rəssamlara "Azərbaycan Respublikasının əməkdar rəssamı", "Rusiya Federasiyasının əməkdar rəssamı" fəxri adları verilib.

Kitabın bu bölməsi qusarlıların incəsənət sahəsində qazandıqları uğurlara həsr olunub.

## ЧЕШНЕЛУ МЕКТЕБ

Райондин харусенятдин мектеб 1960-йисуз кардик акатна. Ам кардик кутадалди КцIара музыка вилик тухунин рекьяй гзаф агалкьунар къазанмишнай. Чи республикадин районрин арада сифте яз кьве ванцин хор 1960-йисуз Фетуллагь Регьимханован, манидинни кьуьлунин ансамбль Къени Къениеван регьбервилик кваз КцIара тешкилнай. Санаил Мустафаев, Физеммед Куругълуев хьтин макьамчийри КцIар виринiз сейли авунай.

Райондин харусенятдин мектебдин сад лагьай директор вич Шуша шегьердай тир Аллагьвердиев Октай Мамедан хци вад йисуз и везифадал кIвалахнай. Адан регьбервилик кваз фортепиано ва тардин синифар кардик кутунай. Са йисалай ина музыкадин теориядин синифни ахъа хьанай. Жегьил директорди пуд йисан къене музыкадин коллективар арадиз гъана, райондин хуьрера, гьакIни Дагъустанда концертар ганай. Гуьгъуьнин йисара мектебдиз Аяз Рашидова, Камил Жаверова, Сабир Мустафаева, Суьбгьи Гьабибова ва Загьир Мустафаева регьбервал ганай. Рейгьан Багъишова мектебдиз регьбервал гузвай сад лагьай дишегьли я. Азербайжандин Гьукуматдин Консерваториядин хордин дирижорвилин факультет акьалтIарнавай ада вад йис я инин директорвиле кIвалахиз.

Алай вахтунда мектебда хореографиядин, скрипкадин, фортепианодин, кларнетдин, тардин, кеменчидин, далдамдин ва маничивилин синифра 373 аялди чирвилер къачузва. Харусенятдин мектеб 1990-йисуз Республикадин Медениятдин Министерстводин сад лагьай дипломдиз лайихлу хьана.

## NÜMUNƏVİ MƏKTƏB

Rayon incəsənət məktəbi 1960-cı ildən fəaliyyətdədir. Ona qədər rayonda musiqini inkişaf etdirmək sahəsində bir sıra uğurlar qazanılmışdır. Respublikamızın rayonları arasında ilk ikisəsli xor 1960-cı ildə Fətullah Rəhimxanovun, ilk mahnı və rəqs ansamblı Qəni Qəniyevin rəhbərliyi altında Qusarda yaradılmışdır. Sanail Mustafayev, Fizəmməd Koroğluyev kimi musiqiçilər Qusarı hər yanda tanıtmışlar.

Qusar incəsənət məktəbinin ilk direktoru əslən Şuşadan olan Allahverdiyev Oqtay Məmməd oğlu olmuş, o, beş il bu vəzifədə çalışmışdır. Onun rəhbərliyi altında fortepiano və tar sinifləri açılmış, bir il sonra musiqi nəzəriyyəsi sinfi fəaliyyətə başlamışdır. Gənc direktorun rəhbərliyi altında yaradılmış musiqi kollektivləri Qusarın kəndlərində və qonşu Dağıstanda konsertlər vermişlər. Sonrakı illərdə məktəbə Ayaz Rəşidov, Kamil Cəfərov, Sabir Mustafayev, Sübhi Həbibov və Zahir Mustafayev rəhbərlik etmişlər.

Hazırda məktəbə Reyhan Bağışova rəhbərlik edir. O, Azərbaycan Dövlət Konservatoriyasının xor dirijorluğu fakültəsini bitirmiş, bir zamanlar təhsil aldığı bu məktəbdə 20 il müəllim kimi fəaliyyət göstərmişdir. R.Bağışova beş ildir ki, məktəbin direktoru vəzifəsində çalışır.

Hazırda məktəbdə xoreoqrafiya, skripka, fortepiano, klarnet, tar, kamança, nağara və xanəndəlik ixtisasları üzrə 373 şagird təhsil alır. İncəsənət məktəbi 1990-cı ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birinci dərəcəli diplomuna layiq görülmüşdür.



*Харусенятдин мектебдин аялрин хор вири республикадиз сейли я. Адан хормейстер Москвадин Культурадин Институт акьалтIарнавай Севда Тагьиева я.*
*İncəsənət məktəbinin uşaq xoru respublikada tanınır. Onun xormeysteri Moskva Mədəniyyət İnstitutunun məzunu Sevda Tağıyevadır.*



*Мектебдин директор Рейгьан Багъишовади муаллимриз тапшуругъар гузва.*
*Məktəbin direktoru Reyhan Bağışova müəllimlərə tapşırıqlar verir.*

## ЛЕЗГИ ТЕАТР

КцIарин Гьукуматдин Лезги Драмтеатр 1992-йисан 3-июлдиз кардик акатнаватIани, адан асул тарих 1963-йисан 15-апрелдилай гатIунзава. Гьа йисуз райондин вилик-кьилик квай векилри ина халкьдин театр арадиз гъана. Вич актер, акробат, гьакIни пагьливан тир Сардар Хазрински, адан паб Миная Рамазанова, Нора Алимова, Вакъиф Алимов, Имамали Илясов, Пери Гьабибуллаева, Тамара Мамедова, Балакерим Сеферов, Нуьсрет Алиев хьтин инсанри ва масабуру чи медениятдиз цIийи нефес гъана, чпин манийралди, кьуьлералди, юморескайралди кцIарвийрик руьгь кутуна.

КцIарин халкьдин театрди куьруь вахтунда кцIарвийрин, гьакIни Азербайжандин ва Дагъустандин лезги районрин агьалийрин гьуьрмет къазанмишна. Театр 1987-йисуз СССР-дин халкьдин театррин фестивалдин лауреат хьана.

1992-йисуз КцIарин Гьукуматдин Лезги Драмтеатр кардик кутурла халкьдин театрдай иниз 12 артист атана. Театрдин сад лагьай директор Хамет Мурадов хьана. Гьа йисуз Бразилиядин драматург Г.Фигередодин "Эзоп" пьеса лезги чIалалди сегьнедал эцигна. Им КцIарин медениятдин уьмуьрда чIехи вакъиадиз элкъвена. Х.Мурадовалай алатайла са йисуз Элфеддин Регьимханова, кьуд йисуз Межлум Ферзалиева, йисни зура Кузма Алиметова театрдиз регьбервал гана.

2000-йисалай театрдин директор Регьимхан Къараханов я. "Азербайжан Республикадин лайихлу медениятдин кIвалахдар" гьуьрметдин тIвар къачунвай, 70-далай виниз ролар тамамарай Р.Къараханова театрдин сегьнедал 42 тамашани эцигна. Азербайжандин драматургрикай С.С.Ахундован "Тамагь-

## LƏZGİ TEATRI

Qusar Dövlət Ləzgi Dram Teatrı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 iyul tarixli qərarı ilə yaradılsa da, onun əsl tarixi 1963-cü ilin aprelin 15-dən başlanır. Həmin dövrdə rayonun qabaqcıl ziyalıları xalq teatrı yaratdılar. Aktyor, akrobat və kəndirbaz kimi tanınan Sərdar Xəzrinski, onun ömür yoldaşı Minayə Ramazanova, müğənni Nora Əlimova, aktyorlar Vaqif Əlimov, İmaməli İlyasov, Pəri Həbibullayeva, Tamara Məmmədova, Balakərim Səfərov, Nüsrət Əliyev və başqaları öz çıxışları ilə rayonun mədəni həyatına yeni nəfəs gətirdilər.

Qusar xalq teatrı qısa müddətdə nəinki qusarlıların, həmçinin Azərbaycanın və Dağıstanın ləzgi rayonlarının əhalisinin də rəğbətini qazandı. Teatr 1987-ci ildə SSRİ xalq teatrları festivalının laureatı oldu.

1992-ci ildə Qusar Dövlət Ləzgi Dram Teatrı fəaliyyətə başlayanda buraya işləməyə xalq teatrından 12 aktyor gəldi. Teatrın ilk direktoru Xamət Muradovun rəhbərliyi altında həmin il braziliyalı dramaturq G.Fiqeredonun "Ezop" pyesi ləzgi dilində səhnələşdirildi. Bu, Qusarın mədəni həyatında böyük hadisə idi. X.Muradovdan sonra teatra bir il Əlfəddin Rəhimxanov, dörd il Məclum Fərzəliyev, il yarım Kuzma Əlimətov rəhbərlik etdilər.

2000-ci ildən teatrın direktoru Rəhimxan Qaraxanovdur. "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi", 70-dən artıq rolların ifaçısı R.Qaraxanov teatr üçün 42 tamaşa hazırlamışdır. Azərbaycan dramaturqlarından S.S.Axundovun "Tamahkar", S.Rəhmanın "Aşnalar", "Hicran", İ.Əfəndiyevin "Bizim qəribə həyatımız", "Atayevlər ailəsi", M.Əlizadənin "Dağ çiçəyi" kimi pyesləri ləzgi dilində tamaşaya qoyulmuşdur.



*Мирзали Рустамован "Тахсиркар вуж я?" пьесадай сегьне*
*Mirzəli Rüstəmovun "Təqsirkar kimdir?" pyesindən səhnə*



*С.С.Ахундован "Тамагькар" пьесадай сегьне*
*S.S.Axundovun "Tamahkar" pyesindən səhnə*

кар”, С.Регьманан “Ашнаяр”, “Гьижран”, И.Эфендиеван “Чи аламатдин уьмуьр”, “Атаеврин хизан”, М.Ализадедин “Дагъдин цуьк” пьесаяр лезги чIалал сегьнедал эцигнава.

Лезги кхьирагрикай Акбер Ферзалиеван “Имам Шамил”, Мирзали Рустамован “Гьава ахъа жезва”, “Гьемдуллагьан хам хиял”, “Зияратдай хтай гьажи”, “Сефербеган мехъер”, “Шагь дагьдин тIебиат”, Шафиддин Герейханован “Ирид рушан диде”, Бикеханум Алибеговадин “Куьтягь тахьанвай мани” эсеррини театрдин репертуарда чка кьунва.

Театрда 100-далай виниз ролара къугъвай Къияфеддин Гьажиев хьтин актерри кIвалахзава. Гьайиф хьи, чIехи агалкьунар къазанмишай КцIарин Лезги театрдихъ кьилди дарамат авач.

Ləzgi yazarlarından Əkbər Fərzəliyevin “İmam Şamil, Mirzəli Rüstəmovun “Hava açılır”, “Həmdullahın xam xəyalı”, “Ziyarətdən qayıtmış hacı”, “Səfərbəyin toyu” Şafiddin Gərəyxanovun “Yeddi qızın anası”, Bikəxanım Əlibəyovanın “Bitməmiş mahnı” kimi əsərləri teatrın repertuarında layiqli yer tutur.

Teatrın 100-dən çox rolda oynamış Qiyafəddin Hacıyev kimi istedadlı aktyorları var. Təəssüf ki, yüksək göstəriciləri olan teatrın özünün ayrıca binası yoxdur.



*Акбер Ферзалиеван “Имам Шамил” пьесадай сегьне.*
*Əkbər Fərzəliyevin “İmam Şamil” pyesindən səhnə.*

## ФЕТУЛЛАГЬ РЕГЬИМХАНОВ

***Адан уьмуьр ва яратмишунар хайи халкьдиз намуслудаказ къуллугъ авунин чешне тир. Адан манияр вириниз сейли хьанай.***

Фетуллагь Ибрагьимхелилан хва Регьимханов 1924-йисуз КцIар райондин ЦIуру Худат хуьре дидедиз хьана. Адан чIехи буба Регьимхана чуьнгуьрдал хъсандиз ягъидай. Буба Ибрагьимхелил тардал, кеменчидал ва зуьрнедал ядай зурба сеняткар тир. Ибрагьимхелила цIийихуьруьнви Мурадханахъ ва бедиркIелеви Сефербегахъ галаз санал туькIуьрай трио а вахтунда КцIара гзаф машгьур тир.

Гьеле аялзамаз бубадивай тардал ягъиз чирай Фетуллагьа юкьван мектеб акьалтIарна, Къубадин педтехникумда, гуьгъуьнлай Бакуда музучилищеда кIелнай. Къуба пата кьве ванцин хор сифте яз Ф.Регьимханова туькIуьрнай. И хор Азербайжандин шумудни са фестивалрин лауреат хьанай.

1942-1949-йисара А.Бакиханован тIварунихъ галай Къубадин Гьукуматдин Театрда кIвалахай Ф.Регьимханова Азербайжандин драматургрикай Н.Везирован “Гьажи Къембер”, С.Регьманан “Бахтавар”, С.С.Ахундован “Суварин югъ” тамашайриз музыкаяр теснифнай. 1949-йисуз КцIариз хтай Ф.Регьимханова манияр теснифиз эгечIнай.



(1924-1999)

## FƏTULLAH RƏHİMXANOV

***Onun həyatı və yaradıcılığı doğma xalqına namuslu və əvəzsiz xidmətin nümunəsi idi. Onun mahnıları elləri dolaşırdı.***

Həyatını musiqiyə həsr etmiş, qiymətli əsərlər yaratmış Fətullah İbrahimxəlil oğlu Rəhimxanov 1924-cü ildə Qusar rayonunun Köhnə Xudat kəndində anadan olmuşdur. Onun babası Rəhimxan tanınmış sazəndə idi. Atası İbrahimxəlil isə tar, kamança və zurnada sənətkarlıqla çalardı. İbrahimxəlilin zeyxürlü Muradxan və bədirqalalı Səfərbəylə birgə yaratdığı trio o vaxtlar Qusarda məşhur idi.

Hələ uşaq ikən atasından tarda və kamançada çalmağı öyrənən Fətullah, orta məktəbi bitirib Quba pedtexnikumunda, sonradan Bakıda musiqi məktəbində oxumuşdur. F.Rəhimxanovun Qusarda yaratdığı musiqi kollektivlərinin sorağı uzaqlara yayılmışdı. Quba bölgəsində ilk dəfə xoru o yaratmışdır. Bu ikisəsli xor bir neçə dəfə Azərbaycan festivallarının laureatı olmuşdur.

1942-1949-cu illərdə A.Bakıxanov adına Quba Dövlət Dram Teatrında çalışan sənətkar görkəmli Azərbaycan yazıçıları N.B.Vəzirovun “Hacı Qənbər”, S.Rəhmanın “Xoşbəxtlər”, S.S.Axundovun “Bayram günü” tamaşalarına, Süleyman Stalski adına ləzgi

1960-йисуз Дагъустандин Композиторрин Союздин худсоветди адан 32 мани садни хкуд тавуна кьабулнай. Гьа чІавуз тІвар-ван авай сеняткар Спиранскийди лагьанай: “Ф.Регьимханова лезги музыкада цІийи мектеб арадиз гъана”. 1966-йисуз Бакудин “Азернешр” чапханади басмадай акъудай Ф.Регьимханован “Чуьнгуьрдин симер” тІвар алай ктабда сеняткардин лезги шаиррин чІалариз теснифнавай манияр гьатнава.

Дагъустандин радиодин фондуна композитордин цІудралди манияр ава. КцІарин музыкадин мектебдин, гьакІни лезгийрин СтІал Сулейманан тІварунихъ галай госмуздрамтеатрдин агалкьунрик Фетуллагь муаллимдини вичин пай кутунай. Ада лезги драматургрин 12 пьесадиз музыкаяр теснифнай. Азербайжандин сейли кхьираг М.Ибрагьимован “Хуьруьн руш” пьесадин лезги вариантдин авторни Ф.Регьимханов я. Ф.Регьимханова гьакІни халкьдивай 85 мани ва 22 кьуьлер нотдиз кхьена, чапдиз гьазурнай.

Уьмуьр дарвилера фейи, пуд жегьил хва квадарай композитордин 70-йисан юбилей 1994-йисуз КцІара кьиле фена кІанзавай. Ингье и кардиз манийвал авурбур хьана. Анжах сеняткардалди дамахзавай инсанри ам рикІелай алуднач. 1999-йисан 25-декабрдиз кхьираг - журналист Седакъет Керимовади Бакудин Гь.Сарабскийдин тІварунихъ галай медениятдин дараматда Фетуллагь Регьимханов рикІел хкай няни кьиле тухвана, ада регьбервал гузвай “Сувар” ансамблди Фетуллагь Регьимханован манияр тамамарна.

2000-йисуз Магьачкъалада кцІарви карчи Азад Пирсаидова туькІуьрай “Лезги халкьдин маниярни кьуьлдай макьамар” тІвар ганвай ктабда Готфрид Гьасанован, Мегьамед Гьуьсейнован, Мавлудин Хийирован манийрихъ галаз санал Фетуллагь Регьимханова арадал хкай 85 халкьдин мани ва 22 кьуьлдай макьамни гьатнава.



***Фетуллагь Регьимханов ва Лезги Нямет.***
***Fətullah Rəhimxanov və Ləzgi Nemət.***

dramteatrının onlarca tamaşasına musiqi yazmışdır. O, Azərbaycan yazıçısı M.İbrahimovun “Kəndçi qızı” pyesini ləzgi dilinə tərcümə etmişdir. 1949-cu ildə Qusara qayıdan F.Rəhimxanov uşaqlar üçün mahnılar yazmağa başlayır.

1960-cı ildə Dağıstan Bəstəkarlar İttifaqının bədii şurası onun 32 mahnısının hamısını qəbul edir. O vaxt adlı-sanlı sənətkar Spiranski demişdi: “F.Rəhimxanov ləzgi musiqisində yeni məktəb yaratdı”. 1966-cı ildə “Azərnəşr” F.Rəhimxanovun ləzgi şairlərinin sözlərinə bəstələdiyi mahnılardan ibarət “Sazın telləri” adlı kitabını çap edir. Dağıstan radiosunun qızıl fondunda bəstəkarın onlarca mahnısı saxlanılır.

Sənətkar bütün ömrü boyu Azərbaycanın ləzgi kəndlərindən xalq mahnıları və rəqslərini toplamaqla məşğul olmuşdur. Həyatı çətinliklər içində keçmiş, üç gənc oğlunu itirmiş bəstəkarın 1994-cü ildə 70 illik yubileyi təntənə ilə qeyd olunmalı idi. Lakin həmin dövrdə Qusara rəhbərlik edən məmurlar buna icazə vermədilər. Buna baxmayaraq, bəstəkarın xatirəsini əziz tutan ziyalılar onu yaddan çıxarmadılar.

Sənətkarın ölümündən bir il sonra jurnalist Sədaqət Kərimova Bakının H.Sarabski adına mədəniyyət sarayında Fətullah Rəhimxanovun həyat və yaradıcılığına həsr olunmuş xatirə gecəsi keçirmişdir. Onun rəhbərlik etdiyi “Suvar” ansamblı bəstəkarın dillər əzbəri olan bir sıra mahnılarını tamaşaçılara çatdırmışdır.

2000-ci ildə Mahaçqalada qusarlı iş adamı Azad Pirsəidovun tərtib etdiyi “Ləzgi xalq mahnıları və rəqs havaları” adlı kitab çapdan çıxmışdır. Həmin kitaba adlı-sanlı ləzgi bəstəkarları Qotfrid Həsənov, Məhəmməd Hüseynov və Mavludin Xiyirovun əsərləri ilə yanaşı, Fətullah Rəhimxanovun nota yazdığı 85 xalq mahnısı və 22 rəqs havası da daxil edilmişdir.

## ОМАР АЮБОВ

***Халкьдин музыкадик зурба пай кутунай Омар Аюбоваз “Дагъустан Республикадин халкьдин артист” гьуьрметдин тIвар ганай.***



*(1925-2005)*

Омар Абусалатан хва Аюбов 1925-йисуз КцIар райондин Агъа Лакаррин хуьре дидедиз хьана. ГъвечIи чIавалай чуьнгуьр ягъиз чирай Омаран сад лагьай муаллим адан ими Адигуьзел хьанай. Адан куьмекдалди тардив эгечIай Омара хуьруьн мектеб куьтягьна, механизаторвилин курсара кIелна. МТС-да тракториствиле кIвалахзавай, тар ягъиз, иер ванцелди манияр лугьузвай и жегьилдин суракьар вири райондиз чкIана. Райондин медениятдин кIвале кIвалахал акъвазай Омара хуьрера гайи концертар виридан рикIяй хьанай.

Садра концерт гуз Дагъустандин Мегьарамдхуьр райондиз фейи жегьилдин алакьунар акурла ам инай ахъай хъувунач, медениятдин кIвале кIвалахал кьабулна. Пуд йисуз ина солиствал авур гада 1951-йисуз Магьачкъаладин музучилищедик экечIна. 1955-йисуз инаг акьалтIарна, Дагъустандин гьукуматдин халкьдин инструментрин оркестрдин солиствиле кьабулай Омар гуьгъуьнлай концертмейстервиле тайинарнай. Ада гьакIни яргъал йисара музучилищеда тардай тарсар ганай. О.Аюбова цIудралди манияр, хор ва оркестр патал эсерар теснифнай.

О.Аюбова чара-чара тамашайриз кхьей макьамар иллаки халкьдин рикIяй хьанай. Етим Эминан, Алирза Саидован, Шагь-Эмир Мурадован, Байрам Салимован чIалариз тесниф авур манийри Омар Аюбов вири Дагъустандиз сейли авунай. Адан манийрикай “Фатима”, “Вуч хъсан я”, “Бахтавар”, “Дагъустан”, “Гуьзел”, хордин коллективар патал туькIуьрнавай “Ватан”, “Зуьрнедин ван”, “Цуькверин сувар” хьтин манияр халкьдин арада генани машгьур я. И манияр халкьдин руьгьдиз мукьвабур, везинлу ва рикIиз эсердайбур я. Алатай асирдин юкьвара абуру чи тIвар-ван авай маничийрин репертуарда кьилдин чка кьазвай, гьам автордиз, гьамни лугьузвайбуруз сейливал гъизвай.

1960-йисуз Омар Аюбоваз “Дагъустан Республикадин лайихлу артист”, 1970-йисуз “Дагъустан Республикадин халкьдин артист” хьтин гьуьрметдин тIварар гана.

## ÖMƏR ƏYYUBOV

***Xalq musiqisinin təbliğində böyük xidmətlərinə görə məşhur sənətkar Ömər Əyyubova “Dağıstan Respublikasının xalq artisti” fəxri adı verilmişdir.***

Ömər Abusalat oğlu Əyyubov 1925-ci ildə Qusar rayonunun Aşağı Ləgər kəndində anadan olmuşdur. Uşaqlıqdan saz çalıb mahnı oxumağa həvəs göstərən Ömərin ilk müəllimi onun əmisi Adıgözəl olmuşdur. Əmisinin köməyi ilə tar çalmağı öyrənən Ömər kənd yeddillik məktəbini bitirdikdən sonra mexanizatorluq kursunda oxumuşdur. MTS-də traktorçu işləyən, tar çalıb gözəl səslə mahnı oxuyan bu istedadlı gəncin sorağı tezliklə bütün rayona yayılır. Onu mədəniyyət evinə solist işləməyə dəvət edirlər. Tez-tez kəndlərə qastrol səfərlərinə gedən Ömər bir dəfə Dağıstanın Məhərrəmkənd rayonuna yola düşür. Onun səsinə heyran olan mədəniyyət evinin işçiləri konsertdən sonra Öməri buraxmırlar. Onların təklifi ilə mədəniyyət evində işə düzələn gənc 3 il buranın sevimlisinə çevrilir.

Ö.Əyyubov 1951-ci ildə Mahaçqala musiqi məktəbinə daxil olur. 1955-ci ildə buranı bitirib, Dağıstan Dövlət Teleradio Komitəsinin xalq çalğı alətləri orkestrində solist kimi fəaliyyətə başlayır. Sonradan o, konsertmeyster vəzifəsinə təyin olunur. Ömər eyni zamanda musiqi məktəbində tardan dərs deyir. O, mahnı yaradıcılığı ilə məşğul olmağı da unutmur.

Ö.Əyyubovun bir sıra mahnıları, xor və orkestr üçün bəstələdiyi əsərləri, müxtəlif tamaşalara yazdığı musiqi parçaları xalq arasında ona böyük şöhrət qazandırır. Bəstəkarın Yetim Eminin, Şah-Əmir Muradovun, Əlirza Səidovun, Bayram Səlimovun və başqa ləzgi şairlərinin sözlərinə bəstələdiyi mahnılar çox tez dillərə düşür. Bəstəkarın mahnılarından “Fatimə”, “Nə yaxşıdır”, “Bəxtəvər”, “Dağıstan”, “Gözəl”, xor kollektivləri üçün yazdığı “Vətən”, “Zurna səsi”, “Çiçək bayramı” kimi mahnıları məşhurdur. Bu mahnılar xalq ruhuna yaxın olması, melodiyalarının şirinliyi, ürəyəyatımlı olması ilə seçilirdi. Ötən əsrin ortalarında onlar adlı-sanlı müğənnilərin repertuarını bəzəyir, həm müəllifə, həm də ifaçılara tamaşaçı alqışları gətirirdi.

1960-cı ildə sənətkara “Dağıstan Respublikasının əməkdar artisti”, 1970-ci ildə “Dağıstan Respublikasının xalq artisti” adı verilib.

## ЭЖДЕР ГЕРЕЙХАНОВ

***Ада кцIарви таватЗейнабаз тесниф авур “Шад жеда гуьгьуьл” мани куьруь вахтунда халкьдин арада сейли хьанай.***



**(1920-1959)**

Вичин “Назлу жейран”, “Шад жеда гуьгьуьл” хьтин цIудралди манияр гзафбуруз халкьдин манияр хьиз чизвай Эждер Герейханов 1920-йисуз КцIара дидедиз хьана. Адан буба Элифхан тIвар-ван авай багъманчи тир. Элифхана кутур багълар вири КцIариз сейли тир. Шегьердин вини кьиле кутунвай и багълара ичин, чуьхверрин, пIинийрин, шефтелрин, машмашрин, жумарин, тутун цIудралди сортар авай. Йиса садра багъларин бегьер кIватIна, Урусатдин базарра маса гудай Элифхана. Гьавиляй зурба кIвал-югъни авай адахъ. Ингье Совет гьукуматди къахчуна адавай и багълар.

Мал-девлет гьиляй акъатай касди вичин аялрив кIелиз туна. Адан вад веледни зегьметдал рикI алайбур тир. Хизандин виридалайни гьвечIи велед тир Эждеран тардал рикI алай. Сятралди ягьидай ада тар. Гьавиляй юкьван мектеб акьалтIарай кумазни ам Бакудиз, сейли сеняткар Къурбан Пиримован кьилив фена. Жегьилдин алакьунар акур устадди адаз вичин сенятдин сирер чирна. Са йисалай Эждера тардал, кеменчидал ва кларнетдал устадвилелди ягъизвай. Адаз фад-фад межлисрик, мел-мехъерик эверзавай.

Къубадин Гьукуматдин Муаллимрин Институтда харусенятдин тарсар гузвай и умун къилихрин муаллимдин хатур вирибуруз пара кIандай. Рушариз лагьайтIа, адакай гзаф хуш къведай. Абурукай садал, яргъи, яцIу кифер авай лезги тават Зейнабал рикI ацукьай, адаз “Шад жеда гуьгьуьл” тIвар алай мани тесниф авур Эждера мехъер авуна, ам вичин кIвализ гъана. КцIариз хтай Эждера кинокассадин, промкомбинатдин ва гуьгъуьнлай медениятдин кIвалин директорвиле кIвалахна. Ада чпихъ алакьунар авай гзаф инсанар сенятдив агуднай. КцIарин медениятдин кIвале фад-фад кьиле тухудай лезги концертрани тамашайра Э.Герейханова мукьувай иштиракдай. И мярекатрал адан манияр рикI алаз лугьудай маничийри. Эждер Герейханов 39 йиса аваз рагьметдиз фена. А чIавалай гзаф йисар алатнаватIани, адан манияр халкьдин меце ама.

## ƏJDƏR GƏRƏYXANOV

***Onun Qusar gözəli Zeynəbə həsr etdiyi “Könül şad olur” mahnısı yaranan kimi, tez bir zamanda xalq arasında şöhrət qazanır.***

Xalq yaradıcılığı nümunələri kimi dillər əzbəri olan bir sıra mahnıların müəllifi Əjdər Gərəyxanovun “Nazlı ceyran”, “Könül şad olur” kimi mahnıları bu gün də sevilən musiqi əsərləridir. Əjdər 1920-ci ildə Qusarda anadan olmuşdur. Onun atası Əlifxan adlı-sanlı bağban idi. Vaxtilə şəhərin yuxarı hissəsində, indiki icra hakimiyyəti binasının yerləşdiyi ərazidə salınmış onun meyvə bağları Qusarda məşhur idi. Burada alma, armud, gilas, şaftalı, qaysı, heyva, tut və sair meyvələrin yüzdən artıq sortu yetişdirilirdi. İldə bir dəfə bağının məhsulunu Rusiyanın bazarlarına çıxaran Əlifxan dəbdəbəli ev-eşik düzəltmişdi. Lakin Sovet hökuməti onun bağını əlindən aldı.

İllərdən bəri halal zəhməti ilə qazandığı dövlətini bir gündə itirən bu zəhmətkeş adam dövrün nəbzini tutaraq, beş övladına ali təhsil verdi. Ailənin sonbeşiyi Əjdərin tara olan böyük məhəbbətini görən Əlifxan onu orta məktəbi bitirən kimi Bakıya, məşhur tarzən Qurban Pirimovun yanına apardı. Gəncin istedadını görən ustad ona sənətinin sirlərini öyrətdi. Bir ildən Əjdər tarda, kamançada və klarnetdə məharətlə çalırdı.

Quba Dövlət Müəllimlər İnstitutunda incəsənət dərsi deyən bu yaraşıqlı, mehriban xasiyyətli müəllim hamının sevimlisi idi. Onun bəstələyib oxuduğu “Könül şad olur” mahnısı dillər əzbəri olur və çox qızların ürəyini ovsunlayır. Lakin gənc müəllim uzun, qara hörükləri kürəklərində qıvrılan tələbəsinə - ləzgi gözəli Zeynəbə vurulur. Zeynəbin məhəbbətini qazanan Əjdər toy edib Qusara köçür. Burada kinokassanın, sənaye kombinatının və nəhayət, mədəniyyət evinin direktoru işləyir. Ə.Gərəyxanov onlarca istedadlı gənci sənət aləminə gətirir. O illərdə Qusar mədəniyyət evində tez-tez təşkil olunan konsertlərdə onun ifa etdiyi mahnılar tamaşaçıların gur alqışları ilə qarşılanırdı.

Əjdər Gərəyxanov 1959-cu ildə 39 yaşında vəfat edib. O vaxtdan uzun illər keçsə də, sənətkarın mahnıları xalqın yaddaşında yaşayır.

## СУЬЛГЬУЬЯТ ГЬАЖИЕВА

***Лезги манидин гъед, Дагъустандин халкьдин артист Суьлгьуьят Гьажиевади 100-далай виниз халкьдин манияр лугьузва.***

Суьлгьуьят Гьажиева 1947-йисуз КцIар райондин Вурварин хуьре дидедиз хьана. КцIарин интернатда кIелдайла Суьлгьуьятаз композитор Фетуллагь Регьимханова тарсар ганай. Рушан верцIи ванци вич гьейран авур сеняткар адахъ галаз кьилди машгъул хьана. Тар, кеменчи, далдам ягъиз чирай Суьлгьуьятан булах хьиз ргазвай ванци яб акалзавайбур чи халкьдин манийрин суьгьуьрда туна, ам шумудни са фестивалринни конкурсрин лауреат хьана.

1965-йисуз Бакуда Алишверишдин Техникумдиз гьахьай, ина мугъамчийрин "Къизилдин зул" фестивалдин лауреат хьайи руш Дербентдиз куьч хьана. Ина медени-маарифдин училищедиз гьахьай Суьлгьуьятан ванцин суракьар вириниз чкIана. И училище руша Магьачкъалада акьалтIарна. Пенсиядиз фейи Дагъустандин халкьдин артист - "Дагъустандин билбил" Рагьимат Гьажиевадин чкадал Дагъустандин радиодинни телевиденидин солиствиле кьабулун патал малумарай конкурсда Суьлгьуьята сад лагьай чка кьуна.

Гьа чIавалай Суьлгьуьята лугьузвай "Перизада", "Суна жан", "Пейкер баха", "Алагуьзлуь", "Билдир беневша", "Кай дилбер", "Магьи дилбер чан", "Лачинан хва", "Мулейли", "Шагьсенем", "Эслид мани", "Ширин-ширин", "Яраб зи яр вуж жедатIа", "Сифте муьгьуьббат", "Атанач вун" хьтин манийри рикIер аладарзава. Зейнал Гьажиева, Мегьамед Гьуьсейнова, Омар Аюбова, Асеф Мегьмана, Фетуллагь Регьимханова, Керимхан Бабаева ва маса композиторри ам патал шумудни са маният теснифна.

1973-йисуз Магьачкъаладай Дербентдиз куьч хьайи маничи хизандин, веледрин къайгъуда аваз 15 йисуз сегьнедивай къакъатна. 1986-йисалай сегьнедив эхгечIай Суьлгьуьят Гьажиевади чи сейли маничияр Айдунбег Камиловахъ ва Тарлан Мамедовахъ галаз санал туькIуьрай дуэтар халкьди хъсандиз кьабулна. Ада гьакIни Ашукь Нуьсретахъ галаз санал дастанар лагьана ва и карди кьве сеняткарни машгьурарна.

Дуьньядин шумудни са уьлкведа лезгийрин харусенят теблигь авур адаз "Дагъустан Республикадин



## SÜLHÜYƏT HACIYEVA

***Ləzgi mahnılarının bənzərsiz ifaçısı, Dağıstanın xalq artisti Sülhüyət Hacıyeva 100-dən çox xalq mahnısını ifa edir.***

Sülhüyət Hacıyeva 1947-ci ildə Qusar rayonunun Urva kəndində anadan olmuşdur. Qusar şəhər internat məktəbində oxuyarkən bu qızın istedadını duyan bəstəkar Fətullah Rəhimxanov ona ayrıca musiqi dərsləri keçmişdir. Tar, kamança və nağara çalmağı öyrənən Sülhüyətin bulaq kimi qaynayan səsi ona qulaq asanları məftun edir. O, Azərbaycanda məktəblilər arasında keçirilmiş bir neçə festivalın və müsabiqənin qalibi olmuşdur.

1965-ci ildə Bakı Ticarət Texnikumunun tələbəsi Sülhüyət Hacıyeva gənc muğam ifaçılarının "Qızıl payız" festivalının laureatı olmuşdur. Həmin il Dərbəndə köçən, burada mədəni-maarif texnikumuna daxil olan gənc ifaçının səsinin sorağı Azərbaycana və Dağıstana yayılır. Texnukumu gənc qız Mahaçqalada başa çatdırır. Burada o, təqaüdə çıxmış Dağıstanın xalq artisti, "Dağıstan bülbülü" Rəhimət Hacıyevanın yerinə solist keçmək üçün Dağıstan teleradio komitəsinin keçirdiyi müsabiqədə iştirak edir və birinci yeri tutur. O vaxtdan müğənninin şöhrəti hər yana yayılır. Mahaçqalaya köçən, burada işə düzələn müğənninin oxuduğu "Pərizada", "Suna can", "Peyker baxa", "Kay dilbər", "Mahi dilbər can", "Muleyli", "Şahsənəm", "Laçın oğlu" kimi mahnılar dillər əzbəri olur. Zeynal Hacıyev, Məhəmməd Hüseynov, Ömər Əyyubov, Asəf Mehman, Fətullah Rəhimxanov, Kərimxan Babayev kimi görkəmli bəstəkarlar ona mahnılar yazırlar. "Şirin-şirin", "Görən yarım kim olacaq", "İlk məhəbbət", "Sən gəlmədin" kimi mahnıları müğənniyə böyük şöhrət qazandırır. Sülhüyət özü bəstələdiyi mahnıları da ifa edir.

1973-cü ildə ailə qurub Mahaçqaladan Dərbəndə köçən sənətkar 15 il səhnədən uzaqlaşmalı olur. 1986-cı ildə səhnəyə qayıdan müğənni xalqın sevgisini yenidən qazanır. Onun görkəmli ləzgi müğənniləri Aydınbəy Kamilov və Tərlan Məmmədovla birlikdə ifa etdiyi duetlər, eləcə də Aşıq Nüsrətlə birgə ifa etdiyi dastanlar dildən-dilə düşərək, sənətkara şöhrət gətirir.

Dünyanın onlarca ölkəsində ləzgi mahnılarını təbliğ edən, "Dağıstan Respublikasının əməkdar artisti", "Rusiya Federasiyasının əməkdar incəsənət xadimi"

лайихлу артистка”, “Россиядин Федерациядин искусствойрин лайихлу кIвалахдар”, 2003-йисуз “Дагъустан Республикадин халкьдин артист” гьуьрметдин тIварар гана.

Гьа йисуз журналист Нариман Ибрагьимова Магьачкъалада сеняткардикай “Суьлгьуьята лугьузва мани” тIвар ганвай ктаб басмадай акъудна.

## АКБЕР ФЕРЗАЛИЕВ

***“Бехтияр” фильмда са гъвечIи роль тамамарай Акбер Ферзалиевакай гуьгъуьнлай Азербайжандин пешекар актер хьана.***

Къакьан буйдин, акунар авай, фасагьатлудаказ рахадай лезги жегьил а береда АПИ-дин II курсунин студент тир. Вичин хайибурал кьил чIугваз КцIар райондин ЦIуру Худат хуьруьз хтай Акбер Ферзалидин хва Ферзалиева Бакудай телеграмма къачунай. Адаз “Ргар ракъинин кIаник” тIвар алай фильмда кьилин роль теклифзавай. Гадади и теклиф кьабулна ва ам тадиз Бакудиз рекье гьатна. Духтур Айдынан роль чIехи бажарагъдалди тамамарай Акберал гуьгъуьнлай “Ам тахьурай, им хьурай” фильмда Узейир Гьажибегован образ яратмишун тапшурмишна. На лугьумир, Акбер и чIехи сеняткардиз ухшар тир кьван. И ролни хъсандиз тамамарай ам 1956-йисуз Ж.Жаббарлыдин тIварунихъ галай Азербайжандин Гьукуматдин Киностудиядиз кIвалахал кьабулнай. А.Ферзалиев цIудралди фильмра жуьреба-жуьре ролара къугъвана.

1957-йисуз Ташкентда кьиле фейи вирисоюздин



(1932-1999)



*ЦIийи филмдикай веревирдер* *Yeni filmin müzakirəsi*

adlarına layiq görülmüş Sülhüyət Hacıyevaya 2003-cü ildə “Dağıstan Respublikasının xalq artisti” fəxri adı verilmişdir.

Həmin il Dağıstanın tanınmış jurnalisti Nəriman İbrahimov Mahaçqalada ləzgicə sənətkarın həyat və yaradıcılığından bəhs edən “Sülhüyət mahnı oxuyur” adlı kitab çap etdirmişdir.

## ƏKBƏR FƏRZƏLİYEV

***1955-ci ildə “Bəxtiyar” filmində epizodik rolda çəkilən Əkbər Fərzəliyev sonralar Azərbaycanda peşəkar aktyor kimi tanındı.***

Ucaboy, yaraşıqlı, gözəl nitq qabiliyyətinə malik bu gənc APİ-nin II kursunda oxuyarkən ifa etdiyi ilk roldan diqqəti cəlb etdi. Qusarda, doğma kəndi Köhnə Xudatda yay tətilini keçirən zaman Əkbər Fərzəli oğlu Fərzəliyev Bakıdan teleqram aldı. Ona “Qızmar günəş altında” kinofilmində baş rol təklif olunurdu. Təklifi sevinclə qəbul edən Əkbər tez Bakıya yola düşdü. Həmin filmdə həkim Aydın rolunu ustalıqla oynayan Əkbər Fərzəliyev tezliklə kino ulduzu oldu. 1956-cı ildə C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasına işə düzəldi və 1961-ci ilə kimi burada bir-birindən maraqlı filmlərdə çəkildi. Ona “O olmasın, bu olsun” filmində Ü.Hacıbəyovun obrazını yaratmaq tapşırıldı. Sən demə, Əkbər zahirən Üzeyir bəyə çox bənzəyirmiş. Bu rolu sənətkarlıqla oynayan gənc peşəkarların diqqətini cəlb etdi.

1957-ci ildə Daşkənddə keçirilmiş ümumittifaq kinofilmləri festivalının laureatı olan Əkbərin şöhrəti hər yana yayıldı. 1959-cu ildə “Koroğlu” filmində Eyvaz rolunu məharətlə oynayan Ə.Fərzəliyevə “Ögey ana”, “Bizim küçə”, “Mollanın əhvalatları” filmlərində



*Акбер Ферзалиев “Короглу” филмда Эйвазан ролда.*
*Əkbər Fərzəliyev “Koroğlu” filmində Eyvaz rolunda.*

кинофилмрин фестивалдин лауреат хьайи Акберан суракьар вириниз чкIанай. 1959-йисуз “Корогълу” филмда Эйвазан ролунай А.Ферзалиев Азербайжандин кино сенятдал рикI алайбурун дамахдиз элкъвенай. Адал “Тахай диде”, “Чи куьче”, “Фекьидин кьилел атайбур” кинойра сад садалай марагълу роларни ихтибарнай.

А.Ферзалиеваз Мирзагъа Алиев, Сидкьи Ругъулла, Агъасадыкь Герайбейли, Мелик Дадашов, Барат Шекинская, Муьгъсуьн Сенани, Мерзия Давудова, Лейла Бедирбейли хьтин чIехи сеняткаррихъ галаз санал кIвалахун несиб хьанай. Ада гьакIни са шумуд йисуз цIудралди филмар дубляж авунин карда мукьувай иштиракнай.

Азербайжандин машгъур киноактер хьайила Акбер пуд аялдин буба тир. Ара датIана марагълу теклифар къачузвай Акбера я сенят кьуна кIанзавай, яни хизан. Ада кьвед лагьайди хкяна, 1961-йисуз КцIариз, вичин хизандин патав хтана.

1963-йисуз КцIара Лезги Театр кардик кутур А.Ферзалиева 1970-йисалди ана режиссорвиле, гуьгъуьнлай медениятдин кIвалин директорвиле кIвалахна. ЦIудралди тамашаяр сегьнедиз гьазурай ада “Яран буба” ва “Имам Шамил” драмайрин сценариярни кхьена.

А.Ферзалиева кхьей “Зи кинодин рикIел хкунар” публицистикадин ктаб 50-йисарин Азербайжандин кинодин тарихдин са чIук яз гьисабиз жеда. Кьвед лагьай вуз - Азербайжандин Гьукуматдин Университетдин юриствилин факультет акьалтIарай А.Ферзалиева 20 йисуз райпотребсоюздин юриствиле кIвалахна, гьанай пенсиядиз фена.



А.Ферзалиев “Ам тахьурай, им хьурай” фильмда У.Гьажибегован ролда.

Ə.Fərzəliyev “O olmasın, bu olsun” filmində Ü.Hacıbəyov rolunda.

bir-birindən maraqlı rollar tapşırıldı. Gənc aktyora Mirzağa Əliyev, Sidqi Ruhulla, Ağasadıq Gəraybəyli, Məlik Dadaşov, Barat Şəkinskaya, Möhsün Sənani, Mərziyyə Davudova, Leyla Bədirbəyli kimi böyük sənətkarlarla bir yerdə çalışmaq xoşbəxtliyi nəsib oldu. O, həmçinin onlarca filmin dublyajında yaxından iştirak etdi. O, kino ulduzuna çevriləndə üç övlad atası idi. Tez-tez maraqlı təkliflər alan Əkbər ya sənət dalınca getməli, ya da ailəsinə yaxın olmalı idi. O, ikinci yolu seçdi - Qusara, ailəsinin yanına köçdü.

1963-cü ildə Qusarda Ləzgi Dram Teatrı fəaliyyətə başlayır. Ə.Fərzəliyev səkkiz il burada rejissor, sonra isə mədəniyyət evinin direktoru vəzifəsində çalışır. Onlarca tamaşaya səhnə quruluşu verən Ə.Fərzəliyev “Yarımın atası” və “İmam Şamil” dramlarının ssenarilərini yazır.

Əkbər Fərzəliyevin qələmə aldığı “Mənim kino xatirələrim” publisistik əsərini 50-ci illər Azərbaycan kinosunun salnaməsi adlandırmaq olar. İkinci ixtisasa yiyələnərək, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirən Ə.Fərzəliyev 20 il fasiləsiz rayon kooperativlər ittifaqının hüquqşünası vəzifəsində çalışır və oradan pensiyaya çıxır.

## АЛИЯ РАМАЗАНОВА

***Кхьираг Ферида Лемана вичин “Сенятдин малаик” ктаб Алия Рамазановадин уьмуьрдин рекьиз талукьарнава.***



Кьулерин сенят девлетлу авур Алия Рамазановадин алакьунриз маэстро Ниязиди чIехи къимет ганай. Адан гафарикай руьгь акатай лезги руша 25 йисуз ара датIана инсанрин рикIериз эсердай кьуьлер авуналди тамашачияр вичихъ ялнай. Инсанри адаз сенятдин шагъурузатдиз хьиз икрам авунай.

Алия Аллагькъулудин руш Рамазанова 1941-йи-

## ALİYƏ RAMAZANOVA

***Yazıçı Fəridə Ləman özünün “Sənət mələyi” kitabını Aliyə Ramazanovanın ömür yoluna və yaradıcılığına həsr etmişdir.***

Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının konsertlərindən biri 1962-ci ilin yayında Qusar rayonunun Piral kəndində olub. Bir gün kəndə səs yayıldı ki, Şəmsibala Şıxbabayevin evinə Bakıdan rəqqaslar gəlib. Şəmsibalanın müharibədə həlak olmuş qardaşı Allahqulunun qızı Aliyə Ramazanova da onların arasındadır. Yaşıl çəmənlikdə Şəmsibalanın açdığı geniş süfrəyə az qala bütün kənd yı-

суз КцIар райондин Пиралрин хуьре дидедиз хьана. Ам аялзамаз кIевера гьатнай. Буба дяведиз рекье гьатайла, кIвале дидени кьуд гъвечIи руш амукьнай. Дяве кис тахьанмаз чIехи вах ва гуьгъуьнлай диде рагьметдиз фенай. Текдиз амай пуд вахакай чIехиди Аллагькъулудин стха Шемсибалади вичин кьилив хвена, муькуь кьве аял КцIарин детдомдиз гана. Кьисметди арха амачир вахар гьарад санихъ акъудна. Абур мад гьилера вад йисалай сад садал дуьшуьш хъхьана. Къуткъашендин детдомда авай Абиде вад йисалай вичин кьилив - Бакудин 11-детдомдиз гъиз гайи Алия мад вахавай къакъатнач.

Алия манийралнн кьуьлерал ашукь яз акур детдомдин директорди ам республикадин халкьдин артист Буьйуькагъа Мамедова регьбервал гузвай музыкадин коллективдиз ракъурна. Садра алакьунар авай аялрин суракьда аваз иниз атай машгьур сеняткарар Амина Дилбазидизни Алибаба Абдуллаеваз 16 йиса авай и иер ва викIегь лезги рушан кьуьлун акуна. Абуру Алиядиз Гьукуматдин Манидинни Кьуьлерин ансамблда кIвалахун теклиф авуна. Ина Алиядиз Солтан Гьажибегов ва Ниязи хьтин корифейрихъ галаз санал кIвалахун несиб хьана.



Ада яратмишай “Вагъзалы-Мирзейи”, “Терекеме”, “Лацу цуьк”, “Иннабы”, “Жейран”, “Назлана-назлана”, “Дагъларин гуьзел” хьтин кьуьлер рикIелай тефидайбур я. Адан чай цанвай стаканар кьуна ийизвай кьуьл иллаки машгьур тир. “Лезгинка”да соло кьуьлдайла Алиядив къведай кас авачир.

- И кьуьл заз рагьметлу Ниязиди чирнай, - лагьана Алияди. - Адаз Къафкъаздин кьуьлер патал хсуси “черкезка” авай ва ада ара-ара “Лезгинкадал” илигдай. Гадайрини рушари гьилеривни кIвачерив гьихьтин гьерекатар авуна кIан ятIа ада акьван хъсандиз чирдай хьи, чун пагь атIана амукьдай.

“Азербайжан тою”, “Новрузу”, “Уьч гьул”, “Узундере”, “Яллы” сюитайра Алиядин солояр къедалди инсанрин рикIел алама. Роза Жалилова, Туту Гьамидова, Афаг Меликова, Камил Дадашов, Къорхмаз Къурбанов, Рамиз Эйнуллаев хьтин сеняткаррихъ галаз санал кIвалахай, 25 йисуз Азербайжандин кьуьлер вири дуьньяда теблигъ авур Алия Рамазановадиз 1982-йисуз “Азербайжан Республикадин лайихлу артист” гьуьрметдин тIвар гана.

ğışdı. Qonaqlıqdan sonra konsert başlandı. Gözəl, şux rəqslər gecə yarısına kimi davam etdi.

Aliyə Ramazanova 1941-ci ildə Qusar rayonunun Piral kəndində anadan olub. Atası Böyük Vətən müharibəsinə yola düşəndə Aliyə körpə idi. Dörd yaşı tamam olanda onun böyük bacısı, sonra isə anası vəfat etdi. Bacısı Maralı əmisi Şəmsibala öz yanına apardı. Abidə ilə Aliyənin qismətinə isə ayrılıq düşdü. Qusardakı uşaq evində Aliyəni bacısından ayırıb Bakıdakı 11 saylı uşaq evinə göndərdilər. Qutqaşen uşaq evində böyüyən Abidəni Aliyənin beş illik səylərindən sonra Bakıya, onun yanına köçürdülər.

Aliyə iki il xalq artisti Böyükağa Məmmədovun rəhbərlik etdiyi Ehtiyat Əmək Qüvvələrinin özfəaliyyət kollektivində məşğul oldu. 1958-ci ildə respublikanın xalq artistləri Əminə Dilbazi və Əlibaba Abdullayev bu rəqs kollektivinin ifasında bir neçə rəqsə tamaşa edəndən sonra 16 yaşlı Aliyəni Dövlət Mahnı və Rəqs Ansamblına işə dəvət etdilər. Həmin andan başlayaraq, Əminə Dilbazi Aliyənin dayağı oldu. Aliyəyə Soltan Hacıbəyov, Niyazi kimi sənətkarlarla bir yerdə işləmək xoşbəxtliyi nəsib oldu.

Onun yaratdığı “Vağzalı-Mirzeyi”, “Tərəkəmə”, “Ağ çiçək”, “İnnabı”, “Ceyran”, “Qara tellər”, “Nazlana-nazlana”, “Dağlar gözəli” rəqsləri əsl sənət nümunələridir. 25 il çayla dolu stəkanlarla ifa etdiyi məşhur rəqsi zamanı bircə dəfə də olsun onları əlindən salmayıb.

“Azərbaycan toyu”, “Novruzu”, “Üç gül”, “Uzundərə”, “Yallı” kimi rəqslərdə onun solo ifaları bənzərsiz idi. Dağıstanlı həmkarlarının iştirakı ilə qoyulmuş “Ləzginka” rəqsində Aliyə xanımın solo ifası isə ona həmişə gurultulu alqışlar qazandırardı. “Azərbaycan”, “Vətən”, “Neftçilər” süitalarını və başqa rəqsləri o, əməkdar artistlər Roza Cəlilova, Tutu Həmidova, Nailə Mahmudova, Zemfira Həsənova, Afaq Məlikova, Qorxmaz Qurbanov, Kamil Dadaşov, Əlikram Aslanov, Rafiq Əzizi, Ramiz Məmmədov və başqaları ilə birgə yaradıb. Yüzdən artıq ölkədə Azərbaycan rəqs sənətini təbliğ etmiş Aliyə Ramazanovanın ifa etdiyi ərəb, hind, benqal, rus, gürcü, özbək, tacik rəqsləri tamaşaçılar tərəfindən sevilirdi. 25 illik səhnə həyatı yaşamış Aliyə Ramazanova 1982-ci ildə “Azərbaycan Respublikasının əməkdar artisti” fəxri adına layiq görülmüşdür.

## КЪЕНИ КЪЕНИЕВ



***Уьлкведиз сейли хьайи “Шагь дагъ” манийринни къуьлерин ансамбль алатай виш йисан къвед лагьай паюна мифдиз элкъвенай.***

Ичlехи коллективди КцIариз милли руьгь гъанай. Лезги фольклордал бинеламиш хьайи ансамблдин репертуардихъ цIудралди къуьлер, сюитаяр, хореографиядин сегьнеяр ва композицияр квай. Адан вири агалкьунар Къени Къениевахъ галаз алакъалу тир.

КцIарин Хуьлуьхъ хуьре дидедиз хьайи Къени Пирмурадан хва Къениев къве яшинда етим амукьнай. КцIарин детдомда 7-синиф акьалтIарна, Бакудин 4-нумрадин сенятдин мектебдиз ракъурай Къенидин викIегьдиз къуьлерун, четин элементар регьятвилелди кьилиз акъудун акур Азербайжандин сейли сеняткар Камил Дадашова ам вичи регьбервал гузвай ансамблдиз къабулна. Сенятдин мектебрин арада кьиле фейи конкурсда уфтан хьайи и жегьилдиз Бакудин Зегьметдин Игьтиятрин Жемиятдин ансамблдиз эверна. 1957-йисуз Къени вири дуьньядин жегьилрин ва студентрин фестивалдин лауреат хьана.

Кьилди ансамбль туькIуьрун теклиф къабулай Къени Бакудай КцIариз хтана. 1960-йисуз “Шагь дагъ” арадиз гъана. Гьам бажарагълу балетмейстер, гьамни алакьунар авай къуьлдайди хьиз сейли хьайи ада “Лезгинка”, “Кьегьалар”, “Къайтагъви”, “Дагъви руш” хьтин къуьлериз къурулуш гана.



*Къени Къениев вичи регьбервал гайи коллективдихъ галаз санал*
*Qəni Qəniyev rəhbərlik etdiyi kollektivlə birlikdə*

## QƏNİ QƏNİYEV

***Respublikamızda tanınmış, şöhrəti uzaqlara yayılmış “Şahdağ” mahnı və rəqs ansamblı XX əsrin ikinci yarısında canlı əfsanəyə dönmüşdü.***

Bu böyük kollektivin ifa etdiyi rəqslər itiliyi, cəldliyi, koloriti və incə yumoru ilə tamaşaçıların böyük rəğbətini qazanmışdı. Düz 10 il bu ansambl ləzgi folklor rəqsləri ilə Qusarın ab-havasına şuxluq və təravət gətirdi. Repertuarında onlarca milli rəqs, süita, xoreoqrafik səhnə və kompozisiya olan kollektivin bütün uğurları onun bədii rəhbəri, baletmeysteri və solisti olan Qəni Qəniyevin adı ilə bağlı idi.

Qusarın Xuluq kəndində anadan olmuş Qəniyev Qəni Pirmurad oğlu 2 yaşında yetim qalır. O, Qusar uşaq evində tərbiyə alır. 7-ci sinfi bitirib Bakıdakı 4 saylı sənət məktəbinə daxil olan yeniyetmənin rəqs etmək bacarığını, olduqca cəld hərəkətlərlə çətin elementləri ifa etdiyini görən tanınmış rəqqas Kamil Dadaşov onu rəhbərlik etdiyi rəqs qrupuna dəvət edir. Sənət məktəbləri arasında keçirilən rəqs müsabiqəsinin qalibi Qəni Qəniyevi Bakı Əmək Ehtiyatları Cəmiyyətinin ansamblına dəvət edirlər. 1957-ci ildə o, ümumdünya gənclər və tələbələr festivalının laureatı olur. Həmyerlilərindən Qusar rayonunda rəqs ansamblı yaratmaq təklifini alan Qəni doğma rayona qayıdıb, mədəniyyət evində “Şahdağ” adlı ansambl yaradır, bacarıqlı baletmeyster və istedadlı rəqqas kimi fəaliyyətə başlayır. Onun quruluş verdiyi “Ləzginka”, “İgidlər”, “Qaytağı”, “Dağlar qızı” kimi rəqslər hamının rəğbətini qazanır.

Onlarca rəqsə quruluş verən Qəni Qəniyev daim axtarışda idi. O, Dağıstanda kollektiv üçün səhnə geyimləri tikdirir. Qəninin təşəbbüsü ilə Dağıstanın məşhur “Ləzginka” ansamblının solisti Camaləddin Camaləddinov 9 aylığa Qusara dəvət olunur, kollektiv üçün yeni rəqslər hazırlayır. Azərbaycanlı rəqqas Arif Məmmədov da “Şahdağ”ın repertuarının zənginləşməsi üçün çalışır. Ansamblın çıxışları kənd klublarından tutmuş, paytaxtdakı konsert zallarına kimi hər yerdə gurultulu alqışlarla qarşılanırdı. Hacəli Əhmədov, Dodik Şəlmiyev, Qənfət Həzərova, Mafər Bağışov, Təhminə Bağırova kimi solistlər yüksək peşəkarlıq nümayiş etdirirdilər. Lakin ən çox sevilən Qəni Qəniyev idi. Onun odlu-alovlu rəqsləri hamını heyrətə gətirirdi.

Ада цӀудралди цӀийи къуьлер арадиз гъана, коллектив патал сегьнедин пекер цуз туна, сегьнедиз герек затӀар жагъурна. Къ.Къениеван теклифдалди Дагъустандин машгъур "Лезгинка" ансамблдин солист Жамалуддин Жамалуддинова кӀуьд вацра КцӀара коллектив патал цийи къуьлер гъазурнай. Гуьгъуьнлай азербайжанви сеняткар Ариф Мамедовани Къенидин тӀалабуналди ина цӀийи къурулушар гъазурнай.

Ансамблди республикадин районра, Бакуда зурба концертар ганай. Гъажали Агьмедов, Додик Шелмиев, Къенфет Гьезерова, Мафер Багъишов, Тегьмине Багьирова хьтин солистри ансамблдин сейливал артухарнай. Къени Къениеван цӀайни ялав квай къуьлери иллаки вири гьейранарзавай.

1967-йисуз Москвада кьиле фейи Вирисоюздин фестивалдин лауреат хьайи "Шагь дагъ"ди Кремлда гайи концерт виридан рикӀяй хьанай. ЦӀуд йисуз ара датӀана агалкьунар къазанмишай "Шагь дагъ" халкьдин медениятдал, харусенятдал ашукь тир са хуьруьнви гадади - Къени Къениева яратмишнай.



1967-ci ildə özfəaliyyət kollektivlərinin Moskvada keçirilmiş Ümumittifaq festivalının laureatı olan "Şahdağ" Kremlin Qurultaylar Sarayında keçirilmiş yekun konsertindəki çıxışı ilə sənətsevərlərin rəğbətini qazanır.

10 il fəaliyyət göstərmiş "Şahdağ" canlı əfsanə idi. Bu əfsanəni isə xalqının mədəniyyətinə, incəsənətinə ürəkdən vurğun olan sadə bir kəndli balası - Qəni Qəniyev yaratmışdı.

## ИМАМАЛИ ИЛЯСОВ

***Вичин уьмуьрдин 60 йис сегьнедиз бахш авур Имамали Илясов маничини, макьамчини, актерни тир.***



Имамали Керемалидин хва Илясов 1927-йисуз КцӀар райондин Хьилерин хуьре дидедиз хьана. Ада гьеле гъвечӀизмаз чуьнгуьрдал, гуьгъуьнлай тардалягъиз чирнай. 1946-йисуз И.Илясов райондин медениятдин кӀвалин художественный руководителвиле тайинарна. А йисара Агьад Абдуллаевани Саатханума лугъузвай лезгийрин халкьдин манийри вирибурук руьгь кутазвай. Агъа лакарви Омар Аюбовани тардал ягъиз везинлу ванцелди манияр лугьузвай. Ихьтин сеняткарар санал кӀватӀна, абурун концертар тешкил авур Имамалидин вичин алакьунар лагьайтӀа, генани зурбади тир. Ада чуьнгуьрдални тардал ягъиз, манияр лугьунилай гьейри, актервал ийиз, роларни тамамарзавай. Вичихъ кьакьан ван авай Имамалиди манияр микрофон галачиз лугъудай.

ЦӀийи коллективдин суракьар райондин хуьрерай, Азербайжандинни Дагъустандин шегьеррай къвезвай. 1948-йисуз и коллектив Советрин уьлкве-

## İMAMƏLİ İLYASOV

***Ömrünün 60 ilini səhnəyə həsr etmiş İmaməli İlyasov həm müğənni, həm çalğıçı, həm də aktyor idi.***

İmaməli Kərəməli oğlu İlyasov 1927-ci ildə Qusar rayonunun Hil kəndində anadan olmuşdur. Uşaqlıqdan saz çalmağı öyrənmiş İmaməli sonradan tar çalıb, gözəl səsiylə ləzgi xalq mahnılarını ifa etmişdir. 1946-cı ildə onu Qusar rayon mədəniyyət evinə bədii rəhbər təyin edirlər. O vaxtlar Əhəd Abdullayevin və Saatxanımın oxuduğu ləzgi xalq mahnıları, eləcə də Aşağı Ləgər kəndindən olan Ömər Əyyubovun (sonralar ona "Dağıstan Respublikasının xalq artisti" fəxri adı verildi) tar çalıb oxuduğu mahnılar dillər əzbəri olmuşdu. Belə ifaçıları bir truppaya cəlb edib, onların konsertlərini təşkil edən İ.İlyasovun səyləri nəticəsiz qalmadı. Tezliklə kollektivin sorağı rayonun kəndlərinə, Azərbaycanın və Dağıstanın şəhərlərinə yayıldı. Tamaşaçılar ən çox İmaməli İlyasovu alqışlayırdılar. O, tar, saz çalıb mahnı oxumaqdan əlavə məzhəkəçi kimi də çıxış edirdi. Yüksək tembrli səsə malik İmaməli mahnı oxuyanda heç vaxt mikrofondan istifadə etmirdi.

дин харусенятдин фестивалдин лауреат хьана. 1967-йисуз коллективди Азербайжандин хуьруьн художественный коллективрин I фестивалда I чка кьуна.

1978-йисуз И.Илясова Хиле “Мел” тIвар ганвай фольклордин коллектив арадал гъана. Чи халкьдин маниярни кьуьлер теблигъ авур и коллективди са шумудра республикадин ва Советрин уьлкведин фестивалрин лауреатвилин тIвар къазанмишна. КцIарин Гьукуматдин Лезги Драмтеатрдин сегьнедал цIудралди ролар тамамарай Имамали Илясов кцIарвийрин рикI алай сеняткар я.



*Имамали Илясов ва Ираeт Алиева Магьсулдин суварин концертда. 1970.*
*İmaməli İlyasov və İrayət Əliyeva Məhsul bayramına həsr olunmuş konsertdə. 1970.*

1948-ci ildə Ümumittifaq incəsənət festivalının laureatı adına layiq görülən kollektiv 1967-ci ildə kənd bədii özfəaliyyət kollektivlərinin I Respublika festivalının qalibi adını qazandı.

1978-ci ildə İ.İlyasovun rəhbərliyi ilə Hildə “Mel” folklor kollektivi yaradıldı. Ləzgi xalq mahnı və rəqslərini ifa edən ansambl bir neçə dəfə respublika və Ümumittifaq festivallarının iştirakçısı olur. Qusar Dövlət Ləzgi Dram Teatrının səhnəsində onlarca rol ifa etmiş İmaməli İlyasov xalqın sevdiyi sənətkardır.

## НОРА АЛИМОВА

***“Ша булахдал” мани къедалди кцIарвийрин рикIел “Норадин мани” хьиз алама. Норадихъ лезги манияр кIанардай алакьунар авай.***



Ада сегьнедал акробатдин хьиз векьи гьерекатар ийидай, кьуьлдай, мани лугьудай. Эльза Бакинская хьиз сейли тир и яргунви рушан асул тIварни фамилия Нора Алимова тир. Аял чIавалай сенятдихъ ялай, лезги кьуьлерин, манийрин дад, дидед чIалан тIям ара датIана кцIарвийрив агакьариз алахъай Норади хупI хъсандиз лугьудай лезги манияр, инсандин рикI хъуьтуьлардай адан верцIи ванци. 50 йисуз КцIар райондин медениятдин кIвалин, лезги халкьдин театрдин солистка хьана ам.

1960-йисуз сифте яз Бакуда музыкадин коллективрин республикадин конкурсда “Кьасумхуьр” мани лагьай Эльза Бакинская 1962-йисуз республикадин фестивалдин лауреат хьанай. “КIараб галачир Норади” гьилера стаканар аваз, кьил чилик галукьариз “муьгъ” туькIуьрайла, лезгийрин виридалайни хъсан манийрикай тир “Ша булахдал” лугьудайла вири пагь атIана амукьдай. И мани къедалди виридан рикIел “Норадин мани” хьиз алама.

## NORA ƏLİMOVA

***“Bulağa gəl” mahnısı indiyə kimi qusarlıların yaddaşına “Noranın mahnısı” kimi həkk olunub. Norada ləzgi xalq mahnılarını sevdirmək istedadı var idi.***

O, səhnədə mürəkkəb akrobatik hərəkətlər nümayiş etdirir, rəqs edir, mahnı oxuyurdu. İfa etdiyi ləzgi xalq mahnıları ilə ürəkləri fəth edən Elza Bakinskayanın əsl adı və familiyası Nora Əlimova idi. İlk dəfə Bakıda “Qasımkənd” mahnısı ilə bədii özfəaliyyət kollektivlərinin respublika baxışında çıxış edən Noranın 60-cı illərdə ifa etdiyi mahnı və rəqslər ona tamaşaçı rəğbəti qazandırmışdı.

1962-ci ildə Nora “Çiçəklən, doğma Azərbaycan” festivalının laureatı olmuşdur. Qusar rayonunun Həzrə kəndində anadan olmuş bu qız yeniyetmə çağlarından taleyini səhnə ilə bağlamış, Qusar rayon mədəniyyət evinin, ləzgi xalq teatrının solisti kimi 50 il fasiləsiz çalışmışdır.

“Sümüksüz Nora” əllərində çay dolu stəkanlar tutaraq canlı körpüyə çevriləndə, “Bulağa gəl” mahnısını ifa edəndə zal gurultulu alqışlara qərq olurdu. İndiyə kimi həmin mahnı xalqın yaddaşına “Noranın mahnısı” kimi həkk olunub.

## ЗЕЙНАЛ ЖИГЕРХАНОВ



***Къафкъаздин къуьлерал рикI алай, 25 йисуз сенятдин шегьреда хьайи Зейнал Жигерханова жегьилриз и сенятдин сирер чирзава.***

Азербайжандин тIвар-ван авай къуьлунин устIар Зейнал Хушметан хва Жигерханов 1962-йисуз КцIар райондин ЭчIехуьре дидедиз хьана. Бакудин 191-нумрадин юкьван мектебда кIелдай вахтунда машгьур "Жуьжелерим" ансамблдин солист хьиз Закавказьедин фестивалдин лауреат хьайи З.Жигерханов Бакудин Хореографиядин Мектеб акьалтIарайдалай гуьгъуьниз, 1980-1993-йисара М.Магомаеван тIварунихъ галай Азербайжандин Гьукуматдин Филармониядин Къуьлерин Ансамблдик экечIна.

1993-2004-йисара З.Жигерханова Азербайжандин Гьукуматдин Къуьлерин ансамблда кIвалахна. Дуьньядин 30-далай гзаф уьлкведиз чи республика сейли авур сеняткарди гила вичин сенят жегьилриз чирзава.

Алай вахтунда Азербайжандин Гьукуматдин НафтIадин Компанидин А.Искендерован тIварунихъ галай медениятдин дараматдин "Гуьнай" ансамблдиз регьбервал гузвай Зейнал Жигерханов 2003-йисалай "Сувар" Лезги Манийринни Къуьлерин ансамблдин хореограф я.



*Зейнал Жигерханова республикадин халкьдин артист Жемила Байрамовадихъ галаз санал къуьлзава.*
*Zeynal Cigərxanov respublikanın xalq artisti Cəmilə Bayramova ilə rəqs edərkən.*

## ZEYNAL CİGƏRXANOV

***Qafqaz rəqslərinin vurğunu olan, 25 il rəqs sənətinin zirvəsində olan Zeynal Cigərxanov incəsənətin bu növünün sirlərini gənclərə öyrədir.***

Azərbaycanın adlı-sanlı rəqqası Zeynal Xoşmət oğlu Cigərxanov 1962-ci ildə Qusar rayonunun Əcəxür kəndində anadan olmuşdur. İstedadı ilə seçilən Zeynal Bakıdakı 191 saylı orta məktəbdə oxuyarkən Y.Qaqarin adına pionerlər evinin "Cücələrim" ansamblının solisti kimi Zaqafqaziya rəqs festivalının laureatı olmuşdur.

Bakı Xoreoqrafiya Məktəbini bitirdikdən sonra 1980-1993-cü illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Rəqs Ansamblına göndərilmiş, uzun illər burada peşəkar rəqqas kimi fəaliyyət göstərmişdir.

1993-2004-cü illərdə Azərbaycan Dövlət Rəqs Ansamblının solisti olmuşdur. Həmin müddət ərzində Azərbaycanın rəqs sənətini respublikamızda və onun hüdudlarından uzaqlarda - qastrol səfərlərində olduğu dünyanın 30-dan çox ölkəsində layiqincə təbliğ etmişdir.

ARDNŞ-nin A.İskəndərov adına mədəniyyət sarayındakı "Günay" rəqs ansamblının rəhbəri olan Z.Cigərxanov 2003-cü ildən etibarən "Suvar" Ləzgi Mahnı və Rəqs Ansamblının xoreoqrafı kimi də çalışır.



*З.Жигерханов "Сувар" къуьлерин мектебда.*
*Z.Cigərxanov "Suvar" rəqs məktəbində məşq zamanı.*

## ЗАГЪИР МУСТАФАЕВ



***1989-йисуз арадиз гъайи КцIарин "Трилло" фольклордин ансамбль куьруь вахтунда вири республикадиз сейли хьана.***

Лезгийрин ацукьун-къарагъун, меденият, адетар теблигъзавай и коллектив райондин харусенятдин мектебдин муаллимрикай тешкилнавай. Ансамблдиз мектебдин директор Загъир Мустафаева регьбервал гузвай. Са йисалай "Триллодиз" "халкьдин коллектив" тIвар гана. Адан уьмуьр пуд йис хьанатIани, къедалди хъсан суракьар ама.

Загъир Жебраилан хва Мустафаев 1959-йисуз КцIарин ЦIалагур хуьре дидедиз хьана. Ада шегьердин 1-нумрадин юкьван мектеб акьалтIарна Перм шегьердин музыкадин техникумда, гуьгъуьнлай Азербайжандин Гьукуматдин Консерваториядин нефесдин алатрин факультетда кIелна. 10 йисуз КцIарин Харусенятдин Мектебда муаллимвал авур ада 1986-2005-йисара аниз регьбервал гана. Адан алахъунар себеб яз гьа йисара харусенятдал рикI алай гзаф жегьилар техникумрикни институтрик экечIна, мектеб чкадин кадрийралди таъмин хьана.

2005-2007-йисара райондин медениятдинни туризмдин отделдиз регьбервал гайи Загъир Мустафаев 2008-йисалай райондин ктабханайрин системадин директор я. Алай вахтунда ктабрин фонд гегьеншарнава, ктабханайрин система компьютерралди таъминарнава, веб сайт кардик кутунва, электрон ктабхана туькIуьрнава. Райондин 20 хуьруьн ктабхана девирдив кьадай цIийи дараматриз куьчарнава. Вичин агалкьунрай ктабханайрин система 2011-йисан 1-январдилай мажибар тайинарнавай IV группадилай III группадал элячIнава.

## ЛЕЗГИ ОКТАЙ

***Яргъал йисара лезги мел-мехъеррин дамахдиз элкъвей "Чи хуьруьн иер рушар" манидин чIалар ва аваз теснифайди Лезги Октай я.***

Са береда Азербайжанда, Дагъустанда, Юкьван Азиядин республикайра виридурун рикI алай манидиз элкъвей "Жемила къызым" манидин авторни Лезги Октай я. Адан "Бакы" мани халкьдин меце эзбер тир. И манияр ада акьван устадви-

## ZAHİR MUSTAFAYEV

***1989-cu ildə yaradılmış Qusarın "Trillo" folklor ansamblı çıxışları ilə qısa müddət ərzində bütün respublikada şöhrət qazandı.***

Ləzgi adət-ənənələrinin təbliği ilə məşğul olan bu kollektiv rayon incəsənət məktəbinin müəllimlərindən təşkil olunmuşdu. Ansamblın rəhbəri məktəbin direktoru Zahir Mustafayev idi. Bir il sonra qazandığı uğurlara görə "Trillo"ya "xalq kollektivi" adı verildi. Ansamblın ömrü cəmi üç il olsa da, indiyədək onun xoş sorağı eşidilir.

Zahir Cəbrayıl oğlu Mustafayev 1959-cu ildə Qusar rayonunun Çiləgir kəndində anadan olmuşdur. Qusar şəhər 1 saylı orta məktəbini bitirib, Perm şəhərində musiqi texnikumunda, sonradan isə Azərbaycan Dövlət Konservatoriyasının nəfəs alətləri fakültəsində təhsil almışdır. 10 il rayon incəsənət məktəbinin müəllimi işləmiş Z.Mustafayev 1986-2003-cü illərdə həmin məktəbə rəhbərlik etmişdir. O, istedadlı gənclərin orta və ali musiqi ixtisası qazanmalarına, məktəbin yerli kadrlarla təmin olunmasına nail olmuşdur.

2005-2007-ci illərdə rayon mədəniyyət və turizm şöbəsinin müdiri vəzifəsində çalışmış Z.Mustafayev 2008-ci ildən Qusar Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktorudur. Onun səyləri nəticəsində rayonun 20 kənd kitabxanası yeni və daha müasir binalara köçürülmüş, kitab fondu zənginləşmiş, mərkəzi kitabxana kompüterləşdirilmiş, onun veb saytı açılmış, elektron kitabxanası yaradılmışdır. Əsas göstəricələrə görə Qusar rayon mərkəzi kitabxana sistemi 2011-ci ilin yanvarın 1-dən əməyin ödənilməsinin IV qrupundan III qrupuna yüksəlmişdir.

## LƏZGİ OQTAY

***Uzun illər ləzgi toylarının yaraşığı olmuş "Kəndimizin gözəl qızları" mahnısının müəllifinin Ləzgi Oqtay olduğunu çoxu bilmir.***

Bir vaxtlar Azərbaycanda, Dağıstanda, Orta Asiya respublikalarında məşhur olan "Cəmilə qızım" mahnısının müəllifi də Ləzgi Oqtaydır. Onun "Bakı" mahnısı da dillər əzbəri idi. Bu mahnı-



ледди теснифнава хьи, яб акалдайбуру къедалди абур халкьдин манийрай гьисабзава.

Октай Селимханан хва Агьмедован бубаяр КцIар райондин Хьилерин хуьряй я. Вичихъ кьакьан, везинлу ван авай Октай са береда Бакудин межлисрин абур тир. Иллаки вичин манияр чешнелудиз лугьудай Октая. 1992-йисуз 37 яшинда аваз месе гьатай жегьилдин ван садлагьана квахьна. Гьа чIавалай яратмишунрикай яргъал хьайи шаир-композиторди вич начагь ятIани “Хьилерин багълар”, “Зи хайи хуьр” хьтин манияр теснифнай. О.Агьмедов са шумуд йис идалай вилик рагьметдиз фена.

## ФИЗЕММЕД КУРУГЪЛИЕВ

Алатай асирдин 50-йисарилай кьил кутуна КцIара са мел-мехъерни Физеммед Куругълиев галачиз кьиле фидачир. Ада тардал, чIагъандал, гьакIни далдамдал устадвилелди ягьидай. Ядуллагь Шейдаева адаз “Яб це, тар” тIвар алай шиирни тесниф авунай. КIетIейрал лагьайтIа ада хьиз садавайни ягъиз жедачир. “Лезгинка” макьамдин цIудалай гзаф вариантар устадвилелди тамамардай ада, вичини гьаваяр теснифдай.

Гила халкьдин манияр хьиз сейли тир са шумуд манидин авторни Физеммед Куругълиев я. Ихьтин манийрикай сад “Тайгъун” я. КцIар райондин Манкъулидхуьряй тир стахановчи Тайгъун Къайибалидин руш Къайибалиевадиз халкьди са шумуд мани теснифнай. Физеммед Куругълиева теснифайди лагьайтIа, вини дережадинди я. Гьавиляй къедалди ам халкьдин меце ама. Гьуьгъуьнлай Фетуллагь Регьимханова “Тайгъун” мани нотдиз куьчарнай.

ları o, elə ustalıqla yaratmışdır ki, çoxları onları xalq mahnısı hesab edir.

Oqtay Səlimxan oğlu Əhmədov əslən Qusar rayonunun Hil kəndindəndir. Məlahətli səsi olan bu gənc bir vaxtlar Bakı toylarının yaraşığı idi. Ələlxüsus bəstəsi özünə məxsus olan mahnıları böyük şövqlə ifa edirdi. 1992-ci ildə 37 yaşında ikən yatağa düşən gəncin səsi birdən-birə batır. O vaxtdan yataq xəstəsinə çevrilən Oqtay arada yeni mahnılar da bəstələyirdi. Onun “Hilin bağları”, “Mənim doğma kəndim” kimi mahnıları xalq arasında məşhurdur.

Oqtay Əhmədov bir neçə il əvvəl dünyasını dəyişmişdir.

## FİZƏMMƏD KOROĞLUYEV

Ötən əsrin 50-ci illərindən etibarən Qusarda toylar, şadlıq məclisləri Fizəmməd Koroğluyevsiz keçməyib. O, tarda, qarmonda və nağarada məharətlə çalırdı. Musiqiçinin istedadına heyran olan yazıçı Yadulla Şeydayev F.Koroğluyevə “Dinlə, tarım” şerini həsr etmişdi. Çubuqlarla nağara çalanda isə ona çatan olmazdı. Bu sənətkar təkcə “Ləzginka” havasının ona yaxın variantını ifa edərdi. O, özü də musiqi bəstələyirdi.

İndi xalq havaları kimi məşhur olan bir neçə melodiyanın müəllifi F.Koroğluyevdir. El arasında məşhur olan belə mahnılardan biri “Tayğun”dur. Qusar rayonunun İmamqulukənd sakini, staxanovçu Tayğun Qayıbəli qızı Qayıbəliyevaya şairlər şeirlər ithaf etmiş, aşıqlar mahnılar qoşmuşlar. Onların arasında ən çox seviləni isə F.Koroğluyevin “Tayğun” mahnısıdır. Sonralar qusarlı bəstəkar Fətullah Rəhimxanov həmin mahnını nota köçürmüşdür.







*Бакуда жегьилрин декадада кцIарвийри чпин алакьунар къалурзава. 1960.*
*Bakıda gənclər dekadasında qusarlılar öz istedadlarını göstərirlər. 1960.*

## “ШАГЬ ДАГЪ”

***1984-йисуз КцIара сад лагьай ВИА “Шагь дагъ” арадал атана. Адаз Видади Зуьлфикъарова регьбервал гузвай.***

КцIар райондин ГуьндуьзкIеле хуьре 1959-йисуз дидедиз хьайи, Магьачкъаладин музыкадин училище акьалтIарай Видади Низамидин хва Зуьлфикъарова чпихъ музыкадин алакьунар авай жегьилар санал кIватIна, КцIарин медениятдин дараматда 1984-йисуз ансамбль туькIуьрна. Къаят Зуьлфикъарова (чIехи далдамар), Шагьнезер Мирзабегова (орган), Тешкил Бухсаева (гитара), Финяз Гьажиметова (бас гитара) ва Видади Зуьлфикъарова (кларнет) чи музыкадиз цIийи нефес гьана. Вич Кьиблепатан Дагъустандин КьепIир хуьряй тир, Дербентдин музыкадин училище куьтягьай Лариса Абдулхаликьан руш Межидовади рикI хъуьтуьлардай везинлу ванцелди лагьай манияр халкьдин меце гьатна. Абурукай Видади Зуьлфикъарова тесниф авур “Чина мехъер сувар я”, “Гьажи Давуд”, “Булахдал”, “Къавумар” ва маса манияр къалуриз жеда. 1987-йисуз ансамбль СССР-дин халкьдин яратмишунрин фестивалдин лауреат хьана.

1988-йисуз “Шагь дагъ” Бакуда кьиле фейи Польшадин манийрин фестивалдин иштиракчи хьана. Гьа йисуз ансамблдиз “халкьдин коллектив” тIвар гана. 1989-йисуз “Шагь дагъ”ди КцIара кьиле фейи Азербайжандинни Дагъустандин халкьарин “Дуствал” фестивалда I чка кьуна. 1991-йисуз ансамбль Дагъустанда кьиле фейи “Лезгистандин авазар” фестивалдин



## “ŞAHDAĞ”

***1984-cü ildə Qusar rayonunda “Şahdağ” adlı ilk vokal-instrumental ansambl yarandı. Ona bəstəkar Vidadi Zülfiqarov rəhbərlik edirdi.***

Qusar rayonunun Gündüzqala kəndində 1959-cu ildə anadan olmuş, Mahaçqalada musiqi məktəbini bitirmiş Vidadi Nizami oğlu Zülfiqarov istedadlı gəncləri ətrafına toplayaraq, Qusar şəhər mədəniyyət evində yaxşı bir kollektiv ərsəyə gətirdi. Qayət Zülfiqarov (zərb), Şahnəzər Mirzəbəyov (orqan), Təşkil Buxsayev (gitara), Finyaz Hacımətov (bas gitara) və ansamblın bədii rəhbəri Vidadi Zülfiqarov (klarnet) ləzgi musiqisinə yeni nəfəs gətirdilər.

Dağıstanın məşhur Qepir kəndində doğulmuş, Dərbənd musiqi məktəbini bitirmiş Larisa Abdulxaliq qızı Məcidova məlahətli səslə ifa etdiyi mahnıları ilə xalqın məhəbbətini qazandı. Onun ifasında V.Zülfiqarovun “Bizdə toy - bayramdır”, “Hacı Davud”, “Qohumlar”, “Bulaqda” və sair mahnılar dildən-dilə düşdü.

1987-ci ildə “Şahdağ” SSRİ xalqlarının xalq yaradıcılığı festivalının laureatı oldu. 1988-ci ildə Bakıda keçirilmiş Polşa mahnı festivalında uğurla çıxış edən VİA musiqisevərlərin rəğbətini qazandı. Həmin il ansambla “xalq kollektivi” adı verildi. 1989-cu ildə kollektiv Qusarda keçirilmiş Azərbaycan və Dağıstan xalqlarının “Dostluq” festivalında I yeri tutdu. 1991-ci ildə ansambl Dağıstanda keçirilmiş “Ləzgistanın avazları” festivalının laureatı oldu. Kollek-



лауреат хьана. И тIварцIиз коллектив В.Зуьлфикъарова Фейзудин Нагъиеван гафариз тесниф авур “Лезги халкь” манидай лайихлу хьанай. В.Зуьлфикъаров 100-далай гзаф манидин автор я. Адан 10 мани Дагъустандин Телерадио Комитетдин фондуна гьатнава.

## НОВИДДИН ЖИГАРОВ

***Вириниз Нуьви тIварцIелди сейли тир Новиддин Жигарова 100-далай гзаф лезги халкьдин макьамар ягъизва.***



Новиддин Фейзидин хва Жигаров 1948-йисуз КцIар райондин ТIигьиррин хуьре дидедиз хьана. Адан чIехи буба Къубат вичихъ алакьунар авай зуьрнечи тир. Буба Фейзи Яргун дередин хуьрера мехъерар хъсандиз тухудай сеняткар хьиз машгьур хьанай. Ада зилчи Бегахъ ва далдамчи Энверахъ галаз санал 100-далай гзаф халкьдин гьаваяр ядай. Вичихъ чIехи алакьунар авай Новиддин 12 йиса аваз сенятдив эгечIна. 14 яшинда ада мехъерар тухузвай. 1963-йисуз ТIигьиррин хуьруьн мектебдин 8-синифда кIелзавай Н.Жигарова республикадин фольклордин фестивалда сад лагьай чка кьунай. Юкьван мектебда тафаватлувилелди кIелай, иллаки физикадин ва математикадин тарсарай кIвенкIвечи тир Новиддина вичин рикIин тIалабуналди харусенятдин рехъ хкяна. Магьачкъаладин Медениятдинни Маарифдин Техникум акьалтIарай ада КцIар райондин Самур поселокдин клубдиз регьбервал гана, гуьгъуьнлай райондин халкьдин яратмишунрин кIвале кIвалахна.

1986-йисуз райондин медениятдин кIвале “Шагьнабат” ансамбль кардик кутурла, Новиддинани ана иштиракна. 1988-йисуз адан регьбервилик кваз ансамбль ВИА-диз элкъвена. Гьа чIавалай къедалди ансамбль лезги музыка теблигъ авуналди машгъул я.

Вичин репертуардик гзаф лезги халкьдин макьамар квай, зуьрнедал, кфилдал, балабандал, кларнетдал, габойдал, далдамдал устадвилелди ягъизвай Новиддина Азербайжан ва туьрк гьаваярни хъсандиз тамамарзава. 1986-йисуз Москвада кьиле фейи Азербайжандин декадада иштирак авур, 1990-йисуз Дагъустанда кьиле фейи “Шарвили” фестивалда сад лагьай чка кьуна, “устадрин устад” тIвар къачур Новиддин 1992-йисуз Туьркияда кьиле фейи “Туьрк муьзик дуьнья” фестивалда уфтан хьана.

tiv bu fəxri ada F.Nağıyevin sözlərinə V.Zülfiqarovun bəstələdiyi “Ləzgi xalqı” mahnısına görə layiq görüldü. V.Zülfiqarov 100-dən çox mahnının müəllifidir. Onun 10 mahnısı Dağıstan Teleradio Verilişləri Komitəsinin fonduna daxil edilmişdir.

## NOVİDDİN CİGAROV

***Sənətsevərlər arasında Nüvi adı ilə məşhur olan Noviddin Cigarov 100-dən çox ləzgi xalq havasını sənətkarlıqla ifa edir.***

Noviddin Feyzi oğlu Cigarov 1948-ci ildə Qusar rayonunun Düztahir kəndində anadan olmuşdur. Onun babası Qubad uzun illər el şənliklərində iştirak etmiş istedadlı zurnaçı idi. Atası Feyzi də Yargun dərəsi kəndlərində mahir çalğıçı kimi ad qazanmışdı. Yüzdən çox ləzgi xalq havasını ifa edən Feyzinin balabançalan Bəy və nağaraçalan Ənvərlə birgə apardığı toy məclislərinin sorağı uzaqlara yayılmışdı. İstedadı ilə seçilən Noviddin 12 yaşında zurnada çalmağı öyrənmiş, 14 yaşından toy və şənliklərdə ifası ilə seçilmişdir. 1963-cü ildə Düztahir kənd məktəbinin səkkizinci sinif şagirdi Noviddin Cigarov respublikamızın folklor festivalında birinci yeri qazanmışdır. Orta məktəbdə əla qiymətlərlə oxumuş, fizika və riyaziyyat fənnlərinə xüsusi maraq göstərmiş gənc ürəyinin hökmü ilə incəsənət sahəsini seçdi. Mahaçqala Mədəni-Maarif Texnikumunu bitirib, Samur qəsəbəsindəki kluba müdir təyin olunan N.Cigarov sonradan rayon xalq yaradıcılığı evində, mədəniyyət və istirahət parkında çalışdı.

1986-cı ildə rayon mədəniyyət evində “Şahnabat” xalq çalğı alətləri ansamblı fəaliyyətə başlayanda Noviddin də burada ifaçı kimi çıxış etməyə başladı. 1988-ci ildən ansambl vokal-instrumental ansamblına çevrildi və Noviddin onun rəhbəri oldu.

Repertuarında əsasən ləzgi xalq melodiyaları olan bu sənətkar Azərbaycan, türk və başqa xalq havalarının da mahir ifaçısıdır. 1986-cı ildə Moskvada Azərbaycan günlərinin iştirakçısı olmuş sənətkar 1990-cı ildə Dağıstanda keçirilmiş “Şarvili” festivalında birinci yeri qazanmış, ona “ustadlar ustadı” fəxri adı verilmişdir. 1992-ci ildə Türkiyədə keçirilmiş “Türk müzik dünyası” festivalının laureatı olmuş Noviddin Cigarov zurnada, tütəkdə, balabanda, klarnetdə, qaboyda, nağarada və qoşa nağarada məharətlə çalır.

## “ШАГЬНАБАТ”

***И тIвар алаз 1986-йисуз арадиз атай ансамбль вириниз сейли я. Яргъал йисара вичи ягъизвай гитарадалди инсанрин рикIер рамзавай Фаид Агъаева алай вахтунда ансамблдиз регьбервал гузва.***

Кцlар райондин медениятдин кIвале 1986-йисуз “Шагьнабат” ансамбль кардик кутуна. Лезгийрин харусенятдал рикI алай, музыка вилик тухун патал алахъунар ийизвай жегьилар сад садав агатна.

Новиддин Жигарован регьбервилик кваз и ансамбль 1988-йисуз ВИА-диз элкъвена. Гьа чIавалай къедалди ансамбль лезги музыка теблигъ авунив машгъул я. Са шумудра республикадин фестивалрин лауреат хьайи коллективдин репертуардик халкьдин макьамарни манияр ква. Ансамблди Азербайжан, туьрк, урус, араб маниярни устадвилелди тамарзава. Гьавиляй къе “Шагьнабат” лезгийрин рикI алай коллективрикай сад я.

Алай вахтунда ансамблда Фаид Агъаевахъ (гитара) галаз санал Руьстем Руьстемова (чIехи далдамар), Расим Нуруллаева (синтезатор), Фариз Велиханова (кларнет) кIвалахзава. Фаик Жанмирзееван верцIи ванци гьамишанда хьиз мадни рикIер хъуьтуьларзава. Гила адахъ галаз санал Метлеб Магьировани манияр лугьузва.

## “ŞAHNABAT”

***Bu adla Qusarda 1986-cı ildə yaradılmış ansamblın şöhrəti uzaqlara yayılmışdır. Uzun illərdən bəri sənətkarlıqla çaldığı gitarası ilə ürəkləri fəth edən Faid Ağayev hazırda ansambla rəhbərlik edir.***

Qusar rayon mədəniyyət evində 1986-cı ildə “Şahnabat” xalq çalğı alətləri ansamblı fəaliyyətə başlamışdır. Ansambl ləzgi musiqisinə vurğun olan gəncləri birləşdirirdi.

1988-ci ildən “Şahnabat” vokal-instrumental ansamblına çevrilmiş, Noviddin Cigarov onun rəhbəri olmuşdur. Dəfələrlə respublika festivallarının laureatı olmuş kollektivin şöhrəti o vaxtdan hər yana yayılmışdır. Repertuarında əsasən ləzgi xalq mahnı və rəqsləri olan “Şahnabat” Azərbaycan, türk, rus və ərəb mahnılarını da məharətlə ifa edir. Elə buna görə də bu ansambl bu gün ən çox sevilən musiqi kollektivlərindəndir.

Hazırda kollektivdə istedadlı musiqiçi, mahir gitara ifaçısı Faid Ağayevlə bir yerdə Rüstəm Rüstəmov (zərb alətləri), Rasim Nurullayev (sintezator) və Fariz Vəlixanov (klarnet) da çalışır. Faiq Canmirzəyevin məlahətli səsi yenə də ürəklər oxşayır. İndi onunla birlikdə Mətləb Mahirov da çıxış edir.



*“Шагьнабат”. 2009-йис.*
*“Şahnabat”. 2009-cu il.*



*Фаид Агъаев.*
*Faid Ağayev.*

## “КЪАЙИ БУЛАХ”

***1988-йисуз Фаикъ Къардашова КцIара арадал гъайи ансамблдиз “Къайи булах” тIвар гана. Гьа чIавалай къедалди Фаикъан иер манийри инсанрик руьгь кутазва.***

КцIар вацIун къерехда, тамарин юкьва ргазвай Къайи булах хьиз машгьур хьана и коллективни. Фаикъа синтезатордал, Фуьзули Османова чуьнгуьрдални тардал, Теюб Мегьралиева гъвечIи далдамдал ягъизвай макьамри, Турхан Халилова лугьузвай манийри гзаф йисар я яб акалзавайбурухъ руьгь кутаз. Ансамблдин репертуарда лезги халкьдин манийрини Фаикъ Къардашова тесниф авунвай манийри кьетIен чка кьазва.

Фаикъ Къардашан хва Къардашов 1960-йисуз ЭчIехуьре дидедиз хьана. Ада Дербентдин музыкадин мектеб ва Красноярскдин Харусенятдинни Медениятдин Институт акьалтIарна. Яргъал йисара лезгийрин харусенят вилик тухузвай Фаикъ Къардашова 2000-йисалай райондин медениятдин кIвалин директорвиле кIвалахзава. Ада КцIарин медени уьмуьрдиз са кьетIенвал гъанва. Ф. Къардашова гьакIни вичи яратмишай “Къайи булах” ансамблдиз регьбервал гузва.

Къе Азербайжандани Дагъустанда машгьур тир и коллективди къецепатан лезгийрални хайи музыкадин иервал, везинлувал агакьарзава. И карда Фаикъан манияр иллаки тафаватлу я. Гьавиляй ансамблдин суракьар дуьньядин гзаф уьлквейрай къвезва.

## “QAYİ BULAQ”

***1988-ci ildə Qusarda yaratdığı ansambla Faiq Qardaşov “Qayi bulaq” adını verdi. O vaxtdan bu günə kimi Faiqin bəstələdiyi gözəl mahnılar insanlara xoş ovqat bəxş edir.***

Qusar çayının sahilində, yaşıl meşələrin qoynunda çağlayan Qayi bulaq (Soyuq bulaq) kimi məşhurlaşıb kollektiv. Faiqin sintezatorda, Füzuli Osmanovun sazda və tarda, Teyyub Mehrəliyevin zərbdə çaldığı havalar, Turxan Xəlilovun ifa etdiyi mahnılar dinləyicilərin ruhunu oxşayır. Ansamblın repertuarını ləzgi xalq mahnıları, Faiqin bəstələri, eləcə də Azərbaycan, türk, rus mahnılırı təşkil edir.

Faiq Qardaş oğlu Qardaşov 1960-cı ildə Qusar rayonunun Əcəxür kəndində anadan olmuşdur. O, Dərbənd musiqi məktəbini və Krasnoyarsk İncəsənət və Mədəniyyət İnstitutunu bitirmişdir. Uzun illər ləzgilərin incəsənətinin təbliği ilə məşğul olan Faiq Qardaşov 2000-ci ildən rayon mədəniyyət evinin direktoru vəzifəsində çalışır. O, həmçinin yaratdığı “Qayi bulaq” ansamblına da rəhbərlik edir.






Bu gün Azərbaycanda və Dağıstanda tanınan kollektiv xaricdə yaşayan ləzgilərə də doğma musiqinin gözəl təranələrini çatdırır. Bu sahədə Faiqin bəstələdiyi mahnıların rolu çoxdur. Ona görə də ansamblın sorağı dünyanın müxtəlif ölkələrindən gəlir.

## "СУВАР"

***1996-йисан июндиз Бакуда лезгийрин "Сувар" ансамбль арадиз атана. Вичин сураkьар вири дуьньядиз чкIанвай "Сувар" къе лезгийрин рикI алай пешекар коллектив я.***

## "SUVAR"

***1996-cı ilin iyununda Bakı şəhərində "Suvar" ansamblının əsası qoyulmuşdur. Şöhrəti dünyaya yayılmış "Suvar" bu gün ləzgilərin çox sevdiyi peşəkar kollektivdir.***



*Элнур Рагьимов (чапла патай), Заур Мусаев, Афган Жамалуддинов ва Эмил Керимов*
*Elnur Rəhimov (soldan), Zaur Musayev, Əfqan Camaluddinov və Emil Kərimov*



*Жегьилрин къуьл*
*Gənclərin rəqsi*

Бакудин Жегьил Тамашачийрин Театрда вичин сад лагьай концерт гайи "Сувар" ансамблдихъ муьжуьд макьамчи ва вад маничи авай. Лезги халкьдин манияр ва къуьлдай гьаваяр халкьдив агакьарун вичин вилик макьсад эцигай ансамблдин маничияр Руслан Пирвердиева, Агьмед Къурбанова, Магьире Шириновади, Дилбер Агъаевади лезги манийрин мелерин бине кутуна. Гуьгъуьнлай ансамблдик Решад Ибрагьимов, Роза Гьажимурадова, Жемиле Залова, Жавагьир Абдулова ва Эльвина Гьейдарова хьтин маничияр экечIна.

Ансамбль арадиз гьана, адаз регьбервал гайи Седакъет Керимовадин алахъунар себеб яз адан репертуарда лезгийрин къадим манийрини къуьлдай макьамри кьетIен чка кьуна. "Шарвилидин мехьер", "Шарвилидин сусан тариф", "Кай дилбер", "Лезгид руш", "Пейкер баха", "Перизада", "Даллай", "Суна чан", "Загъадурзагъа", "Адахлу", "Магьи дилбер чан", "Суваллай яр", "Шагьсенем", "Дагълар",

İlk konserti Bakının Gənc Tamaşaçılar Teatrında keçirilmiş ansambl 8 çalğıçını və 5 müğənnini birləşdirirdi. Ləzgi xalq mahnı və rəqslərini yaşatmağı qarşısına məqsəd qoyduğunu elan edən kollektivin ifaçıları Ruslan Pirverdiyev, Mahirə Şirinova, Əhməd Qurbanov, Dilbər Ağayeva, Ruslan Şeydayev Azərbaycan səhnəsinə ləzgi mahnılarının təravətini gətirdilər. Sonralar "Suvar"a Rəşad İbrahimov, Roza Hacımuradova, Cəmilə Zalova, Cavahir Abdulova və Elvina Heydərova kimi istedadlı ifaçılar da qatıldılar. Ansamblı yaradıb ona rəhbərlik edən



*Жавагьир Абдулова*
*Cavahir Abdulova*



*Эльвина Гьейдарова*
*Elvina Heydərova*



*Роза Гьажимурадова*
*Roza Hacımuradova*



Къугъарин кьуьл Qu quşlarının rəqsi



Къарийрин кьуьл. Сегьнедал (чапла патай): Айсел Рустамова, Егана Гьасанова, Сарият Шагьмурадова, Лейла Муртузаева.
Qarılar rəqsi. Səhnədə (soldan): Aysel Rüstəmova, Yeganə Həsənova, Sariyat Şahmuradova, Leyla Murtuzayeva.

"Хъипи пешер авадариз", "Ширин-ширин" хьтин халкьдин манийрал коллективди чан хкана. С.Керимовади вичи тесниф авур вишдалай гзаф манидалди ансамблдин нуфуз хкажна. Адан "Лезгинкадал илига", "Зи хайи эл", "Шамилан дагъ", "Асса", "КцIар", "Къведа жал?", "Шагь дагъдин цуьк", "Каму яр", "Баде" хьтин манияр иллаки сейли я.

2004-йисуз С.Керимовади сифте яз Бакуда "Сувар" тIвар алаз кьуьлерин мектеб кардик кутуна ва хореограф Зейнал Жигерхановахъ галаз санал 10-далай гзаф цIийи кьуьлер арадиз гъана. Гьа чIавалай "Сувар" манийринни кьуьлерин ансамбль хьиз халкьдин рикI алай коллективдиз элкъвена. 2006-йисуз Азербайжандин Гьукуматдин Операдинни Балетдин Театрда кьиле фейи, ансамблдин 10 йисан юбилейдиз талукьарай концертда 50-дав агакьна маничийрини кьуьлдайбуру чпин алакьунар къалурна. Алай вахтунда "Сувар" Бакудин зурба кьуьлерин мектебдиз элкъвенва. "Сувар" ансамблди лезгийрин дегь чIаварин кьуьлерин бинедаллаз цIийибур туь-

Sədaqət Kərimovanın səyləri nəticəsində repertuara ləzgilərin qədim xalq mahnılarından olan "Şarvilinin toyu", "Şarvilinin nişanlısının tərifi", "Ləzgi qızı", "Peykər xala", "Pərizada", "Dallay", "Suna can", "Adaxlı", "Mahi dilbər can", "Dağdakı yar", "Şahsənəm", "Dağlar", "Sarı yarpaqlar", "Şirin-şirin" və sair mahnılar daxil edilmişdir. S.Kərimovanın bəstələdiyi 100-dən çox mahnı isə ansamblın repertuarını daha da zənginləşdirmişdir. Onun "Ləzginka çal", "Assa", "Qusar", "Şahdağ çiçəyi", "Sevgilim", "Şamil dağı", "Mənim doğma elim", "Nənə", "İstəkli yar" kimi mahnıları xüsusilə məşhurdur.

2004-cü ildə S.Kərimova Bakıda "Suvar" rəqs məktəbini yaratdı. Onun xoreoqraf Zeynal Cigərxanovla birgə hazırladığı onlarca rəqs "Suvar" ansamblının repertuarına daxil edildi. 2006-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində 10 illik yubileyini təntənə ilə qeyd edən ansambl özünün 50 nəfərlik kollektivi ilə tamaşaçıları heyran etdi. Hazırda "Suvar" rəqs məktəbi peşəkar kollektivə çevrilmişdir. Burada



Решад Ибрагьимов
Rəşad İbrahimov



Руслан Пирвердиев
Ruslan Pirverdiyev



Рамин Фарманов ва Алфият Рустамова
Ramin Heydərov və Əlfiyət Rüstəmova

кIуьрзава, халкьдин манийрихъ цIийи дад кутазва.

“Суварикай” республикадин телевиденидин “Ижтимаи” каналди са сятдин фильм чIугуна къалурнай. Азербайжандин маса каналрини коллективдикай цIудралди сюжетар гьазурна. Ансамблди Москвадин Кремлдин чIехи имаратда, Миллетрин КIвале, Санкт-Петербург, Ярославль ва маса шегьерра концертар гана. Туьркиядин TRT каналдин теклифдалди 2009-йисуз и уьлкведа хьайи коллективдикай гьа каналди са сятдин фильм чIугуна къалурна.

Къедалди ансамблдин манийрин 4 альбом ва “Зи хайи эл” тIвар алаз Азербайжандин лезгийрикай ихтилатзавай кьве фильм арадиз атанва. Гьарма сад кьве сятдин материалдикай ибарат тир и фильмра лезгийрин ацукьун-къарагъуникай, халкьдин адетрикай, медениятдикай ва музыкадикай ихтилатзава. 2004-йисуз ва 2007-йисуз арадиз гъанвай и филмар КцIара чIугунватIани, ана ихтилат физвай адетар вири лезгийриз талукьбур я. Сценарист ва режиссер тир С.Керимовади чка атунивай вичи тесниф авур манийрикайни менфят къачунва. Авазар “Сувар” ансамблди тамамарзава.

Zeynal Cigərxanovla Gülnarə Bayramova gənclərə ləzgi və Qafqaz rəqslərinin sirlərini öyrədirlər.

“Suvar” haqqında respublikanın İctimai televiziyası bir saaatlıq film çəkib nümayiş etdirmiş, digər televiziya kanalları dəfələrlə verilişlər hazırlamışdır. Kollektiv Moskvanın Qurultaylar Sarayında, Millətlər Evində, Sankt-Peterburq, Yaroslavl və başqa şəhərlərdə konsertlər vermişdir. 2009-cu ilin may ayında Türkiyənin TRT kanalının dəvəti ilə bu ölkədə olmuş kollektiv haqqında həmin kanal tərəfindən bir saatlıq film çəkilib nümayiş etdirilmişdir.

Ansamblın 4 albomu və Azərbaycan ləzgilərinin həyatından bəhs edən “Mənim doğma elim” adlı iki musiqili-sənədli filmi işıq üzü görmüşdür. Hər biri iki saat davam edən bu filmlərdə ləzgilərin adət-ənənələrindən, mədəniyyətindən, musiqisindən söhbət açılır. 2004 və 2007-ci illərdə çəkilmiş bu filmlərin əsas kadrları Qusar rayonunda lentə alınsa da, haqqında söhbət açılan adət-ənənələr bütün ləzgilərə aiddir. Ssenari müəllifi, rejissor və bəstəkar S.Kərimovanın bəstələdiyi mahnı və rəqsləri filmlərdə “Suvar” ansamblı ifa edir.



*Кхьираг Седакъет Керимова ва “Сувар” ансамбль Туьркиядин ТРТ каналдин “Гуьгьуьлдин багъ” гунугдин мугьман я. 2009.*



*Лейла Муртузаева ва Завир Нежефов*
*Leyla Murtuzayeva və Zavir Nəcəfov*



*“Суварин” рушар*
*“Suvar”ın qızları*

# ХУДОЖНИКАР

## АЛИЯР АЛИМИРЗОЕВ

***2003-йисуз Парижда 200-дав агакьна уьлквейрин художникри иштирак авур выставкада Алиян "Фениксар" тIвар ганвай эсерди Гран При къачуна.***

Адан эсерар Россиядин Третьякован тIварунихъ галай галереядин, Венадин "Альбертино" музейдин, Даниядин Аденс шегьердин музейдин экспонатриз элкъвенва. Россиядин, АСШ-дин, Китайдин, Туьркиядин, Сербиядин, Польшадин, Австриядин, Корeядин, Индонезиядин ва маса уьквейрин кьилди ксарин коллекцийра Алияр Алимирзоеван шикилри кьетIен чка кьазва. Ам чи республикадин вичин эсерар виридалайни гзаф ише физвай художник я. Къедалди адан 1000-далай гзаф эсерар маса къачунва.

Азербайжандин зурба сеняткаррикай тир Алияр Алимирзедин хва Алимирзоев КцIар райондин Кьилагь хуьре дидедиз хьана. Бакудин 229-мектеб акьалтIарна, А.Азимзадедин тIварунихъ галай училищеда кIелна. Ам 27 йиса аваз СССР-дин Художникрин Союздиз кьабулна. Москвада Жегьилрин ва Спортдин Меркезда кьиле фейи выставкадилай гуьгъуьниз адаз СССР-дин Художникрин Союзди 3 йисан стипендия тайинарнай.

1996-йисуз адан кьилди выставкадин вахтунда Алияран яратмишунриз машгьур художник Расим Бабаева икI къимет ганай: "Алияра сенятда мумкин тир гьар са затI авунва, гила ада хьийидай кар амач".

2006-йисуз Алияр Алимирзоеваз Азербайжандин Президентдин указдалди "Азербайжан Республикадин лайихлу художник" гьуьрметдин тIвар гана.

Вичихъ кьетIен дуьнья авай, кьиляй-кьилди сеняткар тир, лугьуз тежедай хьтин алакьунрин иеси тир Алияр Алимирзоеван эсерриз къе дуьньядин пешекарри чIехи къимет гузва ва ихьтин инсанар дуьньядиз геж-геж къведа лугьузва. Ада чIугвазвай эсеррин рангар бегьем кьуранвачиз абур къачуз кIанзавай ксар пайда жезва. Сеняткар патал идалай чIехи бахт авач.



# RƏSSAMLAR

## ƏLİYAR ƏLİMİRZƏYEV

***2003-cü ildə Parisdə 200-ə yaxın ölkənin rəssamlarının iştirak etdiyi beynəlxalq sərgidə bakılı rəssam Əliyar Əlimirzəyevin "Feniкslər" əsəri Qran Priyə layiq görüldü.***

Əliyar Əlimirzəyevin əsərləri Rusiyanın Tretyakov qalereyasının, Venanın "Albertino" muzeyinin, Danimarkanın Adens şəhərinin muzeyinin eksponatlarıdır. Rusiya, ABŞ, Çin, Türkiyə, Serbiya, Polşa, Avstriya, Koreya, İndoneziya və başqa ölkələrin iş adamlarının kolleksiyalarında onun rəngkarlıq işləri görkəmli yer tutur. Əliyar respublikamızda əsərləri ən çox satılan rəssamlardan biridir. Bu günə kimi onun 1000-dən çox əsəri satılmışdır.

Müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Əliyar Əlimirzə oğlu Əlimirzəyev Qusar rayonunun Qilah kəndində anadan olmuşdur. O, Bakıdakı 229 saylı məktəbi bitirib, Ə.Əzimzadə adına İncəsənət Məktəbində təhsil almışdır. Parlaq istedadı olan Əliyar 27 yaşında SSRİ Rəssamlar İttifaqının üzvü seçilmişdir. Moskvanın Gənclər və İdman Mərkəzində keçirilmiş sərgidən sonra SSRİ Rəssamlar İttifaqı bu istedadlı gəncə 3 illik təqaüd təyin etmişdir.

1996-cı ildə onun fərdi sərgisində iştirak etmiş tanınmış rəssam Rasim Babayev heyranlıqla demişdi: "Əliyar sənətdə mümkün olan hər şeyi edib. Daha onun edəcəyi heç nə qalmayıb."

2006-cı ildə Azərbaycan Prezidentinin fərmanı ilə Əliyar Əlimirzəyevə "Azərbaycanın əməkdar rəssamı" fəxri adı verilmişdir.

Öz fərqli dünyası ilə seçilən, başdan-başa sənətkar olan, olduqca böyük uğurlar qazanmış Əliyar Əlimirzəyevin əsərlərinə peşəkarlar yüksək qiymət verir və bu cür insanların dünyaya gec-gec gəldiklərini etiraf edirlər. Onun yaratdığı əsərlərin hələ boyası qurumamış, alıcılar rəssamın emalatxanasının kandarını kəsdirirlər. Sənətkar üçün bundan böyük xoşbəxtlik ola bilməz.

## СЕЙФЕДИН СЕЙФЕДИНОВ



***Чи аямдин зурба сеняткаррик лезгийрин художник Сейфедин Сейфединовни акатзава.***

Алай вахтунда Дагъустандин Магьачкъала шегьерда яшамиш жезвай Сейфедин Сейфединова чIугунвай Шейх Мегьамед Ярагъвидин, Забит Ризванован, композитор Мегьамед Гьуьсейнован, шаир Фейзудин Нагъиеван портретар ва маса эсерар пешекарри искусстводин инжияр яз гьисабзава.

Дагъустандин лайихлу художник Сейфедин Мигьиядин хва Сейфединов 1952-йисуз КцIар райондин Манкъулидхуьре дидедиз хьана. Гьеле гъвечIизмаз адан алакьунар акур чи сейли шаир Забит Ризванова КцIарин Халкьдин Яратмишунрин КIвалин директор тир вахтунда Сейфединан выставка тешкилнай. Адан шикилар Бакудиз, Москвадиз, халкьдин яратмишунрин выставкайриз акъатнай. Сейфедина хуьруьн юкьван мектеб акьалтIарна, Тифлисдин Художественный Академияда кIелна. А йисара ада чIугур шикилар гуржийрин альбомра ва выставкайрин каталогра гьатна. Ада машгьур "Дата Туташхиа" фильм арадал гъуникни вичин пай кутуна. 1982-йисуз Дагъустандин Художникрин Союзда кIвалахал акъвазай сеняткар Дагъустандин ва Урусатдин шумудни са выставкайрин иштиракчи я.

Сейфединан чIехи буба Сейфедин Гьасанбегов Бакуда лезги большевикрин "Фарукь" тешкилат арадал гъайибурукай я. Адан буба Мигьияди Дербентдин педучилищеда СтIал Мусаибахъ галаз санал кIелнай. Ватандин ЧIехи дяведа кьегьалвилелди ишти-

## SEYFƏDDİN SEYFƏDDİNOV

***Müasir dövrün görkəmli rəssamları arasında ləzgi sənətkarı Seyfəddin Seyfəddinovun da adı vardır.***

Dağıstanın Mahaçqala şəhərində yaşayıb-yaradan Seyfəddin Seyfəddinovun yaratdığı azadlıq carçısı Şeyx Məhəmməd Yarağinin, yazıçı Zabit Rizvanovun, bəstəkar Məhəmməd Hüseynovun, şair Feyzudin Nağıyevin portretləri peşəkarlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Dağıstanın əməkdar rəssamı Seyfəddin Mihiyə oğlu Seyfəddinov 1952-ci ildə Qusar rayonunun İmamqulukənd kəndində anadan olmuşdur. Yeniyetmənin istedadını görən məşhur şair Zabit Rizvanov Qusar Rayon Xalq Yaradıcılığı Evində onun ilk fərdi sərgisini təşkil etmiş, sonradan isə əsərlərinin Bakının və Moskvanın xalq yaradıcılığı sərgilərində nümayişinə kömək göstərmişdir. S.Seyfəddinov kənd orta məktəbini bitirib Tbilisi Rəssamlıq Akademiyasında təhsil almışdır. Burada oxuduğu illərdə onun yaratdığı bəzi əsərlər Gürcüstanın bir sıra albomlarına və kataloqlarına düşmüşdür. Rəssam məşhur "Data Tutaşxia" filminin yaradılmasında da iştirak etmişdir.

1982-ci ildən Dağıstan Rəssamlar İttifaqında çalışan rəssamın fərdi sərgiləri dəfələrlə Dağıstanda və Rusiyanın şəhərlərində təşkil olunmuşdur.

Seyfəddinin babası Seyfəddin Həsənbəyov Bakıda ləzgi bolşeviklərinin "Farux" təşkilatının yaradıcılarından biri olmuşdur. Rəssamın atası Mihiyə Dərbənd pedməktəbində məşhur şair Stallı Müseyiblə bir yerdə təhsil almışdı. Böyük Vətən müharibəsi





рак авур, вич шумудни са ордендиз ва медалдиз лайихлу хьайи Мигьия ирид аялдин буба тир. Ада вичин аялрив кӀелиз тун патал вири алахъунар авунай. Сейфединан гъвечӀи стха Айзекани Тифлисдин Художественный Академия акьалтӀарна.

## МАГЬМУД ЧЕЛЕБОВ

***Магьмуд Челебован эсерар халкьдин тарихдиз, медениятдиз, къагьриманриз ва тӀебиатдиз талукьарнавайбур я.***



ТӀвар-ван авай художник Челебов Магьмуд Жамидин хва 1935-йисуз КцӀар райондин Гуьндуьзкӏеле хуьре дидедиз хьана. Хуьруьн мектеб, гуьгъуьнлай Бакудин 3-нумрадин училище акьалтӀарай, Бакудин нафтӀадин мяденра кӀвалахиз эгечӀай Магьмуд Челебов 1956-йисуз Бакудин А.Азимзадедин тӀварунихъ галай художественный училищедик экечӀна. Инаг куьтягьна Бакудин Киров райондин юкьван мектебра муаллимвал авуна. Ам художник хьиз 1959-йисалай сейли хьана.

1965-йисуз М.Челебов Азербайжандин М.А.Алиеван тӀварунихъ галай Харусенятдин Институтдиз гьахьна. 1980-йисуз Москвада кьиле фейи "Олимпиада-80" выставкада М.Челебован "Спорт" халича премиядиз лайихлу хьана. 1981-йисалай СССР-дин Художникрин Союздин член тир М.Челебова чи республикадин, Советрин Союздин, къецепатан уьлквейрин цӀудралди выставкайра иштиракна.

cəbhələrində qəhrəmanlıqla döyüşən, vətənə orden və medallarla qayıdan Mihiyənin 7 övladı da ali təhsil almışdır. Onlardan ikisi rəssamdır. Ayzek də böyük qardaşı kimi Tbilisi Rəssamlıq Akademiyasının məzunudur.

## MAHMUD ÇƏLƏBOV

***Mahmud Çələbov ləzgi xalqının tarixi, mədəniyyəti, qəhrəmanları və doğma təbiəti ilə bağlı gözəl əsərlərin müəllifidir.***

Tanınmış rəssam Çələbov Mahmud Cami oğlu 1935-ci ildə Qusar rayonunun Gündüzqala kəndində anadan olmuşdur. Kənd məktəbini və Bakıdakı 3 saylı peşə məktəbini bitirib, neft mədənlərində çalışmışdır. 1956-cı ildə Ə.Əzimzadə adına İncəsənət Məktəbini başa vurduqdan sonra M.Çələbov Bakının Kirov rayonunun orta məktəblərində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Rəssam kimi 1959-cu ildən tanınır.

1965-ci ildə M.Çələbov M.A.Əliyev adına İncəsənət İnstitutuna daxil olmuşdur. 1980-ci ildə Moskvada keçirilmiş "Olimpiada-80" sərgisində onun çəkdiyi "İdman" adlı xalça mükafata layiq görülmüşdür. 1981-ci ildə SSRİ Rəssamlar İttifaqının üzvü seçilən sənətkar respublikamızda, keçmiş SSRİ-də və xarici ölkələrdə keçirilmiş onlarca sərginin iştirakçısı olmuşdur.

Mahmud Çələbovnun əsərləri arasında məşhur







*Qusar rayonunun mədəni həyatının qırx illik dövrü (1945-1985-ci illər) Kseniya Qriqoryevna Ksendzovskayanın adı ilə bağlıdır. O, 25 il şəhər mədəniyyət evinin müdiri, 35 il şəhər qadınlar şurasının sədri kimi fəaliyyət göstərmişdir. Əslən Ukraynadan olan Kseniya əri cəbhədə həlak olandan sonra üç övladı ilə Qusara köçmüş və ömrünün sonuna kimi burada yaşamışdır. O vaxtlar Qusarda yay aylarında keçirilən mahnı bayramlarının, qışda təşkil olunan xizək və kirşəsürmə yarışlarının təşkilatçısı olan bu qadın həmin yarışların əsl bayrama çevrilməsindən ötrü əlindən gələni edərdi. Onun rəhbərliyi ilə şəhər parkında keçirilən konsertlər, rəqs axşamları uzun illər hamının maraq və sevinclə gözlədiyi istirahət növü olmuşdur.*



*1937-йисуз Москвада кьиле фейи I Азербайжандин медениятдин йикъарин иштиракчи Мустафа Хелилан хва Мустафаеван кьуьлуни вири гьейранарнай.*
*1937-ci ildə Moskvada keçirilmiş I Azərbaycan mədəniyyəti günlərinin iştirakçısı Mustafa Xəlil oğlu Mustafayevin rəqsi hamını heyran etdi.*



*Gülnarə Bayramova “Suvar” rəqs məktəbində dərs zamanı. 2010.*
*Гуьлнара Байрамовади “Сувар” кьуьлерин мектебда тарс гудайла.*



*КцIара Магьсулдин сувар. 1969.*



*Qusarda Məhsul bayramı. 1969.*




*“Сувар” ансамбль Азербайжандин кьадардиз тIимил тир халкьарин жегьилрин яратмишунрин фестивалда. 2009.*
*“Suvar” ansamblı Azərbaycanın azsaylı xalqlarının yaradıcı gənclərinin festivalında çıxış edir. 2009.*



***КцӀарви макьамчийрикай гзафбуру Санаил Шихгьейбетан хва Мустафаев чпин муаллим яз гьисабда. Яргъал йисара ада, Физеммед Куругълиева ва Белкъи Шихвердиева арадиз гъайи триоди концертриз, мехъерриз, элдин мярекатриз ярашух ганай. Зуьрнедал, кларнетдал, тардал, гармондал устадвилелди ягъидай С.Мустафаева цӀудралди кцӀарви сенятдив агуднай. Абурукай садни адан хва Сабир я. Яргъал йисара райондин медениятдин кӀвализ, Харусенятдин Мектебдиз регьбервал гайи Сабир Мустафаев кларнет устадвилелди ягъизвай пешекар хьиз сейли я.***

***Qusarlı musiqiçilərin çoxu Sanail Şixheybət oğlu Mustafayevi öz müəllimi hesab edir. Uzun illər ondan, Fizəmməd Koroğluyevdən və Bəlqi Şixverdiyevdən ibarət trio konsertlərə, toylara, el məclislərinə yaraşıq verib. Zurnada, klarnetdə, tarda və qarmonda ustalıqla çalan S.Mustafayev neçə-neçə qusarlını sənətə gətirib. Onlardan biri də öz oğlu Sabirdir. Uzun illər rayon mədəniyyət evinə, sonralar isə İncəsənət Məktəbinə rəhbərlik etmiş Sabir Mustafayev klarnetdə məharətlə çalan peşəkar kimi tanınır.***



***Мелик Бахышов (чапла патай), Сабир Мустафаев, Мурсал Агьмедов ва Имамали Илясов концертдин береда.***
***Məlik Baxışov (soldan), Sabir Mustafayev, Mürsəl Əhmədov və İmaməli İlyasov konsert zamanı.***



***Райондин харусенятдин мектебдин сад лагьай директор Октай Аллагьвердиев (эрчӀи патай). 1962.***
***Qusar incəsənət məktəbinin ilk direktoru Oqtay Allahverdiyev (sağda). 1962.***



***“Азербайжан Республикадин лайихлу муаллим” гьуьрметдин тӀварцӀиз лайихлу хьайи Сефер Сеферова 40 йис я аялриз вичин сенят рикӀ алаз чириз.***
***“Azərbaycan Respublikasının əməkdar müəllimi” fəxri adına layiq görülmüş Səfər Səfərov 40 ildir uşaqlara öz sənətini öyrədir.***

***Аятуллагь Велиханан хва Велиханова 25 йисуз ара датӀана райондин харусенятдин мектебда кларнетдай ва балабандай тарсар гана.***

***Ayatullah Vəlixan oğlu Vəlixanov 25 il fasiləsiz olaraq rayon incəsənət məktəbində klarnetdən və balabandan dərs demişdir.***





Райондин харусенятдин мектебда скрипкадин синиф кардик кутун Седакъет Сефероввадин тӀварцихъ галаз алакъалу я. Азербайжандин Гьукуматдин Консерватория акьалтӀарай ада 20 йис я ина кӀвалахиз.
Rayon ingəsənət məktəbində skripka sinfinin fəaliyyət göstərməsi Azərbaycan Dövlət Konservatoriyasının məzunu Sədaqət Səfərova-nın adı ilə bağlıdır. O, 20 ildən çoxdur ki, burada çalışır.



Дагъустандин халкьдин артист Рагьимат Гьажиева манияр лугьуз КцӀаризни къведай.
Dağıstanın xalq artisti Rəhimət Hacıyeva qusarlılar qarşısında da çıxış edirdi.





Къени Къениев ва ада регьбервал гузвай "Шагь дагъ" ансамбль. 1967.
Qəni Qəniyev və onun rəhbərlik etdiyi "Şahdağ" ansamblı. 1967.



ТӀигьиржал хуьруьн "Перизада" фольклордин ансамбль КцӀарин сегьнедал.
Tahircal kəndinin "Pərizada" folklor ansamblı Qusar səhnəsində.



Сумгаитдин "Чубарук" ансамблдин регьбер Тарлан Шейдаева Азербайжандин Гьукуматдин Филармониядин сегьнедал вичин манияр лугьузва. 1992.
Sumqayıtın "Çubaruk" ansamblının rəhbəri Tərlan Şeydayev Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində öz mahnılarını ifa edir. 1992.



*КцIар Райондин Медениятдин КIвалин Манийринни Кьуьлерин Ансамбль. 1955.*
*Qusar Rayon Mədəniyyət Evinin Mahnı və Rəqs Ansamblı. 1955.*



*Дагъустандин халкдин артист Дуьрия Рагьимова.*
*Dağıstan Respublikasının xalq artisti Düriyə Rəhimova.*



*КцIара Яран суварин мярекат. 2008.*
*Qusarda Bahar bayramı şənliyi. 2008.*



*Ярославлдин жегьил лезги маничи Русана Гьасанова.*
*Yaroslavlın gənc ləzgi müğənnisi Rusana Həsənova.*



*“Трилло” халкьдин коллектив. 1990.*
*”Trillo” xalq kollektivi. 1990.*



*Кларнет пешекарвилелди ягъизвай сейли сеняткар Шуьрбет Агъакъулиев 2008-йисуз “Дагъустан Республикадин лайихлу артист” гьуьрметдин тIварцIиз лайихлу хьана.*
*Klarnet ifaçısı olan tanınmış sənətkar Şürbət Ağaquliyev 2008-ci ildə “Dağıstan Respublikasının əməkdar artisti” fəxri adına layiq görülmüşdür.*



*2003-йисан 29-декабрдиз Германиядин Бонн шегьердин чIехи концертдин заларикай тир “Брокенфорумда” Къафкъаздин халкьарин фольклордин фестиваль кьиле фена. КцIар райондин Хьилерин хуьряй тир Ильгьам Гьажимурадован регьбервилик кваз са шумуд касди кьиле тухвай и фестиваль Европадин медениятдин тарихда чIехи вакъиа хьиз гьатна. Ина Германиядай, Белгиядай ва Даниядай чара-чара коллективри иштиракнай. Вич этнолог-тарихчи, гьакIни гьевескар макьамчи тир Илгьам Гьажимурадова и мярекатдал немсериз Къафкъаздин халкьарикай, гьабурукай яз лезгийрикайни малуматар гана. Иер манийрини кьуьлери няни мадни гурлу авуна.*

*2003-cü ilin dekabrın 29-da Almaniyanın Bonn şəhərinin böyük konsert zalı “Brökenforum''da Qafqaz xalqlarının folklor festivalı keçirilmişdir. Qusar rayonunun Hil kəndinin sakini, hazırda Almaniyada yaşayan İlham Hacımuradovun rəhbərliyi ilə təşkil olunmuş festival Avropa mədəniyyəti tarixinə böyük hadisə kimi düşdü. Festivalda Almaniya, Belçika və Danimarkadan müxtəlif kollektivlər iştirak edirdi. Etnoloq-tarixçi, həmçinin həvəskar musiqiçi olan İlham Hacımuradovun apardığı həmin məclisdə onun Qafqaz xalqları, o cümlədən ləzgilər haqqında verdiyi məlumatlar hamının marağına səbəb oldu. Gözəl mahnı və rəqslər tədbirin mənalı keçməsinə kömək etdi.*



*Дагъустандин халкдин артист Суьлгьият Гьажиева ва “Сувар” ансамбльдин маничи Жемила Залова. 2008.*
*Dağıstan Respublikasının xalq artisti Sülhiyət Hacıyeva və “Suvar” ansamblının solisti Cəmilə Zalova. 2008.*



*“Шагь дагъ” ансамбль. 1970.*
*“Şahdağ” ansamblı. 1970.*





*Сейфедин Сейфединован эсерар: "Мегьамед Ярагъви", "Автопортрет", "Мегьамед Гьуьсейнов".*
*Seyfəddin Seyfəddinovun əsərləri: "Məhəmməd Yaraği", "Avtoportret", "Məhəmməd Hüseynov".*



*Акбер Ферзалиеван "Имам Шамил" пьесадай сегьне.*
*Əkbər Fərzəliyevin "İmam Şamil" pyesindən səhnə.*



*КцIара Яран суварин мярекатар квасаяр галачиз кьиле фидач.*
*Qusarda Bahar şənlikləri kosalarsız keçməz. 2009.*





*КцIар Райондин Медениятдин КIвалин Кьуьлерин Ансамбль. 2008.*
*Qusar Rayon Mədəniyyət Evinin Rəqs Ansamblı. 2008.*

# XIII

# ЭТНОГРАФИЯ



# ETNOQRAFİYA

***Ватан кIан хьун имандай я.***
*Мегьамед пайгъамбардин гьадис*

***Vətəni sevmək imandandır.***
*Məhəmməd peyğəmbərin hədisi*

Этнографиядин жигьетдай гзаф марагълу уьлкве тир Азербайжанда дегь чIаварилай яшамиш жезвай чара-чара халкьари уьлкведин медениятдихъ, адан адетрихъ, харусенятдихъ зурба пай кутунва. И халкьари иер са халичадин нехишри хьиз сад садав кьазва. Жигьирри шегьредихъ, дагъдин вацIари гьуьлуьхъ ялдайвал, са чилин винел, са цавун кIаник уьмуьр гьалзавай са шумуд халкьди санал битав Азербайжан арадиз гъанва.

Азербайжанда лезгияр сигъдаказ яшамиш жезвай районрикай садни КцIар я. 1999-йисан статистикадин малуматрив гекъигайтIа, райондин 80816 агьалийрикай 73278 кас лезгияр я. Республикада азербайжанвийрихъ, урусрихъ, татрихъ, талышрихъ, куьрдерихъ, чувудрихъ, аваррихъ, гуржийрихъ, украинавийрихъ ва маса халкьарин векилрихъ галаз са хизанда уьмуьр гьалзавай лезгияр зегьметдал рикI алай, іслягьвал кIани, чирвилерихъ ялдай, дамах тийижир сая ва къени инсанар я.

Лезгийрихъ са кьетIенвални ава: абуру чпин хайи чIал, бязи къадим адетар, медениятдин кьетIен-

Etnoqrafiya baxımından böyük maraq doğuran Azərbaycanda qədim dövrlərdən yaşayan müxtəlif xalqlar ölkənin mədəniyyətinə, adət-ənənələrinə, incəsənətinə layiqli töhfə vermiş, əlvan bir xalçanın naxışları kimi bir-birinə uyuşmuşlar. Cığırlar yollara, çaylar dənizlərə qovuşduğu kimi, eyni torpağın qoynunda, eyni səmanın altında yaşayan ayrı-ayrı xalqlar da birləşərək vahid Azərbaycanı əmələ gətirmişlər.

Azərbaycanda ləzgilərin yığcam halda yaşadıqları rayonlardan biri də Qusardır. 1999-cu ilin statistik məlumatlarına görə rayonun 80816 nəfər əhalisinin 73278 nəfəri ləzgilərdir. Respublikamızda azərbaycanlılarla, ruslarla, tatlarla, talışlarla, kürdlərlə, yəhudilərlə, avarlarla, gürcülərlə, ukraynalılarla və başqa millətlərlə bir ailədə yaşayan ləzgilər zəhmətkeş, sülhsevər, elmə meylli, sadə və mehriban insanlardır.

Onların bir xüsusiyyəti də var: doğma dillərini, bir sıra qədim adət-ənənələrini, mədəniyyətlərini qoruyub saxlayıblar. Ləzgilər yanaşı yaşadıqları xalqlarla,





вилер хвенва. Ингъе лезгияр къунши халкьарал, абурун хъсан адетрални дамахиз алакьдай инсанар я. ИкI хьаначиртIа чи халкьаривай агъзур йисара санал, къуьн-къуьне, ислягьвилелди яшамишиз жечир.

Гилан глобализациядин девирда гьар са халкьди вичин пунарихъ, милли жуввилихъ ялиз алахъзава, вич хуьдай рекьер жагъурзава. Этнографиядин музейдиз ухшар тир КцIарани гьа икI я. Ина неинки республикадин агьалияр, гьакIни къецепатан туристар мягьтелардай гзаф затIар ава. Милли архитектурадилай башламишна, майишатдин кьетIенвилералди тафаватлу тир районда алатай виш йисарин гьава хуьзвай кьилди хуьрер, магьлеяр, кIвалер ава. Абур гуьнгуьна хтуна гележегдин туризмдин маршрутрихъ кутаз жеда.

Мукьвал вахтара международный туризмдин меркездиз элкъвена кIанзавай и район са анжах туризмдалди ваъ, гьакIни этнографиядин кьетIенвилералди сейли хьун герек я. И рекьяй дуьньядин са кьадар уьлквейрихъ хъсан тежриба ава.

Туристар патал КцIара къулай шартIар ава. Этнографдин виляй килигайтIа, тIуьнрилай башламишна, чи хьран кIвал, хьар, хьран фу, ам арадиз гъидай технология чпихъ тай авачирди я. Симин пагьливанрин гьунарар, сумагар, сун гуьлуьтар хразвай дишегьлийрин алакьунар акур туристриз иниз мад гьилера хквез кIан жеда. КцIара ибур вири санал кIватIна кьилди кIвал-музеяр, хуьр-музеяр арадиз гьидай мумкинвилер ава. И рекьяй пешекарри галайвал авуртIа хъсан я.

Ктабдин и кьил КцIарин лезгийрин ацукьун-къарагъуниз, абурун адетриз, медениятдиз талукьарнава.

onların mədəniyyətləri ilə də fəxr etməyi bacarırlar. Belə olmasaydı, xalqlarımız əsrlər boyu çiyin-çiyinə, əmin-amanlıq və mehribanlıq şəraitində yaşaya bilməzdi.

İndiki qloballaşma, ultra müasirləşmə dövründə hər bir xalq etnik köklərə, milli dəyərlərə, etnoqrafik rəngarəngliklərə qayıdış yollarını axtarır. Etnoqrafik muzeyi xatırladan Qusarda da belədir. Burada nəinki respublikamızın əhalisini, o cümlədən dünyanın müxtəlif xalqlarının nümayəndələrini də təəccübləndirəcək və heyrətləndirəcək maraqlı şeylər çoxdur.

Beynəlxalq turizm mərkəzinə çevriləcək bir diyar həm də etnoqrafiya diyarı kimi tanıdılarsa, onun misli-bərabəri olmaz. Bu sahədə dünyanın bir sıra ölkələrinin maraqlı təcrübələri vardır. Milli memarlıqdan tutmuş məişətin özünəməxsusluqlarınadək seçilən rayonda ötən əsrlərin ab-havasını qoruyub saxlayan kəndlər, məhəllələr, evlər var. Onları təmir edib gələcək turizm marşrutlarına daxil etmək olar.

Burada milli yeməklərdən tutmuş, həyat tərzinə, adət-ənənələrə kimi hər şey maraq doğurur. Misal üçün, xərək, xərək çörəyi, onun hazırlanma texnologiyası təkrarsızdır. Kəndirbazların hünərini, xalça və sumaq, yun corab toxuyan qadınların bacarığını görən turistlər buranı maraqlı təəssüratlarla tərk edəcəklər. Qusarda bunların hamısını cəm halında əks etdirən, etnoqrafiya baxımından böyük maraq doğuran ev-muzeylər, kənd-muzeylər yaratmaq olar. Bu sahədə lazımi səy göstərilməsi ümumi işin xeyrinə olar.

Kitabın bu fəslində Qusar ləzgilərinin adət-ənənələrindən, mədəniyyətindən, özünəməxsus yaşayış tərzindən söhbət açılır.

## ЛЕЗГИЯР

Дегь чIаварин грек тарихчийрикай Страбона ва Геродота, чи эрадал къведалди ва чи эрадин I-III виш йисара яшамиш хьайи Рим-Византиядин тарихчийрикай Аполлони Родосскийди, Стефан Византийскийди, Корнели Тацита, Клавдий Птолемея ва масабуру, V-VIII асиррин тарихчийрикай Агофенгела, Корюна, Фавтос Бузанда, Мовсес Хоренациди, Егишеди, Себеоса, VII-IX виш йисара Къафкъазда хьайи араб тарихчийрикай Ал-Куфиди, Балазуриди, Ал-Масудиди, Ибн ал-Асира, Якъут ал Гьамавиди ва масабуру, алпан тарихчийрикай Моисей КьакьанкъатвацIвиди (Каланкатуйскиди) ва Есаи Жалаляна лезгийрин гьакъиндай марагълу малуматар ганва.

Урусрин тарихчийрикай И.Гербера, К.В.Тревера, В.В.Латышева, А.А.Кудрявцева, М.И.Артомонова, В.Ф.Минорскийди, К.М.Курдова, З.И.Ямпольскийди, И.Биберштейна, С.Н.Муравьева, А.Н.Генкоди, машгьур востоковед П.К.Услара, гьакIни XIX виш йисан урусрин са жерге машгьур кхьирагри ва журналистри лезги халкьдин тарихдиз, чIалаз, медениятдиз, адетриз, ацукьун-къарагъуниз талукь гегьенш материалар чапдай акъуднай.

Къафкъаздин Албаниядин, гьакIни лезгийрин тарих чирун патал Дагъустандин ва лезгийрин тарихчийрикай Гь.Алкьвадаридин, М.Ихилован, Р.Мегьамедован, Х.Рамазанован, А.Шихсаидован, А.Агъаеван, С.Агъашириновадин, З.Ризванован, Р.Ризванован, Азербайжандин тарихчийрикай А.Бакиханован, М.Багьарлыдин, И.Алиеван, З.Бунядован, К.Алиеван, Ф.Мамедовадин, Р.Вагьидован, Р.Геюшован эсерарни гзаф гереклубур я.

Лезгийрин тарихдикай X виш йисан эвелриз талукь "Ахтыname" эсердани гегьенщдиз кхьенва. Чара-чара девирра лезги тарихчийри ва алимри кхьей

## LƏZGİLƏR

Antik yunan tarixçiləri Strabon və Herodot, eramızdan əvvəl və eramızın I-III əsrlərində yaşamış Roma-Bizans tarixçiləri Apolloni Rodosski, Stefan Vizantiyski, Korneli Tasit, Klavdi Ptolemey və başqaları, V-VIII əsrlərin tarixçiləri Aqofenqel, Koryun, Favtos Buzand, Movses Xorenasi, Egişe, Sebeos, VII-XI əsrlərdə Qafqazda olmuş ərəb tarixçiləri əl-Kufi, Balazuri, əl-Masudi, İbn əl-Asir, Yaqut əl-Həməvi və başqaları, alban tarixçiləri Moisey Kaqankatvasi (Kalankatuylu) və Yesai Calalyan ləzgilər haqqında maraqlı məlumatlar vermişlər.

Rus tarixçilərindən İ.Gerber, K.V.Trever, V.V.Latışev, A.A.Kudryavtsev, M.İ.Artomonov, V.F.Minorski, K.M.Kurdov, Z.İ.Yampolski, İ.Biberşteyn, S.N.Muravyov, A.N.Genko, məşhur şərqşünas P.K.Uslar, həmçinin ötən əsrin bir sıra tanınmış rus yazıçıları və jurnalistləri ləzgi xalqının tarixi, dili, mədəniyyəti və adət-ənənələri haqqında ətraflı yazmışlar.

Qafqaz Albaniyası və ləzgilərin tarixi ilə bağlı Dağıstan və ləzgi tarixçilərindən H.Alqadarinin, M.İxilovun, R.Məhəmmədovun, X.Ramazanovun, A.Şixsaidovun, Ə.Ağayevin, S.Ağaşirinovanın, Z.Rizvanovun, R.Rizvanovun, Azərbaycan tarixçilərindən A.Bakıxanovun, M.Baharlının, İ.Əliyevin, Z.Bünyadovun, K.Əliyevin, F.Məmmədovanın, R.Vahidovun, R.Göyüşovun əsərləri böyük maraq doğurur.

Ləzgilərin tarixi küll halında X əsrin əvvəllərində yazılmış "Axtınamə" əsərində geniş əksini tapmışdır. Ayrı-ayrı əsrlərdə ləzgi tarixçilərinin, alimlərinin irs qoyduqları əsərlər, X əsrin birinci yarısında qələmə alınmış "Tarix Bab al-Abvab", Məhəmməd Rafinin 1313-cü ildə işıq üzü görmüş "Tarix Dağıstan", ləzgilərin X-XV əsrlər tarixini əhatə edən, 1610-cu ilə aid "Tarix Maza", Mirzə Həsən Alqadarinin XIX əsrin sonlarında çap olunmuş "Asari Dağıstan", M.M.İxi-



эсерар, гьакIни X виш йисан сад лагьай паюна къелемдиз къачунвай “Тарих Баб ал-Абваб”, Мегьамед Рафидин 1313-йисуз чап хьайи “Тарих Дагъустан”, лезгийрин X-XV виш йисарин тарихдикай рахазвай, 1610-йисаз талукь “Тарих Маза”, Мирза Гьасан Алкьвадаридин XIX виш йисан эхирра чап хьайи “Асари Дагъустан”, М.М.Ихилован “Къубадин лезгияр”, “Лезги халкьарин десте” ктабар, эхиримжи йисара Москвадин “Олимпия” чапханади чапдай акъудай “Лезгийрин тарих” сериядай эсерар лезги халкьдин тарих чирун патал гзаф къиметлу чешмеяр я.

Алай вахтунда лезгияр сигъдаказ Кьиблепатан Дагъустанда ва Кеферпатан Азербайжанда яшамиш жезва. Азербайжанда лезгияр Къуба, КцIар, Хачмаз, Шабран, Сиязан, Кьвепеле, Огъуз, Исмаиллы, Агьсу, Гуьйчай, Агъдаш, Шемкир ва маса районра яшамиш жезва. Баку, Сумгаит, Генже ва маса шегьерра абурун кьадар виш агъзурралди я. Дагъустанда лезгияр Мегьарамдхуьр, СтIал Сулейман, Ахцегь, Хив, Докъузпара, Кьурагь, Дербент, Рутул, Агъул, Хасавюрт ва маса районра яшамиш жезва. Магьачкъала, Дербент, Дагестанские Огни, Каспийск, Избербаш, Кизляр, Южно-Сухокумск хьтин шегьерра, Белидж ва Мамедкъала хьтин поселкайра абурун кьадар генани гзаф я. Санлай къачурла Дагъустанда ахьтин район ва шегьер авач хьи, ана лезгияр яшамиш тахьурай.

Лезгийрин къадим тайифаяр тир “лег” ва “гел” тайифайри дегь чIавара абур гила яшамиш жезвай Гуьлгери ва Кьудял вацIарин арада бине кутунай. Иранди Къафкъаздин Албания вичин пацук кутурдалай кьулухъ уьлкведин кеферпатан чилерал цIийи гьукуматар арадал атанай: Лезган, Муьшкуьр, Лайран, Филан. Юкьван асиррин араб чешмейра абурун тIварар ал-Лакз, Маскут, Лайран, Филан, гьакIни Лезганшагь, Лайраншагь, Филаншагь ва Маскур хьиз къалурнава.

XII-XIII виш йисара лезгияр яшамиш жезвай чилер Лекзистан (Лезгистан) хьиз сейли хьана. XVII-XIX виш йисара Къафкъаз чапхунчийрикай азад авун патал тухвай женгери лезгияр кьегьал халкь хьиз мад гьилера вириниз сейли авуна.

XVI-XVII виш йисара Кьиблепатан Дагъустанда лезгийрин кьилди Кьурагь вилаят ва пуд аслу тушир азад жемият - Ахтыпара, Алтыпара ва До-

lovun “Quba ləzgiləri”, “Ləzgi qrupu xalqları”, Z.Rizvanovun və R.Rizvanovun “Ləzgilərin tarixi”, həmçinin son vaxtlar Moskvanın “Olimpiya” nəşriyyatının “Ləzgilərin tarixi” seriyası ilə çap etdiyi əsərlər ləzgi xalqının tarixini öyrənmək üçün zəngin mənbələrdir.

Hazırda ləzgilər yığcam halda Şimali Azərbaycanda və Cənubi Dağıstanda yaşayırlar. Azərbaycan Respublikasında ləzgilər yığcam şəkildə Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Qəbələ, Oğuz, İsmayıllı, Ağsu, Göyçay, Ağdaş, Şəmkir və başqa rayonlarda yaşayırlar. Bakı və Sumqayıt ləzgilərin ən çox məskunlaşdığı şəhərlərdir. Dağıstanda isə ləzgilər Stal Süleyman, Məhərrəmkənd, Axtı, Xiv, Doquzpara, Qurah, Ağul, Rutul, Dərbənd, Xasavyurd və başqa rayonlarda yaşayırlar. Mahaçqala, Dərbənd, Kaspiysk, Daqestanskie Oqni, İzberbaş, Kizlyar, Yujno-Suxokumsk kimi şəhərlər, Bilici və Məmmədqala qəsəbələri ləzgilərin ən çox yaşadığı yerlərdir. Dağıstan Respublikasında elə rayon və şəhər yoxdur ki, orada ləzgilər yaşamasın.

Ləzgilərin “leg” və “gel” tayfaları qədim zamanlardan Gülgəri və Qudyal çayları arasındakı ərazilərdə yaşamışlar. Qafqaz Albaniyası İran tərəfindən işğal edildikdən sonra Albaniyanın bir çox vilayətləri müstəqil siyasi qurumlar yaratmağa cəhd göstərmişdir. Albaniyanın şimal torpaqlarında Lezgan, Müşkür, Layran, Filan dövlətləri yaranmışdır. Orta əsrlərin ərəb mənbələrində həmin dövlətlərin adları al-Lakz, Maskut, Layran, Filan və yaxud Lezganşah, Layranşah, Filanşah və Maskur kimi verilmişdir.



Lezgan ləzgilərin ən güclü tayfalarından olan lezglər tərəfindən təşkil olunmuşdu. XII əsrin sonu, XIII əsrin əvvəllərində ləzgilərin yaşadığı ərazilər Lekzistan (Ləzgistan) kimi tanınır və tarixi mənbələrə ölkənin adı belə düşür. XVII-XIX əsrlərdə ləzgilərin Qafqazda işğalçılara qarşı apardığı qəhrəmanlıq mübarizəsi bu döyüşkən xalqı daha da məşhurlaşdırmışdır.

XVI-XVII əsrlərdə Cənubi Dağıstanda ləzgilərin müstəqil Qurah vilayəti və 3 müstəqil azad icması - Axtıpara, Altıpara və Doquzpara yaranmışdı. XVIII əsrdə yaranmış Quba xanlığının tərkibinə müasir Quba və ona qonşu rayonlarla yanaşı, tarixi Şabran və Müşkür mahalları, həmçinin Cənubi Dağıstanın xeyli hissəsi də daxil idi.

Qafqaz müharibəsi başa çatdıqdan sonra Qafqazın

къузпара тешкил хьана. XVII виш йисуз арадиз атай Къуба ханлухдихъ гилан Къубадин ва къунши районрин, Шабран ва Муьшкуьр магьалрин, Кьиблепатан Дагъустандин гзаф чилерни акатзавай.

Къафкъаздин дяведилай гуьгъуьниз Къафкъаз Урусатдин табийвилик акатунихъ авсиятда ина урусрин идарачивилин система арадал атана. Азербайжандин лезгияр Къуба ханлухдиз, Кьибле Дагъустандин лезгияр лагьайтӀа, Дербентдин ханлухдиз табиярна. XIX виш йисан эвелра абуру меркез Кьурагь тир Куьре ханлух арадиз гъана. И ханлух 1812-йисуз Россиядик экечӀна. Къуба ханлух Къуба аялатдиз элкъвейла лезгийрин кьилди азад жемиятарни и аялатдик акатна. Ам беглери идара ийизвай 10 магьалдиз чара авунвай.

1839-йисуз Самур вацӀун къерехда пуд магьалдикай ибарат тир Самур округ яратмишна. 1840-йисуз Самур округ гьа йисуз арадиз гъайи Къуба уезддик акатна. 1846-йисуз Дербент губерния арадал гъайила Къуба уезддин Самур округдин, гьакӀни Куьре ханлухдин чилер и губерниядик акатна. 1860-йисуз Къуба уезд ва адак акатзавай вири чилер Баку губерниядин, Самур округ, Куьре ханлух ва маса лезги чилер лагьайтӀа, Дагъустан вилаятдин табийвилик акатна. Куьре ханлухдин эвезда Куьре округ яратмишна. 1868-йисалай кьилди азад лезги жемиятар Къафкъаздин Сердердин Идарадин структурайрик акатна.



1897-йисан малуматрив гекъигайтӀа, а вахтунда Дагъустандин 611 агъзурдалай гзаф агьалийрин 19,3 процент, яни 118 агъзур кас лезгияр тир. Гьа йисан малуматрай Азербайжанда абурун кьадар 93 агъзур кас тирди малум жезва. 1926-йисан переписдин нетижайри СССР-да лезгийрин кьадар 134536 къалурнава. Статистикадай аквазвайвал, 1970-йисуз СССР-да лезгийрин кьадар 323800 кас тир. Абурукай 162700 кас Дагъустанда, 137300 кас Азербайжанда яшамиш жезвай. 1989-йисан переписди лезгийрин кьадар 466006 кас тирди къалурнава. Идакай 257270 кас РФ-да, 172000 кас Азербайжанда, амайбур СССР-дин чара-чара республикайра яшамиш жезвай.

Эхиримжи сиягьдиз къачунрай малум жезвайвал, Дагъустанда 255,8 агъзур, Азербайжанда 178 агъзур, Урусатдин вилаятра 98 агъзур лезгияр яшамиш жезва. Гьакъикъатда абурун кьадар са шумудра тӀимиларна къалурнава. Лезгияр дуьньядин 50-далай гзаф уьлквейра яшамиш жезва.

Rusiyanın təbəəliyinə keçməsi nəticəsində burada Ümumrusiya inzibati idarəçilik sistemi tətbiq edildi. Azərbaycan ləzgiləri Quba xanlığına, Samur çayından Dərbəndə qədər ərazidə yaşayan ləzgilər isə Dərbənd xanlığına tabe edildilər. XIX əsrin əvvəllərində onlar mərkəzi Qurah olmaqla Küre xanlığını yaratdılar. Bu ləzgi xanlığı 1812-ci ildə Rusiyanın tərkibinə daxil edildi. Quba xanlığı Quba əyalətinə çevriləndə ləzgilərin azad icmaları da bu əyalətə daxil idi. Əyalət bəylər tərəfindən idarə edilən 10 mahala bölünmüşdü.

1839-cu ildə Rusiya inzibati ərazi sisteminə müvafiq olaraq Samur çayı hövzəsində 3 mahaldan ibarət Samur dairəsi yaradıldı. 1840-cı ildə isə Samur dairəsi həmin ildə yaradılan Quba qəzasına daxil edildi. 1846-cı ildə Dərbənd quberniyası yaradılanda Quba qəzası, həmçinin ona daxil edilmiş Samur dairəsi və Küre xanlığının əraziləri də bu quberniyaya qatıldı.

1860-cı ildə Quba qəzası və onun tərkibinə daxil edilmiş ərazilər Bakı quberniyasına, Samur dairəsi, Küre xanlığı və başqa ərazilər isə Dağıstan vilayətinə daxil edildi. Küre xanlığının yerində Küre dairəsi yaradıldı. 1868-ci ildən azad kənd icmaları Qafqaz canişinliyi idarəsinin daha münasib sayılan dövlət strukturlarına keçdi.

1897-ci ildə keçirilmiş əhalinin Ümumrusiya siyahıyaalınmasına görə o vaxt Dağıstanda yaşayan 611 mindən çox əhalinin 19,3 faizi, yəni 118 min nəfəri ləzgilər idi. Həmin ilin statistika məlumatına görə Azərbaycanda 93 min ləzgi yaşayırdı.

Əhalinin 1926-cı ildə keçirilmiş Ümumittifaq siyahıyaalınmasına görə o vaxt SSRİ ərazisində ləzgilərin sayı 134536 nəfər olmuşdur. Rəsmi məlumatlara görə 1970-ci ildə SSRİ-də yaşayan ləzgilərin sayı 323800 nəfər idi. Onlardan 162700 nəfəri Dağıstanın, 137300 nəfəri isə Azərbaycanın payına düşürdü. Nəhayət, 1989-cu ildə keçirilmiş Ümumittifaq siyahıyaalınması ləzgilərin sayının 466006 nəfər olduğunu müəyyənləşdirdi ki, bunun da 257270 nəfəri Rusiya Federasiyasının, 172000 nəfəri Azərbaycanın, qalanları isə SSRİ-nin müxtəlif respublikalarının ərazisində yaşayırdı.

Sonuncu siyahıyaalmanın nəticələrinə görə Dağıstanda 255,8 min, Azərbaycanda 178 min, Rusiyanın ayrı-ayrı vilayətlərində 98 min ləzgi yaşayır. Həqiqətdə ləzgilərin sayı rəsmi məlumatlarda göstərildiyindən bir neçə dəfə çoxdur. Ləzgilər dünyanın 50-dən çox ölkəsində yaşayırlar.

### *Туьркверин тарихчи Шерафеддин Эрелан 1961-йисуз Истанбулда чап хьайи “Дагъустан ва дагъустанвияр” ктабдай*

“Инсаниятдин кьеб ва ватан яз гьисабзавай Къафкъаздин тIвар гьида ва гьи чIавуз ганвайди ятIа малум туш ва идахъ авсиятда лагьанвай фикирарни риваят яз ама. Сад лагьай риваятдай аквазвайвал, и тIвар Къафкъаз лугъудай са чубандин тIварцIелай къачунва. Са маса риваятда лугъузва: Къафкъаз тIвар фарс чIала дагъдин мана гузвай “кугь” ва къадим туьрк чIала “лацу” мана гузвай “кас” гафарикай арадиз атанвайди я. Дагъустанда къедалди Самур вацIун яхада кьакьан пелел “Къафкас” тIвар алай са хуьр ала. Къафкъаздин тIварцIи лезги чIалал “ксарин дагъ” хьтин мана гузва.

***Лезгидин къилихар:*** Лезгийрикай дуьньядин алимри лагьанвай гафар гьакъикъатдив кьадайбур я: абур гзаф жуьрэтлу, женгчи, къайгъудар, гафуниз амал ийидай, илимдални алимрал рикI алай, мугьманар гзаф кIандай, тIарам кIалубдин, чIехи вилер, шабалтдин рангунин чIарар, иер акунар авай, къени къилихрин, гзаф акьуллу, къенят ийиз алакьдай, четинвилериз дурум гудай, яргъалди уьмуьр гьалдайбур я.

Малте Брунда лезгийри яргъалди уьмуьр гьалуниз абуру тIимил ва михьи ризкьи тIуьн ва нефес къачузвай гьава михьиди себеб тирди къейд авурдалай кьулухъ кхьенва: “Лезги дяведа кьенвачтIа, вич рекьизвайди аян хьайила, хизан кьилив кIватIна, ада вичин мал-девлет авай чка абуруз лагьайдалай гуьгъуьниз хъуьреда ва чан гуда. Лезги дишегьлийрин иервал вири дуьньядиз сейли я, гьабурни чпин ксар хьиз жуьрэтлу я”.

Гуржийрин са риваятда лезгиярни картвелар (гуржияр) Ликос ва Картлос лугъудай кьве стхадикай туьремиш хьанвайди я лугъузва. Мад гьа риваятда *лек* тIвар Дербентдинни Гуржистандин арада авай чилерал пачагь хьайи Таргомаша вичин дуьнья дегишарайла адан чкадал хьайи хцин тIварцIелай, Ликосалай къачунвайди я лугъузва. Геродота Искит шагьдин хизандикай ихтилатдайла шагьдин хва тир Ликосни рикIел хкизва.

Чпин къадим тIварар Лег ва Гел тир лезгийриз Страбона “Легес”, латин авторри “Легеа”, араб авторри “Лекз”, фарсари “Лекзан” лагьанай. Гуржийри абуруз “Леки”, урусри “Лезгин” лугъузва. Пункьил Азиядай тир ва къенин Дагъустандин халкьар арадиз гъайи тайифайрин чIехи пай тир лезгийрилай, тарихдин басрухриз килиг тавуна, чпин чилерал чеб хуьз алакьна. Лезгийри Дагъустанда тек жуввал хвенач, гьакIни къунши халкьар чпин арада цIурурдай бажарагъни къалурна. Идалай гъейри

### *Türk tarixçisi Şərafəddin Erelin 1961-ci ildə İstanbulda çap olunmuş “Dağıstan və dağıstanlılar” kitabından*

“İnsan oğlunun beşiqi ve vatanı söylenen Kafkasyanı bu ismin kimler tarafından ve ne zaman verildigi kesin olarak bilinmemekle, bu hususda ileri sürülen fikirler birer rivayat olarak kalmakdadır. Birinci rivayata güre bu isim Kafkas adlı bir iskit çobanının adına nisbetle verilmişdir. Başka bir rivayat da şudur: Kafkas ismi farscada “dağ” menasına gelen “kuh” ile eski türkcede “beyaz” menasına gelen “kas” kelimelerinin birleşmesinden meydana gelmişdir. Halen Dağıstanda Samur nehri havzasında yalçın bir tepe üzerinde “Kafkas” adında bir köy kalmaktatır. Kafkas adı, lezgi dilinde “Kasların dağı” menasına gelmekdedir.

***Lezgi xarakteri:*** Lezgilerin çok cesur, muharip, ayni zamanda cefakar, sözlerine sadik, ilmi va alimleri seven, misafirperver, vücut yapıları itibariyle mütenasip, iri gözlü, kestane saçlı, güzel yüzlü, taban çok müstait, üstün bir zekaya sahip, kanaatkar, zorluklara dayanaklı ve uzun ümürlü olduklarında dunya bilginleri müttefikdir.

Malte Brun, Lezgilerin uzun ömürlü olmalarında az ve temiz gida ile iktifa etmelerinin ve teneffüs ettikleri havanın çok saf oluşunun başlıça sebep olduğunu kaydettikten sonra: “Eger Lezgi, savaşta ölmemiş ise, ölecegini hissedinçe ailesi efradını yatağının etrafına toplar, servetinin yerini onlara bildirdikten sonra gülümseyerek ruhunu teslim eder” der. Lezgi kadınlarının da güzellikleri bütün dünyaca meşhurdur ve erkekleri gibi çesurdurlar”.

Gürcüler arasındakı bir rivayete göre Lezgilerle Kartveller (Gürcüler) Likos ve Kartlos adlı iki kardeşten türemişlerdir. Yine aynı rivayetlerde Lek ismi, Derbent'ten Gürcistan'a kadar olan topraklarda hüküm surmuş bulunan Targomaş ile vefatında yerine geçen oğlu Likostan gelmektedir. Heredot, İskit kral ailesinden bahsederken Likos adlı bir prensin ismini zikreder.

Eski isimleri Legge ve Gele olan Lezgilerden Strabon “Leges”, Latın müellifleri “Legea”, Arap müellifleri “Lekz”, Persler “Lekzan” diye bahsetmişlerdir. Gürcüler bunlara “Leki”, Ruslar da “Lezgin” demektedirler. Asya menşeli olan ve bugünkü Dağıstanlılar camiasını teşkil eden kabilelerin nüvesi sayılan Lezgiler, birçok akınlara uğramış olmalarına rağmen bugünkü yerlerinde mevcudiyetlerini muhafaza edebilmek kudretini göstermişlerdir. Lezgiler Dağıstanda yalnız varlıklarını korumakla kalmamışlar, aynı zamanda etraflarındnakı konşularını da aralarına alarak eritmek başarısını göstermişlerdir. Bunlardan başka, bugün mevcudiyetleri kalmamış olan Albanlarla Alanlar ve doğudan

къе чеб амачир албанарни аланар ва гьакIни рагъэкъечIдай патай рагъакIидай пата кьван вири чилер чпин пацук кутаз алахъай са кьадар арабарни лезгийрихъ какахьна, чпин чIал ва жуввал квадарна, лезги хьана.

Профессор Зеки Велиди Тогъана "Умуми Туьрк Тарихдиз Гьахьун" тIвар ганвай эсерда кхьенва: "Дербентдинни Ширвандин арада яшамиш хьайи гьезерарни къипчагъар вахтар алатунивай чкадин агьалийрихъ какахьна, лезги хьанай. Лезгийри са вахтунда туьрксверни вичин къене цIурурнай... Гьугъуьнлай Ирандай ва Волгадай атай къипчагърин ва селжукь туьрксверин, яни огъузрин рагъакIидай пата кьиле фейи гьерекатди Дагъустандизни таъсир авуна. Османлыйри, Тимурлуйри, гьакIни Агъ ва Къаракъойунлуйри сефевийрихъ галаз санал туькIуьрай чIехи гьукуматри Дагъустан дегиш хьуниз таъсирна".

## ЛЕЗГИ ЧIАЛ

Лезги чIал Дагъустандин чIехи чIаларикай я. И чIалан группадик лезги, табасаран, агъул, рутул, цIахур, къирицI, будугъ, арчи, удин, хиналугъ чIалар акатзава. Абурукай вад кхьинар авачир чIалар я. Лезги чIал Дагъустандин чIаларин группадин иберкъафкъаз чIаларикай я. И чIалал рахазвайбур гзафнигзаф Азербайжанда ва Дагъустанда яшамиш жезва.

Лезги чIал пуд чIехи наречидикай (куьре, къуба ва ахцегь), ругуд диалектдикай (гуьне, яркIи, кьурагь, къуба, ахцегь, фияр) ва гзаф кьадар гъвечIи нугъатрикай ибарат я. Литературадин чIал гуьне диалектдал бинеламиш хьанва. Фонетикадин система ачух тушир гьарфаралди девлетлу я. Падежриз дегиш хьунин система тафаватлу я. Лезги чIалахъ 18 падеж ава.

## ЛЕЗГИЙРИН АЛФАВИТ

Чи чилерал алпан ва араб гьарфаралди гафар кхьенвай къванер тIимил гьалтзавач. Санлай къачурла, лезгийри икьван гагьди вад алфавитдикай менфят къачунва: алпан, араб, Усларан, латин ва кирилл алфавитрикай.

Гьеле 1871-йисуз мамрачви Кьазанфер бег Зуьлфикъарова туькIуьрай цIийи лезги алфавитда ва урусрин алим П.К.Услара 1896-йисуз Тифлисда чап авур "Куьре чIал" ктабда 49 гьарф авай. Лезги фонемар авайвал агакьариз алахъай Услара чка атунивай ингилис ва гуржи гьарфарикайни менфят къачунай.

1928-1938-йисара латин алфавит кардик квай. Кирилл графикадал элячIай вахтунда 49 лезги гьарф урусрин 33 гьарфуналди ишара ийин мумкин хьанач ва гьавиляй чIалан алимри са шумуд лезги фо-

batıya yöneltilen büyük göç dalğalarının buralarda biraktığı kalintileriyle Arap fatihlerinin stratejik noktalara yerleştirdikleri Araplar dahi Lezgilere karişmişlar, dillerini ve benliklerini kaybederek Lezgileşmişlerdir.

Profesör Zeki Velidi Toğan "Umumi Türk Tarihine Giriş" adlı eserinde: "Derbent ile Şirvan arasında yerleşen her nevi Hazar ve Kipçak unsurları zaman geçdikçe yerli ahali ile karışarak hep Lezgi oluyorlardı. Türk unsurlarını mutemadiyen kendi muhitinde eriten Lezgiler de Tuna havzasındakı Macarlar gibi damarlarında her şeyden çok Türk kanı akan bir unsur olmuştur" demekle bu hususu kayıt ve tesbit etmiştir. Sonradan İran, Volga üzerinden gelmeye başlayan Kipçak ve Selçuklu Türklerinin, yani Oğuz boylarının batıya doğru yayılan dalğası, Dağıstanda büyük bir tesir yapmıştır. Osmanlıların, Timurluların, Ak ve Karakoyunlularla Safevilerin kurdukları büyük Türk devletleri de Dağıstanda büyük degişliklere sebeb olmuştur.

## LƏZGİ DİLİ

Ləzgi dili Dağıstanın böyük dillərindən biridir. Bu dil qrupuna ləzgi, tabasaran, ağul, rutul, saxur, qırız, buduğ, arçi, udin, xınalıq dilləri daxildir. Onlardan beşi yazısız dillərə aiddir. Ləzgi dili Dağıstan dilləri qrupunun iber-qafqaz dillərindən biridir. Bu dildə danışanlar ən çox Azərbaycan Respublikasında və Dağıstanda yaşayırlar.

Ləzgi dili üç böyük ləhcədən (Küre, Quba, Axtı), altı dialektdən (Güne, Yarki, Qurah, Quba, Axtı, Fiyar) və xeyli şivələrdən ibarətdir. Ləzgi ədəbi dili Güne dialekti əsasında formalaşmışdır. Ləzgi dilinin fonetik sistemi özünəməxsus xüsusiyyətləri ilə seçilir. Bu dil samitlərlə olduqca zəngindir. Hallanma sistemi zəngin olub, 18 haldan ibarətdir.

## LƏZGİ ƏLİFBASI

Ləzgilərin yaşadığı yerlərdə alban və ərəb hərfləri ilə yazılmış kitabələrə tez-tez təsadüf olunur. Ümumiyyətlə, ləzgilər indiyə kimi beş əlifbadan istifadə etmişlər: alban, ərəb, Uslar, latın və kiril əlifbalarından.

Hələ 1871-ci ildə rus alimi P.K.Uslar Tiflisdə çap etdirdiyi "Küre dili" kitabında 49 hərf vermişdi. Ləzgi fonemlərini olduğu kimi verməkdə çətinlik çəkən alim yeri gəldikcə ingilis və gürcü hərflərindən də istifadə etmişdi.

1928-1938-ci illərdə latın əlifbasından istifadə olunmuşdur. Kiril əlifbasına keçərkən 49 ləzgi hərfini rusların 33 hərfi ilə işarə etmək mümkün olmadığına görə dilçilər bir neçə ləzgi fonemini aradan çıxardılar və rus əlifbasından ləzgi dilinə yabançı



***Алпандин алфавит*** ***Alban əlifbası***



***П.К.Усларан алфавит*** ***P.K.Usların əlifbası***

нем арадай акъудна. Абуру урус алфавитдай чи алфавитдиз лезги чIалаз герек тушир ***е, щ, э, ю, я, ъ, ь*** хьтин гьарфар гьана. Гьавиляй алай вахтунда лезги чIала са кьадар фонемар агакьзавач ва гзаф гафар лугьузвайвал кхьиз жезвач.

Алай вахтунда лезгийри кирилл гьарфаралди кхьизва ва гилан алфавитда 45 гьарф ава. Алпан алфавитда лагьайтIа, чи эрадин V виш йисалди 52 гьарф авай. А гьарфари лезги чIалан вири сесер кьалурзавай. Гилан гьарфаривай чи чIалан са кьа-

olan ***е, щ, э, ю, я, ъ, ь*** kimi hərfləri gətirdilər. Buna görə də hazırda ləzgi dilində bir sıra fonemlər çatışmır və bir sıra sözlər tələffüz olunduğu kimi yazılmır.

Hazırda ləzgilər kiril qrafikasından istifadə edirlər və bu əlifbada 45 hərf vardır. Alban əlifbası eramızın V əsrinə kimi 52 hərfdən ibarət idi. Alban əlifbası ləzgi dilinin bütün səslərini ifadə etməyə imkan verirdi. Hazırkı hərflər isə dildəki bir sıra səsləri ifadə etmək iqtidarında deyildir.

дар сесер къалуриз жезвач.

Алфавитда гьатнавай 11 гьарфуниз ачухбур лугьуда: ***а, е, ё, и, о, у, уь, ы, э, ю, я.*** Амайбуруз ачух туширбур лугьуда: ***б, в, г, гъ, гь, д, ж, з, й, к, къ, кь, кӀ, л, м, н, п, пӀ, р, с, т, тӀ, ф, х, хъ, хь, ц, цӀ, ч, чӀ, ш, щ, ъ.*** Са гьарф ***-ь*** я ачухбурук, я ачух туширбурук акатзавач.

### ЛЕЗГИ ЧӀАЛАН КЪУБА НАРЕЧИЕ

1929-йисуз "СССР-дин ИА-дин хабарар" журналдин чинриз урусрин чӀехи алим А.Н.Генкодин "Лезги диалектологиядикай малуматар. Къуба наречие" тӀвар ганвай эсер акъатнай. И илимдин кӀвалахда ада сифте яз лезги чӀалахъ куьре ва ахцегь наречийрилай гъейри къуба наречини авайди къалурнай. И малумат чӀалан илимда чӀехи вакъиадиз элкъвенай. КцӀара экспедицияда хьайи, тӀигьирви Абубекер Гьажибегован куьмекдалди лезги чӀалаз талукь гзаф къейдер тухвай алимди Къуба наречидин кьетӀенвилер ачухарнай.

И рекьяй кьвед лагьай кам чи камалэгьли, сейли алим Мегьамед Гьажиева вегьенай. Ада вичин уьмуьрдин эхиримжи йисар къуба диалект чируниз серф авунай. Алим КцӀарин, Къубадин, Худатин хуьрера къекъвенай. 1954-1955-йисара ам ара датӀана Къуба патан хуьрерин агьалийрин рахунрик гелкъвенай. Алимди КцӀар райондин Хьилер, ГадацӀийихуьр, Ясаб ва Пирал хуьрера ахтармишунар тухвана, инин агьалийрин рахунрал бинеламиш хьана "Лезги чӀалан къуба диалект" тӀвар ганвай ктаб кхьенай. И эсердалди ада лезги диалектологиядин илимдин бине кутунай. 1957-йисуз М.Гьажиева "Аних (Уьнуьгъ - С.К.) хуьруьн рахунрин са бязи кьетӀенвилер" тӀвар ганвай макъала чапдай акъуднай. 1963-йисуз чапдай акъуднавай вичин "Лезги чӀалан диалектология" ктабда лезгийрин тӀвар-ван авай алим Ражидин Гьайдарова къуба нугъатрин 1500 гаф ганва.

Къуба нугъатар чи сейли алим, "Лезги диалектологиядин очеркар"(1964) ктабдин автор, филологиядин илимрин доктор Унейзат Мейлановадини илимдин рекьяй ахтармишнай. Адан 1992-йисуз Тбилисида урус чӀалал чапдай акъудай "Лезги чӀалан къуба наречидин кузун диалект", мад гьа йисуз Букар Талибовахъ галаз санал кхьена, урус чӀалал басма авур "Къуба наречие лезги диалектрин системада юкьван чка кьазвай гьалкъа хьиз" макъалайра марагълу фикирар гьалтзава. Вичин "Лезги чӀалар" ктабда (2008) Муьзеффер Меликмамедова сифте яз къуба наречие пуд диалектдикай - къуба, кцӀар ва хьимил-куьснет диалектрикай ибарат тирди къалурна.

И делилри Къуба нугъатар лезги чӀалан девлетлу нугъатрикай тирди мад гъилера субутзава.

Əlifbadakı 11 hərfə saitləri əmələ gətirən hərflər deyilir: ***а, е, ё, и, о, у, уь, ы, э, ю, я.*** Yerdə qalanlar samitləri əmələ gətirən hərflər adlanır: ***б, в, г, гъ, гь, д, ж, з, й, к, къ, кь, кӀ, л, м, н, п, пӀ, р, с, т, тӀ, ф, х, хъ, хь, ц, цӀ, ч, чӀ, ш, щ, ъ.*** Bir hərf ***-ь*** ya samitləri, ya da saitləri əmələ gətirən hərflərə aid deyil.

### LƏZGİ DİLİNİN QUBA LƏHCƏSİ

1929-cu ildə "SSRİ EA-nın xəbərləri" məcmuəsində böyük rus alimi A.N.Genkonun "Ləzgi dialektologiyasından məlumatlar. Quba ləhcəsi" adlı əsəri çapdan çıxmışdır. Bu əsərdə alim ilk dəfə ləzgi dilinin Küre və Axtı ləhcələrindən başqa Quba ləhcəsindən də ibarət olduğu barədə məlumat vermişdir. Bu məlumat dilçilik elmində mühüm hadisəyə çevrilmişdir. Qusar rayonunun Düztahir kəndində ekspedisiyada olmuş alim həmin kəndin sakini Abubəkər Hacıbəyovun köməyi ilə xeyli ləzgi sözlərinə şərhlər vermiş və Quba ləhcəsinin xüsusiyyətlərini açıqlamışdır.

Bu sahədə ikinci addımı məşhur ləzgi alimi Məhəmməd Hacıyev atmışdır. O, ömrünün son illərini Quba ləhcəsini öyrnməyə həsr etmiş, Qusar, Quba və Xudat rayonlarında ardıcıl tədqiqatlar aparmışdır. 1954-1955-ci illərdə Quba bölgəsinin bir sıra kəndlərində olmuş alim Qusar rayonunun Hil, Gədəzeyxür, Yasab və Piral kəndlərində dəyərli tədqiqatlar aparmış, yerli əhalinin danışığına əsaslanaraq "Ləzgi dilinin Quba dialekti" adlı kitab yazmışdır. Bu əsərlə o, ləzgi dialektologiyasının əsasını qoymuşdur. M.Hacıyev "Anıx (Əniğ - S.K.) kəndinin danışığının bəzi xüsusiyyətləri" adlı məqalə də yazmış, onu 1957-ci ildə çap etdirmişdir. Ləzgilərin tanınmış alimi Raciddin Heydərovun 1963-cü ildə çap olunmuş "Ləzgi dilinin dialektologiyası" kitabında Quba ləhcəsinə aid 1500 söz verilmişdir.

Ləzgi dilinin Quba ləhcəsi və onun dialektlərini məşhur alim, "Ləzgi dialektologiyasının oçerkləri" (1964) kitabının müəllifi, məşhur dilçi alim, filologiya elmləri doktoru Uneyzat Meylanova da araşdırmışdır. Onun 1992-ci ildə rusca Tbilisidə çap etdirdiyi "Ləzgi dilinin Quba ləhcəsinin Kuzun dialekti" və həmin il Bukar Talibovla birgə Mahaçqalada buraxdırdığı "Quba ləhcəsi ləzgi dialektləri sistemində orta mövqe tutan halqa kimi" məqalələrində maraqlı fikirlər irəli sürülür. Müzəffər Məlikməmmədov "Ləzgi dilləri" kitabında (2008) ilk dəfə olaraq ləzgi dilinin Quba ləhcəsinin üç dialektdən - Quba, Qusar və Qımıl-Küsnət dialektlərindən ibarət olduğunu göstərmişdir.

Bütün bunlar Quba ləhcəsinin ləzgi dilinin öz dialektləri olan zəngin ləhcələrindən biri olduğunu bir daha sübut edir.

## ЛЕЗГИДИН КIВАЛ

*Лезгияр гзаф михьивал кIандайбур я; абурун кIвалер адет яз кьве гьавадинбур я, кIвалер я чиг кирпичдив, яни хранвай кьуларив эцигна сувагъда, абуруз кьеняй ва къецикай эгьенг ягъада. Са цлан пипIе къул жеда, утагъра кьакьандиз туькIуьрнавай тIакIара къапар кIватIда, чилиз халича, яни сумаг экIяда.*

***Бестужев Марлинский, 1830-йис.***

Лезгийри адет яз кIвалер гуьнейра, пелерал, вацIариз, булахриз мукьва, тIебиатдин иер маканра, гуьлуьшан ва авадан чкайрал эцигда. Къадим девирра кIвалер милли архитектурадив, халкьдин адетрив кьадайвал эцигдай. Гьар кIвале руш ва гада аялар патал кьилди утагъар авай. Гъуьлуьнни папан утагъ хьиз, хизандин кьуьзуьбурун (чIехи бубадин, бадедин ва мсб.) утагъарни чара тир. Виридалайни чIехи ва пара экв аватзавай, хъсандиз туькIуьрнавай утагъ мугьмандиз чара ийидай ва адаз “тавдин кIвал” лугьудай.



Са къайда яз кIвалерин чин рагъ галайнихъ жеда. КцIарвийрини - кIандатIа хуьре яшамишрай, кIандатIа райондин меркезда, кIвалер кьве гьавадинбур эцигда. Сад лагьай гьава майишатдин затIариз чара ийида. Кьвед лагьай гьавада чеб яшамишда. Кьакьан, элкъвез-элкъвез ахъа айванар кутада лезгийри. Абуруз “вад айванарни” лугьуда. Халкьдин са баядда лугьузвайвал:

*Кьакьан синел вад айванар,*
*Вад айванар гар галаз хьуй.*
*И дуьньядал жедай вад югъ*
*РикIиз кIани яр галаз хьуй.*

Гьар кIвалихъ кьилди гьамбарханаяр жеда. Ина адет яз техил ва маса недай-хъвадай затIар хуьда. Багъдинни салан майваяр хъсандиз сувагънавай фурара хуьда. Техил ва гъуьр хуьн патал кьилди къапар гьазурда. Абур тIваларикай храна палчухдив сувагъда. Лезгийри адет яз кIатI,



***Яргунда къадим кIвалин “вад айванар”***
***Həzrədə qədim evin “beş eyvanları”***

## LƏZGİ EVİ

***Ləzgilər çox təmizkardırlar; onların evləri adətən iki mərtəbəli olub ya çiy kərpicdən, ya da toxunma taxtadan tikilib suvanmışdır, evlərin içi və çölü bir qayda olaraq ağardılır. Bir divarda küncdə soba olur, otaqlarda adamların boyu bərabərində rəflərə qablar düzülmüşdür, döşəməyə palaz və ya xalça döşənmişdir.***

***Bestujev Marlinski, 1830-cu il.***

Ənənəvi ləzgi evləri təpələrdə, hündür yerlərdə, çaya və bulağa yaxın, təbiətin gözəl qoynunda, abad və gülşən yerlərdə ucaldılır. Qədim dövrlərdə evlər milli memarlıq üslubunda inşa edilirdi. Qız və oğlan uşaqları üçün ayrıca otaqlar nəzərdə tutulurdu. Ər-arvadın otağı kimi, ailənin yaşlı üzvlərinin (baba, nənə və s.) otaqları da ayrı idi. Ən geniş, işıqlı və bəzəkli otaq adətən qonaq üçün ayrılır. Ona “tav” (qonaq otağı) deyilir. Burada qonağın rahat dincəlməsi üçün yaxşı şərait yaradılır.

Evlər bir qayda olaraq gündoğana baxır. Kənddə və ya şəhərdə yaşamalarından asılı olmayaraq, ənənəvi ləzgi evləri ikimərtəbəli olur. Onun birinci mərtəbəsi təsərrüfat və məişət ehtiyacları üçün ayrılır. İkinci mərtəbə isə yaşayış üçün nəzərdə tutulur. Hündür, dövrələmə eyvanlar ləzgi memarlığı üçün xasdır. Onlara xalq arasında “beş eyvanlar” deyirlər. Bir xalq mahnısında bu barədə belə deyilir:

*Uca yerdə qərar tutan*
*Beş eyvana külək dolsun.*
*Bu dünyada keçən beş gün*
*Könül sevən yarla olsun!*

Hər evin ayrıca anbarı olur. Burada ailənin ərzaq ehtiyatı saxlanır. Meyvə və tərəvəzdən ötrü anbarın döşəməsində qazılıb səliqə ilə suvanmış üstü bağlı dayaz quyular hazırlanır. Taxıl və un saxlamaq üçün isə adətən çubuqlardan hörülüb palçıqla suvanmış qablardan istifadə edilir. Ləzgilər

канду ва закIандикай менфят къачуда. КIатI тахминан зур тон, канду са тон, закIан са тондилай гзаф техил хуьн патал я. Гьамбарханада гьакIни чIем, ниси хуьдай къапарни тада. Ина цIун кIвале менфят къачузвай къапар тадай тIакIар дуьзарда. А тIакIара цурцун бекьеяр, къажгьанар, некIегьанар, хвахвар, мудаяр, хъенчIин кутарар ва маса затIар эцигда.

Лезгийри кулаяр, кутIаларни ина хуьда.



*КIатI* *Kat*



*ЗакIан* *Zakan*



*Канду* *Kandu*

ənənəvi olaraq kat, kandu və zakandan istifadə edirlər. Kat təxminən yarım ton, kandu bir tonadək, zakan isə 1 tondan çox taxıl tutan qablara deyilir.

Anbarda həmçinin yağ və pendir saxlamaq üçün ayrıca qablar qoyulur. Burada mətbəxdə işlədilən qablardan ötrü ayrıca rəflər düzəldilir. Onlara mis qazanlar, dolçalar, sərniclər, tabaqlar yığılır. Ləzgilər ot daşımaqdan ötrü toxunmuş zənbilləri də burada saxlayırlar.



*Киле* *Kilə*



*Кула* *Kula*



*Куьшуь* *Küp*



*Квач* *Kvaç*

## ТАВДИН КIВАЛ

***Лезгидин кIвал музейдиз ухшар я: михьи, экуь. Тешпигь авачир халичаяр, абурун винелай куьрсарнавай хенжел, тур, тфенг, иер нехишар атIанвай къадим къапар акур гьар са кас пагь атIана амукьда. Авайвал лугьун хьи, и затIар арадал гъизвай абурун итимарни дишегьлияр чпихъ зурба алакьунар авай устIарар я.***

***Фритьоф НАНСЕН,***
***Норвегиядин алим. 1925-йис.***

Гьар лезгидин кIвалин кьетIен лишан ана мугьманар патал чара авунвай кьилди утагъ хьун я. Адаз тавдин кIвал лугьуда. Адет яз и кIвалин ракIар анжах мугьманриз ачухарда. Адан чилиз виридалайни хъсан халича экIяда, винел цIийи лагьличаяр эцигда, ана рикI алаз раснавай мескъуьж жеда. Мугьмандин вилик тадай къапарни кьилдинбур хьун адет я.

## QONAQ OTAĞI

***Ləzginin evi muzeyə bənzəyir: təmiz, işıqlı. Bənzərsiz xalçaları, onların üstündən asılmış silahları - xəncəri, tüfəngi, gözəl naxışlı qədim qabları görən hər kəs heyran olur. Sözün düzü, bunları yaradan kişilər və qadınlar olduqca bacarıqlı sənətkarlardır.***

***Frityof NANSEN,***
***Norveç alimi. 1925-ci il.***

Ləzgi evinin ayrıca qonaq otağı olur. Ona tav evi deyirlər. Adətən belə otaqlardan ailə üzvləri istifadə etmir, yalnız qonaqlar gələndə onun qapılarını açırlar. Bu otağın döşəməsinə evin ən qiymətli xalçaları döşənir, üstünə xüsusi işlənmiş yastıqlar qoyulur. Buranın yorğan-döşəyi də fərqli olur. Qonağın qabağına ən yaxşı qab-qacaq düzülür.

Ləzgi evləri əsrlər boyu qıfıl görməyib. Qusarın

Лезги хуьрера кIвалерал куьлегар хьун адет тушир. КцIарин гзаф хуьрери къедалди и адет хуьзва. Абуру кIвалер са анжах йифиз жефтедив, яни кIиринив кIевирда. Къуншийри сад садан салаз физ-хквен патал ракIарар тада. Усунар лагьайтIа, малар гьахь тавун патал тадай инсанри. Къванцин паруяр хкаждай адет лезгийри къунши халкьаривай къачуна. Гила КцIарин меркезда хьиз, хуьрерани къакьан паруйрал дуьшуьш жезва.

Тавдин кIвале умуми безекдин затIарилай гъейри, кIвалин иесийрин алакьунар къалурдай затIарни жеда. Урус авторри кхьизвайвал, кIвале авай иер чешнейрин халичайри, сумагри, чилин къалийри дишегьлидин алакьунрикай хабар гуда. КIвале халичаярни сумагар гзаф аватIа, им хизанда руш аялар пара ава лагьай чIал я. Цлакай куднавай тур, хенжел, къеме, тфенг хьтин яракьри, са пипIе тунвай иер шкафди, столди, стулди, тIамадинни шагьматдин тахтайри кIвалин итимдин алакьунар къалурдай. Жуьреба-жуьре яракьар гзаф кудун хизанда гада аялар гзаф авайди къалурзавай лишан тир.



*Мугьманар патал лагьличаяр.*
*Qonaqlar üçün döşəkçələr.*

əksər kəndləri bu adəti indiyə kimi qoruyub saxlayıb. Kənd camaatı yalnız gecələr qapılarını cəftə və ya keçirtmə ilə bağlayırlar. Bir-birinin bağına, evinə rahatlıqla gedib-gəlmək məqsədilə qonşuların bağları arasında qapı qoymaq adəti bu günə qədər qalmaqdadır. Çəpər anlayışı rəmzi məna daşıyıb, yalnız mal-qaranın həyətlərə girməməsi üçün olub. Daş barılar ucaltmaq adəti ləzgilərə qonşu xalqlardan keçib. İndi təkcə Qusarın mərkəzində deyil, onun kəndlərində də bu cür barılara təsadüf etmək olar.

Qonaq otağında ümumi bəzək əşyalarından əlavə ev sahiblərinin əl qabiliyyətini əks etdirən əşyalar da qoyulur. Rus müəlliflərinin yazdıqları kimi, evdəki rəngarəng xalçalar, sumaqlar və digər toxunma əşyalar sahibənin səriştəsindən xəbər verir. Əgər evdə xalçalar və sumaqlar çoxdursa, bu, ailədə qız uşaqlarının çoxluğuna işarədir. Divardan asılmış qılınc, xəncər, qəmə, tüfəng və başqa silahlar, üzərində zərif naxışlar açılmış şkaf, stol, stullar, dama və şahmat taxtaları ev sahibinin bacarığını göstərir. Əgər divardan silahlar çox asılıbsa, bu, ailədə oğlan uşaqlarının çoxluğuna işarədir.

## ХЬРАН КIВАЛ

***Лезги майишатдин кьетIенвилерикай садни ам я хьи, гьар гьаятда яшайишдин кIвалелай гъейри хьран кIвални жеда.***

Инаг фу чрадай кьилди чка я. Адет яз хуьрера, райондин меркезра кIвал эцигзавайбуру гьа са вахтунда гъвечIи са кIвални эцигда. Ина садбуру хьралай гъейри тIанурни туькIуьрда.

Хьар лезгийрин дегь чIаварин къуларикай сад я ва адахъ вичин махсус технология ава. Ам хъсан устIарри яру накьвадикай, чепедин руквадикай, куьлуь чиргъиникай ва цIегьрен чIарарикай палчух ишинна, гьадакай расда. Ихьтин хурхадилай са гьафтедин къене гьил элкъуьрда.



## XƏRƏK EVİ

***Ləzgi məişətinin özəlliklərindən biri yaşayış evindən başqa hər həyətdə ayrıca xərək evinin də olmasıdır.***

Burada yalnız çörək bişirilir. Evin təmizliyinə xüsusi diqqət yetirilir. Adətən kənd yerlərində, rayon mərkəzlərində ev ucaldanlar eyni zamanda həyətdə kiçik bir tikili də inşa edirlər. Burada xərək və təndir quraşdırılır.

Xərək ləzgilərin ən qədim ocaqlarından biri olub, xüsusi texnologiya əsasında quraşdırılır. O, peşəkar ustalar tərəfindən qırmızı gil, saxsı tozu, xırda çınqıl və keçi tükündən ibarət palçıqdan hazırlanır. Belə palçıq yaxşıca qarışdırılır, bir həftə ərzində ona əl gəzdirilir və spesifik qoxu ilə seçiləndə ondan xə-

Герек тир формада расайдалай кьулухъ хьар са шумуд юкъуз кьурурда. Ахпа вичин чкадал эцигна, къвалар сувагъда.

Пуд гьавадин къулаз ухшар тир хьар дуьз сач я. Ам кIвачерал хкажна къерехар хурхадив кьада, винел пад усунда. Хьрак цIай кутурла фу сачунал кIаникай цIун ифинди, винелай ялавди чурурда.





Хъсан хьра гумдач, ана гьар 2-3 декьикьада са фу чрада. Адет яз кайванийри гьар гьилера 15-20 фу чрада.

## ХЬРАН ФУ

Лезги фу Ракъиниз ухшар жеда. Имни чи мифологиядихъ галаз алакъалу я. Алупандин кьилин гъуц тир Ракъиниз икрамзавай лезгийри фу гьадаз ухшарарда. Ам гъвар галай ва галачир тинидикай чрада. Гъвар галайдаз *къатай фу*, галачирдаз *тIили фу* лугьуда. Ихьтин фу тинидикай 1 см-дин яцIувиле лавашар акьална, винел цIакулрив нехишар атIана, къатух, яни кака галай це куьцIуьрнавай гьил къекъуьрна чрада. Хьран фу гьвел-гьвел жедач, ам 10-15 юкъуз баят жедач.

Лезгийрихъ агъадихъ галай фарин жуьреяр ава: хьу (лап къадим фу), хьул, чарфу, къакъвацI, лаваш, базламач, сачун фу, акат фу, къулан фу, чар авай фу, шткар, ниси квай фу, мукаш квай фу, хвех авай фу, тIунутI, ширин фу, гузан, алуга, цIалуг, баклук, черекун ва мсб.

Фу чран кьилди процесс я, ада гзаф инсанри иштиракда. Гьар кIвале хьар аватIани, сада фу чрадайла, нубатдалди къунши дишегьлиярни хьрак къведа. Ифей хьра фу чран регьят тирвиляй инсанар сад садан хьрак фида. ВерцIи ихтилатар патал идалай хъсан чка жагъидач. Сусар хкягъзавайбурни гагь-гагь хьрарик фида. Ина фу чразвай рушан акьул, камал, адан алакьунар гьасятда винел акъатда.

Хьран кIвал адет яз михьиз хуьда. Адан чилиз хамар, цIуру сумаг экIяда. Фу чрана куьтягьайла, дишегьлийри санал я цикIен, я афарар, я шакIукIа, яни чар авай фу чрада.

rək düzəldilir və qurumağa qoyulur. Sonra xərəyi yerində quraşdırır, böyürlərini suvayandan sonra bir neçə günlüyə qurumağa qoyurlar.

Xərək spesifik xüsusiyyətləri ilə seçilən ocaqdır. Forma etibarilə o, üçmərtəbəli sobanı xatırladır. Düz formalı sacı ayaqlar üzərində quraşdırıb, kənarlarını suvayırlar. Onun üstü buxarı formasında hörülür. Xərəkdə od qalananda alov dilləri onun bacasından çıxıb ikinci mərtəbədə bişən çörəyin üstünü örtür. Buxarı isə istinin çölə çıxmasına imkan vermir, alovun qənaətlə sərfinə şərait yaradır. Beləliklə, çörəyin altı qaynar sacın, üstü isə alovun köməyi ilə bişir. Yaxşı ustanın hazırladığı xərək tüstülənmir, onda bir çörəyin bişməsi 2-3 dəqiqə çəkir. Adətən evdar qadınlar bir dəfəyə 15-20 çörək bişirirlər.

## XƏRƏK ÇÖRƏYİ

Ləzgi çörəyi Günəşi xatırladır. Bu da xalqın mifologiyası ilə bağlıdır. Alupanın baş allahı sayılan Rağa (Günəşə) səcdə edən ləzgilər çörəyi ona oxşadıb bişirirlər. O, mayalı və mayasız xəmirdən qalın lavaş yayılıb, üstü lələklənməklə hazırlanır. Onu xərəyə qoymazdan əvvəl üstünə yumurtalı su və ya ayran çəkilir ki, çörəyin üzü yaxşı qızarsın. 20-dən çox çörək növləri ilə tanınan ləzgi mətbəxi üçün xarakterik olan mayalı (къатай) və mayasız (тIили) çörək bişirməyi bütün ləzgi qadınları bacarırlar. Xərək çörəyinin çoxlu üstünlükləri var. Bu çörək ovulmur, 10-15 gün kif atmır.

Ləzgilərin aşağıdakı çörək növləri var: хьу (ən qədim çörək növü), хьул, чарфу, къакъвацI, лаваш, базламач, сачун фу, акат фу, къулан фу, чар авай фу, шткар, ниси квай фу, мукаш квай фу, хвех авай фу, тIунутI, ширин фу, гузан, алуга, цIалуг, баклук, черекун ва мсб.

Çörək bişirilməsi ayrıca proses olub, onda çoxlu insanlar iştirak edir. Hər həyətdə xərək evi olmasına baxmayaraq, adətən bir qadın xərəyə od salanda, məhəllə qadınları da xəmir yoğurur, növbə ilə çörək bişirirlər. Şirin söhbətlər, mehriban ünsiyyətlər üçün xərək evindən əlverişli yer təsəvvür etmək çətindir.

Xərək evinin döşəməsinə heyvan dəriləri, köhnə palaz və ya sumaq sərilir. Çörək bişirildikdən sonra adətən bir yerdə tsıkan, afar, yağlı fətir, şakuka bişirilib yeyilir. Sonra isə çay dəstgahı başlanır.

КцIара фу чрана маса гузвай хсуси цехер гзаф ава. Ингъе Натикьан фу сад лагьай чкадал ала. Адан туьквенда гьамиша лезгийрин тIили фу, кьатай фу, чар авай фу, сачунин фу, сачунин чар авай фу, чIулав гъуьруьн фу ва маса жуьрейрин фар жеда. Натикь ва Солмаз Шалбузоври хьран кIвалин михьивилиз, чразвай фан технологиядиз кьетIендаказ фикир гузва. Абуру фу анжах кIарасдал чрада, гьавиляй фахъ кьетIен дад жеда.

Qusarda çörək bişirməklə məşğul olan şəxsi sexlər çoxdur. Lakin Natiqin çörəyi birinci yerdədir. Onun dükanında həmişə ləzgilərin mayalı və mayasız çörəyi, sac çörəyi, yağlı fətir, qara undan bişirilmiş çörək və sairə olur. Natiq və Solmaz Şalbuzovlar xərək evinin təmizliyinə və çörəkbişirmə texnologiyasına xüsusi diqqət yetirirlər. Onların çörəyi odunda bişdiyinə görə onun dadı da yaxşı olur.



*Чар авай фу* *Yağlı fətir*



*Кьатай фу* *Mayalı çörək*



*Сачунин фу* *Sac çörəyi*



Эхиримжи йисара хьран кIвалера девирдив кьадай хьрар эцигун деб хьанва. Ихьтин хьрар столдин кьакьанвиле тукIуьрда, дишегьлийри фу кIвачел акъвазна чрада.

КцIара гзаф кIвалера ихьтин хьрарикай менфят къачузва. Ихьтин хьрара фу чран адетдин хьрара чурунилай регьят я.

Son illər xərək evlərində müasir xərəklər qoymaq dəbə düşüb. Bu cür xərəklər stol hündürlüyündə quraşdırılır, qadınlar çörəyi ayaq üstə bişirirlər.

Qusarda bir çox evlərdə bu cür xərəklərdən istifadə olunur. Müasir xərəklərdə çörək bişirmək ənənəvi xərəklərdə çörək bişirməkdən rahatdır.

*Чи девирдин хьар* *Müasir xərək*

## КIИ ФУ

Са береда кцIарвийри лезгийрин дегь чIаварин фарикай тир кIи фу фад-фад чрадай. Иллаки хъуьтIуьн цикIиз, бедента витаминар тIимил хьайи вахтунда гзаф хизанар кIи фан тадаракдихъ гелкъведай. Садбуру адаз кIи афарни лугьудай.

Гуьлгери къуьл твар-твар михьна, чуьхуьдай. Яд куьзна, агъдин турбада туна, къулан патавай куддай. Къуьлуь сад хьиз цIир гайила, ам экIяна, хъсандиз кьурурдай. Идалай кьулухъ ам регьведай. Афар патал са бади гъуьруькай гъуруш гьазурдай. Чараз лаваш акьална гъуруш лавашдал алтаддай, пипIиш, яни кунз гьазурна, хьрак чрадай. Хьрай акъудна, адан винел патаз гьери ядай. КIи фахъ шоколаддин ранг, иситIадин дад жедай. Им аялрин рикI алай фу тир.

## Kİ FU

Bir vaxtlar qusarlılar ləzgilərin qədim çörək növlərindən olan ki fu bişirərdilər. Ələlxüsüs qışda, bədəndə vitaminlər azalanda bir çox ailələr ki çörək tədarükünü görərdilər. Bəziləri bu çörəyə ki qutabı da deyirlər.

Gülgəri buğdasını dən-dən təmizləyir, yaxşıca yuyurlar. Suyunu süzüb, bez torbaya doldurur və ocağın yanında divardan asırlar. Buğda cücərəndə, onu sərib qurudur, sonra üyüdürlər. Ki çörəyi bişirmək üçün həmin undan bir boşqab götürür, ondan qarışma düzəldirlər. Ayrıca lavaş yayır, həmin qarışmanı lavaşın üstünə çəkib, pipiş və ya kunz düzəldib, xərəkdə bişirirlər. Bişmiş çörəyin üstünü yaxşıca yağlayırlar. Ki çörəyi şokolad rəngində olub, isita (halva) dadı verir. Bu, uşaqların sevdiyi çörək idi.



## ТIАНУРДИН ФУ

Къафкъаздин гзаф халкьари хьиз, лезгийрини дегь чIаварилай фу чран патал тIанурдикай менфят къачузва. Хьран кIвале хьралай гъейри тIанурни жеда. ТIанур цилиндрдиз ухшар къул я. И къул кьве жуьреда расда. Виликан девирра чил фур хьиз эгъуьндай ва хьар расзавай хурхадикай менфят къачуна, тIанур кутадай. Ихьтин тIанурди цIай яргъалди хуьда ва фу генани хъсандиз чрада. Кьвед лагьай жуьредин тIанур чиливай са юкI кьван кьакьанда раснавай къул я. Ихьтин тIанурар алатай асирдин 50-60-йисарилай инихъ генани пара пайда хьана.

ТIанурда фу чран гзаф зегьмет алай кар я, ам гьар садалай алакьдач. И кардик викIегь ва алакьунар авай дишегьлийри кьил кутада. Хъсан фу хъсан тIанурда чрада лугьуда. Гьавиляй тIанур эцигунив рикI алаз эгечIда. ТIанурда чрай фан атир вири хуьруьз чкIида.

Хуьрера тIанурдикай чуьхверар, ичер, хутар ва маса майваяр кьурурун патални менфят къачуда.



## TƏNDİR ÇÖRƏYİ

Qafqazın bir çox xalqları kimi ləzgilər də qədim zamanlardan bəri çörək bişirmək üçün xərəklə yanaşı təndirdən də istifadə edirlər. Xərək evində xərəklə yanaşı təndir də olur. Təndir silindrə oxşar sobadır. O, iki cür quraşdırılır. Əvvəllər təndiri yeri dairəvi qazmaqla torpağın içərisində yerləşdirirdilər. Onun hazırlanmasından ötrü xərək düzəldilən xüsusi palçıqdan istifadə olunurdu. Belə təndir közü uzun müddət saxlayır və burada bişirilən çörək dadı ilə seçilir. Başqa cür düzəldilən təndirlər də var. Onlar yerin üstündə quraşdırılır. Belə təndirlərin sayı ötən əsrin 50-60-cı illərindən sonra artmışdır.

Təndirdə çörək bişirmək zəhmət tələb edən, çətin iş olduğuna görə onun öhdəsindən hər qadın gəlmir. Bu işə qoçaq və bacarıqlı qadınlar girişirlər. Yaxşı çörək yaxşı təndirdə bişər, deyirlər. Ona görə də təndirin quraşdırılmasına xüsusi fikir verilir. Kəndin yuxarı başında bişən təndir çörəyinin ətri aşağı hissəsinə gedib çıxır. Kənd yerlərində təndirdən həm də alma, armud, gavalı və başqa meyvələr qurutmaq üçün istifadə olunur.



## ЛЕЗГИЙРИН ЦIУН КIВАЛ

***Лезгийрин цIун кIвал Къафкъаздин халкъарин девлетлу цIун кIвалерикай я. Адахъ анжах вичиз хас тIуьнар гзаф ава.***

**Шурва**

Лезги мехъеррин абур тир шурвадив къведай хуьрек авач. Ам суфрадал вири тIеамрилай вилик гъида. КIараб галай гьерен, яни малдин як чуьхвена, винел акъатдайвал яд ичIирда, каф къахчурдалай кьулухъ къажгъандин кьил кIевирна чрада. Ахпа ам куьзна, артух кIарабрикай михьда. Гзаф чичIегни як санал къавурмишда, адак са тIур гъуьрни какадарна, къавурмиш хъувуна, чкал аладарнавай помидор ва я томат кутуна са герен чран хъувуна, якIун яд, картуфар, кьуру хутар, чараз чранвай нахутIар, кьел, истивут вегьена тIимил цIал чрада. Жез мукьва са картуфни са тIур нахутIар цикай хкудна, шупIна, цIийи кьилелай хуьрекдиз хъивегьда. КIар-кIарнавай кIешниш, яни шивит алава ахъувуна, кьил кIевирда. 15-20 декьикьадилай шурва гьазур я.

**Бугълама**

ЦIийи як, гьерен тум, кIар-кIарнавай чичIегар, кьурурнавай хутар, кьел, истивут кутуна къажгъандин кьил цIийиз акьалнавай лавашдив кIевирда, зайиф цIал чрада.

**Миталжимдин аш**

Адетдин лезги ашдин кIан ширинди жеда, адак цуру са затIни кутадач. Малдин, яни гьерен кIараб галай як чрада, ам кIарабрикай михьда. Чараз куьлуьз кIар-кIарна къавурмишнавай чичIег, кишмиш, машмаш, михьнавай чиг шабалут какадарна гьадри (якIун бульон) ичIирда, кьел, истивут ва са тIур песок какадарна, тIимил цIал чрада. Дуьгуь куьзна, кIан экIяна къажгъандиз вегьида, ргар гьери ичIирда, тIимил цIал ракьунал демина тада.

## LƏZGİ MƏTBƏXİ

***Ləzgi mətbəxinin Qafqaz xalqlarının mətbəxi ilə müəyyən oxşarlığı olduğu kimi, onun özünəməxsus yeməkləri də çoxdur.***

**Şurva**

Ləzgi toylarının şah yeməyi şurva sayılır. Odda bişirilmiş şurvanın dadından doymaq olmur. Onu sümüklü qoyun və ya mal ətindən hazırlayırlar. Ət doğranıb təmiz yuyulur. Üzünə çıxana kimi su doldurulub odun üstünə qoyulur. Kəfi yığılandan sonra bişirilir. Sonra ət süzülür, artıq sür-sümükdən təmizlənir. Çoxlu soğanla yağda qovrulur, hazır olana yaxın ona bir xörək qaşığı un qatılır və yenidən qovrulur, tomat və ya pomidor vurulur. Sonra qaynar işgənə, əvvəlcədən bişirilmiş noxud, soyulub doğranmış kartof, alça qurusu qatılır, duz, istiot əlavə olunub vam odun üstünə qoyulur. Hazır olana yaxın bir bişmiş kartof və bir qaşıq noxud əzilib ona qarışdırılır. Təzə keşniş və ya şüyüd əlavə olunub qapağı örtülür və 15-20 dəqiqə saxlanır. Bundan sonra yemək hazırdır.

**Buğlama**

Bunun üçün doğranmış təzə ət, quyruq, soğan və quru gavalı götürülür. Dəfnə yarpağı, quru istiot dənələri, duz əlavə olunur. Qazanın qapağı təzə yayılmış lavaşla bərkidilir, vam odda bişirilir.

**Mitalcimli aş**

Ənənəvi ləzgi aşının qarası şirin olur. Ona turş meyvə quruları qatılmır. Qara üçün yağlı qoyun və ya mal əti qaynadılır, süzülüb iri sür-sümükdən təmizlənir. Ona yağda qovrulmuş soğan, kişmiş, ərik, soyulmuş çiy şabalıd qatılır, duz, istiot, bir qaşıq şəkər vurulur, işgənəsi əlavə olunub vam odda dəmirin üstündə bişirilir. Düyüsü süzülür, qazanın dibinə qazmaq düzüləndən sonra əlavə olunub, yağ qatılıb dəmə qoyulur.



*Нагьвар* *Məcməi*



*Квар* *Səhəng*





*НекIегъанар* *Sərniclər*

**Чубандин аш**

И аш керкил дуьгуьдикайни гьерен якӀукай чрада. Кьвед-пуд чичӀег куьлуь-куьлуь кӀар-кӀарна, дуьдгьвердал къавурмишда. Чуьхвенвай якӀун кӀусар гьа чичӀегдихъ галаз са герен къавурмиш хьийида. Адаз кьелни истивут вегьида. Чуьхвенвай дуьгуь винел эчӀирна, ргазвай яд алава хьийида. Къажгъандин кьил кӀевирна, тӀимил цӀал чрада.

**Кинидин аш**

Хъсан кайванидин кӀвале гьамиша кинияр жеда. Абур кьилди тинидикай шуькӀуьз атӀана, кьурурда.

Кьел галай ргазвай циз вегьена гьасятда хкудда, суьзекдай куьзда. Къажгъандин кӀане чранвай верч, яни гьерен кӀараб галай якӀар экӀяна, винелай кинияр вегьена, демина чрада.

**Пахладин аш**

Куьлуь лацу пахлаяр эвелдай чрада. КӀерецдин хвехвер регъведа. Дуьгуь куьзайдалай кьулухъ къажгъанда ашдин кӀан твада. Кьве кака, са тӀур къатух, яни суьзме какадарна, чранвай дуьгуьдикай 2-3 тӀур вегьена, кьел кутуна какадарда, ахпа ргар къажгъанда чрада. Идалай кьулухъ ам экӀяна, винелай са къат дуьгуь, са къат пахла, са къат кӀерецар хьун шартӀуналди са шумуд къат арадиз гьида. Ргазвай чӀем эчӀирда, тӀимил цӀал демина тада.

**Хурма хинкӀар**

ЩӀудралди жуьрейрин хинкӀаррикай менфят къачузвай КцӀарин лезгийрин суфрайрин ярашух тир тӀуьнрикай сад хурма хинкӀар я. Тини какадал ишинда. 1 см-дин яцӀувиле лаваш акьалда. Адакай 1 смдин гьяркьуьвиле цӀилер атӀуда. И цӀилерикай 1 смдин кӀусар атӀуз, абурал тӀуб илисиз, хурмадин форма гуда. Ргазвай вечрен, яни гьиндушкадин циз вегьена 10 декьикьада чрада. Къапуниз акъудайла адан винелай къавурмишнавай чичӀег, регъвенвай кӀерецар, гъвел-гъвелнавай ниси алахда. Чара къапуна серг квай къатух тада.

**Çoban aşı**

Bu aş yumru düyüdən və qoyun ətindən bişirilir. İki-üç baş soğan xırda-xırda doğranıb, kərə yağında qızardılır. Ona doğranmış ət tikələri əlavə olunur, duz, istiot vurulur və bir yerdə qovrulur. Üstünə əvvəlcədən yuyulmuş yumru düyü tökülüb, üzünə çıxana kimi qaynar su əlavə olunur. Qapağı örtülüb, vam odda bişirilir.

**Əriştə aşı**

Bu aşı bişirmək hər qadının işi deyil. Səriştəli qadının evində həmişə quru əriştə olur. O, nazik yayılmış lavaşdan uzunsov, nazik doğranıb qurudulur.

Qaynayan duzlu suda bircə dəqiqə bişirilib süzülür. Qazanın dibinə bişmiş toyuq və ya qoyun əti düzülür. Üstünə süzülmüş əriştə tökülüb, dəmə qoyulur.

**Lobyalı aş**

Xırda ağ lobya əvvəlcədən bişirilir. Qoz ləpəsi əzilir. Düyü süzüldükdən sonra qazanın dibinə qazmaq düzülür. Bunun üçün iki yumurta, bir qaşıq qatıq və ya süzmə çalınır, ona süzülmüş düyüdən 2-3 qaşıq qatılır, sarıkök, duz vurulur. Qazmaq qaynayan şit yağda qovrulur, sonra qazanın dibinə bərabər şəkildə yayılır. Bir qat lobya, bir qat qoz ləpəsi, bir qat düyü olmaq şərti ilə bir neçə qat düzülür. Üstünə ərinmiş qaynar kərə yağı tökülür. Qapaq dəsmalla örtülüb qaynar dəmirin üstündə vam odda dəmə qoyulur.

**Xurma xəngəli**

Mətbəxində onlarca növ xəngəli olan Qusar ləzgilərinin süfrələrinin bəzəyi olan yeməklərdən biri xurma xəngəlidir. Onu hazırlamaq üçün xəmir yumurta ilə yoğrulur və 1 sm qalınlıqda yayılır. Həmin lavaşdan 1 sm enində uzun zolaqlar kəsilir və borucuq şəklinə salınır, onlardan 1 sm-lik tikələr kəsilir, qırağı baş barmaqla basılır və xurma forması verilir. Xurmalar qaynayan toyuq və ya hinduşka işgənəsində 10 dəqiqə bişirilir. Məcməiyə süzülüb üstünə qızardılmış soğan, ovulmuş pendir, əzilmiş qoz ləpəsi səpilir. Ayrıca qabda sarımsaqlı qatıq qoyulur.



*Куьшуь* *Küp*



*КӀуьцуь* *Bardaq*



*Къажгъан* *Qazan*



*Тип ва кутар* *Tip və kuzə*

**Пахла галай некIед хапIа**

Кьуру пахлаяр чараз ргада. ЧичIег ягълавда гьеридал къавурмишда. Ргазвай некIедиз чранвай пахлаяр, аладарна чIукнавай картуфар, кьел, истивут вегьена зайиф цIал чрада. ХапIа жез мукьва къавурмишнавай чичIег, кьуру къанжикьар алава хъийида. Къажгъандин кьил кIевирна, ам 20-25 декъикъада дем къачун патал тада.

**ЦкIан (ЦикIен)**

Лезгийрин дегь чIаварин тIуьнрикай тир цкIан гзаф тIямлу тIуьн я. Са цкIанди са хизан тухарда. Вучиз лагьайтIа адахъ гзаф затIар кутада. Адет яз цкIан регьвенвай ягълу гьерен якIукай чрада. Адак куьлуьз кIар-кIарнавай чичIег, картуфар, пIишнавай кIерецдин хвехвер, кьел, истивут, кьурурнавай къанжукьар какадарда. Къатай тинидикай кьве лаваш акьална, чар атадда. Гьазурнавай як са лавашдал экIяна, муькуьди винелай эцигна, къерехар кIевирна ифирнавай хьрак, яни духовкада чрада. Ам ягълавда туна, кьил кIевирна газдални чраз жеда. КцIарвийрин цкIан арада кьелечI лавашар аваз, са шумуд къатунинди жеда. Гьазур хьайила, цкIан акъудна яцIу суфрадик кутада. Зур сятдилай нез жеда. КцIарви дишегьлийри таквадин, шурадин, келемдин цкIанарни чрада.



**ШакIукIа**

Адаз "лезгийрин питца"ни лугьуда. Лезгийри шакIукIани Ракьиниз ухшарарна чрада. Таза шурни какаяр сад садак какадарда, кьелни истивут кутада. Ахпа лаваш акьална, ада чар атадда. Са герендилай ам акьал хьувуна, винел цупIуррив нехишар твада. Шурни какаяр лавашдал алтадна, хьрак чрада. Аялриз пара кIандай шакIукIа гзаф дадлу ва атирлу жеда.



**Семена**

Семена йиса садра, Яран суварилай вилик чрада. Лезги дишегьлияр суварин суфрадин кьилин ярашух тир семена чрадай виридалайни хъсан устIарар я. Адан тадаракар суварилай 15-20 югъ вилик ийида. Гуьлгери къуьл хъсандиз чуьхуьда ва суфрадик кутуна, яд илична къулан патав тада. ЦIир аврула

**Südlü paxla şorbası**

Quru paxla əvvəlcədən bişirilir. Soğan ayrıca qabda yağda qovrulur. Qaynayan südə bişmiş paxla, soyulub doğranmış kartof, duz, istiot əlavə edilərək vam odda bişirilir. Şorba hazır olana yaxın ona qovrulmuş soğan, quru kəklikotu qatılır və qapağı kip örtülərək 20-25 dəqiqə müddətinə dəmə qoyulur. Bundan sonra yemək hazırdır.

**Tsıkan**

Ləzgilərin qədim yeməklərindən olan tsıkan bərəkətli və doyumlu olması ilə seçilir. Bir tsıkan böyük bir ailəni doyura bilir. Çünki onun tərkibində çoxlu komponentlər olur.

Tsıkan ət maşınında çəkilmiş yağlı qoyun ətindən hazırlanır. Ona xırda-xırda doğranmış soğan, kartof, əzilmiş qoz ləpəsi əlavə olunur. Quru kəklikotu, duz, istiot vurulur. Mayalı xəmirdən lavaş yayılır, yağlanıb kündələnir. Bir qədər sonra ondan iki lavaş yayılır. Lavaşlardan birinin üstünə hazır qiymə qoyulur, o birisi ilə üstü örtülür və qıraqları bərkidilir. Tsıkan ikiqat və ya üçqat da olur. Onun hər layının arasına bir nazik lavaş qoyulur. Xərəkdə, qızdırıcı peçdə və ya sobada bişirilir. Hazır olandan sonra qalın süfrənin arasında 20-25 dəqiqə saxlanır. Qusarlı qadınlar ətli tsıkandan başqa toq adlı pencərli, şorlu və kələmli tsıkanlar da hazırlayırlar.

**Şakuka**

Ona "ləzgi pitsası" da deyilir. Şakuka da formasına görə günəşə oxşayır. Əvvəlcədən iç hazırlanır. Bunun üçün təzə şorla çalınmış yumurta qarışdırılır, ona duz, istiot əlavə olunur. Sonra lavaş yayılır, yağlanıb kündələnir. Bir qədər keçəndə ondan lavaş yayılır, lələklənir, üstünə həmin kütlə yaxılıb qaynar xərəkdə bişirilir. Uşaqların çox sevdikləri bu yemək olduqca dadlı və ətirli olur.

**Səməni**

Səməni ildə bir dəfə, Bahar bayramı ərəfəsində bişirilir. Mürəkkəb texnologiyası olan bu yemək bahar süfrəsinin yaraşığıdır. Ləzgi qadınları səməni bişirməyin ustasıdırlar. Onun hazırlığına bayramdan 15-20 gün əvvəl başlanır. Bunun üçün əvvəlcədən arıtlanıb yuyulmuş Gülgəri buğdası torbaya doldurulub, üstünə

къуьл синида экIяда. Щирер сад хьиз хкаж хьайила (къуьлуьн кIан хьипи хьана кIанзавач, ктIай къуьл акахьайтIа семена туькьуьл жеда) абур суьзекда чуьхуьда ва яд куьзна машинда регъведа. Ахпа турбада туна, яд хкудна, гьа яд къажгъанда тугъагъа хьиз звал акьалтдалди ва экъи жедалди зайиф цIал чрада. Хъсандиз чрай семенадин ранг экуьди жеда: я хьипиди жедач, яни туракьди. Семена къайиз неда. Яргъи хъуьтIяй акъатна, беденда витамин тIимил хьанвай чIавуз семенадин тай авач.



### ТIач

Лезгийрин дегь чIаварин хъунрикай сад тир тIач къедалди КцIар райондин хуьрера чрада. Вирида-лайни хъсан еридинди Аварандал гьазурда. Аваранвияр тIач чрадай устIарар тирвиляй абуруз "ТIач аваранар" лугьуда. ТIач гьазурун патал сифте къуьл михьда (6 кьил хизандиз 3 бади) ва ам чими цив чуьхуьда. Суфрадик кутуна къулан патав тада. 2-3 юкъуз цIирдалди адаз герен-герен яд гуда. Щирай къуьл синида экIяда. Истикандив яд акьалтдалди гатада. Куьзна адан яд тугъагъа хьиз чрада. ТIач гьам хъваз жеда, гьамни фахъ галаз нез жеда.

### Афарар

Лезгийри адет яз афарар недай хъчарикай чрада. Хъчарин жуьреяр гьикьван гзаф хьайитIа, афар гьакьван даддлу жеда. ПипIишар ва кунз иллаки пара чрада. *ПипIиш* лавашдин са пIипI муькуь пипIел эцигна чранвайдаз лугьуда. Кьве лавашдин арада хъчар туна чрайла адаз *кунз* лугьуда.



Кунз Kunz



ПипIиш Pipiş

### ИситIа

Лезгийрин мел- мехъеррин кьетIен лишанрикай сад иситIа я. Ам нишандин ва мехъерин вахтунда чрада. Сусан сандухда иситIа хьун герек я. Ам булвилин, рузидин, верцIивилин (чими рафтарвилерин) лишан я. Адет яз иситIа синийра твада.

Ам гьазурун патал гъуьредал яд хьичIирна ада-кай пирпилар ийида. Ахпа сафунай акъудна, гъуьр хкудна, адаз ргар чIем алава хьийида ва акадариз-акадариз цIал чрада. Шекер галай яд ичIирна, мад-

su çilənib, isti yerdə qoyulur. Buğda dənələri bərabər qaydada cücərti verəndə, onlar sinilərə yığılır və isti yerdə qoyulur. Hər gün ona su çilənir. Səməni boy verəndə (o, çürüməməlidir, yoxsa səməni acı olar) aşsüzəndə yuyulur, süzülüb ətçəkən maşından keçirilir. Qazana tökülüb dovğa kimi, qatılaşanacan vam odda bişirilir. Səmənini soyuq halda yeyirlər. Uzun qışdan sonra vitaminləri azalmış bədən üçün bunun qədər xeyirli və ləzzətli yemək təsəvvür etmək çətindir. Yaxşı bişmiş səmənin rəngi açıq olur.

### Taç

Ləzgilərin qədim içkilərindən biri olan taç Qusarın kəndlərində bu günə kimi hazırlanır. Taçın sənətkarları Avaran kənd sakinləri olduğuna görə bu kəndi "Taç avaranlılar" adlandırırlar. Taç üçün buğdanı təmizləyir (6 baş ailəyə 3 kasa həcmində) və isti suda yuyurlar. Süfrəyə bükүb isti ocağın yanında qoyurlar. Cücərənə kimi 2-3 gün ərzində tez-tez onun üstünə su səpirlər. Cücərmiş buğdanı siniyə sərirlər. Su salana kimi stəkanla əzir, süzüb, suyunu dovğa kimi bişirirlər. Onu həm içki kimi içmək, həm də içinə çörək doğrayıb yemək olar.

### Afarar

Ləzgilər göy qutabını belə adlandırırlar. Ləzgi afarı həcmi və işlənən tərələrin müxtəlifliyi ilə seçilir. Adətən həyətdə bitən göyərtidən deyil, çöl pencərindən istifadə olunur. Ləzgi afarının bir neçə növü vardır. *Pipiş* yayılmış lavaşın bir tərəfinə göyərti yığılıb o biri tərəfi ilə örtülənə deyilir. *Kunz* dairəvi olur. Bunun üçün iki lavaş yayılır, onlardan birinin üstünə göyərti düzülür, o biri ilə üstü örtülür.

### İsita

Ləzgi toylarında vacib yeməklərdən biri isita (halva) sayılır.Onu həm nişan mərasimlərində, həm də toylarda bişirirlər. İsita mehriban münasibətlər rəmzidir. İsitanı iri mis məcməilərə qoyurlar.

Onu hazırlamaq üçün əvvəlcə una su çilənir və umac hazırlanır. Sonra ələkdən ələnir, umaca qaynar yağ əlavə olunub yaxşıca çalınır və odun üstündə qarışdırılaraq bişirilir. Əvvəlcədən hazırlanmış şəkərli su qatılıb yenidən bişirilir. Qaynar halda məcməilərə

ни гьа къайдада чрада. ИситIа синийриз акъудна, винел нехишар атIуда. Са береда лезги хуьрер иситIайрин винел алай нехишралди тафаватлу жедай. Чпихъ алакьунар авай дишегьлийри иситIайрин винел халисан сенятдин эсерар яратмишдай.

**Тугъагъа**

Халисан лезги тугъагъа кьурурнавай пурнияр галаз суьзмедикай чрада. Суьзме кIарасдин тIурунив хъсандиз какадарда. Чуьхвена са шумуд сятда це тунвай керкил дуьгуьдик кьве чиг кака, са тIур гъуьр, са гъаб пурнияр, 2 силих кIар-кIарнавай серг кутуна, тIур ктадиз-ктадиз чрада. Звал атайла, цIай тIимиларна, дуьгуь жедалди чрада, кьел кутада.

**Камбар**

Лезгийри дугъраmаж адет яз камбар галаз гьазурда. Гатун серинардай тIуьнрикай тир камбар живедикай цIийиз хкатнавай цирийрикай гьазурда. Цирияр кьилерикай михьна, чуьхвена, дасмалдин арада яд хкатдайвал тада. Ахпа абур кIар-кIарна, кьел вегьена, банкайра кутада. Цирийри кьеж гуда ва са шумуд йикъалай недайвал жеда. Камбар къатухдик акадарна, фахъ галаз неда.

## ЛЕЗГИЙРИН ПЕКЕР

Лезги пекер къадим чIаварилай машгьур я. Са бязи ухшарвилериз килиг тавуна, абур Къафкъаздин маса халкьарин пекерилай тафаватлу я. Лезгийри пекер ва кIвачин къапар цун патал чпи гьазурзавай магьутдикай, парчадикай (бязи чIавара парча къерехдайни гъидай), хамуникай ва хцикьдикай менфят къачудай.

XIX виш йисан эвелра урусрин тарихчи С.Броневскийди кхьенай: “Виридалайни хъсан магьут Къуба патан лезгийри гьасилзава ва абурун дишегьлийри магьутдикайни парчадикай цванвай иер пекер алукIзава”.

Девлетлу лезгийрин пекер кесибрин пекерилай тафаватлу тир. Ханларин ва



çəkilib, üstünə naxışlar salınır. Əvvəllər ləzgi kəndləri isitanın üstündəki naxışlarla bir-birindən seçilərdi. Rəssamlıq qabiliyyəti olan qadınlar bütün istedadlarını sərf edib isita üzərində xalis sənət əsəri yaradardılar.

**Dovğa**

Ləzgi dovğası quru yarpızla süzmədən bişirilir. Bunun üçün süzmə taxta qaşıqla yaxşıca çalınır. Yuyulub əvvəlcədən isladılmış düyüyə çalınmış iki yumurta, bir qaşıq un vurulur, bir ovuc quru yarpız, xırda-xırda doğranmış iki diş sarımsaq əlavə olunur. Qarışdıra-qarışdıra bişirilir. Qaynamağa başlayanda, odu azaldılır, düyü bişəndə dovğaya duz qatılır.

**Kambar**

Ləzgi doğramacı kambarsız olmur. Adətən kambar ilk baharda qarın altından boylanan, ilk tərələrdən sayılan pəldən hazırlanır. Bunun üçün pəl arıtlanıb başlardan təmizlənir, yuyulub süzülür, dəsmalın arasına qoyulub qurudulur. Sonra xırda-xırda doğranıb, duzlanıb bankalara yığılır. Pəl su salır və bir neçə gündən sonra kambar yetişir. Onu qatığa qatıb çörəklə yeyirlər.

## LƏZGİ GEYİMLƏRİ

Ləzgi paltarları hələ qədim dövrlərdən məşhurdur. Bəzi oxşarlıqlarına baxmayaraq, onlar Qafqaz xalqlarının paltarlarından xeyli fərqlənir. Ləzgilər paltar və ayaqqabı tikmək üçün özlərinin istehsal etdikləri mahuddan, parçadan (bə zi hallarda parça kənardan da gətirilirdi), dəridən və qaragül dərisindən istifadə edirdilər.

Hələ XIX əsrin əvvəllərində rus tarixçisi S.Bronevski yazmışdı ki, “ən yaxşı mahudu Quba ləzgiləri istehsal edir və onların qadınları mahudla parçadan tikilmiş gözəl paltarlar geyinirlər”. Varlı ləzgilərin - xanların və bəylərin, eləcə də onların xanımlarının geyimi kasıb əhalinin geyimindən fərqlənirdi.



***Гуьнел Гьажибалаевадин эскизра лезгийрин милли пекер.***

***Günel Hacıbalayevanın eskizlərində ləzgi milli geyimləri.***



беглерин бикейри лацу, хъипи ва яру парчадин пекер алукIдай, къизилдин безекрикай менфят къачудай.

Лезги кIуртIар, кавалар, чухваяр ва валчагъар вири Къафкъаздиз сейли тир. Хуьрера гзаф хъсан дерзичияр авай. Ахцегь ва Кьурагь шегьеррин, Кара Куьре, Филер, Къасумхуьр, Яргун, Гьил, Манкъулидхуьр, ЭчIехуьр, КIири, Къуйсун, Хьимил, Куьснет, Мегьарамдхуьр, Хпеж, Миграгъ хуьрерин пекер цвадай устIарри цвайи каваларни чухваяр вирниз сейли тир. Тарихчийри кхьизвайвал, гьеле XIX асирдин 50-60-йисара чIехи лезги хуьрера пекер цвадай машинрикай менфят къачузвай.



Xanımlar ağ, sarı və qırmızı parçalardan tikilmiş paltarlar geyinər, qızıl zinyətlərdən geniş istifadə edərdilər.

Ləzgi xəzləri, kürkləri, çərkəzləri və arxalıqları bütün Qafqazda məşhur idi. Hər kəndin yaxşı dərziləri vardı. Axtı və Qurah şəhərlərində, Kara Küre, Filer, Qasımxür, Həzrə, Hil, İmamqulukənd, Əcəxür, Kiri, Quysun, Qımıl Küsnət, Məhərrəmxür, Xpej, Miqrağ kəndlərində tikilən kürklərin və çərkəzlərin şöhrəti hər yana yayılmışdı.

Tarixçilərin yazdıqlarına görə, hələ XIX əsrin 50-60-cı illərində bir çox ləzgi kəndlərində tikiş maşınlarından istifadə olunurdu.



## ГАФАЛАГ LÜGƏT

| ***МУКЬВА-КЬИЛИЯР*** | ***QOHUM-ƏQRABA*** |
|---|---|
| *хизан* | *ailə* |
| *чIехи буба* | *baba* |
| *чIехи диде* | *nənə* |
| *бадба* | *baba (ata tərəfdən)* |
| *баде* | *nənə (ata tərəfdən)* |
| *буба* | *ata* |
| *диде* | *ana* |
| *велед* | *övlad* |
| *хва* | *oğul* |
| *руш* | *qız* |
| *аял* | *uşaq* |
| *бицIек* | *çağa* |
| *кьветхверар* | *əkizlər* |
| *гъвечIи руш* | *qız uşağı* |
| *агакьай руш* | *yeniyetmə qız* |
| *ругул* | *oğlan uşağı* |
| *гада* | *oğlan* |
| *хтул* | *nəvə* |
| *птул* | *nəticə* |
| *штул* | *kötücə* |
| *ктул* | *əkicə* |
| *гъуьл* | *ər* |
| *паб* | *arvad* |
| *ими* | *əmi* |
| *имид хва* | *əmi oğlu* |
| *имид руш* | *əmi qızı* |
| *халу* | *dayı* |
| *халуд хва* | *dayıoğlu* |
| *халуд руш* | *dayıqızı* |
| *хала* | *xala* |
| *халад хва* | *xalaoğlu* |
| *халад руш* | *xalaqızı* |
| *эме* | *bibi* |
| *имид свас* | *əmiarvadı* |
| *халуд свас* | *dayıarvadı* |
| *къавум* | *quda* |
| *кас* | *kişi* |
| *дишегьли* | *qadın* |
| *свас* | *gəlin* |
| *чам* | *bəy* |
| *яран диде* | *qaynana* |
| *яран буба* | *qaynata* |
| *яран вах* | *baldız* |
| *яран стха, хен* | *qayın* |
| *тахай диде* | *ögey ana* |
| *тахай буба* | *ögey ata* |
| *мирес* | *yaxın qohum* |
| *кьевер* | *bir kişinin arvadları* |
| *кьелит, хинен паб* | *qayın arvadı* |
| *хендеда* | *dul* |
| *бике* | *xanım* |
| *кайвани* | *evdar qadın* |

| ***КIВАЛ-ЮГЪ*** | ***EV-EŞİK*** |
|---|---|
| *дарамат* | *bina* |
| *кIвал* | *ev* |
| *айван* | *eyvan* |
| *тендерак* | *dəhliz* |
| *гьава* | *mərtəbə* |
| *пун* | *bünovrə* |
| *вил* | *otaq* |
| *къул* | *ocaq* |
| *тав* | *qonaq otağı* |
| *чил* | *döşəmə* |
| *къав* | *tavan* |
| *тавун* | *baca* |
| *цал* | *divar* |
| *варар* | *darvaza* |
| *рак* | *qapı* |
| *дакIар* | *pəncərə* |
| *тIакI* | *taxça* |
| *гурар* | *pilləkən* |
| *кIарар* | *pillələr* |
| *жугъун* | *çəpər* |
| *гъен* | *həyət* |
| *сал* | *dirrik* |
| *багъ* | *bağ* |

| | |
|---|---|
| *бустан* | bostan |
| *куд* | arı pətəyi |
| *муьхц* | samanlıq |
| *гьебе* | heybə |
| *хучарар* | böyük heybə |
| *рапарган* | iynə qabı |
| *пурар* | yəhər |
| *пуна* | alaçıq |
| *калал* | təzəkdən hazırlanmış |
| *кьеб* | qab |
| *лилибан* | beşik |
| *къуба* | yelləncək |
| *куткун* | oymaq |
| *чали* | səbət |
| *гунгар* | araba üçün səbət |
| *шеле* | su borusu |
| *купIар* | şələ |
| *кIапIажул* | qurudulmuş təzək |
| *тIапI* | fırfıra |
| *къекъуьц* | kətil |
| *кIир* | halqa |
| *мес* | qarmaq |
| *баржагъан* | döşək |
| *хъуьцуьган* | kiçik döşək |
| *лагълича* | balış |
| | döşəkçə |
| ***ЦIУН КIВАЛ*** | |
| | ***MƏTBƏX*** |
| *хьар* | |
| *къул* | xərək |
| *тIанур* | ocaq |
| *сач* | təndir |
| *квар* | sac |
| *кутар* | səhəng |
| *къажгъан* | kuzə |
| *пситI* | qazan |
| *ягълав* | kiçik qazan |
| *гетIе* | tava |
| *некIегъан* | bal saxlamaq üçün qab |
| *муда* | sərnic |
| *хвах* | tabaq |
| *кIаза* | təknə |

| | |
|---|---|
| *чанахъ* | taxta sini |
| *цIиб* | böyük bardaq |
| *кур* | bardaq |
| *бади* | badya |
| *сатул* | kasa |
| *кIуькуь* | parç |
| *кIуьцуь* | ayaqlı kiçik badya |
| *чамчах* | bardaq |
| *кавча* | çəllək |
| *пикI* | çalov |
| | çubuqlardan hörülmüş |
| *гатI* | taxıl qabı |
| | taxıl saxlamaq üçün |
| *варданаг* | taxtadan düzəldilmiş qab |
| *тур* | taxıl qabı |
| *чукIул* | qaşıq |
| *пац* | bıçaq |
| *чукватур* | çəngəl |
| *кепкир* | çalov |
| *саф* | kəpgir |
| *чапак* | ələk |
| *сукIра* | çuqun qazan |
| *рагъалаг* | piyalə |
| *ферчин* | ərsin |
| *кIар* | xəmir taxtası |
| *кве* | oxlov |
| *чуква* | qalaq |
| *гичин* | enli ağızlı saxsı qab |
| *тип* | qrafinka |
| *сини* | böyük kuzə |
| | sərpuş |
| ***НЕДАЙ ЗАТIАР*** | |
| | ***YEMƏKLƏR*** |
| *фу* | |
| *хьран фу* | çörək |
| *тIанурд фу* | xərək çörəyi |
| *чар авай фу* | təndir çörəyi |
| *къалаж* | yağlı fətir |
| *чIатI* | buxanka |
| *афар* | qarğıdalı çörəyi |
| *пипIиш* | qutab |
| | lavaşın yarısı boyda |

| | |
|---|---|
| *кунз* | *qutab* |
| *шакIукIа* | *dairəvi qutab* |
| *алуга* | *ləzgi pitsası* |
| *кинияр* | *çətənəli pitsa* |
| *чуьк* | *əriştə* |
| *хапIа* | *şorba* |
| *чул* | *xapa (ləzgi d.)* |
| *шурва* | *sıyıq* |
| *хешил* | *şurva (ləzgi d.)* |
| *хинкIар* | *xəşil* |
| *пичIекар* | *xəngəl* |
| *къавурар* | *düşbərə* |
| *къах* | *qovrulmuş ət* |
| *гитI* | *qurudulmuş ət* |
| *арута (атIай нек)* | *hədik* |
| *канбар* | *çürümüş süd* |
| *гузан* | *pəl tutması* |
| *иситIа* | *şirin çörək* |
| *нутIуфа* | *ləzgi halvası* |
| *букIуш (кIерецдин* | *qoz halvası* |
| *хвех)* | *qoz ləpəsi* |
| *чунгут* | *küncüt* |
| *гъери* | *yağ* |
| *дуьдгъвер* | *nehrə yağı* |
| *дуьше* | *doşab* |
| *нек* | *süd* |
| *хкянек* | *qatıq* |
| *тIан* | *bulama* |
| *суьзме* | *süzmə* |
| *ниси* | *pendir* |
| *мегь (некIедин чар)* | *narın üz* |
| *мукаш* | *şor* |
| *тугъ, кьенек* | *ayran* |
| *тугъагъа* | *dovğa* |
| *къаймах* | *qaymaq* |
| *як* | *ət* |
| *кака* | *yumurta* |
| *къафун* | *qəlyanaltı* |
| *семена* | *səməni* |
| *кIекер* | *qarğıdalı qovurğası* |
| *тIач* | *ləzgilərin qış içkisi* |
| *цIемек* | *şəkər tozu* |
| *гьенена* | *üzüm şirəsi* |

| | |
|---|---|
| *миже* | *şirə* |
| *гьадри* | *işgənə* |

| **ТЕХИЛ** | **TAXIL BİTKİLƏRİ** |
|---|---|
| *къуьл* | *buğda* |
| *гьажибугъда* | *qarğıdalı* |
| *гергер* | *yulaf* |
| *гуьлгери* | *ləzgi buğda sortu* |
| *сил* | *arpaya oxşayan ləzgi buğda sortu* |
| *хар* | *paxla* |
| *нахутI* | *noxud* |
| *кIахар* | *mərcimək* |
| *нехв* | *qarabaşaq* |
| *дуьгуь* | *düyü* |
| *пахла* | *lobya* |
| *пахчар* | *xırda düyü* |
| *цуьк* | *darı* |
| *мух* | *arpa* |

| **САЛАН НАБАТАТАР** | **TƏRƏVƏZ BİTKİLƏRİ** |
|---|---|
| *афни* | *xiyar* |
| *помидор* | *pomidor* |
| *буран, къабах* | *boranı, balqabaq* |
| *бадамжан* | *badımcan* |
| *газар* | *yerkökü* |
| *картуф* | *kartof* |
| *чичIег* | *soğan* |
| *келем* | *kələm* |
| *цIуьлуьк* | *kahı* |
| *кIлампI* | *turp* |
| *кукIрух* | *körpə xiyar* |
| *серг* | *sarımsaq* |
| *хали (хелер)* | *yemiş* |
| *хивецI* | *yaşıl soğan* |
| *кIешниш* | *keşniş* |
| *шивит* | *şüyüd* |
| *чугъундур* | *çuğundur* |

| КЬЕТIЕН ДАДАР | ƏDVİYYAT |
|---|---|
| кьел | duz |
| истивут | istiot |
| дарчин | darçın |
| заферан | zəfəran |
| пурни | yarpız |
| михек | mixək |
| сенжефил | zəncəfil |
| къанжукьар | kəklikotu |
| хвешхвеш | xaşxaş |
| эферар | zirə |
| чидрикь | nanə |
| сумах | sumax |
| вин | çətənə |

| АФАРДИН ХЪЧАР | QUTAB GÖYƏRTİSİ |
|---|---|
| хархунаг | xarxunaq |
| зарзар | cincilim |
| цири | pəl |
| верг | gicitkan |
| цурун пешер | turşəng |
| тегьмезхан | təhməzxan (ləzgi d.) |
| кIекIремичер | kekremiçer (ləzgi d.) |
| таквар | vəzərək |
| эвелук | əvəlik |
| курквачI | əməköməci |
| гаргам | qarqam |
| нуькIрен кьачIар | quşçiçəyi |
| семзияр | səmzi |
| кьачI мичер | kaç miçer (ləzgi d.) |
| кIел мичер | kel miçer (ləzgi d.) |
| къуьл мичер | qül miçer (ləzgi d.) |
| кIаш мичер | kaş miçer (ləzgi d.) |
| куьлуь мичер | külü miçer (ləzgi d.) |
| сикIре япар | tülkü qulağı |
| чеблегьанар | dağ keşnişi |
| яру таквар | qırmızı vəzərək |

| | |
|---|---|
| кIелен япар | quzuqulağı |
| цIегьре кьачIар | keçi tərəsi |
| яргъешар | yarğeş (ləzgi d.) |
| кIвалакIар | kolakar (ləzgi d.) |
| ширин пешер | şirin yarpaq |
| къазра пешер | qazyarpağı |
| тере | tərə |
| къветре вилер | kəklik gözü |
| никIин кьачIар | zəmi tərəsi |
| кьелечIар | keleçar (ləzgi d.) |

| АЛАТАР | ALƏTLƏR |
|---|---|
| чукIул | bıçaq |
| кант | böyük bıçaq |
| байбут | tiyəsi enli bıçaq |
| баскIум | oraq |
| кIуьта | çəkic |
| кIаш | zindan çəkici |
| дегьре | dəhrə |
| каца | külüng |
| кьуьк | yaba |
| керки | kərki |
| макьахъан | böyük kərki |
| цуьруьгъуьл | dırmıq |
| хех | kəlbətin |
| мукIратI | qayçı |
| мутккьаб | burğu |
| хитрес | qoyun qırxmaq üçün qayçı |
| якIв | balta |
| пер | bel |
| юрф | taxta bel |
| риб | qıyıq |
| къажгъур | kürək |
| дергес | dəryaz |
| мишер | mişar |
| ранда | rəndə |

# ЛЕЗГИЙРИН СУВАРАР

## ЯРАН СУВАР

***Лезгийри лугьуда: Вучда а гурмагьдикай, анай гум акъат тавуртIа. Вучда а кIваликай, аниз мугьман илиф тавуртIа. Вучда а суфрадикай, адахъ мугьман ацукь тавуртIа. Вучда а суварикай, вири элди санал шадвал тавуртIа.***

Лезгийрин къадим майишатдин йикъаргандин са вацран тIвар ***Яр*** я. Ам 21-мартдилай 4-апрелдалди давам жезва. Яр тIебиатдал чан хтунихъ, хуьруьн майишатдин кравахъ кьил кутунихъ галаз алакъалу тирвиляй Яран суварин гзаф мярекатар никIера, багълара, чIафара кьиле тухуда.

Лезги халкьдин дегь адетрикай тир мелер Яран суварилай вилик генани гурлуз кьиле тухуда. КIвалер ва гъен михьун, мес-къуьж рагъ гана кIватIун, кIвалериз эгьенг ягъун, усунун важиб яз гьисабда. Багълар, салар цIамарикай, къуру хилерикай михьда, абур суварин нянихъ цIай яна куда.

Яр гафунихъ мад са мана ава: “яру”. Дегь чIавара лезгийрин Яран суфра адет яз яруди жедай. Са береда кьилди яран мехъерар ийидай. Чамраз яран чам, сусаз яран свас лугьудай. Суса яран гам храдай. Мехъерин юкъуз адан чинай яру дуьгуьр авадардай.

Яран сувар хуьрера иллаки гурлуз кьиле фидай. Эхиримжи йисаралди КцIарин хуьрера Яраз *цIегь къугъурдай адет* авай. Имни лезги мифологиядихъ галаз алакъалу я. Дегь чIавара гзаф гьуцариз

# LƏZGİLƏRİN BAYRAMLARI

## BAHAR BAYRAMI

***Ləzgilər deyirlər: Nəyə gərək o ev ki, bacasından tüstü çıxmır. Nəyə gərək o ev ki, qapısından qonaq girmir. Nəyə gərək o süfrə ki, başında qonaq oturmur. Nəyə gərək o bayram ki, onu el birgə qarşılamır.***

Bahar bayramına ləzgilər Yaran Suvar deyirlər. ***Yar*** ləzgilərin qədim kənd təsərrüfatı təqviminin bir ayıdır və o, martın 21-dən aprelin 4-dək davam edir. Yar ayı yaz-tarla işlərinin başlanğıcına təsadüf etdiyindən, ən maraqlı mərasimlər tarlalarda, bağlarda, əkin yerlərində keçirilir. Mərasimlərin mərkəzində tonqal qalanması durur.

Ləzgilərin qədim adətlərindən biri olan, könüllü iməcilik mənasını verən “mel”in ən əhəmiyyətlisi bahar bayramı ərəfəsində keçirilir. Ev-eşik təmizlənir, yorğan-döşək günə sərilir, xalça-palaz çırpılır, evlərin divarları ağardılır, bağ-bağat, tarlalar çör-çöpdən, alaqdan təmizlənir.“Yar” sözünün ikinci mənası qırmızı deməkdir. Qədim vaxtlarda ləzgilərin bayram süfrəsi qırmızı rəngdə olardı. Adətən toyları Yar ayına salardılar. Bəyə *yaran çam*, yəni bahar bəyi, gəlinə *yaran svas*, yəni bahar gəlini deyərdilər. Gəlin bahar xalçası toxuyardı. Toy günü onun üzünü *dügürlə*, yəni qırmızı duvaqla örtərdilər.

Yaran suvar kəndlərdə xüsusi təntənə ilə keçirilərdi. Son vaxtlara kimi bəzədilmiş *keçi oynatmaq məra-*



*2006-йисан 17-мартдиз Москвадин Кремлдин имаратда лезгийрин Яран сувариз талукьарнавай концерт кьиле фена.*
*2006-cı ilin martın 17-sində Moskvanın Kreml Sarayında ləzgilərin Bahar bayramına həsr olunmuş konsert keçirildi.*



*Концертдин арада лезгийри дем кутуна.*
*Konsert fasiləsi zamanı foyedə dem oldu.*



икрамзавай лезгияр патал цӀегь викӀегьвилин лишан тир. Сувариз цӀегьре вичин гьунардикай вирибуруз пай гурай лугьуз ам пекер алукӀарна куьчейра къекъуьрдай. Манийривни кьуьлерив и межлисдин гурлувал артухардай.

Яраз *Вацракьар* лугьудай халкьдин мярекатни гегьенщдиз къейд ийидай. Ракъинивайни вацравай тӀалабунар ийизвай гадаярни рушар санал манияр лугьуз-лугьуз магьлейра къекъведай.

21-мартдин 22-даз элячӀзавай йифиз эл суварин шемер гваз гьенерал экъечӀда. Шемер цӀуру пекерикай расда. Абур яргъи тӀваларал арушна кӀевирда, кана куьтягь жедалди гьиле кьада. Гьар куьчеда, гьар магьледа цӀаяр авуна, абурун винелай вирибуру хкадарда. Ахпа хизанар суфрадихъ ацукьда.

Йис Яран суфрадин рузидилай аслу жеда лугьуда. Ам берекатлу хьурай лугьуз суфрадал жезмай кьван пара няметар тада. Абурукай кьилин нямет *семена* я. Щириз тунвай гьулгери къуьлуькай чранвай и тӀямди суфрадиз ярашух гуда. Семенадин патав *гитӀ*ни хьана кӀанзава. Къуьл, гьажикӀа, нахутӀ, мержемек, лацу пахла, яру пахла чараз чрана какадарнавай гитӀ берекатдин лишан я. Аялриз *калар* гьазурда. Кьел квай цел ргана цӀай ганвай къуьлуьк вин, кӀерецдин хвехвер какадарда.

Аялризни чӀехибуруз гзаф кӀандай мад са нямет жеда суфрадал: *сав*. Гьилин регьвера къуьлуькай регьвенвай гъуьруьк шекер какадарнавай и тӀям садбуру кьуруз, садбуру яд галаз неда. Яру ранг янавай какаяр, кьурурнавай емишар, чранвай шуьреяр ва маса затӀар, гьакӀни аш Яран суфрадин абур я.

Гьар кӀвале гьа йифиз ракӀарихъ тадай бармакар ацӀурун патал кӀерецар, шуьмягьар, къенфетар, ранг-навай какаяр ва маса затӀарикай гьазурнавай паяр жеда. Бармак ичӀиз рекье тун гунагь я лугьуда. Яран сувариз кӀваляй гьикьван пара ризкьи акъатайтӀа, гьакьван пара берекат хкведа, лугьуда лезгийри. Суфрадихъ ацукь тавунмаз суварин паяр гваз хъелбурун кӀвалериз фида. Нянихъ къажгъандин кьил алудна сад лагьай пай мукьув гвай начагъ ва касни авачир инсанрин кӀвалериз ракъурда.

*simi* geniş yayılmışdı. Bu, ləzgi mifologiyası ilə əlaqədardır. Qədimlərdə bir neçə allaha sitayiş edən ləzgilər dağ turunu totemləşdirmişdilər. Onlardan ötrü tur cəsarət rəmzi idi. Bahar bayramında dağ turunun bənzəri olan keçini bəzədib küçələrdə oynadardılar ki, o, öz cəsarətindən hamıya pay versin. Mərasim mahnı və rəqslərlə müşayiət olunardı.

*Vatsrakar* adlı xalq mərasimini keçirmək də adət idi. Onun məzmununu aya və günəşə olunan müraciətlər, onların tərifi təşkil edirdi. Qızlar, oğlanlar mahnı oxuyaya-oxuya məhəllələrdən keçərdilər. Martın 21-dən 22-nə keçən gecə hamı bayram şamları ilə evlərinin qarşısına çıxır. Şamlar il boyu yığılmış köhnə paltarlardan hazırlanır, onları od sönüb qurtarana kimi əllərdə saxlayırlar. Hər küçədə, hər məhəllədə tonqallar qalanır, alov bir qədər səngiyəndə böyüklü-kiçikli hamı odun üstündən tullanır.

Xalq arasında belə bir inanc var ki, ailənin illik güzəranı bayram süfrəsindən asılıdır. Ona görə də hamı çalışır ki, süfrə zəngin olsun. Ləzgilərin bahar süfrəsi üçün vacib bir neçə nemət var. Onlardan biri *semenadır (səməni).* O, yaxşı cücərdilmiş gülgəri buğdasından bişirilir. Sonra hədik gəlir. 7 nemətdən - buğda, qarğıdalı, noxud, mərcimək, lərgə, lobya və maşdan hazırlanmış hədik bərəkət rəmzi kimi süfrəni bəzəyir. Uşaqlar üçün qovurğa hazırlanır. Buğdanı duzlu suda bişirib qovurur, ona çətənə və qoz ləpəsi əlavə edirlər. Uşaqların və böyüklərin ləzzətlə yediyi bir təam da var. Ona *sav* deyirlər. Qovrulmuş buğdanı əl dəyirmanında üyüdür, ona şəkər tozu qarışdırırlar. Savı həm quru halda, həm də su ilə qarışdırıb yeyirlər. Boyanmış yumurta, şirniyyat öz yerində, amma süfrənin şahı plovdur.

Hər ev, hər ailə əvvəlcədən qapı pusan uşaqlar üçün böyük bir qabda qoz, fındıq, boyanmış yumurta və konfet hazırlayıb qoyur ki, qapıya gələn əliboş qayıtmasın. Bayram günü evdən nə qədər çox ruzi çıxsa, evə bir o qədər çox bərəkət gələr, deyirlər.

Bayram süfrəsinə oturmazdan qabaq bayram payı ilə küsülülərin evinə gedərlər. Plov qazanından çəkilmiş ilk nimçəni qonşuluqda xəstə yatan və ya kimsəsiz, köməksiz adama göndərərlər.

## ЦУЬКВЕРИН СУВАР

Лезгийрин дегь чIаварин суваррикай тир Цуькверин сувари дагъдин районра яшамиш жезвай агьалийрин уьмуьрда кьетIен чка кьазва. И суварин асул ватан Дагъустан Республикадин Ахцегь райондин Чепер хуьр я. Гьуьлуьвай 2000 метр кьакьанда, Шалбуз дагъдин ценерив гвай и хуьре суварин мярекатар гурлуз тухуда. Лезгийрин и суварикай гьеле XIX виш йисан юкьвара урусрин топограф С.Г.Александрова, гьа асирдин 70-йисара немсерин алим А.Беккера малумат ганай. Живер цIрана, сувар цуькверив дигайла вири эл Чепера кIватI жеда. Куьредай, Къубадай ва маса чкайрай атай инсанар балкIанрал алаз ва яхди рекье гьатда. Жегьилрин чамарар авунар, пагьливанри кьуршахар кьунар, рушари цуьквер кIватIун виридан рикIяй жеда.

Суварин виридалайни марагълу легьзеяр манийринни кьуьлерунин гьуьжетунар я. Рушарини гадайри санал манияр лугьуда, кьуьлериз эгечIда. Им жегьилар патал гьамни кIаниди хкядай чка я. Ахпа вири векьерал экIянавай суфрадихъ ацукьда, тIуьнинхъунин, мили зарафатрин, санал лугьузвай манийрин межлисдив эгечIда. КIвалериз вири рагъдан хьайила хъфида. Рушаринни сусарин гьиле цуькверин кIунчIар жеда. Ибур адетдин цуьквер туш, гьармад са дердинин дарман я. Дишегьлийри абур кIвалерин къаварал кьурурда ва йис акъатдалди абурукай чарачара начагъвилер сагъарун патал менфят къачуда.

Экуьн яралай хурушумдалди кьиле фидай и элдин сувар халкь агуддай, михьи гьиссер тербия ийидай, ахлакьдин тарсар гудай халисан сувар я.

## ÇİÇƏK BAYRAMI

Ləzgilərin bu qədim bayramı əsasən kənd əhalisi tərəfindən geniş qeyd edilir. Böyük şadyanalıqla keçirilən çiçək bayramının əsl vətəni Dağıstan Respublikasının Axtı rayonunun dəniz səviyyəsindən 2 min metr hündürlükdə, Şalbuz dağının ətəyində yerləşən Cəbə kəndidir. Hələ XIX əsrin ortalarında rus toporqafı S.Q.Aleksandrov, həmin əsrin 70-ci illərində alman alimi A.Bekker ləzgilərin bu bayramı haqqında məlumat vermişdi.

Dağlarda qarlar əriyib, alp çəmənlikləri çiçək açanda bütün el əvvəlcədən elan olunmuş vaxtda Cəbəyə axışır. Küre və Quba bölgələrindən, başqa yerlərdən atlı və piyadalar buraya üz tutur. Cavanlar bəslədikləri yüyrək atlarla cıdıra çıxır, pəhləvanlar qurşaq tutur, qızlar çiçəklərdən çələng hörürlər.

Bayramın ən maraqlı hissəsi mahnı və rəqs yarışmasıdır. Qızlarla oğlanlar bir yerdə mərasim mahnıları ifa edir, rəqs yarışına qoşulurlar. Bu, həm də gənclərin bir-birini bəyənib seçməsi üçün əlverişli yer və vaxtdır. Sonra hamı çəmənlikdə salınmış süfrə ətrafına yığışır, mahnı və rəqslərdən ibarət məclisə start verilir. Qaş qaralanda dağlardan evə dönənlərin əllərində çiçək dəstələri olur. Bunlar adi çiçəklər deyil, hər biri bir dərdin dərmanıdır. Qadınlar onları evlərin damlarında səliqə ilə qurudur, ilboyu müxtəlif xəstəliklərin müalicəsində istifadə edirlər.

Bu el bayramı ünsiyyət, mehribanlıq yaratmaq, xalqın adət-ənənələrini yaşatmaq baxımından maraqlı olub tərbiyəvi əhəmiyyət daşıyır.



*2009-йисан 7-июндиз "Сувар" ансамблди Азербайжандин Гьукуматдин Филармонияда кьиле тухвай концерт Цуькверин сувариз талукьарнай. Мярекат лезги таватри залда ацукьнавайбуруз хунчайрай цуьквер паюналди башламишнай.*

*2009-cu ilin iyunun 7-də "Suvar" ansamblının Azərbaycan Dövlət Filarmoniyasında keçirilmiş konserti Çiçək bayramına həsr olunmuşdu. Tədbir ləzgi qızlarının xonçalardakı çiçəkləri tamaşaçılara paylaması ilə başlandı.*

## “ШАРВИЛИ” ЭПОСДИН СУВАР



Гьар са халкьдин тарихда кьетӀен метлебдин вакъиаяр ава. Лезгийрин тарихни “Шарвили” эпос галачиз хиялдиз гъун мумкин туш. Халкьдин кьегьал хва Шарвилидихъ галаз алакъалу махар, кьисаяр, хкетар, риваятар тийижир лезги кьериз-цӀаруз гьалтда. Чи кьегьалвилин тарихар авай и эпосдай чӀукар халкьдин арада гегьенщдиз чкӀанва, виш йисар я абур несилрилай несилрал агакьиз. И кӀанивили эхирни 2000-йисуз вири халкьди кьейд ийизвай “Шарвили” эпосдин сувар арадал гъана. Сифте яз Ахцегь шегьерда кьиле фейи и сувар гила Дагъустандин вири халкьарин мярекатдиз элкъвенва. ЩуД йис я сувар кьиле тухузвай тешкилатдиз кьегьал лезги Имам Яралиева регьбервал гуз.

Ахцегьин кьилин майдандал мугьманар зуьрнединни далдамдин ванери акъвазарда. КӀвачера звер авайбур “Лезгинкадал” кьуьлиз эгечӀда. Муькуьбуру капар ягъиз межлис мадни гурлу ийида. Шегьер кьиляй-кьилди суварин гьавада жеда. Дамахарнавай инсанри лугьуз-хъуьрез сад садаз сувар мубаракда. Куьчейрай инсанрин сел алахьда. Кьиблепатан Дагъустандин вири районрай, гьакӀ Ахцегь, СтӀал Сулейман, Мегьарамдхуьр, Кьурагь, Докъузпара, Рутул, Хив ва маса лезги районрай иниз гзаф инсанар къведа.

Шарвилидин суварихъ вичин кьетӀенвилер ава. Адаз гурлувал, халкьди сад хьиз и мярекат кьейд авун хас я. Суварик атанвайбур санал КӀелед хев галайнихъ рекье гьатда. Инай дагъдин синел чиликай атӀана раснавай гурари тухузва. Адахъ 105 кӀар

## “ŞARVİLİ” EPOSU BAYRAMI

Hər xalqın tarixində mühüm rol oynayan hadisələr var. Ləzgilərin tarixini də “Şarvili” eposu olmadan təsəvvür etmək çətindir. Xalqın igid oğlu Şarvili haqqında nağıllar, rəvayətlər, məsəllər bilməyən ləzgi çətin tapılar. Ləzgilərin qəhrəmanlıq tarixi ilə bağlı olan parçalar xalq arasında geniş yayılmışdır, yüz illərdir onlar nəsillərdən nəsillərə çatdırılır. Demək olar ki, bütün el bayramlarında Şarvilinin qəhrəmanlıqları ilə bağlı teatrlaşdırılmış parçalardan istifadə olunur.

2000-ci ildən etibarən Dağıstan Respublikasının Axtı şəhərində Şarvili eposu bayramı dövlət səviyyəsində qeyd olunur. 10 ildir ki, bayramın keçirilməsi üzrə təşkilat komitəsinə İmam Yarəliyev rəhbərlik edir.

Hər il yayın əvvəllərində keçirilən bu bayrama gələn qonaqlar Axtıda musiqi sədaları altında qarşılanır. Bu təranələr sümüklərinə işləyənlər elə küçədəcə rəqsə girişir, qalanlar alqışlarla məclisi canlandırırlar. Şəhər başdan-başa bayram əhval-ruhiyyəsində olur. Küçələrdən insan seli axır. Cənubi Dağıstanın bütün rayonlarından, o cümlədən Axtı, Stal Süleyman, Məhərrəmxür, Qurah, Doquzpara, Rutul, Xiv və başqa rayonlardan çoxlu qonaqlar gəlir.

Şarvili bayramının özünəməxsus cəhətləri var. Ona böyük ruh yüksəkliyi, coşqunluq xasdır. El yığılanda hamı bir nəfər kimi qalaya sarı yollanır. Buradan dağın sinəsinə qədər 105 pilləli pilləkən uzanır. Bir neçə sütun üstündə qurulmuş dairəvi rotondda Şarvilinin heykəli ucaldılacaq.



*Ахцегь. “Шарвили” эпосдин сувар. Эл КӀелед хивел акьахзава. 2010.*



*Axtı. “Şarvili” eposu bayramı. İnsanlar Keled xevə qalxırlar. 2010.*

ава. Кузвай ракъинин кIаник аниз акъахун гьар касдин гьунар туш. ЯтIани кьузуь-жегьил вири рекье ава. 105 кIар куьтягь хьайила, цIийиз хкажнавай ротонддал гьалтзава.

Элкъвей ротонд са шумуд стундал хкажнава. Инал Шарвилидиз гуьмбет хкажда. Гуьмбет патал хкянавай чкадиз гаф авач. Инай къадим ва иер Ахцегь, адан юкьвай авахьзавай Ахцегьрин вацI капун юкьвал алайди хьиз аквазва. Гьейбатлу акунрин Шалбуз дагъ лап мукьув гвай хьиз жеда. Шарвилидин кIеле гьа инал, дагъдин къене хьайиди я, адан турни къедалди гьана амайди я, лугьузва махари. "Инаг лезгийрин кьилин пIир я", - лугьуда инсанри сад садаз. Ахпа эл санал кIватI хьана лезги сеняткарри гьазурнавай концертдихъ яб акалда.



***Шарвили - СтIал Сулейманан тIварунихъ галай Лезгийрин Гьукуматдин Муздрамтеатрдин актер Ибрамхелил Рамазанов.***

***Şarvili - Süleyman Stalski adına Ləzgi Dövlət Musiqili Dram Teatrının aktyoru İbramxəlil Ramazanov.***

Heykəl üçün seçilmiş yerə söz ola bilməz. Buradan qədim və gözəl Axtı ovuc içi kimi görünür, əzəmətli Şalbuz dağı isə elə bil yanındadır. Nağıllarda deyilir ki, Şarvilinin qalası elə burada, dağın içində yerləşib, onun qılıncı da bu günə kimi oradadır. İnsanlar deyirlər ki, bura ləzgilərin piridir.

Sonra hamı bir yerdə bayramın ikinci hissəsinə - ləzgi sənətkarlarının hazırladığı bayram konsertinə tamaşa etmək üçün şəhərin baş meydanına yollanır.

## СИФТЕ РГАЛ

Лезгийрин хуьруьн майишатдин суваррикай тир Сифте ргал лезги хуьрера гатфариз кьиле тухуда. Цанар цадайла, туьрездив чил къарагъардайла элди сувар ийида. Хуьруьн тIвар-ван авай лежберрикай сада вичин туьрез, яни куьтен никIиз акъудда. Маса лежберри никIин къерехда цIаяр ийида. Лежберди викиник малар кутуна, туьрездин кIуф никIик галкIурна малариз: "Гьиш! Куь гелер берекатлу хьурай" лугьуда.

НикIин и кьиляй а кьилиз фена хтуниз лезгийри ргал лугьуда. Гад гьикI жедатIа сифте ргалдилай чир жеда, лугьуда лежберри. Гьавиляй ам гьар са касдал ваъ, гьил кьезил ва нуфузлу лежбердал ихтибарда. Сифте ргалдилай гуьгъуьниз лежберди вичин туьрез жегьилрив вугуда.

Пакад юкъуз вири эл цан цаз эгечIда. И чIавуз вирида санал манияр - гьаварар лугьуда. Гьав - кьуд ргалдиз лугьуда. Гьар кьуд ргалдилай кьулухъ лежберри ял ягьида. Иер рифмадалди, мана-метлеб авай гафаралди туькIуьрнавай и манияр - гьаварар сада аваздалди, муькуьбуру хордалди лугьуда.

НикIин къерехдал кIватI хьанвайбуру шад межлисдин, тIуьн-хъунин гьазурвилер ийида: гьерер тукIвада, фу чрада... Ахпа вири суфрадихъ ацукьда. Манияр никIяй яргъариз чкIида. Сифте виридалайни яшлу итимдини дишегьлиди манидик кьил кутада. Абуру са бенд лагьана куьтягьайла, кьвед лагьай бенд яшлу лежберри давамарда. Пуд лагьай бенд жегьилри лугьуда. Амай бендер вирида санал тикрарда. Гьа и саягъда ирид мани лагьана кIанзава.

## İLK ŞIRIM

Ləzgilərin kənd təsərrüfatı işləri ilə bağlı olan xalq bayramı - ilk şırım bayramı kəndlərdə ilk baharda qeyd olunur. Torpağın şumlanıb əkin üçün hazırlanması vaxtı yetişəndə elliklə yığışıb ilk şırımın açılması mərasimində iştirak edirlər. Kəndin təcrübəli əkinçilərindən biri xışını sahəyə çıxarır, digərləri isə sahənin kənarında tonqal qalayırlar. Həmin əkinçi hamının gözü qarşısında xış qoşulmuş öküzləri əkinə istiqamətləndirib deyir: "Hiş! İzləriniz bərəkətli olsun!"

Sahənin bu başından o başına gedib qayıtmağa "rqal" (şırım) deyirlər. Əkinçilər ilk şırıma böyük əhəmiyyət verir, gələcək məhsulun taleyi ilk şırımdan asılı olur, deyirlər. Elə ona görə də bu məsul vəzifəni kimə gəldi yox, nüfuzlu, əli yüngül əkinçiyə etibar edirlər. İlk şırımdan sonra əkinçi öküzlərini gənclərə həvalə edir. Ertəsi gün bütün el şuma çıxır. Yer şumlaya-şumlaya hamı əkinçi mahnısı (havar) oxuyur. Hav - dörd şırım deməkdir. Bir qayda olaraq hər dörd şırımdan sonra əkinçi dincini alır. Ləzgi folklorunun bir növü olan, kənd yerlərində geniş yayılmış havarları bir solist ifa edir , xor isə müşayiət edir.

Sahənin kənarına yığışmış adamlar bayram şənliyi, yemək-içmək mərasimi üçün hazırlıq görürlər. Onlar qoyun kəsir, xörək hazırlayır, çörək bişirirlər. Sonra hamı bayram süfrəsinin ətrafına yığışır. Mahnı səsləri uzaqlara yayılır. Mahnını ən yaşlı kişi və qadın başlayır. İkinci bəndi orta yaşlı əkinçilər davam etdirir. Üçüncü bəndi cavanlar oxuyurlar. Bundan sonra hamı birlikdə oxuyur. Bu qayda ilə yeddi mahnı oxunmalı və şənliyə iti rəqslə yekun vurulmalıdır. Orta əsrlərin

Юкьван виш йисарин са бязи авторри чпин эсерра лезгийрин и суварикай са кьадар малуматар ганва.

## СИФТЕ ЦУЬЛ

Ник гуьдай вахтар алукьайла, сифте югакай хкатай техил гаралайдайла элди "Сифте цуьлуьн" сувар кьиле тухуда. И сувариз "Печхуьр сувар", "Сифте рат", "Сифте югни" лугьуда. Сифте цуьл кутӀунна, ам никӀин къерехда кьилихъди акъвазарда ва манийрал илигда. Алхишар авуна, суфрадив эгечӀда. Далдамдинни зуьрнедин ванери аялрин кӀвачерик звер кутада. Дишегьлийри цӀийи мухан гъуьруькай чранвай факай къуншийриз, хуьре авай кесибриз ва етимриз гуда. Ихьтин савкьват тагайла марф ва я хар къвада лугьуда.

## ПЕШАПАЙ

КцӀарвийри къедалди хвенвай фольклордин чешнейрин арада "Пешапайри" кьетӀен чка кьазва. Халкьдин къугъунрикайни коллективдин манийрикай менфят къачузвай и адетдихъ лезгийрин къадим театрдин элементар ава. Са береда "Пешапай" ксарин тамаша тир. Мублагьвал, берекат кӀандай инсанри яргъалди кьурагь хьайила марфадихъ цӀигел яз куьчейриз акъатна гъуцаривай къвал ракъурун тӀалабдай. Са итимдал, яни гададал цӀвелин, яни къавахдин таран хилерикай раснавай "пек" алукӀардай. Ада жемятдин кӀвенкӀве аваз хуьруьн куьчейрай физ марф тӀалабдай манияр лугьудай. Манийри марф къвадалди ара гудачир. Хуьруьнбуру Пешапайдал яд иличдай.

## ГУНИ

Эхиримжи йисаралди марф къурун патал, гьаваяр кьурагь фейила лезги хуьрера "Гуни" гваз къекъведай адет авай. Гада аял пекер хтӀунна, серкӀверин тӀвалара туна, юкьвалай мерез арушна адакай "Гуни" туькӀуьрдай. Ам аялри юкьва туна магьле-магьле хуьре гваз къекъведай. Гьар ракӀарихъ акъвазиз хордалди и мани лугьудай:

*А Гуни-Гуни хьун герек,*
*Гунидиз рагъ гун герек!*
*Цава авай чӀулав пехъ*
*Ракъин нурди кун герек!*

Мани лагьана куьтягьайла кӀвалин иесиди "Гунидин" кьилел яд иличдай. Идалай кьулухъ гьар аялди Гунидикай вичиз чидай мани лугьудай. Сада лагьай мани муькуьда тикрарна кӀанзавач. Гьа и саягъда манийрин гьуьжетунар кьиле фидай. Лап

bəzi müəllifləri ləzgilərin bu bayramı ilə bağlı məlumatlar vermişlər.

## İLK SÜNBÜL

Taxıl biçininin vaxtı yaxınlaşanda adətən ilk sünbülün yığılması bayram edilir. Bu bayrama "İlk sünbül", "İlk dərz" və ya "Peçxür bayramı" da deyirlər. İlk dərzləri yığıb onları zəminin kənarında başı üstə qoyur, sünbülləri oxşaya-oxşaya, xeyir-dua edə-edə mahnı oxuyur və süfrə arxasına keçirlər.

Zurnanın və nağaranın şux səslərini eşidən uşaqlar rəqsə girişirlər. Qadınlar təzə arpadan bişirdikləri çörəkdən qonşulara, kənddəki imkansız ailələrə və yetimlərə pay verirlər. İnanca görə, belə bəxşişlər paylanmayanda yağış və ya dolu yağır.

## PEŞAPAY

Qusarlıların indiyə kimi qoruyub saxladıqları folklor nümunələri arasında "Peşapay" xüsusi yer tutur. Xalq oyunları ilə müşayiət olunan, kollektiv şəkildə ifa olunan mahnılarla zəngin olan bu bayram qədim teatr ünsürləri ilə zəngindir.

Uzaq keçmişdə "Peşapay" kişilərin tamaşası olmuşdur. Uzun müddətli quraqlıq zamanı bərəkət, bolluq arzusu ilə insanlar küçələrə çıxaraq, ğutslardan (allahlardan) yağış diləyərdilər. Adətən bir oğlan uşağına ağac budaqlarından "paltar" geyindirib, küçə-küçə gəzdirər, onu müşayiət edərək yağış arzusu ilə mahnı oxuyardılar. Mahnılar yağış yağana kimi davam edərdi. Adamlar Peşapayın üstünə su atardılar.

## GUNİ

Son illərə kimi quraqlıq zamanı ləzgi kəndlərində "Quni" gəzdirmək adəti var idi. Oğlan uşağını soyundurub, ona çubuqlar sarıyıb, iplə bağlayar, ondan "Guni" düzəldərdilər. Uşaqlar onu dövrəyə alaraq, məhlə-məhlə gəzdirər, mahnı oxuyardılar. Hər evin qarşısında xorla aşağıdakı mahnını oxuyardılar:

*Guni-Guni gəlsin gərək!*
*Guniyə gün dəysin gərək!*
*Göydəki qara qarğa*
*Yanıb kül olsun gərək!*

Mahnı sona çatanda ev yiyəsi "Guni"nin başına su tökərdi. Bundan sonra hər uşaq Guni haqqında bildiyi mahnıları oxuyardı. Uşaqların biri digərini tamamlamalı idi. Bu qayda ilə əsl mahnı yarışması gedirdi. Ən çox mahnı oxuyan uşağa ev sahibi tərəfindən

пара манияр лагъай аялдиз кIвалин иесиди савкьват гудай. Савкьватар багъабур тир: хенжел, къеме, чухва, тай, кьар. Ихьтин савкьватри аялрик кьегъалвилин руьгь кутадай.

## АЛАПЕХЪ

Яргъалди марфар къвайила, "Пешапай"дин акси тир, Ракъиниз эвердай "Алапехъ" рикIел хкведай. "Алапехъда" дишегьлийри иштиракдай. Абуру нинидал яру яйлух гьалддай. Къадим лезгияр чIалахъ тир хьи, Рагъ руш я. Адаз яру рангунин куьмекдалди эвериз жеда. "Алапехъда" иштиракзавай дишегьлийри хордалди манияр лугьудай. Пай-уьлуьш кIватIна куьтягьайла дишегьлияр чуьлда чIехи суфра экIяна ацукьдай, тIуьнив эгечIдай. Гьа инал манидин мел башламишдай. Эгер "Пешапай" гатфарихъ галаз алакъалу ятIа, "Алапехъ" гатун мярекат гьисабдай. Магьсулар кIватI хъувуна, йигарар гатадайла, чIимелар тахьун патал икI лугьудай:

*А пехъ, пехъ, алапехъ,*
*Пехъ ацукьна ша, чими рагъ,*
*Ракъар, варцар инихъди,*
*Цифер, кьаяр анихъди...*

КцIарин гзаф хуьрера ракъиниз икI эвердай:

*Рагъ, Рагъ,*
*Бубад кIваляй*
*Фу тIуьна хъша,*
*Яру къванцелай*
*Яд хъвана хъша!..*

## ВАЦРАКЪАР

ЦIийи варз акъатдайла "Вацракъар" ("Вацран йикъар") халкьдин театр кьиле фидай. Чумалдин ва я инидин тарарин яцIу хилер атIана, абурукай вацраз ухшар затI расдай. Ахпа ам цуьквералди дуьгуьрна, хуьруьн кьакьан чкадал виридаз аквадайвал кIирерал гьалдна тадай. Сада вацракай манияр лугьудай, амайбуру хордалди манидин гафар тикрардай. Вацран хийир-дуьа къачурдалай кьулухъ жегьилри вацран шикил юкьва туна "Вацракъар" мани лугьудай. ЦIийи варз цавун аршдиз хкаж хьайила абур чпин кIвалериз хъфидай.

КIвалериз хъфейбуру йифен кьулариз суфрадихъ ацукьна гъуцариз шукур гъидай. Халкьди вацраз, ракъиниз ва тIебиатдиз туькIуьрнавай са шумуд бенд кIелна пакагъан йикъакай веревирдер ийидай. "Вацракъар" хъсандиз къейд авурбурун крарни хъсандиз фида лугьудай кьуьзуьбуру.

bəxşişlər verilərdi. Bunlar qiymətli hədiyyələr idi: xəncər, qəmə, çuxa, dayça, erkək quzu. Belə hədiyyələr uşaqların ürəyincə olar, onlara qəhrəmanlıq ruhu aşılayardı.

## ALAPEX

Yağıntı çox düşəndə "Peşəpay"ın əksi olan, Günəşə çağırışdan ibarət olan "Alapex" mərasimi keçirilərdi. Bu mərasimdə ancaq qadınlar iştirak edərdi. Onlar gəlinciyə qırmızı yaylıq geyindirib, qapı-qapı gəzdirərdilər. Qədim ləzgilərin təsəvvürlərinə görə Rağ (Günəş) qızdır. Onu qırmızı rəngin köməyi ilə çağırmaq olar. "Alapex"də iştirak edən qadınlar xorla mahnı oxuyardılar. Sovqatlar yığılıb qurtaranda qadınlar çöldə süfrə açıb onun ətrafına yığışardı. Bundan sonra mahnı məclisi qızışardı. Bahar mərasimi olan "Peşəpay"dan fərqli olaraq, "Alapex" yay mövsümünün mərasimidir. Məhsul yığılıb, dən üyüdüləndə yağıntı olmasın deyə belə deyərdilər:

*A qarğa, ala qarğa,*
*Qarğanı yandır Günəş,*
*Günəşlə Ay bu yana,*
*Bulud, yağış o yana.*

Qusarın kəndlərində Günəşə belə müraciət edərdilər:

*Günəş, Günəş,*
*Ata evində*
*Çörək yeyib gəl.*
*Qırmızı daşdan*
*Su içib gəl!*

## VATSRAQAR

Təzə ay çıxanda oynanılan bu xalq teatrının mənası "ayın günləri" deməkdir. Zoğal və ya yemişan ağacının yoğun budaqlarını kəsib, onlardan aya oxşar fiqur düzəldirlər. Sonra onu çiçəklərlə bəzəyib, bir payanın başına keçirir və kəndin hündür hissəsində, hamının görə biləcəyi yerdə bərkidirlər. Bir nəfər Ay haqqında mahnılar oxuyur, qalanları xorla mahnının sözlərini təkrar edir. Aydan xeyir-dua aldıqdan sonra gənclər Ayın əksini araya alıb "Vatsraqar" ("Ayın günləri")" mahnısını oxuyurlar. Təzə ay göyün ortasına qalxanda hamı evlərinə dağılışır.

Evlərinə dağılışandan sonra hamı süfrə arxasına keçər, allahlara dua edərdi. Xalqın Aya, Günəşə, təbiətə həsr etdiyi bəndləri əzbərdən oxuduqdan sonra, sabah görüləcək işlərdən danışardılar. Bu vaxt ailənin gələcək planlarından da söhbət açılardı. "Vatsraqar"ı yaxşı qeyd edənlərin işləri uğurlu olar deyərdi ağsaqqallar.

# ХАЛКЬДИН АДЕТАР

## КИМ

***Ким авачир хуьр гурмагъ авачир кIвал хьиз я.***
*Лезги халкьдин мисал.*

Лезги хуьрерин кьетIен лишан я ким. Адан тIвар кьурла чи руьгь юзада. Куьз лагьайтIа, ам чи халкьдин тIвар хуьзвай тарих я. Ким авачир хуьр чкIида, ам хуьх, лугьуз веси ийида кьуьзуьбуру. Ким хуьруьн абур я, ам авай хуьре гъвечIи-чIехид, хатур-гьуьрмет, хийир-берекатни ава. Ким авай чкада агъсакъал ава, агъсакъал аватIа, эл ава, - лугьуда кцIарвийри. Ким, жегьилрин акьулдиз нур гузвай, абуруз сабурлувални дуьзвал, мердвални кьегьалвал чирзавай чка я.

Адет яз ким хуьруьн юкьвал, эл алахьдай рекьин къерехда жеда. Хуьруьз ва хуьруьнбуруз талукь вири месэлаяр инал гьялда, къарар акъудда. Мел-мехьерин, тазиятрин меслятар инал ийида. Хизанрин наразивилерилай несилрин мидявилералди гьар жуьредин гьуьжетунар, къалар инал гьялда.

Кимин кьиле хуьруьн тIвар-ван авай кас жеда. А кас элдин гьуьрмет къазанмишнавай, хъсанвилерихъни ислягьвилихъ ялдай, къени амалрин кьуьзекрин арадай хкяда. Адахъ кимел алайбурухъ яб акална эхиримжи гаф лугьудай, кутугай къарар къабулдай ихтиярар жеда.

# XALQ ADƏTLƏRİ

## KİM

***Kimsiz kənd bacasız evə bənzəyir.***
*Ləzgi xalq məsəli.*

Kim ləzgi kəndinin siması, onun yaraşığıdır. Xalqın özünəməxsusluğunu sübut edir, qədim tarixlə müasir həyat arasında körpü rolunu oynayır. Kimi olan kənddə böyük-kiçik bilinər, xeyir-bərəkət olar, ağsaqqal sözünə qiymət qoyular. Kimsiz kənd bünövrəsiz ev kimi tez dağılar, ona görə də kimi qoruyub saxlamaq lazımdır, - deyə ağsaqqallar gənclərə öyüd-nəsihət verirlər. Kim gənclərə səbrli, mərd və cəsarətli olmağı öyrədən yerdir.

Adətən kim kəndin mərkəzində, el yolunun üstündə olur. Buraya başqa sözlə ağsaqqalların toplaşdığı yer də deyilir. Kəndə və onun sakinlərinə aid bütün məsələlər burada həll olunur, mühüm qərarlar qəbul olunur. El şənlikləri, bayramlar, toylar, yas mərasimləri və başqa tədbirlərlə əlaqədar məsləhətləşmələr burada aparılır. Ailə narazılıqlarından tutmuş nəsillər arasındakı münaqişələrə kimi bütün məsələlər burada müzakirə olunur.

Kimə kəndin xeyirxah əməlləri ilə ad çıxarmış ən hörmətli və nüfuzlu adamı rəhbərlik edir. Onu ağsaqqallar öz aralarından seçirlər. Bu şəxsdə kimdə toplaşanların sözlərinə səbrlə qulaq asıb son söz demək



***Хьилерин хуьруьн ким.*** ***Hil kəndinin kimi.***

Са береда кимин къарар гъар са хуьруьнви па-тал къанун тир. Къазийринни судьяйрин къарарар дегишардай гъукум авай кимел гъайи меслятдихъ. Садахъни кимел акъудай къарар чIурдай ихтияр авачир. Дегь чIавара чIехи дявейрин вилик пад кьун патал кимел акъудай са къарар бес жедай.

Хуьруьн кьилевайбуру - алатай девирра кавхади, гуьгъуьнлай колхоздин седриди ва я совхоздин директорди хуьруьн майишатдихъ, эцигунрихъ, абадвилерихъ, чилер паюнихъ галаз алакъалу месэлаяр гьялдайлани кимел атана агъсакъалрал меслят гъидай. Жемят патал ахлакьдин тарсар къачудай мектеб тир ким. Гила чи кимерихъ эвелан гьукум гумачтIани, ам мадни лезги хуьруьн кьетIен лишан я.

## МЕЛ

***Мел авай хуьр - эл авай хуьр.***
*Лезги халкьдин мисал.*

Мелер авун лезгийрин дегь чIаварин адет я. Им чи халкьдин зегьметдихъ галаз алакъалу тир гурлу суваррикай сад я. Халкь агуддай, инсанрик руьгь кутадай мелерин гелер тарихдин деринриз физва. Бинеда кIватIал хьунин, дуствилин, стхавилин рафтарвилер авай, инсанар сад садав агуддай, абурук руьгь кутадай, мукьвалардай мел йисан чара-чара вахтара кьиле тухуда. Мелер жуьреба-жуьрединбур жеда. КIвалер эцигдай хизандиз куьмек гун патал залан ва четин крар - кирпичар атIун, къавуз накьв гун, къав кIевирун хьтин крар вирида санал ийида. ГьакIни рекьер-муькъвер расдайла, хвалар михьдайла, никIер эчIелдайла, гвенар гуьдайла, хперин сар твадайла, сар эвягъдайла, цанар цадайла, багълар кутадайла сад садаз куьмек гуда лезгий-

ixtiyarı olur. Bir zamanlar kimin qərarı hamı üçün hökm idi və onu pozmağa heç kəsin ixtiyarı yox idi. Kim hətta qazıların və hakimlərin qərarlarını dəyişmək gücünə malik idi.

Qədim zamanlarda kimin bir qərarı ilə qanlı müharibələrin qarşısı alınardı. Kəndin rəhbərləri - Sovet hökuməti qurulana kimi kəndxudalar, sonralar kolxoz sədrləri və ya sovxoz direktorları kəndin məişəti, tikintisi, abadlığı, torpaqların paylanması kimi mühüm məsələləri kimdə ağsaqqalların müzakirəsinə çıxarardı. Kənd əhalisinin əxlaq məktəbi, tərbiyə məktəbi idi kim. Hazırda ləzgi kimləri əvvəlki hökmə malik olmasa da, kim - kimdir. Ləzgi kəndlərini onsuz təsəvvür etmək mümkün deyil.

## MEL

***Melli kənd - elli kənd.***
*Ləzgi xalq məsəli.*

Mel sözünün mənası könüllü iməcilik deməkdir. Bu, ləzgilərin zəhmətlə bağlı ən gur və maraqlı əmək bayramlarından biridir. Kollektivçilik, dostluq, qardaşlıq münasibətləri üstündə formalaşan, insanları yaxınlaşdıran, doğmalaşdıran bu bayram ilin müxtəlif vaxtlarında keçirilir. Ev tikən ailənin zəhmətini yüngülləşdirmək məqsədilə çətin işləri, ələlxüsus kərpic kəsməyi, evin damını örtməyi və divarları suvamağı kənd camaatı öz öhdəsinə götürür. Mel həmçinin körpü tikmək, yol çəkmək, zəmini alağdan təmizləmək, qoyun qırxmaq, yun daramaq, bağ salmaq kimi işlərdə keçirilir, adamlar bir-birlərinə kömək edirlər. Toyla bağlı keçirilən mel daha təntənəli və gur olur.

Mahiyyəti çətin işlərin bir yerdə görülməsi olan



*Мучугъа мел.* *Mucuqda mel.*



***Дишегьлияр "Перизада" лугьуз-лугьуз мелез физва.***
***Qadınlar "Perizada" oxuya-oxuya iməciliyə gedirlər.***

ри. Мехъеррин мелер иллаки гурлубур жеда.

Четин кӀвалахар кьилиз акъудун патал инсанри сад садаз гузвай куьмекдин и форма - мел лезгийри багъаз кьада ва и адетдиз рикӀяй гъуьрметда. Мелен кьетӀен лишанрикай сад мярекатда макьамчийри иштирак авун я. Мелен хабар хуьруьз яралай зуьрнедал ягъидай "Экуьнар" гьавади ва са-са гъенел физ мелез эверзавай чархачийри агакьарда. Мелерик адет яз рушарини гадайри кӀанивилин ва зарафатдин манияр лугьуда.

Мелез фидай дишегьлийрив кьетӀен савкьватар - тӀаратӀар жеда. ТӀаратӀар - тӀваларал кутӀуннавай бишмеяр, шалар, парчаяр я. Абурун арада кьилин тӀаратӀни жеда - ам яру рангунинди я. Яру ранг мелерин лишан яз гьисабда. Дишегьлияр ван алаз "Перизадаяр" лугьуз-лугьуз, хуьруьн магьлейрай тӀуз, мел авай чкадиз фида. Кьве дишегьлиди нубатдалди бендер лугьуда, муькуьбуру хордалди гуьгъ кутада. Итимри кьамал крчарик яру цӀил кутӀуннавай гъерер, данаяр кьада.

Къуьн-къуьне туна кӀвалахайдалай кьулухъ эл суфрадив эгечӀда, тукӀунвай гьайванрикай чранвай хуьрекар неда. ТӀуьна-хъвана, ял ягъайдалай гуьгъуьниз мел давам хъжеда. Хурушумдиз мел кьилиз акъатайла эл мад гъилерда санал кӀватӀ жеда. Инал шад мярекат кьиле фида, вирибуру кьуьлерал, манийрал илигда. Ашукьар авай хуьрера мелерик гьабурузни теклифдай адет авай. Ахпа дем кьиле фида. Идаз "Мелен дем" лугьуда. Нянихъ мел чкӀидайла зуьрнечийри "Рекьин гьава" яда.

## ДЕМ

Лезги адетар, меденият, ацукьун-къарагъун, халкьдин яратмишунар санал кӀватӀалзавай мярекатрикай сад дем я. Лезгийрин музыкадин, хореографиядин ва поэзиядин элементар са арадиз гъизвай, шаддаказ ва гурлуз кьиле физвай дем гзафни-гзаф зурба мярекат я. Дем чи халкьдин тарихдинни медениятдин гуьзгуь я. Дегь чӀаварилай кьил кутуна лезгийрин итимрини дишегьлийри санал мярекатар кьиле тухуда. Мехъер лагьайтӀа, халкьдин виридалайни зурба сувар я.

Хуьруьнбуруз мехъерин хабар экуьн яралай кьакьан къавал ядай "Экуьнар" гьавади агакьарда. Мехъер адет яз гатун ва зулун варцара, пуд юкъузни пуд йифиз кьиле тухуда. И мярекатдин абур рагъданилай йифен кьуларалди, гагь-гагь экуьналди давамдай дем я. Эвелдай гьазурнавай гегьенш майдандиз вири эл кӀватӀ жеда. Кьуьзуьбур жерг яна ацукьда, жегьилри мярекат кӀвачел кьилиз акъудда.

mel adətinə ləzgilər böyük hörmətlə yanaşırlar. Melin vacib şərtlərindən biri burada musiqiçilərin iştirakıdır. Səhər tezdən zurnada çalınan "Ekünar" ("Səhər") havası bu xəbəri elə çatdırır. Sonra isə müjdəçilər ev-ev gəzib, bu barədə adamlara xəbər verirlər.

Melə gedən qadınların əllərində bayraqlar olur. Çubuqlara bağlanmış şal, kəlağayı və parça onların mel sahibinə hədiyyəsidir. İrəlidə qırmızı rəngli bayraq tutmuş qadın gedir. Bu da təsadüfi deyil, çünki qırmızı rəng melin rəmzi sayılır. Qadınlar xorla mahnı oxuya-oxuya məhəllələrdən keçir, kəndə ümumi bayram əhval-ruhiyyəsi gətirirlər. Adətən onlar qədim mərasim mahnısı olan "Perizada"ya üstünlük verirlər. İki qadın növbə ilə mahnı oxuyur, qalanlar xorla təkrar edirlər. İki-üç kişi çiyinləri üstündə buynuzlarına qırmızı parça bağlanmış qoç və ya dana tutur. Ev sahibi bayraqları uca bir yerə bərkidir və melin sonuna kimi orada saxlayır. Melə oğlanlar və qızlar da mahnı oxuya-oxuya, dəstələrlə qoşulurlar.

Çiyin-çiyinə çalışıb yorulmuş adamlar nahar vaxtı bir yerdə süfrə arxasına keçirlər. Mərasim münasibətilə kəsilmiş heyvanlardan hazırlanan xörəklər gətirilir. Yemək mərasimi başlanır. Fasilə bitəndə iş yenidən qızışır.

Axşam işlər görülüb qurtaranda şənlik məclisi başlanır. Mahnılar, rəqslər, aşıqların çıxışları, xalq oyunları, şirin zarafatlar gecə yarısına kimi davam edir. Sonra növbə ənənəvi "dem"ə verilir. Buna "Melin demi" də deyirlər. Zurnaçıların çaldığı "Yol havası" məclisin sona çatdığını xəbər verir.

## DEM

Ləzgilərin adət-ənənələrini, mədəniyyətini, incəsənətini birləşdirən mərasimlərdən biri demdir. Xalqın zəngin mənəvi irsindən xəbər verən dem ləzgi musiqisinin və xoreoqrafiyasının nadir elementlərini sistem şəklində qoruyub saxlayan vasitədir. Burada ləzgi folklorunun, onun ayrılmaz hissəsi olan rəqslərinin, mahnılarının, xalq oyunlarının parlaq elementləri vahid süjet kimi birləşir. İnsanları yaxınlaşdırmaq, doğmalaşdırmaq gücünə malik olan demlərin dəqiq tarixini bilən yoxdur. Lakin bu mərasimdə qədim ayinlərin izlərinin olması onun köklərinin dərinliyindən xəbər verir.

Demə çoxmərhələli ləzgi toyunun son mərhələsi də demək olar. Adətən kəndə toy xəbərini səhər tezdən uca yerdən və ya damdan çalınan "Səhər" havası çatdırır. Toy 3 gün davam edir və adətən yay və payız aylarında keçirilir. Onun ən maraqlı hissəsi hava qaralandan gecə yarısına, bəzən isə səhərə kimi davam



*КцIарин демер гзаф гурлуз кьиле фида.*
*Qusar demləri çox gur keçir.*



*Москвада лезги дем.*
*Moskvada ləzgi demi.*

Дем - кIвачерик звер, пIузаррик хъвер кутадай, гьиссерал звал гьидай, инсанар агуддай, абурув ял ягъиз тадай, рикI аладардай халисан сувар я. Дем гьакIни гадайри чпиз свас жагъурдай мярекат я.

Лезги кьуьлерихъ виш йисаралди арадиз атанвай махсус къайдаяр ава. Чи демери халкьдин тарихдинни медениятдин гелер хвенва. Лезгийрин кьуьлерунин мярекат чараз, тIуьн-хъун авачир, вири эл кIватI хьайи чкада, йифиз кьиле фида. Ина рушарини гадайри, дишегьлийрини итимри санал кьуьлда.

Лезги демерихъ виш йисара арадиз атанвай кьетIен адетар ва вичин къайдаяр ава. Ина рушарини гадайри санал кьилиз акъуддай кьуьлер пуд паюникай ибарат я. Сифте гадади майдандилай цIар яда. Им гьам межлисда ацукьнавайбуруз салам гун, гьамни кьуьлдай руш хкягъун патал я. Гадади вичин вили кьур рушаз теклиф авурла, ам жегьилдихъ галаз кьуьлиз акъатда. Абуру макьамдив кьадай гьерекатрикайни элементрикай менфят къачуз кьуьлда. Сада муькуьдан гьерекатар тамамарна кIанзава. Кьуьлдай чIавуз рушанни гададин тупIар сад садахъ галукьна кIанзавач.

Руша вичин кьуьл тамамарайла гадади кьуьлунин пуд лагьай чIук викIегьдаказ, йигин гьерекатралди кьилиз акъудда. Кьуьл куьтягь хьайила ада макьамчийризни межлисдиз кьил агъузна развал къалурда.

Эхиримжи йисаралди лезги демерихъ кьилди сагьиб - арачи авай. Арачидиз хъсан кьуьлзавачир, къапарай акъатзавай, артухан гьерекатриз рехъ гузвайбурун кIвачер тIвалунив ядай ихтияр авай. Са гафуналди, лезги демерихъ гуьзчи авай. Гьавиляй ина акатайвал кьуьлиз жедачир. Майдандиз акъатун имтигьан гуниз барабар тир. Хъванвай кас деминиз ахъайдачир. Виридалайни хъсан кьуьлайбуруз жемятди капар ядай.

edən rəqs yarışıdır. Əvvəlcədən hazırlanmış geniş meydançaya kəndin qocalı-cavanlı, kişili-qadınlı bütün camaatı toplaşır. Yaşlılar adətən dövrə vurub otururlar, cavanlar isə onların arxasında ayaq üstə məclisə tamaşa edirlər. Bu, gənclərin özlərinə adaxlı seçməsi üçün ən münasib yer sayılır.

Ləzgi rəqslərinin əsrlər boyu yaranmış öz qayda-qanunları, özünəməxsus gözəlliyi vardır. Bunu qoşa rəqslərdə daha qabarıq hiss etmək olar. Ümumiyyətlə, cüt rəqslər üç hissəli olur. Birinci hissədə oğlan meydana çıxıb sakit ritmə uyğun dövrə vurur. Bu, həm məclis əhli ilə salamlaşmaq, həm də qız gözaltı etmək üçündür. Oğlan bəyəndiyi qızı hərəkətləri, işarələri ilə rəqs meydanına dəvət edə bilər. Amma o, bunu elə ustalıqla etməlidir ki, heç kəs hiss etməsin. Qızın ondan xoşu gəlsə, bu dəvəti qəbul edib, rəqsə qoşulur. Bu, rəqsin ikinci hissəsidir.

Oyun zamanı gənclər öz hiss və həyəcanlarını rəqs elementlərinin köməyi ilə bir-birinə çatdırırlar. Əgər oğlanın bəyəndiyi qız dəvəti qəbul edib rəqs meydanına çıxmasa, onda toy evinin qız-gəlinlərindən biri oğlanla rəqsə qoşulur. Cütlüyün oyunu necə gəldi olmamalı, hərəkətlər bir-birini tamamlamalıdır. Rəqs zamanı qızın və oğlanın əllərinin bir-birinə toxunması yolverilməzdir. Qız öz partiyasını ifa edəndən sonra rəqsin üçüncü hissəsi başlanır. Bu, oğlan tərəfindən ayrıca ifa olunan cəld və iti rəqsdir. Sonra o, məclisə təzim edib gedir. Bu üç hissə bir-birini tamamlamalı, vahid süjet xətti yaratmalıdır.

Ləzgi demlərinin aparıcısı “araçı” adlanır. O, məclisdə qayda-qanun yaradır, rəqs etmək üçün növbəyə düzülmüş cavanlara nəzarət edir. Araçı mərasim başlanıb sona çatana kimi demi idarə edir, onun bütün məsuliyyətini öz üzərinə götürür. Araçı düzgün rəqs etməyən, cızığından çıxan rəqqasların ayaqlarını çubuq-



*Чамран кьуьл.* *Vəyin rəqsi.*



*Туьркиядин Балыкесир вилаятдин Бугьаз хуьре дем.*
*Türkiyənin Balıkesir vilayətinin Boğaz kəndində dem.*

Шадвилин гьиссерин, суварин гьавадин, кьуьлерин гьуьжетунин элементрикай арадиз атанвай демер лезги мехъеррин кьетІен лишан я. Вахтар, девирар алатунивай, эвелан адетар дегиш хьанатІани, абуру лезгийрин мехъеррин адетриз са акьван таъсир къалурнач, адан метлеб дегишарнач. Лезги мехъер къедалди жегьилар кІватІдай чка яз ама.

Гьайиф къведай кар ам я хьи, алай аямда арадиз атанвай гзафни-гзаф ресторанри, шадвилин мярекатар тухудай дараматри чи мехъерар гурлу ийизвай демер арадай акъудзава. Демерихъ галаз санал халкьдин гзафни-гзаф хъсан адетарни квахьзава.

И карди чи вилик-кьилик квай ксарихъ къалабулух кутазва. Журналист-кхьираг Седакъет Керимовади лагьайтІа, Баку шегьерда дем кІвачел ахкьалдарун патал халкьдин адетрал бинеламиш хьана талукь сценарий кхьена, демер тухудай цІийи деб кутунай. Ихьтин дем адан регьбервилик кваз 2004-йисан 22-сентябрдиз Бакуда кьиле фенай. Студентри тухвай и "Дем"инин суракьар яргъариз чкІанай. Гьа чІавалай "Дем" Бакудин жегьилрин рикІ алай мярекатдиз элкъвена. Гила лезги жегьилри Москвада, Санкт Петербургда, Ярославлда, Харьковда ва маса шегьерра демер кутаз, чи халкьдин хъсан адетар рикІел хкизва. Къе демер шегьерра яшамиш жезвай жегьилар сад садав агудзавай, абурун рикІер шадвилин гьиссерив ацІурзавай хъсан межлисрикай яз гьисабзава.

Алай вахтунда шегьерра яшамиш жезвай жегьилар демерик цІийивилер кутаз, и адет мадни девлетлу ийиз алахъзава. Месела, са бязибуру уьмуьрдин чара-чара хилерай чпин алакьунар къалурда. Гагь-гагь чара-чара макьамрал кьуьлунин гьуьжетунарни тухуда. Ихьтин цІийивилери халкьдин къадим адет мадни вилик тухуз куьмек гузва.

la vurmaq ixtiyarına malikdir. Bir zamanlar dem üçün gözəgörünməz senzura mövcud idi. Necə gəldi rəqs etmək olmazdı. İçkili adamı məclisə buraxmazdılar. Ən yaxşı rəqslər camaat tərəfindən alqışlanardı.

Əyləncə, bayram şənliyi, rəqs yarışması elementlərinin qovuşmasından yaranan demlər ləzgi toylarının vacib hissəsi sayılır. Zaman keçdikcə əvvəlki adətlər dəyişsə də, bunlar ləzgi toy mərasimlərinə bir o qədər təsir göstərə bilməyib, onların mahiyyəti olduğu kimi qalıb. Lakin son illər şəhərlərdə, rayon mərkəzlərində ucaldılan şadlıq evləri, toyxanalar, restoranlar bu gözəl adətin sıxışdırılmasına gətirib çıxarır. Ona görə də ləzgi gənclərini, ələlxüsüs böyük şəhərlərdə yaşayan qızları və oğlanları unudulmaqda olan demlərimizin taleyi narahat edir.

Bu adətə yeni forma və məzmun vermək, onu yaşatmaq, inkişaf etdirmək məqsədilə yazıçı-jurnalist Sədaqət Kərimovanın rəhbərliyi və ssenarisi ilə 2004-cü ilin sentyabrın 22-də Bakıda ləzgi gəncləri üçün yeni məzmunlu "Dem" təşkil olundu. Tələbələrin aparıcılığı ilə keçən həmin gecə qədim adətlərin və müasir çalarların bir-birinə həmahəng keçidi ilə yadda qaldı və xoş sorağı uzaqlara yayıldı. O vaxtdan "Dem" Bakı gənclərinin sevimli əyləncəsinə çevrilib. Hazırda Moskvada, Sankt-Peterburqda, Yaroslavlda, Xarkovda va başqa şəhərlərdə yaşayan ləzgi gəncləri bu estafeti davam etdirirlər.

Şəhərlərdə yaşayan gənclər "Dem"ə yeniliklər gətirməyə, onu yeni çalarlarla zənginləşdirməyə çalışırlar. Məsələn, bəziləri ayrı-ayrı sahələrdə bacarıqlarını nümayiş etdirirlər. Gah-gah hər bir rəqsin ən yaxşı ifaçısını təyin edən yarış keçirilir. Bütün bu yeniliklər qədim el adətini daha da inkişaf etdirməyə imkan verir.

## ЛЕЗГИЙРИН КЬУЬЛЕР

***Лезгийрин йигин кьуьлери зун гьейранарна. Абурун гадайрини рушари гзаф викIегьдиз, дагъдин лекьери чархалай цIар ягъидай хьиз, йигиндиз кьуьлда. Инсандин гьар кIвачел агъзур шейтIан ацукьна кIанда хьи, "Лезгинкадал" икьван йигиндиз, икьван эсерлудаказ, икьван туькIвей къайдада кьуьлиз жен.***

*Александр Дюма,*
*французрин кхьираг.*

Лезгидин кьуьлунал рикI хьун са куьнивни гекъигиз жедач. Хайи макьамри аялзамаз адак викIегьвилин руьгь кутада. "Лезгинка"дин ван хьайила гьеле кIвачел акьалтнавачир аялдин гъилерни цавуз хкаж жеда, адан кIвачерик звер акатда. Гьар са лезгиди кьуьлдайла, иви ргаз, гьиссер юзаз вичин рикIин ван "асса" лугьуналди винел акъудда. Лезги аялриз сифте "асса" гаф чир жеда. И гафуни уьмуьрдин эхирдалди адан рикIиз экв гуда.



И гаф Къафкъаздин дегь чIаварин женгчи тайифайрикай тир асрилай амайди ятIа? Белки асар лезгийрин чIехи бубаяр тир жал? Гьар вуч ятIани, лезгийрикай гаф кватайла, рикIел гьасятда "Лезгинка" хкведа - дуьньядин виридалайни йигин кьуьл. Къе Къафкъаздин визитдин карт тир "Лезгинка" лагьайтIа, чи "Лезги руш" макьамдиз ва гьакIни санлай са бязи лезги ритмайриз ганвай тIвар я.

Кьуьлери лезги халкьдин фольклорда кьетIен чка кьазва. Манияр, симин пагьливанрин акъажунар, ашукьрин гьуьжетунар ва маса яратмишунар адалай гуьгъуьниз къвезва. Са береда лезгийрин суварар театрдин саягъда, манийрихъ ва кьуьлерихъ галаз санал кьиле тухудай. Яран сувар, Цуькверин сувар, КIару, Сифте ргал хьтин суварар вирида санал лугьудай манияр, пагьливанрин кьуршахар кьунар, балкIанрин чамарар, симин пагьливанри чпин гьунар къалурунар хьтин нумрайралди тафаватлу тиртIани, и мярекатар кьуьлери тамамардай.

## LƏZGİLƏRİN RƏQSLƏRİ

***Ləzgilərin iti rəqsləri məni heyran etdi. Onların həm oğlanları, həm də qızları çox cəld, dağ qartallarının şığımasına bənzər, olduqca çevik rəqs edirlər. Gərək adamın hər ayağında min şeytan otursun ki, "Ləzginka"da belə iti, belə təsirli, belə mükəmməl qaydada rəqs edə bilsin.***

*Aleksandr Düma,*
*fransız yazıçısı.*

Ləzgilərin rəqsə olan məhəbbətini heç nə ilə müqayisə etmək mümkün deyil. Doğma melodiyalar, xalq ritmləri uşaqlıqdan onların ruhuna hakim kəsilir. "Lezginka" sədalarını eşidəndə iməkləyən uşağın da əlləri göyə qalxır, onun ayaqları musiqiyə uyğun hərəkətlər edir. Hər bir ləzgi rəqs edərkən cuşa gələrək öz hiss və həyəcanını "assa" sözü ilə ifadə edir. Ləzgi uşaqları "assa" sözü ilə dil açırlar. Bu kəlmə ömürlərinin sonuna kimi onların ürəyinə işıq saçır.

Bəlkə bu söz Qafqazın döyüşkən tayfalarından olmuş aslardan miras qalıb? Bəlkə aslar ləzgilərin əcdadlarıdır? Hər nə isə, ləzgilərin adı çəkiləndə "Lezginka" yada düşür - dünyanın ən iti, ən şux və dinamik rəqsi. Bu rəqsə çeviklik, cəldlik, plastika və coşqunluq xasdır. Elə ona görə də dünyada məşhurdur və çox sevilir. Qafqazın vizit vərəqi sayılan "Ləzginka" həm "Lezqi ruş" ("Ləzgi qızı") rəqsini, həm də ümumilikdə ləzgi rəqs ritmlərini əks etdirir.

Rəqs, ümumiyyətlə, ləzgi folklorunda aparıcı rol oynayır. Qədim zamanlarda ləzgi xalq bayramları və el şənlikləri bir qayda olaraq teatrlaşdırılmış nömrələrlə müşayiət olunub. Misal üçün, "Yaran suvar" (Bahar bayramı), "Tsükverin suvar" ("Çiçək bayramı"), "Karu" ("Gilas bayramı"), "Sifte rqal" ("İlk şırım") kimi el bayramları mərasim mahnıları, pəhləvanların yarışı, at oynatmaq, kəndirbazların çıxışı, aşıqların deyişməsi ilə zəngin olsa da, mütləq rəqslərlə yekunlaşır.

XIX əsrin əvvəllərində Dağıstanda yaşamış bir sıra

XIX виш йисан сифте кьилера Дагъустанда яшамиш хьайи бязи урус тарихчийри ва кхьирагри лезгийрин са кьадар гьавайриз ва кьуьлеризни “Лезгинка” тIвар ганай. Муравьев ва Величко хьтин сейли урус тарихчийри “Лезгинкади” инсанрихъ женгчи руьгь, ватанпересвилин руьгь кутазвайди кьилди къейд авунай ва и макьамди Къафкъаздин дяведин вахтунда Шейх Шамилан муьруьдрик гьихьтин руьгь кутазвайтIа гегьеншдиз кхьенай.

М.Ю.Лермонтова вичин “Къачагъ Гьажи” эсерда лезги тават Лейлади иердиз мани лугъуз, кьуьлзавайди къелемдиз къачунай. 1893-1921-йисара Ахцегьа яшамиш хьайи латишрин кхьираг Эрнест Бирзниек-Упита кхьенай хьи, лезгийрин вири элдин мярекатар зуьрнедин ва далдамдин макьамралди кьиле фидай. Ада кьакьан буйдин, гьяркьуь къуьнерин жегьилрин ва юкь шуькIуь зериф рушарин кьуьлер цава сирнавзавай лекьерив гекъигнай.

Лезги кьуьлер чпин ритмайрин девлетлувилелди тафаватлу я. Вич кьведра СССР-дин Гьукуматдин Премиядиз лайихлу хьайи, лезгийрин ва Дагъустандин халкьарин пешекар музыкадин бине кутур Готфрид Гьасанова 1925-йисуз 126 лезги халкьдин гьава лентиниз кхьенай.

1927-йисуз ада “Лезгинка”дин зуьрнедал ягъизвай 12 макьам лентиниз куьчнай. 1948-йисуз ада чап авур “Дагъустандин 100 макьам” антологиядихъ цIудралди лезги гьаваяр кутунай. Машгьур “Лезгинка” ансамблдиз регьбервал гайи Зейнал Гьажиева 1959-йисуз “Лезги халкьдин 30 кьуьл” тIвар алай кIватIал чапдай акъуднай. Композитор Фетуллагь Регьимханова 79 халкьдин гьава ва 23 кьуьл нотдиз кхьенай.

Дегь чIавара, дагьдин лекьериз икрамзавай береда лезгияр инсанар кьейила абурун руьгьер лекьериз элкъведайдан чIалахъ тир. Гьавиляй абурун вири суваррин кьетIен лишан цава “сирнавзавай” лекьери хьиз кьуьл авун тир. Лезгийрин халкьдин суваррин кьилин атрибутар тир кьуьлерини манийри чи дегь адетрин гелер - Гьуцар диндин девиррилай мирас амай лекьрез икрам авунин элементар къедалди хвенва. Дегь чIавара лезгийрихъ “Лекьер” тIвар алай кьуьл хьуни и кар мад гьилерда субутзава. Гуржийри къедалди лезгийриз ва абурун кьуьлериз “Лекари” ва я “Лекиури” лугьун дуьшуьшдин кар туш.

Лезги кьуьлерин меркезда лекьрен имитация акъвазнава. Гьам ксари, гьамни дишегьлийри тупIарал хкаж хьана, гьилер гегьеншдиз ахъайна сирнавзавай лекьерин образар яратмишда. Кьуьлунин куль-

rus tarixçiləri və yazıçıları bəzi başqa ləzgi rəqslərini də gözəlliyinə və iti ritmlərinə görə “Ləzginka” adlandırmışlar. Muravyov və Veliçko kimi məşhur rus tarixçiləri “Ləzginka”nın döyüşkən və səfərbəredici gücə malik olduğunu xüsusi qeyd etmiş, Qafqaz müharibəsi zamanı onun sədaları altında Şeyx Şamilin öz müridlərini döyüşə necə səslədiyi haqqında ətraflı yazmışlar.

Rus şairi Lermontov özünün “Qaçaq Hacı” əsərində ləzgi gözəli Leylanın necə məharətlə rəqs etdiyini və mahnı oxuduğunu məhəbbətlə təsvir etmişdir. 1893-1921-ci illərdə Axtıda yaşamış latış yazıçısı Ernest Birzniek-Upit yazırdı ki, ləzgilərin bütün el şənlikləri zurna və nağara sədaları altında, gur rəqslərlə keçir. O, rəqs edən ucaboy, enlikürək oğlanları və zərif qamətli, incəbel qızları göydə süzən qartallara bənzətmişdi.

Ləzgi rəqsləri zənginliyi və müxtəlifliyi ilə diqqəti cəlb edir. İlk dəfə SSRİ Dövlət Mükafatı laureatı, ləzgilərin və Dağıstan xalqlarının peşəkar musiqisinin banisi Qotfrid Həsənov 1925-ci ildə 126 ləzgi xalq melodiyasını lentə almışdır. 1927-ci ildə o, zurna ilə ifa olunan 12 “Ləzginka”nı lentə köçürmüşdür. 1948-ci ildə çap etdirdiyi “100 Dağıstan havası” adlı antologiyaya Q.Həsənov onlarca ləzgi rəqs havasını daxil etmişdir. Məşhur “Ləzginka” rəqs ansamblının bədii rəhbəri Zeynal Hacıyev 1959-cu ildə “30 ləzgi xalq rəqsi” adlı toplu buraxmışdır. Bəstəkar Fətullah Rəhimxanov ləzgilərin 79 xalq mahnısını və 23 rəqsini toplayıb nota köçürmüşdür.

Ləzgi xalq mərasimlərinin və el şənliklərinin əsas atributları olan mahnı və rəqslərdə qədim ayinlərin izləri aydın hiss olunur. Çoxallahlığa sitayiş dövründən miras qalmış qartala sitayiş ayini bir çox rəqslərin elementlərində bu günə kimi qorunub saxlanıb. Ləzgilərin qədim əcdadları olan leglər insanın ölümündən sonra onun ruhunun qartal şəklində yaşamasına inanırdılar. Qədimlərdə ləzgilərin *“Лекьер”* (“Qartallar”) rəqsinin olması da bunu sübut edir. Gürcülərin bu gün də ləzgilərə və ləzgi rəqslərinə “Lekari” və ya “Lekiuri” demələri təsadüfi deyildir. Ləzgi xalq mərasimlərinin mərkəzində qartal uçuşunun imitasiyası olan rəqslər dayanır. Həm kişi, həm də qadın rəqqaslar ayaq barmaqları ucunda qalxaraq, əllərini yana açıb qartal obrazını yaradır, onun uçuşunu təqlid edirlər. Kişilər iti, çevik, sərt, qadınlar isə cəld, lakin zərif hərəkətlər nümayiş etdirirlər. Rəqsin kulminasiyasında, yəni ruhun bədəndən ayrılıb göyə qalxması anında “assa” sədaları ucalır.

Qədim inanc bu gün də ləzgilərin təsəvvüründə yaşayır. Qartal müqəddəs quş sayılır, onu ovlamaq günah

минацияда, яни руьгь бедендивай чара хьана цавуз хкаж хьайила "асса" лугьудай ванер акъатда. Къадим чIалахъунрин нетижа яз лезгийри къедалди лекьрез икрамзава, ам ягъун гунагьдай гьисабзава. Жегьилар лекьерив гекъигда лезгийри.

Иллаки лацу лекьрез икрамда абуру. Цава лацу лекь акур касдин вири мурадар кьилиз акъатда, лугьуда чи бубайри. Лезги кьуьл кьилди эсер я. Адахъ вичин сюжет, пролог, кульминация, эпилог ава. Йигиндаказ кьилиз акъуддай кьуьлер иллаки машгьур я.

## ЦIИЙИ СВАС ЦЕЛ АКЪУДУН

Вурварин хуьре лезгийрин дегь чIаварин гьава хъсандиз хвенвай са адет къедалди гурлудиз кьиле фида. Ина мехъерилай са шумуд югъ алатайла цIийи свас цел акъудун халисан сувариз элкъведа. Мукьва-кьилияр, къуншияр, рушар, сусар паяр гваз цIийи сусан кьилив къведа. Ина абуру кIвалинвийрихъ галаз санал "ПIирен пай" лугьудай хунча туькIуьрда. Ахпа вири санал "Вирин пIир" лугьудай чкадиз рекье гьатда. Ина пIирен паяр пайна, рикIин мурадар, Аллагьдивай тIалабунар ачухарна, кварар целди ацIурна, кьулухъ элкъведа.

## КIАНЧI

Лезгийрихъ ихьтин алхиш ава: "Яллагь вун кьуьзуь хьурай!" Са бязи хуьрера "Вакай кIанчI хьурай!" лугьуда. Ибурухъ сад хьтин мана ава: "Ви уьмуьрар яргьиди хьурай!"

Мукьвал йисаралди КцIарин бязи хуьрера ихьтин адет авай. Мехъерин юкъуз тухузвай сусав пекиник арушнавай гъвечIи кIанчI вугудай. Им чIехи алхиш авун, "Ви къула цIай туьхуьн тавурай" лагьай чIал тир. Лезги адетрив гекъигайла къулай цIай кими хьун хъсан кар туш. Гьавиляй къулак зул-зул кудай кIанчIар кутадай. КIан хьун кумазни адаз уф гана цIай хъийидай, кIарасри цIай кьурла кIанчI къерехдиз ялдай. КIанчIунихъ маса манаярни авай. Им "Вун фейи кIвалин кIанчI хьурай", яни гьана уьмуьр гьална кьуьзуь хьурай лагьай чIални тир. ГьакIни адахъ "Вуна фейи кIвале жуван къени къилихралди чим турай" хьтин мана авай. Халкьдин арада ихьтин гафар ава: "Зи кIанчI хьтин кьуьзуьбурун чан сагъ хьурай". "КIанчI авачир кIвал тахьурай" (Кьуьзуьбур авачир кIвал тахьурай.) "Захъ кIанчI хьтин диде-буба ава" (Захъ хъсан ери-бине ва архаяр ава). "КIанчI хьтин вун сагъ хьурай!" (Хъсан арха тир вун сагъ хьурай!).

hesab olunur. Ləzgilər üçün qartal həm də igidlik rəmzidir. Ağ qartala isə xalq arasında xüsusi münasibət var. Göydə ağ qartal görənin ən böyük muradı həyata keçir, deyirlər. Ləzgi rəqsləri növ müxtəlifliyi və elementlərinin zənginliyi ilə seçilir. Hər rəqs bir əsərdir, onun süjeti, proloqu, kulminasiya nöqtəsi, epiloqu olur. Solo ifalar, cütlük tərəfindən ifa olunanlar və kollektiv ifalar da xarakterikdir. Yalnız qadınlar və ya kişilər tərəfindən ifa olunan rəqslər, ayin rəqsləri, döyüş rəqsləri, lirik rəqslər də mövcuddur. Ən geniş yayılmış rəqslər isə cəld ritmlərlə müşayiət olunanlardır.

## GƏLİNİN BULAĞA APARILMASI

Urva kəndində ləzgilərin qədim adətlərinin izlərini özündə ehtiva edən bir xalq mərasimi bu günə kimi təntənə ilə qeyd olunur. Burada toydan bir-iki gün sonra gəlini təntənə ilə bulağa aparırlar. Bundan ötrü qohum-əqrəba, qızlar, gəlinlər hədiyyələrlə onun yanına gəlirlər. Burada onlar ev sahibləri ilə bir yerdə "Pirin payı" adı ilə xonça bəzəyirlər. Sonra həmin xonçanı götürüb, bir yerdə "Göl piri"nə yola düşürlər. Burada pirə çatacaq bəxşişləri paylayıb, ürəklərindəki mətləbləri və Allahdan diləklərini edib, səhənglərini su ilə doldurub geri qayıdırlar.

## KÖTÜK

Ləzgilərin xeyir-duaları arasında beləsi də var: "Səni görüm qocalasan!" Bəzi kəndlərdə "Səni görüm kötüyə dönəsən!" sözlərini də eşitmək olur. Mənası "Ömrün uzun olsun" deməkdir.

Son illərə kimi Qusarın kəndlərində belə bir adət var idi. Gəlin köçən qıza parçaya bükülmüş balaca kötük verərdilər. Bu, ən böyük alqış olub, mənası "Ocağında od sönməsin" demək idi. Ləzgi adətlərinə görə ocaqda bir dəfə qalanmış od heç vaxt sönməməlidir. Bunun üçün ocaqda aram-aram yanan kötük olmalıdır. Ocaq qalamaq lazım gələndə onu üfürmək kifayət edir. Odunlar od tutanda kötüyü bir kənara çəkirlər.

Kötüyün başqa mənaları da vardır. Bu, "evinin kötüyü olasan" demək idi. Yəni getdiyin evdə yaşa dolub, qocalasan. Onun başqa mənası getdiyin evdə mülayim mühit yaradasan deməkdir.

Xalq arasında belə deyimlər də var: "Kötük kimi qocalarımın canı sağ olsun". "Kötüksüz ev olmasın" (Qocasız ev olmasın). "Mənim kötük kimi atam-anam var" ( Mənim yaxşı kököm və arxam var). "Kötük kimi səni var olasan" (Yaxşı dayaq və arxa olan səni var olasan).

## МАНИЯР

***Гьар са халкьдин фольклордихъ вичин кьетІен лишанар, махсусвилер ава, абур дигай рангаралди тафаватлу я. Гьар са манида халкьдин тарих, адан чилерал кьиле фейи вакъиаяр, гзафни-гзаф аламатдин дуьшуьшар ава.***

Манийрай халкьдин ацукьун-къарагъун, адетар, къилихар, чІехи мурадар аквада. Халкьдин руьгь яшамишзавай манийра адан кьилел атай кьван мусибатар, ягъийри авур дуванар, тарихдин чара-чара вакъиаяр себеб яз гъурбатдиз акъатай инсанрин гъариб гьиссер, девирдикай шикаятар, кесибвал себеб яз акур дарвилер, девлетлу ксарин инсафсузвилер чІал ахъайна рахада. Дидедин михьи, къени ва къадим чІал халкьдин манийри хьиз са куьнини хвенвач.

КцІариз фольклордин музей лугьуз жеда. Ина гьар хуьруьхъ, гьар убадихъ вичиз хас манияр ава. Абуруз баядар, бендер, лирлияр, кьудар лугьуда. Адет яз гьар хуьруьхъ вичин чІалар туькІуьрдайбур жеда. И алакьун мел-мехъерриз, суварриз гурлудиз винел акъатда. Дегь чІаварилай халкьдин межлисрин кьиле хуралай баядар кІелдай инсанар жеда. Гаф чидайбурун гьуьжетунри межлисдал абур гъида. Абуру сивяй-сивиз чкІана, халкьдин арада машгъур хьанвай халкьдин манийрал чан хкида.

КцІара дегь чІаварилай яшайишдин ва муьгьуьббатдин манияр, адетрихъ галаз алакъалу манияр, ватандикай манияр, тарихдин вакъиайриз талукь манияр гегьенщдиз чкІанва. Зегьметдин манияр адет яз “Пешапай”, “Алапехъ” хьтин халкьдин мярекатра лугьудай. Пешапайдивай марф Алапехъдивай рагъ тІалабдайла, гьакІни пІинийриз цІвер ягъайла “ПІинийрин сувар” мярекат кьиле тухудайла, яни “Цуькверин сувар”, “Кьуьлерин сувар” хьтин мярекатра лугьудай.

Лирикадин кьуд цІарцІин манияр - бендер адет яз дишегьлийри теснифда ва лугьуда. Лирикадин са бязи манияр са шумуд касди санал, яни хордалди тамамарда.

Яшайишдихъ, хуьруьн майишатдихъ ва адетрихъ галаз алакъалу манийрай чаз халкьдин ацукьун-къарагъун, дердер-гъамар, залан зегьмет, адетар аквазва. Фольклордин хилерикай тир махар, кьисаяр, хкетар гегьенш чкІанвайтІани, абур манияр кьван сейли тушир.

Лезгийрин манийрин чІехи пай кІанивилиз, ашкъидиз, муьгьуьббатдиз талукьарнавайбур я. КІани-

## MANİLƏR

***Hər bir xalqın folkloru həmin xalqın yaradıcılığı olub, onun tarixini, mədəniyyətini, adət-ənənlərini, mənəviyyatını güzgü kimi əks etdirir. Ləzgi folklorunun zəngin janrlarından biri manilərdir.***

Xalis xalq dilini manilər kimi heç bir folklor nümunəsi qoruyub saxlamayıb. Heca vəznində yaradılmış dörd misradan ibarət olub, hər biri ayrı-ayrılıqda bitkin bir əsər olan manilər ləzgi dilində bir neçə cür adlanır: bayadar, bender, lirliyar, qudar və sair. Manilərdə xalqın ruhu yaşayır. Ləzgi maniləri ifadə etdikləri məna və mətləblərə görə aşağıdakı qollara ayrılır: qəhrəmanlıq tarixi, vətən sevgisi, zəhmətin tərənnümü, həyat və məhəbbət, mərasimlərlə bağlı yaranmış manilər və sair.

Qədim zamanlarda ləzgilər məişət işlərini asanlaşdırmaq üçün hərəkətləri ilə uzlaşan manilər ifa edərdilər. Yağış yağdırmaq üçün “Peşapay”, gün tələb edəndə isə “Alapex” adlı mərasim mahnıları oxuyardılar. Əmək bayramları zamanı, ələlxüsus “Karu”, “Piniyrin suvar”, “Tsükverin suvar” kimi bayramlarda xarakterik mahnı və rəqslər ifa olunardı.

Rəsul Həmzətovun sözləri ilə desək, dağlıların mahnıları rənglərlə deyil, qan ilə, göz yaşları ilə yazılıb. Xalq mahnıları həm ilk layladır, həm son ağı, həm ilk məhəbbətin etirafıdır, həm dünyadan şikayət, həm vüsaldır, həm ayrılıq, həm sevincdir, həm kədər.

Ləzgi manilərində xalqın işğalçılara qarşı mübarizəsi, yağıların xalqın başına gətirdiyi müsibətlər, müxtəlif tarixi hadisələr nəticəsində qürbət ellərə köçmüş insanların həzin hissləri, dövrandan şikayət, kasıblığın yaratdığı narahatlıqlar, dövlətlilərin insafsızlığı kimi mövzular əsas yer tutur.

Qusarı folklor muzeyi adlandırırlar. Burada hər kəndin, obanın özünəməxsus maniləri var. Adətən hər kənd öz söz ustadları ilə tanınır. Bu istedad toylarda, bayramlarda, el bayramlarında üzə çıxır.

Qədim zamanlardan xalq məclislərinin başında bədahətən söz deməyi bacaran insanlar olub. Söz sərraflarının deyişmələri məclisi yaraşığa gətirir. Onlar xalq arasında məşhur olan manilərə təzə təravət gətirir, öz əlavələrini edirlər. Qusarda qədim zamanlardan məişətlə, məhəbbətlə, adət-ənənələrlə, tarixi hadisələrlə bağlı, vətən sevgisi ilə bağlı manilər əsas yer tutur. Əmək maniləri adətən quraqlıq zamanı yağış yağdırmaq arzusu ilə həyata keçirilən “Peşapay” xalq mərasimində, yağıntının çox düşməsi nəticəsində əhaliyə

вилин ялав, сифте гуьруьшдин верцIивал, ашкъидин ширин азаб ва ихьтин маса гьиссер чи манийрин бинеда ва руьгьда ава.

Хуьрера яшамиш жезвай, цан цазвай, лапагар хуьзвай, векь язавай, кIвалер эцигзавай, сад садаз илифзавай инсанри яшайишдикай, рикIин мурадрикай, гъурбатриз акъатнавай хайибурукай, абурун хайи ватандик вил хьуникай, ярдин дидардикай манияр туькIуьрзавай.

Ихьтин манийра инсанрин хъверни хъел, шадвални хажалат, чаравални агатун ава. Чи манийрай яр фейи рекьер, кIанидан кIвал, рушари яд тухузвай булах, кIанибур гуьруьшмиш жезвай гатфарин багъ, чаравилин тIалар... аквазва.

### ГЬАВАЗИЯР

Чпир халкьдин яратмишунрал рикI алайбурун хуьр я. Иллаки зегьметдин манияр гзаф чида чпирвийриз. Виликан вахтара ина манийрин мярекатар кьиле фидай. НикIера, багълара, векье кIвалахзавай дишегьлияр сад садахъ галаз манийрин гъуьжетунриз экъечIдай. Чара-чара кIеретIриз пай хьана, кьакьан ван авайда кьилди, муькуьбуру хордалди манияр лугьудай. Ихьтин манийриз гьавазияр лугьудай абуру.

Ина кфил расиз тежедай устIарар бажагьат жагьидай. Мел-мехъерар лагьайтIа, ашукьар тир Къиримханни Бубахан галачиз кьиле фидачир. Адетдин вахтара тIимил рахадай и ксар манийрал илигайла билбилдиз элкъведай. Бубахана манийрин гафарни макьамар вичи теснифдай ва а манияр чуьнгуьрдал ягъиз лугьудай. Симин пагьливанрихъ галаз санал концертар гудайла ада зуьрне ядай.

### АЛХИШАР

Яшлу кцIарвияр алхиш галачиз рахадач. КIанивилин, муьгьуьббатдин, шадвилин гьиссеривди туькIуьрнавай и чIалар акьван верцIидаказ акъатда хьи, абурун сивяй! Чандин сагъвал, рикIин шадвал, кIвалахра агалкьунар тIалабда абуру мукьвакьилияр, ярар-дустар, кIанибур патал. Къени мурадар, бахтлувал, девлетлувал тIалабда гъуцаривай. Масадбуруз хъсанвилер тIалабайдаз Аллагьди галаз-галаз гуда лугьуда кцIарвийри. Гьавиляй захавилелди, рикIин сидкьидай лугьуда абуру:

*- Вун атуй, рагъ атуй! Ви эхир хъсан атуй!*

*- Ви бахтар къени хьурай!*

*- Гъуцари вун цIукайни вацIукай хуьрай!*

ziyan dəyəndə Günəşin çıxması arzusu ilə keçirilən “Alapex” mərasimində, o cümlədən ilk gilas yetişəndə qeyd olunan Gilas bayramında, alp çəmənlikləri gül açanda keçirilən Çiçək bayramında ifa olunur.

Manilər adətən qadınlar tərəfindən ifa olunur. Onların arasında bir neçə qadın tərəfindən və yaxud xorla ifa olunanlar da var. Əsasən kənd qadınları tərəfindən yaradılan manilər əkin, biçin işləri zamanı, iməciliklər vaxtında ifa olunurdu. Qazanc dalınca şəhərlərə getmiş, ağır işlərdə çalışan kişilər haqqında olan manilərdə ayrılıq həsrəti, qürbət ağrısı, məhəbbət hissləri üstünlük təşkil edir. Ümumiyyətlə, ləzgi maniləri dərin hisslərin poetik ifadəsi ilə yadda qalır. Onlara şadlıq və peşmanlıq, ayrılıq və vüsal xasdır.

### HAVAZİLƏR

Cibir xalq yaradıcılığı ilə zəngin kənddir. Burada zəhmət mahnılarını çox sevirlər. Əvvəllər burada mahnı mərasimləri dəbdə idi. Zəmilərdə, bağlarda, ot sahələrində çalışan qadınlar ayrı-ayrı dəstələrə bölünərək, mahnı yarışına qoşulardı. Hər dəstənin başında zil və məlahətli səsi olan bir qadın dayanardı. Qalanlar xorla onu müşayiət edərdi. Belə mahnılar havazi adlanırdı.

Bu kənddə böyükdən kiçiyə kimi hamı tütək düzəldərdi. Toy-bayramlar aşıqlardan Qirimxan və Bubaxansız keçməzdi. Adi vaxtlarda az danışan bu iki adam mahnı oxumağa başlayanda bülbülə dönərdi. Bubaxan bütün mahnılarını özü qoşar, sazda çalıb oxuyardı. Kəndirbazların çıxışları zamanı isə o, pəhləvanları zurnada müşayiət edərdi.

### ALQIŞLAR

Yaşlı qusarlılar alqışsız danışmazlar. Məhəbbət, istək, sevinc, qürur hissləri ilə yaranmış alqışlar onların dilində elə gözəl səslənir ki! İnsanlar doğmalarına, yar-dostlarına cansağlığı, ürək xoşluğu, işdə müvəffəqiyyətlər arzulayırlar. Bir-birlərinə arzularına yetişməyi, bolluq, bərəkət, sakitlik, sülh diləyirlər. Allahdan xoşbəxtlik, əmin-amanlıq, var-dövlət arzulayırlar. Qusarlılar deyirlər ki, başqalarına yaxşılıq arzulayanlara Allah bol-bol yaxşılıq nəsib edir. Ona görə də onlar səxavətlə, ürək dolusu alqış edirlər:

*- Gəlişinlə Günəş doğsun! Sonun yaxşı gəlsin!*

*- Bəxtin gözəl olsun!*

*- Ğutslar səni oddan və sudan qorusun!*

*- Ğutslar səni ürəyindəki arzulara qovuşdursun!*

*- Гъуцари вун рикIевай мурадрив агакьаррай!*
*- Вун Аллагьдин регьимдик хьурай!*
*- Вун Аллагьди хуьрай!*
*- Вун элдиз кIаниди хьуй!*
*- Ви мурадри цуьк акъудрай!*
*- Ваз цавай марф, чиляй чIаф хьиз гурай!*
*- Ви гелери цуьк акъудрай!*
*- Ви чирагъ садрани туьхуьн тавурай!*
*- Вун хъсан инсанрал дуьшуьш хьурай!*
*- Ви кIвачик берекат хьурай!*
*- Ви текнеда гьамиша фу хьурай!*
*- Ви къулай цIай кими тахьурай!*
*- Ви багъди бегьер гурай!*
*- Ви тавунда гьамиша гум хьурай!*
*- Ваз ирид хвани са руш хьурай!*
*- Ви ракIар бахтуни гатурай!*
*- Вун Алпандин лувак хьурай!*
*- Ви кIвачик девлетар хьурай!*
*- Ваз гъурбатар къалур тавурай!*
*- Вун къекъвей рекьериз кьирай!*
*- Ви чIал квахь тавурай!*
*- Ви ракIарар хъсан инсанри гатурай!*
*- Вун бахт авайбурун жергеда хьурай!*
*- Вахъ ирид арха хьурай!*

## СЕПЕРАР

КцIарви дишегьлийриз чида кьван сеперар вуч я! Гьар хуьруьхъ вичиз хас сеперар ава. Абур туькIуьрдай викIегь, мез хци дишегьлияр гьар хуьре дуьшуьш жеда вал. Халкьдин манияр туькIуьрдайвал, сересдаказ, хцIивилелди арадиз гъида абур. Гьар сеперда са образ ава. Абурай халкьдин адетар, чIалан иервал, къадимвал, гафарин векъивал, тешпигьрин маналувал, гекъигунрин сересвал акван тийин мумкин туш. Гьахъсузвилел дуьшуьш хьайила, нагьахъ карди ифин гайила дишегьлийри чпин хъел сеперралди иливарда.

КцIарвийрин виридалайни векъи сеперар гъуцарихъ галаз алакъалу я. Гъуцар лезгияр патал кьилин гьаким я. Алхишдайлани, каргъишдайлани лезгийриз Гъуцаривай куьмек кIан жеда.

*- Гъуцари ви ял атIурай!*
*- Ваз Гъуцари лянет авурай!*
*- Ваз Гъуцари инадрай!*
*- Вун Гъуцари негьрай!*
*- Гъуцарикай пай атIайди!*
*- Гъуцари ваз гайиди къахчурай!*

Цавухъ, ракъинихъ, вацрахъ, гъетерихъ галаз алакъалу сеперарни ава кцIарвийрихъ:

*- Allah səni rəhmi altında saxlasın!*
*- Səni Allah qorusun!*
*- Elin istəklisi olasan!*
*- Arzuların çiçək açsın!*
*- Allah sənə göydən yağış, yerdən ot qədər versin!*
*- İzlərin çiçək açsın!*
*- Çırağın heç zaman sönməsin!*
*- Yaxşı insanlara rast gələsən!*
*- Qədəminlə bərəkət gəlsin!*
*- Təknəndə həmişə çörək olsun!*
*- Ocağından od əskik olmasın!*
*- Bağın bəhər versin!*
*- Bacandan tüstü əskik olmasın!*
*- Allah sənə yeddi oğul, bir qız yetirsin!*
*- Qapını xoşbəxtlik döysün!*
*- Alpanın qanadı altında olasan!*
*- Qədəminlə var-dövlət gətirəsən!*
*- Qürbət görməyəsən!*
*- Getdiyin yollara qurban!*
*- Dilini itirməyəsən!*
